**Saniyə Əmiraslan**
***Məşhədi Zeynalabdin***
**Əmiraslan Göyçəli**
**Ağca Xıdırqızı**

# ŞAİRLƏR YURDU - AŞIQLAR DİYARI

Çuxuryurd (Çuxursədd) - Göyçə - Basarkeçər

**"Elm və təhsil"**
**Bakı – 2022**

**Toplayıb yazıya alan,**
**işləyən və tərtib edənlər: Saniyə Əmiraslan qızı Cəfərli**
**Məşhədi Zeynalabdin Mahmud oğlu Cəfərli**
**Əmiraslan Zeynalabdin oğlu Cəfərli**
**Ağca Xıdır qızı Cəfərli**
**Rəyçi:** **Mahmud Allahmanlı**
*ADPU Ədəbiyyat kafedrasının professoru, filologiya elmləri doktoru, folklorşünas*
**Korrektor:** **Şamil Tahirli**

**Kitabı ərsəyə gətirən - xeyriyyəçilər:** **Ağca Xıdır qızı Cəfərli**
**Mehman Əmiraslan oğlu Cəfərli**

**Kiril əlifbasından latın əlifbasına çevirib yazan və kompüterdə işləyən: Xumar Şiraslan qızı Cəfərli**
*ADPU-nun tələbəsi*

**Saniyə Əmiraslan,** ***Məşhədi Zeynalabdin*****,**
**Əmiraslan Göyçəli, Ağca Xıdırqızı**
**Şairlər yurdu -aşıqlar diyarı**
Çuxuryurd - Göyçə - Basarkeçər.
**Bakı, "Elm və təhsil", 2022, 595səh.**

4702000000 qrifli nəşr
N-98-2022

**© "Elm və təhsil" 2022**

## ÖN SÖZ

Folklor xalqımızın tükənməz mənəvi sərvətidir. Maksim Qorki xalq yaradıcılığının xüsusiyyətlərindən bəhs edərək deyirdi: "Şifahi xalq yaradıcılığını öyrənmədən əməkçi xalqın əsl tarixini öyrənmək olmaz. Təkrar edirəm, söz sənətinin ibtidası xalq ədəbiyyatındadır. Folklorumuzu toplayın, ondan öyrənin, üzərində işləyin; o sizə də, bizə də, ittifaqın şair və nasirlərinə də olduqca çox material verir".[1]

Bizə elə gəlir ki, "Kitabi Dədə Qorqud" dastanında bu axar-baxarlı oba-oymağın adı təsadüfi çəkilmir. Göyçənin – Göyçə gölünün, dənizinin poetik dünyası Qorqud Ozanın qopuzunda təsadüfən dilə gəlməmişdir. Elə bilirik ki, Göyçə aşıq məktəbini Qorqud ənənələrində axtarmaq yerinə düşər. Elə Şərur – Şərük kimi qədim oba-oymağımızın da aşıq məktəbi ənənələrinin qidasını Qorqud Dədə ədəbi üslubunda axtarmaq tədqiqatçılarımızı düşündürməlidir. Bu mənada Ağ Aşıq kimi ustadın sənətkarlıq bünövrəsini üzü Dədə Qorquddan bəri axtarmaq yerinə düşərdi. Çünki Ağ Aşıq dövründə artıq Göyçə məclisləri öz sazı-sözü ilə çox şöhrət tapmışdı. Ağ Aşıq bir qədər sonra görəcəyimiz kimi öz dövrünün çox kamil və yetkin sənətkarıdır.

Göründüyü kimi, Ağ Aşıq öz dövrünün bitkin tanınmış sənətkarıdır. Göyçə aşıq ədəbi mühitini Ağ Aşıqla məhdudlaşdırmaq elmi axtarış baxımından tam inandırı-

---

[1] **Maksim Qorki.** *Şura ədəbiyyatının vəzifələri. Bakı, Azərnəşr, 1935, s. 91.*

cı deyil. Bizim qənaətimiz bir daha bu sazlı-sözlü dünyanı – Göyçənin aşıq məkanı olmasını Qorqud dədənin ənənələrindən bəhrələnib gəlməsi üzərində axtarmaq lazımdır. Biz Ağ Aşığa gəlincə, bu fikir dəyişir, o, Qorqud Dədənin uzaqlığı ilə yetişdirdiyi istedadlı kötücəsi və ya iticəsidir.

Əsrlər boyu xalq incilərində yaşamış şifahi el ədəbiyyatını toplayıb nəşr etmək hazırda aktual və mühüm problemlərdəndir. Sovet hakimiyyəti illərində xalq ədəbiyyatımızın toplanması, nəşri, öyrənilməsi dövlət əhəmiyyətinə çevrilmişdir. Kommunist partiyası və sovet dövləti xalqın əsrlər boyu yaratdığı, şifahi dildə gətirdiyi sərvətə xüsusi qayğı ilə yanaşır. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk günlərindən başlamış görkəmli partiya, dövlət və mədəniyyət xadimlərimiz folklorun toplanmasına xüsusi qayğı göstərmişdir. Azərbaycan Respublikası müstəqilliyini tanıdıqdan sonra – 1992-ci ildən indiyə kimi folklorumuzun toplanmasında hökumətimiz də böyük işlər görmüşdür.

Dövrünün kamil sənətkarları olan Miskin Abdal, Ağ Aşıq, şair Məmmədhüsöyn (Məmmədhüseyn), Aşıq Alı və s. Azərbaycan aşıq sənətinin qüdrətli simalarındandır. Onlar el arasında həm söz ustadı, həm mahir ifaçı, həm də şair-ustad kimi tanınmışdır; bu görkəmli aşıqlarımızın zəngin irsinin təəssüf ki, az hissəsi bizə məlumdur. Onlar Azərbaycan folklorunu şeir növləri, gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, qıfılbənd və s. ilə xeyli zənginləşdirmişlər. Lakin bunlar vaxtında çap olunmadığına görə itib-batmış, yazıya alınanların da çoxu naqisdir. Bu şeirlərdə qüsurlu cəhətlər çoxdur.

Başda Miskin Abdal olmaqla şair Məmmədhüsöyn, Ağ Aşıq kimi ustadlarımız, XIX əsrin görkəmli saz-söz ustadı, Aşıq Ələsgərin müəllimi, 15-20 şəyirdi olan Aşıq Alı haqqında bu vaxta qədər həqiqi elmi axtarışlar aparılmamış, onun yaradıcılığı, söz inciləri indiyə qədər lazımınca toplanmamışdır. 1930-cu ildə nəşr olunmuş "Aşıqlar" kitabında məşhur folklorşünas H.Əlizadə yazırdı ki, Aşıq Alı öz dövründə tanınan aşıq olmuş, ancaq onun az şeiri qalmışdır. Hətta 1937-ci ildə buraxılmış "Aşıqlar" kitabına ulu aşığın adı daxil edilməmişdir.

Azərbaycan KP MK-nın qərarı ilə böyük saz-söz ustadı Aşıq Alının 1981-ci ildə 180 illiyinin bayram edilməsi ulu nəğməkarımızın mənəvi ölümsüzlüyünü təsdiq etmişdir.

Aşıq Alının qüdrətli bir sənətkar olduğunu yəqin etdiyinə görə H.Arif xeyirxah bir addım atdı. "Mən Alını axtarıram" məqaləsindən sonra çoxlu oxucu məktubları aldı. Gədəbəy rayonunun Arıqıran kəndində yaşayan Ələsgərov Qaytarandan da məktub alıb. 59 şeirdən ibarət olan kitab 1974-cü ildə çapdan çıxıb.[1]

Mən Bakıda Pedaqoji İnstitutun 4-cü kursunda oxuyurdum. Aşıqlar Birliyinin sədri H.Arifin yanında ştatdankənar metodist işləyirdim. H.Arif mənə – Ay Göyçəli balası, Aşıq Alının şeirlərinin toplanmasında mənə kömək et, – dedi. Mən 1984-cü ildə Göyçəyə ezam olundum. Göyçədə ağsaqqallarla, Şəfəq kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi atam Zeynalabdinlə söhbət etdim. Atam Aşıq Alının qorçusu Kərəm dayısından Aşıq Alı haqqında 1965-ci ildə qələmə aldığı boğçasını açdı.

[1] ***Aşıq Alının şeirləri.*** *"Qızıl şəfəq", Bakı, 1974*

15-20 şeir yazıb mənə verdi. Mən isə bu şeirləri H.Arifə təqdim etdim. Sonra isə bu şeirləri H.Arif 1984-cü ildə Azərbaycan və rus dilində çap etdirdi.[1]

Xalq şairi H.Arif tərəfindən Aşıq Alının 20-dən çox gəraylısı, 100-dən çox qoşması, 20-dən çox ustadnaməsi, 100-dən çox təcnisi, ilk dəfə 10 cığalı təcnisi və dörd divanisi çap olunmuşdur. Aşıq Alının 180 illik yubileyindən sonra onun "Aşıq Alı və Bəsti" və "Aşıq Alının Türkiyə səfəri" dastanları əldə edilib çap olundu.

Aşıq Alının həyat və yaradıcılığını diqqətlə, hərtərəfli öyrənmək, XVIII-XIX əsr Azərbaycan aşıq ədəbiyyatının öyrənilməsində, xüsusən Ələsgər irsinin tədqiqində zəruridir. Babalarımızı bir-birilə bağlı, əlaqəli şəkildə arayıb-axtarmalıyıq.

Aşıq Ələsgərin irsini qohum-əqrəbası: oğlu Talıb, nəvəsi – filologiya elmlər namizədi İslam Ələsgərov vaxtında toplayıb çap etdirdiyindən Aşıq Ələsgər məşhurlaşıb Dədə sənətkar olmuşdur. Miskin Abdal, Ağ Aşıq, şair Məmmədhüsöyn, Aşıq Alı və s. irsi vaxtında toplanmadığından itib-batmışdır. Ola bilsin ki, Aşıq Alının irsi toplananda – bilməzlikdən qocaların dediyinə görə, bu şeiri də Aşıq Ələsgər deyib. Bu da Aşıq Ələsgərin adına çap edilib.

Necə ola bilər ki, Ələsgərin ustadı Aşıq Alı – şagirdindən aciz olsun və məşhurlaşmasın? Gələcəkdə el şairləri, folklorşünaslar və bu işin biliciləri onları analiz-sintez edib araşdırıb tapmalıdırlar. Bu, xalqımızın xeyrinə olardı.

---

[1] ***Aşıq Alının şeirləri,*** *"Yazıçı", Bakı, 1984.*

İki nəhəng sənətkarın – Aşıq Alının, Dədə Ələsgərin adı Ağ Aşıqla bağlıdır. Bu ölməz sənətkarların – ustad-şəyirdlərin hər biri 100 ildən çox ömür sürmüşdür. Lakin onlar həmişə öz doğma yurduna – kəndinə möhkəm bağlı olduqlarını xatırlamışlar:

**Ağ Aşıqda**
*Eləmi, Göyçəyə mən,*
*Gözələ, göyçəyə mən.*
*Qürbətdə həsrət qaldım,*
*Vətənim Göyçəyə mən.*

*Əzizim, Göyçəyə gəl,*
*Gülə gəl, çiçəyə gəl.*
*Ağ Aşıqtək vəfalı,*
*Bir qəlbi göyçəyə gəl.*

*... Allahverdi, neylər dünya malını,*
*Məst eylər Göyçəni, öz mahalını.*
*Yaxın dostlar Ağ Aşığın halını,*
*Sormaq üçün Kərkibaşa gəlibdi.*

**Aşıq Alıda**
*Nə qədər gəzsəm də Turan elini;*
*Öz doğma ovlağım yadıma düşdü.*

*... Göyçə mahalımdı, Alıdır adım,*
*Ümidim, pənahım, mənim imdadım.*
*... Mahalım Göyçədi, kəndim Qızılvəng,*
*Aşıq Alı mahallarda bir gərək.*

**Aşıq Ələsgərdə**
*Adım Ələsgərdi, əslim Göyçəli,*
*Ələt aləmində demişəm, bəli!*

*... Siyah zülfün dal gərdəndə hörəsən,*
*Əl uzadıb qönçə gülün dərəsən,*
*İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı mahalım mənim!*

Ustad – dövrünün kamil sənətkarı olan Ağ Aşıq Azərbaycan aşıq sənətinin qüdrətli simalarındandır. El arasında həm söz ustadı, həm mahir ifaçı, həm də şair-ustad kimi tanınmış bu görkəmli aşığın zəngin irsinin təəssüf ki, az işi bizə məlumdur. Biz axtarışlar aparıb, Ağ Aşığın qohumları, Göyçə ağsaqqalları ilə söhbət etmişik. Onun özünün qəbri və nəsli haqqında məlumatlar və eyni zamanda Ağ Aşığın şəklini də əldə edə bilmişik.

Mərhum 100 yaşlı Kərəm baba deyirdi ki, mən Ağ Aşığın nəvəsi Allahverdi ilə dost və qardaş kimi olmuşam. Həm də Ağ Aşığın şəyirdi Alının qorçusu idim. Elə o vaxtlar Allahverdi öz babası haqqında olan məlumatları mənə nağıl edərdi. Mən isə Ağ Aşıq haqqında olan məlumatları sinədəftər bilərdim. Bunların çoxunu isə Aşıq Alıdan öyrənmişdim.

Kərəm baba Zeynalabdin müəllimin dayısı idi. Kərəm baba bacıoğluna bu şeirləri tez-tez diktə edərdi və sazda oxuyardı. Onu əsl sərraf malı edərdi. Zeynalabdin müəllim isə bunların hamısını yazıya alardı. Biz onların köməyi ilə apardığımız tədqiqatlar və araşdırmalar zamanı Ağ Aşığın heç kimə məlum olmayan tərcümeyi-halı

haqqında yeni faktlar və əsərlərini əldə edə bilmişik. Biz burada “Giriş”, “Göyçə sənətkarlar yurdudur”, “Ustad-şəyird ənənələri”, “Ağ Aşıq”, “Ağ Aşığın lirikası”, “Ağ Aşığın erməni aşıqları ilə əlaqəsi və deyişmələri”, “Ağ Aşıq haqqında rəvayətlər”, “Miskin Abdal haqqında rəvayətlər”, “Göyçə şairlərinin yeni tapılmış şeirləri” və s. bəhsləri nəzərdən keçirmişik. Bu bəhslərin çoxunda elmə məlum olmayan materiallar, Ağ Aşığın “Ağ Aşıq və Süsənbər” dastanını əldə edə bilmişik.

Bu sənətkarların nəşr edilmiş və toplanmış şeirləri onların yaradıcılığının kiçik bir hissəsini təşkil edir. Əvvəllər bu sənətkarların adları aşıq yaradıcılığında və ədəbiyyatda az-az çəkilib.

Aşıq Əliqulu Göyçə mahalında aşıqların şahı, sərkərdəsi olub. Təəssüf ki, onun əlyazmaları vaxtında araşdırılmadığı üçün itib getmişdir. Belə bir məşhur aşıq haqqında mətbuatda heç nə yoxdur. Aşıq Əliqulu haqqında bu vaxta qədər həqiqi elmi axtarış aparılmayıb. Aşıq Əliqulu haqqında araşdırma apardıq. İki divanisini əldə edə bilmişik. Gələcəkdə bu aşıq haqqında elmi-tədqiqat işi aparmaq fikrindəyik.

Bu sənətkarların da irsinin dədə sənətkarlar kimi öyrənilməyi və toplanmış şeirlərinin ayrıca bir kitabça şəklində nəşr edilməyi xeyirxah bir iş olardı. Onda gələcək nəsillər də onları Dədə bir sənətkar kimi tanıyardılar.

Şübhəsiz ki, bəzi şeir nümunələrinin sayını artırmaq, müqayisə aparmaq mümkündür. Amma buradan elə fikirlər yaranmasın ki, biz Miskin Abdalın, şair Məmmədhüsöynün, Ağ Aşığın, Aşıq Alının, Daşkəndli Aşıq Nəcəfin çap olunmamış şeirlərinə daha çox üstünlük veririk. Onu

demək istəyirik ki, bu aşıqların və eləcə də başqa klassik aşıqlarımızın şeirləri nəşr olunanda əməlli-başlı götür-qoy edilsin. Mütəxəssislərlə, əlaqədar şəxslərlə fikir mübadiləsi aparılsın. Bu, yalnız ümumi işimizin xeyrinə olar.

Biz Daşkəndli Aşıq Nəcəf (Ələsgərin şəyirdi) haqqında bəzi məlumatlar əldə edə bilmişik. Onun bir neçə şeirini və erməni vandallarının Aşıq Nəcəfi necə öldürməsini nəzərdən keçirmişik. Həm də Aşıq Nəcəf haqqında rəvayətlər əldə edə bilmişik.

Ağ Aşığın erməni aşıqları ilə, gürcü və rus şairləri ilə dostluğunu və aşıqlarla deyişməsini üzə çıxarmışıq. Məsələn, Dəmirçioğlu öz şeirində Ağ Aşığa müraciətlə "Ay Bədroğlu" şeirini yazmışdır. Ağ Aşıq üç Keşişoğlu və Aşıq Duraxanla deyişmişdir. Biz axtarışlar zamanı Ağ Aşığın iki Keşişoğlu ilə deyişməsini əldə edə bilmişik. Ağ Aşığın "şairin diki" adlanan yerdə ustad-şəyird ənənələrini, Tiflis səfərini, Ağ Aşıq haqqında rəvayətləri, nəsli haqqında bəzi məlumatları və yeni tapılmış təzə şeirlərini əldə etmişik. Ağ Aşığın şeirlərinin çoxu Göyçə ağsaqqallarının sinə dəftərindədir. Biz onlardan Ağ Aşığın yeni şeirlərini və bəzi epizodlarını yazıya aldıq. Bunları yeri gəldikcə verməyi məqsədə uyğun bildik.

Məşhədi Zeynalabdin Mahmud oğlunun 2003-cü ildə çap olunmuş "Xatirələrim" kitabında Miskin Abdalın, Ağ Aşığın, Məmmədhüsöynün yeni şeirləri çap edilmişdir. Biz yenidən bu şeirləri verməyi qərara aldıq.

***Mahmud Allahmanlı,***
*ADPU Ədəbiyyat kafedrasının*
*professoru, filologiya elmləri doktoru,*
*folklorşünas.*

## NƏTİCƏ

Göyçə sənətkarlarının bilicisi, folklorşünas, el şairi, əməkdar müəllim, Böyük Vətən müharibəsinin iştirakçısı, qocaman ziyalı, böyük cəfakeş insan mərhum Məşhədi Zeynalabdin Mahmudoğlu – babam haqqında söhbət açmaq istərdim.

Göyçə el sənətkarı, Aşıq Alının ustadı Ağ Aşığı ilk dəfə qələmə alan, onu işıq üzünə çıxaran və axtarışlar aparıb qəbrini tapan Göyçə mahalının Kərkibaş (Şəfəq) kənd orta məktəbinin dil və ədəbiyyat müəllimi Zeynalabdin babam olmuşdur. Zeynalabdin babam həm də folklorun dərin bilicisi idi. O, Ağ Aşığın həyat və fəaliyyətini, şeirlərini, "Ağ Aşıq və Süsənbər" dastanını, Miskin Abdalın, Şair Məmmədhüseynin şeirlərini Göyçə ağsaqqallarından – 150 yaşlı Əşrəf babadan, xüsusilə, Aşıq Alının qorçusu 110 yaşlı Kərəm dayısından 1956-1972-ci illərdə qələmə almışdır[1].

**"Ağ Aşıq və Süsənbər"** dastanının ərsəyə gətirilməsində söyləyənləri aşağıdakı xeyirxah insanların köməyi olub:

1) Kərkibaşlı Aşıq Alının qorçusu 110 yaşlı Kərəm baba;

2) El şairi Zeynalabdin Mahmudoğlu;

3) Kərkibaş kəndinin ağsaqqalı, Aşıq Alının qohumu, 90  yaşlı Səfər baba

4) Babacanlı Aşıq Qədir Zal oğlu;

---

[1] *Zeynalabdin müəllim (1956-1972-ci illərdə) qələmə almışdır. Folklorşünas Mürsəl müəllim 1982-ci ildə bu əlyazmaları aparıb yazmışdır.*

5) Ağ Aşığın kötücəsi Əziz müəllim;

6) Babacanlı Aşıq Şükür Süleyman oğlu;

7) Ağ Aşığın nəticəsi Salatın nənə;

8) Ağ Aşığın nəticəsi Telişin həyat yoldaşı, el şairi Məhərrəm.

Məşhədi Zeynalabdinin "Xatirələrim" (2003), qardaşı, texniki elmlər doktoru, professor, Elbrus Mahmudoğlunun **"Xəbər çata Ağrı dağa"** (1995), Məşhədi Zeynalabdinin oğlu – Safalan Cəfərovun **"Göylərdə keçən ömür"** (2008) kitablarında Göyçə şairləri və Göyçə haqqında geniş yer verilmişdir.

"Xəbər çata Ağrı dağa" kitabında bu fikri təsdiqləyən "Söylə yadındamı" şeiri var:

*Kərəm dayı, Şıx Alının qorçusu,*
*Qaraş kişi... Kərkibaşın ulusu...*
*Neçə pirlər, haqq yolunun yolçusu*
*Belə yadındamı, Göyçədə ellər!*

Babamın topladığı Ağ Aşığın şeirlərinin çoxu "Bulaq" verilişində – radio dinləyiciləri tərəfindən çox böyük maraqla dinlənilmişdir. Babam Ağ Aşığın şeirlərinin çoxunu "Ədəbiyyat və incəsənət", "Sovet Ermənistanı" qəzetlərində çap etdirmişdir.

Zeynalabdin babam Ağ Aşığın tarixçəsini bizə belə söhbət edirdi ki, mən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat fakültəsinin II

kursunda oxuyurdum. 1959-cu il idi. Yay tətilindən sonra Göyçədən Bakıya yola düşdüm. Yuxusuz idim, yorulmuşdum. Dərsdə məni yuxu tutub yatdım. Bizə elmlər doktoru, professor Fərhad Fərhadov dərs deyirdi. Elmlər doktoru, professor, folklorşünas Paşa Əfəndiyev birdən auditoriyaya daxil olur. Görür mən yatmışam. “Ay Zeynalabdin, niyə yatırsan? Yay yuxusuna gedibsən?” Mən səsə oyandım. Paşa müəllim dedi ki, “Zeynalabdin, Göyçədə Ağ Aşıq olub, oyan, onun folkloru ilə məşğul ol. Gör, o sənə nələr deyəcək və nələr verəcəkdir?” Elə bil qəflət yuxusundan oyandım. Semestr imtahanlarını verib, Göyçəyə qayıtdım.

Ağ Aşıq haqqında Kərəm dayımdan soruşdum. O, sinədəftər kimi Ağ Aşığın şeirlərini dedi, həyat və yaradıcılığı haqqında mənə söhbət etdi. Dedi ki, “mən Alının qorçusu olmuşam. Ağ Aşıq Alının ustadı olub. Kərkibaş kəndində yaşayıb”. Mən 1959-cu ildən 2003-cü ilə kimi - Ağ Aşığın folklorunu toplamaqla məşğul oldum.

1982-ci ildə atam Əmiraslan Cəfərov ADPİ-nin Riyaziyyat fakültəsinin II kursunda oxuyurdu. Həm də institutda çıxan “Gənc müəllim” qəzetində xüsusi müxbir, həm də Aşıqlar Birliyində ştatdankənar metodist işləyir, folklor elmi ilə məşğul olurdu. Atam “Ağ Aşıq – şair Allahverdi” haqqında babamın yazdığı əlyazmaları – iki 15 vərəqlik dəftər həcmində Aşıqlar Birliyinin sədri Hüseyn Arifə və folklorşünas Mürsəl Həkimova təqdim edir.

1982-ci ilin iyun ayında Hüseyn Arif, İntiqam Mehtiyev, Mürsəl Həkimov, Aşıq İsfəndiyar və atam Kərkibaş kəndinə gedirlər. Zeynalabdin müəllimlə görüşürlər. Göyçə ağsaqqalları və Ağ Aşığın qohumları ilə

söhbət edirlər. Ağ Aşığın, Alının, Ələsgərin qəbirlərini ziyarət edirlər. Bunları təsdiqləyən şəkillər də var. Sonra İntiqam müəllim Ağ Aşıq haqqında reportaj hazırladı. Babamın bu əlyazmasını M.Həkimov "Ustad aşıqlar" kitabında 1983-cü ildə çap etdirdi. Təəssüf ki, bu kitabı M.Həkimov öz adına çıxdı, babamın adını yazmadı. 40 İildən sonra bu həqiqət üzə çıxdı. Ağ Aşığın ilk tədqiqatçısı Zeynalabdin babam olduğu təsdiq edildi

Bu hadisə Zeynalabdin babamı və atamı çox təəccübləndirir. Əzab-əziyyət çək, 30 ilə yaxın Ağ Aşıq haqqında materialları topla, onu da hansısa folklorşünas öz adına çap etsin. Bu işin üstü bir gün gələcək ki, açılacaq. Zeynalabdin babam "Ağ Aşıq və Süsənbər" dastanının çoxunu Kərəm dayısından, Babacanlı Aşıq Qədir Zal oğlundan və Babacanlı Aşıq Şükür Süleyman oğlundan qələmə almışdır. Kərəm baba 1972-ci ildə dünyasını dəyişib. Mürsəl müəllim bunların heç birini nə görüb, nə də söhbət edib. Mürsəl müəllim 1982-ci ildə Kərkibaş kəndində, Zeynalabdin babamgildə olub. Zeynalabdin babamla söhbət edib. Babamdan Ağ Aşıq haqqında yazdığı əlyazmaları alır, bir gün sonra isə Bakıya yola düşür. Zeynalabdin babam isə bunları mənə 2003-cü ildə 3-cü sinifdə oxuyarkən danışdı. Sonra isə Zeynalabdin babam bu kitabın çap olunması ilə əlaqədar H.Arifə müraciət edir. O isə deyib ki, "Zeynalabdin müəllim – Göyçənin ağsaqqalı, sənə yaraşmaz şikayət etmək. Bir işdi, oldu, keçdi. Onsuz da onların peşəsi ondan-bundan oğurlayıb öz adına kitab çıxartmaqdır". Bundan sonra Zeynalabdin babam Hüseyn Ariflə sağollaşır, Bakıdan Göyçəyə yola düşür.

Atam Əmiraslan müəllimin deməsinə görə, 1982-ci ildə ADPİ-nin Ədəbiyyat fakültəsinin dekanı Bilal Muradova Ağ Aşıq haqqında atam Zeynalabdinin səsi ilə yazılmış iki kaseti təqdim edib. Bilal müəllim həm də "Bulaq"da – radioda müxbir işləyirdi. Bilal müəllim həmin şeirləri "Bulaq"da səsləndirir. Ağ Aşığın şeirləri radio dinləyiciləri tərəfindən böyük maraqla dinlənilmişdir.

Babam Aşıqlar Birliyinin üzvü kimi 1984-cü ildə Azərbaycan aşıqlarının IV qurultayına nümayəndə idi. O, qurultayda Ağ Aşıq haqqında çıxış edir.

Atamın 1984-cü ildə IV kursda oxuyarkən "Ağ Aşığın lirikası" mövzusunda yazdığı elmi-tədqiqat işi Aşıqlar Birliyinin sədri Hüseyn Arif tərəfindən yüksək qiymətləndirilir. Elmi rəhbəri Hüseyn Arif yazdığı rəydə deyir:

*"Cəfərov Əmiraslanın "Ağ Aşığın lirikası"ndan yazdığı elmi iş məni təmin edir. Əvvəla, bu vaxta qədər az öyrənilən görkəmli bu saz-söz ustadı haqqında belə maraqlı araşdırmalar folklorşünaslıq elmimiz üçün müsbət haldır. İkinci, müəllif Ağ Aşığın bu vaxta qədər çap olunmayan gəraylı, qoşma, təcnis və s. aşıq formasında yazdığı parçaları ilk dəfə aşıq şeirini sevənlərə çatdırır.*

*Əlbəttə, bəzi əsərlərdə müəyyən təhriflərə də rast gəlmək mümkündür. Bu, təbii haldır. Şübhəsiz ki, gələcək araşdırmalarda bu qüsurlar müəyyən dərəcədə düzəldiləcəkdir".*

***Hüseyn Arif, 20 dekabr 1984-cü il.***

Atam "Ağ Aşığın lirikası" mövzusunda yazdığı elmi-tədqiqat işi haqqında ADPİ-nin elmi konfransında çıxış edir. I dərəcəli diplomla təltif olunur.

Atam 1985-ci ildə ali məktəbi bitirdikdən sonra Ağ Aşıq haqqında elmi iş götürür. Hüseyn Ariflə birlikdə bu elmi işi işləyirlər. Lakin atam ixtisasca riyaziyyatçı olduğundan Elmlər Akademiyası Ağ Aşıq haqqında bu elmi işi müdafiə etməyə icazə vermir. Ona görə ki, ədəbiyyatçı olmadığına görə ixtisası uyğun gəlmir. Atamın elmi işi yarımçıq qalır. Babamın da, atamın da arzuları ürəklərində qalır. Babam vəfat etdikdən sonra atamla birlikdə bu işi geniş şəkildə işləyib yazdıq. Sonra isə kitab şəklində çap etməyi qərara aldıq.

2003-cü ildə babam Məşhədi Zeynalabdinin – "Xatirələrim" kitabı çapdan çıxdı. Babam bu kitabda el sənətkarları – Miskin Abdal, Ağ Aşıq, Məmmədhüsöynə geniş yer vermişdir. Onların həmin vaxta qədər çap olunmamış şeirlərini vermişdir.

Atam 1975-ci ildən (9-cu sinifdə oxuyandan) bəri Zeynalabdin babamla birlikdə Ağ Aşığın tədqiqatı ilə məşğul olurmuş. Babam deyərmiş, atam yazarmış. Atam ali məktəbdə oxuyarkən də Ağ Aşığın tədqiqatı ilə geniş məşğul olmuş, Zeynalabdin babamdan, Hüseyn Arifdən dərs almışdır. Axundov kitabxanasında Ağ Aşığın tədqiqatı ilə məşğul olmuşdur. "Keşişoğlu" dastanını araşdırmış, Ağ Aşıq haqqında bir neçə şeir, deyişmələr tapmışdır. Atam da bir neçə dəfə radio və televiziya verilişlərində Ağ Aşıq haqqında çıxış etmişdir. Onun diski də var.

Babam 50 ilə yaxın Ağ Aşığın yaradıcılığı ilə məşğul olub. Son mənzilə də – 2003-cü ildə "Ağ Aşıq" deyə-deyə getdi. Tövsiyə elədi ki, mənim əlyazmalarımla Ağ Aşığı tamamla, qurtar. Babam mənə nəsihət elədi ki, mənim yolumu davam etdir. Ona görə də mən BDU-nun Filolo-

giya fakültəsini və ADPU-da isə magistraturanı bitirdim, folklor yaradıcılığı ilə məşğul oldum. Xəzər rayonunun 26 saylı orta məktəbində dil-ədəbiyyat müəllimi işləyirəm. Atamla, babamın əlyazmaları üzərində işlədik. Zeynalabdin babam məni çox istəyirdi. Həm də həyat yoldaşının adını mənə qoymuşdur. Babam həyat yoldaşı Saniyə ilə yay aylarında bizə – Buzovnaya gələrdi. Dincələrdi və Buzovnada dənizə gedərdik. Deyərdi, ay bala, dənizin qumu müalicəvi dərmandır.

Həm babam, həm də nənəm mənə çoxlu şeirlər oxudardı və dinləyərdilər. Sonra isə səhvimi deyərdilər. Nənəm də mənə çoxlu şirin nağıllar və şeirlər söyləyərdi, bəzən bədahətdən şeir deyərdi. Nənəmlə şeir deməkdə həmişə yarışardım. Nənəm həmişə deyərdi ki, mənim şair nəvəm Saniyə, sən gələcəkdə ədəbiyyatçı olacaqsan. Mən 2002-2003-cü illərdən söhbət edirəm. Onda mənim 10 yaşım olardı, 3-cü sinifdə oxuyurdum.

Babam ədəbiyyatçı olduğundan şairlər haqqında maraqlı söhbətlər edərdi və diksiya ilə şeirlər deyərdi, mən dinləyərdim. Mənə şeiri necə oxumaq və intonasiya ilə nə cür deməyi öyrədərdi. Mənim şeiri intonasiya ilə deməyimdən babamın çox xoşu gəlirdi. Babam toylara gedərkən məni də özü ilə aparardı. Toylarda tamada kimi yarım saat çıxış edərdi, şeirlər deyərdi. Mənə də toylarda şeir dedizdirərdi. Bəzən də özümdən şeir yazıb babama deyərdim, babam çox xoş olardı. Deyərdi ki, mən ən xoşbəxt babayam ki, yolumu davam etdirən şair nəvəm var.

**Elbrus Mahmudoğlu**

Acınacaqlı həyat tərzi yaşamışdır. 1953-cü ildə atası Mahmudu, 1960-cı ildə anası Səkinəni itirib. Qardaşı Zeynalabdin müəllimin və onun həyat yoldaşı Saniyənin himayəsində boya-başa çatıb. Ona görə də Zeynalabdin babama "Yetimlər atası" və Saniyə nənəmə "Yetimlər anası" deyərdilər. Qardaş adamın qolu-qanadı, arxasıdır. Dar günün dayağıdır. Quş qanadla uçar, adam qardaşla qol-qanad açar, fərəhlənər. O, Çaxırlı kənd orta məktəbini qızıl medalla və Ali məktəbi də Lenin təqaüdü ilə oxuyub, fərqlənmə diplomu ilə bitirib. 26 yaşında elmlər namizədi, 34 yaşında isə elmlər doktoru olub. Daha sonra isə professor adı alıb.

Həm də şifahi xalq ədəbiyyatına, aşıq şeirinə xüsusi maraq göstərdiyindən xeyli şeir kitabı çap olunub. "Xəbər çata Ağrı dağa" bu kitablardan biridir. Bütün bunlarla bərabər, Elbrus müəllim dini kitablar oxumağa da vaxt tapır. Bütün dindar adamlar kimi o da oruc tutub, namaz qılır. İngilis, alman, fransız, rus, türk dillərində yazıb-oxumağı, danışmağı bacarır.

Elbrus müəllim sakit təbiətli adamdır, çox danışmağı sevmir. Elbrus müəllimdə xüsusən maraqlı cəhət dəqiq elmlər adamının şairliyə həvəsidir. "Xəbər çata Ağrı dağa" kitabında bayatı, gəraylı, qoşma, cığalı təcnis və rübailərə aid gözəl şeirlər yazmışdır. Elbrus Mahmudoğlunun yazdığı şeirlərdən kitabımızda geniş istifadə etmişik.

***

Atam Əmiraslan və anam Ağca Xəzər rayonunun 8 (13) saylı internat-məktəbində 30 ilə yaxın bir yerdə müəllim işləyiblər. Anam 30 ilə yaxındır ki, 8 saylı internat məktəbində müəllim işləyir. Atamın 50 illik gənclik yadigarı, qonşusu, bibiqızısı (mamaqızı), dostu olub. Əsl sevgi isə dostluqdan başlayır. 1991-ci ildə ailə həyatı qurublar.

1991-ci ildən indiyə kimi atam-anamla Göyçə aşıqları – xüsusilə Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa, Aşıq Ələsgər, Aşıq Nəcəfin yaradıcılığı üzərində işləyir. Babamın əlyazmalarını vərəqləyir, oxuyub – öz malları edərdilər. Mütaliə edərdilər. Toylarda, məclislərdə çıxış edib deyişərdilər. Hələ orta məktəbdə oxuyarkən görərdim atamla anam Ağ Aşıq üzərində işləyirlər. Atam ustad, anam isə onun şəyirdi və yaxud müəllim-şagird münasibətində və ya köməkçisi olardı. Bəzən isə fikir ayrılığı olardı. Anam atamın bəzən səhvlərini düzəldərdi. Birgə Axundov kitabxanasına gedib, bu aşıqlar haqqında axtarış aparardılar. Yeni materiallar toplayardılar. Mən isə zarafatla ata-anama deyərdim, tələbələr, yenə oxumağa getmişdiniz? Universitet günləri, tələbəlik illəri yadınıza düşüb?

Zeynalabdin babam yayda Buzovnaya gələndə aynan qalardı. Mən onda 2-3-cü sinifdə oxuyardım, 2000-2002-ci illər olardı. Bəzən də elə olurdu ki, babam, atam, anam Ağ Aşıq üzərində işləyirdilər. Babam ata-anama göstəriş verərdi. Fikir ayrılıqları olardı. Babam aşıqlar haqqında elə maraqla danışardı ki, ona qulaq asıb yorulmaq bilməzdik. Bəzən də bizi yuxu aparardı.

Ağ Aşığın ilk tədqiqatçısı Zeynalabdin babam, davamçısı Əmiraslan atam olmuşdur. Babam bütün ədəbiyyat kitablarını, dəftərlərini, diplomlarını, qələmlərini, "Ağ Aşıq və Miskin Abdal" haqqında yazdığı boğçanı mənə verdi. Dedi ki, "mənim yolumu davam etdirərsən. Böyüyəndə Ağ Aşığın kitabını çap etdirərsən. Mən arzuma çatdım, rahat ölə bilərəm". Babam 5 noyabr 2003-cü ildə vəfat etdi.

Babamın arzularını həyata keçirmək üçün BDU-nun filologiya fakültəsini 2010-2014-cü ildə və ADPU-nun magistraturasını 2014-2016-cı ildə bitirdim. Ata-anamla birgə fikrimiz "Şairlər yurdu – aşıqlar diyarı. Çuxuryurd (Çuxursədd) – Göyçə - Basarkeçər" kitabını çap etdirib oxuculara təqdim etməkdir. Bu kitabda ən çox Göyçənin sərkərdəsi Ağ Aşığa yer verilmişdir. 2022-ci ildə bu kitabı çap etdirib oxuculara təqdim edəcəyik.

Göyçə torpağı 30 ildən artıqdır ki, erməni işğalçılarının tapdağı altındadır. Bu ustadların – Ağ Aşığın, Alının, Ələsgərin və ulu babalarımızın qəbirləri Göyçədə qalıb. Göyçənin vətən həsrəti qəlbimizi göynədir. Gün o gün olacaq, o gün gələcək, Göyçəyə qayıdacağıq. Doğma yurdumuzu görüb, bu qəbirləri ziyarət edəcəyik.

Bu folklorun toplanmasında xeyirxah əməllərini əsirgəməyən 85 yaşlı Əsgər babaya, 90 yaşlı Mikayıl babaya, 85 yaşlı Gülzar nənəyə, Nərimanlı 100 yaşlı Züleyxa nənəyə, Kibernetika elmlər doktoru, şifahi xalq ədəbiyyatının mahir bilicisi, şair 75 yaşlı Elbrus Mahmudoğluna, Aşıq Nəcəfin irsinin toplanmasında Travmatologiya İnstitutunun elmi katibi, professor, tibb elmlər doktoru Qələndər müəllimə, Kərəm babanın 75 yaşlı oğ-

lu Cahan dayıya, 80 yaşlı peşə yoldaşım, Aşıq Nəcəfin yaradıcılığının qəzetlərdən toplanmasında mənə kömək - edən Arif müəllimə, 71 yaşlı mühəndis Eldar Səfəroğluna, 70 yaşlı kibernetik Rəşid Mahmudoğluna, Qarabağ veteranı 65 yaşlı Əmrah müəllimə, Hacı Asifə, polkovnik Xaqani müəllimə, polkovnik Surxay müəllimə, 62 yaşlı Elxan müəllimə, kommersant Safalan müəllimə, folklor elminin bilicisi Sarvan müəllimə, hüquqşünas Kamal müəllimə, FHN-in polkovnik leytenantı Sərxan müəllimə, Ağ Aşığın kötücələri - Sulidin babaya və Şəmistan (Şəmsi) müəllimə, Ağ Aşığın iticələri - Vaqif müəllimə və Arif müəllimə, Heydər müəllimə, həkim Mahmuda, Əhməd bəyə, Şiraslan bəy, kommersant Azərə, Kazımağaya, Qönçə xanıma, məşhədi Səkinə xanıma, Kəmalə xanıma, hüquqşünas Fəridə xanıma, Sevinc xanıma, Nailə xanıma, dil-ədəbiyyat müəllimi Bağdagülə, ADPU-nun filologiya fakültəsinin məzunu İlahə xanıma, Tural bəyə, Hüseyn bəyə, Aşıq Lətifə, nəvə Zeynalabdin bəyə, Zahir bəyə, laçınlı Azada, kəlbəcərli Qabilə, 65 yaşlı kəlbəcərli Surxay babaya, iqtisadçı Mehmana, iqtisadçı Xıdıra, iqtisadçı əsgər Nurlana, ADPU-nun tələbəsi Xumara, BDU-nun Hüquq fakültəsinin tələbəsi İsmayıla, Odlar Yurdu Universitetinin tələbəsi Bəhmana təşəkkür və minnətdarlıq bildiririk.

Bu folklorun toplanmasında Hacı Maisin də əməyi böyük olub.

Bu folklorun toplanmasında şifahi xalq ədəbiyyatının bilicisi və şeirlərinin çoxunu dayanmadan sinədəftər söyləyən - Məşədi Zeynalabdinin həyat yoldaşı, el içində

"Yetimlər anası" çağırılan mərhum Saniyə nənənin (1930-2018) də əməyi danılmazdır.

***Saniyə Cəfərli,***
*Xəzər rayonu 26 saylı orta*
*məktəbin dil-ədəbiyyat müəllimi*
*BDU-nun filologiya fakültəsini,*
*ADPU-nun magistrını bitirib.*

# KLASSİK AŞIQLAR HAQQINDA NƏZƏRİ MƏLUMAT

## *I, II, III AŞIQLAR QURULTAYI*

Aşıq – Azərbaycanda el şairi, çalğıçı, bəstəkar, müğənni. Aşıq yaradıcılığı – ədəbiyyat, musiqi, ifaçılıq, rəqs və teatr elementlərini özündə birləşdirən çoxcəhətli, sinkretik sənətdir.

Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının mühüm bir sahəsini təşkil edir. Tarixin çox qədim dövrlərindən başlayaraq inkişaf edib gələn bu zəngin yaradıcılıq bu gün də davam və inkişaf etməkdədir.

Aşıqlıq sənəti əsl mənada şairlikdən fərqli olaraq saz çalmaq, rəqs etmək, oxumaq, şifahi xalq ədəbiyyatının nağıl, dastan və başqa növlərini toylarda, məclislərdə ifa edərək yaymaq deməkdir. Lakin bu ifaçı aşıqlar sırasında elə sənətkarlar da olmuşdur ki, onlar eyni zamanda, öz qoşduğu qoşmaları, düzəltdiyi dastanları da ifa etmiş, başqa sənətkarlardan fərqlənmişlər.

Azərbaycan xalqının çox qədim dövrlərdən başlayaraq yaranan şifahi söz sənəti ağızdan-ağıza, nəsildən-nəslə keçərək cilalanıb büllurlanmış və dövrümüzə qədər gəlib çatmışdır. Xalq arzu və istəyini, sevinc və kədərini, cəmiyyətə münasibətini "Söz sənətinin başlanğıcında" (M.Qorki) olan şifahi ədəbiyyatda-folklorda[1] əks etdiril-

---

[1] *Geniş xalq kütləsi tərəfindən yaradılan və yaşadılan şifahi söz sənətinə* ***folklor*** *deyilir.* ***"Folklor"*** *beynəlxalq ədəbiyyatşünaslıqda ən çox istifadə olunan və "Ateneum" qəzetində (20 avqust 1846-cı il) dərc edilən*

mişdir. Şifahi xalq ədəbiyyatı hər bir xalqın milli ədəbiyyatının ayrılmaz hissəsi, onun başlanğıcıdır. Folklorşünaslıq isə geniş mənada ədəbiyyatşünaslığın bir hissəsi, şifahi xalq yaradıcılığının tarixi inkişaf mərhələlərini, onun ədəbi növ və janrlarının xüsusiyyətini öyrənən elmdir.

Məlumdur ki, aşıq sənəti sinkretik bir yaradıcılıqdır. Aşıq həm ifaçı, həm aktyor, həm şair, həm müğənni, həm bəstəkar, həm çalan, həm oxuyan, həm də məclis yola verən bir sənətkardır.

Şifahi xalq ədəbiyyatının zəngin bir qolunu təşkil edən aşıq yaradıcılığının qədim bir tarixi vardır. Aşıq xalq nəğməkarıdır, xalqa bağlılıq, onun həyəcan və arzularını tərənnüm etmək aşıq poeziyasının əsas qayəsini təşkil edir. Məhz, xalqa bağlılıq bir çox el aşıqlarını məşhurlaşdırmış, öz yaddaşında əsl el sənətkarı kimi əbədiləşdirmişdir. Xalqdan ilham alan el sənətkarları xalqın sevinci, kədəri ilə yaşamış, klassik aşıq poeziyasını gözəl incilərlə zənginləşdirmişlər. Qurbani, Miskin Abdal, Tufarqanlı, Sarı Aşıq, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər və s. xalqın tarixi yaddaşında əbədilik qazanan el sənətkarlarıdır.

Aşıqlar xalq arasında yalnız qoşma, gəraylı deyən, dastan söyləyən el sənətkarları kimi deyil, həm də humanist, müdrik ustad, dar gündə yoxsulların dərdinə yanan, onlara yol göstərən məsləhətçi kimi də məşhur olmuşlar. Aşıqlar ağlı geniş, dünya görmüş təcrübəsi, hazırcavablı-

*termindir. 1846-cı ildə ingilis tarixçisi Villiam Toms məqalədə mərasim nəğmələrini toplayıb, nəşr etməyə çağırmışdır. O, bu ədəbiyyatı "folklor" adlandırmışdır. Hərfi mənası (folklore) xalq biliyi, xalq hikməti deməkdir.*

ğı ilə də xalq içərisində hörmət qazanmışlar. Aşıqlarımızın bir çox şeirləri xalqa ağıl, kamil, yaxşılıq və ədalət təlqin edən gözəl nümunələrdir.

Aşıq sənəti Qafqaz və Orta Asiya xalqlarında və Türkiyədə də mövcuddur. Qədim və orta əsrlərdə aşıqlar **varsaq,**[1] **dədə, ozan, yanşaq** adlanmışdır. Bu barədə daha bir maraqlı məsələyə M.H.Təhmasibin doktorluq dissertasiyasında rast gəlirik: "Aşıq ad-titulu şübhəsiz ki, ərəbin "eşq" sözü ilə bağlıdır. Bizcə, "aşıq" ad-titulu bəzən düşünüldüyü kimi həm də ancaq ərəbin "eşq" sözünün faylı olan "aşiqin" bizim dil qanunlarımıza uyğunlaşdırılmış forması deyil. B.Xuluflu aşıqları haqlı olaraq xalq ədəbiyyatının və xalq düşüncəsinin "canlı bir kitabı" adlandırır. Belə sənətkarlar bu gün də bizim aramızda yaşamaqdadır. Biz bunlara aşıq deyirik... Beləliklə, biz "Varsaq" sözünün Azərbaycanda yer, ərazi, qəbilə adı olduğunu iddia etməklə bərabər, bir qədər tez də olsa, bu nəticəni çıxarmaq istəyirik ki, vaxtı ilə Varsaq eyni zamanda çalıb-oxuyan, rəqs edən, tamaşalar göstərən sənətkarlar mənasında da işlənmişdir. Bu mənada varsaqlar bugünkü aşığın əcdadıdır".[2]

"Aşıq" sözünün "işıq", "od", "haqq aşığı" ifadələri ilə yanaşı işlədilməsinə bir sıra mənbələrdə rast gəlirik:

---

[1] *"...**Varsaq** ...Zərif, hazırcavab və səliqəli geyinmiş adamlara, söz ustadına və ümumiyyətlə ustada deyilir". Alim fikrini belə yekunlaşdırır ki, "Vaxtilə, yəni hələ IV-V əsrlərdə də Varsaq adı daşımış sənətkarların simasında incəsənətin bir sıra sahələri toplanmışdır. O, çalır, oxuyur, artistlik və rəqs edirmiş". M.Seyidov. Varsaq sözü haqqında, Ədəbiyyat və dil institutunun əsərləri, VII cild, Bakı-1954.*

[2] ***M.H.Təhmasib**. Azərbaycan xalq dastanları (orta əsrlər), doktorluq dissertasiyası. ADU-nun kitabxanası, 1964.*

"Aşıq sözcüyünün haradan çıxdığı hələlik isbat olunmamışdır, dəyişik görüşlər irəli sürülmüşdür. Vələd Cələbi eşq və aşıq sözcüklərini Türkcə işıq sözcüyünün gəldiyi qənaətindədir".[1] F.Köprülü də aşıq sözcüyünün məhz pozularaq "işıq" tərzində türk dilinə keçdiyini söyləyir.

Göründüyü kimi, türk mənbələri "aşıq" sözünün həm də "işıq" sözündən olduğunu bəzən birbaşa, bəzən də ehtimalla söyləyirlər. Maraqlıdır ki, Koroğlu özünü "aşıq" deyil, "işıq" adlandırır:

*Mən bu dünyada aşığam,*
*Aşıq deyil, işığam...*

V.Qodletski "işıq"dan bəhs edərək yazır: "Qələndərləri, XVI əsrdə çox geniş yayılmış istilah olan "işıq" adlandırırdılar. Burada bəlkə də türkcə "od" demək olan "işıq" sözü ilə ərəbcə "Allaha məhəbbətlə yanan" demək olan "aşıq" sözünün kontaminasiyası baş vermişdir".[2] Bizcə, "işıq", "od" ifadələrinin şeir forması – "qələndər"i, "Allaha məhəbbət" – "aşiq" mənalarında işlənildiyi kimi, sənətkar-aşıq mənalarında da işlənilməsi bir həqiqətdir.

Təsadüfi deyil ki, XIX əsrin böyük mütəfəkkiri Həsən bəy Zərdabi aşıq şeirinə böyük qiymət verib. Onun xalq içərisindəki hörmət və nüfuzunu dəfələrlə qeyd etmişdir:

"Bir baxın, bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara! Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, bəistilahitük, ətini kəssən də xəbəri olmaz. Elə ki,

---

[1] **H.Bizdaroğlu**. *Xalq şeirindən türlər, Türk dili, Türk xalq ədəbiyyatı, özəl sayısı, aylıq dil və ədəbiyyat dərgisi, Ankara, 1968, səh.194*

[2] ***V.Qodletski.*** *Qosudarstvo, Feldjukido Maloy Azii, İzdatelstvo, AN SSSR M-1, 1941, str. 175.*

sonra toy qutardı, aşıqlar evlərinə getdi, 5-10 gün uşaqlar gecə-gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər və bir-birinin qələtini düzəldirlər".[1]

"Bax bu mənada dinləyicilərin "ətini kəssən də xəbəri olmaz" kimi qədir-qiymət yerli-yerindədir. Dinləyicilər tərəfindən həmişə hərarətlə qarşılanan bu aşıqlar kimlərdir? "Bunlar uzun müddət el içində yaşamış, 5-10 il ustad aşıqlardan dərs almış, onlardan aşığa xas olan ədəb-ərkan, gözəl xüsusiyyətlər öyrənmiş xalq sənətkarlarıdır. Aşıq elin yaratmış olduğu müdrik nağıl və dastanları gözəl bilən, onları məharətlə ifadə edən böyük sənətkardır" (O.Sarıvəlli).

S.Vurğunun 1937-ci ildə yazdığı ***"Səadət nəğməsi"*** şeirində oxuyuruq:

*Mən ilham aldıqca eldən, obadan,*
*Səsimə səs verir quşlar yuvadan,*
*Aşıq da bağrına basıb sazını,*
*Deyir Ələsgərdən, Sayad Novadan.*

Azərbaycan xalq poeziyası azəri dilində yazıb-yaradan hər bir aşıq üçün, o cümlədən Sayad Nova üçün bir məktəb olmuşdur. Erməni aşıq poeziyasının zirvəsi olan Sayad Nova Azərbaycan aşıq sənətini Azərbaycan dilində dərindən öyrənmişdir. O, dəfələrlə aşıqlıq haqqında danışmış, "Aşıq bülbül dilidir, ona lənət yox, rəhmət oxunar"; "Aşıqlığın çəkisini tərəzi çəkə bilməz" deyərək aşıq sənətinə yüksək qiymət vermişdir.

Aşıq sənətinin, xalq ədəbiyyatının böyük fəlsəfi tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirən dövlət xadi-

---

[1] **H.Zərdabi.** *Saz nəğmələri, "Həyat"qəzeti, 1906. № 6.*

mi doktor Nəriman Nərimanov hələ 1916-cı ildə yazırdı: "Türk-tatar qövmünün bu fəlsəfəsinə mirur ilə çox oxlar atıldı və atılmaqdadır. Fəqət qövm yaratdığı inşasını ölümə verməmiş və verməyəcəkdir də. Çünki qövm yaşayır və müqəddəs idealını arayır. Belə bir müqəddəs idealı olan qövm ölməz. Çünki həqiqi, təmiz məhəbbət əbədidir. Saflıq, səmimilik, mehribanlıq, mərdlik, comərdlik türk-tatar qövminin tarixi fərdlərindədir desək də yarar. Belə bir şərtlərlə tərbiyə tapmış türk-tatar qövmi "Əsli və Kərəm" kimi nazik mətləbli, dərin fəlsəfəli el əsəri yaradır. Bu əsərlərdən qövmin istədiyi, fikrində bəsləndiyini bilmək olar. Ona görə qövmin əsərlərinə girişən ehtiyatı əldən buraxmamaq gərəkdir. Qövmin fikrini, qanacağını sözlərdən, mətləblərdən bilmək olursa, el düzəldən mahnıların havacatından da onun ruhuna dair çox şeylər bilmək olur!..."[1]

Böyük Oktyabr Sosialist İnqilabı bütün sahələrdə olduğu kimi, aşıq şeirinin inkişafı üçün də hər cür şərait yaratmışdır. Keçmiş zamanda aşıqlar hakim təbəqə tərəfindən təqib edilir, onların yaradıcılığına az əhəmiyyət verildiyi halda, inqilabdan sonra xalq müğənnisi olan bu sənətkarların yaradıcılığına xüsusi əhəmiyyət verildi. Partiyanın tarixi qərarlarında xalq yaradıcılığının inkişafına istiqamət verildiyi kimi bu sahəyə xüsusi dövlət qayğısı göstərildi və külli miqdarda vəsait ayrıldı. Mətbuat, radio, səhnə (klublar) Azərbaycan aşıqlarının fəaliyyəti üçün əlverişli və köməkçi rol oynamağa başladı.

[1] ***Doktor Nərimanov:*** "Əsli və Kərəm", Yeni inqilab, 1916, 21 aprel.

Azərbaycanda sovet hakimiyyəti illərində ictimai həyat, texnika, mədəniyyət və incəsənətin bütün sahələri kimi aşıq sənəti, aşıq poeziyası da yüksək zirvələr fəth etmişdir. Sovet xalqının qəhrəman əməyinin, uca kommunizm ideyalarının, inqilab qəhrəmanlarının, kommunist partiyasının, Xalqlar dostluğunun, yer üzərində sülhü və əmin-amanlığı tərənnüm edən qüdrətli aşıqlar və ideya-bədii kamilliyi ilə oxucuları sevindirən gözəl aşıq şeirləri yaranmışdır. Həm keçmiş, həm də müasir aşıqların külli miqdarda kitabları və aşıq sənəti barədə elmi-tədqiqat əsərləri çap olunmuşdur.

Belə yeni məziyyətlərə malik aşıq sənəti XX əsrdə və oktyabr inqilabının mübarizəsi yollarında xalqla bir addımladı. İnqilab xalq yaradıcılarına qarşı edilən yaramazlıqlara son qoydu, "Telli sazı yeni pərdədə" köklədi, yeni-yeni inqilabi xallar vurdu. N.Nərimanovun inqilabi mübarizəsini irsi vəsf edən aşıqlar oldu.

Bizim ölkəmizdə xalq yaradıcılığı kommunist partiyası və Sovet dövlətinin qayğısı ilə inkişaf etməkdədir. Bu baxımdan hələ vaxtı ilə xalq şairi S.Vurğun partiyamızın böyük rəhbər və istiqamətverici gücünü, onun ədəbiyyatın, şeirin sənət ilhamçısı olduğunu özünün "Zamanın bayraqdarı" adlı poemasında belə verir:

*Bəşərin vicdanı, eşqi, ürəyi,*
*Zehni, düşüncəsi, fikri, diləyi,*
*Bütün yer üzünün xoş gələcəyi,*
*Hər zövqü, səfası – partiyamızdır!*

*Odur ilhamçısı şeirin, sənətin,*
*Dağ üstə dağ qoyan zehnin, zəhmətin,*
*Bir bayraq altında yüz min millətin,*
*Qardaşlıq dünyası partiyamızdır!*

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalqın ictimai-siyasi və mədəni həyatında, eyni zamanda maarif, ədəbiyyat və incəsənət sahələrində yeni mərhələnin təməli qoyuldu. Məlumdur ki, XX illərdə N.Nərimanovun rəhbərliyi ilə respublikamızda bir sıra tədbirlərin görülməsi nəticəsində mədəni yüksəlişin əsası yaradıldı. Respublikada yaranan mədəni-maarif və elmi müəssisələr, xüsusən "Azərbaycanı öyrənmə cəmiyyətinin" filologiya, türkologiya, tarix və etnoqrafiya şöbələri geniş elmi-tədqiqat işinə başladı.

Bu baxımdan 1926-cı ildən sonra el ədəbiyyatının, xüsusilə aşıq əsərlərinin mətbuat səhifələrində geniş yer tutması, eyni zamanda bu sahədə bir sıra elmi məqalələrin yazılması Azərbaycan aşıq ədəbiyyatının bir elm kimi ətraflı və ardıcıl tədqiqinə və öyrənilməsi məsələlərinə müəyyən istiqamət verdi.

**I qurultay**

Aşıq ədəbiyyatının ardıcıl olaraq mətbuat səhifələrində dərc olunması, klassik aşıqların öyrədilməsi müasir aşıqların mədəni quruculuq illərində mühüm təbliğat gücünə malik olmaları ictimai təşkilatları düşündürməyə bilməzdi. Aşıqları bir məclisə toplamaq, onların yaradıcılığını müzakirə etmək, yeni həyatımızın sələfləri ilə onlara istiqamət vermək, müəyyən bir ədəbi təşkilatla əlaqə-

lərini yaratmaq məqsədilə partiya və dövlət aşıqların qurultayını çağırmağı qərara aldı. Bu münasibətlə Qazax, Şamaxı, Salyan, Gürcüstan SSR-nin Borçalı qəzası, Ermənistanın Göyçə mahalında – Basarkeçər və Krasnoselo (Çənmərək) rayonlarında aşıqların konfransı keçirildi. Konfransda onların yaradıcılıq qabiliyyəti yoxlanılıb aşıqlar qurultayına nümayəndələr seçildi.

Göyçə mahalının Böyük Qaraqoyunlu kəndinin yetirməsi, ustad Aşıq Ələsgərin şəyirdi Aşıq Əsəd 1928-ci ildə Azərbaycan aşıqlarının I qurultayına nümayəndə seçilmişdir.[1]

1928-ci il mayın 5-də Xalq Maarif Komissarlığının təşəbbüsü ilə I aşıqlar qurultayı öz işinə başladı. Qurultayda 150-dən çox aşıq iştirak edirdi.

Qurultayın çağırılmasının əsas təşəbbüsçüləri olan Azərbaycan MİK-nin sədri S.Ağamalıoğlu və Xalq Maarif Komissarı R.Axundov aşıqları təbrik etdilər və qısa nitq söylədilər.

S.Ağamalıoğlu aşıq sənətindən bəhs edərək onu nəinki xalq həyatının bədii ifadəçisi, həm də təbiət gözəlliklərinin tərənnümçüsü kimi qiymətləndirir və deyirdi: "Aşıq elin aynasıdır, burada dağların, bulaqların içərisindən alınıb da el havasına qarışmış səsləri eşidəcəksiniz".[2]

Qurultayın ikinci günü bəstəkar Ü.Hacıbəyov və tənqidçi Mustafa Quliyev aşıq ədəbiyyatının sənətkarlıq məsələlərindən danışdılar.

---

[1] ***Azərbaycan aşıqları və el şairləri.*** *II hissə. "Elm". Bakı, 1984.*
[2] ***Aşıqlar qurultayının materiallarından.***

Göyçə mahalından Aşıq Əsəd I qurultaydakı çıxışlarında müvəffəqiyyət qazanmış, I dərəcəli mükafat almışdır.

I aşıqlar qurultayının əhəmiyyəti ondan ibarət idi ki, o, Azərbaycan aşıq sənəti tarixində ilk dəfə olaraq bu sənətin ustalarını bir məclisə topladı və onu məhəlli sənət çərçivəsindən çıxarıb dövlət əhəmiyyəti olan ictimai-ədəbi bir sənət sahəsi kimi qiymətləndirdi.

**II qurultay**

1934-cü ilin iyun ayında Azərbaycan yazıçılarının, az sonra SSRİ Yazıçılar İttifaqının I qurultayı keçirildi. Hər iki qurultay Sovet ədəbiyyatını mövcud cəhətdən zənginləşdirmək, sənətkarlıq, ədəbi tənqid və başqa məsələlərlə bərabər klassik irsdən və yaradıcılığından öyrənməyin, yaradıcılıqda onlardan istifadə etməyin əhəmiyyətini xüsusilə qeyd etdi.

SSRİ Yazıçılar İttifaqının I qurultayında böyük proletar ədibi M.Qorki öz dərin məzmunlu məruzəsində müasir insanın dəyişməsində ictimai əməyin böyük rolundan danışarkən xalq yaradıcılığında, qədim nağıl və dastanlarda, əsatir və əfsanələrdə insanı həyata bağlayan, yaşamağa çağıran, mübarizəyə ruhlandıran həyat eşqinin, zəhmətin, əməyin əsas mövzusu olduğunu elmi dəlillərlə izah etdi. M.Qorki xalq yaradıcılığının bədii xüsusiyyətlərindən, sənətkarlıq məsələlərindən bəhs edərək deyirdi: "Şifahi xalq yaradıcılığını öyrənmədən əməkçi xalqın əsl tarixini öyrənmək olmaz. Təkrar edirəm, söz sənətinin ibtidası xalq ədəbiyyatındadır. Folklorumuzu toplayın, ondan öyrənin, üzərində işləyin; o, sizə də, bizə

də, ittifaqın şair və nasirlərinə də olduqca çox material verir".[1]

M.Qorki elə orada yazır: "...Ən dərin və parlaq, bədii cəhətdən mükəmməl qəhrəman tipləri folklor tərəfindən, əməkçi xalqın şifahi yaradıcılığı tərəfindən yazılmışdır".

Oktyabr inqilabının 17-ci ildönümü münasibətilə Azərbaycan Şura Yazıçıları İttifaqı tərəfindən çağırılmış yığıncaqda "Oktyabr və Azərbaycan ədəbiyyatı" mövzusunda məruzə edən şair Səməd Vurğun xalq ədəbiyyatından istifadə və aşıq yaradıcılığından öyrənmək məsələsindən bəhs edərkən göstərdi ki, Azərbaycan şəraitində folklor ədəbiyyatı olduqca zəngin bir tarixə malikdir. Xalq ədəbiyyatının öyrənilməsi, onun elmi surətdə işlənilməsi, bu zəngin və rəngarəng el ədəbiyyatından istifadə olunması I Yazıçılar qurultayından sonra ciddi əhəmiyyət qazanmalıdır. Aşıq ədəbiyyatına çox yüksək qiymət verən S.Vurğun onu cəmiyyətin yaşamış olduğu ictimai, siyasi, iqtisadi həyatının bədii obrazlarının mənbəyi adlandırır, onu milyonlarla insanların müxtəlif dövrlərdəki bədii zövqünün sevinc və kədərinin bədii əksi kimi qiymətləndirirdi. S.Vurğun hətta xarici dillərin təsvirindən hələ də yaxa qurtara bilməyən bəzi şairlərə aşıq ədəbiyyatı vasitəsilə azəri dilini öyrənməyi məsləhət görürdü. O zaman yenicə çapdan çıxmış Aşıq Ələsgərin kitabını nümunə göstərən şair deyirdi: "...Azərbaycan türkcəsi ilə bədii surətdə yazılmış olan bu şeirlərdə bir axıcılıq,

[1] **M.Qorki.** *Şura ədəbiyyatının vəzifələri, Bakı, Azərnəşr, 1935*

saflıq və təbiilik, milli istifadə formaları, milli obrazlar çoxdur.

Bunlardan istifadə ilə biz yalnız Aşıq Ələsgərə qayıtmamaq şərtilə bugünkü şeirlərimizdə bu günün saflığını, təmiz və səmimi lirikasını, xalqın geniş zövqlərini tərənnüm etməliyik. Əks təqdirdə, bizim şeirimiz geniş kütlənin malı ola bilməz. Azərbaycan türkcəsini yaratmaq uğrunda apardığımız mübarizədə el, aşıq ədəbiyyatından istifadə etməliyik".[1]

Azərbaycanın ən çox aşıq sənəti inkişaf etmiş rayonlarında 1935-ci ildə aşıqlar konfransı keçirilmiş, bu sənətin öyrənilməsi sahəsində müvafiq tədbirlər görülmüşdür. Həmin il martın 12-də Naxçıvanda şairlərlə birlikdə el aşıqlarının keçirilmiş konfransı xüsusilə diqqəti cəlb edir.[2] 50-dən çox xalq aşığı, el şairi, nağıl və dastan söyləyənlər, eyni zamanda xalq incəsənət ustaları iştirak edən həmin məclisdə el aşıqlarını müəyyən bir təşkilat ətrafında birləşdirmək, onların vasitəsilə xalq yaradıcılığının və el aşıqlarının şeirlərini toplamaq kimi mühüm məsələlər müzakirə edilmişdir. Konfransda "Aşıqlar ittifaqı" yaradılmış və ittifaqın idarə heyətinə Naxçıvanın tanınmış aşıqlarından Aşıq Əzim, Aşıq Sultan, Aşıq Dədəkişi, Aşıq Fətulla və başqaları üzv seçilmişdir.

1935-ci ildən sonra aşıq sənətinə olan maraq daha da artmışdır. Aşıqlar şairlərlə bərabər mətbuat səhifələrində tez-tez çıxış edir, eyni məzmunlu şeirlərlə günün aktual məsələlərinə cavab verməyə çalışırlar.

---

[1] ***"İnqilab və mədəniyyət" jurnalı.*** *1934, № 11-12.*

[2] ***"Şərq qapısı" qəzeti.*** *15 mart 1935.*

1937-ci ildən görkəmli aşıqların şairlərlə görüşləri keçirilir və yaradıcı aşıqların yazıçılar ittifaqına üzv seçilməsi məsələləri müzakirə olunurdu. 1937-ci il noyabrın 13-də Azərbaycan Sovet Yazıçılar İttifaqının ümumi iclasında dövrün tələbləri ilə daha çox ayaqlaşa bilən yaradıcı aşıqlardan Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Daşkəndli Aşıq Nəcəf və Aşıq Avaq Azərbaycan Sovet Yazıçıları İttifaqı sıralarına qəbul edilmişdir.[1] Yığıncaqda xalq aşıqlarını sovet ədəbiyyatı ətrafında toplamaq və onların "ittifaqla" əlaqələrini möhkəmlətmək üçün Yazıçılar İttifaqının nəzdində "aşıqlar seksiyası" təşkil edilməsi məsələsi də müzakirə olunmuşdur.

I aşıqlar qurultayından sonrakı 10 il ərzində aşıq sənəti böyük bir məktəb keçmiş oldu. O, təkcə respublikamızda deyil, ümumittifaq miqyasında böyük şöhrət qazandı. Bütün bunlara nəzər salmaq, görülən işlərdəki qüsurları düzəltmək, gələcəkdə bu xalq sənətkarlarının qarşısında duran vəzifələri müəyyənləşdirmək və daha mühüm məsələlər qaldırmaq üçün 1938-ci il martın 12-də Azərbaycan aşıqlarının II qurultayı açıldı. Qurultayda yazıçı M.İbrahimov aşıq sənətinin keçdiyi tarixi inkişaf yolları, hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında məruzə etdi.[2]

Böyük bəstəkar Ü.Hacıbəyov Azərbaycan xalq musiqisinin ayrılmaz bir qolu kimi aşıq musiqisinin nəzəri məsələlərindən danışdı. O dedi: "Mən "Koroğlu" operası üçün aşıqların mahnılarından çox istifadə etmişəm. Onla-

---

[1] ***"Ədəbiyyat" qəzeti,*** *16 oktyabr 1937.*
[2] ***"Kommunist" qəzeti,*** *12-16 mart 1938.*

rın zəngin repertuar fondu, dillərinin sadəliyi və şirinliyi, xalq melodiyalarının zənginliyi gənc kompozitorlar üçün mükəmməl xəzinədir”.

Bülbül Məmmədov öz çıxışında sənətlərində olan köklü yaxınlıq haqqında öz mülahizələrini söylədi:

“...Onların hər bir sözü, hər bir musiqi ifadəsi aşığın hissi və düşüncələrinin bilavasitə ifadələrinin təzahürüdür. Aşıqların yaradıcılığında böyük sənətkarların daim bəhs etdiyi nəğmə müxtəlifliyi, emosiya zənginliyi, incə və zərif vokal sənətkarlığının qüvvə və parlaqlığını görmək olar”.

Qurultayda Osman Sarıvəllinin çıxışı müasir aşıq poeziyasının hazırkı vəziyyətinə, M.Arifin və H.Əlizadənin çıxışları isə aşıq yaradıcılığının toplanılması və nəşri məsələlərinə həsr edilmişdir.

Qurultay Yazıçılar İttifaqı yanında aşıqlar seksiyası yaratmağı lazım bildi. Bu seksiya aşıq yaradıcılığı sahəsində tədqiqat işləri görməli, yaradıcılıq məsləhətləri təşkil etməli, rayon filialları vasitəsilə aşıqlar arasında musiqi və əlifba savadsızlığını aradan qaldırmaq üçün çalışmalı və geniş siyasi tərbiyə işi aparmalıdır.

1938-1940-cı illər Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadaları 20 ildə respublikada ədəbiyyat, incəsənət, xalq yaradıcılığı sahələrində əldə edilən misilsiz nailiyyətləri nümayiş etdirdi.

Dekadada ədəbiyyat və incəsənət ustaları ilə yanaşı görkəmli saz və söz sənətkarlarından Aşıq Əsəd, Aşıq Nabat, Aşıq Teymur, Aşıq Avaq və başqaları Azərbaycan ədəbiyyatı və incəsənətinin ayrılmaz bir hissəsi kimi öz sazı və sözü ilə çıxış edərək Moskva tamaşaçılarının hör-

mətini qazanmışlar. Dekadadakı böyük müvəffəqiyyətlərinə görə aşıqlarımızdan Əsəd və Avaq ordenlə təltif olunmuş, aşıqlarımız haqqında "Pravda", "İzvestiya", "Veçernyaya Moskva", "Literaturnaya qazeta" və başqa mərkəzi mətbuat səhifələrində çox qiymətli fikir söylənmişdir. Hərbi akademiyada çıxış etmiş şairlərimiz, aşıqlarımız, artistlərimiz haqqında Sovet İttifaqı Qəhrəmanı A.V.Koltsev yazırdı: "...Aşıqlardan Nabat Cavadovanın, Əsəd Rzayevin, Aşıq Teymurun və başqalarının simasında Sovet Azərbaycanı milli mədəniyyətinin coşqun bir surətdə çiçəklənməsini gördük. Xalqların belə zəngin və diqqətəlayiq ədəbi-bədii həyatı ancaq qalib gəlmiş sosializm ölkəsində ola bilər".[1]

Daha sonra görkəmli rus şairi M.Lukovskoy isə "Dostlar haqqında, vətən haqqında" adlı məqaləsində yazırdı: "Yadımdadır, bir dəfə Bakıda Yazıçılar İttifaqında aşıqlar çıxış etdi. Qoca və gənc aşıqlar gülümsəyərək və əllərindəki sədəfli sazı səsləndirərək bir-biri ilə coşqun yarışırdılar. Onlar "Koroğlu"dan oxuyurdular. Adamda elə təsvir oyadırdı ki, bu kiçik zalda pəhləvanlar meydan dolandırırlar. Azərbaycanlı şair dostlarım öz xalq aşıqlarına necə də böyük diqqətlə qulaq asırdılar. Hamımız bir ağızdan deyirdik: Sağ ol!"

II qurultaydan sonra aşıq poeziyasına maraq daha da artdı. Folklorumuzun nəzəri məsələlərinə, tədqiqinə daha geniş yer verildi. Azərbaycan sovet folklorşünaslığı mühüm nailiyyətlər əldə etdi.

---

[1] ***Moskvada Azərbaycan ədəbiyyatı dekadası,*** *Bakı, Azərnəşr, 1940.*

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq xalq ədəbiyyatının toplanıb nəşr edilməsi, folklorumuzun nəzəri problemləri ilə əlaqədar tədqiqat işləri müvəqqəti olaraq dayanır. Yazıçılarımız, aşıqlarımız, bütün sovet xalqı "Hər şey cəbhə üçün, hər şey vətən üçün!" şüarına qoşulur, ön cəbhədə, arxa cəbhədə var qüvvə ilə qələbəmiz uğrunda mübarizə aparırlar.

Böyük Vətən müharibəsi illərində Azərbaycan sovet ədəbiyyatında olduğu kimi, aşıq şeirinin də mövzusu dəyişir. Dinc quruculuq işləri tərənnüm edilir, intim lirikanın yerini qəhrəmanlıq nəğmələri tutur.

Müharibədən sonra folklorşünaslığımız böyük nailiyyətlər qazanır, bütün janrlara aid qiymətli tədqiqat əsərləri yaranır.

## III qurultay

1961-ci il aprelin 27-də Azərbaycan Sovet aşıqlarının III qurultayı çağırılır. Qurultayı Azərbaycan SSR Xalq artisti, bəstəkar Səid Rüstəmov açaraq giriş nitqi söyləmişdir. O, nitqində demişdir ki, mədəniyyətin bütün sahələri kimi xalq yaradıcılığı, xalqın bədii özfəaliyyət sənətkarlığı da günü-gündən inkişaf edir. Azərbaycan xalq yaradıcılığının ən mühüm qollarından birini təşkil edən aşıq sənəti kütlələrin ideya-bədii tərbiyəsində böyük əhəmiyyətə malik olmaqla bərabər, Azərbaycan professional musiqisinin inkişafına da qüvvətli müsbət təsir göstərmişdir. Natiq buna misal olaraq qüdrətli bəstəkar Ü.Hacıbəyovun bir çox əsərlərini, xüsusilə, milli opera sənətimizin şah əsəri hesab edilən "Koroğlu"nu misal çəkdi. O, göstərdi ki, Azərbaycan aşıqlarının I (1928) və II (1938) qu-

rultaylarından keçən vaxt ərzində aşıq sənəti inkişaf edərək bir sıra yeni keyfiyyətlərlə zənginləşmişdir. Odur ki, qarşımızda aşıq sənətinə müasir şəraitin böyük tələbləri nöqteyi-nəzərindən qiymət verməkk, aşıqlarımızın mübariz vəzifələrini müəyyənləşdirmək kimi şərəfli və məsul bir iş durur.[1]

Sonra Azərbaycan SSR EA-nın akademiki, yazıçı Mirzə İbrahimovun "Zəhmətkeşlərin kommunist tərbiyəsində aşıq sənətinin rolu", Azərbaycan SSR EA-nın müxbir üzvü, professor Həmid Araslının "Aşıq yaradıcılığında sənətkarlıq", SSRİ xalq artisti, professor Bülbülün "Aşıq musiqisi haqqında" və s. məruzələri dinlənilmişdir. Məruzələr ətrafında müzakirələrdə Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir və s. yoldaşlar çıxış etmişlər.

Azərbaycan aşıqlarının iki gün davam edən III qurultayı aprelin 28-də öz işini qurtardı. III aşıqlar qurultayı aşıq sənətinin tarixində əlamətdar bir hadisə kimi qiymətləndirildi.

---

[1] *Aşıqlar qurultayının materiallarından.*

## MÜASİR AŞIQ SƏNƏTİ HAQQINDA

### IV qurultay

“Aşıqlar özlərinin ilhamlı yaradıcılığı ilə sovet adamlarının əmək nailiyyətlərini, SSRİ xalqlarının dostluğunu və qardaşlığını tərənnüm edir, zəhmətkeşlərin kommunist tərbiyəsi işində fəal iştirak edirlər”.

***Azərbaycan KP MK-nın aşıqların 4-cü qurultayını keçirmək haqqında qərarından***

Aşıq sənəti, aşıq poeziyası! Dərin mənalarla, incə gözəlliklə parlayan hissiyyat və düşüncələr aləmi!... Bu böyük xalq sənətinin adı onun mənasını, mahiyyətini çox gözəl ifadə edir: “Aşıq” dilimizdə ehtirasla sevən, gözəlliyə valeh olmuş, vurulmuş deməkdir.

Aşıq anlayışı və bu anlayışın sinonimi olan sözlər insan ürəyinin lirik məhəbbət duyğularını, yəni ən incə, ən zərif hisslərini ifadə edir. Həyat, nəslin davamı, canlı aləmin mayası, cövhəri olan bu hisslərlə bağlıdır. Məhz bu keyfiyyət bitkilər aləmindən heyvanat dünyasına qədər bütün canlılar aləminin varlıq cövhəridir, həyatının davamını, əbədiliyini təmin edir.

Aşıq poeziyası xalqın dar günündə də, xoş günündə, toyunda da, yasında da həmişə xalqla bir olmuş, həmişə xalqla yaşamışdır. Bu gün bizim aşıq sənətimiz bütün ruhu və telləri ilə xalq həyatının dərinliyinə kök atmışdır və xalqla bir yerdə yaşayır, bir nəfəs alır, bir işlə-

yir. Buna görə də Azərbaycan aşıqlarının 4-cü qurultayı respublikamızın mədəni həyatında böyük hadisədir.

Azərbaycan aşıqlarının 4-cü qurultayında kommunizm cəmiyyətini quranlar cərgəsində, bu cəmiyyətin fəal qurucusu olan yeni insanın tərbiyə edilməsində xalq nəğməkarlarının rolundan, mövqeyindən danışılmışdır. Qurultayda iştirak edən 300-dən çox aşıq öz yaradıcılıq təcrübəsindən danışmış, aşıq irsinin öyrənilməsi və xalq arasında çox sevilən həmin sənətin daha da inkişaf etdirilməsi, ifaçılıq məharətinin yüksəldilməsi problemini müzakirə etmişdir. Qurultay 1984-cü il martın 19-da Bakıda keçirilmişdir. Qurultayda Moskva, Zaqafqaziya və Orta Asiya respublikalarından qonaqlar iştirak etmişlər.

Qurultayı giriş sözü ilə xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı M.İbrahimov açmışdır. O demişdir ki, Azərbaycan aşıqlarının IV qurultayı respublikanın mədəni həyatında böyük hadisədir. Aşıq sənəti öz kökləri ilə xalq həyatının dərinliyinə bağlıdır. Xalqın yaratdığı ən yaxşı nə varsa, hamısından, yəni onun möhkəm, mənəvi əsaslarından, həyat fəlsəfəsindən, əmək adamlarının möhkəm etiqadından və duyğularından qida almışdır və almaqdadır. Təsadüfi deyildir ki, əsrlər boyu xalqın səadət, azadlıq uğrunda mübarizəsi, onun gərgin əməyi, ümid və arzuları aşıqların poetik sənətində özünün ən parlaq təcəssümünü tapmışdır. Belə bir orijinal şəxsiyyətlərdən, əsl söz ustalarından biri Aşıq Ələsgərdir. Yüksək vətəndaşlıq hissilə yaratdığı əsərlər onu Azərbaycan ədəbiyyatının klassikləri M.P.Vaqiflə, S.Ə.Şirvani ilə, M.Ə.Sabirlə bir cərgəyə qoyur.

M.İbrahimov axırda demişdir ki, Azərbaycanın bütün incəsənət ustaları kimi aşıqlar özlərinin sənəti ilə bundan sonra da Sovet ölkəsinə, xalqa daha yaxşı xidmət etmək, var qüvvələrini əsirgəmədən Leninçi kommunistlər partiyasının göstərişlərini həyata keçirməsinə çalışmaq əzmindədirlər.[1]

Azərbaycan Aşıqlar Birliyinin sədri, Azərbaycan SSR Dövlət Mükafatı laureatı və Əməkdar incəsənət xadimi şair Hüseyn Arif müasir aşıq poeziyası və aşıq sənəti ustaları qarşısında duran vəzifələr haqqında məruzə etmişdir. O, Sovet Azərbaycanında aşıq yaradıcılığının tərəqqisindən, bu yaradıcılığın ildən-ilə getdikcə daha geniş vüsət almasından, partiyanın və dövlətin ona daim diqqət və qayğı göstərməsindən danışmışdır. Son vaxtlar yaradılmış aşıqların yaradıcılıq birliyinə 500-dən çox xalq nəğməkarı, o cümlədən qadın sənətkarları daxildir.

Xalq poeziyasının klassikləri Aşıq Ələsgərin və Aşıq Alının yubileylərinin keçirilməsi görkəmli hadisə olmuş, bu sənət növünün daha da inkişafına qüvvətli təkan vermişdir. İndi küçələr, məktəblər, mədəniyyət evləri görkəmli aşıqların adını daşıyır, bir sıra musiqi məktəblərində aşıqların irsi öyrənilir. Respublika nəşriyyatları aşıq mahnılarından ibarət 20-dən çox məcmuəni, aşıq poeziyasının və musiqisinin müxtəlif cəhətlərinə həsr olunan kitabları Azərbaycan və rus dillərində çapdan buraxmışdır.

Məruzəçi qeyd etmişdir ki, aşıq həmişə xalqla yaşamış, xalqla nəfəs almış, onun istək və arzularının ifadəçisi

---

[1] *Aşıqlar qurultayının materiallarından*

olmuşdur. Odur ki, indi də saz ustalarının qarşısında duran əsas vəzifə öz sənəti ilə cəmiyyətimizin nəcib ideallarını bərqərar etmək, vətənpərvərlər, beynəlmiləlçilər yetişdirilməsinə kömək etmək, əmək qəhrəmanlarının şöhrətini yaymaqdır. Aşıqlar partiya və xalq qarşısında borclarını bunda görürlər.[1]

SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri, SSRİ Xalq artisti Rauf Hacıyev, akademik F.Maqsudov, professor V.Vəliyev, yazıçı Anar, aşıqlardan Mikayıl Azaflı, Hacı Bayramov, Kamandar Əfəndiyev, Hüseyn Cavan və başqaları aşıq sənətinin xəlqiliyindən, aşıqlar birliyinin gələcək vəzifələrindən və s. problem məsələlərdən danışdılar.

Onu da qeyd edək ki, Göyçə el sənətkarlarının bilicisi, Ağ Aşığı ilk dəfə qələmə alan, onu işıq üzünə çıxaran Göyçə mahalının Şəfəq kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi Zeynalabdin Cəfərov olmuşdur. Aşıqlar birliyi tərəfindən IV aşıqlar qurultayına nümayəndə seçilmişdir. O da IV aşıqlar qurultayında iştirak etmişdir. Qurultayda Ağ Aşıq haqqında ilk dəfə çıxış etmişdir.

Qurultay Azərbaycan aşıqlar birliyinin nizamnaməsini təsdiq etmiş, birliyin idarə heyətini və təftiş komissiyasını seçmişdir. Şair H.Arif yenidən birliyin sədri seçilmişdir.

IV qurultay qərara aldı ki, bəzi rayonlarda olan musiqi məktəblərinin nəzdində aşıq musiqisi qrupları yaradılsın, görkəmli aşıqların doğulub yaşadıqları kənd və

---

[1] *Aşıqlar qurultayının materiallarından*

rayonlarda müəyyən küçə və məktəblərə onların adı verilsin. Hər il martın 19-da Bakıda və Azərbaycanın rayonlarında "Saz və söz" bayramı keçirilsin.

Son 10 ildə həm Aşıq Ələsgərin anadan olmasının 150 illiyi (1972), həm də Aşıq Alının anadan olmasının 180 illik yubileyinin (1981) keçirilməsi haqqında Azərbaycan KP MK-nın qərarları bu qayğının yeni təzahürüdür. Məhz bu qərardan sonra Ağ Aşığın (Aşıq Allahverdi), Aşıq Alının şeirlərinin müəyyən hissəsi toplanıb nəşr olunmuşdur. Hər iki sənətkarın ədəbi irsi Aşıq Ələsgərin hansı ədəbi zəmin üzərində yetişdiyini, hansı qaynar bulağın suyu ilə boya-başa çatdığını dərk etməyə imkan yaradır.

Son illərdə Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi Heydər Əliyev, Nazirlər Soveti respublikamızda klassik irsin, xüsusən aşıq sənətinin inkişafına diqqət və qayğını xüsusilə gücləndirmişdir. Bunun nəticəsidir ki, bu ulu sənət xalqın təsəvvüründə yenidən öz dərinliyi, rəngarəngliyi, gözəlliyi ilə cilvələnir, yeni nəslin qəlbinə yol açır, onlar da keçmişimizə, kökümüzə, xüsusən müdrik babalarımıza qarşı hörmət, ehtiram hisslərini artırır. Demək olar ki, axır aylarda, illərdə bu sahədə ciddi yaradıcılıq işləri, axtarışlar aparılmışdır.

Alim, yazıçı və folklorşünaslarımız ardıcıl olaraq mətbuat səhifələrində çıxış edirlər. Bu sənətin dərin, ictimai məzmun daşıması, zəngin xüsusiyyətlərə malik olması, xalqın həyat mübarizəsinin canlandırılması kimi, şöhrət tapması kimi hallara gözəl, təbii nümunələrlə folklorşünaslıq elminin daha da inkişafı üçün yaxından kömək edirlər.

Başqa əsrlərdə və dövrlərdə olduğu kimi, indi də aşıq yaradıcılığı folklorun aparıcı qolu olaraq qalmaqdadır. Aşıq sənəti əsrimizin demək olar ki, bütün hadisələri ilə yaşaya bilir. Ona görə də xalq sənətkarlarına, aşıq yaradıcılığının inkişafına hökumətimiz daim qayğı göstərir. Bunun sayəsində son vaxtlarda aşıq yaradıcılığına böyük yer verilmişdir. Aşıqlar bu qayğını dərindən hiss etmiş, şeirlərində və söhbətlərində hökumətimizi alqışlamışlar.

Aşıq sənətinin təsir qüvvəsi tükənməzdir. Xalqın qəlbi, ruhu, zəkası ilə yaranıb inkişaf edən aşıq sənəti əsrlər boyu vətənə sədaqət, sosial ədalət, məhəbbət və səadət idealları kimi yüksək idealları bərqərar etmişdir. Tarixən təşəkkül tapmış bu gözəl ənənə zəmanəmizdə yeni məzmun kəsb etmiş, daha da inkişaf edib zənginləşmişdir.

Azərbaycan Respublikasının xilaskarı, qurucusu, banisi, dünya Azərbaycanlılarının Lideri, zəmanəmizin şəxsiyyətlərindən biri, tanınmış siyasi və dövlət xadimi kimi bütün dünya miqyasında adını tarixə yazmış Ümummilli Liderimiz və Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan, çiçəklənən, doğma, müstəqil Azərbaycan Respublikamız günü-gündən inkişaf edir və abadlaşır.

Azərbaycan Respublikası müstəqil dövlət olandan sonra Heydər Əliyev ölkəmizin prezidenti seçildi. Ölkədə vəziyyət yaxşılaşdı. Gənc dövlət qüvvətlənməyə başladı. O dövrdə Zeynalabdin müəllimin nəvəsi Bağdagül 3-cü sinifdə oxuyurdu. Ulu Öndərimiz Heydər Əliyevə bu şeiri həsr edib:

*Səndən uca,*
*Səndən böyük,*
*Səndən Xoca*
*Yox dünyada,*
*Heydər baba.*

*Dünya görən*
*Ər tək duran,*
*Ümidimiz*
*Sənsən hər an,*
*Heydər baba.*

*Rəhbərimiz,*
*Öndərimiz,*
*Ürəyi saf,*
*Qəlbi təmiz*
*Heydər baba.*

Müstəqilliyimizi qazanandan sonra istər Ulu Öndərimizin dövründə, istərsə də onun layiqli davamçısı İlham Əliyev cənablarının dövründə folklorumuzun inkişafına geniş yer verilmişdir. Folklorumuz toplanıb kitab şəklində çap olunmuşdur. Xalqımız da folklor toplusunu oxuyub folklorumuza geniş qiymət vermişdir.

# GÖYÇƏ SƏNƏTKARLAR YURDUDUR

## *GÖYÇƏNİN YARANMA TARİXİ*

### Çuxuryurd (Çuxursədd) - Göyçə mahalının aşıqları və şairləri haqqında araşdırmalar

*1. Sarıyaqublu Miskin Abdal (1430-1535)*
*Aşıqların şahı, ağsaqqalı, sufi şairi, haqq aşığı*
*2. Göyçəli Aşıq Əliqulu (XVII-XVIII əsr)*
*Aşıqların sərkərdəsi*
*3. Kərkibaşlı ustadlar ustadı*
*Ağ Aşıq – (Aşıq Allahverdi) (1755-1860)*
*Şair Allahverdi aşıqlardan müdrikliyi ilə seçilib*
*Haqq aşığı – Haqq vergisi şairi*
*4. Daşkəndli şair Məmmədhüseyn (1800-1880)*
*Haqq vergisi şairi*
*5. Qızılvəngli ustadlar ustadı*
*Aşıq Alı (1801-1911)*
*Haqq aşığı – Haqq vergisi şairi;*
*Şıx Alı, Təcnis Alı, Təbib Alı*
*6. Ağkilsəli ustadlar ustadı*
*Dədə Ələsgər (1821-1926)*
*Haqq aşığı - Haqq vergisi şairi*
*Qıfılbənd və təcnis şairi*
*7. Qaraqoyunlu (Ağkilsə) / Aşıq Musa (1830-1912)*
*"Nə günahı Telli sazın" gəraylısı,*
*Aşıq Alının şəyirdi*
*Aşıq Ələsgərin qonşusu*
*8. Zodlu şair Mirzə Bəylər (1837-1917)* (1837-1919)*

*Katiblik və mütərcimlik, tərcüməçi*
*9. Zodlu Usta Abdulla (1865-1943)*
*Təcnis şairi*
*10. Ağkilsəli şair Məhəmməd (1870-1937)* (1870-1935) Ələs-gərin qardaşı*
*11. Böyük Qaraqoyunlu Aşıq Əsəd (1874-1951)*
*Ələsgərin şəyirdi,*
*I aşıqlar qurultayına nümayəndə seçilib.*
*12. Daşkəndli Aşıq Nəcəf (1876-1919)*
*Aşıq Ələsgərin şəyirdi, bədahət şairi*
*Taleyi qara, bəxti kəm, başıbəlalı aşıq*
*Haqq aşığı*
*13. Ağkilsəli şair Əbdüləzim (1880-1942)*
*Ələsgərin oğlu*
*14. Ağkilsəli Aşıq Nəcəf Xəlil oğlu (1900-1968)*
*Ələsgərin qardaşı oğlu,*
*Aşıqlığı Növrəs İmandan öyrənib.*
*15. Ağkilsəli Növrəs İman Saleh oğlu (1903)*
*Aşıq Ələsgərin qardaşı oğludur, 1932-ci ildə itkin düşüb.*
*Haqq vergili şair*
*16. Ağkilsəli Aşıq Musa Saleh oğlu (1909-1949)*
*Növrəs İmanın qardaşıdır.*
*17. Aşıq Talıb (1877-1979)*
*Ələsgərin oğlu*
*18. Şair Hacı Aydın*
*19. Şair Niftalı (1951)*
*20. Şair Qara Kazım*
*21. Aşıq Aqil*
*22. Nərimanlı şair Xəstə Bayraməli (1898-1952)*
*23. Nərimanlı Aşıq-şair Bəhman (1901-1976)*

*24. Ağkilsəli İslam Ələsgərov (1925-2014)*
*Filologiya elmlər namizədi, folklorşünas*
*25. Ağkilsəli şair İsmixan (1933-1994)*
*Ələsgərin nəvəsi*
*26. Daşkəndli el şairi Alqayıt (1939-2013)*
*27. Ağbulaqlı şair Eldar İsmayıl (1942-2021)*
*28. Kərkibaşlı şair Elbrus Mahmudoğlu (1946)*
*Kibernetika elmlər doktoru, professor*
*29. Balaməzrəli şair Məcnun Göyçəli (1949)*
*30. Daşkəndli Aşıq Hacı (1931)*
*31. Nərimanlı Aşıq Fətulla (1941)*
*32. Ağbulaqlı Aşıq İmran*
*Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi*
*33. Babacanlı Aşıq Qədir*
*34. Cilli Aşıq Müseyib (1921)*
*35. Babacanlı Aşıq Şükür (1909-1995)*
*36.Qanlılı Aşıq Mehdi (1880-1980)*
*37. Ağkilsəli Talıb Tale (1981)*
*Ələsgərin kötücəsi,*
*İfaçı, söz yazarı, estrada müğənnisi.*
*38. Pəmbəkli Aşıq Lətif (1974)*
*El şairi*

## GÖYÇƏNİN TƏSVİRİ

Tarixlər şahidi, gözəlliklər məskəni qocaman Göyçə mahalı sazlı-sözlü dünyası ilə məşhurdur.

Əlçatmaz dağlar, sıldırımlı qayalar, ürək oxşayan laləli, nərgizli çöllər, çəmənlər, yasəmənli, qərənfilli ovlaqlar, buz bulaqlar, göy yaylaqlar əzəl gündən sənin sirdaşındır, vüqarındır, şöhrət-şanındır, Göyçəm mənim. Başımı qaldırıb sənin hüsnünü seyr edirəm. Qəlbim cuşa gəlir, ilhamım varlığıma hakim kəsilir, dodaqlarım qeyri-iradi pıçıldayır, qəlbim odlu-alovlu nəfəsimlə sənin gözəlliklərini mədh etməyə tələsir. Vəcdə gələn könül tellərimi susdura bilmirəm. O sənə nəğmələr qoşmaq, dastanlar bağlamaq, qoynundakı gur çayların kimi coşmaq istəyir... Uca dağlarına baxıram. Zirvədəki dümağ qarın qəlbimə sərinlik gətirir. Nəzərimi yamacına dikirəm. Əsrarəngiz gözəlliyin məni diz çökməyə məcbur edir. Lalələrin, nərgizlərin, yasəmənlərin məni öz qoynuna alır. Onları saxlamaq, qoxulamaq, ciyər dolusu köksümə çəkmək üçün başımı aşağı əyirəm... Qulaqlarıma həzin bir pıçıltı gəlir. Dinləyirəm... Bülbüllərin cəh-cəhinə qarışıb həzin bir melodiyaya çevrilən bu səs məni başqa bir aləmə, romantik gözəlliklər dünyasına aparır. Bu dünya sənsən, sənin durna gözlü buz bulaqların, ətri ilə məst olduğum güllərin, çiçəklərin, hüsnünə vurulduğum əzəmətli dağlarındır, Göyçəm mənim...

Dikəlirəm... Göz işlədikcə uzanan laləli çəmənlər xəyalımı uzaqlara aparır. Gözlərim qəflətən ülvi bir gözəlliklə parlayan, ətrafı öz nuruna qərq edən mavi Göyçə

gölünə sataşır. Köksü enib-qalxan təbiətin bu işvəkar qızı varlığımı öz ağuşuna alır. Ruhum qanadlanıb hüsnkar gözəlliklər aləmində qərar tutur. Gözlərim mavi Göyçə gölünə dikilmişdir.

Elbrus Mahmudoğlu ***"Göyçə göl"*** şeirində Göyçə gölünü çox gözəl tərənnüm etmişdir:

*Dağların qoynunda qərar tutmusan,*
*Hüsnü gözəl, dağlar qızı, Göyçə göl.*
*Əzəldən sən Oğuz elin bulmusan,*
*Güzgüsü göy, elin gözü, Göyçə göl.*

*Çəmənində binə qurdu neçə xan,*
*Çadır-çadır Qorqud-Ata, Xan Qazan,*
*Heyran oldu Şah Xətai, Bəy Cahan,*
*Göyçək dedi neçə qazı, Göyçə göl.*

*Bir yanın Ələyəz, bir yanın Şərur,*
*Halay gedir dağlar, çevrəndə məğrur,*
*Əyricə Vers, Ağrı dağa üz tutur,*
*Ələ düşməz qışı-yazı, Göyçə göl.*

*Çalxalanır sonalar, çığırışır qazlar,*
*Seyrangaha çıxır dövrəndə qızlar,*
*Şəfa tapır kövsərində nasazlar,*
*Aşıq Alı səndən razı, Göyçə göl.*

Fəqət, xəyalım əngin fəzaların qoynunda cövlan edir. Qanad açır, pərvazlanır. Əzəmətli Şah dağından baş alıb yüksəklərə doğru qanad çalan məğrur qartalını təqib edir. Daha yüksəklərə doğru baş alıb gedir. Qəlbimdəki

təlatüm nəğmələrə, əlimdəki lalə sədəfli saza çevrilir. Bir-birinə qovuşur. İki sevginin xoşbəxt vüsalı, iki həsrətin bir-birinə qovuşması kimi. Qəlbim coşur. Saz dillənir. "Göyçə gülü" dilə gəlir. Qəlbə təravət, ürəklərə sevinc, sevən könüllərə ülvi duyğu, atəşin məhəbbət gətirir.

İnsana cəsarət, həyata inam, gözəlliyə məftunluq bəxş edir. Sənin gözəl hüsnün sazımın tellərini ehtirasa gətirir, Göyçəm mənim. Onda Kərəmin naləsini eşidir. Abbasın, Qurbaninin çırpınan qəlbinin səsini duyuram. İstər-istəməz sənin keçmişinə qayıdıram, mənim Göyçəm. Vəcdə gəlib yalnız öz könül səsimi dinlədiyim üçün utanıram. Bütün varlığımla sənə bağlı olan, səndən ilham alıb ucalan, sənə əbədi qovuşan babalarımızın qarşısında baş əyirəm. Onların sazlı-sözlü könül dünyasından, əyilməz vüqarından, əzəmətli dühasından söz açıram. Göyçəm mənim.

Öz hüsnkar hüsnü, öz təbii gözəlliyi ilə ürəkləri fəth edən, onda xoş duyğular oyadan əzəmətli Göyçə mahalı çox qədim zamanlardan bəri sazın, sözün beşiyi olmuş, qoynunda qüdrətli saz-söz ustadları yetişdirmiş, xalqın sənət məbədgahına çevrilmişdir. Bu torpaqda yetişən qüdrətli sənətkarlar öz ilhamı, öz səsi, öz nəfəsi ilə xalqımızın zəngin könül mülkünü isindirmiş, ona yenilməzlik, misilsiz ülviyyət bəxş etmişdir.

Ulu Göyçə torpağı əsasən dörd bölgədən ibarət olmuşdur: Kəvər (Yeni Bayazed - Kamo), Qaranlıq (Martuni), Çənmərək (Krasnoselo) və Basarkeçər (Vardenis).[1]

---

[1] *Göyçə mahalının komeral təsviri. Bakı 2017- Nadir Əhmədli*

Coğrafi mövqeyinə və iqtisadi durumuna görə Basarkeçər Göyçə mahalının tarixən diqqəti cəlb edən bölgəsi olmuşdur. Göyçə gölünün şərqində, şimal-şərqində və Şahdağ silsiləsinin ətəyində yerləşən Basarkeçər bölgəsi ta qədimdən bəri igidlər oylağı, aşıqlar məskəni, şairlər, aqillər, müdriklər yurdu kimi tanınmışdır.

Göyçə aşıq ədəbi məktəbinin nə vaxt təşəkkül tapması və nə zaman yaranması haqqında dəqiq məlumat yoxdur. Lakin bəziləri bu ədəbi məktəbin yaranmasını görkəmli el nəğməkarları Aşıq Əliqulu və Ağ Aşığın (Aşıq Allahverdinin) adı ilə bağlayırlar. Ağ Aşığı Göyçə aşığı kimi təqdim edirlər. XVIII əsrin axırlarında Göyçə mahalında doğulub ömür sürmüş Ağ Aşıq məşhur söz və saz ustadı Aşıq Alının müəllimi olmuşdur. El arasında Ağ Aşıq adı ilə çağırılmışdır. O, 70 ildən çox ömür sürmüşdür. H.Arif bunu **"Ədəbiyyat və incəsənət**" qəzetində 28 iyun 1969-cu ildə yazdığı məqaləsində təsdiq etmişdir.

Hüseyn Arifin bu fikrini təsdiq edən "Göyçə mahalının kameral təsviri" [2] kitabında rast gəlmək olur. Kameral təsvirdə 1831-ci ildə Ağ Aşığı təsdiqləyən faktlar var: Aşıq Allahverdi Osman oğlu (40 yaş); Oğlu Məhərrəm (10 yaş) Göyçə mahalında Aşağı Keyti və ya Salman kəndində təsdiq edilmişdir. Ağ Aşıq 1842-ci ildən əvvəl Aşağı Keyti kəndini tərk etmiş, 1840-1841-ci ildə Göyçədə qalmış və yeni yaranan Kərkibaşı kəndinə köçmüşdür. Belə çıxır ki, Aşıq Allahverdi 1791-ci ildə anadan olub.

[2] ***Göyçə mahalının komeral təsviri.*** Bakı 2017- Nadir Əhmədli

Kameral təsvirdə H.Arifin bu fikrini təsdiqləyən faktlar üst-üstə düşür.

Bu iddianın doğruluğu, həqiqətə uyğun olması bizdə bir qədər şübhə doğurur. Çünki Ağ Aşıq, Alı, Musa, Ələsgər kimi qüdrətli sənətkarlar yetişdirən bir torpaq uzun əsrlər boyu susa bilməzdi. Ağ Aşıq, onun istedadlı şəyirdi Alı birdən-birə heç bir ənənəyə əsaslanmadan saz və söz sənətinin zirvəsinə yüksəlməzdi. Məmmədhüseyn mahir bir bəstəkar şair kimi ölməz saz havaları, ecazkar şeir nümunələri yaratmazdı. Bu torpağın qoynunda Alılar, Ələsgərlər yetişmiş, İmanlar, Aydınlar saz çalıb, söz qoşmuşlar. Bu əzəmətli diyar Azərbaycan xalqının saz və söz sənətinin qüdrətli keçmişinə, ilhamla coşub-daşan bu gününə, inamla sabahına çevrilmişdir.

Göyçə saz və söz sənətinin hansı əsrdə yaranması haqqında qəti və dəqiq mülahizələr söyləmək çətindir. Bununla belə, ozan sənətinin Göyçədə çox qədimdən mövcud olduğunu sübut edən faktlara, dəlillərə təsadüf etmək mümkündür. Ozanlar adlanan kəndin Göyçədə yerləşməsi, eyniadlı böyük bir tayfanın bu torpaqda yaşaması da belə bir fikir söyləməyə əsas verir.

Göyçə[1] sözünün yaranması ilə əlaqədar bir əfsanədə deyilir: "Şiş dağlarla əhatə olunmuş bir oba vardı. Bu obanın Çingiz adlı igid oğlu qürbətə düşmüşdü. Çingizin Çiçək adlı nişanlısı uzun illər idi ki, həsrətlə onun yolunu gözləyirdi. Bir axşam gur sulu bulaqdan su götürən Çiçək qəflətən "Çingiz gəldi, Çingiz gəldi" sədasını eşidərkən tələsib bulağın tıxacını qoymadan evə yönəlir. Hə-

[1] ***Göyçə mahalının komeral təsviri,*** *2017. Nadir Əhmədli*

min gecə su hər yanı basır. Evlərin çənətindən içəri dolur. Gecə ilə obanın camaatı dağlara çəkilir.

Obanın ağsaqqalı Ömür dədə qəzəblənərək hamını yanına çağırıb bu günahı işləyən adamın kimliyini soruşur.

Çingiz irəli yeriyir, Ömür dədənin əlindən öpüb təzim edir və hadisəni onun nişanlısının bilməyərəkdən törətdiyini açıqlayır.

Ömür dədə Çiçəyi bağışlayaraq deyir:

– Bu da taleyin işidir. Bu hadisə ilə Tanrı bizə göycə bir dəniz verdi. Mən də bu gölə Göyçə gölü adını qoydum.

Bundan sonra göl böyüdü, bütöv bir mahalın aynasına çevrildi. Bu mahal Göyçə adlandı".

Bəli, bu, dədəmiz Qorquddan da çox-çox əvvəl Ömür dədənin yerimizə verdiyi yurd adıdır.

Əmir Teymur ölkələr fəth edəndə Göyçədə də olub. Hər yerdə onu duz-çöräklə qarşılayıblar. Lakin Basarkeçərdə onun qabağına əlisilahlı döyüşçülər çıxıb.

Əmir tapşırıbmış ki, bu yerin adamlarına toxunmayın. Bu əməliyyata rəhbərlik edən sərkərdələrdən biri də Nərgiz adlı qadın olmuşdur. O, Əmir Teymurla görüşür və onlara silahlı müqavimət göstərildiyini bildirir. Əmir Teymur qəzəblənərək deyir: "Bu yerdə qoçaq sərkərdə basar, keçər!" Əmr verilir, qoşun bu kəndləri basıb keçir. Beləliklə, "Basarkeçər" sözü uzun illər türk ellərindən birinin müqəddəs adı olmuşdur.

Bir sıra yazılı mənbələrdə göstərildiyi kimi, Ş.İ.Xətai 1501-ci ildə Şirvandan Gəncəyə, oradan isə Xınna dərəsi

ilə Göyçəyə gəlmişdir. Başının böyük dəstəsi ilə Altunkənd yaxınlığındakı (indiki Çənmərək-Krasnoselo) düzəngahında dincəlmişdir. Burada olduqca səfalı, güllü-çiçəkli, geniş bir ərazi Xətainin diqqətini cəlb eləmişdir. Bir neçə gün bu ətrafda dincəlməyə üstünlük verən Şah yaxın örüşləri gəzmiş, böyük və laləzar bir dərənin füsunkar təbiəti onu valeh etmişdir. Rəvayətə görə, həmin dərəyə baxanda heyranlıqla "Nə gözəl dərədir" deməsindən sonra həmin dərə "Gözəldərə" adı ilə tanınmışdır. Şahın qoşununun dincəldiyi düzəngah isə "Şah meydanı" adlanmışdır.

Tarixi mənbələrdən, eləcə də rəvayətlərdən aydın olur ki, Nadir Şah Əfşar 1738-ci ildə Göyçədə olmuş və həmin gəlişi ilə bağlı bir sıra toponimlər yaratmışdır. "Topaşan", "Zəncirçıxan", "Şahocağı", "Nadir təpəsi", "Nadir bulağı" məhz bu qəbildəndir.

Göyçədə izi olan şəxslərdən biri də Şah Abbasdır. O, Göyçə torpağını kəndbəkənd gəzib, camaatın dolanması, əhval-ruhiyyəsi ilə tanış olub. Dərələyəzlə Göyçə arasındakı aşırımda "Karvansaray" tikilməsinə fərman vermişdir. Sonralar bu karvansaray "Şah Abbas karvansarayı" adlanmışdır.

Koroğlu ilə bağlı olan yer-yurd adları diqqəti daha da yaxından cəlb edir. Əvvəla, aşıqlar və ağsaqqalların yorum-yozumlarında deyilir ki, Alı kişi öz ilxısını Göyçə gölünün kənarında otararkən göldən çıxan ayğır ilxıdakı maydanlardan birinə yaxınlaşır və bir müddətdən sonra Qırat, Dürat dünyaya gəlir.

Göyçənin Şorca kəndi yaxınlığındakı "Ada təpə" deyilən dağın başına camaat yüz illərdi ki "Koroğlu" de-

yir. Hətta həmin dağın başında olan tövlə yeri və dəlik bir daş da Koroğlunun yurd yeri kimi xalqın şüurunda yaşayır. 1908-ci ilin xatirəsində Kəvər kəndinin üstündəki Uca dağın adı "Çənlibel"dir. O cümlədən Kərkibaşda Çərək daşı – Koroğlu dəlilərinin yerdən çıxardığı nəhəng sınaqlı bir qaya da Koroğlunun adını daşıyır.

Osmanlı işğalı dövründə tərtib edilmiş sənədlərdə Göyçə mahalı haqqındakı məlumatları nəzərdən keçirməzdən qabaq "Göyçə" adının coğrafi və inzibati-ərazi vahidi kimi nə vaxtdan meydana çıxmasına toxunmaq lazım gəlir.

"Göyçə"[1] adına ilk dəfə Zeynalabdin Bin Həmdulla Qəzvininin "Zeyle Tarix-e qozide" (seçilmiş tarixə əlavə) əsərində rast gəlinir. Hicri-qəməri tarixlə 744-cü ildə (miladi 1343-1344-cü il) baş vermiş hadisələri nəql edən Qəzvini yazır: "Əmirlər (çobanilər) Şəmbi-i Qazanda olduqları vaxt xəbər çatdı ki, Sultan Əbu Səidin Ruma göndərdiyi və Qarahisar qalasında məhbus olan əmir Surğan əmir Çobanoğlu qalanın kutvalını öldürüb çoxlu adamla bu tərəfə gəlir. Yağı Başdı və Məlik Əşrəf onu qarşılamaq adı ilə Naxçıvan və Şərura getdilər. Və Məmuriyyədə birbiri ilə qarşılaşdılar. Oraya çoxlu qoşun toplandı.

Oradan Qəsrtağa və Əmir Çobanın yaylağı olan və həqiqətən çox gözəl yay məskəni sayılan Göyçə dənizə getdilər. İki aya yaxın orada qaldılar. Surğan və Yağı Başdı Saray Süleyman Bahadır yolu ilə Naxçıvanda Məstəkuhun ətəklərindən keçib Məmuriyyətdə məskən saldı-

[1] ***Göyçə mahalının komeral təsviri,*** *səh.11-20. Nadir Əhmədli*

lar. Sonrakı gün Araz çayından keçib Göyçə dəniz yolu ilə Arrana getdilər".

Əmir Teymurun 1386-cı ildəki yürüşlərindən bəhs edən müəllif daha sonra yazır: "Təbrizin xaraba qaldığından, rəiyyətin taqətsizliyindən və çıxılmaz vəziyyətindən xəbərdar olan kimi mərhəmət göstərib onlardan yalnız nal haqqı aldı və o vəchin (toplanmasını) Xacə Nizaməddin Yəhya Semnaniyə tapşırdı. Özü Təbrizdən Naxçıvan yolu ilə Göyçə-dənizə getdi. Bir gün Əlincə qalasının ətəklərində vuruşdu və qışda Qarabağa gedib orda qışladı".

Göründüyü kimi, ərazinin adından "Göyçə-dəniz" olaraq bəhs edilir.

Yazıya alınma tarixini 1453-1461-ci illər arasına aid etdiyimiz "Kitabi-Dədə Qorqud"da da bu ada iki yerdə rast gəlirik: "Qazan bəy oğlu Uruz bəyin dustaq edildiyi boy"un Drezden nüsxəsinin 126-cı səhifəsində Qazan xanın dilindən deyilir: "Mən bu oğlanı alayın, ava gedəyin. 7 günlük azuğa çıqayın. Ox atdığım yerlərə. Qılınc çalıb baş kəsdiyim yerləri göstərəyim. Kafir sərhədinə, Qızığlara, Ağlağana, Göyçə dağa aluban çıqayın. Sonra oğlana gərək olur, a bəylər? – dedi".

"Uşun Qoca oğlu Səqrək boyu"nda isə belə deyilir: (Drezden nüsxəsi, 255-ci səhifə: "Meyxanədə beş gün yemə-içmə oldu. Andan Şiröküz ucundan Göyçə-dənizə dəkin ey çarpdı".

Göyçə dağı ifadəsinin meydana çıxdığı ilk yazılı əsərin isə hələlik "Kitabi-Dədə Qorqud" olduğu anlaşılır.

"Göyçə" adının inzibati-ərazi vahidi kimi işlədilməsinə ilk dəfə Qaraqoyunlu hökmdarı Cahanşahın (1397-1467) 31 il (1436-1467) fərmanında rast gəlinir. Onun

1449-cu ildən sonra - 1462-ci ildən əvvəl imzaladığı tarixi olmayan bir fərman var ki, burada "Göyçə vilayəti" ifadəsi işlədilir.

Böyük Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin (1423-1478. Və hökmdar olduğu: 1468-1478) tapşırığı ilə yazılmış "Oğuznamə"də – Əbu Bəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərində oğuz türklərinin soy-kökündə duran Oğuz xaqanın Göyçə dənizi ətrafında yaşadığı və burada dəfn olunduğu qeyd edilir. Xanlar xanı Bayındır xan və bir çox digər oğuz sərkərdələri də özlərinin ata-baba yurdu olan bu diyarda fəaliyyət göstərmiş, burada dünyalarını dəyişmiş, dəfn olunmuşlar.

Bir sıra müəlliflər XVII əsrdə yaşadığı güman edilən böyük türk aşıq-şairi Qaracaoğlanın Varsaq yurdu Fekenin Adana vilayəti Göyçə kəndində doğulduğunu yazırlar.

Bütün bu yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki:

a) "Göyçə" adı A.Gökbelin yazdığı kimi, Boy bəyinin adından götürülmüşdür;

b) Göyçəli tayfası Üç Ox oğuzlarından olan Varsaq türklərinin altı boyundan biridir (Üç Ox oğuzlarının adı Dədə Qorqud dastanlarında İç Oğuz kimi qeyd edilir).

c) Göyçə mahalının adı XIII-XIV əsrlərdə bu ərazilərdə məskunlaşmış Göyçə-Gökçə tayfasının adından götürülmüşdür.

d) Müxtəlif müharibələr, o cümlədən I Şah Abbasın İrəvan əyalətini (Çuxursədd bəylərbəyliyi) 1603-cü ildə Osmanlılardan geri aldığı hadisələr zamanı həyata keçirdiyi "Yandırılmış torpaq" taktikası ilə əlaqədar olaraq burada yaşayan Göyçəlilər Osmanlı imperatorluğuna köç

etmiş, amma onların adı həmin ərazidə qalmaqda davam etmişdir.

Bu gün Ermənistan adlanan torpaq vaxtı ilə türk mənşəli 15-dən artıq böyük mahaldan ibarət olmuşdur. Bu mahallardan biri də igidlər oylağı, saz-söz məbədgahı Göyçə mahalı idi. Göyçənin Basarkeçər bölgəsində 44 azərbaycanlı kəndi var idi.

Göyçə – 3172 kvadrat km.dən artıq bir ərazidə (gölün ərazisi bura daxil deyil) Göyçə gölünün (indiki Sevan gölü) ətrafındakı oğuz ellərinə verilən qədim addır. Cənubdan Ağzıbir dağları ilə Gərnibasar, Dərələyəz, Qərbdən Dərəçiçək, Şərqdən Cavanşir, Şimaldan Şahdağ silsiləsi ilə Gədəbəy, Şəmsəddin mahalları və Qaraqoyunlu dərəsi ilə çiyin-çiyinə dayanmışdır. Bir sözlə, indiki (Kamo) Kəvər, Martuni (Qaranlıq - Gözəldərə), Vardenis (Basarkeçər) – mənim üçün dünyada ən tikanlı söz "Vardenis"dir – və Krasnoselo (Çənmərək) bölgələrinin ərazisinə ulularımız Göyçə mahalı demişdir.

Lakin keçmiş vaxtlar Çuxur Səddə "Göyçə mahalı aşıqlar yetirir", deyərlərmiş. Deyirlər Göyçə mahalında ilk aşıq məktəbini də Miskin Abdal açıb. Ondan sonra bu məktəbi Göyçə mahalının görkəmli sənətkarı – Ağ Aşığın ustadı Aşıq Əliqulu, daha sonra isə Göyçə aşıq məktəbinin bel sütunları – Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Ələsgər davam etdirmişlər.

Yeri gəlmişkən bu məsələnin bir cəhətini də qeyd etmək istərdik. Müxtəlif dövrlərdə və mahallarda çalıb-çağıran aşıqlar az olmamışdır. Lakin aşıq sənəti tarixində müxtəlif dövrlərdə yaranmış, əsasən iki güclü aşıq məktəbi olmuşdur. Onlardan biri: Arazın o tayında yetişən və

Aşıq Qurbani ilə tanınan, sonralar Abbas Tufarqanlı kimi qüdrətli sənətkarın adı ilə məşhurlaşan aşıq məktəbi; digəri: Göyçə mahalında Aşıq Alının adı ilə tanınan, nəhayət, fövqəladə istedada malik olan Aşıq Ələsgərin simasında böyük şöhrət qazanmış Göyçə aşıq məktəbi olmuşdur.

Sazlı-sözlü, nağıllı-dastanlı qədim Göyçə mahalı... Oba-oba, oymaq-oymaq, el-el gəzib dolaşan, ağır-ağır yığnaqlar yola salan, məclislər yaraşığı telli saz bu yurdun bəzəyi, pənahı, ümididir. Bu yurdun hər daşından, qaya parçasından, hər qarış torpağından ata ünlü, Koroğlu sözlü-soraqlı sazın xoş avazı eşidilir, ürəklərə sərinlik gətirir, ruha qida verir, könül xoşluğu, ağız şirinliyi bağışlayır.

Bir zamanlar dədəmiz ulu Qorqud uca, mavi dağlar qucağında – Göyçə gölünün sahilində qopuz çaldı, boy boyladı, söy söylədi. 15 yaşlı İsmayıl Səfəvi öz qızılbaş əmirləri ilə bu yurda təşrif gətirdi. El sənətkarları Miskin Abdalla ülfət bağladı. Saza-sözə qonaq oldu, hörmət, məhəbbət gördü...

Məlum olduğu kimi, son iki əsrdə Göyçə aşıq sənəti və poeziyası misli görünməmiş bir inkişaf yolu keçmiş, zəngin ənənələrə malik olan Azərbaycan saz və söz sənətinin bayraqdarına çevrilmişdir. Miskin Abdalın sənətindən güc alan Aşıq Əliqulu, Ağ Aşığın adı ilə bağlanan, Alı, Məmmədhüseyn, Musa, Məhərrəm, Əziz, Aydın, Hacı sənəti ilə kamilləşən, Ələsgərin şəxsində yüksək zirvəyə çatan, bu gün də öz ənənələrinə sadiq qalan Göyçə ədəbi məktəbi sazlı-sözlü dünyası ilə məşhurdur.

Göyçə şairlər yurdu, aşıqlar diyarıdır. Xalq şairi Hüseyn Arif bu münasibətlə etdiyi söhbətlərin birində Göyçə aşıq ədəbiyyatını Qobustan qayalıqlarına bənzətmiş, araşdırdıqca buradan çox zəngin və qiymətli bədii xəzinə üzə çıxdığını söyləmişdir.

Sazın həzin sədaları altında bir daha xəyala dalırsan, əzəmətli Şah dağı sanki dilə gəlib deyir: Axtarın Göyçənin şeiriyyət dolu tarixi keçmişini, bu günü inamla axtarın! O sizə nələr deyəcək, nələr bəxş edəcəkdir!

Aşıq Ələsgər kimi saz ustalarının yaradıcılığına həqiqi, obyektiv qiymət vermək üçün XVI-XX əsrlərdə yaşayıb-yaradan Göyçə aşıqlarından Miskin Abdal, Əliqulu, Ağ Aşıq, Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa, Aşıq Məhərrəm, Usta Abdulla, Növrəs İman, Mirzə Bəylər, şairlər – Hacı Aydın, Niftalı, Qara Kazım və s. kimi el sənətkarlarının irsini dərindən, diqqətlə araşdırmaq lazımdır. Çünki bu sənətkarlar bir-biri ilə bağlı, əlaqəli şəkildə inkişaf edib şöhrət qazanmışlar.

Mirzə Bəylər beş dildə sərbəst danışan, dövrünün savadlı, alicənab, klassik üslubda şeirlər yazan ziyalılarından olmuşdur. Şair Hacı (Əlişağa) gözəl qəzəllər və qoşmalar müəllifi kimi tanınmışdır. O, "Molla Nəsrəddin" jurnalının Göyçədə yayılmasında böyük əmək sərf etmişdir. Şişqayalı Aydın (1825-1915. Ömrünün çox hissəsi sürgünlərdə keçib) və Aqil (Niftalı Qafarov) el şairləri kimi dəyərli əsərlər yaratmışlar. Şair Xəstə Bayraməli Göyçə ədəbi mühitində yazılı ədəbiyyatın nümunələrini yaradan öncül sənətkarlardandır.

Avropanın qabaqcıl təhsil ocaqlarında təhsil alan və beş dili mükəmməl bilən Mirzə Bəylərin və Mirzə Əsgə-

rin təşəbbüsü ilə Zodlu Səməd ağa 1885-ci ildə Zod kəndində məktəb açır və məktəbin xərclərini öz üzərinə götürür. Səməd ağa dərin biliyə və savada malik olan Mirzə Bəylərin və Hacı Əlişağanın vasitəçiliyi ilə "Molla Nəsrəddin" jurnalının Göyçədə yayılmasına geniş imkan yaradır.

XVIII və XIX əsrdə xalqımızın ulu sənəti Aşıq Allahverdinin, şair Məmmədhüsöynün, Aşıq Alının, Aşıq Musanın və Aşıq Ələsgərin şəxsində əsl intibah dövrünə çatır. Göyçə aşıq məktəbi yaranır və bütün türk dünyasında bu sənətin bayraqdarına çevrilir.

XX əsrin istər əvvəllərində, istərsə də ortalarında Göyçə aşıq məktəbinin yetirmələri bütün Qafqazda tanınır: Aşıq Məhəmməd (Qurbanoğlu), Alçalı Məhərrəm (Alının şəyirdi), Şişqayalı Aydın (Alının şəyirdi), şair Hacı, şair Kazım, Aşıq Nəcəf (Daşkəndli Ələsgərin şəyirdi), Aqil, Aşıq Ağayar, Növrəs İman, Aşıq Yunus, Şair Bəhman, Aşıq Əsəd, Aşıq Talıb, Aşıq Nəcəf, Aşıq Məhəmməd və b.

Göyçə bu gün də öz ənənəsinə sadiqdir. Onun ilham çeşməsi yenə də gur şəlalətək coşub-çağlayır. Sazlı-sözlü Göyçə əbədiyyətə qovuşan sənət yolunu davam və inkişaf etdirir.

*Ulu Göyçə, nələr olub yaşında,*
*Min bir hikmət torpağında, daşında.*
*Tarix yaşar Qara quzey başında.*
*Babaları çox ziyarət etmişəm.*
*Bu kamala uşaq-uşaq yetmişəm!*

Öz ruhu, öz nəfəsi ilə yəqin ki, artıq sizə doğma görünən bu misralar **"Heydərbaba şairi"**nin ana dilli şeirdə yaratdığı təlatümə təzə bir dalğa kimi qoşulub. Dəclə və Fəratdan, mavi Xəzərdən, Göygöldən sonra "Heydərbabaya salam"ın əks-sədası Göyçə gölü sahilindən gəlib, durna gözlü bu gözəlin şair oğlu, müəllim, Ağbulaq kənd sovetinin işçisi olmuş şair Eldar İsmayıl Şəhriyarın mahnısını Aşıq Alının və Ələsgərin sazında çalıb. El-obaya, torpağa-daşa, ana dilinə, ana vətənə müqəddəs pərəstiş sazdan-saza, sözdən-sözə keçir. Göyçəni oymaq-oymaq gəzib, gördüyünü şeirə düzən şair onun hər daşında, hər müqəddəs qarışında, ana təbiətin tarixində, ana vətənin və elin taleyində bir hikmət oxuyur, hər kiçik lövhəsindən rəssam fırçası ilə şeir naxışı toxuyub:

*Göyçə gölü özü boyda bulağım,*
*Ləpələrin qırçınları qolbağım,*
*Sən güzgüsü ol, Kirkipli də darağım,*
*Günəş burda öz saçını darasın,*
*Ay-aynanda ilk eşqini arasın?...*

Ünvanı, imzası 2000 il əvvəlin adına və yaddaşına həkk olunan, dədə Göyçənin tarixini vərəqləyən şair onun dağdan ağır kişilərini, ləyaqətli igidlərini, söz sərraflarını, xalq yaddaşında yaşayan neçə-neçə el sənətkarını məhəbbət və hörmətlə yada salır. "Qüdrətdən yaranan" babalarımızın ölməz ruhu, yaşayan bu ağsaçlı torpağın hənirtisi, isti nəfəsi ilə könülləri oxşayır, qəlbləri isidir, şirin-şəkər mahnıları Göyçə sularının və Göyçə səmasının dumduru aynasına yazır. Sarı simlər Miskin Abdal, Aşıq Əliqulu, Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq

Alı, Aşıq Ələsgər, Aşıq Musa,[1] Növrəs İman, Zodlu Abdulla (təcnis şairi), Aşıq Nəcəf, Aşıq Əsəd, Aşıq Musa,[2] şair Kazım, Aşıq Aqil yenidən meydana girir. Alının, Ələsgərin, Əsədin təcnisləri dil açır...

Doğrudan da, Göyçə sənətkarlar yurdudur. Bir daha Göyçənin təsvirini, orda yaşayan sənətkarları təsdiq etmək üçün Eldar İsmayılın yazmış olduğu **"Ulu Göyçə"** poemasına diqqət yetirək:

*Ulu Göyçə, bir qopuzun tufanı,*
*Çənlibeldən qovub tökər dumanı...*
*Səndə yaşar Dədə Qorqud gümanı,*
*Bu uğurun xeyir olsun, şad olsun.*
*Dünya boyu bu ad sənə ad olsun!*

*Ulu Göyçə, Xan Kərəmin yanğısı,*
*Sinəndə dağ, qul dilqəmin ağrısı...*
*Naldan qopan Qıratınmı çınqısı?...*
*Saza söylə, ildırımtək gurlasın!*
*Sarı simlər şimşək kimi parlasın!*

*...Ulu Göyçə, tülək tərlan yaylağı,*
*İgidlərin, cəsurların oylağı...*
*Mərd kişinin sönən deyil ocağı,*
*Ocaq dağı, məğrurluğun var olsun,*
*Sənin eşqin övladına yar olsun!*

---

[1] *Göyçədə iki Aşıq Musa olub. Biri Aşıq Alının şəyirdi Qaraqoyunlu Aşıq Musa (1830-1912) – "Nə günahı telli sazın" gəraylısının müəllifi. Musanın atası Səfər Qazax qəzasının Tatlı kəndindən köçüb Qaraqoyunluda, sonra isə Ağkilsədə yaşamışdır.*

[2] *Ağkilsəli Aşıq Musa (1909-1948) Növrəs İmanın qardaşıdır.*

*Ulu Göyçə qayıq sürdük o taya,*
*Sazdan qopub çınqı düşdü dəryaya!*
*Göy dalğalar qanad çaldı bu haya,*
*Ədalətin "Kərəmisi" yayıldı,*
*Ağır dağlar mürgüsündən ayıldı.*

*Ulu Göyçə Ağbulağın səfası,*
*Gözəllərin sədaqəti, vəfası.*
*Aşıqların yetmiş iki havası,*
*Aqildənmi, Kazımdanmı yadigar?!*
*Axı ... bir elin neçə belə oğlu var!*

*...Ulu Göyçə, ululardan ulusan,*
*Çəmənlisən, çeşməlisən, sulusan.*
*Ələsgərin gövhərilə dolusan,*
*Dünya boyu bu xəzinən var olsun.*
*Bar gətirsin, baxtın sənə yar olsun!*

*Ulu Göyçə yüz yaşatdın Alını,*
*Ellər dadıb sözlərinin balını.*
*Soruşdunmu qoca vaxtı halını,*
*Özü getdi, kişnər qaldı Qəməri,*
*Nələr yazdı bu dağların Homeri?*

*Ulu Göyçə ustadlardan söz düşdü,*
*Qızılvəngdə ürəyimə köz düşdü.*
*Qəbristana axşamüstü iz düşdü,*
*Burda Alı, burda Həcər yatıbdı...*
*Söz sərrafı burda qəmə batıbdı!*

*Ulu Göyçə, şeir-sənət çıraqlı,*
*Miskin Abdal, Dədə Alı soraqlı...*
*Dilqəm ünlü, "misri"-"cəngi" yaraqlı,*
*Bu ünvanın eşqi-andı belədi;*
*Saza baxdım, məni sözə bələdi!*

## GÖYÇƏMİZ - QİBLƏGAHIMIZ![1]

Göyçə!...

Səsi əsrlərin dərinliyindən gələn mahallar mahalı...

Ünlü türk əfsanələrinin, xatirələrinin ulu beşiyi...

Yaşı min il əvvələ səsləşən alpərlər, xan-xaqanlar, oğuz-kağan firanlarının ayğır at yalmanına yatıb, dəli nərələr çəkib düşmən üstünə yetirdiyi yurd yerimiz...

Göyçə!...

Bütün türk dünyasının ən əski adət-ənənəsini özündə min illər boyunca yaşayıb-yaradan, türkün laylasından avazlanan, hər simində bir ocağın atəşi, bir ordunun harayı olan qopuzumuzu saz adı ilə bu günümüzə çatdıran oğuz elləri!...

Qanımızın axarından, ruhumuzun coşqunluğundan doğulan ulu aşıq sənətimizin və milli şeirimizin konservatoriyası, bu sahədə türk dünyasının tacidarı olan sevgili Vətən...

Tomrisin, Əmir Teymurun, Şah Xətainin, Nadir Şahın, Şah Abbasın, Qoç Koroğlunun ayaq izini torpağına

[1] ***"Ağrı dağı qədər ağrılarım var";*** *səh. 5. Bakı-Ağrıdağ, 1999 - Eldar İsmayıl*

yazan, harayını, dəli nərəsini qayaların, dərələrin qulağından asan müqəddəs yurd yerlərimiz, baba ocağımız...

Ozanlar ustadı Dədə Qorquddan Dədə Ələsgərə qədər keşməkeşli oğuz dünyasının mənəvi və fiziki varlığını özündə cəmləyən ərənlər, övliyalar məmləkəti – Göyçə mahalı!

***

İndi isə xalq şairi Hüseyn Arifin ***"Göyçə"*** şeirini nəzərdən keçirək:

*Ayağı ləpəli, başı bulaqlı,*
*Lilparlı, yarpızlı, çiçəkli Göyçə*
*İstili, soyuqlu, aranlı, dağlı,*
*Günəşli, yağışlı, küləkli Göyçə.*

*Moruqlu, zırnıclı, çaşırlı, kığlı,*
*Tütünlü, buğdalı, ballı, balıqlı,*
*Xamalı, qaymaqlı, yağlı, qatıqlı,*
*Qoyunlu, quzulu, inəkli Göyçə.*

*Gecəsi ulduzlu, səhəri mehli,*
*Qayası mamırlı, çəməni şehli.*
*Bir də görürsən ki, qövsi-qüzehli,*
*Belinin kəməri bəzəkli Göyçə.*

*Ağbulaq, Ardanış, Şorca, Babacan,*
*Cildə ömür etdim mən də bir zaman.*
*Keçmə Ağkilsədən, Zoddan, Qanlıdan,*
*Daşkəndli, Məzrəli, Pəmbəkli Göyçə.*

*Alı, Məmmədsöyün, Musa, Ələsgər,*
*Saz tutub, söz deyən yüz sinədəftər.*
*Dastanlar, nağıllar, ustadnamələr,*
*Məclisli, qonaqlı, çörəkli Göyçə.*

*Azmı Topaşanda yorulub yatdım,*
*Baharda güllərin ətrinə batdım.*
*Səsimi çayların səsinə qatdım,*
*Göyləri buludlu, şimşəkli Göyçə.*

*Çox payız dolanıb, çox bahar keçib,*
*Gözümün önündən boran, qar keçib.*
*Uzun yollar keçib, yoxuşlar keçib,*
*Ümidli, arzulu, diləkli Göyçə.*

*Yeraltı damlardan qalmayıb əsər,*
*Şəfəqlə oyanır evlər-eşiklər.*
*Şişqaya, Kəsəmən şəhərə bənzər,*
*Asfaltlı, ağaclı, dirəkli Göyçə.*

*Sarınərin beli, Ağgölün qaşı,*
*Mahının göy daşı, Şahın ağ başı...*
*Çıxmaz xəyalımdan torpağı-daşı,*
*Əzəldən Hüseynə istəkli Göyçə.*

Hələ vaxtı ilə Nərimanlı şair Xəstə Bayraməli özünün yazdığı gəraylı, qoşma, divanilərdə Göyçəni və Göyçəliləri çox gözəl tərənnüm etmişdir.

**"Göyçə"** gəraylısında Göyçəni belə təsvir edir:[1]

*Aşıqlar sözü, söhbəti,*
*Şair gövhər-kanı Göyçə!*
*Harda olsam vətənimsən,*
*Ömrümün həyanı Göyçə!*

*Dərələrin dərin-dərin,*
*Səfası var bu yerlərin,*
*Gövhər kimi suyun sərin,*
*Dərdlərin dərmanı Göyçə!*

*Gözəllərin saf diləkli,*
*Oğulların mərd ürəkli,*
*Süfrən açıq, duz-çörəkli,*
*Qarşılar mehmanı Göyçə!*

*Eldə axtar qismətini,*
*Ucuz tutma qiymətini,*
*Mərdə elə hörmətini,*
*Adamları tanı, Göyçə!*

*Sərvətindi sədəfli saz,*
*Hüsnündən ruhumuz doymaz.*
*Nadan ürək səni duymaz,*
*Ariflər meydanı Göyçə!*

---

[1] ***Xəstə Bayraməli,*** *"Mənim Göyçəm" şeirləri, Bakı - "Yazıçı", 1987.*

*Haram bişsə ocağında,*
*Ağlayarsan o çağında,*
*Kim doğulub qucağında,*
*Halal olub qanı, Göyçə!*

*Bayraməli söz düşəndə,*
*Söhbətini düzər bəndə,*
*Namus səndə, qeyrət səndə,*
*Sənin tayın hanı, Göyçə!*

## MƏNİM GÖYÇƏM
**(gəraylı)**

*Yenə gəldim qucağına,*
*Heyran oldum bu çağına,*
*Qoy isinim ocağına,*
*Mənim ömrüm-günüm, Göyçəm.*

*Güneylərin süfrə sərdi,*
*Quzeylərin lalə dərdi,*
*Sənsiz könül qəribsərdi,*
*Düşdü sənə yönüm, Göyçə.*

*Taleyin möhnətindəyəm,*
*Bir az darda, çətindəyəm,*
*Çoxdandı həsrətindəyəm,*
*Gəl başına dönüm, Göyçəm.*

*Xəyalım keçmişə axdı,*
*Ötən günlər çox uzaqdı,*
*Könlümün pərişan vaxtı,*
*Sən olubsan ünüm, Göyçə.*

*"Qumlu bulaq"sız suzmuşam,*
*Həsrət göləndə üzmüşəm,*
*Qəriblikdə çox susmuşam,*
*Qoy danışıb-dinim, Göyçə.*

*Lalələrlə dinişməyə,*
*Yarpızınla su içməyə,*
*Çaylarınla görüşməyə,*
*Dərələrə yenim, Göyçə.*

*Bayraməli öz əlinnən*
*Bəzər səni söz əlinnən.*
*Ellər bilir əzəlinnən,*
*Sən mənimsən, mənim, Göyçə.*

## GÖYÇƏLİ
**(*qoşma*)**

*Elin keçmişindən bədgüman olma,*
*Nuhu gəmisində görüb Göyçəli.*
*Min bir dastanı var qərinələrdə,*
*Yarılmaz dağları yarıb Göyçəli.*

*Ömrünü bağlayıb hər saf diləyə,*
*Çapıb köhlənini üzü küləyə,*
*Döndərib qəlbini halal süfrəyə,*
*Dostlar qarşısında sərib Göyçəli.*

*Əhdə sadiq olub son imkanıynan,*
*Namus ləkəsini yuyub qanıynan,*
*Sədaqət yolunda keçib canınnan,*
*Qeyrət qalasını qurub Göyçəli.*

*Tapıb yerin-göyün ilk mənasını,*
*Elin şadlığını, elin yasını,*
*Doğurub mərdliyin təmənnasını,*
*Namərdi meydanda yorub Göyçəli.*

*Gücü qolundadı, qəlbi dilində,*
*Şöhrəti, şərəfi öz əməlində,*
*Ölümdən qorxmayıb yeri gələndə,*
*Ər oğlu ər kimi durub Göyçəli.*

*Bayraməli deyər qəlbimə dəyib,*
*Bir elin adında axtarma eyib,*
*Arxadan danışmaq yaraşmaz, - deyib,*
*Düşməni gözündən vurub Göyçəli.*

## GÖYÇƏM

*Söylə, niyə dumanlıdı zirvələrin, mənim Göyçəm,*
*Bəlkə yenə oyanıbdı dərdi-sərin, mənim Göyçəm!*
*Çözələmə sən şairin qəm gileyli yaddaşını,*
*Vaxt olub ki, başımıza çox atıbdı yad daşını.*

*İlk adını qayalardan sıyırmağa çalışıblar,*
*Səni məndən, məni səndən ayırmağa çalışıblar.*
*Mən oturub vərəqlədim tarixləri bu acığa,*
*Min illərin gerçəyini kim salıbdı dolaşığa?*

*... Deyiblər ki, bu təsviri söyləməklə gəlməz saya,*
*Ulu babam heyran qalıb bu ilahi tamaşaya.*
*Nərə çəkib: - dayandırın karvanımı bu yerlərdə,*
*Sonra onun telli sazı dilə gəlib pərdə-pərdə.*

*Vəsf edibdi gördüyünü "Gözəlləmə" havasında,*
*Heyran-heyran qulaq asıb ona quşlar yuvasında,*
*Deyibdi ki, bu yaylağın sönməz olsun odu gərək,*
*Belə gözəl bir məkanın Göyçək olsun adı gərək.*

*O gündən də bu ad bütün dağda, daşda səslənibdi,*
*Aşıqların nəğməsində şirin-şirin bəslənibdi.*
*O gündən də ulu babam qucağında yuva salıb,*
*İllər keçib tarixlərdə "Göyçək" adın Göyçə qalıb.*

*Aylar, illər qucağında şellənibdi obaların,*
*Sən istəkli mahalısan nəvələrin, babaların.*

*Ancaq sakit dayanmayıb tarixlərin nəhəng daşı,*
*İstəyiblər bir çoxları inkar edə bu yaddaşı.*

*Ozanların ünvanına şər atıblar müxənnətlər,*
*Elimizə dağ çəkibdi satqın üzlü xəyanətlər.*
*Sən nələrə şahid oldun bu yollarda, mənim Göyçəm!*
*Vaxt oldu ki, qoşa qaldıq intizarda, mənim Göyçəm!*

*Namərd qaynar samovarı kürəyinə bağlayanda,*[1]
*Yanan aşıq öz dərdini telli sazla ağlayanda.*
*Bu naləni eşidəndə sən ağladın, mənim Göyçəm!*
*İgidləri obalardan soraqladın, mənim Göyçəm!*

*Sən ağladın quzeyində, mən ağladım bələyimdə,*
*Amma nakam qalmadı tam, o körpəlik diləyimdə,*
*Günlər keçdi, mən böyüdüm sənin doğma qucağında,*
*Yadlar məni yad bilsə də, öz babamın ocağında,*

*Həqiqətin məhvərini yer üzündən silə bilməz,*
*Saf almazın qiymətini naşı sərraf bilə bilməz.*
*Sən mənimsən,mən səninəm, ayrılmazıq,mənim Göyçəm!*
*Tutqun eynin qoy açılsın, baxma yazıq, mənim Göyçəm!*

*Qoy pərişan eyləməsin hər qəmli şikəstə səni,*
*Belə dumanlı görməsin, Bayraməli Xəstə səni.*
*Qoy çəkilsin, qara bulud dağlarının zirvəsindən,*
*Təki səsin ayrılmasın heç bir zaman el səsindən.*

[1] Daşkəndli Aşıq Nəcəfin belinə qaynar samovarı ermənilər kəndirlə bağlamışlar. Aşığı samovar belində faciəli surətdə öldürmüşlər.

Xalq şairi H.Arif **"Göyçəlilər, dağılmayın Göyçədən"** qoşmasında çox gözəl tərənnüm etmişdir:

*Göyçə qədim, Göyçə ulu Göyçədi,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*
*Var-dövlətli, mal-qoyunlu Göyçədir,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

*Toxulcada axdı bulud, ötdü çən,*
*Xəbər tutdum durnaların köçündən,*
*Atla keçdim Ağbulağın içindən,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

*Göyçə eli şöhrətidir ellərin,*
*"Göyçə gülü" əzbəridir dillərin,*
*Göyçə gölü göyçəyidir göllərin,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

*Xoş ləhcəni, şirin dili saxlayın,*
*Həm sevinci, həm niskili saxlayın,*
*Zodda zodu, Cildə cili saxlayın,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

*Aləm bilir, hər hörmətim sizədir,*
*Dədə-baba məhəbbətim sizədir,*
*Mən Arifəm, vəsiyyətim sizədir,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

Xalq şairi H.Arifin *"Göyçəlilər, dağılmayın Göyçədən"* qoşmasına cavab olaraq şair Bala məzrəli Məcnun Göyçəli **"Dağılmarıq Göyçədən"** qoşmasını yazır:

*Bu dağların bizə gəlir gümanı,*
*Leysan gəlir, duman kəsməz aranı,*
*Qəm-qubara qurban verdik imanı! -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən!*

*Çeşmələrdə nənələrin gözü var,*
*Hər daşında söhbəti var, sözü var,*
*Özümüzdə Ələsgərin özü var,*
*Hüseyn Arif, dağılmarıq Göyçədən.*

*Ürəyimiz köklənibdi söz üstə,*
*"Göyçə gülü" bir-bir ötər saz üstə,*
*Qonaq gəlin, yeriniz var göz üstə, -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən.*

*Burda mənim nağıllaşan anam var,*
*Gül ömürlü, kəm iqballı balam var,*
*Saz yaşadan, söz ucaldan qalam var, -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən.*

*Burda kökük, orda pöhrə, budağıq,*
*Od oğluyuq, od yurduna dayağıq.*
*Təbriz yatmır, bu səbəbdən oyağıq -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən!*

*Ocaqyalı", "Sarı nərə" həyandı,*
*Bir ah çəkdim - "Həsənbaba" oyandı!*
*Ulu Göyçə gözəlliyə qalandı -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən!*

*"Göyçə gölü" ulusumun əzəli,*
*Başdan-başa seyrəngahı məzəli.*
*Tək qoymarıq bu göygözlü gözəli! -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən!*

*Çəmənlərin min çaları, rəngi var,*
*Gur çayların təbiətlə cəngi var,*
*Yurd yerində tüstülənir ocaqlar! -*
*Hüseyn Arif, dağılmarıq Göyçədən!*

Daşkəndli şair Aşıq Alqayıt öz vətənini – Göyçəni **"Göyçədir"** şeirində belə təsvir etmişdir:

*Dünya cənnət olsa, başdan-ayağa,*
*Mənim qibləgahım yenə Göyçədir!*
*İnadım, əqidəm, məzhəbim, dinim,*
*Bu qızıl baygahım yenə Göyçədir!*

*Ana laylasında odu birincim,*
*Amalım, əqidəm, qəmim, sevincim,*
*Alınan şərbətim, satılan incim,*
*Xırd olan mətahım yenə Göyçədir!*

*Əskilsə başımdan dumanı, çəni,*
*Üfüqsüz sanaram ana vətəni,*

*Bir ovuc torpağı kor etsə məni,*
*Deməyim günahım yenə Göyçədir!*

*Nə müddətdi aranlıyam, dağlıyam,*
*Buz donduran nəfəsinə bağlıyam,*
*Mən onun övladı, onun oğluyam,*
*Axır səcdəgahım yenə Göyçədir!*

*Həm gənclik qürurum, tale düşkünüm,*
*Ürəyi bədəndən ayırmaz heç kim,*
*Sibri daşlarında qalan ilk eşqim,*
*O günkü siyahım yenə Göyçədir!*

*Qürbət eldə bənzər olsam bir dağa,*
*Alqaidəm, istəmərəm yox, qağa,*
*Bir ovuc torpağa, bir büküm ağa,*
*Ümidim, pənahım yenə Göyçədir!*

1988-ci il noyabr ayında barmağı daima başqalarının işində olan, güclü və qanmaz havadarları tərəfindən qısqırdılmış, soykökü bilinməyən, bədfeil, xain və vəhşi daşnak quldurlarının divan tutduğu Qızılvəngin əzəli, son sakini qana bələnmiş vücudunu Şeyx Alıya vergi verilmiş, Qiblə bulağından yuyub, min bir zillətlə Dik Pilləkən altı Daşlı Təpədən Koroğlu dəlilərinin açdığı qarlı cığırla Dəli dağdan Kəlbəcərə aşır. Dörd tərəfdən mansırda qalmış köməksiz Göyçəyə dağlar həyan olur. Kərkibaş kəndi isə 1988-ci il 1-6 dekabr arası Göyçəni tərk etdi. Həmin zavallı qaçqının qırılmış misralarından:

Kərkibaşlı kibernetika elmlər doktoru, professor, şair Elbrus Mahmudoğlu bayatı, gəraylı, qoşmalarında Göyçəni çox gözəl tərənnüm etmişdir:[1]

**BAYATILAR**

...Mən aşıq, əyan oldu,
Bəd yuxum bəyan oldu...
Göyçə köməksiz qaldı,
Qarlı dağ həyan oldu.

...Mən aşiqəm, Göyçəyə,
Dağlar qızı göyçəyə,
Xankəndi viran qalsın,
Həsrət qaldım Göyçəyə.

...Nə ağır yükdü bu dərd,
Yüz filə yükdü bu dərd,
Göyçə yiyəsiz qaldı,
Belimi bükdü bu dərd.

...Dünyada təkdi bu dərd,
Sinəmə çökdü bu dərd,
Göyçə aşıq məktəbi...
Dərdimə yükdü bu dərd.

---

[1] ***“Xəbər çata Ağrı dağa”*** *– Bakı, “Gənclik”, 1995. Elbrus Mahmudoğlu*

...Qaçqınam, Göyçədənəm,
Torpaqda göycə dənəm,
Qovuldu Oğuz eli,
Nisgildən Göyçə dənəm.

## GÖYÇƏDƏNƏM
**gəraylı**

Nuh Nəbinin daş qoyduğu,
O viranə Göyçədənəm.
Aşıq Alı nəğmə qoşan,
Gülüstanə, Göyçədənəm.

Bayquları[1] sumaq[2] olub,
Karvan yolu qovşaq olub,
Qoç Koroğlu qaçaq olub,
Bil, mərdanə, Göyçədənəm.

"Gülü düzü" düzdə qaldı,
Ağca quzu küzdə qaldı,
"Göyçə" gülü sözdə qaldı,
Mən, divanə, Göyçədənəm.

---

[1] ***Bayqu*** – alıcı quş;
[2] ***Sumaq*** *– al-qırmızı.*

## GÖYÇƏNİN
*gəraylı*

Təzələndi köhnə dərdi,
Düşdü nifağı Göyçənin,
Gəlmə hayklar quduzdaşdı,
Pozuldu çağı Göyçənin.

El yükləndi maşın-maşın,
Yada qaldı torpaq-daşın,
Ayrı düşdü dost-qardaşın,
İtdi sol-sağı Göyçənin.

Qarlı dağlar çən bağladı,
Göyçə gölü qan ağladı,
Qiblə bulaq yas saxladı,
Dağ oldu dağı Göyçənin.

Göynəyib sızladı insan,
Ərşə dirəndi ah-fəğan,
Yetiş dada, Şahi-Mərdan,
Keşdi çırağı Göyçənin.

Ulu göydən gəldi səda;
Ömrü nahaq vermə bada!
Qaçqınlıq baxtıma nida,
Döndü varağı Göyçənin.

Ərənlərin məzar daşı,
Daşlı bulaq,[1] çeşmə başı,
Koroğludan Çərək daşı,[2]
Qaldı sorağı Göyçənin.

Qorqud dədəmin ocağı,
Xətai şahın ovlağı,
Alı-Ələsgər növrağı,
Hanı aşığı Göyçənin?

Ayrılıq yaman ağırdı,
Göllərdə sonam sağırdı,
Yolların hasarı qardı,
Ağdı duvağı Göyçənin.

Dik zirvədən[3] çınqıl yağa,
Xəbər çata Ağrı dağa,
Azərbaycan! Qalx ayağa!
Söndü ocağı, Göyçənin.

---

[1] ***Daşlı bulaq*** *– Qızılvəngla Qoşatəpə arasında kövsər suyu olan Buzlu və Daşlı bulaq;*

[2] ***Çərək daşı*** *– Koroğlu dəlilərinin yerdən çıxardığı nəhəng və sınaqlı bir qaya*

[3] ***Dik zirvə*** *- yalçın qayalardan zirvəsinə pillə-pillə yol qalxan çınqıllı dağ – dik pilləkən, son nöqtəsindən baxanda Türkiyədə ərşə havalanmış möcüzəli Ağrı dağı ayrıca görünür.*

## İNDİ YUXULARDA GÖRÜRƏM SƏNİ
***qoşma***

*Göyçəm mənim, göy çəmənim, göyçəyim,*
*Şah damarım, qantəpərim, çiçəyim,*
*Döndün xəyallara yönüm, məsləyim,*
*İndi yuxularda görürəm səni.*

*Görürəm Qıratı təzə nişanda,*
*Rəngi al-qırmızı, ağı qaşında,*
*Çapıb səyirdirəm gölün başında,*
*İndi yuxularda görürəm səni.*

*İtirdim anamı, qırıldı qolum,*
*Bilmədim hardadı, sağım, ya solum,*
*Əsdi qara yellər, bağlandı yolum,*
*İndi yuxularda görürəm səni.*

*Qürbət eldə yada düşdün, Əsmərim,*
*Parlayan Günəşim, doğan Səhərim,*
*Cüt Qönçəm anası, təzə-tər Pərim,*
*İndi yuxularda görürəm səni.*

*Uzaq bir diyarda çatdım ad-sana,*
*Adınla ucaldım şöhrətə, şana,*
*Xəyala dönsən də, borcluyam sana,*
*İndi yuxularda görürəm səni.*

*Çıxdım başa Tovrat, İncil, Quranı,*
*Könlüm evi atdı qəmi, hicranı,*
*Rəqs edir gözümdə yazın dövranı,*
*İndi yuxularda görürəm səni.*

*Mahmudoğlu deyir, necoldu atam?*
*Heç girmir yuxuma, qucunda yatam,*
*İsti nəfəsinin ətrinə batam,*
*İndi yuxularda görürəm səni.*

## QAYIDACAĞIQ GÖYÇƏYƏ
***qoşma***

*Şükür, Allah! Ordumuz da yaranır,*
*Görən nə vaxt qayıdacıq, Göyçəyə?*
*Müxənnətə tapdaq oldu yurdumuz,*
*Sığışarmı heç qeyrətə, ölçüyə?*

*Bakı mərkəz, fəqət Göyçə kök, əsil,*
*Türk burda məskən salıb nəsil-nəsil...*
*Nəsl kökdən gen düşərmi? Oyan, Qafil!*
*Qismət ola bədəsilə, naçiyə?*

*Səsimizə səs verəcək Türk, İran,*
*Naxçıvan, Qarabağ, cəm Azərbaycan!*
*Hazırlaşın mərd igidlər bu başdan,*
*Göyçəlilər qayıdacaq Göyçəyə!*

***

**Safalan Göyçəli:**
*Doğma yurdum Kərkibaş,*
*Köçürük yavaş-yavaş,*
*Yağılar bizi qovur,*
*Başlayıb haqsız savaş.*

Göyçəni təsvir etmək üçün Həsən Pərvanənin yazmış olduğu **"Göyçə"** şeirinə diqqət yetirək:

*Nə göyçək ad qoyub ad qoyan kişi,*
*Doğrudan göyçəkdir hər yanın, Göyçə.*
*Ceyranlı, cüyürlü, marallı dağlar,*
*Qızılxal balıqlı ümmanın, Göyçə.*

*Yayda yaylaqların cənnəti-rizvan,*
*Köksündə bəslənən olmazmı cavan?!*
*Suların dərmandı, torpağın loğman,*
*Özündən yaranır dərmanın, Göyçə.*

*Bu göyçək adına ləyaqətin var,*
*Hatəm süfrəlisən, səxavətin var,*
*Gələn qonaqlara çox hörmətin var, -*
*Hər yanda söyləyir mehmanın, Göyçə.*

*Burda öyünməyə ixtiyarın var,*
*Hər evdə, eyvanda sazın, tarın var,*
*Əyilməz, yıxılmaz sənətkarın var,*
*Aşıq məkanıdır məkanın, Göyçə.*

*Həsən Pərvanəyə zövqü-səfadı,*
*Nə fayda ki dünya çox bivəfadı...*
*Şeir xəzinəsi, sözlər ustadı,*
*Hanı Ələsgərin, İmanın, Göyçə?!*

Göyçə həsrəti qəlbimizi kövrəldir. 30 ildən artıqdır ki, Qərbi Azərbaycan, eyni zamanda Göyçə yağıların tapdağı altındadır. Bu mahalda ulu babalarımızın – ulu ustadlarımızın (Miskin Abdal, Əliqulu, Ağ Aşıq, Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Ələsgər və s.) qəbri uyuyur. Vaxt gələcək, vaxt çatacaq torpaqlarımız yadelli işğalçılardan azad olunacaq. Ulu sənətkarlarımızı Göyçə mahalında yad edəcəyik.

Bu baxımdan, şairlər məskəni Göyçə də müqəddəs torpaqdır. Onun əzəmətli dağları, loğman yaylaqları kimi, saz-söz sənətkarları da vüqarlıdır. Miskin Abdal, Aşıq Əliqulu, Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq Alı, Dədə Ələsgər, Daşkəndli Aşıq Nəcəf məhz Göyçədə dünyaya göz açıblar. Onun əsrarəngiz təbiətindən ilham alıblar. Ona görə də biz bu dahi sənətkarlar haqqında qısa məlumatlar verib və axırda isə tədqiqatlar aparıb, əldə etdiyimiz çap olunmamış yeni şeirlərini və rəvayətlərini verməyi məqsədəuyğun bildik.

## USTAD-ŞƏYİRD ƏNƏNƏLƏRİ

Azərbaycan Respublikamızın son illərdə ədəbi irsimizin toplanması, nəşri, tədqiqi və təbliği ilə bağlı qəbul etdiyi qərarlar alimlərin elmi axtarış proqramına çevrilmişdir. Folklor institutu ustad aşıqların şeirlərinin toplanmasında kömək əlini uzadır. Onların şeirlərinin nəşr olunmasına köməklik edir.

Aşıq xalqın həmişə sevimlisi, elin müdrik müəllimi olmuşdur. Bu baxımdan aşıq ədəbiyyatında ustad-şəyird ənənəsini dərindən araşdırmaq vacibdir. Aşıqlıq xüsusi bir sənət növü kimi nəsillərdən-nəsillərə keçir, gənc aşıq ustadının nəcib ənənələrini davam və inkişaf etdirir. Bu gözəl sənət ənənəvi bir hal kimi ustad aşıqların yanında 4-5 ildən artıq yetişən şagirdlər vasitəsilə yaşayır və təkmilləşir. Şagird "aşıq" proqramını "təlim-təhsil" edərkən, ustaddan klassik saz və söz aşıqlarının qoyub getdiyi hikmətləri, fəlsəfəni, etikanı, estetikanı mükəmməl öyrənir. "El anası" adı ilə adlanan aşıq xalqın elçisi, elin carçısıdır. Xalqın acılı-şirinli təəssüratı onun közərən sinəsində, odlu nəfəsində öz ifadəsini tapır. SSRİ Xalq artisti Bülbül yazır: "Aşıq el anasıdır", "Aşıq gördüyünü çağırar", "Bu aşıq haqq aşığıdır". "Bu sözlər öz-özünə deyil, uzun illərin təcrübəsi əsasında əmələ gəlmiş xalqın bədii zövqünün məhsuludur. Evlərdə, məclislərdə çalıb-oxumaq xanəndələrə, məclis qızışdırmaq, dinləyiciləri həyəcanlandırmaq aşıqlara məxsusdur. Aşıq Ələsgər deyərdi ki, aşıq sözü mərbud deməsə, cümləni çeynəsə məclisi soyudar. Aşığın sazı çiynində, səsi boğazındadır. O,

mümkün olan hər yerdə məclis qurur. Bütün qapılar aşığın üzünə açıqdır".[1]

Bu baxımdan xalq arasında işlək dairəsi geniş olan "Aşığa hər yer məhrəmdir" ifadəsi də fikrimizi təsdiq edir. M.H.Təhmasib yazır: "... Bu xüsusi bir məktəb, xüsusi bir təlimdir ki, özünə görə proqramı, qanun-qaydaları vardır. Əsrlərin sınağından keçmiş bu təlim üsulu indi də şagird yetirmək işində tətbiq edilməkdədir. Bu təlimin düzgünlüyü və həyatiliyi sayəsindədir ki, heç bir yerdə yazıya alınmamış saysız-hesabsız şeirlər, bayatılar, yüzlərlə böyük və kiçik həcmli dastan zəmanəmizə qədər yaşayıb gəlmişdir".[2] Ustad-şəyird ənənəsini aşıq sənətini tarixən inkişaf etdirib, yaşadan müdrik xalq məktəbi adlandırsaq səhv etmərik. Ağ Aşığın Əliquluya, Aşıq Alının Ağ Aşığa, Aşıq Ələsgərin, Aşıq Məhəmmədin, Aşıq Qəhrəmanın və başqalarının Aşıq Alıya, Aşıq Ağayar, Aşıq Əsəd, Aşıq Yunis və başqalarının Aşıq Ələsgərə, Aşıq Mirzənin Aşıq Bozalqanlıya, Aşıq Şəmşirin atası Qurbana, Hüseyn Cavanın Aşıq Musaya, Aşıq Kamandarın Aşıq Sadıq və Aşıq Əmraha, Aşıq Ədalətin ağköynəkli Aşıq Məmmədyara; Aşıq Əkbərin Aşıq Qədirə və s. şagird olmaları bu sənəti nəsildən-nəslə keçirir.

Ustad-şəyird məsələsi indi də bir ənənə kimi yaşadılır, ustad-aşıq bir və ya bir neçə şagird götürür. Onlara saz çalmaq, saz havalarının tələbinə müvafiq oxumaq, oynamaq, aşıq ədəbiyyatında işlənən bədii növlərə, rən-

[1] ***"Bülbül"**,- seçilmiş məqalə və məruzələr. Azərbaycan SSRİ EA-nın nəşriyyatı, Bakı, 1968, səh. 197.*

[2] ***M.H.Təhmasib**. Azərbaycan xalq dastanları (Orta əsrlər. Doktorluq dissertasiyası. S.M.Kirov adına ADU-nun kitabxanası, 1964. səh. 62)*

garəng formalara aid şeirlər, dastanlar, qaravəllilər, ümumiləşmiş halda desək, aşıq sənətinin incəliklərini, özünəməxsus spesifik cəhətlərini öyrədir. Ustad, yanına gələn şagirdləri əvvəl ilkin yoxlanışdan keçirir, şagirdin səsinə, nəfəsinə, istedadına yaxşı əmin olduqdan sonra onu şagirdliyə qəbul edir. Ustad yanına qəbul olunan şagird ustadının bir neçə illik zəhmətinin müqabilində, hörmət əlaməti olaraq adətən qabaqcadan öz tərbiyəçisinə imkanı daxilində bəxşiş verir. O, şagirdliyi müddətində bütün məclislərdə, şənlik mərasimlərində ustadı ilə olur. Şagird bu müddətdə ustadının bütün hərəkətlərini, ifaçılıq xüsusiyyətini, danışıq tərzini, el aşığına xas olan mənəvi keyfiyyətləri izləyir. Şagird bunu incəliyinə qədər öyrənməyə borcludur. Əlbəttə, bu dərs üsulu xüsusi dərsliklər və ya proqram əsasında aparılmır. Bu canlı müsahibə, praktik öyrənmə nəticəsində başa gəlir. Şagird ustad yanında olduğu illərdə yalnız ustadının razılığı olduğu günlərdə ailəsi ilə görüşə gedə bilər. Ustad şagirdə adətən şənbə və bazar günləri yanında getməyə icazə verir. Qalan günlərində şagird ustadın ailə üzvlərinin bir nəfəri sayılır.

Maraqlıdır ki, Aşıq Ələsgər öz şagirdlərinə məsləhət görürdü ki, səsləri formalaşana qədər evlənməsinlər. Bəlkə də buna görə ustad aşıqlar şagird qəbul edərkən onları 16-17 yaşlarından götürmürlər. Ustad şagirdin boy-buxununa, səs quruluşuna xüsusi diqqət yetirir, ağzı kiçik, dili pəltək, səsi cır olanları şagirdliyə qəbul etmir. Ustad təlimi müddətində şagirdinin bir el aşığı kimi bütün davranışına, ifaçılığına tələbkarlıqla yanaşır. Saz havacatlarını bilmək, onu incəliyinə qədər kök məqamı və pərdə düzü-

mündə çalıb-oxumaq ustad-şəyird ənənəsində əsas cəhətlərdən biridir. Sazın köklənməsini kamil öyrəndikdən sonra şagird məclislərdə həm özünün, həm də ustadının sazını kökləyir. O, ustadının icazəsi olmadan məclis aparmır.

İstər toy, istər müəyyən məqsədlə təşkil olunmuş şənlik mərasimlərində şagirdə, onun kamil ifaçılıq bacarığına görə xələt, nəmər, şabaş verərlərsə, şagird hörmət və ehtiram əlaməti olaraq verilən bəxşişini ustadının qarşısına qoyur. Şagird ustadının yanında olduğu müddətdə məclislərdən yığılan nəmərə şərik deyil (əgər həmin məclisi ustadın razılığı ilə şagird aparmış olsa belə). Belə hallarda yığılmış nəmərin tənzim edilməsi ustaddan asılıdır. Aşıq adət-ənənəsinə görə şagirdin təhsil müddətində yeməyi, bəzən hətta geyməyi (əgər şagird uzaq el-obadandırsa) ustadın öhdəsindədir.

Ustadın şagirdə öyrədəcəyi ən vacib məsələlərdən biri təvazökarlıqdır. Hüseyn Cavan yaxşı deyir:

*Aşıqlıq həvəsinə düşən hər kəs,*
*Əvvəla, mərifət, sonra saz öyrənir.*

Ustad şagirdə yalnız aşıq sənətinə xas olan spesifik xüsusiyyətləri öyrətməklə məhdudlaşmır. O, öz şagirdlərinin, həm də atalıq, ağsaqqallıq qayğısını da çəkir. Şagirdlərinə "yol ərkanı" öyrədir. Onun xalq arasında "pak oturub, pak durmasını" danışanda, məclis yola verəndə böyük-kiçik yolunu gözləməyi, hikmətli, namuslu olmağı, ilqarı doğru, sözü bütövlüyü, xalqın, elin adət-ənənəsini öyrədir.

Aşığın ən başlıca mərifəti onun məclis əhlini bir gözdə görməsidir. Aşıq Ələsgərin şagirdlərindən Əsəd ilə Daşkəndli Nəcəf Tovuzda Aşıq Hüseyn Bozalqanlıya

qonaq olarkən o, söhbət əsnasında onlara aşıq sənətinin çox çətin olduğundan, ağır məclislərə düşəndə məclisi necə aparmalarından danışıb, nəsihət eyləyir ki:

- Sazı əlinə aldın, məclisi də al. Xalqı azdırma. Sonra yığa bilməzsən. Başladığın kimi də qurtar. Məclisdəkilərə bir gözlə bax. Xüsusən, kasıblara. Onların ürəyi tez sınar[1].

Xalq ustada şagirdlərinin gözəl davranışı, hazırcavablığı əsasında qiymət verir, ustadına afərin söyləyir. Şagird ustadına 4-5 il qulluq edir. Qədir bilən, ustad yolu gözləyən talantlı şagirdlər ayrı-ayrı dövrlərdə ustadlarının üzünü ağ etmək, şan-şöhrətini ucaltmaq üçün el arasında sazı-sözü ilə məşhur olan dədə aşıqlardan, saz ağsaqqallarından həm qədim, həm də yeni saz havalarının variantları ilə birlikdə incəliyinə görə öyrənib, kasıb qüdrətini artırırlar.

Bir istilah kimi ustad-şəyird ənənələri haqqında dosent M.Həkimov "Azərbaycan aşıq ədəbiyyatı" (1983) kitabında ətraflı bəhs etdiyinə görə biz burada müxtəsər danışacağıq.

Aşıq el sənətkarıdır. O, heç vaxt hərzə-hədyan danışmamalıdır. Hüseyn Bozalqanlı demiş:

*Aşıq nəlayiqdi deyə, hərzə-hədyandan, gəda!*
*Danış sən həqiqətdən, yeddi əfkandan, gəda!...*

Məhz yüksək mədəniyyətin, zərif sənətkar etikasının nəticəsidir ki, dədə aşıqların müdrik kəlamları əsrlərlə xalqımızın dillər əzbəridir. Dədə Ələsgərin ustadı

Aşıq Alı aşağıdakı fikrində nə qədər haqlıdır:

---

[1] ***Aşıq Ələsgər**, 2-ci kitab, Bakı 1972, səh.260*

*Aşıq olub qaldım el sinəsində*
*Dərmanımı buldum el sinəsində,*
*Kamalımı aldım el sinəsində,*
*Sözüm ağızlarda pay oldu getdi.*

*... Dərs alanlar gəlib məndən dərs alsın,*
*Sinəmin dəftərin açıram bu gün.*
*Bir quş idim, qalmış idim yuvamda,*
*Dövr edib havada uçuram bu gün.*

Qurbanilər, Abbaslar, Qasımlar, Kərəmlər, Dilqəmlər, Sarı Aşıqlar, Ağ Aşıqlar, Alılar, Ələsgərlər, Hüseynlər, Mirzələr, Qaracaoğlanlar və başqaları sazın, sözün şöhrətini dünyaya yaymışlar. Xalq şairi Səməd Vurğun haqlı olaraq demişdir:

*...Abbas Tufarqanlı, Dilqəm, Ələsgər*
*Bir saza nə qədər dastan yaratdı.*

Babalarımızın sənət və gözəllik adına yaratdıqları ən ulu, ən qədim musiqi alətlərindən biri sazdır. Saz öz tərəf-müqabili aşıqla ictimai şüurun yüksəlməsində həmişə dini təriqətlərə, onu yayan din xadimlərinə qənim kəsilmişdir. Bu baxımdan saz-aşıq sənəti ictimai quruluşların bütün dövrlərində xalqın mənəviyyatına güclü təsir göstərmişdir. Məsələn, XII əsrdə Azərbaycan xalqının böyük şairi N.Gəncəvi “İsgəndərnamə” poemasının “İqbalnamə” hissəsində “Əflatunun çalğı aləti qayırması” bölməsində sazın sehrkar qüdrətindən, yəni vəhşi heyvanları, insanları yuxuya verməsi və istədiyi anda müəyyən melodiya vasitəsilə ayıltması söyləmə ilə səsləşən maraqlı bir məqamı qələmə almışdır. Burada Əflatun sazın incə

melodiyaları ilə çöldə, dağda yaşayan bütün canlıları yatırır. Lazım gəldikdə isə onları başqa bir saz havası ilə oyadır:

*... Bütün heyvanları yatırdıb sazla,*
*Sonra ayıldardı xoş bir avazla ...*
*... Ustad həmin sazı çaldığı zaman,*
*Edərdi xəstənin dərdinə dərman.*

*Çalğıda elə bir hünər göstərdi,*
*Həkimlər onunla bilərdi dərdi...*
*Alim sazı alıb səhraya getdi,*
*Hər bir nisbət üçün onu kök etdi.*

*Yığılıb hamısı sazın səsinə,*
*Düzüldülər onun dörd dövrəsinə.*
*Hamısı bir anda huşdan gedərək,*
*Sərildi torpağa bir-bir ölütək.*

*... Sonra başqa cürə kökləyib yenə,*
*Alim saz çalanda onun səsinə,*
*O yatmış heyvanlar, çəkmədi bir an,*
*Ayıldı hamısı şirin yuxudan...*

Burada sazın həyatverici qüdrəti olduqca canlı, yuxarıda qeyd etdiyimiz söyləmənin ruhuna uyğun şəkildə əksini tapmışdır.

Din xadimləri əsrlər boyu estetik zövqümüzü oxşayan saz-aşıq sənətinin bəşəriliyini gözdən salmağa çalışıb dansalar da, onu şeytan əməli adlandırsalar da, xalqın ruhunu oxşayan bu nadir sənət bizə getdikcə daha çox möhürlənmiş, doğmalaşmışdır.

200 ilə yaxın bir dövrdə Qaraqoyunlu Aşıq Musa (Aşıq Alının şəyirdi) "Nə günahı telli sazın" rədifli məşhur gəraylısında saza qarşı çıxan, onu lənətləyən din xadimlərini, yuxarı təbəqəni kəskin parodik bir dillə ifşa edir. Musa sazla müqayisədə onların iç üzünü açır, dövrün ədalətsiz qanunlarını, ictimai eyiblərini, ruhanilərin pozğun mənəvi aləmini sənətin ecazkar dili ilə damğalayır. Telli sazın günahsızlığından söz açaraq işarə vurur ki, saz molla kimi cadu yazmır, ara vurmur, rüşvət üçün yalandan and içmir, qadı kimi haram yemir. Yüksək sənətkarlıqla yazılmış bu şeir dövrə, zəmanəyə, ictimai quruluşa qarşı ağır bir ittihamnamə kimi səslənir:

*Məclisləri abad eylər,*
*Nə günahı telli sazın?*
*Məlul könüllər şad eylər,*
*Nə günahı telli sazın?*

*Yeki şəcər, yeki dəmir,*
*Ara vurmur, yalan demir,*
*And içməyir, rüşvət yemir,*
*Nə günahı telli sazın?*

*Fikrini vermir qələmə,*
*Zülm eləmir aləmə,*
*Pulunu vermir sələmə,*
*Nə günahı telli sazın?*

*Yoldan çıxıb, yolun azmır,*
*İblis kimi ara pozmur,*
*Molla kimi cadı yazmır,*
*Nə günahı telli sazın?*

*Musa vəsfin söylər saza,*
*Ruh verir gəlinə, qıza,*
*Oxşamayır mollabaza,*
*Nə günahı telli sazın?*

Aşıq Alı isə sazı **"Sazım"** rədifli qoşmasında belə tərənnüm etmişdir:

*Dühasıynan, nidasıynan, səsiynən,*
*Elin hüzurunda dayandı sazım!*
*Nə naqisdi, nə qovğakar, nə zalım,*
*Nuhi-Nəbiyyidən əyandı sazım!*

*Elinnən şad oldu, elnən ağladı,*
*Peyman edib ömrün elə bağladı.*
*İşi nə şərminən, nə nahaqladı,*
*Elnən yatdı, elnən oyandı sazım!*

*Şan-şöhrəti daim eldə qalandı,*
*Düşdü el izinə, ellə yollandı.*
*Odlar keçdi, dağlar aşdı, dolandı,*
*Nə çovğuna düşdü, nə yandı sazım!*

*Neçə dil söyləyən bu para taxta,*
*Billah, qüdrətini sevirdi haqq da,*

*Dolandı Türküstan, İran, İraq da,*
*Dedilər: "Hikmətdə bəyandı sazım".*

*Ruha qida verir, məclisə növraq,*
*Keçmişdən, keçəndən verəndə soraq.*
*Alının əlində görmədi fəraq,*
*Şöhrəti aləmə yayandı sazım!*

Aşıq sənətinin paklığı, müqəddəsliyi haqqında Dədə Ələsgərin müdrik nəsihətləri daha səmtli-suatlıdır:

*Ələsgərə yaxşı, yaman deyənlər,*
*Şeytana qul olub, qurba yeyənlər,*
*Xüms verilməyən mala halal deyənlər,*
*Onlardan halaldı bu sazım mənim.*

Müasir şəraitdə Aşıq Xanmusa yazmış olduğu şeirində sazı belə qiymətləndirir:

*Dədə Qorqud boylarından dil açan,*
*Tarixlərdə sədası var sazımın.*
*Ürəklərdən-ürəklərə nur saçan*
*Öz sahili, adası var sazımın.*

*Babaların keçmişini andıran,*
*Xan Kərəmi sinəsində yandıran,*
*Mizrabında dosta mətləb qandıran,*
*Çox vurğunu, fədası var sazımın.*

*Aşıqları vətəniylə öyünür,*
*Vəsf eyləyir dünənini, bu günü*
*Yüz Alısı, Ələsgəri, Hüseyni,*
*Ədalətək nidası var sazımın.*

*Mən qurbanam saz yaradan əllərə,*
*O əlləri mən öpürəm min kərə.*
*Şan-şöhrəti düşən dildən-dillərə,*
*Şən elləri, obası var sazımın.*

*Xanmusayam, dilə gəlir sinəmdə,*
*Gör nələr var bu sehrli aləmdə.*
*"Dübeyti"də, "Sarıtel"də, "Dilqəm"də,*
*Ruha, eşqə qidası var sazımın.*

Şair Hüseyn Arif **"Sazı"** müxəmməsində belə tərənnüm etmişdir:

*... Saz dedim,*
*Söz dedim,*
*Qızışıb Alı*
*Özünü meydana saldı, nə saldı.*
*Hay vurub, qıy vurub bir an içində*
*"Koroğlu" çağırdı, "Koroğlu" çaldı.*
*Qılınclar, qalxanlar durdu üz-üzə,*
*Bu nə vurhavurdu, nə çalhaçaldı.*
*Səsinin ahəngi dəyişdi birdən,*
*Könüldən qəribə bir səs ucaldı.*
*"Aydır, gündür, gəlib gedir ömürdən,*
*Tələsirik görən yaza nə qaldı?"*

*... Saz dedim,*
*Söz dedim,*
*Hanı Ələsgər?*
*Bir də ustadımı salamlayım mən,*
*Gəraylılar şirin, qoşmalar dərin,*
*Bir də xatırlayıram, bir də duyuram mən*[1]

Bəs, əsl aşıq kimdir? Onun xalq içərisində ədəb-ərkanı necə olmalıdır? Bu sualların cavabını dədə aşıqların söz xəzinəsində axtarmaq lazımdır.

Bu baxımdan üç ustad – Göyçə aşıq məktəbinin bel sütunları – Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgər üzərində dayanıb, onların ustad-şəyird ənənələrindən verməyi məqsədəuyğun bildik.

Şairlər məskəni Göyçə müqəddəs torpaqdır. Onun əzəmətli dağları kimi, saz-söz sənətkarları da vüqarlıdır. Göyçənin güzgüsünü – Göyçə gölünü təbiətin özü xəlq etmişdir. Belə axar-baxarlı mənzərələrin önünə güzgü tutan torpağın yaratdığı xilqətdə xılt olmaz. Ab-havası saf olan yerin insanları da təbiətən mərd olar. Göyçə təbiətən əsrlərlə vərəqlənən əzəli-əbədi poeziyadır, bir sənət dünyasıdır.

Göyçədə qonaq sazla uyuyar, sözlə oyanar, bir günə ömrü on gün uzanar. Bəlkə elə buna görədir ki, bu poetik dünyanın sazlı-sözlü qonaqları çox olmuşdur. Miskin Abdal, Əliqulu, Ağ Aşıq, Alı, Ələsgər, Məmmədhüseyn, Musa, Aydın, Mirzə, Bəylər, Əbdüləzim, Növrəs İman, Usta Abdulla, Mikayıl, İsa, Qasım, Ağayar, Daşkəndli

[1] **Hüseyn Arif**, *"Ayrı düşəli". Şeirlər. Bakı, Gənclik, 1983.*

Nəcəf, Əsəd, Qiyas, Nağı, Mustafa, Yusif, Məhəmməd, Sayad, Qurban, Yunis, Talıb və başqaları Göyçə mahalının deyil, şair xalqımızın, bütün el-obamızın üz ağlığıdır – baş ucalığıdır.

Ələsgəri Ələsgər kimi tanımaq üçün ustadı Alını, Alını Alı kimi tanımaqdan ötəri Ağ Aşığı, Ağ Aşığı Ağ Aşıq kimi bilmək üçün Əliqulunu öyrənmək zəruridir. Çünki onlar bir-biri ilə zəncir kimi bağlıdırlar. Bir-birindən öyrənə-öyrənə, bəhrələnə-bəhrələnə kamala dolan bu müdriklər elimizin ağsaqqallarına, alimlərinə çevrilmişlər. Ağ Aşıq görkəmli sənətkar Aşıq Əliquludan, böyük söz ustası Aşıq Alı Ağ Aşıqdan öyrənmişlər, aşıqlıqda da uca zirvələrə onların sayəsində yetişə bilmişlər.

Bu da bəllidir ki, Əliqulu Ağ Aşığın, Ağ Aşıq Aşıq Alının, Aşıq Alı isə Aşıq Ələsgərin ustadı olmuşdur.

Görkəmli saz və söz ustası, şair-aşıq Alının nəvələri Cahan və Əpruz Basarkeçər rayonunun Göysu kəndində yaşamışlar. Aşıq Alının elçiliyində iştirak etmiş Seyid Əlinin oğlu Mirhüseyn də Göysuda yaşayırdı.

Kərəm baba Alının qorçusu olmuşdur. Aşıq Alı Kərəm babaya söhbət edib və deyərmiş ki, Qızılvəngdəki Lilparlı bulağına – möcüzə abı-kövsər bulağı demək olar. Mən 15 yaşımda bu bulaqdan su içdim. Üç gün bihuş olub yatdım. Elə bil Allahdan mənə vergi verildi. Bədahətən, şeirlər deməyə başladım. Sonralar isə məşhurlaşıb haqq aşığı oldum.

Onlar belə nağıl edirlər ki, Qızılvəng kəndində yoxsul Mirzə kişiyə hamı hörmət edərdi. Onun bir bölük külfəti var idi. Mirzə gecə-gündüz işləyib ailəni birtəhər dolandırardı. Mirzənin oğlu Alının fərasətindən, özün-

dən şeir qoşmasından, hazırcavablığından danışardılar. Qızılvəngdə sözə, saza qiymət verən xiridarlar çox idi. Günlərin bir günü xəbər yayıldı ki, Kərkibaşlı (indiki Şəfəq kəndi) məşhur Ağ Aşıq Həsənəlinin toyunu keçirəcək. Ağ Aşığın adı Qafqazın bütün mahallarında çəkilərdi. O, aşıqların sərkərdəsi, ustadı idi.

Kərkibaşda məclis quruldu. Ağ Aşığın sazının naləsi hamını ovsunladı. Onun dalğalanan səsi ürəklərdəki məhəbbət ocağını közərtdi. Gənc Alı bu böyük sənətkara heyran oldu. O, məclisin qurtarmasını gözlədi. Ustada yaxınlaşıb kamali-ehtiramla salam verdi və illərdən bəri ürəyində yatıb qalan dərdinin boğçasını açdı. Ağ Aşıq onu dinlədi, saz çaldırıb qulaq asdı. Gördü ki, onun sinəsi sözlə doludur, dağ çeşməsi kimi qaynayır, əli də saza yaxşı yatır. Ağ Aşıq Alını özünə şəyird götürməyi qərara aldı.

Erkən yaşlarından tütək çalan Alı, sonralar meylini saza, sözə saldı. Oğlunu din xadimi görmək istəyən Mirzə dəfələrlə Alını sənət yolundan daşındırmaq istədi. Dövrün savadlı, istedadlı sənətkarı Ağ Aşıq Alının qabiliyyətindən xəbərdar olub xeyli çətinlikdən sonra atasının razılığını alır. Alını şəyirdliyə götürür. Ağ Aşığın qüdrətinə, sənətinə qibtə edən Alı böyük məmnuniyyətlə bu təklifi qəbul edir.

Alı Ağ Aşığa 11 il şəyirdlik edir və həm də deyilənlərə görə, şair Məmmədhüseyndən də dərs alıb. Ustadının ərəb, fars dillərini mükəmməl bilməsi və bir çox elmlərdən xəbərdar olması ona təkcə aşıq sənətini deyil, bir çox elmləri də yerli-yataqlı öyrənməkdə kömək edir. Alı şeirlərində geniş dünyagörüşü, yetkin savad da məhz bu

səbəbdəndir. Sonralar o, ustadının məsləhəti ilə İrana, Türkiyəyə və bir çox başqa ölkələrə səfər eyləyir. Həmin vaxtdan ustad ilə şəyird arasında ata və oğul münasibətləri yaranır, bu münasibət ömürlərinin sonuna qədər davam edir.

Ağ Aşıq Alıya təcnis, gəraylı, qoşma, qıfılbənd, ustadnamə, qəzəl və s. janrları, eyni zamanda 65-70-ə qədər saz havalarını öyrədir və şəyirdinə belə deyir:

*Ağ Aşığam, ustadlara mən tayam,*
*Aşıqlıq elmində dolu bir payam,*
*Araz kimi daşan, coşqun bir çayam,*
*Qoymaram kamalda avara səni.*

*... Aşıq oldun hər ağrıya dözəsən,*
*Sinən üstdə odlu közlər düzəsən.*
*Gündoğanla, günbatanı gəzəsən,*
*Allahverdi kimi xiridar olmaz.*

Mərhum Kərəm babanın 1950-ci ildə deməsinə görə, Aşıq Alı Ağ Aşığın şəyirdi olmuşdur. Ağ Aşığın nəvəsi Allahverdi (öz adını qoymuşdur) Kərəm babayla belə söhbət edərmiş. Babam Allahverdi sübh tezdən durar, əl-üzünü yuyub dəstəmal alıb çay-çörək yeyərdi. Mən cavan oğlan idim. Alı isə babamın yanında saz çalar və babama qulluq edərdi. Ağ Aşıq onun bəzən barmaqlarını döyər və danlayardı. Alı çox gözəl və boy-buxundan yaraşıqlı bir oğlan idi. Ancaq tez-tez qıpqırmızı pörtər və qızarardı. Özünə sığal-tumar verərdi və güzgüyə baxardı. O güzgüyə baxanda babam çox qəzəblənərdi. "Ay Alı, sən qız-gəlin və camaat içinə çıxırsan, niyə güzgüyə baxırsan?" Alı isə dinməz-söyləməz durardı. Məclisdən

sonra ustadına deyərdi ki, mən güzgüyə baxanda ilhama gəlib bədahətdən şeir deyirəm.

Bu əhvalatı isə Kərkibaş kəndində 1951-ci ildə Zeynalabdin müəllim Əşrəf babadan qələmə almışdır. Əşrəf babanın deməsinə görə, Aşıq Alı ustadı Ağ Aşıqla Kərkibaşda toy şənliyi keçirirdi. Burada mal tövləsinin yuxarı hissəsində Hacı Hasanın Xorasandan gətirdiyi bədənnüma güzgü açıldığı yerdə Ağ Aşıq ilə şəyirdi Alı dövrə vurub Misri, Cəngi, Koroğlu, Dilqəmi, Yanıq Kərəmi havalarını çalıb-oxuyardılar. Deyilənlərə görə, Ağ Aşıq və Alı "Koroğlu" havasını oxuyarkən lampalar sönərmiş, hətta Alı gur səslə "hay-hay" vurub ayaqlarını yerə döyə-döyə "Koroğlu"nu oxuyarmış. Bunu Göyçədə yaşayan bəzi qocalar indi də xatırlayırlar.

Aşıq Alı ustadından xəlvət tez-tez güzgüyə baxarmış. Ustad şəyirdinin güzgüyə baxdığını gördükdə ona bir ustad şilləsi çəkir. Alı məclisi tərk edir. Bu zaman kənd ağsaqqalları Kalvayı İsmayıl, Hacı Hüseyn, İbrahim Xəlil, Hacı Hasan və başqaları ustad aşıqdan xahiş edirlər ki, şəyird Alı bir səhvdir edib, onu bağışla. Təzədən şəyirdi geri qaytarırlar. Şəyird öz səhvini boynuna alır və ustadından üzr istəyir, ustadının əllərindən öpür. Ustadına deyir ki, ay ustad! Mən güzgüyə baxanda öz şəklimi və gözəlliyimi güzgüdə gördükdə ilhamlanıb daha coşa gəlirəm və bədahətdən şeirlər deyib, yaxşı oxuyuram. Həm də Alı cavan və göyçək bir oğlan idi. Bundan sonra ustad şəyirdinin kefinə dəymədi. Məclislərdə, el-obalarda oxumağa başladılar. Sonra Alı müstəqil bir sənətkar kimi el arasında geniş şöhrət qazanır.

Ustadı Ağ Aşıq özünün yazmış olduğu **"Aşıq Alı"** gəraylısında Alını belə tərənnüm edir:

*Mahalımın şah tavarı,*
*Alqış sənə, Aşıq Alı.*
*Saldın kəməndə Yığvalı,*
*Alqış sənə, Aşıq Alı.*

*Ustadıyın üzü ağdı,*
*Zəkiyə çəkdiyin dağdı.*
*Oğul, müjdəm xub soraqdı,*
*Alqış sənə, Aşıq Alı.*

*Duraxan da gəldi dada,*
*Əsməri də saldın oda.*
*Ağ Aşığın bu dünyada*
*Şöhrətisən, Aşıq Alı,*
*Alqış sənə, Aşıq Alı.*

Ağ Aşıq qoca vaxtlarında öz şəyirdi Alını bütün sınaqlardan keçirmiş və ona ustad aşıq adı vermişdir. Ağ Aşığın nəticəsi Salatın nənənin deməsinə görə, aşıq öz dəst-xətti ilə ərəb-fars dilində kağıza yazmışdır ki, ustad aşıq-şair Alının bundan sonra özünə şəyird götürməyə ixtiyarı var.

Yuxarıda qeyd etdiyimiz kimi, ustad ilə şəyird arasında ata-oğul münasibəti yaranır və bu münasibət ömürlərinin sonuna qədər davam edir. Onlar xeyir-şər məclislərinə bir gedib, birlikdə qayıdırlar. Qəlbi həmişə ustadına qarşı minnətdarlıq hissi ilə dolu olan Aşıq Alı

müxəmməslərinin birində ustadını belə tərənnüm etmişdir:

*... Əzəlindən ata bilib, sığınmışam kölgəsinə,*
*Can evində canım odu, meylim qonmaz özgəsinə.*
*Fərzənd üçün istirahət, əsla olmaz özgə sinə.*
*Kənar olsam gözlərindən, inanmaram dözməsinə.*
*Tənha güzar etsəm yana, qovlar eldən dara, məni.*

Alı dövrünün, zəmanəsinin müdrik ağsaqqalı, alimi, təbibi, şeyxi kimi şöhrət qazandığı vaxtlarda belə özünü Ağ Aşığın şəyirdi adlandırmaqdan xüsusi zövq alarmış. Bu, ancaq Alı kimi bir şəxsiyyətə məxsus olan bir təvazökarlıqdır. Fikrimizin təsdiqi üçün aşağıdakı misralara nəzər salsaq:

*Mən sısqayam, ümman odu, dərya odu, damla mənəm,*
*Göy üzündə əbri odu, mən zirvədə bir az şənəm.*
*Bir sözünə cavabım yox, hikmətlərlə dola sinəm.*
*Ağa qara desə belə, imkanım yox, əsla dinəm.*
*Həm üzünə asi olam, olum qəlbi parə məni.*

Yaxud dədə sənətkarla şəyirdin Göyçə mahalının Kərkibaş kəndinin "şairin diki" adlanan yerdəki ustad-şəyird ənənələrinə diqqət yetirək. Bu yazını 1950-ci ildə Zeynalabdin müəllim qələmə almışdır. Babışov Mustafa babanın deməsinə görə, "şairin diki" adlanan yerdə camaatla biçin biçirdilər. Sonra günorta vaxtı oturub yemək yeyirdilər. Həmişə Aşıq Alı bu yerin (şairin diki) haqqında toylarda və məclislərdə belə söhbət edərdi. Ağ Aşıq Kosacandan Hüseyn Sərdarın əlindən qaçandan sonra bizim Kərkibaş kəndinə gəlib bu kənddə yaşayırdı. Ulu babamız Mustafanın oğlanları Hacı Əhməd və kəndxuda

Məhəmməd Ağ Aşığa kəndimizin aşağı hissəsində qayanın başında ev-eşik tikdirirlər. O, toylarda, məclislərdə çalar-oxuyarmış. O, "bədir ay" kimi ağappaq imiş. Su içəndə bədənində görünərmiş. Çox məclislərdə çörək yemirmiş. Ağ Aşığın hörməti kənddə bəylərin, ağaların yanında get-gedə artdı. Kənd ağsaqqalı – ulu babamız Mustafanın oğlu Hacı Əhməd məsləhət görür ki, şairə torpaq versinlər.

Nə isə başınızı ağrıtmıram. Aşığa əkin yeri verəsi olurlar. Kəndxuda Məhəmməd kənddən xeyli uzaqlıqda arxın üstdə dəmyə nuh-nəbidən əkilməmiş bir balaca yer verir. Hacı Əhməd aşığa hörmət məqsədilə kotan və cütünü göndərir. Bir-bir cüt və kotanlar qırılır, peşmançılıq olur. Çox çətinliklə yeri şəyirdi Alı ilə əkirlər. Bu yerə 5-6 batman arpa səpirlər. Bu il də çox yağarsız keçir. Yağış yağmayır. Camaat bu yerin adını elə o vaxtdan "şairin diki" qoymuşdu. Bu yerin yanından Qızılvəngə yol gedirdi. Alı isə atla buradan öz kəndinə gəlib-gedirdi. Bir gün yerə baxanda gördü ki, yerin hamısı dəvəqanqalı bitirib. Bəzi yerlərdə isə arpa çıxıb. Nə isə mən utandığımdan ustadıma deyə bilmədim ki, yer qanqal bitiribdir. Bir gün Ağ Aşıq gəlib görür ki, yer tamam qanqaldır. O, yeri biçmək istəmir. Kənd ağsaqqallarının təkidi ilə yeri şəyird və ustad yolurlar. Bir neçə bafa gətirib xırmana tökürlər.

Taxılı döyüb dağarcığa doldurub Qəribin dəyirmanına aparırlar. Növbəyə qoyub gəlirlər. Nə isə dəyirman sınır, yoxsa arxınımı payızın yağarlığında sel aparır, taxıl dəyirmanda çox qalır. Deyəsən, taxıl üç batman imiş. Siçanlar dağarcığı kəsir, taxılı aparır. Şair qəm kösöyünü sinəsinə basıb el havası ilə nəsə demişdir. Dəyirmanın sın-

masına və şəyirdi haqqında dedikləri sözlər yadımdan çıxıbdır. Bir gecəlik nağıl idi. Lakin aşıq bu yer haqqında ***"Qırdım qol"*** qoşmasında belə ifadə etmişdir:

*Leyli-nahar yeddi ağac getdim yol,*
*Xırman boyda yer şumladım, qırdım qol.*
*Darı, arpasını əkdim bolabol,*
*Biçdim əvəzində dəvə qanqalı.*

*Sürünməkdən dizlərimdə yox taqət,*
*Əllərimin içi oldu qabar-qat.*
*Dərviş babam da istər xumsi-zəkat,*
*Yetdi harayıma şəyirdim Alı.*

*Əlqərəz, rüzumuz oldu üç batman,*
*Çatınca növbətim sındı dəyirman.*
*Yerdə qalanımı apardı siçan,*
*Güldü Ağ Aşığa Göyçə mahalı.*

Adəti üzrə dərviş dostları var imiş. İldə gəlib kənd camaatından xümsi-zəkat paylarını aparamış. Nə isə dərvişlər gəlirlər ki, Ağ Aşıq evdə yoxdur. Ancaq bir cavan oğlan var. Salam-səfadan sonra dərvişlər əyləşirlər. Çay-çörəkdən sonra paylarını istəyirlər. Ağ Aşığın həyat yoldaşı Süsənbər deyir ki, aşıq evdə yoxdur. Balaməzrədə qohumlarının yanına gedib. Alı deyir ki, dərviş baba, siz oturun, mən sizin payınızı gətirib verərəm. Alı atını minib gedib öz kəndlərindən, yəni Qızılvəngdən 5-6 batman taxıl gətirib, dərviş babaya verib yola salır. Alı ustadına heç bir söz demir.

Belə bir hadisə Alının şəyirdi Dədə Ələsgərin də başına gəlmişdi. O, bu hadisəni **"Olsun"** qoşması ilə belə tərənnüm etmişdir:

*Arpadan, buğdadan çıxmışdı əlim,*
*Zəhmət çəkdim, dedim, az darı olsun.*
*Yolmasın yolmaqdan qırıldı belim,*
*Bundan gələn xeyir zəhrimar olsun!*

*Bel ilə bu yeri əkdim bir ayda,*
*Sulamaqdan su da qalmadı çayda,*
*Biçdim, döydüm, darım oldu bir bayda,*
*Qoy söyləyim, mahallarda car olsun!*

*Hər kəsə göstərdim, dedilər göydü,*
*Eşidib görənlər çox mənə söydü,*
*Dən tutan yerini sağsağan döydü,*
*Qarğayla siçanın üzü qara olsun.*

*Ələsgər, başına qəhətdi peşə?*
*Darı əkib yeməyibsən həmişə?*
*Sazı bas sinənə, təcnisdən döşə,*
*Yığ urzunu, verən əllər var olsun.*

Doğurdan da, "Qırdım qol" və "Olsun" qoşmalarındakı axar-baxarlıq, oxşarlıq, orijinallıq müasir mühitdə də səslənən bu sənətkarların bir-birinə zəncir kimi bağlılığını, bir-birindən öyrənmələrini bir daha sübut edir.

Aşıq Alı çox uzaqgörən, müdrik-mərifətli sənətkar idi. O, şagirdlərinə sazın-sözün qüdrətindən, vətən torpağının müqəddəsliyindən, elin-obanın qeyrətindən, böyük-kiçik yol ərkanı gözləməkdən, mərifət elmindən,

aşıqlığın müqəddəsliyindən, onu göz bəbəyi kimi qorumalarından çalıb-çağırmağı öyrədirdi. Bununla da, Göyçənin göyçəkləşmə dövrü başladı. Aşıq Alının şagirdlərinə ilk dərsi belə olmuşdur:

*Bir şəyird ki ustadına kəm baxa,*
*Mövlam etsin ona nasağı tək-tək.*
*Qohumdan xəcalət, eldən şərməndə,*
*Dili cida etsin, uzağı tək-tək.*

*... Aşığam deyibən girən meydana,*
*Aşıq deyənlərdə xoş göftar gərək.*
*Aşıq gərək sözün vəsfə yetirə,*
*Bəyanəariflər birəbir gərək.*

Saz sənətinin incəliklərinə dərindən yiyələnən Aşıq Alı, demək olar ki, Göyçə aşıqlar ədəbi məktəbi yaratmışdır. XIX əsrin bir çox görkəmli aşıqları bu ədəbi məktəbin yetişdirmələri və davamçıları olmuşdur. Özü də 30-a yaxın aşıq yetişdirir, saz-söz sənətini onlara öyrətmişdir. Aşıq Ələsgərin şagirdləri Aşıq Ağayarın və Aşıq Talıbın deməsinə görə, Göyçənin Alçalı kəndindən Aşıq Məhərrəm, Qızılvəng kəndindən Aşıq Qulu və Aşıq Məsim, Canəhməd kəndindən Aşıq Meydan, Subatan kəndindən Aşıq İsə, Ağkilsə kəndindən Aşıq Ələsgər, Qaraqoyunlu Aşıq Musa, Aşıq Qəhrəman, Aşıq Alışan, Aşıq Usub, Şişqayalı Aşıq Aydın, Mehdi, Məhəmməd, Hümmət və s. Aşıq Alının şagirdləri olmuşlar.

Dövrünün çox qüdrətli aşıqlarından olan Aşıq Alı mahalda şöhrət qazanmışdır, onun gözəl qoşmaları, dərin mənalı təcnisləri, oynaq gəraylıları vardır. O, gəzmiş,

görüb-götürmüş ustad aşıq idi. Onun nəsihətamiz şeirlərini aşıqlar çox zaman ustadnamə kimi oxuyurlar.

*Gəşt eylədim, bu dünyanı dolandım,*
*Əllini keçirdim, yüzə nə qaldı?!*
*Ayaq getdi, əl gətirdi, diş yedi,*
*Baxmaqdan savayı gözə nə qaldı?!*

*Ölüm haqdı, çıxmaq olmaz əmrdən,*
*İpək tora halqa salma dəmirdən.*
*Aydı, gündü, gəlib gedir ömürdən,*
*Tələsirik, görən yaza nə qaldı?*

*Eşiyə çıxıram hava məxşuşdu,*
*Gəzdiyim oylaqlar yadıma düşdü.*
*Bir gün eşidərsən: Alı da köçdü,*
*Sındı simli sazım təzə nə qaldı?*

Alı "Gəşt eyləyib dünyanı dolandığı" vaxtda təxminən 37-38 yaşlarında idisə, Ələsgər hələ 18-19 yaşlarında bir gənc idi.

Atası 12-13 və yaxud 13-14 yaşlı Ələsgəri nökərçiliyə vermiş, Maksim Qorkinin tərcümeyi-halından yaxşı bildiyimiz "Özgə qapıları" Aşıq Ələsgərin də əsl "universitetinə" çevrilmişdir.

Ələsgər dörd il Kərbəlayı Qurbanın yanında nökərçilik etmiş, bu zəhmətin əvəzində cəmi 1 inək qazanmışdır. Səhnəbanı hadisəsindən sonra ağa mülkünü birdəfəlik tərk edən Ələsgər ağır xəstələnir. Hər zamanın öz müalicə üsulları var. Saysız-hesabsız dərmanların, rəngarəng iynələrin, növ-növ şüaların kəşf olunmadığı Ələsgər zəmanəsində bu cür xəstələrin müalicəsi

üçün ən yaxşı üsul səyahət hesab edilərdi. Lakin ağır külfət sahibi olan müdrik Alməmməd kişi eşqin nə olduğunu bilib, öz oğlu üçün daha münasib müalicə vasitəsi seçir. Fikir elədi ki, Ələsgərə bir saz tapsın. Bəlkə çalıb-oxuya, dərdi-qəmi dağıla. Getdi Kərkibaşla qonşu olan Qanlı kəndindən bir saz gətirdi. Doğurdan da, o vaxt həsbi-hal etmək, dərdini dağıtmaq (bəlkə də dərdinin üstünə dərd artırmaq) üçün Ələsgərə sazdan yaxşı bir ünsiyyət vasitəsi düşünmək olmazdı. Ələsgər meylini saza saldı, az müddətdə əli saza yetdi. Tezliklə telli saz əsl ürək sirdaşına çevrilir. Elə o gündən camaatın içində yayıldı ki, Ələsgərə vergi verilib, sazı götürüb sinədən deyir. Ələsgəri Aşıq Alı kimi sənətkarın yanına şagird aparan da sazı olur.

Günlərin bir günü xəbər yayıldı ki, məşhur Aşıq Alını molla oğlu Əli toya təklif edib. Ağkilsədə məclis quruldu. Hələ Aşıq Alı söhbəti başlamamış biri dedi ki, Almәmməd kişinin oğlu Ələsgər özündən yaman söz deyir.

Ələsgərin dostu Paşanı göndərdilər, Ələsgəri çağırıb Aşıq Alının yanına gətirdi. Aşıq Alı Ələsgəri danışdırıb gördü ki, çox mərifətli, qanacaqlı oğlandır. Aşıq Alı saz çaldı. Ələsgərdən xahiş etdi ki, oxusun. Ələsgər Aşıq Alı çaldığı havaynan söz oxumağa başladı. Sonra bir-iki qatar da öz sözünnən oxutdu. Gördü ki, doğurdan da, deyiklərinə görə varıymış. Aşıq Alı çalmaqda olsun, Ələsgər oxumaqda. Sonra Aşıq Alı dedi:

*- Oğul, saz da çala bilirsənmi?*

*- Bekara dınqıldadıram.*

*- Buyur görüm, necə dınqıldadırsan.*

Ələsgər sazını alıb zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, çalmağa başladı.

Aşıq Alı o vaxtı Göyçənin ən ustad aşığıydı, onun bilmədiyi söz yoxuydu. Ələsgərin oxuduğu sözlərə fikir verdi, gördü ki, çox qiymətli sözlərdi, özü də bu sözləri elə buradaca da dedi. Aşıq Alı belə hazırcavablığı heç kəsdə görməmişdi. Çaldılar, oxudular, oynadılar, toy qurtarandan sonra Aşıq Alı Ələsgərnən bərabər onlara getdi. Gecəni Alməmməd kişiynən danışdı, razılaşdı ki, Ələsgəri ona şəyirdliyə versin. Ata da, ana da, Ələsgər də razılaşdılar. Aşıq Alı öz sazını Ələsgərə verib dedi:

*- Oğul, sözlərin də xoşuma gəldi, oxumağın da, saz çalmağın da. Havaları da düz oxuyursan. Ancaq aşıqlığın başqa şərtləri də var. De görüm, onları bilirsənmi, aşıq necə olmalıdır və o, xalqa necə xidmət etməlidir?*

Ələsgər sazı döşünə basıb **"Gərəkdi"** ustadnaməsini dedi:

*Aşıq olub, tərki-vətən olanın*
*Əzəl başdan pürkamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürüb, nəfsin yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Dediyi sözlərin qədrini bilə,*
*Kəlməsindən ləli-gövhər süzülə,*
*Məcazı danışa, məcazı gülə,*
*Tamam sözü müəmmalı gərəkdi.*

*Arif ola, eyhamınnan söz qana,*
*Naməhrəmdən şərm eyləyə, utana,*
*Saat kimi meyli haqqa dolana,*
*Həqiqi qəlbli, düz yollu gərəkdi.*

*Ələsgər haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə.*
*Hər yanı istəsə baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdi.*

Aşıq Alı Ələsgəri götürüb özüynən bərabər Qızılvəngə aparır. Ələsgər Aşıq Alıya 7 ilə yaxın şəyirdlik edir. Ustad aşıq, istedadlı şagird, aşıq sənətinin isti beşiklərindən olan Göyçə mahalı! Daha nə arzu etmək lazım idi. Uca şeir nərdivanının ilk, həm də möhkəm pillələri, əzəmətli sənət dağlarına qalxan ilk uğurlu cığırlar, yollar indi daha görünməkdə idi...

Ələsgər Aşıq Alıdan sənətin sirlərini dərindən öyrənir, günü-gündən inkişaf edir, püxtələşir, məşhurlaşır. Nəhayət, yeri gəldikcə, öz dövründə tayı bərabəri olmayan ustadı Aşıq Alı ilə qabaqlaşır, döş-döşə gəlir, deyişirdi. Ələsgər öz güclü istedadı, zəhmətsevərliyi nəticəsində yüksələrək, müəllimini xeyli arxada buraxır. Vaxtı ilə gənc Puşkin böyük bir məclisdə oxuduğu əla şeir üçün qoca Derjavindən üzərində bu sözlər yazılmış yadigar şəkil almışdı:

*"Məğlub müəllimindən qalib şagirdinə".*

Söyləyirlər ki, bir gün Aşıq Alı şagirdi Ələsgərlə deyişir. Məclis əhlinə bildirmək üçün, Ələsgər çox böyük istedad sahibidir, həm də o, daha tamam-kamal aşıqdır, müstəqil məclis idarə etməyə layiq və qadirdir. Aşıq Alı Ələsgərlə deyişdiyi zaman qəsdən özünü məğlub göstərir, öz sazını ona təqdim edir. Lakin bu sənətkardan dərs almış Ələsgər sazı qəbul etmir:

*Bir şagird ki ustadına kəm baxa,*
*Onun gözlərinə ağ damar, damar.*

- deyə məşhur təcnisini söyləyir. Bu deyişmə və belə səmimi rəftar, qayğı, dostluq el içində həm ustad Aşıq Alının, həm də onun qabiliyyətli, istedadlı şagirdi Ələsgərin hörmətini qat-qat artırır. Bu deyişmə Ələsgərin şöhrətini sürətlə bütün Azərbaycana, habelə Ermənistana, Gürcüstana və hətta Arazın o tayına yayır.

Qafqazın bir çox mahal, şəhər və kəndlərini gəzmiş, görmüş, toylar, nişanlar etmiş, qüdrətli şair kimi tanındıqdan sonra hər bir aşıq onun şagirdi olmağı, ondan dərs almağı, öyrənməyi özünə böyük şərəf bilirdi. Aşıq Ələsgər ustad aşıq kimi şöhrət tapdıqdan sonra onun yanına şagirdlər gəlməyə başlayır. O da ustadı Aşıq Alı kimi aşıqlar hazırlamaqla məşğul olur.

Aşıq Ələsgər Azərbaycan poeziyası tarixində xüsusi mövqeyi olan məşhur Göyçə aşıq məktəbinə başçılıq etmişdir. Daşkənddən Aşıq Nəcəf, Qızılvəngdən Aşıq Mustafa və Aşıq Yusif, Çaxırlıdan (Qızılbulaqdan) Hüseynalı, Zoddan Qasım və Ağayar, Hüseynquluağalıdan (indiki Nərimanlıdan) İsa və Mikayıl, Kəsəməndən Nağı, Böyük Qaraqoyunludan Əsəd, Sarıyaqubdan Məmmədə-

li və Paşa, Böyük Məzrədən Qiyas, Zərzibildən Nağı və Sayad, Ağkilsədən Qurban, İman, Talıb və Nəcəf və başqaları onun yetirmələri olmuşlar. Aşıq Ağayar ömrünün 15 ilini Aşıq Ələsgərin yanında şəyirdlikdə keçirmişdir. Aşıq Ələsgər özü də 20-ci əsrin əvvəllərində dediyi bir şeirində:

*Adım Ələsgərdi, mərdi-mərdana,*
*On iki şəyirdim işlər hər yana, -*

deyə çoxlu aşıq yetişdirdiyini iftixar hissi ilə qeyd etmiş, 12 şagirdinin hər tərəfdə tanındığını söyləmişdir. Lakin belə bir fikrin tərəfdarları daha çox haqlıdırlar ki, Ələsgərin şagirdləri yalnız bilavasitə onun yanında dərs alanlar deyil, bir də aşığın irsi əsasında tərbiyə tapıb yetişən, o ustadın yaratdığı ədəbi məktəbi, indiki istilahla desək, qiyabi sürətdə bitirən el aşıqlarıdır ki, Aşıq Musa, şair Vəli, Molla Cümə, Aşıq Şəmşir, Aşıq Abdulla, Aşıq Mirzə, Aşıq Hüseyn Cavan bunların görkəmliləri kimi məşhurdurlar. Aşıq Ələsgərin yaxın qonşusu və istəkli dostlarından biri də məşhur ***"Nə günahı telli sazın"*** misrası ilə bitirən gəraylının müəllifi, Aşıq Alının şəyirdi Aşıq Musa imiş. Aşıq Musanın atası Səfər Qazax qəzasının Tatlı kəndindən əvvəl Qaraqoyunluya köçüb yaşayır, ordan isə birdəfəlik Ağkilsəyə köçüb ömürlük yaşayır. Ona görə də Alının şəyirdi Aşıq Musa gah Qaraqoyunlu, gah da Ağkilsəli kimi təqdim edilir.

Aşıq sənətinə çox diqqətlə yanaşan Aşıq Ələsgər şəyirdlərini kamil öyrətməyincə yanından buraxmazmış. O, həmişə şəyirdlərinə deyərmiş ki, aşıq adlanan adamın dilinə "bu sözü bilmirəm", ya "bu havanı çalıb-oxuya bilmirəm" gəlməməlidir. Aşıq dünyada baş verən hadisə-

lərdən də hali olmalı, hətta dini məsələlərə dair suallara da cavab verməli, heç bir söz qabağında aciz qalmamalıdır.

Qocaman Göyçə mahalı əsrlər boyu xalqımızın söz və saz sənətinin qüdrətli məbədgahı olmuş, onun yetişdirdiyi istedadlı sənətkarlar yalnız bir mahalın deyil, zəngin ənənələrə malik Azərbaycan poeziyasının iftixarına çevrilmişlər.

Aşıq şeiri keçən yüz illikdə şifahi və yazılı ədəbiyyatın yeni zirvəyə qalxmasına güclü təkan vermişdir. Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa, Mirzə Bəylər, şair Hacı, Aşıq Əziz, Aşıq Əhməd, Aşıq Məhərrəm, Aydın və onlarca bu kimi sənətkarın sənət beşiyində böyük saz-söz sərrafı Aşıq Ələsgər kamala çatmışdır.

Göyçə aşıqlarının səsi uzun zamanlar Bəsrə, Bağdad, Hələb, Tehran, Buxara üfüqlərində dolaşmış, hər yerdə sonsuz hörmət və məhəbbətlə qarşılanmışdır. XIX əsrdə və XX əsrin əvvəllərində Göyçədə yüzlərlə aşıq, aşıq şeiri janrlarında yazıb-yaradan onlarla şair yetişmişdir. Bütün orta əsrlərdə olduğu kimi, bu illərdə də, xüsusilə Göyçədə yaxşı aşıq olmaq eşqinə düşən gənclər saysız-hesabsız idi. Lakin bunların heç birisi Ələsgər qədər müvəffəqiyyət əldə edə bilmirdi. Məhz elə bu da zəmanənin görkəmli ustadı olan Aşıq Alının diqqətini cəlb etmiş, yaxşı müəllimlik qabiliyyətinə malik ustad hələ ilk addımlarını atan bu gəncin sazını, səsini, sözünü hər cəhətdən yoxlamış, bəyənmiş, şagirdliyə götürmüşdür ki, bununla da onun gələcəyini müəyyən edən ikinci hadisə baş vermişdir.

Ələsgər beş ildən sonra ustadlar məclisindən müstəqil aşıqlıq icazəsi almış, 1846-cı ildə mahalda keçirilmiş müsabiqədə birincilik qazanmışdır ki, bununla da bizim birinci dövr adlandırdığımız gənclik illəri başa çatmışdır. Bizcə, bu dövrün son şeiri "**Damar-damar**" rədifli qoşma olmuşdur. Deyilənlərə görə, Aşıq Alı həmin müsabiqədən bir az sonra bir deyişmə məclisində qəsdən özünü məğlub kimi göstərib, sazını Ələsgərə təhvil vermiş, o da ustadının əlindən öpərək:

*Bir şagird ki ustadına kəm baxa,*
*Onun gözlərinə qan damar, damar –*

təcnisini demişdir. Aşıq Ələsgərin təvazökarlığı aşıqlar arasında onun haqqında yaxşı rəy yaratmışdır. Aşıqlar özlərinin bəzi əlavələri ilə bu hadisəni xüsusi rəvayət şəklinə salmışlar.

Lakin bunlar da danılmaz həqiqətdir ki:

*Bir şəyird ki ustadına kəm baxa,*
*Əlbəttə, gözünə ağ damar, damar!*

- deyən Ələsgər öz ustadını həmişə hörmətlə yad etmiş, ömrünün axırına qədər Aşıq Alı sənətindən ehtiramla danışmışdır.

Ustad sənətkar Aşıq Talıbın dediyinə görə, atası Aşıq Ələsgər öz ustadı Aşıq Alı ilə deyişərkən ***"Şər-xəta"*** təcnisini söyləmişdir. Lakin Aşıq Alı bu təcnisə cavab deyə bilmədiyinə görə məğlub olmuşdur. Ələsgər öz ustadı Aşıq Alı ilə deyişməsi haqqında maraqlı rəvayətlər vardır. Bəziləri iddia edirlər ki, guya Aşıq Alı Ələsgərin istedadlı bir sənətkar olduğunu müəyyən etdikdən sonra özündən sonra Göyçə mahalında yetişən aşıqlara yalnız onun başçısı olması üçün Ələsgərin hörmətini qaldırır,

böyük bir məclisdə deyişmə zamanı qəsdən özündən məğlub olduğunu bildirir və sazını Ələsgərə verir. Ələsgər buna razı olmur.

*Bir şəyird ki ustadına kəm baxa,*
*Onun gözlərinə ağ damar, damar,*

- təcnisini oxuyur.

Qocaların söhbətindən aydın olur ki, Aşıq Alı bir toy məclisi keçirərkən şagirdlərindən Qəhrəman adlı birisi həmin toydan qız götürüb qaçırmışdır. Aşıq ədəb-ərkandan naxələf çıxan şagirdlərinə Alının qəzəbi tutmuş, elə həmin məclisdə bu məqsədlə **"Tək-tək"** təcnisini demişdir:

*Bir şəyird ki ustadına kəm baxa,*
*Mövlam etsin ona nasağı tək-tək!*
*Qohumdan xəcalət, eldən şərməndə,*
*Dili cida etsin uzağı tək-tək.*

Başqa bir rəvayətdə isə Alı ilə Ələsgər arasında üç gün deyişmə getdiyindən danışılır. Bu deyişmənin səbəbi Göyçə mahalında aşıqların çoxalması idi. Həqiqətən aşıqları meydana çıxarmaq, aşıq sənətindən xəbərdar olmayanları birdəfəlik saz götürməyə icazə verməmək məqsədilə bir növ imtahandan keçirilir. Aşıqları imtahan edən Aşıq Alı olur. Bütün aşıqlar imtahandan keçirilir, o məclisdə yalnız Ələsgər iştirak etmir. Aşıq Alıdan soruşurlar ki, şagirdlərinizdən kimə üstünlük verirsiniz? Aşıq Alı Ələsgərin adını çəkir, Ələsgəri məclisə dəvət edirlər. Ustad ilə şagird olduqca ehtiramla, hörmətlə deyişirlər. Onların deyişməsi yalnız sənətkarlıq, şeir texnikasını bilmək yolu ilə gedir. Deyişmənin qıfılbəndindən istifadə olunmur. Dini tapmacalar işlədilmir. Aşıq Alı "***Görəydim***" rə-

difli bir qoşma deyirsə, Ələsgər də həmin rədifli qoşma ilə ona cavab verir. Məclis qızışır, şagirdlər coşur, qoşmadan gəraylıya, gəraylıdan müxəmməsə və təcnisə keçirlər, bu zaman Ələsgər özü də bilmədən vaxtilə Qurbani, sonra isə Abbas Tufarqanlı tərəfindən yaradılan ***"Şər-xəta"*** adı ilə məşhur olan bir təcnis deyir. Aşıq Alı onun təcnisinə cavab verə bilmir, öz sazını şagirdinə verir və onun alnından öpür. Bundan sonra Ələsgərin şöhrəti bütün Azərbaycana yayılır.

Deyilənlərə görə, Aşıq Ələsgər aşıqlıq sirlərini öyrəndikdən sonra məclislərin birində ustadı ilə deyişməli olmuşdur. Bu barədə H.Əlizadə belə yazır: "Aşıq Ələsgər ustadı Aşıq Alı ilə toy, nişan məclislərinə gedəndə bəzən onun dediklərinə qulaq asmaz, öz şeirlərini oxuyarmış. Ələsgərin bu hərəkəti ustadının xoşuna gəlməz, bu hərəkəti tərgitmək üçün ona nəsihətlər edərmiş. Bir gün yenə böyük bir toy məclisində ustadla şagird arasında söz olur. Aşıq Alının sözü Ələsgərə dəyir, Ələsgər acıqlanır. Ustadı ilə deyişməyi qərara alır. Məclis iki tərəfə ayrılır. Bir tərəf Aşıq Alını, o biri tərəf Aşıq Ələsgəri müdafiə edir. Ustad-şagird bir-biri ilə deyişir, aralarından çox hərbələr, ustadnamələr, divanilər, təcnislər və dodaqdəyməzlər gəlib keçir. Nəhayət, Ələsgər bədahətən məşhur və indiyə qədər heç bir aşıq tərəfindən qabağı söylənməmiş ***"Ay yağa-yağa"*** dodaqdəyməz və ya "Bismillah İrrəhmanirrəhim" ayaqlı təcnisini (müstəzad) söyləyir.[1]

*Gəldi yaz ayları, həsrət çəkər xak,*
*Deyər: neysan gələ a yağa-yağa!*

---

[1] **Bax**: *Cinaslar, Bakı-yazıçı, 1985.*

*Lənət şeytana, - de, şər işdən əl çək,*
*Şeytan səni salar ayaq-ayağa.*

*Səyyad dəryalarda alar cəng ələ,*
*Həsrət çəkər: çiskin gələ, çən gələ.*
*Əzrayıl sinəni çəkər çəngələ,*
*Qəssal qəss eyləyər ay ağa, ağa.*

*Keçən qəncər gər erkəkdi, gər dişi,*[1]
*Dəllək çağır, çəkdirəcən gər dişi,*
*Qəzanın qədəri, çarxın gərdişi,*
*Sərsəri tez salar ayağa-ayağa.*

*Deyər Ələsgər, yaxşı deyil, ayə, nə?*
*Gizlin sirrin nahaq saldın ayanə.*
*Çırağın ki ilahidən a yanə,*
*Ehtiyacın nədi a yağa, yağa?!*

Və yaxud:

*Yazıq Ələsgər də deyər, ay ana!*
*Sirr işləri nahaq saldın ayana.*
*Çırağın ki ilahidən o yana,*
*Nədi ehtiyacın a yağa, yağa?!*

Aşıq Alı Ələsgərə cavab verə bilmir, məclisi buraxıb gedir. Bu hadisədən sonra Ələsgər ustadından ayrılır, özü müstəqil bir sənətkar olaraq aşıqlığa başlayır. Ələs-

[1] **Misranın mənası**: *Keçən toğlunun bəzisi erkəkdir, bəzisi dişi. Qəncər – ləzgicə quzu.*

gər ustadını bağlaması nəticəsində geniş kütlə arasında daha böyük şöhrət qazanır. Onun yanına yaxın-uzaq yerlərdən şagirdlər gəlir”.[1]

Ələsgəri 13-14 yaşında Kərbəlayi Qurbana nökər veriblər. Dörd il nökərlik etmişdir. Ələsgəri 17 və 18 yaşında Alıya şəyird veriblər. Ələsgər Aşıq Alıya 5 ildən 7 ilə kimi şəyirdlik edib. Bundan sonra Ələsgər bir aşıq kimi püxtələşib. Onu da qeyd edək ki, Ələsgər məktəb təhsili almamış, deyilənlərə görə, hətta adını da yazmağı bacarmırmış.

Bu fikir isə müəllifin fikridir:

Deyilənlərə görə, 1845-1846-cı ildə Göyçənin Qarabulaq (indiki Çaxırlı) kəndində Böyük ağa məclis təşkil edir. Ustad Aşıq Alı şəyirdi Aşıq Ələsgərlə deyişir. Deyişmə üç gün-üç gecə davam edir. Onda ustad Alının 45, Ələsgərin 25 yaşı olardı. Deyilənlərə görə, Ələsgər axırda dediyimiz bu üç təcnisdən birini “Ay yağa-yağa” dodaqdəyməz təcnisini və yaxud “Bismillah İrrəhmanirrəhim!” və ya “Götürüb sazımı mərdü-mərdana” ayaqlı və ya müstəzad təcnisini və ya “Şərxata” (şər-xəta) təcnisini bədahətdən deyir. Aşıq Alı cavab verə bilmir, aciz qalır. Ustad məğlub olur.

Bu həqiqətə uyğundurmu?

Aşıq Alı XIX əsr Azərbaycan aşıq sənətinin qüdrətli simalarındandır. El arasında həm söz ustadı, Ağ Aşıq kimi görkəmli ustaddan 11 il aşıqlıq elminin sirlərini sinədəftər edən, həm mahir ifaçı, həm müəllim-ustad kimi tanınan, İranda Aşıq Zəki, Rumda Aşıq Yığval, İstanbulda

---

[1] **Bax:** *Aşıq Ələsgər, 1937.*

Əsmər xanım kimi saz-söz sərraflarını bağlayan, bir əsrdən çox ağır-ağır toylar keçirən, 20-dən artıq şəyird yetişdirən kamil bir ustad, özü də ərəb, fars dilində mükəmməl təhsil alan, məclislərdə bədahətən söz deyən, el-obada "Şıx Alı", "Təcnis Alı", "Dədə Alı", "Loğman Alı" kimi ad-titullar ilə şöhrət tapan aşıq-şair necə ola bilər ki, şagirdi Ələsgər qarşısında bağlanmış olsun? Bu, həqiqətə uyğun deyil. Ola bilər ki, Aşıq Alı hörmət mənasında sazını Ələsgərə verib məğlub olar ki, belə yetişdirdiyi məşhur şagirdi ilə fəxr etsin.

Bu rəvayətlərin həqiqət olması üçün bir daha şair Hüseyn Arifin "Bir şeir və onunla bağlı rəvayət"[1] haqqındakı məqaləsinə nəzər salaq:

"Xalq arasında qəribə bir rəvayət zaman-zaman yaşayıb ömür etməkdədir. Maraqlıdır ki, bir sıra alim və yazıçı da bu rəvayətin həqiqətən olduğunu, yeri gəldikcə, müxtəlif yazı və çıxışlarda qeyd etmişlər.

Bu qəribə rəvayət nədən ibarətdir?

Belə deyirlər ki, guya Aşıq Ələsgər bir müddət ustadı Aşıq Alı ilə xeyir-şər məclisində iştirak etdikdən sonra, o, özünü tamamilə sərbəst aparmağa başlayır. Bu hal Aşıq Alıya xoş gəlmir. Beləliklə, ustadla şagird arasındakı gərginlik getdikcə kəskinləşir. Odur ki, günlərin bir günündə Aşıq Alı ilə Aşıq Ələsgər üz-üzə gəlib deyişməli olurlar.

Bəzilərinin söylədiyinə görə, ustadla şagirdin deyişməsi üç gün, üç gecə uzanır. Aradan xeyli təcnislər, do-

---

[1] **Bax**: *Elm və həyat, 1968, № 8, səh. 18-20. H.Arif*

daqdəyməzlər, qıfılbəndlər gəlib keçir: Nəhayət, Ələsgər özünün məşhur ***"Ayaqlı təcnis"***ini bədahətən yaradır.

Alı cavabında aciz qaldığından, oradaca sazını Ələsgərə verir məclisi tərk edir.

... Aşıq Alının müdrikliyi də, Ələsgərin xalq içində böyük ad-san qazanması da həqiqətdir; lakin onların arasında baş verən münaqişə Ələsgərin Alının sazını əlindən alması həqiqətdirmi?

- Yox!

Bəs belə bir rəvayətin sürətlə yayılmasına səbəb nədir?

Yenilik, təzəlik eşqi!

Böyüyə, ustada hörmət hissi Ələsgərin sözlərində çox təbii, səmimi bir formada öz əksini tapır:

*Bir şagird ki ustadına kəm baxa,*
*Onun gözlərinə qan damar-damar...*
*...Yazıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım.*
*Oxudum, öyrəndim, oldu öz malım*
*Bizdən ustadlara nəfi rəhmətdi...*

Bəs yuxarıda deyilən rəvayətin həqiqət kimi səslənməsinə əsas nədir?

Bu sual-cavab üçün, birinci növbədə həmin rəvayətin yaranmasına bais olan **"Ayaqlı" təcnisli** şeirin özünə və onun 1-ci bəndinə nəzər salaq:

*Götürüb sazımı girrəm meydana,*
*Gəl eyləyək bəhs.*
*Əgər sən toxunsan, mən də toxunnam,*
*Şəriətdə halal-qisasa qisas,*
*Qoy ucalsın səs!"*

Ümumiyyətlə, Ələsgərin "Ayaqlı təcnis" adlandırdığı şeir istər özünün, istərsə də başqa aşıqların məlum təcnis formalarında yazılan əsərlərin hamısından fərqlənən, tamamilə yeni ahəngli, yeni musiqili bir əsərdir. Şeir beş bənddən ibarətdir. 1-ci bənddə cinaslardan – şəkilcə bir, mənaca müxtəlif sözlərdən istifadə edilmir, daha doğrusu, başqa təcnislərə xas olan qanun-qayda pozulur.

Onbirliklərdən ibarət olan 1-ci bəndin 1-ci misrasından sonra onun ayağı altında

*"Gəl eyləyək bəhs"*

beşliyi dayanır. Yenə onbirlikdən ibarət olan 2-ci misra qafiyələnmə nöqteyi-nəzərindən sərbəst buraxılır. Onbirlikdən ibarət 3-cü misranın 2-ci bölgüsündə, yəni beşlik bölgüsündə "qisasa qisas" gəlir. 3-cü misranın ayağında "Qoy ucalsın səs!" beşliyi dayanır. İndi də qalan bəndlərə nəzər salaq:

*Bir xoş günü əvəz min ayə, billəm,*
*Çəkilib qamətin minayə, billəm.*
*Pirimdən dərs aldım, min ayə billəm,*
*Bir sözünə min söz deyim, dəsbədəs,*
*Sən eylə həbəs.*

*Mən dərdliyəm, mən ağlaram, budağlar,*[1]
*Eşq ucundan sinəmdədi bu dağlar;*
*Bir tərlanam, oylağımdı bu dağlar.*
*Səndən səgi-lağər,*[2] *şikarın məkəs,*[3]
*Hökmün kəsakəs!*

---

[1] **Budağlar** – *bu da ağlar;*
[2] ***Səgi-lağər*** – *arıq it*
[3] ***Məkəs*** – *milçək*

*Ovsunçuyam, ovsun sallam, hu mara,*
*Bənna isən, tərkin axtar, him ara.*
*Səmin[1] diraz, ləhcən bənzər himara,[2]*
*Aləmə bəllidir bu nitqü nəfəs.*
*Misali-hədəs.*

*Aşıq gərək bu meydanda bir qala,[3]*
*Eşq odunu bir ətəklə, bir qala!*
*Ələsgərdi Xeybər kimi bir qala,*
*Bacara bilməzsən, dur yerində pəs,*
*Danışma əbəs!*

Bütün bəndlərdəki 4-cü misranın sonundakı beşlik, ayaqdakı beşliklərlə qafiyələndirilir və qəribədir ki, bunlar da özlüyündə ayrıca, bitkin bir şeirə oxşayır:

*"Gəl eyləyək bəhs"!*
*"Qisasa qisas"*
*"Qoy ucalsın səs"!*
*"Deyim dəsbədəs"*
*"Sən eylə həbəs"!*
*"Şikarın məkəs"*
*"Hökmün kəsakəs"!*
*"Bu nitqü-nəfəs"*
*"Misali-hədəs"!*
*"Dur yerində pəs"*
*"Danışma əbəs"!*

---

[1] ***Səm*** *– qulaq*
[2] **Himar** *– eşşək*
[3] **Qala** *– tək qala*

Bundan belə bir nəticə çıxarmaq mümkündür ki, konkret olaraq Ələsgər heç zaman ustadı ilə deyişib, onun sazını əlindən almamışdır. Lakin Ələsgər tarixin inkişaf qanununa uyğun olaraq öz şəxsi istedadı əsasında ustadının əsərlərindən fərqli olaraq, yeni məzmunlu, daha təravətli, təzə əsərlər yaratmışdır ki, xalq bu yeniliyi – novatorluğu ideallaşdırmaq, onu təbliğ edib daha geniş yaymaq məqsədilə belə bir ağlabatan rəvayəti uydurub dillərə salmışdır.

Qəribədir ki, hazırda maral və ceyran saxlanan qoruqlarda işləyənlər bir həqiqəti təsdiq edirlər ki, maral və ceyranlara budaqdan üzüb hər hansı bir meyvəni uzatdıqda onlar dərhal həmin meyvəni yeyir. Lakin həmin meyvəni onlara əvvəlcədən dilə, dişə, nəfəsə toxundurub verdikdə marallar, ceyranlar bu meyvələri yemir. Görünür maral, ceyran nəfəsi başqaları tərəfindən çeynənmiş, qoxulanmış heç bir şeyi qəbul etmir.

Mənə elə gəlir ki, xalq nəfəsi də belədir. O, özgələr tərəfindən sümürülmüş, çeynənib atılmış, daha doğrusu, köhnəlmiş heç bir "yenini" qəbul etmir. Xalq çox həssas, başa düşən və qədir biləndir. Məncə, bir şeir və onunla bağlı bir rəvayətin əsl səbəbi də aydındır.

İndi isə "*Bismillah irrəhmanirrəhim*" *və ya: Götürüb sazımı mərdü-mərdana,* – müstəzad təcnisi və yaxud "Ayaqlı təcnis"ini nəzərdən keçirək. Bu təcnisi Ələsgərin kitabından olduğu kimi yazmışıq:

*"Bismillah irrəhmanirrəhim"! – deyib,*
*(Götürüb sazımı mərdü-mərdana),*
*Girrəm meydana, gəl eyləyək bəhs.*
*Sən toxundun, mən də sənə toxunnam,*

*Şəriətdə halaldı – qisasa - qisas,*
*Qoy ucalsın səs!*

*Bir xoş günü əvəz min aya billəm,*
*Boyun nəqqaş çəkib minaya, billəm.*
*Pirim dərsim verib, min aya billəm,*
*Bir sözünə min söz deyim, dəsbədəs,*
*Sən eylə həbəs!*

*Mən dərdliyəm, mən ağlaram, bu da ağlar,*
*Eşq ucundan sinəmdə var bu dağlar;*
*Bir tərlanam, ovlağımdı bu dağlar.*
*Sənsən səgi-lağər(şahi-zərzər), şikarın məkəs,*
*Hökmün kəsakəs!...*

*Ovsunçuyam, ovsun sallam hi mara,*
*Bənna olsan, tərki axtar, him ara.*
*Səmin diraz, ləhcən bənzər himara,*
*Aləmə bəllidir bu nitqü-nəfəs.*
*Vüsali-hədəs.*

*Aşıq gərək bu meydanda bir qala,*
*Eşq ocağın bir ətəklə, bir qala!*
*Ələsgərdi, Xeybər kimi bir qala,*
*Bacara bilməzsən, danışma əbəs!*
*Dur yerində pəs!*

Bu səbəbi bir daha təsdiq etmək üçün ustadla şagird arasındakı bir rəvayətə diqqət yetirək:

Məhrum Kərəm babanın[1] vaxtilə (110 yaşında ikən) deməsinə görə, Aşıq Alını bir məclisə dəvət etmişdilər. Mən də Aşıq Alının qorçusu kimi o məclisdə idim. Məclisə başqa aşıqları da dəvət etmişdilər. Ustad Aşıq Ələsgər də burada idi. Aşıq Alı məclisə gec gəlib çıxdı. Gördü ki, aşıqlar meydanda cövlan edirlər. Aşıq Alı atdan düşmək istəmir, geri qayıtmaq istəyirdi. Aşıq Alı çox tərs adam idi. Nə isə birtəhər onu atdan düşürtdülər. Aşıq Alı dedi ki, onda bu aşıqlar meydanı tərk etsinlər. Aşıqlar meydanı tərk etdilər.

Aşıq Alı içəri daxil olarkən gördü ki, şəyirdi Ələsgər buradadır. Ələsgər ustadını görən kimi ayağa qalxdı və ustadı ilə görüşdü. Ustadının əhvalı-ruhiyyəsini soruşdu. Aşıq Alı dedi ki, bayaqkı dediyim sözlər sənə aid deyil?

Ələsgər dedi ki, bəli, ustad, aiddir. Ancaq siz olan yerdə mən aşıq deyiləm.

Aşıq Alı gülümsündü və əlinnən Ələsgərin belinə vurub dedi ki, oğul, onda bu məclisi ikimiz aparacağıq. Bundan sonra ustadla şagird meydanda cövlan etdilər.

Bir daha fikrimizi təsdiq etmək üçün Hüseyn Arifin **"Aşıq Ələsgərə"** şeirinə diqqət yetirək:

*Ustadlar ustadı sayılanda da,*
*Ustadı yanında şagirdə döndü.*

Ələsgərin şeirlərini eşidərkən məhz Ələsgərin özü tərəfindən ifa edilən melodiyaları dinləyirmiş kimi məst olursan, dastan deyən, ustadnamə oxuyan, qıfılbənd açan, deyişmədə qalib gəlib aşıqlar əlindən saz alan Ələs-

---

[1] *Kərəm baba Aşıq Alının qorçusu olmuş, 110 il (1862-1972) ömür sürmüşdür.*

gərin gözəllik aləminə qovuşursan. Aşığı görüb-tanıyanlar şəhadət verirlər ki, o, sol əli ilə çalarmış, Ələsgərin əsərlərini erməni xalqının dilinə tərcümə edən şair Alek Xaçunsun fikrincə, bu, təbiətin el nəğməkarına bəxş etdiyi ən böyük mənəvi nemətlərdən biridir: Ürək solda, sazın səda verən küp hissəsi də solda. Ürək ürək üstündə!... Bəlkə də, elə buna görə Aşıq Ələsgərin nəğmələri bu dərəcədə cazibədardır! Nə yaxşı ki, Ələsgər sənətinin barı bircə hissəsi onun ölməz şeirləri aşığın yalnız müasirlərinin deyil, bütün sonrakı nəsillərin, sizinlə birlikdə bizim hamımızın malı olmuşdur!

Ələsgər Azərbaycan aşıq poeziyası tarixində müəyyən bir məktəb yaratmış sənətkardır. Aşıq Ələsgər sazı sol əli ilə çalar, sağ əlini pərdələr üzərində gəzdirər, zil, nazik səsi ilə çox şirin və məlahətli oxuyarmış. Hələ gənc yaşlarından bir sıra görkəmli şəxslərin, sənətkarların diqqətini cəlb etmişdir. İ.H.Polonski hələ 1851-ci ildə "Kavkaz" qəzetində çap etdirdiyi məqalələrin birində[1] gənc Ələsgərdən danışmış, onun səsinə, sazına, mahnısına heyran olduğunu bildirmişdir. Ələsgərin söylədiyi "Əsli və Kərəm" dastanı şairi heyran qoymuşdur.

Onu da qeyd edək ki, bu üç ustad aşıq bir-birinə həmişə kömək etmiş və onlar baba, ata, oğul münasibətlərində olmuşlar. Şair Hüseyn Arif yazmış olduğu ***"Aşıq Alı"*** poemasında bu münasibəti belə tərənnüm etmişdir:

*... Ağ Aşığa əsl oğul,*
*Ələsgərə əsl ata...*

---

[1] ***"Kavkaz" qəzeti,*** *1851, № 1-2.*

Göyçəli Aşıq Ələsgərin 30-a yaxın şəyirdi var imiş. Bunlardan aşıqlıqda kamil olmuş Daşkəndli Nəcəfnən Əsədə ustaları Ələsgər tərəfindən sərbəst aşıqlıq etməyə icazə verilmişdir. Bu iki şəyird də bir-birindən ayrılmayıb, birlikdə gəzməyə başlayırlar. Gəzə-gəzə gəlib bir günnəri çıxırlar Tovuza. Onlar Tovuzda məclis keçirilərkən təsadüfdən Aşıq Hüseyn Bozalqanlı da gəlib çıxır həmin məclisə. Nəcəfnən Əsəd Aşıq Hüseynnən həmin məclisdə tapışıb tanış olurlar. Aşıq Hüseyn Nəcəflə Əsədin gözəl səs, mərifət, kamal sahibi olduqlarını görür, onnara çox hörmət eyləyir, həm də fikirləşir ki, Ələsgərin şəyirdləri belə olanda gör onda özü nətəri olar? Əmma orasını da deyim ki, Aşıq Hüsöyn Ələsgərin adını eşidib, üzünü görməmişdi. Oydu ku, Ələsgərin şəyirdlərindəki bu dərrakıyı görəndə ürəyində Ələsgərə məhəbbəti bir daha artır. Aşıq Hüsöyn şagirdlərdən soruşur ki:

*- A bala, nə yaxşı ustadınız sizi tək buraxıb?*

*Nəcəfnən Əsəd elə cavab verirlər ki:*

*- Dədə, umudu gəlməsə buraxmazdı.*[1]

Yeri gəlmişkən qeyd edək ki, aşıq ədəbiyyatında ədə-ərkan mücəssəməsi Aşıq Ələsgər nəinki şagirdlik illərində, hətta ustad olduğu zamanda da belə, Aşıq Alının qocalıq çağlarında, gözləri tutularkən (1895-1911) onu Göyçə, Kəlbəcər mahallarının bütün toy məclislərinə özü ilə apararmış, məclislərin başında əyləşdirər, yığılan nəmərə şərik edərmiş.

Aşıq Ələsgərin oğlu, 100 yaşlı Aşıq Talıbın 1978-ci ildə deməsinə görə, bu əhvalatın mən şahidi olmamışam,

---

[1] **Bax: Aşıq Ələsgər,** *2-ci kitab, Bakı 1972.*

amma ustad aşıqlardan eşitmişəm: Deyirlər, Ələsgərin ustadı Qızılvəngli Aşıq Alı ölümündən bir neçə ay əvvəl Çaxırlı kəndinin ağsaqqalı Böyükağanın evinə gəlib öz şəyirdləri ilə deyişəcəyini bildirib. Aşıq Musanı, Qəhrəmanı, Alışanı, Qulunu, Usufu, Ələsgəri və 6 nəfər başqa aşığı evinə çağırıb məclis düzəldir onlar üçün. Aşıq Alı onları bir-bir imtahana çəkir. Təkcə Ələsgər öz sinədəftərliyi ilə ustadını heyran qoyur. Aşıq Alı sevinclə deyir: "Daha rahat ölə bilərəm. Mənim Ələsgər kimi davamçım var..."

Göyçədəkən hər biri 100 ildən artıq ömür sürmüş üç ustad aşığın qəbirlərini Hüseyn Arif, Zeynalabdin müəllim və mən - Əmiraslan Kərkibaş, Qızılvəng, Ağkilsə kəndlərində ziyarət etdik, qohumları ilə görüşüb bəzi məlumatları topladıq. Orada bir neçə ağsaqqaldan eşitdik ki, Alı həmişə ustadının qəbrini ziyarətə gələr, hər dəfə ayaq üstə xeyli səssiz-səmirsiz fikrə dalarmış. Ustadının vəfatından sonra da əvvəl onun sözlərini oxuyar, sonra ustadnamələrə keçərmiş, hətta Ağ Aşığın sağlığında belə Alı onun icazəsi olmadan heç bir məclisdə öz sözlərini oxumazmış. Həm də ustadının ailəsi ilə görüşüb köməklik göstərərmiş. Dediyimiz bu sözləri eyni qayda ilə Ələsgərə də aid etmək olar.

Təəssüf ki, bu üç ulu sənətkarın qəbirləri kimsəsiz - ellərdə uyuyur. Daşnakların tapdağı altında qalıb. Vaxt olacaq, o gün gələcək, biz Göyçəyə gedib bu ustad aşıqların və babalarımızın qəbirlərini ziyarət edəcəyik.

Həyat imtahanları ən çətin imtahandır. Görürsən ki, həyata atılan iki gənc bir-birindən yaxşı yaşamaq istəyir. Eləcə də olduğu kimi, aşıq poeziyasında tanınmış ustad

aşıqlar öz dövrünün görkəmli aşığı olmaq üçün onu daban-daban izləyən aşıqlarla deyişməli olurlar. Yəni aşıqlar üçün həyat imtahanı deyişməkdir. Aşıq poeziyasının geniş yayılmış şəkillərindən biri də deyişməkdir. **Deyişmə** aşıqların sənətkarlıq bacarığını, istedadını, dünyagörüşünü, biliyini nümayiş etdirmək üçün mühüm vasitələrdən biridir. Deyişmə zamanı aşıqlar müxtəlif şeir növlərindən istifadə edirlər. Məsələn, hərbə-zorba, qıfılbənd, təcnis, ustadnamə, dodaqdəyməz təcnis və s.

Aşıq sənətində belə bir qayda tarix boyu məclislərdə davam etmişdir... Sənətkarlar xalq qarşısında bir-biri ilə yarışmış, öz güclərini sınamışlar. Məğlub olanın sazı alınıb özü bəndə salınmışdır. Bu yarışda ən çox bədahətən şeir deməyi bacaran, dərin biliyə malik olan ustad aşıqlar qələbə qazanmışlar.

Yazılı ədəbiyyatın dar mənalı yaradıcılıq laboratoriyasına əsasən yazıçının yazı otağı, kitabxanası, masası, qələmi və dəftəridir. Aşığın yaradıcılıq laboratoriyası ilə yenə də əlbəttə ki, əsasən saz-söz məclisləridir. Göyçə mahalı üçün belə məclislər ən azı toy və şənlik yığnaqları, yaylaqlar, çeşmə başlarıdır. Bu baxımdan biz ustad sənətkarların – Ağ Aşığın Aşıq Alı ilə, Aşıq Alının Aşıq Ələsgər ilə deyişmələrini sonra verməyi məqsədəuyğun bildik.

Aşıq Ələsgərin oğlu Aşıq Talıbın 1978-ci ildə deməsinə görə, bir əhvalat da Şəmkirli Aşıq Hüsöynlə olub. Hansı toy məclisinə gedirmişsə, ondan Ələsgərin sözlərini oxumağı təvəqqe edirmişlər. Bu da Aşıq Hüsöynün şəninə toxunarmış. Bir gün o, belə qərara gəlir ki, yaxşısı budur, gedim Ələsgərlə deyişim, sazını da əlindən alım,

kimin qüvvətli aşıq olduğu bəlli olsun. Atı minib gəlir Ağbulağa, oradan da Ağkilsəyə, Ələsgərin evinə. Deyir, Ələsgər gəlmişəm səninlə deyişməyə, sazını gətir, duraq qabaq-qabağa. Dədəm deyir ki, Aşıq Hüsöyn, mən nə karəyəm, sənnən deyişə biləm?

Ancaq Hüsöyn əl çəkmir ki, çəkmir, axır ki başlayırlar ki, şeirləşməyə. Hüsöyn görür ki, Ələsgər kamil aşıqdır, deyişməkdən əl çəkmir. Ələsgər sazını onun qarşısına qoyur deyir: "Buyur, sən ustad aşıqsan. İndiyədək çox aşıq bağlayıb sazını əlindən almısan. Buyur mənim sazımı da apar".

Aşıq Hüsöyn bir az da hirslənir, kirimişcə sazını köynəyinə qoyub Ələsgərin evini tərk edir. Yolda Göyçəlilər soruşurlar: "Aşıq Hüsöyn, Ələsgər necə aşıqdır?", "Elə hesab edin ki, bu Göyçə dənizidir, mən də Ağbulaq"...

Məlumdur ki, Ələsgər dərin məlumatlı, bilikli, savadlı bir şəxs olmuşdur. Lakin o, yazmağı bacarmamışdır. Aşıq Ələsgər bir şeirində bunu belə tərənnüm etmişdir:

*...Aşıq Ələsgərdi, soruşsan adım,*
*Huşum başımdan gedib, yoxdu savadım.*

O dövrdə Göyçə mahalında göz və qulaq savadı əsas idi. Bununla belə, o, həmişə bilmək, öyrənmək, kamilləşmək eşqilə alovlanmış:

*"Ələsgərəm, tamam deyil kamalım,*
*Gedib yenə bir ustaddan dərs alım"* -

arzusu ilə yaşamışdır.

Başqa bir məlumata görə, həmişə Ağdabanda "Qurban bulağı" adlı bir yaradıcılıq məclisi də varmış ki, ətraf

kəndlərdə yaşayan sənətkarlar tez-tez buraya toplaşar, qiraət, yaxud müaşirə məclisləri keçirərmişlər. Əldə olan məlumatlara görə, Ələsgər də bu məclisin fəal iştirakçılarından olmuşdur.

Ələsgərin el şairlərini, müdrik qocaları, təcrübəli aşıqları çox maraqla dinlədiyini, savadlı dostlarına, tanışlarına, maraqlı kitablar oxudub diqqətlə qulaq asdığını, onlardan eşqlə, həvəslə öyrəndiyini söyləyirlər. Aşıq Ələsgəri şəxsən dəfələrlə görmüş və onu yaxşı tanıyan Aşıq Şəmşir deyir ki, "Aşıq Ələsgər atamla (Ağdabanlı şair Qurbanla) yaxın dost idi. O, tez-tez bizə gələr, atamla mehribanlıqla görüşər, sazdan-sözdən səmimi, şirin söhbətlər edərdi. Ələsgər atama o dövrün maraqlı hesab olunan kitablarından oxudar, onu çox maraqla dinləyərdi. Sonra da onlar oxunan kitablar, şeirlər və havalar haqqında söhbət açardılar. Ələsgər dövrünün olduqca bilikli, məlumatlı adamı, ustad aşığı, böyük sənətkar idi. Bununla belə, o, yenə də öyrənməyə, öz bilik və məlumatını artırmağa çalışardı".

Kərəm baba deyirdi ki, dəfələrlə Ələsgəri görmüşəm və şəxsən özünnən görüşmüşəm. Aşıq Ələsgər Kərkibaşda da çoxlu toy şənlikləri və məclisləri keçirib. Hətta evimdə də qonaq da saxlamışam. Özünün dediyinə görə, yazı-pozu bilmirdi. Soruşdum ki, bəs, Ələsgər əmi, bu qədər maraqlı sözləri haradan bilirsən? Əgər kitab oxuya bilmirsənsə? O, dedi ki, çoxunu savadlı adamlara, dostlarıma oxutdururam və diqqətlə qulaq asıram. Maraqlı kitabları isə mənə Mirzə Bəylər gətirər, onu da oxutdurub qulaq asıram və maraqlı söhbətlər edirəm...

Bəylər dövrünün savadlı adamlarından olmuşdur. O, Azərbaycan, ərəb, fars, rus, hətta fransız dillərində təhsil almışdır. Sonra İrəvan quberniyasının qəza dəftərxanalarında katib və tərcüməçi vəzifəsində çalışmışdır. Bunun üçün ona Mirzə deyərlərmiş. Aşıq Ələsgər şeirlərinin birində demişdir ki, Mirzəni başqalarından fərqləndirən elmdir, bilikdir, savaddır.

*Firəng, rusi, farsı, türki, ərəbi,*
*Beş dilinnən var savadı Bəylərin.*

Aşıq Ələsgər xalqa, canlı dilə daha güclü meyl edən sənətkarlardan, klassiklərimizdən öyrənmiş, təsirlənmişdir. Aşıq Ələsgərin dilində, xüsusilə Sarı Aşığın və Ağ Aşığın dili və üslubunun təsiri var. Sarı Aşığın bayatıları, onun "cinaslar aləmi", Ağ Aşığın təcnisləri Ələsgərə öyrənmək, görüb-götürmək, təzə söz demək üçün güllü-çiçəkli bir sənət bağçası, söz çəməni olmuşdur. Maraqlıdır ki, bəzən hər iki sənətkar eyni sözlərdən çox müvəffəqiyyətli cinaslar, təcnislər, qoşmalar, şikayətnamələr yaratmışlar. Məsələn,

**Sarı Aşıqda:**
*Ördək göldə narın üz,*
*Narın çalxan, narın üz,*
*Gəlgilən yar bağına,*
*Gülünü dər, narın üz.*

**Aşıq Ələsgərdə:**
*Könül, sən ki düşdün eşqin bəhrinə,*
*Narın çalxan, narın silkin, narın üz!*
*Dost səni bağına mehman eyləsə,*
*Almasın dər, gülün iylə, narın üz!*

**Ağ Aşıqda:**
*Dedim: - nədir sədrin üstdə bəslənmiş?*
*Dedi: - tifil kimi ay əməndədi.*
*...Nə Firdovsi, nə Füzuli, nə Cami,*
*Təcnis sinədəftər ayə məndədi.*

**Aşıq Ələsgərdə:**
*Sinəmdədi eşqin şirin çeşməsi,*
*Ləzzəti meyl edib ay əməndədi.*
*... Firdovsi, Füzuli, Hafiz, Nəsimi –*
*Onlar da yazdığı ayə məndədi.*

**Ağ Aşıqda:**
*Leylü-nahar yeddi ağac getdim yol,*
*Xırman boyda yer şumladım, qırdım qol.*
*Darı, arpasını əkdim bolabol,*
*Biçdim əvəzində dəvə qanqalı.*

*...Sürünməkdən dizlərimdə yox taqət,*
*Əllərimin içi oldu qabar-qat.*

*...Əlqərəz, rüzumuz oldu üç batman,*
*Çatınca növbətim sındı dəyirman.*
*Yerdə qalanımı apardı siçan,*
*Güldü Ağ Aşığa Göyçə mahalı.*

**Aşıq Ələsgərdə:**
*Arpadan, buğdadan çıxmışdı əlim,*
*Zəhmət çəkdim, dedim az darı olsun.*
*Yolmasın yolmaqdan qırıldı belim,*
*Bundan gələn xeyir zəhrimar olsun!*

*Bel ilə bu yeri əkdim bir ayda,*
*Sulamaqdan su da qalmadı çayda,*
*Biçdim, döydüm, darım oldu bir bayda,*
*Qoy söyləyim, mahallarda car olsun!*

*...Dən tutan yerini sağsağan döydü,*
*Qarğayla siçanın üzü qara olsun.*

İndi də bu ustad aşıqların – yəni ustad-şəyirdlərin şeirlərindəki oxşarlıqları nəzərdən keçirək:

**Ağ Aşıqda:**
*Çəkilib tülək tərlan,*
*Sar alıb ovlağını.*

**Aşıq Alıda:**
*İtkin düşdü tülək tərlan*
*Sar da kəklik alan oldu.*

**Ağ Aşıqda:**
*Yarım çıxıb yaylaqlara,*
*Qaldım, yalvara-yalvara.*
*Bərə qurdum oylaqlara,*
*Durdum, yalvara-yalvara.*

**Aşıq Alıda:**
*Yad olanda yar peymana,*
*Qaldım yalvara-yalvara.*
*Keçən günü xəyalına,*
*Saldım yalvara-yalvara.*

Ustad aşıqlar el arasında "dədə" deyə çağırılmış, müdrik el ağsaqqalı, tərbiyəçi kimi hörmət və ehtiramla qarşılanmışlar. Aşıq dövrünün bilikli, məlumatlı, müdrik adamı kimi hər yerdə fərqlənmişdir. Çünki o, camaatın gözünü açmağa çalışmış, xalqı dinə, cəhalətə, zülm və haqsızlıq dünyasına qarşı mübarizəyə ruhlandırmışdır.

**Ağ Aşıqda:**
*Zəhrimardı, alıb yemə,*
*Kəndxudanın nan əlindən.*

*...Yuxarıdan pristav, aşağıdan Koyxa,*
*Biçarə rəiyyəti dara çəkillər.*

*...Qazı, darğa xalqı soyur soğantək,*
*Dirikən üstündən qara çəkirlər.*

**Aşıq Alıda:**
*Ay həzarat, gəlin sizə söyləyim,*
*İndi bu dünyanı pul dolandırır.*
*Kəsilib məhəbbət, qalmayıb hörmət,*
*Dövlətli dalınca mal dolandırır.*

*... Evdə arvadına sözü keçməyən,*
*Kənddə koyxa olub, el dolandırır.*

**Aşıq Ələsgərdə:**
*Bəylik, səylik, göylük olan məclisdən,*
*Qaç ki orda xeyir, bərəkət olmaz.*

*... Ay həzarat, gəlin sizə söyləyim,*
*Bu dünyanın xəyanatı çıxıbdı.*
*İnsaflar azalıb, mürvət gödəlib,*
*Qazıların mazarratı çıxıbdı.*

Bu unudulmaz dahi sənətkarlar, ustad-şəyirdlər – Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər öz qoşmalarında sevgililərinin – Süsənbərin, Bəsdinin, Səhnəbanının unudulmaz ilk məhəbbətini və eşqini tərənnüm etmişdilər:

**Ağ Aşıqda:**
*Mahcamalın şölə saçır ay kimi,*
*Gözüm, könlüm ay Süsənbər, səndədir.*
*Qaşların sinəmi oxlar yay kimi,*
*Bir ahusan, müşkü-ənbər səndədir.*

**Aşıq Alıda:**
*Sən şəmsi, mən kənarında sitarə,*
*Rüsxət ver sərinə dolanım, Bəsdi.*
*Can fəda eylərəm, ey mahipara,*
*Budur sərmayədən olanım, Bəsdi.*

**Aşıq Ələsgərdə:**
*Müddətdi gözümdən olubdu iraq,*
*Əridib ürəyim dərdü-qəm, fəraq.*
*Büllur buxaq, lalə yanaq, ay qabaq,*
*Alagözlü Səhnəbanım gedibdi.*

Dədə aşıqlar elin, obanın ağsaqqalı, nəsihətçisi, xeyir-şər ənənələrinin idarəedicisi kimi həmişə xalqın dərin hörmət və ehtiramını qazanmışlar. Ustad sözü bir nizamnamə kimi qəbul edilmiş, kütlələri zülmdən işığa, yamanlıqdan yaxşılığa, xeyirxahlığa, ağ günə, xoşbəxt həyata səsləmişdir:

*Allahverdi, işin yox fitnə-felnən,*
*İnsanı qarşıla şirin dilinnən,*
*Ayrılma yoldaşınnan, bir ol elnən,*
*El olmasa tək ucalmaq çətindi. –*

deyən Ağ Aşıq və onun şəyirdi Alı da özünü eldən, obadan aralı hesab etməmişdir:

*Alı köçər, adı itməz.*
*Kənar eldə gülü bitməz.*
*Boğazımdan loxma ötməz,*
*Keçinərsə ac mahalım.*

Onun ləyaqətli yetirməsi Ələsgər də bu yolla getmiş, yaddaşlara əbədi həkk olunmuşdur:

*Xətir-hörmətinnən, təmiz adınnan,*
*Gəşt eylədim mən Qafqazın elini.*
*Pirə ata dedim, cavana qardaş,*
*Ana, bacı bildim qızı, gəlini.*

Bu incə təbiət, xüsusiyyət ustadlardan-ustadlara keçə-keçə bu gün də davam etməkdədir. Maraqlıdır ki, Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin yaradıcılığında ictimai-siyasi kədər əsas yer tutur:

**Ağ Aşıqda:**
*Ay Məhərrəm, axır xub düşdün dara,*
*Çağır o Allahı, tez gəlsin dada.*
*Əshabi-Kəhfdəki ya İmamzada,*
*Heç kəsə sən möhtac eyləmə məni.*

**Aşıq Ələsgərdə:**
*Ələsgərəm, qərq olmuşam bu qəmə,*
*Yoxsulluğum dağ çəkibdi sinəmə,*
*Nakəs müxənnətdən mətləb diləmə,*
*Yoxdur namus, qeyrət, ar nişanası.*

**Aşıq Alıda:**
*Virana bağlara mən oldum bağban,*
*Almasın, heyvasın, narın görmədim.*
*Bivəfa sözündən çox cəfa çəkdim,*
*Bəslədim budağın, barın görmədim.*
*... Hərcayı gözəli məhv olsun tamam,*
*Namusun, qeyrətin, arın görmədim.*

**Aşıq Ələsgərdə:**
*Namərdi özümə mən dost eylədim,*
*Yolunda canıma çox qəsd eylədim,*
*Söyüddən bağ saldım, peyvəst eylədim,*
*Almasın, heyvasın, narın görmədim.*

*... Namərdin dünyada çox çəkdim bəhsin,*
*Namusun, qeyrətin, arın görmədim.*

**Ağ Aşıqda:**
*Əlinin yolunda qolu bağlıyam,*
*Qohumdan, qonşudan sinədağlıyam.*
*...Rüzgar tərsikdi, mən getdim badə,*
*Qohum, qardaş oldu onda azadə.*

**Aşıq Alıda:**
*Qohumdan, qardaşdan, dost-müsahiddən,*
*Bağlandı yolları, gələn olmadı.*
*... Binamus qohumdan namuslu düşman –*
*Öldürsə, qəbrimdə gül dolandırır.*

**Aşıq Ələsgərdə:**
*Dar günümdə qohum-qardaş yad oldu,*
*Məğrurluq eyləyən namurad oldu.*
*... Qohum bildik, qoyduq adam yerinə,*
*Xələt verdik gəl Bəşirin toyuna.*
*Qaçdınız pünhanda dolandınız,*
*Lənət müxənnətin əsl-soyuna.*

**Ağ Aşıqda:**
*Ağ Aşıq, dərdini təbib də bilməz,*
*Mən loğman axtarım haçana kimi?*

**Aşıq Alıda:**
*Nə həkim, nə loğman, nə cərrah qaldı,*
*Mənim bu dərdimi bilən olmadı.*

**Aşıq Ələsgərdə:**
*İşi əskik, baxtı qara Ələsgər,*
*Olmadı dərdinə çara, Ələsgər!*

**Ağ Aşıqda:**
*Ağ Aşığın gözyaşı dönübdü selə,*
*Nola əhvalımı biləydi baxtım.*

**Aşıq Alıda:**
*Axdı eynim yaşı döndü ümmana,*
*Ağlar Aşıq Alı, silən olmadı.*

**Aşıq Ələsgərdə:**
*Gözü yaşlı, ey füqəra Ələsgər,*
*İşi əksik, baxtı qara Ələsgər.*

**Ağ Aşıqda:**
*Ağ Aşığam, gözdə qaldı muradım,*
*Bəynişan toylarda çəkilmir adım.*
*Qırılıbdı qolum, sınıb qanadım,*
*Qalmayıb taqətim, çəkə bilmirəm.*

**Aşıq Alıda:**
*Ömrümün, günümün soldu novrağı,*
*Nə saz oldu, nə də tar, Aşıq Alı.*

*... Bir zaman aqildim başda əyləşən,*
*İndi də ayaqda kor Aşıq Alı.*
*Bədəsil şəyirdlər çəkibdir dağı,*
*Yetirdim peyvəsti, bəslədim bağı.*

*Ömrümün, günümün soldu novrağı,*
*Nə saz oldu, nə də tar, Aşıq Alı.*

**Aşıq Ələsgərdə:**
*Nagah badi-sərsər əsdi üzümə,*
*Ömür bostanımın tağı kəsildi.*
*... Qul Ələsgər işin müşküldü, müşkül,*
*Dərdini deməyə yoxdu əhli-dil.*
*Döy başına, fəğan eylə müttəsil,*
*Daha deyib-gülmək çağı kəsildi.*

**Ağ Aşıqda:**
*El içində yadda qalan sözlərim,*
*Yüksəldəcək ərşi-əlayə məni.*

**Aşıq Alıda:**
*Aşıq Alı, nə qazandın cahanda?*
*Səndən qalan qatar-qatar söz oldu.*

**Aşıq Ələsgərdə:**
*Onda vay halına, yazıq Ələsgər,*
*Özün getdin, sözün qaldı dünyada.*

Bu ölməz sənətkarların hər biri 100 ildən artıq ömür sürmüşdür. Lakin onlar həmişə doğma yurdlarına – Kərkibaş, Qızılvəng, Ağkilsə kəndlərinə möhkəm bağlı olduqlarını xatırlamışdılar.

**Ağ Aşıqda:**
*Eləmi, Göyçəyə mən,*
*Gözələ, göyçəyə mən.*
*Qürbətdə həsrət qaldım,*

*Vətənim Göyçəyə mən.*
*... Allahverdi neylər dünya malını,*
*Məst eylər Göyçəni, öz mahalını.*
*Yaxın dostlar Ağ Aşığın halını,*
*Sormaq üçün Kərkibaşa gəlibdi.*

**Aşıq Alıda:**
*Nə qədər gəzsəm də Turan elini;*
*Öz doğma ovlağım yadıma düşdü.*
*... Göyçə mahalımdır, Alıdır adım,*
*Ümidim, pənahım, mənim imdadım.*
*... Mahalım Göyçədi, kəndim Qızılvəng,*
*Aşıq Alı mahallarda bir gərək.*

**Aşıq Ələsgərdə:**
*Adım Ələsgərdi, əslim Göyçəli;*
*Ələt aləmində demişəm, bəli!*
*... Siyah zülfün dal gərdəndə hörəsən,*
*Əl uzadıb qönçə gülün dərəsən,*
*İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı – mahalım mənim!*

## USTAD-ŞƏYİRDLƏRİN DEYİŞMƏSİ

### *Ağ Aşığın Aşıq Alı ilə deyişməsi*[1]

### DAL-DALA

***Ağ Aşıq***
Bahar olcaq çıxaq çəmən seyrinə,
Bülbültək çək çiçək qəhrin dal-dala.
Məcnunsansa, qatlaş yarın qəhrinə,
Leylitək sən də çək qəhrin dal-dala.
***Aşıq Alı***
İsmin üç hərfnən eylərəm bəyan,
Mimdi, cimdi, nun yazılıb dal-dala.
Seyraqubla, müxənnətlə işim yox,
Əlif qəddin bəd yazılıb dal-dala.
***Ağ Aşıq***
Təşnə ciyər yar əlindən yaralı,
Haqqı çağır, yara yetsin yar əli.
Siyah telə şana çəksin yar əli,
Çin-çin etsin o əsmərin dal-dala.
***Aşıq Alı***
Səyyadısan, dağlar sənin, gəz dolan,
Alışıban yar oduna, az qalan,
Ovun gəlib, keç bərəndə daldalan,
Nəşdər (neşdər) xədənginə düzüb dal-dala.

---

[1] Bu deyişməni xalq müəllimi, folklorşünas, Ağ Aşığın tədqiqatçısı Zeynalabdin müəllim Aşıq Alının qəlyan qorçusu olmuş 100 yaşlı Kərəm dayısından 1965-ci ildə qələmə almışdır.

***Ağ Aşıq* ***
Gecə keçdi, dan atınca yara sən,
Qəza gəldi, həsrət qaldın yara sən.
Ya Rəbb, eylə məlhəm ona, çara (çarə) sən,
Allah, Alımın da qəhrini dal-dala.

***Aşıq Alı* ***
Fərzənd olub, gecə-gündüz dərs aldım,
Zəhmət çəkib, dərgahımda tər saldım,
Dosta həlim, müxənnətə tərs oldum,
Divanim-cəngim düzülüb dal-dala.

***Ağ Aşıq* ***
Ağ Aşıq, hər kəlamın bir həyatdı,
Şəyirdlərmin nur çeşmi bir həyatdı,
"Divani", "duvaqqapma"m bir həyatdı,
Şükür haqqa, verdi bəhrin dal-dala.

***Aşıq Alı****
Aşıq Alı, mərdi-meydan içində,
Saz sinədə sərtdi meydan içində,
Ustadım Ağ Aşıq meydan içində,
Süzülüb ayəsi odur dal-dala.

### *Aşıq Alının Aşıq Ələsgərlə deyişməsi*

### "DAL-DALA"

***Aşıq Alı***
Şahmar zülfün çin-çin edib hörəndə,
Görən deyir, qoy tökülsün dal-dala.
Bu dünyada şir də yalqız olmasın,
Qardaş durar, qardaşınnan dal-dala.
***Aşıq Ələsgər***
Gözəllər sultanı, mələklər şahı,
Şahmar zülfün nə tökmüsən dal-dala?!
Boyun sərv üstündə budağa bənzər,
Mürği-ruhum uçar, qonar dal-dala.
***Aşıq Alı***
Müxənnəs heç baxmaz, dala, qabağa,
Hərcayını məclisindən qab,[1] ağa!
Yaxşı köhlən cəhd eyləyər qabağa,
Yaxşı igid fikir verər dal-dala.
***Aşıq Ələsgər***
Geydim qəm libasını yasın içində,
Gələcək Nəkreyin ya sin içində.
Doxsan min kəlmədə, yasın içində,
Neçə yerdə müttəsildi "dal-dal" a?
***Aşıq Alı***
Xudam səni tək yaradıb təkbətək,
Gecə-gündüz zikr edərəm təkbətək.
Aşıq Alı, çək döşünə təkbətək,
Müxənnətdən çək ətəyin daldala.

---

[1] ***Qab*** *- qov*

***Aşıq Ələsgər***
Dərs almışam, oxumuşam hər aya,
Bayram ayı demək olmaz hər aya.
Şahlar şahı, özün yetiş haraya,
Mən yalqızam, düşmən verib dal-dala.
***Aşıq Alı***
Kamalla çatmışam çam ala[1] indi,
Gəl nifrət eyləyək cəm ala[2] indi.
On dördündə çatdım camala indi,
Müxənnətdən (müxənnəsdən) çək ətəyin dal-dala.
***Aşıq Ələsgər***
Billəm, ehtac deyil sənə mal indi,
Geyibsən qəddinə, sənəm, al indi.
Can alansan, canım, Sənəm, al indi,
Əzrayılın çəngəlindən dal-dala.
***Aşıq Alı***
Alı unudarmı fail yek sanı,
Əzəlindən aram hakla yeksanı.
Nankoru olsun yerin yeksanı,
Cəsədini təksim etsin dal-dala.
***Aşıq Ələsgər***
Ələsgər, əlindən getdi buta[3] yar,
Huşum çaşıb, ağlım olmaz but, əyar,[4]
Sinəm qoydun müjganına buta,[5] yar,
Əsirgəmə, at oxların dal-dala.

---

[1] ala - nemət, ruzi
[2] burada: fitnə, yalan, hiylə
[3] ***buta*** *- sevgili*
[4] ***əyar*** *- düzgün*
[5] ***Buta*** *- nişanə*

## *Ağ Aşığın bacısı Ümmilbanu ilə deyişməsi*[1]

**Ümmilbanu**
Can-ciyərim, getmə aman günüdür,
Çalış düşmə güzarına sərdarın.
Baş götürək, gedək qürbət diyara,
Yox etibar ilqarına Sərdarın.
**Ağ Aşıq**
Gəl görüşək, halallaşaq, ay bacım,
Gedər oldum hüzuruna Sərdarın,
Yazıq qardaşını qara qul kimi,
Aparırlar bazarına Sərdarın.
**Ümmilbanu**
Sənsiz necə dözüm qəm möhnətinə,
Özümü öldürrəm düşsən qürbətə,
Şeytan da vurmaz əl, haram dövlətə,
Od ələnsin yollarına Sərdarın.
**Ağ Aşıq**
Sultanların taxtı olaydı taraş,
Xan zülmkar, ağa cəllad, bəy fərraş,
Cumdum dərin ümmanlara, vurdum baş,
Dolaşmışam mən toruna Sərdarın.

[1] Bu deyişməni Zeynalabdin müəllim 1965-ci ildə Aşıq Alının qorçusu 100 yaşlı Kərəm dayıdan qələmə almışdır.

**Ümmilbanu**
Yaralıyam yüz sonanın içində,[1]
Necə üzüm göldə, qanın içində,
Ümmilbanu dil-dahanın içində,
Lənət edir məzarına Sərdarın.

**Ağ Aşıq**
Ağ Aşıq taleyi qara, baxtı kəm,
İqbalıma mənim fələk baxdı kəm,
Doğrananda qıyma-qıyma baxdı kəm,
Ollam məlhəm azarına Sərdarın.

## AĞ AŞIĞIN ERMƏNİ AŞIQLARI İLƏ ƏLAQƏSİ

Aşıq yaradıcılığı azəri və erməni ədəbiyyatı və incəsənətinin mühüm sahələrindən biridir. Aşıq yaradıcılığı bir çox əsrlər boyu azəri və erməni xalqlarının həyatı, məişəti, adət-ənənələri, mübarizəsi ilə sıx bağlı olmuş, daim xalqa xidmət etmişdir.

Azəri-erməni aşıq ədəbiyyatı əlaqələrinin qədim bir tarixi vardır. Azəri və erməni aşıq poeziyası demək olar ki, eyni inkişaf yolu keçmiş, öz məzmun və bədii ifadə xüsusiyyətlərinə görə bir-birinə yaxın olan ədəbiyyatlar-

[1] *Və yaxud bunu belə oxumaq olar:*
Yaralıyam tay-tuşumun içində,
Qəhr cövlan edir gözyaşım içində,
Ümmilbanu el-obanın içində,
Lənət edir məzarına Sərdarın.

dır. Həm də ədəbi-mədəni adətlərin parlaq təzahürlərindən biri erməni aşıqlarının azəri dilində yazıb-yaratmaları olmuşdur.

Qədim zamanlarda Azərbaycanda aşığa ozan deyilmişdir. Eyni zamanda azəri aşıq ədəbiyyatı kimi erməni aşıq ədəbiyyatı da qədim tarixə malikdir. Erməni aşıqları "Qusan" adlandırılmışdır. "Ozan" kəlməsinə nə qədər də oxşayır! Mənşə etibarı ilə pəhləvi sözü olan "Qusan" sözü ermənilərdə çalıb-oxuyana verilmiş addır. Yalnız sonralar aşıq mənasını kəsb etmişdir. Qusanlar ermənilərin qədim mahnıları olan "Hayren"lərin yaradıcılarıdır. Erməni alimi Manuq Abeğyan təsdiq edir ki, "Hayren" sözü erməni xalqına mənsub olan mahnı deməkdir. Belə bir ədəbi hadisənin başqa xalqlarda da olmasını M.Abeğyan türk xalqı arasında yaranmış "türkü"lərlə sübut edir.[1]

Bunların hər ikisi xalq tərəfindən sevilmişdir. "Ozan" və "Qusan" məfhumları bu gün də xalq arasında öz həqiqi mənasını saxlayır. Azəri bayatısında deyilir:

*Anam ozan olubdu,*
*Dərdə dözən olubdu,*
*Haqdan bağlanan dilim*
*Ərzə yazan olubdu.*[2]

"Qusan" sözü ermənilər arasında çox işlənir və indi hətta, bütün keçmiş və müasir aşıqlar "qusan" adlanırlar. Azəri sovet folklorşünası Əhliman Axundov K.Tarverdiyana istinad edərək göstərir ki, yalnız XIX əsrdə azəri di-

---

[1] **M.Abeğyan –** *"Qədim qusan mahnıları", Yerevan, 1931*
[2] **Bayatılar,** *Bakı, 1956, səh. 337.*

lində söz qoşan erməni aşıqlarının sayı 1300 nəfər olmuşdur.[1]

Orijinal sənət incisi olan aşıq poeziyasının yaradıcılıq əlaqələri geniş və əhatəlidir. Bu, Azərbaycan və erməni aşıq poeziyasında özünü daha aydın göstərir. Aşıqlara hər iki xalq eyni – aşıq (ozan, azərbaycanlılar) və aşuq (qusan, ermənilər) adını vermişdir. Bu ozanlar hər iki xalq üçün el nəğməkarı, el atası olmuşdur. Onlar bir-birinin dilini bilmiş, bir-birinin dilində çalıb-oxumuş, xalqlarımızın bir-birinə münasibətini tərənnüm etmişdir.

XVI əsrdən bu yana yüzlərlə erməni aşığı Azərbaycan dilində məharətlə şeir qoşub, çalıb-oxumuşdur. XVI əsrdə yaşayıb-yaradan, Basarkeçər rayonunun Sarıyaqub kəndində yaşayan Miskin Abdalın şeirləri erməni aşıqlarının dilinin əzbəri olmuşdur.

Sayad-Nova (1712-1795) azəri, erməni və gürcü dillərində yaraşdırdığı misilsiz şeirlərlə onların böyük nəğməkarı adını qazanmışdır.

Azəri xalq poeziyası azəri dilində yazıb-yaradan hər bir aşıq üçün, o cümlədən Sayad-Nova üçün bir məktəb olmuşdur. Sayad-Nova ya bir azəri aşığına, ya da azəricə yazıb-yaradan hər hansı bir erməni aşığına şagirdlik etmişdir. Hər iki təqdirdə onun ilk müəllimi azəri xalq şeiri, özündən əvvəl yaşamış və ya müasiri olan görkəmli azəri aşıqları və şairləri olmuşdur. Sayad-Nova aşıq sənətini dərindən öyrənmişdir. O, dəfələrlə aşıqlıq haqqında danışmış, "Aşıq bülbül dilidir, ona lənət yox, rəhmət

---

[1] ***Ə.Axundov*** *– "Sayadnova və aşıq şeirimiz", Ədəbiyyat və incəsənət, 14.09.1963.*

oxunar". "Aşıqlığın çəkisini tərəzi çəkə bilməz" deyərək aşıq sənətinə yüksək qiymət vermişdir.

Sayad Nova, güman edilir ki, bədii yaradıcılığa azəri dilində yazdığı şeirlərlə başlamışdır. Deməli, ilk yaradıcılıq imtahanı bu dildə olmuşdur. Bir qədər sonra o, gürcü dilində, 30 yaşından etibarən erməni dilində şeirlər yazmışdır. Erməni aşıqlarının azəri dilində yazıb-yaratmağını təbii hal hesab edən K.Abobyanın fikri bilavasitə S.Novaya aiddir.

S.Nova hər hansı bir azəri aşığı kimi, birinci növbədə azəri şifahi xalq ədəbiyyatından, onun yüksək bədii sənətkarlıq nəticəsi olan gözəl nümunələrindən – aşıq şeirlərindən, bayatı, atalar sözü və dastanlarından ilham almış, öyrənmişdir. Azəri xalq poeziyası azəri dilində yazıb-yaradan hər bir aşıq üçün, o cümlədən Sayad Nova üçün bir məktəb olmuşdur.

S.Nova azəri klassik ədəbiyyatının böyük nümayəndələri olan Nizaminin və Nəsiminin, Füzulinin və Xətainin, öz müasiri olan bir çox şairlərin, məşhur azəri aşıqları – Qurbaninin, Aşıq Abbas Tufarqanlının yaradıcılığını, azəri xalq ədəbiyyatı incilərini gözəl bilir, ürəkdən sevirdi, onlardan təsirlənir və yaradıcılıq ilhamı alırdı. O, Qövsi ilə, xüsusən öz müasiri və həmvətəni Ağaməsih Şirvani, Nişad Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, bir çox şair və aşıqlarla tanış olmuşdur. Hələ onu da deyək ki, o, "Koroğlu"nu, "Əsli və Kərəm"i, "Aşıq Qərib"i və s. aşıq yaradıcılığını nə qədər gözəl bilirdi. Ərəb əlifbası ilə rahat oxuyub-yazmış, azəri, fars və türk ədəbiyyatını mütaliə etmişdir. Sayad Novanın Nəsimi haqqında dediyi sözləri xatırlamağı lazım bilirik:

*Qurban olum həyatına, darına,*
*Nəsimitək girişmişəm dərinə,*
*Çünki yetişibsən dərya dərinə,*
*Cəhd eylə girməsin su, Sayad Nova.*

S.Novanın ən böyük müasiri olan M.P.Vaqif (1717-1797) və M.Vidadi (1708-1809) idi. S.Nova ilə onların bir-birini heç olmasa qiyabi olaraq tanıdıqlarını ehtimal etmək olar. Sayad Nova qonşu Azərbaycanın məşhur şairi və dövlət xadiminin adını eşitməmiş deyildi, dillər əzbəri olan bir sənətkarın adı da şübhəsiz, Vaqifə çatmışdı. S.Novanın dediyi "Adam öz sözü ilə tanınır, onu şaha vəzir etsələr də" misrası Vaqifə nə qədər də aiddir! Axı, Vaqif xalqın qəlbində vəzirliyinə görə yox, məhz şairliyinə görə məskən salmışdır.

S.Nova ilə Vidadinin tanışlığı həqiqətə lap yaxındır. S.Nova II İraklinin sarayında yaşayarkən Vidadi, eləcə də gürcü ədibi Besiki orada yaşayırdılar. S.Nova 1762/63-cü illərdə saraydan uzaqlaşdırılandan sonra Vidadi hələ bir çox illər (1781-1783) orada yaşamaqda davam edirdi. S.Novanı yaxşı tanıyan Vidadi onun haqqında Vaqifə də danışmamış deyildi.

Sayad Novanın azəri ədəbiyyatı ilə bağlılığından danışarkən onun tərcüməçilik fəaliyyəti xüsusi olaraq qeyd edilməlidir. Hərgah Pirik XIII əsrdə "Xaqani" rübaisini farscadan erməni dilinə tərcümə edərək ədəbi əlaqə formalarından birinin əsasını qoymuşdursa, S.Nova məhz azəri dilindən erməni dilinə tərcümənin əsasını qoymuşdur.

Erməni aşıqlarının azərbaycanca şeirləri geniş yayılmış, Azərbaycan aşıqlarının ürəyində özlərinə daim yer

tutmuşdur. Bundan sonra erməni aşıqlarının bəzi şeirləri bir çox Azərbaycan dastanlarına duvaqqapma kimi daxil olmuşdur və bu yolla gəlib bizə çatmışdır.

Aşıq Allahverdi erməni aşıq poeziyasının görkəmli nümayəndələri Sayad-Nova, İrəvanlı Aşıq Duraxan, Şəkili Aşıq Doni (Sərkisyan), Daşkəsən rayonundan Şarukarlı Dəmirçioğlu (Hovatim Markaryan), Tiflisli Ağ Reyhanın oğlu Keşişoğlu (David-Gülmıkırtıç), Naxçıvanlı Keşişoğlu, Çardaqlı Keşişoğlu və başqalarının müasiri və dostu olmuşdur. Onlar toylarda, məclislərdə tez-tez görüşmüş, deyişmişlər. Kərəm babanın deməsinə görə, Aşıq Allahverdi Buxara şəhərindən qayıdıb Osmanlıya gələndə bir toy məclisində Aşıq Duraxanla görüşür, Aşıq Duraxanı bağlayır. Aşıq Allahverdi burada özünün "Yaxşıdır" ustadnaməsini və "Ayə məndədir" təcnisini deyir. Bu deyişmələrin hamısında Aşıq Allahverdi qalib gəlmişdir.

Bədr Allahverdinin müasiri olan Dəmirçioğlu "Keşişoğlu" dastanı ilə Ağ Aşığa müraciətlə yazdığı "Ay Bədr oğlu" şeiridir. Keşişoğlu dastanında Tiflisli Keşişoğlu ilə Bədr Allahverdinin iki deyişməsi və bir qıfılbənd deyişməsi vardır. Bir sözlə, Bədr Allahverdinin dastanın içərisində 11 qoşma bəndi və üç bayatısı vardır. "Keşişoğlu" dastanının köməyi ilə öyrənirik ki, Bədr Allahverdi təkcə təcnis yaradıcısı deyil, həm də bədii cəhətdən mükəmməl bayatı və qoşma müəllifidir.

Bədr Allahverdinin Tiflisli Keşişoğlu və Dəmirçioğlu ilə müasir olduğunu göstərən bu şeir nümunələrinin köməyi ilə onu deyə bilərik ki, bu istedadlı sənətkar, əsasən XVIII əsrin II yarısında və XIX əsrin I yarısında yaşayıb-yaratmışdır.

Dəmirçioğlu 1845-ci ildə vəfat etmişdir. Şarukar qəbiristanında Dəmirçioğlunun baş daşının üstündə üç şəkil vardır. Birinci şəkildə Dəmirçioğlu öküz qoşmuş kotanın məcindən tutub yer şumlayır, ikincidə saz çalır, üçüncü, cürdəkdən şərab töküb içir. Qəbir daşının o biri üzündə isə erməni hərfləri ilə Azərbaycan dilində aşağıdakı bayatı yazılmışdır:

*Gəl, ağla, sən ay daşı,*
*Çək gəlsin, sin ay daşı.*
*Can getdi, Dəmirçioğlu,*
*Qaldı nişan, ay daşı.*

Göyçə müdriklərinin, ağsaqqallarının verdiyi məlumata görə, Ağ Aşıq yalnız Naxçıvan, İrəvan, Göyçə, Kəlbəcər, Qazax, Bağdad, Təbriz, Buxara, Rum ellərində ağır toy məclisləri keçirmiş, bir çox məşhur aşıqlarla deyişmişdir. İrəvanda Aşıq Duraxanla, Naxçıvanda və Gədəbəydə hər üç Keşişoğlu ilə deyişmiş, hamısını bağlamışdır.

Aqil qocaların və məhrum Əşrəf və Kərəm babaların deməsinə görə, Keşişoğlu adı ilə fəaliyyət göstərən üç erməni aşığı – Tiflisli Ağ Reyhanın oğlu Keşişoğlu, Naxçıvanlı Keşişoğlu, Çardaqlı Keşişoğlu olmuşdur. Bunlardan biri XVIII əsrdə, ikisi isə XIX əsrdə yaşamışdır. Onların içərisində ən istedadlısı, istər azəri, istərsə də erməni xalqı arasında böyük şöhrət qazanmış əsl adı David-Gülmıkırtıç olan Tiflisli Ağ Reyhanın oğlu Keşişoğludur. Lakin Türk mənbələrində onun adının Gülmıkırtıç olduğu qeyd olunur. O, XVIII-XIX əsrlərdə yaşamışdır, 100 yaşdan çox ömür sürmüşdür. Uzun illər Zəngəzurda yaşadı-

ğı qeyd olunur. Bu da onu bildirir ki, Ağ Aşıqla eyni dövrdə yaşayıb.

Ağ Aşıq hər üç Keşişoğlu ilə görüşmüş və deyişib dost olmuşdur. Bunlardan ancaq ikisinin (Tiflisli və Çardaqlı) deyişməsi məlumdur. Apardığımız tədqiqatlar zamanı əldə olunan məlumatlara görə, Tiflisli Keşişoğlu Naxçıvanda Ağ Aşıqla bir-birinə hərbə-zorba, qıfılbənd gəlib, sonra deyişiblər. Deyişmədə Ağ Aşıq qələbə çalır. Hər iki aşıq iki dəfə deyişmişdir. Birinci deyişmədə Ağ Aşıq və Keşişoğlu cığalı təcnis deyirlər. Bu deyişməni sonra verməyi məqsədəuyğun bildik.

Ağ Aşığın Naxçıvanlı Keşişoğlu ilə deyişməsini əldə edə bilməmişik. Bu deyişmələri isə ayrıca verməyi məqsədəuyğun bildik. Naxçıvanlı Keşişoğlunun yalnız bircə gəraylısı bizə gəlib çatmışdır:

*Mən bu dağın bir gülüyəm,*
*Üstündəki bülbülüyəm,*
*Qırx qapının kilidiyəm,*
*Aça bilirsən gəl bəri.*

*Keşişoğlu edər aman,*
*Dağı, daşı tutar duman,*
*Əvvəl İncil, sonra Quran*
*Oxuya bilərsən, gəl bəri.*

"Keşişoğlu" dastanında Keşişoğlunun uşaqlıq illəri, Türkiyə və Naxçıvan səfərləri və bu səfərlər zamanı Osmanlı aşıqlarından Sadayı, Zaman və Kamanla deyişməsi, ustad Aşıq Tüccarla görüşü, Naxçıvanlı Bədr Allahverdi ilə deyişməsi yer alır, aşığın sevgisinə çata bilməyib nakam ölməsindən bəhs olunur. Dastanda təsvir olundu-

ğuna görə, Keşişoğlu (Naxçıvanlı və ya Çardaqlı) Bədr Allahverdi ilə deyişib Naxçıvandan gələrkən yolda ölür. Keşişoğlu son məqamda ölüm ayağında aşağıdakı cığalı təcnisini söyləyir:

*Bu kağızım gedər olsa vətənə,*
*Deyin mənim üçün ellər ağlasın.*
*Gözüyaşlı düşdüm qürbət ellərə,*
*Düşmüşəm uzağa, yollar ağlasın.*
*Yolu gözlər,*
*Yol üstdə yolu gözlər.*
*Balası qürbətə gedənin,*
*Anası yolu gözlər...*

*Cavan ikən düşdüm eşq ataşına,*
*Qorxuram bu sevdam yetməyə başa.*
*Çünki əlim yetmir qohum-qardaşa,*
*Di qoy dərdli-dərdli dillər ağlasın.*
*Vətən şirin,*
*Köynəyi katan şirin,*
*Gəzməyə qürbət ellər,*
*Ölməyə vətən şirin.*

*Keşişoğlu, gün görmədin binadan,*
*Həsrət könlüm intizardır xanadan,*
*Yarın zülfü əyilməsin şanadan,*
*Dal gərdəndə siyah tellər ağlasın.*
*Quşum kol üstdə,*
*İki gözüm yol üstdə,*
*Əzrayıl, canım alma,*
*Nişanlıyam, toy üstdə.*

Göyçənin məşhur aşıqlarından biri olan Babacanlı Vəliyev Qədir Zal oğlunun və Kərəm babanın deməsinə görə, Göyçə mahalının məşhur aşığı – şair Allahverdi Gədəbəy rayonunun Nərimanlı kəndinə bir toy məclisinə gedir. Çardaqlı Keşişoğlu və ustadı Migiş eşidirlər ki, Aşıq Allahverdi buradadır. Atdan düşüb Allahverdini soruşurlar ki, bəlkə bizim gəlişimizi eşidib qaçıbdır. Ev sahibi deyir ki, aşıq burada cövlan edir. Keşişoğlu və ustadı Migiş salam verir, salam aldıqdan sonra deyirlər ki, bu toyu ya sən edəcəksən, ya da ki biz. Allahverdi deyir ki, bu toyu mən edəcəm. Allahverdi ilə Keşişoğlu deyişirlər. Bu deyişməni bundan sonra verməyi məqsədəuyğun bildik.

## *BƏDR ALLAHVERDİNİN ERMƏNİ AŞIQLARI – İKİ KEŞİŞOĞLU İLƏ DEYİŞMƏSİ*

### TİFLİSLİ KEŞİŞOĞLU ILƏ DEYİŞMƏ[1]

*Birinci deyişmədə cığalı təcnis deyirlər:*

**Bədr Allahverdi**
Məndən salam olsun Keşişoğluna,
Əzəl xoş gəlmisən bu Naxçıvana,
Burda qabağımda duran olmasa,
Bil vəlvələ sallam o Gürcüstana.
Tayınnan gedər,
Dolanar tayınnan gedər,

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.

Allahverdi, əlinə düşən aşıq,
Yüknən gəlsə, tayınnan gedər...
**Keşişoğlu**
Al, əleyk olsun, sənə Allahverdi,
Əzəl xoş gəlmişəm bu Naxçıvana,
Burda qabağımda duran olmasa,
Bil vəlvələ sallam Ol – Alosmana.
Ümman da var,
Dərya da var, ümman da var,
Bəbirlənmə, axan çaylar,
Səndən artıq ümman da var...

***İkinci deyişmədə Keşişoğlu qabağa düşür:***

**Keşişoğlu**
Məndən salam olsun Allahverdiyə,
Mənim bu sözümü bil, Allahverdi.
Meydanlar içində sözüm bilməsən,
Qoyaram gözünə mil, Allahverdi...
**Allahverdi**
Məndən salam olsun Keşişoğluna,
Əzəl yol-ərkana gəl, Keşişoğlu.
Bəbirlənmə, özün bir az alçaq tut,
Gətirrəm başına qal, Keşişoğlu.
**Keşişoğlu**
Mən Keşişoğluyam, sən Allahverdi,
İkimiz mətləbi Cəmli-Pirverdi,
Altı şəyirdim var, sən ilə yeddi,
Qulluq et, yanımda qal, Allahverdi.

**Allahverdi**
Əlbət nökər olan baxar fərmana,
Təbib olan qulluq eylər dərmana.
Tutum qulağından qoşum xırmana,
Sənsən ağzı bağlı mal, Keşişoğlu.
**Keşişoğlu**
Zərbim çoxdur, onu sənə bildirrəm,
Ağladıban göz yaşını sildirrəm,
Hökm eyləsəm, bil ki, səni öldürrəm,
Qoyaram arvadın dul, Allahverdi.
**Allahverdi**
Bir sən də qulaq ver, bu tək səbirə,
Sən tək çocuq neylər mən tək bəbirə,
Diri-diri basdıraram qəbirə,
Çəkərəm üstünə sal, Keşişoğlu...

*Çardaqlı Keşişoğlu ilə deyişmə*[1]

**Keşişoğlu**
Şəyird olan qulluq edər ustada,
Dilin yoxdur, lal dayan Allahverdi.
Bir məclisdə sözün yoxdu, danışma,
Qalar ürəyində xal, Allahverdi.
**Allahverdi**
Əlbət, şəyird olan baxar fərmana,
İndi almını al, Keşişoğlu.
Tutub qulağın qoşaram xırmana,
Sənsən ağzıbağlı mal, Keşişoğlu.

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.

**Keşişoğlu**
Qulluq et ustaya, olmaynan naşı,
Tökərəm gözündən al-qanlı yaşı.
Hər uşağın bu sözü çıxarmaz başı
Kirimiş yerində qal, Allahverdi.
**Allahverdi**
Bir qulaq as, sən də bu tək səbirə,
Səntək tülkü neylər məntək bəbirə,
Tutub qulağından basaram qəbrə,
Döşərəm üstündən sal, Keşişoğlu.
**Keşişoğlu**
Keşişoğlu içib göysərdən bir cam,
Təcnisi, təxmisi söyləyir tamam.
Yetişsin dadıma sahib əz-zaman,
Ol mənim yanımda lal, Allahverdi.
**Allahverdi**
Allahverdi qorxmaz aslandan, şirdən,
Almışam dərsimi ustadi-pirdən,
Xaliq Allah, salma məni nəzərdən,
Otur, sən yerində qal, Keşişoğlu.

# İSTANBUL TEXNİKİ UNİVERSİTETİNİN PROFESSORU ELBRUS MAHMUDOĞLUNUN GÖYÇƏ EL SƏNƏTKARLARI – MİSKİN ABDAL, AĞ AŞIQ, AŞIQ ALI VƏ AŞIQ ƏLƏSGƏR HAQQINDA NƏZƏRİ MƏLUMATLARI

**Göyçə sənətkarlarının (Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı və Aşıq Ələsgər) – folklor elminin dərin bilicisi, folklorşünas, kibernetika elmlər doktoru, İstanbul Texniki Universitetinin professoru şair Elbrus Mahmudoğludur. O həm də Ağ Aşıq və Aşıq Alının nəslindəndir. Bunu təsdiqləyən sübutlar da var. Elbrus Mahmudoğlunun İstanbuldan bizə göndərdiyi bu materialları verməyi məqsədəuyğun bildik.

GÖKÇE

**Anam kucağında beni eşige çıkarıp, dağlara bak oğlum, diğerdi.**

Etrafında halay çekir dağların,
Irmaklar can atır gölüne Gökçe!
Kızılı nahırlar, beyaz sürüler,
Yayılıp çimene, çölüne Gökçe!

Kaynayır nevrağın, coşur hevesin,
Şirindir avazın, ucadır sesin,
Tecnisin, geraylın, dudakdeğmezin,
Çalınıp havalar gülüne Gökçe!

Allahverdi, Âşık Alı, Elesger,
Nice ozan, nice âşık, hünerver,
Geldi geçti, ömür sürdü seraser,
Getirip güzellik diline Gökçe!

***Haziran 1950 Kerkibaş - 6 Aralık 2017 İstanbul***

1 Allahverdi: Azerbaycan Gökçe âşık mektebinin sanatının banisi, Türk halk ozanı, sufi âlim, hafizi- Kur'an,Bağdat ve Kerbela medrese ali ruhani eğitimli ve icazetli İslam bilgini, Arap, Fars,Türk dillerine hakim, tefsir üstadı, meşhur âşık, şeyh oğlu şeyh Ağ Âşık Allahverdi (1754 Sulduz/Marand- 1860 Kerkibaş); Silsile hak âşıkları, Dost Bağının Bülbülleri "Allahverdi, Âşık Alı, Elesger" 20'den çok şakirt, âşık, şair, din âlimi ve Alı'nın ustası; bestekâr, destan kurucusu.

2 Alı: Ağ Aşığın tedrisi rahilesinde 10 + 5 yıl eğitilmiş, Osmanlı'ya seferler etmiş hak aşığı, Türk halk ozanı, meşhur üstad Aşık Alı (1801 Kızılvenk- 1911 Kızılvenk);14 şakirt ve meşhur Âşık Elesger'in ustası; bestekâr, destan kurucusu ve Köröğlu havalarının benzersiz ifaçısı.

3 Elesger: meşhur üstad, hak aşığı, Türk halk ozanı Âşık Elesger (1821 Ağkilse-1926 Ağkilse); 5 yıl ustası ve mürşidi Alı'nın tedrisi rahilesinde Kur'an eğitimi ve saz-söz sanatkârlığının sırlarını öğrenmiştir; 12 şakirt ve ünlü Nevres İman'ın ustası olmuş.

4 nahır: büyükbaş hayvan sürüsü

**Keşmekeşli Gökçe arealı** ve özellikle gölün yakın sahilindeki düzengâhda yerleşmiş kadim Oğuz Türklerinin meskunlaştığı Kerkibaş köyü de işgalçi süvari ve piyade guruplarının savaş alanında ayaklar altında kalmış ve acı nasibini almıştır. Gökçe ve etrafı tahrip olmuş, defalarca dağıtılmış, harabeye çevrilmiştir. Babalarımızdan duyduklarımızı da ipuçları olarak kısaca göz önünde bulundurarak ve tarihe de bakarak izah etmek zor değil, Kerkibaş köyü de 1221-1635-1724-1804-1808-1814- 1826-1832-1905- 1915, 1918- 1921… yıllarında aralıklarla bir müddet boş kalmış, ahali dağeteği köylere, mağaralara, komlara ve etraf bölgelere sığınmışlar; migrasyaya uğramışlar. Olanlar olup bittikten sonra kaçan kaçmış, göçen göçmüş, tekrardan eski köylerine geri dönüp meskûnlaşanlar da az değildir. Kızılharaba, Güzeldere, Kızılvenk, Basargeçer, Kolanıkırılan, Aşağı Karanlık, Kırkbulak, Tüskülü, Kerkibaş vb. köyler de istisna değillerdi.

1988'den ise kriminal Ermeni Taşnak hükümeti ve SSRİ'ni(SSCB) dağıtmakla göreve getirilmiş **prensipsiz dönek** Gorbaçov'dan pass alarak Rus kol ordularının iştirakı ile yerli ahalininin tümünü Oğuz Türklerinin tarihi topraklarından, silah zoruyla göçe mecbur etmişler; İrevan'ı, Gökçe'yi ve Zengezur'u tahliye etmişler ve halen işgal altında tutmaya hayasızca devam ediyorlar. Büyüklerden işittiklerimize göre, Kolanıkırılan'a ve sonra da Kerkibaş köyünün harabelerine sonuncu defa geri dönüş 18. asrın sonlarında vukuu bulmuştur. Hacı Mustafa isimli bir zat, hac ziyaretindeyken, Kerkük, Kerbela, Halep ve Hoy'lu akrabaları ve dost tanışları ile helalleşerek eşi, oğulları Ahmed, Muhammed ve Ali'yi yanına alarak

göç kervanına katılarak Irak'tan ayrılmış (savaş sıkıntıları ve mezhep baskılarından bezerek) ya Allah diyerek bir zamanlar ulu babalarının Moğol istilası esnasında (1221 yıllar) terk ettikleri ulu Gökçe'ye doğru tekrar geri dönerek (tahminen 1797'lerde) yol almışlar. Bir müddet Gazah'da kalmalı olmuşlar. Burada da köy ağasının hışmına uğramış, mezhep kargaşasından kaçarak ailesi ile birlikte Aşağı Karanlık'da, boş kalmış Kolanıkırılan köyünde meskunlaşmışlar. Burada hacının malı-koyunu sürüleri ve yılkısı çoğalmış, ahırlara meralara sığmaz olmuş; Hacı yeni arayışlara girmiş, 1804' den sonra, yani muhtemelen 1810- 1811 yıllarında, boş kalmış bol sulu yedibulaklı Kerkibaş köyünü, Sarıyal'ın Kızılvenk'den yukarı yaylakları, eski ve yeni yurt yerlerini, Satanahaç-Şişkaya arası Sarıner komlarını, Gilli çayının mensebindeki sahil biçenekleri ailesi ve koyun- kuzu sürüleri için mesken seçmiş. Kerkibaş'da Hacı Ahmet'in ard arda 3 oğlu Kâzım (1812), Hasan (1816), İsmail (1821) ve 3 kızı; kardeşi Hacı Ali'nin (1801) ise 5 oğlu: Hüseyin (1823) Sadık (1826) Babış (1827) Mustafa (1828) İbrahimhalil (1829) ve 7 kızı dünyaya gelmişler.

Böylelikle, Hacı Mustafa ve kalabalık ailesi Kerkibaş köyünün temellerini atmış ve kurucu sakinleri olmuşlar. Bundan sonra şenlenmiş Kerkibaş köyüne Irakiecemden, Araz'ın o yanından, Gökçe'nin diğer köylerinden göçenler ve sığınanlar (karalar, seyittiler, ellezliler, paşalar, kırıklılar vs) olmuştur. İlk sığınanlardan biri de Marand nahiyesinden Sulduz'lu 18. asırda yaşamış meşhur sufi âlim şeyh Kara Osman'ın ailesi, ünlü Ağ Âşık Allahverdi olmuştur.

Şeceremizin yaşlı kişilerinin naklen söylediklerine göre "Bir namerdin çıkardığı fitneden dolayı" Kara Osman ailesi: eşi Hürü hanım, oğlu Allahverdi, kızı Ümmülbanu ile muhtemelen 1814'den birkaç yıl evvel "Araz'ın o tayından bu tayına" Şerur'un Kosacan köyüne gelmişler ve bir müddet burada kalmışlar, çünkü Allahverdi'nin Kerbala'daki medreseden sonra Medineyi-münevverede Yüksek İslami Bilimler dalındaki tahsilini tamamlaması ve çok da uzakta olmayan Araz'ın o tayındaki Telli Cafer Ağanın güzeller güzeli biricik kızı ilk göz ağrısı Süsenber hanıma kavuşması gerekirdi. Nihayet, birkaç yıldan sonra genç sufi âlim, şair şeyh oğlu şeyh muradına ermiş, fakat sevimli babası dünyasını değişmiştir. Ağ Âşık, üç hanımla evvelceden tanıştığı Hacı Ahmed'in daveti üzre Kerkibaş'ın yolunu tutar. Hacının mahallesinde meskûnlaşır. İlk evladı Muharrem (1814) Kerkibaş'da dünyaya gelir. Ağ Aşığın kızları ise Hacı Hasan ve Hacı Hüseynalı ile tahminen 1843-44'lerde evlenmişler.

Hürü ninemiz bir daha evlenmemiş, Ümmülbanu ise Muhammed'le evlenerek 1831'den sonra İrevan'a gitmişler. Hacı Ahmed oğlu genç Hasan'la birlikde 1841-43. yıllarında hac ziyaretinde bulunmuşlar, sonra da uzun süre Medine, Haleb, Kerkük, Basra, Bağdat, Kerbela, Hoy, Meşhet vs kutsal mekânları dolaşarak eski tacir- bezirgân dostları ve yakın akrabaları ile vedalaşarak Kerkibaş'a dönmüşler.

Sonralar Hacı Hasan ağa 7 kez hac ziyaretinde bulunmuş, her defasında da bereketli var- devletinin ve mal- koyun sürülerinin 1/3 ihtiyacı olanlara dağıtmıştır [Meşhedi Zeynalabdin Mahmudoğlu "Hatıralarım" Ba-

kü, 2003]. Hacı Hasanağa'nın 5 oğlu: Aslan (1845), Cafer (1850), Gafar (1854), Safar (1861), Ahmed(1866) ve 3 kızı olmuş. Şah-i Horasan ziyaretinden sonra Meşhedi Cafer 1875'de Kızılvenk'li seyit Cebbar (1809) seyit Cabbarağa oğlu seyit Selman'ın (1843) kızı Saadet (Sadet) ninemizle aile kurar. Seyit Selman Alı'nın bacısı Peri ninemizin kızı Püste ninemizle evlenmiştir. Alı'nın atası İmirze kişi, Seyit Cebbarağa'nın bacısı Fatma ile aile kurmuştu. Sadet ninemizden 5 oğul: Süleyman (1776-1947), Celil (1883-1918 şehit), Molla Hamid (1886-1950), Mahmud (1890-1953), Cebbar (1895-1949 Gazyan) ve 5 kız: Ballı, Güllü, Telli, Güzel, Gökçek- evlatları dünyaya gelmiş.

Ballı ninemiz Beymemmed (1876-?) İbrahimhalil oğlu (1834-?) Hacı Hüseyin oğlu ile evlenmiş; Güllü ninemiz ise Saadet ninemizin ve Alı'nın akrabası Kızılvenk'li Ahmed'le (1870-?) Mehdi oğlu (1834-?) Ahmet oğlu, izdivaç yapmıştır. Belirtelim ki hesaplamalara rağmen şu rakamlar tahminidir, istatistiktir. Yani 2,3,4 hatta 7,8,9 yıl fark gösterebilir, bazen yüzde yüz doğruluk payı da ola bilir. Ağ Aşık'ın doğum tarihine gelince, eski folklor araştırmacıları, malumunuz (1754-1860) tarihlerini tespit etmişler. Fakat son zamanlarda Ermenistan milli arşivinden elde edilmiş vergi kayıt defterlerinden derlenmiş verilere dayanarak, piyasaya sunulmuş "Gökçe mahalının kameral tasviri" N. Ahmedli, Bakı "İlm ve Tahsil" 2017 ve kalmağallı "Hak nahak seçiler hak divanında" N. Ahmedli, Bakı,"Nurlar" 2017-kitablarında farklı rakamlar (1791-1859) gösterilir; hepsinde Âşık Ali (1834-1911) ve Âşık Elesger (1852-1926) hakkında da farklı tarihlerden bahs edilir. Bu verileri kısaca da olsa irdeleyelim.

**Ağ Aşık'tan başlayalım**; Ağ Aşık'ın ismi sadece bir yerde 1831(Aşağı Keyti köyü) tasvirinde geçiyor. 1.olayda aşığın 40 (1791) oğlu Muharrem'in ise 10 (1821) yaşı, baba oğul arasında ki yaş farkı ise 30 olduğu anlaşılır. 1842, 1852 defterinde aşığın ve ailesinin ismi yoktur. 4.olayda yani 1859 tasvirinde oğlu Muharrem'in 45 (1814), İsmail'in ise 20 (1839) yaşında olduğu not edilir. 5.olayda yani 1873 defterinde artık Muharrem yok, İsmail'in 34 (1839), Muharrem'in oğlu Allahverdi'nin (torun) ise 8 (1865) yaşı olduğu ortaya çıkıyor. 6. Olayda yani 1886 tasvirinde Allahverdi'nin 25 (1861) yaşında olduğu anlaşılır. Emmisi İsmail'in ismi yok, yaşasaydı 47 yaşında olması gerekirdi. Muharrem'in doğum tarihi ise 7 yıl farklılık gösteriyor. Şunu demek istiyoruz, bu rakamlar biri diğerini tutmuyor, tahminidir, bir başka sözle deyimle istatistik verilerdir. Başka türlü de olamazdı. Vergi defterleri zaten amacına yönelik, tahmini olarak tutuluyordu; unutulan ve kayda geçmeyen isimler de oluyordu; yani doğruluk payı sıfır olan hallere de rastlanabilir. Demek ki bu hatalı verilerden neticeyi deterministtik olarak değil, istatistik olarak çıkarmak ve değerlendirmek gerekiyor. Bir olayın doğruluk payı maksimum 1/6, bazen de sıfır olabilir. O halde olaylara matematiksel istatistik açısından, belirsiz parametreli sistemler, min-maks aralıklar, sabit değerler, model doğrulama açısından bakmak gerekiyor. Şimdi, Muharrem'in 1814 doğum ve babanın 30 yaş fark ettiğini verilerden ele alırsak, Ağ Âşık'ın 1884'de doğma olasılığının hata payı yüzde 7 kabul edilebilir. Bu verilerden aşığın vefat tarihini bulmak mümkün değildir. Demek ki, aşığın doğum ve ölüm tarihini netleştirmek is-

tersek ek bilgilere: Kaçarlar Hanedanının vergi defterine, amaca yönelik 1897, 1926 çar Rusya'sı nüfus sayımı verilerine, aşığın eserlerini derinden incelemeye, şecereni içerisinden doğru bilmeye, dürüst ravilerin şifahi nakillerine vs bakmaya, karşılaştırmaya ve önyargısız sonuca varmaya, yani bir hayli çaba harcamaya ihtiyaç vardır. Şecerenin içinden birey olarak biz bu bilgilere haiziz. Şimdi mülahizelerimizi kısaca sürdürelim.

Sadece vergi defterine bakacak olursanız Ağ Âşık'ın 1791'de Gökçe'nin Aşağı Keyti köyünde doğduğu ve Gökçeli olduğu kanaatine varırsınız. Hâlbuki önce anlattığımız gibi bu böyle değildir. Ağ Âşık en azından tahmini olarak 1884'de Merend nahiyesinin Sulduz köyünde doğmuş; öğrencisi Alı'da bir şiirinde "Garib kimseneydi, mekânı Sulduz" diye buna işaret ediyor; 1814'den bir az evvel Kerkibaş köyünde Hacı Ahmet Ağanın mahallesinde ailesi ile birlikte meskûnlaşmıştır. Büyüklerden duyduk ki onlar tay-tuş olmuşlardı. Yukarıda belirttiğimiz gibi Ruslar İrevan Hanlığını işgal ederken savaş esnasında düzengahda yerleşen Zağalı, Kerkibaş ve Kanlı halkı daha tehlikesiz dağ eteği köylere birbirine çok yakın Aşağı Keyti ve Daşkend vs; Kızılvenk halkının bir kısmı ise Kızılharaba, Güzeldere, Şişkaya vs köylerine sığınmışlar. 1826- 1832 yıllarında oralarda yaşamışlar ve sonra çoğu kendi köylerine dönmüşler. Benzeri kaçkındık olayları 1905, 1915, 1918-1921 yıllarında maalesef tekrarlanmıştır. Bu konuda da bir hayli bilgiler edinmişiz. Sonuncu olaylardan bizim şecerelerle bağlı bir az sonra kısaca bahsedeceyiz.

Şıh oğlu şıh Allahverdi, evelce Sulduz'da babasının mektebinde, sonra Medine'de, Kerbela'da derin ruhani tahsil almış, icazet alarak mürşid-i kâmil zirvesine yücelmiştir. Ağ Âşık, irşatla vazifeli bulunduğundan sık-sık Azerbaycan ellerine: Gökçe, Dereleyez, Şerur, Gazah, Gence, Tebriz, Karadağ, Urmiye, sonraları Anadolu, Basra, Bağdat, Buhara vs atla uzun süreli seferlere çıkar ve bölgeleri dolaşarak beklenenleri- bekleyenlerine (metlubları - maksudlarına) erdirirdi, haktan verilen mürşitlik görevini yerine getirirdi. Âşık- derviş ailesinden rahatsız değildi, çünkü onlar dostunun ve yeni akraba bağları kurduğu Hacı Ahmet ağanın sonra ise Hacı Hasan ağanın güvenliğinde rahat yaşıyorlardı.

1831 hariç 1842, 52, 59, 73 vergi kayıt defterlerinde isminin olmaması bununla alâkadardır. Zaten 1859-1864 yıllarında derviş-âşık, Rum serdarı Hüseynin talebi üzerine Erzurum'da alıkonularak, serdarın sarayında tutuluyordu. Sinir hastalıklarına duçar olmuş serdar, cinnet geçirerek çok hekimleri ve saray memurlarını idam ettirmiştir. Serdar'ı namertler "senin derdini dermanı Ağ Aşığın kanıdır" diye kandırıyorlar. Her hak aşığı bir şeyle imtihana tabi tutulur: Abbas zehir kuyusuyla, Kerem kara keşişle, Ali, Rum seferiyle, Elesger, nakam aşkıyla, Ağ Âşık ise cellatla.

Ne ise bu hikâye uzundur. Burada amacımız onun yaşı hakkında fragmanlar elde etmektir. Aşığın şiirlerinde bazı işaretler yer almıştır: ***"Pir yaşımda intizardan zar oldum"; "El çekmir yakamdan pristav, kazak"; "Serdar Söyün ferman verdi /Ağla meni Süsenber'im"; Serdar seni ifliç vursun", "Gurbet elde çıktı canım"***; vs. Ağ Âşık gök-

lere yalvararak yardım istiyor; hafiz-i Kur'an olan âşık – derviş Kur'an surelerini: Bakara, İhlas; Felak, Nas, Kâfirun, Tebbet, Rahman, Necm vs hasta üzerinde tilavet ederek, yerine göre Gökçe gülü, Osmanlı divanisi, Süsenleri, Yanık Kerem'i, Segâh, Rast vs havaaltlarını çalarak sazın mucizevi sedaları ile musiki terapisi ve emrindeki lokman hekimlerle serdarı uzun süre tedavi ederek, sağaltabilmişler. Serdar insafa gelerek Ağ Aşığı kıymetli hediyelerle salıvermiştir. Büyüklerden duyduk ki, âşık 80 pir-yaşına esarette girmiş- geçirmiş. Oğlu Muharrem'in Kerkibaş'da hasta olduğunu esirken biliyordu. 1864'de oğluna yetişir. Birkaç günlük sevinç şenlikleri Muharrem'in yasına karışır*." Ömrü başa yettirmişsem / Muharremi yitirmişim"* diyerek 50 yaşında vefat eden oğluna yas tutuyor. Ardınca Hürü nine de dünyasını değişir. Kerkibaş'ın eski mezarlığında defin olunmuşlar. İsmayil evlenmemişti. Bu arada kayadan düşüyor, Kanlı köyünde lokman hacı Nağı'nın kliniğinde tedavi görüyor; "35 yaşına varmadan ölüyor." Yani İsmayil tahminen 1874'de dünyasını değişiyor. Bu sefer de ***"Derdim Sarıner'den nergiz, lala men / Yitirmişim İsmayıl tek bala men"*** diyerek nakâm oğluna yas tutuyor. Artık Ağ Aşığın ayaklarındaki ağrılar da şiddetleniyor, Hacı Nağı tedavisine başlıyor. Kış ayları Gökçe'nin yolları kar yüzünden tar bağlar, geçilmez olur. Hekim aşığı komşu yakın Kanlı köyüne akrabasının evine getiriliyor, tedavisi burada sürüyor. 1876'nın küçük çilesinde Ağ Âşık Hacı Nağı'nın kliniğinde dünyasını değişiyor. Cenazesi Kanlı ile Kerkibaş'ın arasındaki eski kabristanlıkta defin ediliyor. Diyorlar ki üstadının yanından ayrılmayan şairdir Alı. "Ellini aşır-

dım, yüze ne kaldı? / Ölüm haktı çıkmak olmaz emirden" meşhur mısralarını tabuta omuz verirken gözyaşları içerisinde söylemiştir. Ağ Aşığı yaşını biraz daha kurcalayalım.

Üstadının yanında ***"İzah eyler cümle nice elm var"*** cifr ilmi ve ebcet hesabına vakıf olan ***"Ebcedden ders aldım elif-elife"*** hatırlayan Alı üstadının son mukabelelerinin birinde diyor ki ***"İsmin üç herifle eylerim beyan / Mim'di, cim'di, nun yazılıb dal-dala".*** Ebcetle hesaplarsak mim, cim, nun uygun olarak 40+ 3 +50= 93 tutar. Demek ki söylediği zaman üstadın 93 yaşı varmış. Bu halde Ağ Aşığın tarihini (1783-1876) vergi defterinin mümkün olabilen en yüksek %8 doğruluk payı ile kabul ede biler iz. Doğrusunu Allah (cc) biliyor. Bu versiyonun dolayı şifahi model doğrulamasına da bakalım.

Mesme nine (1860- 1958), anası Saadet ninemizin dilinden Kerem dayıma diyordu ki, eşim Süleyman (1876- 1947) yenice doğmuştu ki babam Ağ Âşık rahmete gitti, torununu görmedi. Bu durumda yukarıda bahis ettiğimiz büyük emmimiz Hacı Ali'nin (1801) oğlu Babış (1827), onun oğlu Sadık (1849), onun oğlu Ahmet (1877) kişi Ağ Aşığı göre bilmezdi. Ahmed Süleyman'dan küçük idi. Yeri gelmişken Mehemmed (1848) Meşhedi Tarverdi (1792) oğlunun evlatları Eleşref (1881) ve Paşa (1883) da Ağ Aşığı göremezlerdi.

Şeceremizin Ağ Âşık kolunu bir azcık daha inceleyelim; Meherrem'in (1814 -1864) oğlu Allahverdi (1865-1941) Senem (1872-1957) hala ile aile kurmuşlar; 4 kız çocukları: Yasəmıən, Səkinə, Səlbi, Salatın vd. dünyaya gelmişler. Sadık kişinin oğlu Abdullah (1890-?) Allahverdi'-nin kızı Selvi ile evlenmiştir. Onlardan Aziz (1935), Sema-

ye (1936), Esmetel, Besdi(1939- 2018), Hidayet (1942), Sayad (1949) doğmuşlar. Babışov Aziz Abdullah oğlu harici görkemiyle Ağ Aşığa benzer idi. İri gövdeli, yüce boylu, deli- dolu, sarıkumral bir adamdı. Ağ Aşığ'ın portresini çizmek gerekirse torunu Aziz'in fotoğrafına bakmak gerek. Dâhili portresi ise tamamı ile farklı idi. Ağ Âşık yüce boylu iri gövdeli, güzel huylu, babasını- anasını derin muhabbetle seven, edep- erkân örneği, cini –şeytanı yatıran, iç- dış pür nur, tüm ağ ışık saçan mübarek bir kişiydi. Albinos değildi; 7 nesil geçti albinos vakasına rastlanmadı. Ana baba tarafından Şia mezhep saf kanlı Oğuz Türklerinden idi. Teferruata varsak konu çok uzayacak. Ne ise sağlık olsun.

Yeri gelmişken o devirde Azerbaycan'ın Sulduz nahiyesinden Gökçeye gelenlerin secereleri halen Kerkibaş, Çahırlı, Daşkend, Şişkaya, Bala Mezre, Ağbulak ve diğer köylerde yaşamaktalar.

**Şimdi şeceremizin Alı koluna** vergi defteri açısından göz atalım. İnzibati müşavir İ. Şopen'in 1832 vergi defterinde Kızılvenk köyü kayıta geçmemiş; Şişkaya'da geçici olarak meskûnlaşan (ekin yeri yoktur) Mirze Ovçu oğlunun 1801 doğum olduğu anlaşılır. 1842 vergi kayıt defterinde ise Mirze (1801) Alı gibi iddia edilen oğlu Almeded (1835) gözüküyor. Baba oğul arasındaki yaş farkı 34; 1852 kayıtlarında Kızılvenk köyü yer alıyor, baba ve oğul isimleri ise geçmiyor; 1859.olayında Mirze'nin (1809), Alı'nın (1834), oğlu Abdullah'ın (1858) doğum olduğu anlaşılır. Dikkat ederseniz bu sefer ata ve oğul arasındaki yaş farkı 25. Nihayet 1873.defterinde ise Mirze'nin (1809), Alı'nın (1834), oğulları Abdullah'ın 15 (13),

Mehemmed'in 6, Hüseyn'in ise 3 yaşında olduğu gözüküyor. Yine baba ve oğul arasındaki yaş farkı 25. Standart sapma 34- 25 =9 yıl; şu istatistik verileri göz önünde bulundurarak aşağıdaki ihtimali ileri sürebiliriz; Mirze kişinin 1801 doğum tarihini koordinat başlangıcı kabul edersek, oğlu Alı'nın 1801+25=1826 yılında doğduğunu %8 ihtimalle ileri sürmek olur.

Şu tarihi birazcık kurcalayalım; Bakalım neye uyar, neye ters düşer, görelim. Elimizde bir sürü ipuçları vardır. Âşık Alı gibi dürüst bir kişinin ve sufi âlimin şiirlerini referans almamak akıl kârı değildir.

**"Âşık menem, maşukumdan dönmerem" "Elif-lam'la min bir yazdım, gan adı", "Serde yaraşıkdı ata Ağ Âşık,/ Dersini senedli aya'lı geçti"," Neçe-nece dilde danışan oldu","İbtida elifden dersim almışam", "Tülek terlan kimi uçmuşam elden", Ölüm yoktu, geçip tamam,/ Dohsan idim yüz eyledi./ Vurnuhuram yüzü geçem,/ Alıptı candan kocalık", "Alı'yam çağırram sırrıhudayı", "Mahalım Gökçe'dir, köyüm Kızılvenk", "Mahalım Gökçe'dir, öz adım Alı", "Sinnim rekabette doksan, yüzünen", "Alı bülbül oldu, dünya kafesi / Zengulede yerin vermez özgesi", "Yüz yıllık devranı oldu bisemer", "Şıh Alı'yla cenk eyleyen har oldu"; Ehli-Kuran oldum,revandır rahim, / Nağmekâr içinde usul olmuşam"; Ebced hesabı ile elif - 1, lam- 30 toplam 31, demek ki Alı evlenende 31 yaşındaydı.** Yani Alı, 1857'de aile kurmuş. 50 yaşı olurken 1876'da üstadı rahmete gitmiş. Burası sanki uyuyor. Köyünün ısrarla Kızılvenk, öz isminin ise Alı olduğunu dile getirir. Demek ki vergi müfettişleri Alı'nın ismini deftere yanlış yazmışlar.

Alı birkaç yerde ısrarla yaşının 100'ü geçtiğini söylüyor; oysaki, 1826'dan hesaplarsak, 85 rakamına ters düşüyor. Alı'ya mı inanalım, yoksa Şopen'in ardıcıllarına mı? Biz hak aşığı Alı'ya istinad ediyoruz. Alı, 100 yıldan fazla ömür sürmüş, Kızılvenk'de doğmuş ve orada eski kabristanlıkta defin edilmiştir. Safkanlı Oğuz Türklerindendir, Şia mezhebidir. İptidai tahsilini Necef ve Gum'da icazet almış akrabası Kerbelayı İsmayil, Kerbelayi Muhemmed (1803) oğlunun 5 yıllık molla mektebinde almış; sonra ise 15 yaşından itibaren mürşidi ve üstadı Ağ Aşığın yanında Kerkibaş köyünde 11+5 yıllık uzun süreli kulluk, ilmi ve dini tahsil, saz- söz ve destan derslerini en yüksek üniversite seviyesinde benimsemiştir.

**Nihayet, Elesger'in tevellüdüne bakalım; Elesger** ismi sadece 2 olayda 1859,73 vergi defterlerinde geçiyor; Elesger (1852) Almemmed (1824) oğlunun kayıtları sanki nisbi "hatasız" olarak ortaya çıkıyor. Elesger safkanlı Oğuz Türklerindendir, Şia mezhebidir. Yukarıda belirledik ki vergi defterindeki veriler istatistiktir; hataların standart sapması yaklaşık 8 yıldır. Nisbi sabitler ise üstatların yaş farklarıdır; Ağ Âşıkla Alı arasında 43, Alı ile Elesger arasında 18; bu rakamlar aşağı yukarı doğrudur, klasik kabule da uyuyor. O zaman Elesger'in doğumunu 1852-8=1844 varsaysak Alı ile yaş farkı, 44- 26=18 sabit kalır. Fakat yine de 1926- 1844= 82 yaş Elesger'in aşağıdaki mısralarındaki: ***"Elif'den ders aldım, ebced okudum", "Üstad derin, kemal derin, söz derin", "Sekseni, doksanı geçipti yaşım /Gor diye terpenir belalı başım", "Seksen yıl kurguna kıldım temaşa" vs*** Otobiyografik verilerinde seksene uyuyor, fakat doksana ters düşüyor. Elesger'e mi

inanak, yoksa Şopen'in devamcılarına mı? Biz hak aşığı Elesger'e istinad ederiz.

**Hicri-kameri** takviminden miladi takvimine T.C. TTK Kılavuzu üzre dönüştürürsek 1926-1822 tarihlerine denk geler

Görüldüğü gibi Aşık Elesger'in 1 yıl takvim çevirme hatası ile 1822. yılında doğduğu anlaşılır Aşık Elesger'in taş pasaportu onun 104 yıl ömür sürmesine şehadet ediyor Bu durum vergi defterinden çıkan mülahizeleri tekzib ediyor ve demek ki yeni tetkikatçılar üstadların tevellüd tarihlerini 1930' larda belirlemiş görkemli folklorşinas alimler Veli Huluflu ve Hümbet Alizade'nin; Büyük Sovyet Ansiklopedisi 2. Baskı 1949 Moskova klasik verilerini kabul etmek zorundalar

Üstatların tarihi hakkında tescilli sonuca varmak için 1897, 1926 nüfus sayımı arşiv senetlerini araştırmak gerekiyor; zaten 1897'de Alı'da, Elesger'de, Allahverdi (torun) kişi de Hacı Hasan ağa da gelini Sadet ninemiz de Hacer hanım da, Büyük bey de, Semend ağa da ve diğerleri de hayattaydı. Ümitvarız ki Tarih, Edebiyat ve Folklor Enstitüleri ve Moskova'da yaşayan üstadseverler nüfus sayımı arşivlerine başvurarak incelemek için yeni bilgiler ve belgeler elde edecekler.

**Шопен И. И. «Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи», 1232 с. СПб. 1852;** Milli mensubiyeti ve doğum yeri net bilinmeyen İvan İvanoviç takma isimli Fransız asıllı Rus seyyahı ve etnografı Shopen (1798 Fransa1870 S. Peterburg) 22 yaşında Rusya'ya gelmiş ve Kafkasya canişinliğinde işe

başlamıştır. General İ.F.Paskeviçin gösterişi ile 1829-1832-ci yıllarda eski İrevan ve Nahçıvan hanlıklarının tarihi toprakları üzerinde yeni kurulan "ermeni vilayetinin" 1840'dan sonra İrevan kazasının, 1849'dan sonra ise İrevan topraklarında mevcut olmayan tarihi ve coğrafyasının keşiş Nerses'in umumi nezareti altında "tetkiki" ile meşgul olmaya başlamıştır.

Aslında, bazı bir çok faydalı verilerin yer yurt adlarının yanı sıra tahriflerle (kendisinin de kısmen itiraf ettiği gibi) doldurulmuş bu ve sonraki kameral tasvirler Ermenilerin uluslararası topluma "vesikalaştırıp" sunacakları "velikaya armeniya" mifine altyapı hazırlamaktan başka bir maksat taşımıyordu. Saf kanlı Oğuz Türklerinin gerçek tarihine, coğrafyasına, hatta görkemli şahsiyetlerin milli kimliklerine hilekârca serpiştirilmiş bu tür sahtekârlıklar ileride yavaş patlayan bomba efekti verecek ve fitne-fesadın ortaya çıkmasına neden olacaktı. Nitekim de öyle oldu; zaman- zaman Ermeniler, bazı etnikler, hatta "sapı bizden olan önyargılı baltalar" da güvenirliği ve menşei şüpheli olan bu tür "kaynaklardan" yararlanarak (Osmanlı ve Kaçarlar hanedanının arşivlerine istinat etmeden, 1886 kameral tasvirine, özellikle 1897, 1926 nüfus sayımı belgelerine bakmadan, kıyas yapmadan ve nihayet şecere dâhili detaylı bilgi edinmeden) sansasyon hatırına hatalı ve bazen de garezli şerhleri ile (tolerans ve hata payı koymadan) ısrarla ahkâm kesmeye başladılar. Bu yaklaşım tarzı ciddi tetkikat etiğine ve araştırma yöntemlerine aykırıdır;

**Первая всеобщая перепись населения Российской империи 1897 года** / Изд. Центр. Стат.

комитетом М-ва вн. дел ; Под ред. Н. А. Тройницкого.- [СПб.],1897 - 1905. 119 книг (Эриванская губерния Ново-баязетский уезд) Государственная публичная истори-ческая библиотека России; **Всероссийская перепись населения: искажение этнической реальности. Перепись населения СССР 1926, 1937, 1959 гг; Первая перепись, произведённая монголами в 1257, 59 и 73 гг.**

## DÖNECEĞİZ GÖYÇEYE

Asıl kartal mesken salar kayada,
Ağ Aşığı, Elesger`i sal yada,
Alı gibi, Alı hani dünyada?
Gökçeliler, dağılmayın Gökçe`den!

**Hüseyn Arif**

Şükür Allah, Ordumuz da yaranır,
Gören ne vaht döneceğiz Gökçeye?
Muhannete taptak oldu yurdumuz,
Sığmaz bu derd ne geyrete, ölçüye?

Bakü merkez, fakat Gökçe kök asıl,
Han Oğuz`un töresidir her nesil,
Nesil kökten gen düşer mi, ey gafil?
Kısmet ola bedasıla, neçiye?

Sesimize ses verecek Türk, İran,
Nahçıvan, Karabağ, cem Azerbaycan,
Hazırlanın, merd yiğitler bu baştan,
Gökçeliler dönecektir Gökçe`ye!

***Kasım 1988 – 11 Eylül 1991 Bakü***
***SAHİL KİTAP 2021 ANKARA***

## MİSKİN ABDAL
### *(1430-1535)*

Tarixi həqiqətlərə, inkar olunmaz dəlillərə əsaslanaraq bu suallara belə cavab verməli istərdik: Bəli, Miskin Abdalın körpə yuxusuna ilk saz sədası ana laylaları ilə birlikdə Sarıyaqubda axmışdır.

Miskin Abdalın atası Məmmədcəfər Şeyx Heydərin (Şah İsmayıl Xətainin atası) yaxın dostlarından və onun yeritdiyi siyasətin güclü təbliğatçılarından biri olmuşdur. Şeyx Heydərin hökmranlığı dövründə etibarlı adamlar ölkənin ayrı-ayrı əyalətlərinə göndərilir, əhali arasında Qızılbaşların ideyalarını təbliğ edirlərmiş. Bu vaxt Məmmədcəfər bir dəstə adamla Dərələyəzə, Vedibasara və Göyçəyə göndərilir. Məmmədcəfər əvvəlcə Dəliqardaşda, sonra isə Sarıyaqubda məskən salmalı olur.

Məmmədcəfər Sarıyaquba gəldiyi ilk illərdə onun bir oğlu olur. Uşağı Hüseyn adlandırırlar. O, hələ gənc yaşlarından öz ağlı, kamalı ilə hamını heyran qoyur. Deyilənlərə görə, o müstəsna qabiliyyətə malik imiş. Hüseyn mükəmməl təhsil almaqla yanaşı, aşıq sənətinin sirlərini də dərindən yiyələnə bilmişdir. Az vaxtda bacarığı və qabiliyyəti ilə xalq arasında böyük şöhrət qazanmışdır. Onun şeirləri tezliklə dildən-dilə düşmüş, məclislərin bəzəyinə çevrilmişdir. Hüseyn bir el şairi kimi məşhurlaşdıqdan sonra tayfasının adını – Miskin Abdal təxəllüsünü qəbul etmişdir.

Miskin Abdal 1430-cu ildə qədim Göyçənin Zərgərli (Sarıyaqub) kəndində "Zərgərli" tayfasından olan Cəfə-

roğlu Məhəmmədin ailəsində doğulub. Kiçik yaşlarından molla yanında dərs almaqla saz-söz sənətinin, cəng oyunlarının sirlərinə mükəmməl yiyələnən M.Abdal daha sonra böyük bir təriqətin – sufilik dini-fəlsəfi dünyagörüşünün aparıcı sahiblərindən biri kimi tanınır. Onun əsl adı Hüseyndir. "Miskin" və "Abdal" təxəllüsləri mənsub olduğu dini təriqətlə bağlıdır. 1499-cu ildə Şah İsmayıl Göyçədə olarkən atasının yaxın adamlarından biri olan Məmmədcəfərin el-oba içərisində böyük şöhrət qazanmış oğlu Miskin Abdalla görüşür. M.Abdal 1500-cü ildə iki dəfə Göyçədə gələcək Azərbaycan şahı olan gənc İsmayılla görüşür. İsmayılın təklifi ilə o, Təbrizə gedir və 1501-ci ildən 1514-cü ilədək Azərbaycanla qonşu olan dövlətlərlə bir sıra diplomatik missiyalar yerinə yetirir. Şeirlərindən bilinir ki, 1514-cü ildə Çaldıran müharibəsinin də iştirakçısı olub. Səfəvi hökmdarı M.Abdalın yaşını nəzərə alıb, onu 1515-ci ildə saraya dəvət edir.

Miskin Abdal böyük dövlət və din xadimi kimi Azərbaycan aşıq, saz-söz sənətinin kamil bilicisi, müdrik el ağsaqqalı, həm də gözəl sufi şairi kimi tanınmışdır. XVI əsr şifahi poeziyamızın maraqlı nümayəndəsi Miskin Abdal ayrı "Miskin" olub. "Miskin" təxəllüsü şairlərin ən məğruru sayılıb. Ona görə də Miskin Abdal ***"Əlif-lam"*** şeirində özünü belə tərənnüm etmişdir:

*Ocaqzadə bir təb əhli nökərəm,*
*Küyində qələndər, sinə dəftərəm.*
*Mimnən Məhəmmədəm, cimnən Cəfərəm,*
*Ləqəbi çox olan Miskin Abdalam.*

Miskin Abdal Allaha çox bağlı bir şair olub. O, ***"Ya bir Allah, ya Məhəmməd, ya Əli"*** şeirində Allahı, Məhəmmədi, Əlini çox gözəl tərənnüm etmişdir:

*... Bu dünyanın dərdi çoxdur, dözülməz,*
*Bu dünyanın dərdi çoxdur, düzəlməz.*
*Nə yaxşı ki haqq incilər, üzülməz,*
*Ya bir Allah, ya Məhəmməd, ya Əli!*

*... Haqq üstündə bərqərardı asiman,*
*Haqq yolunun yolçusudur müsəlman,*
*Miskin Abdal çağırıbdır hər zaman,*
*Ya bir Allah, ya Məhəmməd, ya Əli!*

Azərbaycan folklor şifahi xalq ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Miskin Abdal olmuşdur. O, aşıq sənətinə dərindən yiyələnmiş, yeni-yeni saz havaları meydana gətirmişdir: "Məsti", "Cəngi", "Xətai". O, bir çox aşıqları öz ətrafına toplamış, Göyçənin kəndlərində ustad aşıq kimi çalar-oxuyarmış.

XVII əsrdə Səfəvi dövlətinin başçısı Ş.İ.Xətai Sarıyaqub kəndində aşıqlar məclisi təşkil edir. Bütün sənətkarları dərindən dinləmiş, Miskin Abdalı aşıqların başçısı adlandırmışdır. Onun belə istedadlı aşıq olduğunu Ş.İ.Xətai görmüş və onun məlahətli səsinə heyran olmuşdur.

Miskin Abdal 1515-ci ildə Səfəvi dövlətinin xüsusi rəsmi fərmanına layiq görülmüşdür. Miskin Abdalın elə istedadlı aşıq (ozan) olduğunu Şah İsmayıl Xətai görüb, həmin kəndin (yəni Sarıyaqub kəndinin) gəlirini (yəni təzminatını) ona bağışlamışdır. Bəli, bizə gəlib çatanlardan məlum olur ki, Miskin Abdal Şah İsmayıl Xətainin adına bir saz havası – **"Xətai"** qoşmuşdur. Hətta Miskin

Abdal sazı və ozanı qibləgah və nəğməkar adlandırmışdır. Şah öz fərmanında Miskin Abdala bəslədiyi böyük rəğbəti ifadə edərək yazırdı: ***"Ey mömin insanlar, Miskin Abdal mötəbər şəxsdir, ona inanın; nə mətləbiniz varsa, diləyin".***

Məhz XVI əsrdə yaşayıb-yaradan İrəvan quberniyasının Basarkeçər rayonunun Sarıyaqub kəndində yaşayan Miskin Abdalı Şah İsmayıl Xətai "Aşıqların şahı, atası, ağsaqqalı, ustadı və yaxud ozanlar başçısı" adlandırmışdır.

O dövrdə aşıqların şahı Miskin Abdal idisə, ondan sonra Çuxuryurdda aşıqların sərkərdəsi Aşıq Əliqulu olmuşdur. Miskin Abdalın ənənələrini davam etdirən Aşıq Əliqulu, onun şəyirdi Ağ Aşıq, onun şəyirdi Aşıq Alı, onun şəyirdi Ələsgər bu sənəti yüksək zirvələrə qaldırmışdır. Ümumiyyətlə, aydın olur ki, Göyçə mahalında adlı-sanlı ustad aşıqlardan biri də Miskin Abdal olmuşdur. Ondan sonra isə M.Abdalın olunu davam etdirən Aşıq Əliqulu olmuşdur.

Şifahi poeziyamızın kamil ustadlarından haqq vergili və qıfılbənd şairi Növrəs İman Miskin Abdalın adını xüsusi hörmət və ehtiramla çəkir:

*Yaxşı bəyənmişəm Miskin Abdalı,*
*Cəm imiş başında ağlı-kamalı...*

500 ildən çox misraların dillərdə dolaşan, öz zərifliyini, təravətini saxlasın; şairin ən böyük hünəri də budur, xoşbəxtliyi də. Miskin Abdalın ocağından sonralar tanınmış el sənətkarları yetişmişdir: Müsəmma, Miskin, Miskincəli Miskin, Ayrım İsmayıl, Miskin Məmmədcəfər, Ağdabanlı Qurban, Aşıq Şəmşir, Aşıq Musa...

Aşıq Talıb xatırlayır ki, Aşıq Ələsgər tez-tez Sarıyaquba gedib, Abdal ocağını ziyarət edər, orada ürəklə çalıb-çağırarmış.

Miskin Abdalın **"Əlif-lam", "Dağlar"**ı Aşıq Ələsgərin silsilə **"Əlif-lam", "Dağlar"** şeirləri üçün bir örnək olmuşdur:

*...Nəs illərdən satın aldın pis günü,*
*Çağırdın dumanı, tökdün çiskini,*
*Gözüyaşlı qoydun Cida Miskini,*
*Eylə gülə-gülə tamaşa, dağlar.*

*...Köçər ellər, düşər səndən aralı.*
*Firqətindən gül-nərgizin saralı,*
*Ələsgər Məcnun tək yardan yaralı,*
*Gəzər səndə dərdli-nalalı, dağlar.*

Miskin Abdalın həyat hekayəsi belə-belə rəvayətlər, əfsanələr içində it-bata çıxıb. "Cida Miskin", "Miskin Abdal" təxəllüsləri ilə gözəl şeirlər söyləmiş bu sənətkarın öz adı da ehtimallara bağlıdır. Kimi deyir Hüseyndir, kimi deyir Məmmədcəfər (Miskin Abdalın şair nəvələrindən birinin də adı Məmmədcəfər olub). Oğlanları Batman Qılınc və Əli Qılınc olub, ömrünün bir hissəsi müəyyən hadisələrlə əlaqədar İranda, Əfqanıstanda, Bağdadda, Türkiyədə keçib. Oğlanlarının qəbirləri Sarıyaqubdadır. Miskin Abdalın adı kimi özünün də məzarı itkin düşüb.

Deyilənlərə görə, Miskin Abdal 1524-cü ildə[1] şahın ölümündən sonra bir yolluq saraydan üz döndərib ana-

[1] ***"Ağrı dağı qədər ağrılarım var"***, *Bakı-Ağrıdağı, 1999, səh.178. Eldar İsmayıl.*

dan olduğu Göyçə mahalına – Zərgərli (Sarıyaqub) kəndinə qayıdır. Göyçədə ilk dəfə məktəb açır, müəllimlik edir. 1535-ci ildə 105 yaşında haqq dünyasına qovuşur, ata-baba yurdunda dəfn olunur.

Miskin Abdalın indiyədək qoşma, gəraylı, təcnis, divani, ustadnamə və başqa poetik formalarda yazılmış bir çox şeirləri əldə edilmişdir. "Miskin Abdal və Sənubər" adlı bir dastanı da vardır. Miskin Abdal haqqında topladığımız rəvayətləri və şeirləri sonra verməyi məqsədəuyğun bildik.

Miskin Abdal haqqında əlimizdə müəyyən qədər tarixi mənbələr, elmi mülahizələr vardır. O, Əfəndiyevin "Azərbaycan, Səfəvilər dövləti" , Yazıçı F.Kərimzadənin "Xudafərin körpüsü", Ə.Nicatın "Qızılbaşlar" kitablarından 1500-cü ildə gənc İsmayılın Şimali Azərbaycana yürüşü zamanı və geri qayıdarkən Göyçədən keçməsi, yazıçı Ə.Cəfərzadənin "Bakı-1501" kitabında Şah İsmayılın fərmanı ilə anadan olduğu Sarıyaqub (Zərgərli) kəndinin Miskin Abdala barat kimi bağışlanması epizodu onun adına olan "Ocağ"ın 500 ildən çox bir vaxtda qədim Göyçə mahalının Sarıyaqub (Zərgərli) kəndində olması, 1515-ci ildə Qızılbaşlar şahı tərəfindən Miskin Abdalın adına verilmiş daha bir fərmanın bu günədək həmin "Ocaq"da saxlanılması məlum faktlardır. Miskin Abdalın Şah İsmayıla verdiyi sənəd hal-hazırda durur.

## AŞIQ ƏLİQULU
### *(XVII-XVIII əsr)*

Miskin Abdalın ənənələrini davam etdirən Aşıq-şair Əliqulu olmuşdur. O dövrdə aşıqların şahı M.Abdal idisə, ondan sonra Göyçə mahalında aşıqların sərkərdəsi Aşıq Əliqulu idi. Aşıq Alının qorçusu Kərəm babanın 1965-ci ildə dediyinə görə, Aşıq Alı ustadı Ağ Aşığın adını hər məclisdə çəkəndə, Aşıq Əliqulunun da adını çəkərdi. Deyərdi ki, ustadım Ağ Aşıq həmişə ustadı Aşıq Əliqulu haqqında danışar, şeirlərini məclislərdə oxuyardı və onun adını həmişə uca tutardı. Göyçə aşıq məktəbinin davam etdirilməsində Ağ Aşıq kimi, Aşıq Əliqulunun da əməyi çox olub.

Ələsgəri Ələsgər kimi tanımaq üçün ustadı Alını, Alını Alı kimi tanımaqdan ötəri Ağ Aşığı, Ağ Aşığı Ağ Aşıq kimi bilmək üçün Əliqulunu öyrənmək zəruridir. Çünki onlar bir-biri ilə zəncir kimi bağlıdırlar. Bir-birindən öyrənə-öyrənə, bəhrələnə-bəhrələnə kamala dolan bu müdriklər elimizin ağsaqqallarına, alimlərinə çevrilmişlər. Ağ Aşıq görkəmli sənətkar Aşıq Əliquludan, böyük söz ustası Aşıq Alı Ağ Aşıqdan öyrənmişlər, aşıqlıqda da uca zirvələrə onların sayəsində yetişə bilmişlər.

Belə bir ustadın şeiri vaxtında toplanmadığından itib-batmış, başqa aşıqların adına çap edilmişdir. Aşıq Əliqulunun irsi-tədqiqatı məni çox düşündürür. Axtarış aparıb, araşdırmaq vaxtı çatıbdır. Axtaraq keçmişi, o bizə nələr deyəcəkdir?

Aşıq Əliqulunun iki divanisini sizə təqdim edirik:

## "QORXURAM"[12] *DİVANİ*

*Qorxum yoxdur qeyri kəsdən, bir Allahdan qorxuram,*
*Yaranmışam abı-ataş, xaki-baddan qorxuram.*
*İxtiyarım ağamdadı, məndə bu hicran qəmi,*
*Sığınmışam pənahına, qibləgahdan qorxuram.*

*Sidqi ürəkdən diləyim var, dərdə elə dərman,*
*Həm atasan, qul kafasan, hökmün aləm-fərmanı,*
*Xudamın aslanısan, mənəm adına qurbanı,*
*Pirin özünə rəhm eylə, bəd günahdan qorxuram.*

*Əliquluyam, axtarıram, yol-ərkan ondadı.*
*Bir zərrənin mən biriyəm, cismi-canım ondadı.*
*İsmi Heydər nökəriyəm, ruhum, qanım ondadı.*
*Ədalətdi kərəmkanı, nuru şahdan qorxuram.*

[1,2] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.

## "BİZDƏDİR OSMANI" DİVANİ[2]

*Şükür olsun bir Allaha, adil divan bizdədir,*
*İlqar, imam-dini, məzhəb, yol-ərkanı bizdədir.*
*İstəmirəm, o məzhəb dindən çıxa xaric ola,*
*Məhəmmədə nazil olan ayə, Quran bizdədir.*

*İncil İsaya gəlibdi, Tövrat Musaya eydir,*
*Quran gəldi Məhəmmədə, gəl bir öyrən bunu bil.*
*Dörd çeşmədən tonqar çıxdı, həqiqətdən oldu göl,*
*Girməginən qərq olarsan, dərya-ümman bizdədir.*

*Göydən dörd kitab endi, Məhəmmədə Qurandı,*
*Şükür olsun bir Allaha, o dağdan qutarandı.*
*Qəm eyləmə, Əliqulu, ağan şahi-mərdandı.*
*Pənc əla, ali-əba, on iki imam bizdədir.*

**AĞ AŞIQ**
**(şair Allahverdi-Bədr Allahverdi)**
***(1755-1860)***

Aşıq Alı ustadı Ağ Aşığı özünün "Osmanlı səfərində" ustadlar ustadı və Göyçənin fəxri adlandırıb. Özünün yazdığı ***"Məni"*** müxəmməsində ustadı Ağ Aşığın tərifini belə tərənnüm etmişdir:[1]

*Mən bimaram, ustam təbib, gözlər məlhəm, çara məni.*
*Onsuz firavan dolansam, görsün günü qara məni.*
*Çatdırıbdı qüdrətilə, hazır bəhrə-bara məni.*
*Mehrin məndən kəssə bir an, dağda-daşda ara məni.*
*Xidmətində zay olanda, atın aşkar nara məni.*
*Əbəs kamil aşıq deyə, göndərir şikara məni.*

*Əzəlindən[3] ata bilib, sığınmışam kölgəsinə.*
*Can evində canım odu, meylim qonmaz özgəsinə.*
*Fərzənd üçün istirahət, əsla olmaz özgə sinə,*
*Kənar olsam gözlərindən, inanmaram dözməsinə,*
*Tənha güzar etsəm yana, qovlar eldən dara məni.*

*Düşünürəm, anlamıram, əbəs deyir kamil mənə,*
*Ehtiyacam qayğısına, hər gün mənə, hər il mənə,*

---

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.
[2] Bu misralardan da Ağ Aşığın öz yurd-yuvasından uzaq düşüb Göyçədə sığınacaq tapdığı məlum olur.

*Sayə salmasa üstümə, deyin əsl zəlil mənə.*
*Həqiqəti söyləməyi, öyrədibdi o dil mənə,*
*Cida düşüb xanəsindən eyləyibdi mənzil mənə.*
*İran hara, aşinam yox, yollayır gör hara məni.*

*Mən sısqayam, ümman odu, dərya odu, damla mənəm.*
*Göy üzündə əbri odu, mən zirvədə bir az çənəm.*
*Bir sözünə cavabım yox, hikmətlərlə dola sinəm.*
*Ağa qara desə belə, imkanım yox, əsla dinəm,*
*Həm üzünə asi olsam, olum qəlbi parə (para) məni.*

*Səxavətdə, kəramətdə, o şahım, mən gəda oldum.*
*Hüzurunda leyli-nahar, yol-ərkana əda oldum.*
*Yolunda peşkəşdi sərim, bəlkə eldən qada oldum.*
*Ruhum qalır dərgahında, bəlkə eldən cida oldum.*
*İnadından dönən deyil, sövq eyləyir kara məni.*

*Mərd gəldi, mərdanə gedər, elimin ənasir ustadı,*
*Şöhrətə aləm kimidi, hər yanı dolanır adı.*
*Əsl islam fərzəndidi, elin sevər, sevməz yadı.*
*Hər elmdən hali oldu, aramaqdan dayanmadı,*
*Saysız hikmət sahibidi, asini bəşər sanmadı.*
*Xof etmərəm rəqibimdən, qoymaz düşəm dara məni.*

*İlahi, sən ustadımı, kənar eylə bəd halətdən,*
*Göstər sirat müstəqimi, uzaq olsun zəlalətdən.*
*Aman versin ömür mənə, bəlkə çıxam xəcalətdən,*
*Arif-aqil bir kimsədi, usanmadı dəlalətdən,*
*Sərraf gözü nəm görməsin, kənar olsun məlalətdən,*
*Alıyam, şıx Hümmətiyəm, görməsin biçarə məni.*

Tarixlər şahidi, gözəlliklər məskəni qocaman Göyçə mahalı sazlı-sözlü dünyası ilə məşhurdur. Göyçə saz və söz sənətinin hansı əsrdə yaranması haqqında qəti və dəqiq mülahizə söyləmək çətindir. Bununla belə, ozan sənətinin Göyçədə çox qədimdən mövcud olduğunu sübut edən faktlara, dəlillərə təsadüf etmək mümkündür. Ozanlar adlanan kəndin Göyçədə yerləşməsi, eyniadlı böyük bir tayfanın bu torpaqda yaşaması da belə bir fikir söyləməyə əsas verir.

Bir zamanlar dədəmiz ulu Qorqud uca, mavi dağlar qucağında Göyçə gölünün sahilində qopuz çaldı, boy boyladı, soy soyladı. 15 yaşlı İsmayıl Səfəvi öz qızılbaş əmirləri ilə bu yurda təşrif gətirdi. El sənətkarı Miskin Abdalla ülfət bağladı. Saza-sözə qonaq oldu, hörmət, məhəbbət gördü...

Lakin keçmiş vaxtlar Çuxursəddə – "Göyçə mahalı aşıqlar yetirir" deyərlərmiş. Deyirlər, Göyçə mahalında ilk aşıq məktəbini də Miskin Abdal açıb. Ondan sonra bu məktəbi görkəmli sənətkarlardan Əliqulu, daha sonra isə Göyçə aşıq məktəbinin bel sütunları – Ağ Aşıq, şair Məmmədhüsöyn, Aşıq Alı, Aşıq Ələsgər davam etdirmişlər.

Şairlər məskəni Göyçə müqəddəs torpaqdır. Göyçədə qonaq sazla uyuyar, sözlə oyanar. Bir günə ömrü on gün uzanar. Sazın həzin sədaları altında bir daha xəyala dalırsan. Əzəmətli Şah dağı sanki dilə gəlib deyir. Axtarın, Göyçənin şeiriyyət dolu tarixi keçmişini, bu gününü, inamla axtarın! O sizə nələr deyəcək, nələr bəxş edəcəkdir?

XVI-XX əsrlərdə yaşayıb yaradan Göyçə aşıqlarından Miskin Abdal, Əliqulu, Ağ Aşıq, Məmmədhüsöyn, Aşıq Alı, Aşıq Musa, Aşıq Məhərrəm, Usta Abdulla, Növrəs İman, Mirzə Bəylər, şairlər – Hacı Aydın, Niftalı, Qara Kazım və s. kimi bir çox el sənətkarlarının irsini dərindən diqqətlə araşdırmaq lazımdır. Çünki onlar bir-birilə zəncir kimi bağlıdır. Bir-birlərindən öyrənə-öyrənə, bəhrələnə-bəhrələnə kamala dolan bu müdriklər elimizin ağsaqqallarına, alimlərinə çevrilmişlər.

Ağ Aşıq görkəmli sənətkar Aşıq Əliquludan, böyük söz ustası Aşıq Alı Ağ Aşıqdan, dədə Ələsgər Aşıq Alıdan öyrənmişlər. Aşıq Əliqulu Ağ Aşığın, Ağ Aşıq Aşıq Alının, Aşıq Alı isə Aşıq Ələsgərin ustadı olmuşdur. Alı Ağ Aşığa 11 il, Ələsgər Aşıq Alıya 5-7 il şəyirdlik edib.

Qocaman Göyçə ağsaqqalı İsmayılov Kərəm Ağ Aşıqla qonşu, Aşıq Alının qorçusu olub. 1959-cu ildə Kərəm babanın deməsinə görə, Ağ Aşığın nəvəsi Allahverdi Kərəm babaya belə söyləyibmiş: "Babam Allahverdi sübh tezdən durar, əl-üzünü yuyub, dəstəmaz alıb sonra isə çay-çörəyini yeyərdi. Mən cavan oğlan idim. Alı isə babamın yanında saz çalar və babama qulluq edərdi. Ustad şəyirdinin bəzən barmaqlarını döyər və tez-tez danlayardı. Alı çox gözəl və boy-buxundan yaraşıqlı bir oğlan idi. Ancaq tez-tez qıpqırmızı pörtər və qızarardı. Özünə sığal-tumar verərdi, güzgüyə baxardı. O güzgüyə baxanda babam çox qəzəblənərdi. – Ay Alı, sən qız-gəlin içinə çıxırsan, niyə güzgüyə baxırsan? – Alı isə ustadına deyərdi ki, mən güzgüyə baxanda ilham alıram. Alı ustadına heç bir cavab qaytarmazdı və dinməz-söyləməz durardı.

Bildiyimiz kimi, ustad ilə şəyird arasında ata-oğul münasibəti yaranır. Ağ Aşıq şəyirdi Alıya belə deyir:

*Ağ Aşığam, ustadlara mən tayam,*
*Aşıqlıq elmində dolu bir payam,*
*Araz kimi daşan, coşqun bir çayam,*
*Qoymaram kamalda avara səni.*

Aşıq Alı müxəmməslərinin birində ustadını – Ağ Aşığı belə tərənnüm etmişdir:

*... Əzəlindən ata bilib, sığınmışam kölgəsinə.*
*Can evində canım odu, meylim qonmaz özgəsinə.*

*... Mən sızqayam,ümman odu,dərya odu,damla mənəm,*
*Göy üzündə əbri odu, mən zirvədə bir az çənəm.*

Dədə aşıqların müdrik kəlamları əsrlərlə xalqımızın dillər əzbəri olmuşdur. Dədə Ələsgərin ustadı Aşıq Alı aşağıdakı fikirdə nə qədər haqlıdır:

*Aşıq olub, qaldım el sinəsində,*
*Dərmanımı buldum el sinəsində,*
*Kamalımı aldım el sinəsində,*
*Sözüm ağızlarda pay oldu getdi.*

*... Dərs alanlar gəlib məndən dərs alsın,*
*Sinəmin dəftərin açıram bu gün.*
*Bir quş idim, dayanmışdım yuvamda,*
*Dövr edib havada uçuram bu gün.*

Elbrus Mahmudoğlunun ***"Şıx Alı"*** şeiri də ustad-şəyird ənənəsini təsdiq edir:

*Çörək üstdə kərə yağnan verildi,*
*Haqdan vergi nəsib Alı, Şıx Alı,*

*Ağ Aşığa fərzənd oldu, öyrəndi*
*Havacatı, şəkib*[1] *Alı, Şıx Alı.*

Böyüyə, ustada hörmət etmək Ələsgərin sözlərində çox təbii, səmimi bir formada öz əksini tapır:

*Aşıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım.*
*Dərs aldım, öyrəndim, oldu öz malım,*
*Bizdən də ustada bir "irəhmət"di.*

Onu da qeyd edək ki, bu üç ustad aşıq bir-birinə həmişə kömək etmişlər. Onlar baba, ata, oğul münasibətində olmuşlar. Xalq şairi Hüseyn Arif ***"Aşıq Alı"*** poemasında bu münasibəti belə tərənnüm etmişdir:

*Ağ Aşığa əsl oğul,*
*Ələsgərə əsl ata.*
*Əhsən belə bir insana,*
*Əhsən belə bir ustada.*

Aşıq Alı ustadı Ağ Aşığı Osmanlı səfərində ustadlar ustadı və Göyçənin fəxri adlandırmışdır.

Göyçəli - Kərkibaşlı Ağ Aşığın şeirləri, qoşquları uzaqdan seçilir. Adı ilə öz dövrünün, özündən sonra isə iki dövrün nəhəng sənətkarının adı ilə bağlıdır: Aşıq Alının, Dədə Ələsgərin. Göyçənin fəxri, aşıqların sərkərdəsi - Ağ Aşığın[2] Kərkibaşlı olmasını onun şeirləri də təsdiqləyir:

---

[1] ***Səbrli, dözümlü.***
[2] *Hüseyn Hüseynzadə 28 iyun 1969-cu il tarixli "Ədəbiyyat və incəsənət" qəzetindəki "Ağ Aşıq" məqaləsində deyir ki, "XVIII əsrin axırları, XIX əsrin əvvəllərində Göyçə mahalında doğulub, 70 ildən çox ömür sürmüş Ağ Aşıq saz-söz ustadı Aşıq Alının müəllimi olub". Göyçə mahalının kameral təsvirində qeyd edilən Ağ Aşıqla H.Arifin məqaləsindəki Ağ Aşıq üst-üstə düşür. Həm də Ağ Aşıq Göyçəli Aşıq Əliqulunun şəyirdi olub. Aşıq Əliquludan dərs alıb. Bu da onun Göyçəli olduğunu təsdiqləyir.*

*Əzizim, Göyçəyə gəl,*
*Gülə gəl, çiçəyə gəl.*

*Ağ Aşıqtək vəfalı,*
*Bir qəlbi göyçəyə gəl.*

*Eləmi Göyçəyə mən,*
*Gözələ, göyçəyə mən.*
*Qürbətdə həsrət qaldım,*
*Vətənim Göyçəyə mən.*

*Əzizim, Göyçəyə mən,*
*Qurbanam Göyçəyə mən.*
*Viran qalsın Urumu,*
*Həsrətəm Göyçəyə mən.*

*... Allahverdi, neylər dünya malını?*
*Məst eylər Göyçəni, öz mahalını.*
*Yaxın dostlar Ağ Aşığın halını*
*Sormaq üçün Kərkibaşa gəlibdi.*

Əlbəttə, yüz ildən artıq yaşayıb-yaradan, elin-obanın ağır toy-nişan məclisində çalıb-çağıran –

*Gündoğanla – günbatanı gəzəsən,*
*Allahverdi kimi xiridar olmaz.*

Və yaxud başqa şeirində:

*Ağ Aşığı tanır cahan,*
*Göyçə, Naxçıvan, İsfahan.*

Daha sonra isə:

*... Nə Firdovsi, nə Fizuli, nə Cami,*
*Təcnis sinədəftər, ayə, məndədi.*

- deyə özünü dünyaya belə təqdim etmişdir.

Şair Allahverdi hələ gəncliyində "Bədr" ləqəbi ilə bir çox şeirlər qoşub ki, "Bədr" sözü isə ay işığına aiddir. Ay işığı isə ağ olduğundan bəzən Bədr Allahverdini – Ağ Allahverdi kimi, yəni Ağ Aşıq kimi qələmə veriblər. "Ağ Aşıq" adlandırılmasını iki səbəblə izah edirlər:

1) Göyçə müdrikləri aşığın sifətinin – dərisinin həddən artıq ağlığını;

2) Göyçə müdrikləri isə dövrün ağalarına, kəndxudalarına ağ olduğunu və yaxud sözü üzə şax deməsini əsas götürürlər.

Ağ Aşıq ikinci ləqəblə məşhurlaşır.

Gəlin, keçmişə, XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə nəzər salaq. Görkəmli saz-söz ustalarımızın nəğmələrə dönmüş könül səsini dinləyək. Öz coşqun istedadı ilə ürəklərə yol tapan, ölməz sənəti ilə əbədiyyətə qovuşan Ağ Aşıq – Şair Allahverdidən söhbət açaq.

Ağ Aşıq Göyçə mahalının Kərkibaş kəndində yaşamış 150 yaşlı Əşrəf baba və 110 yaşlı Kərəm baba, Ağ Aşığın nəticələri 94 yaşlı Səkinə və 60 yaşlı Salatın nənələrin və başqalarının verdikləri məlumata görə, Ağ Aşıq XVIII əsrin 50-ci illərindən sonra (1754-1755) Naxçıvan quberniyası Şərur mahalının (Noraşen rayonunun) Kosacan kəndində məşhur Şeyx nəslindən – Qaraosman oğlunun ailəsində dünyaya göz açmışdır. Qaraosman oğlu dövrünün görkəmli saz aşıqlarından olmuşdur. O, oğluna birinci təlimi özü vermişdi. Ağ Aşıq ilk təhsilini mol-

laxanada almışdır. Atasının təhriki ilə sonra mədrəsəni bitirsə də, din xadimi olmamış, el-obanın bəy-nişan tədbirlərini, ağır-ağır toylarını keçirmiş, duvaqqapmasını oxumuşdur. Ona saz çalmağı və saz havasını atası öyrətmişdir. Ağ Aşıq ədəb-ərkanını atasından almışdır. Qaraosman oğlu saz çalmağı, şeir qoşmaq texnikasını qızı Ümmilbanuya da öyrətmişdir. Sonra isə Allahverdi Göyçəli aşıqların sərkərdəsi Aşıq Əliquludan dərs almışdır və Ağ Aşığa 65-ə yaxın saz havasını Aşıq Əliqulu öyrətmişdir. Yəni Ağ Aşıq Aşıq Əliqulunun şəyirdi olmuşdur.

Erkən yaşlarında tütək çalan Alı, sonralar meylini saza-sözə saldı. Oğlunu din xadimi görmək istəyən atası dəfələrlə Alını sənət yolundan daşındırmaq istədi. Dövrünün savadlı, istedadlı bir sənətkarı olan Ağ Aşıq Alının qabiliyyətindən xəbərdar olur. Xeyli çətinlikdən sonra atasının razılığını alıb, Alını şəyirdliyə götürür. Ağ Aşığın qüdrətinə, sənətinə qibtə edən Alı böyük məmnuniyyətlə bu təklifi qəbul edir. Alı Ağ Aşığa 11 il şəyirdlik edir.

Ağ Aşığın nəvə-nəticələrinin verdiyi məlumata görə, Ağ Aşıq ucaboy, enlikürək, dolu bədənli, göy-alagöz, anadangəlmə ağsifət adam imiş. Ona görə də ona Ağ Aşıq deyərlərmiş. Məclisə gedərkən əyninə şabalıdı rəngli çuxa geyərmiş. Başına uzun çappa buxara papaq qoyarmış. Ayağına qırmızı İran məsti geyərmiş. Zildən oxumağı çox sevərmiş. Xüsusilə, oxuyarkən qoşmalarına, divanilərinə, təcnislərinə, ustadnamələrinə təsnif, bayatı üzərində ayaq verərmiş. Həm məclisdə, həm də evdə şəyirdlərinə qarşı çox ciddi imiş. Hərzə-hədyan danışmaqdan acığı gələrmiş. Ağ Aşığın nəvəsi Allahverdinin söy-

ləməsinə görə, şəyirdləri içərisində ən çox sevdiyi və məclislərə özü ilə apardığı şəyird Alı imiş. Aşıq Alı olduqca həyalı, az danışan, ustad yolu gözləyən istedadlı şəyird imiş. Ağ Aşığın "Koroğlu"; "Misri"; "Bozucu" havacatlarına ancaq Aşıq Alı qabaq oxuyarmış.

Haqq aşığı Şair Allahverdi deyilənlərə görə, başına gələn əhvalatları əvvəlcədən bilər, hətta insanlara baxanda onların ürəklərindən keçən arzuları deyərmiş. Necə deyərlər, elə bil ki, aşığa haqq vergisi verilibmiş. Ona görə də aşığa haqq aşığı deyərlərmiş.

Azərbaycan şifahi xalq ədəbiyyatında Ağ Aşıq öz ustadnamə, təcnis, deyişmə, gəraylı və s. ilə məşhurdur. "Keşişoğlu" dastanında Keşişoğlu ilə Bədr Allahverdinin deyişməsi və bir qıfılbənd deyişməsi vardır. Bir sözlə, Bədr Allahverdinin dastanın içərisində 11 qoşma bəndi və üç bayatısı vardır. "Keşişoğlu" dastanının köməyi ilə öyrənirik ki, Bədr Allahverdi təkcə təcnis yaradıcısı deyil, həm də bədii cəhətdən mükəmməl bayatı və qoşmalar müəllifidir.

Ağ Aşıq dövrünün kamil sənətkarlarından olmuş, yaratdığı qüdrətli sənət inciləri bu günə qədər təravətini qoruyub saxlamış, əhəmiyyətini itirməmişdir. ***"Ayə məndədi"*** və ya ***"A Yəməndədi"*** təcnisinə diqqət yetirək:

*Bu gün seyraqubdan bir söz eşitdim,*
*Bu söz dostdan deyil, ayə məndəndi.*
*Dedim: - Nədir sədrin üstdə bəslənmiş (bəslənən)?*
*Dedi: - Tifil kimi ay əməndədi.*
*(Dedi: - Tifil ikən ayə məndədi.)*

*Geyinibsən yar qəddinə bu xara,*
*Necə bülbül baxar bağda bu xara?*
*Gəzdim İstanbulu, Bağdad, Buxara,*
*(Geşt eylədin Bəsrə, Bağdad, Buxara)*
*İndi də gəlişmiz (gəlşimiz) A Yəməndəndi.*

*Allahverdi, pirdən işdi nə cami?*
*Nə axunddu, nə molladı, nə cami?*
*Nə Firdovsi, nə Füzuli, nə Cami,*
*(Nə Hafizdi, nə Sadidi, nə Cami,)*
*Təcnis sinədəftər, ayə məndədi.*

Lakin ədəbi irsi vaxtında toplanmadığından çoxu itib batmışdır. Ağ Aşığın üç dastanı olub: "Ağ Aşıq və Süsənbər" dastanını əldə edə bilmişik. Lakin iki – "Ağ Aşıq və Keşişoğlu" və "Ağ Aşığın Borçalı səfəri" dastanları da olub. Lakin bu dastanları əldə edə bilməmişik. Hal-hazırda axtarışlar aparırıq.

Haqq aşığı adlandırılan Ağ Aşıq xalq tərəfindən çox sevilən aşıq - şair-dədələrdəndir. Ağ Aşıq ən məşhur, talantlı, istedadlı bir aşıqdır. Onun yaradıcılığı bəlkə də uzun ömür etməsindədir. Əşrəf babanın deməsinə görə, hətta saz çalmaqdan Ağ Aşığın biləyi əyilmişdi.

Göyçə müdriklərinin dediklərinə görə, Ağ Aşıq hələ Kosacan kəndində olarkən Arazın o tayında yaşayan Telli Cəfərin qızı Süsənbər ilə ailə qurmuşdur. İki oğlu – Məhərrəm və İsmayıl var idi. Bir də bacısı Ümmilbanu. Atası Qaraosman oğlu öldükdən sonra ailənin ağırlığı Ağ Aşığın üstünə düşmüşdür.

Ağ Aşıq rusca, ermənicə, gürcücə şeir və təsniflər düzərmiş. Ona görə də şair Allahverdi Azərbaycanın,

Qarabağın, Gürcüstanın kənd və obalarında toy şənlikləri keçirəndə hərarətlə qarşılanarmış. Hətta bir toy şənliyində gürcü knyazı Eliko şairə ənam bəxş etmişdir. Yəni kəl buynuzu. Həmin ənam 1944-cü ilə kimi dururdu.

Şair Allahverdinin belə şöhrət qazanmasının səbəblərindən biri də onun yaradıcılığındakı dərin vətənpərvərlik və beynəlmiləlçilikdir. Əşrəf və Kərəm babaların deməsinə görə, Ağ Aşıq 1832-ci ildə Çarın xüsusi fərmanı ilə Peterburqa aparılmışdır. Eyni zamanda Ağ Aşıq 1832-ci ildə Gürcüstanda gürcü knyazı Eliko və gürcü şairi Nikolas Pataşvili ilə görüşmüşdür. Rus şairi Yakov Polonovski Pataşvilini xəbərdar etmişdir ki, Allahverdi sənin yanındadır. Yəni Allahverdi o qədər savadlı, bilikli olduğuna görə biz özümüzü onun yanında sakit və hörmətli aparaq. Ağ Aşıq onların hörmətini uca tutur. Rəvayətə görə, haqq aşığı Allahverdi onların nə deyəcəyini əvvəlcədən bilir. Bundan sonra Ağ Aşıq yuxarıda adları çəkilən gürcü və rus şairləri ilə dost olur. Nəticəsi Salatının deməsinə görə, onların bir yerdə şəkilləri Böyük Vətən müharibəsi başlanana kimi dururmuş, təəssüf ki, həmin şəkilləri nə qədər axtardıqsa, əldə edə bilmədik.

Göyçə müdriklərinin, ağsaqqallarının verdikləri məlumata görə, Ağ Aşıq yalnız Naxçıvan, Şərur, Dərələyəz, İrəvan, Göyçə, Dərəçiçək, Kəlbəcər, Laçın, Qazax, Şəmkir, Şəmsəddil, Gəncəbasarda deyil, həm də Bağdad, Bəsrə, Təbriz, Buxara, Urum ellərində də ağır toy məclisləri keçirmiş, bir çox məşhur aşıqlarla deyişmişdir. İrəvanda Aşıq Duraxan, Naxçıvanda və Gədəbəydə hər üç Keşişoğlu ilə deyişmişdir. Keşişoğlu 3 nəfər olmuşdur: Naxçı-

vanlı Keşişoğlu, Çardaqlı Keşişoğlu, Tiflisli Ağ Reyhanın oğlu Keşişoğlu. Hamısını bağlamışdır.

Göyçə ağsaqqallarının dediklərinə görə, Ağ Aşıq Naxçıvanın Kosacan kəndindən Osmanlı Hüseyn Sərdarın və yaxud Ağa Məhəmməd şah Qacarın Azərbaycana hücumları zamanı və yerli bəylərin, kəndxudaların zülmü nəticəsində Naxçıvanın Kosacan kəndindən qaçıb Göyçənin Kərkibaş kəndinə gəlmişdir. Ulu Hacı Mustafa babamızın oğlanları Hacı Əhməd və kəndxuda Məhəmməd isə Ağ Aşığı Kərkibaşda yerləşdirmiş və onu himayə etmişdir.[1]

Göyçə ağsaqqalları və xalq şairi H.Arif Ağ Aşığın Kosacanı tərk etməsini aşağıdakı səbəblərlə izah edirlər:

**1)** Ağa Məhəmməd Şah Qacarın 1795-1797-ci illərdə Azərbaycana hücumları zamanı doğma ocağını tərk edib dağlara tərəf pənah aparır. Aşığın 40-41 yaşı olarmış. Aşıq həyat yoldaşı Süsənbər, bacısı Ümmilbanu və oğlanları Məhərrəm və İsmayılı götürüb Kərkibaş kəndinə gəlir. Ağ Aşıq Kərkibaşa gələndən sonra Hüseyn Sərdar onu Ruma apartdırır.

**2)** "Azərbaycan gəncləri" qəzetinin 16 iyul 1983-cü il tarixdə H.Arif "Ağ Aşığın sorağı ilə" məqaləsində göstərir ki, Ağ Aşıq Kosacandan yerli bəylərin, kəndxudaların, koyxaların zülm və təzyiqi nəticəsində doğulduğu yeri tərk edir. Bir neçə ailə üzvü ilə birlikdə Göyçəyə köçüb Kərkibaş kəndində məskən salmışdır.

---

[1] Ulu babamız Hacı Mustafanın oğlu Hacı Əhməd və onun oğlu Hacı Həsən 7 dəfə həccə getmişdir. İmkanlı, var-dövlətli, kasıba əl tutan hacılardan biri imiş.

**3)** Ağ Aşıq Hüseyn Sərdarı birinci dəfə sağaldır. İkinci dəfə hüzuruna çağırtdırarkən bir yolluq Sərdarın qorxusundan ailəlikcə Kərkibaş kəndinə köçür. Aşığın 40-41 yaşı olarmış. Ömrünün axırına qədər orada yaşayır.

**4)** Göyçə ağsaqqallarının dediyinə görə, Kosacanda Ağ Aşığın vəziyyəti acınacaqlı olduğundan bizim Hacı Mustafa babamızın oğlanları kəndxuda Məhəmməd və Hacı Əhməd onu Kərkibaşa gətirmiş və aşığı himayə etmişdir.

150 yaşlı Əşrəf babanın deməsinə görə, Hacı Əhməd həccə gedərkən onun Kosacan kəndindən bir dostu olur. O da Hacı Əhməd ilə həccə gedirmiş. Həccdən qayıdarkən dostu onu Kosacana qonaq aparır. Hacı Əhməd Kosacanda Ağ Aşıqla tanış olur. Aşığın məlahətli səsi Hacını valeh edir. Ağ Aşıq Hacı Əhmədə burada dolanışığın ağır olduğunu və koyxaların xalqa divan etdiyini söhbət edir. Hacı Ağ Aşığa Kərkibaş kəndinə köçüb yaşamasını təklif edir. Ağ Aşıq Hacıya razılıq verir. Hacı Ağ Aşığı ailəsi ilə birlikdə 1794-1795-ci ildə Kərkibaş kəndinə gətirir. Onda aşığın 40-41 yaşı olarmış.

Deyilənlərə görə, ulu babamız Hacı Mustafanın və onun oğlanlarının – kəndxuda Məhəmməd, Hacı Əhməd və onun oğlu Hacı Həsənin çoxlu əkin yeri və səkkiz yaylaq yeri var imiş. Bu yaylaqlar Verst və Şişpilləkən dağları arasında yerləşərdi. Kərkibaşdan yaylağa 20-25 km olardı. Yay aylarında hamı yaylağa köçərmiş. Mal-qaranı da yaylağa apararmışlar. Yaylaqda istirahət edərmişlər. Yaylaqdan gələndə pendir, yağ, motal, qurud və mal-qara üçün ot biçib gətirərdilər.

Hacı Əhməd Ağ Aşığa Kərkibaşda qayanın başında ev-eşik tikdirir. Aşığa dolanmaq üçün mal, qoyun, keçi, kəl verir. "Şairin diki" adlanan yerdə əkin yeri verir. Hacı həm də aşığa yaylaq yeri verir. Yaylaq yeri – Lilparlı bulağının yanındakı Sarıyalın döşündəki biçənək yeri Alının vətəni Qızılvəngdən 3-5 km aralı olardı.

Yaylağın gözəl təbiəti, bumbuz bulaqları, şır-şır axan Qıjoy çayı var idi. Sarıyalın döşündə qoyun-quzuların otlayıb mələşməsi, çobanın tütək çalması adamları valeh edərdi. Sarıyalın döşündə cürbəcür güllərin ətri, lalələrin əsgər kimi düzülüşü və lalələrin bir təpənin başını al-qırmızı rəngə bəzəməsi insanları bihuş edərdi.

Yəni ki Aşıq yayda mal-qarasını yaylağa aparsın. Mal-qarası üçün ot biçib gətirsin. Aşığın dolanışığı olsun. Ağ Aşıq yaylağa gedərkən şəyirdi Alının kəndi Qızılvəngdən keçərdi. Ustad şəyirdi də götürüb yaylağa apardı. Yaylaqda istirahət edərdilər. Mal-qarası üçün ot biçib yığardılar. Əşrəf babanın deməsinə görə, Göyçədə Verst(Vers), Şişpilləkən dağlarının ətəyində, Lilparlı bulağının yanında, Sarıyalın döşündə ustad-şəyird cövlan edərmiş və deyişərmişlər. Aşıq Alı ***"Bənzərsən"*** qoşmasını elə burada demişdir:

*Süsənli, sünbüllü, tər bənövşəli,*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*
*İçən ölməz sənin kövsər suyundan,*
*(Bulaq, bizim bulaqlara bənzərsən.)*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*

*Əyricə, Verst dağı, Xankirt baxarı,*
*Ağ sürülər Sarıyaldan yuxarı.*

*Gözəllər seyr eylər o oylaqları,*
*Oylaq, bizim oylaqlara bənzərsən.*

*Aşıq Alı deyər, üç gözəl dərə,*
*Çiçəkli, şaqaylı, xoş gözəl dərə.*
*Əyricə, Verst dağı, Baş gözəl dərə,*
*(Üç dağ, bizim Üç dağlara bənzərsən.)*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*

Burada toplanan insanlar aşıqlardan zövq alarmışlar. Ağ Aşıq ömrünün axırına qədər Kərkibaş kəndində yaşayır. O, Göyçə kəndlərinin, el-obalarının məclis və toylarında çıxış edər, duvaqqapmasını oxuyar, ailəsini dolandırarmış.

Göyçə mahalının qocaman sakini, mərhum 110 yaşlı Kərəm babanın deməsinə görə, Osmanlı Hüseyn Sərdar bərk xəstələnir. Həkimlər onun xəstəliyinə çarə tapa bilmirlər. Nəticədə Qumlu bir həkim deyir ki, sizi yalnız ağ adamın qanı xilas edər. Hüseyn Sərdarın adamları bədəni ağ adam axtarır, axırda gəlib Kosacan kəndində Ağ Aşığı tapırlar. Aşığın ayrı yolu olmur və qasidlərin yanına düşüb Osmanlı Hüseyn Sərdarın hüzuruna gedir. Hüseyn Sərdar cəllada əmr edir ki, onun boynunu vurub, qanını qızıl teştə tutsunlar. Ağ Aşıq həmin dəqiqələrdə cəllad amanı istəyir və üzünü göylərə çevirir. Gözünə bir durna dəyir. O, dərdini ***"Durna"*** rədifli şeirində bildirir:

*Durnam gedər olsan bizim ellərə,*
*Qatıq söylə, qaymaq söylə, yağ söylə.*
*Yar ki xəbər alsa kefi-halımı*
*Boynu armud saplaq, canı sağ söylə.*

Aşığın hazırcavablığı, gözəl saz çalması, məlahətli səsi Sərdarı qərarından çəkindirir. Haqq aşığı təbabət elmini də dərindən bildiyinə görə Sərdarı sağaldır. Sonra vətənə qayıdır.

İkinci dəfə Hüseyn Sərdar ağır xəstələnir. Aşığı çağırır. O, izi azdırmaq məqsədilə Kosacandan Kərkibaş kəndinə gəlir. Ulu babamız Hacı Mustafanın oğlu Hacı Əhməd Ağ Aşığı kənddə yerləşdirir. Hacı Əhməd babamız vəfat etdikdən sonra Ağ Aşığın vəziyyəti ağırlaşır. Xanlar, bəylər, kəndxudalar, koyxalar Aşıq Allahverdinin dolanmasına imkan vermirlər. Aşıq get-gedə müflisləşir. Hətta ot tapa bilmir ki, bir neçə qoyun-keçisini saxlasın. Onun qoyun-keçiləri acından qırılır. Aşıq Allahverdi aclıq və zülmə qarşı çarəsiz qalaraq, Gədəbəy rayonuna – bir dostunun yanına gəlir. Ondan köməklik istəyir. O da dostu Allahverdiyə bir neçə pud qarğıdalı köməklik edir. Onlar gələrkən Göyçədə Pəmbəyin üstündəki yolda borana düşür, yolçuları öldürür, ancaq Allahverdi ölmür. O, ömrünün pis keçməsi və dövründən şikayət edir. Oğlu Məhərrəmə belə deyir:

*... Ay Məhərrəm, axır xub düşdün dara!*
*Çağır o Allahı tez gəlsin dada,*
*Əshabi-Kəbədəki ya imamzadə,*
*Heç kəsə sən möhtac eyləmə məni.*

Beləliklə, bəy, xan, pristav, Koyxa, qazı və darğalar Ağ Aşığın dövrünün ictimai eyiblərinə aid şeirlərində əsas tənqid hədəfləridir. Ağ Aşıq aşağıdakı şeirlərində camaatın gözünü açmağa çalışmış, xalqı dinə, cəhalətə, zülm və haqsızlıq dünyasına qarşı mübarizəyə ruhlandırmışdır.

Kərəm babanın 1965-ci ildə deməsinə görə, Ağ Aşıq ***"Vətənimdən cida düşdüm"*** gəraylısını bunlara həsr etmiş, bu gəraylını Hüseyn Sərdarın əlindən Kosacan kəndindən qaçanda demişdir:

*Vətənimdən cida düşdüm,*
*Bəy əlindən, xan əlindən,*
*Heç birində insaf yoxdur,*
*Onların aman əlindən.*

*Rəiyyət qərq olub qəmə,*
*Dərdimizi deyək kimə?*
*Zəhrimardı, alıb yemə,*
*Kəndxudanın nan əlindən.*

*Allahverdi dostu yoxlar,*
*Öz dərdini canda saxlar.*
*Sinəmə tuşlandı oxlar,*
*Dilbilməz nadan əlindən.*

Ağ Aşıq ***"Çəkirlər"*** qoşmasında pristav, koyxa, qazı və darğanın eyiblərini açır. Onun təsvirində koyxa və s. xalqın malına daraşan, zəli kimi onun qanını soran tüfeylilərdir. Şair bu şeirində onların tənqidini vermişdir:

*Yuxardan pristav, aşağıdan koyxa,*
*Biçarə rəiyyəti dara çəkirlər.*
*Qazı, darğa xalqı soyur soğantək,*
*Dirikən üstündən qara çəkirlər.*

*Sığındım Göyçəyə, bu mahala mən,*
*Dərdim Sarı Nərdən nərgiz, lala mən.*
*İtirmişəm İsmayıltək[1] bala mən,*
*Sinəmə çal-çarpaz yara çəkirlər.*

*Allahverdi dərd əlindən dəlidir,*
*Kənddə koyxa qan soruyan zəlidir.*
*Gözüm yaşı Qıjoy çayın selidir,*
*Sinəmə dağ-düyün, yara çəkirlər.*

Ağ Aşığın nəticəsi Salatın nənənin deməsinə görə, babası tənqidi şeirlər yazdığı üçün bir neçə dəfə çağırıb deyiblər ki, bir də belə şeirlər yazsan, yerin gedər-gəlməzdir. Baba isə dediyindən dönməz idi.

Aşıq Allahverdi gələcəyə ümid bəsləmiş, xalqının xoşbəxt yaşamasını və nikbin ruhda olmasını arzulamışdır. O, ***"Yaxşıdır"*** qoşmasında bunu belə tərənnüm etmişdir:

*...Allahverdi, müdam yana çırağın,*
*Təmiz ola həm evin, həm ocağın.*
*Əgər ki olmasa nə düyün, yağın,*
*O xoş qaş-qabağın ondan yaxşıdır.*

1950-ci ildə Əşrəf babanın deməsinə görə: "Bir gün Ağ Aşığın Göyçədəki bir şənlik məclisinə getdim. Təxminən mənim o vaxtlar 15-20 yaşım olardı. Cavan oğlan idim. Ağ Aşıq "Əsli və Kərəm" məhəbbət dastanını danışırdı. Haqq aşığı Kərəmin yanması və Əsli xanımın şahmar zülfünü sinəsinə basıb ağlaya-ağlaya gülü yığmasını oxuyurdu. Ağ Aşıq ***"Yandı"*** qoşmasını elə məharətlə

[1] *İsmayıl 40 yaşında vəfat edib.*

oxudu ki, məclisdəki adamların çoxusu ağladı. Bala, mən Ağ Aşığın məharətinə məəttəl qaldım. Bugünkü gün kimi yadımdadır. Mən deyim, siz yazın.

*Allah sizə versin balalar, ana!*
*Ana, xan Kərəmi yandı, ağlaram,*
*Bağda yandı güllər, lalələr,*
*Ana, xan Kərəm yandı, ağlaram.*

*Məni ağlar qoydun cavan vaxtımda,*
*Qaralar yazılıb mənim baxtımda,*
*Atam viran qalsın tacü-taxtında,*
*Ana, xan Kərəm yandı, ağlaram.*

*Görürsən xan Əslinin dilini,*
*Bülbül olan buraxmaz gülünü,*
*Öz gözümlə gördüm Kərəm külünü,*
*Ana, xan Kərəm yandı, ağlaram".*

Aşıq Allahverdi uzaq diyarlardan birinə toy şənliyinə getmişdi. O, toy şənliyini yola salır və geri qayıdarkən yolda ilahidən ona agah olur ki, oğlu İsmayıl dünyadan köçüb. Qocaman aşıq Kərkibaş kəndinə çatarkən uzaqdan qapısında çoxlu camaat və korğun-korğun ucalan tüstünü görür. Bu hiss onun bədənində kədər, intizar, qüssə-qəm və qulağında ahu-nalə səslərini canlandırdı. Camaat onu qarşılayır, deyir ki, oğlun İsmayıl[1] dünyadan köçübdür. Bu sözləri eşidən aşığın beli ikiqat bükülür və qüssələnir. Ağ Aşıq aşağıdakı bayatıları deyir:

[1] *İsmayıl 40 yaşında vəfat edir.*

*Əzizinəm, qaraldı,*
*Dağlar başın qar aldı.*
*Oğul öldü, dağ çəkdi,*
*Od-ocağım qaraldı.*

*Eləmi, sazım ağlar,*
*Huy çəkib sazım ağlar.*
*Oğlu ölmüş aşığam,*
*Kərəmtək sazım ağlar.*

Ağ Aşıq oğlu vəfat edəndən sonra toy və məclislərə getmir. Qocalıb üz verir. Ağ Aşıq ***"Bilmirəm"*** qoşmasında bunu belə tərənnüm edir:

*Ay ağalar, belə dərdə neyləyim?*
*Mənə çox veribdi çəkə bilmirəm.*
*Qoşdum qəm kotanı, daşa ilişdi,*
*Qalmışam naəlac, əkə bilmirəm.*

*Qocalıb üz verdi yaxşı iqbalım,*
*Zəhrimara döndü ağzımda balım,*
*İmran dilli sazı hicrana çalım,*
*Tale üz döndərib, bəlkə, bilmirəm.*

*Ağ Aşıq, gözümdə qaldı muradım,*
*Bəy-nişan toylarda çəkilmir adım,*
*Qırılıbdı qolum, sınıb qanadım,*
*Qalmayıb taqətim, çəkə bilmirəm.*

Aşıq Allahverdi qoca vaxtlarında öz şagirdi Aşıq Alını bütün sınaqlardan keçirmiş, ona ustad aşıq adı vermişdir. Nəticəsi Salatın nənənin deməsinə görə, öz dəstixətti ilə ərəb, fars dilində kağız yazıb vermişdir ki, mən-

dən sonra ustad Aşıq Alıdır. Həmin kağız 1944-cü ilə qədər Hüseyn Sərdarın verdiyi müzrədə dururdu.

Qəm-qüssəyə dözə bilməyən Ağ Aşıq təxminən 1860-cı ildə 105 yaşında vəfat edir. Göyçə mahalının Kərkibaş (indiki Şəfəq kəndi) qəbiristanında dəfn olunur.

Ağ Aşığın nəticəsi Salatın nənənin deməsinə görə, haqq aşığı vəfat etməmişdən əvvəl öz ölümünü bilirmiş. ***"Götürün məni"*** qoşmasını son nəfəsində demişdi:

*Ay ağalar, Ağ Aşıq ölsə güman,*
*Yarın sirr-sözünü etmək sərəncam.*
*Ağalar ağası on iki imam,*
*Cənnət əlnəvayə götürün məni.*

*Ağlayıb-ağlayıb günah olmayıb,*
*Qəbir əzabından ötürün məni.*
*İki kimsənələr həmdəmim ola,*
*Barın həyatına yetirin məni.*

*Camaat yığılıb namazım qıla,*
*Tez verin duamı salanda yola.*
*Gül-çiçək içində itirin məni,*
*Barın həyatına yetirin məni.*

Kərəm babanın 1965-ci ildə deməsinə görə, haqq aşığı öz ölümünü bilirmiş, bu qoşmanı da ölüm ayağında demişdir:

*Ömür oldu tamam, gün oldu tamam,*
*Götürün, çevirin qibləyə məni.*

*Dursun namazıma on iki imam,*
*Yetirin cənnəti əlnavəyə məni.*

*Xəzan əsdi, vaxtsız soldu güllərim,*
*Yetsin imdadıma Xudayı-Kərim.*
*El içində qalan nəsihətli sözlərim,*
*Yüksəldəcək ərşi-əlayə məni.*

*Ellər gələr Ağ Aşığın yasına,*
*Süsənbər qərq olar qəm dəryasına.*
*Rəbbim, qıyma onun gül balasına,*
*Aparın fənadan üqbaya məni.*

Kərkibaş kəndinin ağsaqqalı 150 yaşlı Əşrəf babanın 1950-ci ildə deməsinə görə, Ağ Aşıq 105 yaşında vəfat edəndə şəyirdi Aşıq Alının təxminən 60 yaşı olardı. Ağ Aşığın ölümü Göyçə mahalını və Kərkibaş kəndini çox sarsıtdı, o cümlədən, şəyirdi Aşıq Alını. Alının və hamının göz yaşları axırdı.[1]

Aşıq Alı ustadı Ağ Aşıq dünyadan köçərkən ***"Oldu"*** qoşmasını "hicrani-kərəm" havası ilə bir nalə çəkib oxudu və ustadını elə qiymətləndirdi ki, camaatın zümzüməsi ərşə bülən-bülən oldu. Sanki yer və göy ağlayırdı. Göydə uçan quşlar da qanad saxlayırdı. Sanki hamının gözünün yaşı sel kimi axırdı. Bunları mən gözümlə gördüm, ay bala. Onda mən cavan oğlan idim.

Aşıq Alı ***"Oldu[1]"*** qoşmasını belə tərənnüm etmişdi:[2]

---

[1] Zeynalabdin müəllim 1960-cı ildə qələmə almışdır.
[2] Qoşmanı 1965-ci ildə Zeynalabdin müəllim Aşıq Alının qorçusu Kərəm dayısından qələmə almışdır.

*Köçübdü sultanım, sərdarım, xanım,*
*Qəlbim qəm evində pərişan oldu.*
*Aparıb özüylə dinim-imanım,*
*Sədrim qəm oxuna bir nişan oldu.*

*Mədinə dərd verdi, Kərbala şöhrət,*
*Dərsi – dərs içində sanılı ibrət.*
*Təbibi kar oldu, sağaldı min dərd,*
*Yurd saldı, sənəti bir gülşən oldu.*

*Yerdən, göydən, Nuh Nəbidən xəbərdar,*
*İzah eylər, cümlə neçə elm var.*
*Baş vurar dəryaya, gövhəri arar,*
*Neçə-neçə dildə danışan oldu.*

*Zəburdan, Tövratdan, Qurandan dərsi,*
*Eşq əhlini heyran qoydu həvəsi.*
*Əlindəydi fəzlin bəndi-bərəsi,*
*Alimlə, Xotkarla yarışan oldu.*

*İtirdim ümmanı, yoxdu damlası,*
*Tükənməz, ölüncə tutaram yası.*
*Sazımda qəmləndi hicran havası,*
*Tale təqdirində peşiman oldu.*

*Köç etdi sərində küllü xəzinə,*
*Ünvansızdı, necə düşüm izinə?*
*Qiymət versə üləmalar sözünə,*
*Nəğmələr içində zərnişan oldu.*

*Qərib kimsəyəydi, məkanı Sulduz,*[1]
*Zülmət dünyasında şöləli ulduz.*
*Namərd qurğusuyla yaşadı yalqız,*
*Cismimə od düşdü, alışan oldu.*

*Sanaram zülmətdə bir dağ aşağı,*
*Verdi kəlamıma yar-yaraşığı.*
*Alı, giryan et sən Ağ Aşığı,*
*Kədərin hicranla barışan oldu.*

Ağ Aşığın çəkdiyi saxsı qəlyan hal-hazırda Ağ Aşığın oğlu Allahverdinin qız nəvəsi, Ağ Aşığın nəticəsi Salatının yanındadır. Onun yaşadığı evdə Ağ Aşığın oğlu Allahverdinin qız nəvəsi Bəsti yaşayırdı. O ev 1988-ci ilə kimi dururdu. Aşığın qohum-əqrəbası Kərkibaş, Qanlı, Balaməzrə kəndlərində yaşamışlar. Aşığın 100-dən çox nəticəsi, kötücəsi, iticəsi, yazıcası, 200-dən çox qohum-əqrəbası vardır. Bu əhvalatı 100 yaşlı Qizbəst nənə 1990-cı ildə söyləmişdir. Onu da qeyd edək ki, bizim ulu babamız Hacı Hasanın oğlu Cəfər olub. Cəfərin oğlu isə Süleyman. Yəni Süleyman Hacı Hasanın nəvəsi olub. Ulu Hacı Hasan babamızın nəvəsi Süleyman Ağ Aşığın oğlu Allahverdi ilə bacanaqdır. Allahverdinin həyat yoldaşı isə Sənəm olub. Sənəm bizim ulu babamızın yaxın (kök) qohumu olub. Yəni ana nəslimiz eynidir. Ona görə də özümüzü Ağ Aşığın şəcərəsi kimi hesab edirik.

[1] Aşıq Alı ustadı Ağ Aşığa Sulduz yazmaqla işarə edir ki, o, İranın Mərənd mahalının Sulduz kəndindən köçüb, əvvəl Naxçıvana, sonra Göyçə mahalına gəlməsindən xəbər verir.

Ağ Aşığın, eləcə də ulu babalarımızın qəbri bərbad haldadır. Yağı görsə yazığı gələr. Ağ Aşığın və ulu babalarımızın qəbri erməni daşnaklarının tapdağı altında qalıb. Gün o gün olacaq, o gün gələcək ki, biz də Ağ Aşığın və ulu babalarımızın qəbrlərini ziyarət edə biləcəyik.

Qocaman Göyçə mahalının ziyalısı, xalq müəllimi Zeynalabdin müəllimin – atamın dayısı Kərəm baba Aşıq Alının qorçusu olmuşdur. O, aşıqları sinədəftər bilərdi. - Alı məclislərdə həmişə ustadından oxuyardı. Atam Kərəm babadan Ağ Aşığın şeirlərini qələmə alıb yazır. Kitab şəklində nəşr etmək üçün 1965-ci ildə İrəvanda çapa verir. Erməni daşnakları kitabın nəşr olunmasına maneçilik törədir, onu it-bata salır, yandırırlar.

Ağ Aşığın arxivi 1975-ci ilin may ayında Zeynalabdin müəllimin evi yanarkən yanıb külə dönmüşdür. Salatın nənə Ağ Aşığın həyat və yaradıcılığını, bütün şeirlərini, "Ağ Aşıq və Süsənbər" dastanını sinədəftər deyərdi. Bəzən isə özündən bədahətən şeirlər deyərdi.

**1)** Ağ Aşığın kötücəsi mərhum Əziz müəllim də çox savadlı dil-ədəbiyyat müəllimi idi. O, folklorumuzu və babasının həyat-yaradıcılığını və şeirlərini çox gözəl bilirdi. Babasının şeirlərinin toplanmasında köməyi və xeyirxah əməlləri danılmazdır. Arzusu babasının kitabını çap etdirmək idi. O da qismət olmadı.

**2)** Əziz müəllimin qızı – Ağ Aşığın iticəsi Solmaz xanım da çox savadlı və alicənab bir qadındır. Prezident Aparatında işləyir.

**3)** Ağ Aşığın kötücəsi Teliş, onun əri Məhərrəm özündən bədahətdən şeirlər deyərdi, Ağ Aşığa da şeirlər

qoşar və Ağ Aşığın şeirlərini sinədəftər deyərdi. Kərkibaşda ona el şairi deyirdilər.

**4)** Ağ Aşığın kötücəsi Şəmsi (Şiraslan) BDU-nun Hüquq fakültəsində müəllim işləyir. Babasının şeirlərini sinədəftər bilirdi. Kərkibaşda ona kəllə Şəmsi deyərdilər.

**Qeyd:**

**Bədr Allahverdinin "Keşişoğlu" dastanında**

1. Dəmirçioğlunun ona müraciətlə yazdığı "Ay Bədroğlu" şeiri.
2. Keşişoğlu ilə Bədr Allahverdinin iki deyişməsi.
3. "Bir qıfılbənd" deyişməsi.
4. Bədr Allahverdinin 11 qoşma bəndi.
5. Üç bayatısı var

Təəssüf ki, "Keşişoğlu" dastanını axtarışlar aparıb, heç bir kitabxanadan əldə edə bilmədik. Ona görə də yuxarıda qeyd olunan şeirləri verə bilmədik. Ümidvarıq ki, gələcəkdə bunları əldə etmək üçün axtarış aparacağıq.

Ağ Aşıq (Aşıq Allahverdi haqqında məlumatlar)

- Elmdə - (1754/1755-1860) – 105 y.
- Kameral təsvirdə

Hüseyn Hüseynzadə
"Ədəbiyyat və incəsənət q."
- Mərənd-Sulduzda

(1791-1859) – 68 y.
(1783-1876) – 93 y.

## Ağ Aşıq haqqında nəzəri məlumat

H.Hüseynzadənin 28 iyun 1969-cu il tarixli "Ədəbiyyat və incəsənət" qəzetindəki "Ağ Aşıq" məqaləsində

deyir ki, XVIII əsrin axırlarında, XIX əsrin əvvəllərində Göyçə mahalında doğulub, (70 ilə yaxın) ömür sürmüş Ağ Aşıq məşhur saz-söz ustadı Aşıq Alının müəllimi olmuşdur. Ağ Aşıq Göyçədə aşıqların sərkərdəsi olan Aşıq Əliqulunun şəyirdi olmuşdur. Kameral təsvirlə H.Arifin fikri üst-üstə düşür.

Göyçə mahalının kameral təsviri 1831-ci il səh. 38

Aşağı Keyti kəndi (başqa adı Salman kəndidir)

Aşıq Allahverdi Osman oğlu – 40 y.

Onun arvadı və 2 qızı (Oğlu Məhərrəm – 10 y.)

Belə çıxır ki, Ağ Aşıq 1791-ci ildə və oğlu Məhərrəm 1821-ci ildə anadan olublar.

Keyti kəndinin milli əhalisi 1842-ci ildən əvvəl buranı tərk etmiş, Ağ Aşıq Göyçədə qalmış və yeni yaranan Kərkibaşı (Kərkibaş) kəndinə 1841-1842-ci ildə köçmüş və ömrünün axırına kimi bu kənddə yaşamışdır.

Bizim ulu babamız Hacı Mustafanın (1751 - 1841) 3 övladı.

Hacı Əhməd (1781-1851)

Kəndxuda Məhəmməd (1791)

Hacı Alı (1801) olmuşlar.

Hacı Əhmədin oğlu Hacı Hasan (1816), Hacı Alının oğlu Hacı Hüseyn Alı (1823)

Bizim ulu babamız Hacı Mustafa (1751-1841) İraqın Türkmənbaşı mahalının Kərkür (Kərki) kəndində yaşayanda haca gedərmiş. İranın Mərənd-Sulduzundan haca gəlmiş sufi din alimi Qara Osman da orada olub. Hacı Mustafa Qara Osmanla tanış olurlar. Sonra isə ailəvi dost olurlar. Hacı Mustafanın oğlanları Əhməd, Məhəmməd,

Alı və Qara Osmanın oğlu Allahverdi və qızı Ümmilbanu bir-birlərini tanıyırdılar. Sonralar Hacı Mustafa ailəlikcə Göyçə mahalının Kərkibaşı (Kərkübaş) kəndinə köçürlər. Oğlanları Hacı Əhməd (1781-1851) və kəndxuda Məhəmməd Kərkibaşın nüfuzlu adamlarına çevrilirlər. Məhəmməd kəndin kəndxudası olur.

Qara Osman isə Arazın o tayından bu tayına Naxçıvanın Şərur mahalının Kosacan kəndinə köçüb bir müddət orada yaşayır.

Ağ Aşıq Kərkibaşda ulu babamızın oğlanları ilə qonşu olmuşdular. Hacı Əhməd və kəndxuda Məhəmməd Ağ Aşığa Kərkibaşda qayanın başında ev-eşik tikdirmiş və əkin sahəsi vermişdilər.

Başqa bir məlumata görə İranın Mərənd mahalının Sulduz kəndində XVIII əsrdə yaşamış məşhur sufi alim Şeyx Qara Osmanın ailəsi və oğlu Aşıq Allahverdi olmuşdur. 1814-cü ildən əvvəl Qara Osmanın ailəsi və həyat yoldaşı Hürü xanım, oğlu Allahverdi, qızı Ümmilbanu Arazın o tayından bu tayına Şərur mahalının Kosacan kəndinə köçmüşlər və bir müddət burada yaşamışlar. Ağ Aşıq Arazın o tayındakı Telli Cəfər ağanın qızı Süsənbərlə evlənmişdir. Şair Şeyx oğlu şeyx muradına çatmışdır.

Sonra isə Hacı Əhmədin oğlu Hacı Hasan (1816-1916) Ağ Aşığın oğlanları Məhərrəm və İsmayıla kömək edirlər.

Allahverdinin atası Şeyx Qara Osman Naxçıvanda dünyasını dəyişir. Ağ Aşığın vəziyyəti olduqca ağırlaşır. Ağ Aşıq anası Hürü, bacısı Ümmilbanu və həyat yoldaşı Süsənbərlə əvvəlcədən tanıdığı Kərkibaşlı Hacı Əhmədin

dəvəsi ilə Kərkibaşa gəlirlər. Hacı onları Kərkibaşda məskunlaşdırır. Ağ Aşığın şəyirdi Alı "Oldu" qoşmasında ustadının haradan gəlməsinə işarət verir:

*Qərib kimsəyəydi məkanı Sulduz,*
*Zülmət dünyasında şöləli ulduz.*
*Namərd qurğusuyla yaşadı yalqız,*
*Cismimə od düşdü, alışan oldu.*

Ağ Aşığın iki oğlu və iki qızı Kərkibaşda dünyaya gəlirlər.
1.İlk övladı – oğlu Məhərrəm (1814 və yaxud 1821)
2.İki qızı – (adları ?)
3.Son beşik – oğlu İsmayıl (1839)
İsmayıl evlənmir. Bir arada evlərinin yanındakı Taxça qayadan yıxılır, qonşu Qanlı kəndindən olan loğman Hacı Nağı müalicə edir. 35 yaşında vərəmdən vəfat edir.
Hürü nənəmiz Kərkibaşda vəfat etmişdir.

Ağ Aşığın bacısı Ümmilbanu Hacı Əhmədin kök qohumu Məhəmmədlə ailə həyatı qurmuşdur. Aşığın qızlarından biri Hacı Əhmədin oğlu Hacı Hasanla, o biri isə Hacı Alının oğlu Hacı Hüseyn Alı ilə ailə həyatı qurmuşlar. Biz də Hacı Həsən nəslindənik. Yəni nəslimiz Ağ Aşığın nəslindəndir. Ona görə biz də Ağ Aşığın şəcərəsi hesab olunuruq. Ağ Aşığın şəcərəsiyik.

Ağ Aşığın oğlu Məhərrəm oğluna atasının adı – Allahverdi qoyur. Allahverdi Hacı Hasan babamızın kök qohumu Sənəmlə ailə həyatı qurur. 4 qızı olur. Səkinə, Səlbi, Yasəmən, Salatın. Oğlu yoxdur.
İndi bunların anadan olması və vəfat etməsi tarixini yazaq:

- Elmdə - (1754/1755-1860) – 105 y.
- Kameral təsvirdə

Hüseyn Hüseynzadə
"Ədəbiyyat və incəsənət q." (1791-1859) – 68 y.

- Mərənd-Sulduzda – (1783-1876) – 93 y.

Oğlanları :
1.Məhərrəm (1814/1821-1864)  43-50 y.
İsmayıl (1839-1874)  - 35 y.
Məhərrəmin oğlu Allahverdi (1861/1865 – 1941) –76-80 y.
Həyat yoldaşı: Sənəm (1872-1957) – 85 y.
Allahverdinin qızları:
Yasəmən (1902-1976) – 74 y.
Səkinə (1908-1988) – 80 y.
Səlbi (1918-1998) – 80 y.
Salatın (1922-2012) – 90 y.

Aparılan araşdırmalar zamanı aydın olur ki, Ağ Aşığın oğlu Məhərrəm 1864-cü ildə 50 yaşında, oğlu İsmayıl 1874-cü ildə 35 yaşında vəfat ediblər. Ağ Aşıq oğlanlarının birinin vəfat etməsində iştirak edib. Burdan belə çıxır ki, Ağ Aşıq 1876-cı ildə vəfat edib. Ağ Aşığın bu tarixdə vəfat etməsi faktlara uyğun gəlir.

**Qeyd:** Ağ Aşığı kötücəsi Əziz babasına daha çox oxşayırdı.

**Ağ Aşığın nəsli haqqında qeydlər**

1. Atası – Qara Osman;
2. Anası – Yasəmən;–Hürü
3. Oğlu – Allahverdi;
4. Qızı – Ümmilbanu;
5. Allahverdinin həyat yoldaşı – Süsənbər;
6. Ağ Aşığın (Allahverdinin) oğlanları: Məhərrəm, -İsmayıl;
7. Ağ Aşığın nəvəsi – Allahverdi (Məhərrəmin oğlu. Şair Allahverdinin adını qoyurlar.)
8. Həyat yoldaşı – Sənəm
9. Ağ Aşığın nəticələri:

Allahverdinin (Məhərrəmin oğlu) qızları -

1.. Yasəmən[1] (74 yaş) – Göyçədə vəfat edib.
Övladları:
Ağ Aşığın kötücəsi:
Allahverdinin nəvəsi:
Bayram, Fətulla, Minayə

Ağ Aşığın iticələri
Allahverdinin nəticələri:

- Bayramın övladları:

Etibar, Kamal, Tahir, Xatirə.

- Fətullanın övladları:

Qafqaz, Dürdanə, Yasəmən, Zöhrab, Bəhruz.

- Minayənin övladları:

Əbülfət, Dilşad.

[1] Həyat yoldaşı – Şəfi Göyçədə vəfat edib.

2. Səkinə (80 yaş) – Göyçədə vəfat edib (həyat yoldaşı – Hüsöyn (100 yaş) Göyçədə vəfat edib).

Övladları:
Ağ Aşığın kötücəsi
Allahverdinin nəvəsi: } Qurban, Nəriman, Minəvər, Gülbəsti, Gözəl, Qənirə

Ağ Aşığın iticələri
Allahverdinin nəticələri }

- Qurbanın övladları:

Vaqif, Arif, Qətibə, Vahid, Sevil, Nəsimi.

- Nərimanın övladları:

Şəmkir, Nazənin.

- Gözəlin övladları:

Urquya, Valeh, Mərmər, Şükufə, Zeynəb.

- Minəvərin övladları:

Ülkər, Şəfiqə, Maksim, Rəfiqə, Kamaləddin, İlham, Şahin

- Gülbəstinin övladları:

Süsən, Aqil, Müqabil, Aidə, Yelena

- Qənirənin övladları:

Yoxdur.

3. Səlbi[1] (80 yaş) – vəfat edib.
Övladları:
Ağ Aşığın kötücəsi:
Allahverdinin nəvəsi:

Əziz, Abdüləzim, Sayad, Samayə, Bəsti, Əsmətel (Teliş), Maral

Ağ Aşığın iticələri
Allahverdinin nəticələri

- Əzizin övladları:

Akif, Zahid, Rauf, Solmaz.

- Abdüləzimin (Mariya ilə evlənib) övladları:

Sahib, Araz, Qalya, Elmira, Sveta.

- Sayadın övladları:

Elzibar, Etibar, Elnarə.

- Samayənin övladları:

Yazgül, Tahir, Ədalət, Nəcibə, Lilpar, Elsevər.

- Bəsdinin övladları:

Səyyaf, Pakizə, Elşad, Səyyar, Zərqələm, Dilşad, Qardaşxan (I Qarabağ müharibəsində həlak olub).

- Əsmətelin (Teliş) övladları:

Nüşabə, Çiçək, Fizuli, Gülsəba, Mehriban, Həcər, Qulu.

- Maralın övladları:

Yoxdur.

[1] Göyçədə vəfat edib. Həyat yoldaşı – Abdulla (Göyçədə vəfat edib).

4. Salatın (90 yaş) – Bakıda vəfat edib (həyat yoldaşı Teymur (70 yaş) – Göyçədə vəfat edib).
Övladları:
Ağ Aşığın kötücəsi:
Allahverdinin nəvəsi:
Nurəddin, Sulidin, Səməddin, Şiraslan (Şəmsi)

Ağ Aşığın iticələri
Allahverdinin nəticələri

- Nurəddinin övladları:

Tofiq, Əli, Roman, Teymur.

- Sulidinin övladları:

Dürdanə, Aynurə, Könül.

- Səməddinin övladları:

Lalə, Leyla.

- Şəmsinin övladları:

Şəbnəm, Nərmin, Tamerlan.

5. Ağ Aşığın – nəticəsi (oğlu) yoxdur.
6. Ağ Aşığın nəvəsi – Allahverdinin oğlu yoxdur.[1]

## 88 YAŞLI SANİYƏ NƏNƏNİN SÖYLƏDİKLƏRİ

Mən Qaraiman kəndinin sakini olmuşam. Qaraiman kənd 7 illik məktəbini əla qiymətlərlə bitirmişəm. Zeynalabdin müəllim mənə dərs deyib. Cavan oğlan idi. 1954-1955-ci illərdə Zeynalabdin müəllim Qaraiman kənd 7 illik məktəbində direktor işləyirdi. Mən 1955-ci il-

[1] ***Qeyd:*** *Ağ Aşığın nəsli haqqında Zeynalabdin müəllim yazmışdır. Lakin son nəsillər haqqında qeydləri Ağ Aşığın kötücə və iticələrini Hacı Maisdən və Ağ Aşığın kötücəsi Sulidin babadan Əmiraslan müəllim qeydə almışdır.*

də Zeynalabdin müəllimlə ailə həyatı qurmuşam. 5 oğlum və 2 qızım olub. Övladlarım Əmrah, Əmiraslan, Əmirəhməd, Surxay, Safalan, Qönçə və Səkinə olublar.

Mən Hacı Hasan tayfasının gəlini olmuşam. Hacı Hasanın oğlu Cəfər, Cəfərin oğlu Mahmud və Mahmudun oğlu Zeynalabdin olublar. Mən Qaraiman kəndindən Kərkibaş kəndinə gəlin gəldim. Sənəm nənə ilə qonşu oldum. Ağ Aşığın oğlu Məhərrəm, Məhərrəmin oğlu Allahverdi (Ağ Aşıq öz adını nəvəsinə qoyub) və Allahverdinin həyat yoldaşı Sənəm olub. Onların 4 qız övladı olub. Yasəmən, Səkinə, Səlbi, Salatın olublar. Allahverdinin kiçik qızı çox istedadlı, babasının yolunu davam etdirən, onun şeirlərini sinədəftər söyləyən və özündən bədahətən şeir deyən Salatın nənə olmuşdur. Onun da çoxlu yazdığı şeirləri var. Elə bil ki el şairəsidir. Mən 1955-ci ildə Kərkibaş kəndində olanda Sənəm nənənin həyat yoldaşı Allahverdi vəfat etmişdi. Sənəm nənənin 90-a yaxın yaşı olardı. O, çox cıvraq, qoçaq, çevik və mehriban bir qonşu idi. Elə bil ki, mənim nənəm idi. Mən onunla nəvə kimi söhbət edərdim. O, mənə çoxlu şirin nağıllar və Ağ Aşıq haqqında söhbət edərdi və şeirlərini deyərdi. Mən də ona qulaq asardım. Sənəm nənə mənə deyərdi ki, sən xoşbəxt bir insansan ki, Hacı Hasan tayfasının gəlini olubsan. Mənim birinci müəllim Zeynalabdin müəllim olmuşdursa, ikinci müəllimim Sənəm nənə olubdu. Çoxlu şeirlər bilib, sinədəftər deməyimi onlardan öyrənmişəm.

Sənəm nənə də Hacı Hasan tayfasından idi. Onun həyat yoldaşı Allahverdi Cəfərin oğlu Süleymanla bacanaq idi. Bizim nəslimizdəndir. Ona görə də biz də Ağ

Aşığın yaxın qohumuyuq. Bir kökdənik. Özümüzü Ağ Aşığın şəcərəsi hesab edirik.

Allahverdinin həyat yoldaşı Sənəm nənə 1958-ci ildə Kərkibaşda 85 yaşında vəfat etmişdir. Allahverdinin qızı Səlbi və onun qızı Bəsti (Allahverdinin nəvəsi) Abbasla ailə həyatı qurub Ağ Aşığın evində yaşayırdılar. Ağ Aşığın yaşadığı ev 1988-ci ilə kimi dururdu.

## AĞ AŞIQ

Göyçə mahalının kameral təsviri 1831-ci il səh. 38

Aşağı Keyti kəndi (başqa adı Salman kəndidir).

Aşağı Keyti kəndi Zod kəndinin cənub tərəfində yerləşir.

Aşıq Allahverdi Osman oğlu (40 yaş)

Oğlu Məhərrəm (10 yaş).

Belə çıxır ki, Aşıq Allahverdi 1791-ci ildə anadan olub.

Bu kəndin milli əhalisi 1842-ci ildən əvvəl buranı tərk etmiş (buradakı ailələrin çoxu Vedibasar mahalının 1842-ci ilə aid olan kameral siyahısında aşkar edildi). Ağ Aşıq isə 1840-1841-ci ildə Göyçədə qalmış və yeni yaranan Kərkibaşı kəndinə köçmüşdür.

Qarapapaqların Kərkibaşı tayfasına mənsub olan 13 ailə isə yalnız Göyçə mahalında, mahalın Daşkənd kəndində 1831-ci ildə qeydə alınmışdır ki, onlar 1842-ci ildən əvvəl (yəni 1840-1841) Daşkəndi tərk edərkən ayrıca Kərkibaşı adlı kənd yaratmışlar. Ağ Aşıq da bu kənddə yaşamışdır. Bizim ulu babamız Mustafanın oğlu Məhəmməd bu kənddə kətxuda olmuş, Mustafanın o biri oğlanları

Əhməd, Əli, Vəli və s. Kərkibaşı kəndində yaşamışlar. Ağ Aşıqla kənddə qonşu olmuşlar. Kətxuda Məhəmməd Ağ Aşığa Kərkibaşda qayanın başında ev-eşik tikdirmiş və əkin sahələri vermişdir.

**Qeyd:** Qərbi Azərbaycanın Göyçə mahalında 1831-ci və 1842-ci illərdə Çar məmurları A.Rişkov və A.Korallov tərəfindən tərtib edilmiş kameral təsvirlərdə kəndin əhalisindən imzaları ilə təsdiqlənən iltizam siyahısını almışlar. Sankt-Peterburq arxivindən çıxarmışlar. Kitabın müəllifi Nazir Əhmədli olmuşdur.[1] Göyçə ədəbi mühitinin məşhur simalarını da sənədlərdə tapmaq mümkündür. Məlum olur ki, Ağ Aşıq (Aşıq Allahverdi), şair Məmmədhüsöyn, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa (Aşıq Alının şəyirdi) haqqında indiyə qədər bizə təqdim edilən məlumatlar yanlış imiş.

## QARAPAPAQLARIN KƏRKIBAŞI TAYFASI

1. Kətxuda Məhəmməd Mustafa oğlu – 40 y. (onun arvadı və 3 qızı) oğlu Qara 8 y.
2. Əhməd Mustafa oğlu 50 y. (onun arvadı və qızı), üç oğlu: Kazım 20 y., Həsən 10 y. İsmayıl 4 y.

**Qardaşı:** Əli 30 y. (onun arvadı, 3 qızı və 3 oğlu) – Hüseyn 8 y. Sadıq 5 y., Mustafa 3 y.

3. Vəli Mustafa oğlu 30 y. (onun arvadı)

[1] ***"Göyçə mahalının kameral təsviri",*** Bakı, "Elm və təhsil", 2017, səh. 36-37.

4. Tanrıverdi Əhməd oğlu 40 y. (onun arvadı və iki qızı), oğlu Haxverdi 1 y.
**Qardaşı:** Allahverdi 30 y. (onun arvadı)
5. Nəsib Qasım oğlu 50 y. (onun arvadı)
6. Şərif Əmir oğlu 30 y,
**İki qardaşı var:** Daşdəmir 25 y. (onun arvadı), Əmir 15 y. Qardaşı oğlu Elləz Həsən oğlu 10 y.
7. Seyid Usub Seyid Mehdi oğlu 30 y. (onun arvadı və iki qızı)
8. Seyid Həsən Seyid Murad oğlu 20 y. (onun arvadı)
9. Məhərrəm Mirzə oğlu 30 y. (onun arvadı)
10. Hacı Məhəmməd oğlu 40 y. (onun arvadı), 3 oğlu: Məhəmməd 10 y., Cahangir 6 y., Məhəmməd 3 y.
11. Qurban Usub oğlu 40 y. (onun arvadı və 2 qızı)
12. Bəbir Usub oğlu 50 y. (onun arvadı və 4 qızı), 2 oğlu: Dərviş 3 y., Haxverdi 1 y.
13. Hüseyn Möhbalı oğlu 50 y. (onun arvadı və qızı), 5 oğlu var; İsmayıl 20 y., Səfialı 18 y., Şıxəli 12 y., Allahverdi 9 y., Xudaverdi 6 y.

**1859 – Kərkibaş**

Məhərrəm Allahverdi (Ağ Aşıq) oğlu (45 yaş)

**1814-cü ildə anadan olub.**

Qardaşı İsmayıl (20 yaş)

**1839-cu ildə anadan olub.**

(ailədə 2 kişi və 2 qadın)

Ağ Aşığın oğlu Məhərrəm, oğluna atası Allahverdinin adını qoyur.

(4 qadın)

**1886, Allahverdi Məhərrəm oğlu (25 yaş)**

Allahverdi Ağ Aşığın nəvəsi olub.

Allahverdi Sənəmlə ailə həyatı qurub.
(3 qadın)
Ağ Aşığın kəndi:
Aşağı Keyti (Salman kəndi), Kərkibaşı 1841 – Kərkibaş 1852 – Şəfəq 1967 – Vanevan 1989

150 yaşlı Əşrəf babanın deməsinə görə, Nikolay hökuməti ilin əvvəlində, yəni yanvar ayında insanları bir-bir yoxlayıb qeydə alardı. Kim burda olmasa, onun adını yazmazdı. Ağ Aşıq isə çox vaxt siyahıyaalma dövründə səfərlərdə – Bəsrə, Bağdad, Buxarada olardı. Ona görə də çox vaxt qeydiyyata düşməyib. Ona görə ki, Göyçə mahalında olmadığına görə.

Bunu kameral təsvir deyir. Həqiqətə uyğundur və ya uyğun deyil, bu, biz müəllifin fikri deyil.

# ŞAİR MƏMMƏDHÜSEYN
***(1800-1880)***

Şair Məmmədhüseyn Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur. Bütün varlığı ilə doğma vətənimizə vurğun olan, həyatı boyu saza-sözə sadiq qalıb gözəl şeirlər, qəlb oxşayan saz havaları yaradan Daşkəndli şair Məmmədhüseyn (Məmmədsöyün) qüdrətli bir sənətkar kimi xalqımızın qəlbində özünə əbədiyyət qazanmışdır. Coşqun təbə, parlaq istedada, əyilməz vüqara malik olan Məmmədhüseynin şeirləri öz yüksək sənətkarlığı, məğrurluğu ilə və ifadə yeniliyi ilə diqqəti cəlb edir.

Dövrünün ustad və qüvvətli təbə malik olan sənətkarlarından biri olmuş, saysız-hesabsız şeir yaratmışdır. Ağaları, bəyləri həcv etdiyindən həmişə təqib olunmuşdur. Lakin onun şeirləri vaxtında toplanmadığından çoxu itib-batmış, az qismi bizə gəlib çatmışdır.

Sazım coşur... Məmmədhüseynin qəlbi, Göyçə gölünün şahə qalxan dağları kimi. Barmaqlarım zil pərdənin üstündə qərar tutur. Məmmədhüseyn ***"yatıb oyanmayan qara bəxti"****ndən*, kükrəyib-daşan mavi Göyçə gölünün fəryadından gur səslə, xoş avazla xəbər verir[1]:

*Yönü bəri baxan dağlar,*
*Yatıb oyanmaz, oyanmaz.*
*Üstündəki ağır ellər,*
*Yatıb oyanmaz, oyanmaz.*

*[1] Bu gəraylını 1970-ci ildə Zeynalabdin müəllim Kərəm babadan qələmə almışdır.*

*Qurbanam qələm qaşına,*
*Gör nələr gəldi başına,*
*Səs verrəm dostum guşuna,*[1]
*Yatıb oyanmaz, oyanmaz.*

*İgidin dönməsin əhdi,*
*Yana çevrilməsin təxti,*
*Məmmədhüsöynün qara bəxti,*
*Yatıb oyanmaz, oyanmaz.*

Onun ***"Neylərəm"*** rədifli divanisi öz məzmunu, ifadə etdiyi mənasına görə böyük filosof şair İmadəddin Nəsiminin məşhur:

*Dilbəra, mən səndən ayrı ömrü, canı neylərəm?*
*Tacü-təxtü, mülkü, malü, xanimanı neylərəm?*

- deyə qəzəlini xatırladırsa, söz qafiyə quruluşuna görə aşıq poeziyasında geniş yayılan qoşma və gəraylı ilə səsləşir. Lakin şeir qoşma və gəraylıdan fərqli olaraq on beşlik formasında yazılmışdır ki, Məmmədhüseynə qədər bu formaya heç bir şairin yaradıcılığında təsadüf edilməmişdir. Şair Məmmədhüseynin **"Neylərəm"**[2] divanisinə diqqət yetirək:

*Ay cananım, səndən ayrı mən bu canı neylərəm?*
*Malü–mülkü, tacü-taxtı – Süleymanı neylərəm?*
*(Malı, mülkü, tacı-taxtı – Süleymanı neylərəm?)*
*Mən öləndə sən olasan başım üstdə ağlayan,*
*Şeyda bülbül fəğan eylər, Gülüstanı neylərəm?*

---

[1] *guşuna – qulağına.*
[2] *"Azərbaycan aşıqları, el şairləri". I hissə, səh. 195, Bakı 1983.*

*Bir vəfalı həmdəm ilə ülfət qıl, ilqar elə,*
*Dedim könül, dost küyinə sən də bir güzar elə.*
*Əl götürmə damənindən,[1] can ola nisar[2] elə,*
*Yar özü ziba gərəkdir, mən zibanı neylərəm?*

*Məmmədhüsöyn, qətlin üçün məclisə sağı[3] gəlir,*
*Qaşları yay, kipriyi ox, gözləri yağı gəlir,*
*Bu gün ömür başa yetib, ayrılıq çağı gəlir,*
*Beşcə ərşin (arşın) ağ lazımdı, badlıyanı[4] neylərəm?*

## İBTİDA[5]
## Osmanlı divanisi

*Yer yoxkən, göy yoxkən nuri-gövhər ibtida,*
*O nura bir nəzər saldı, pərvərdigar, ibtida.*
*Suti nimdən xəlq eylədi ərşi-hürkü əsmani,*
*Köpüyündən qərar tutdu, yeddi səyyar,[6] ibtida.*

*Bərilahim nəzər qıldı nuri-gövhər tərlədi,*
*Nurdan bir qətrə düşdü, dəryayı-uman eylədi,*
*Cəbraildən səda gəldi, mənəm-mənəm söylədi,*
*Yetmiş il dərya üzündə yandı şəhpər,[1] ibtida.*

---

[1] **ətəyindən**
[2] **qurban**
[3] **saqi**
[4] **parça növü (zərnişan)**
[5] *Zeynalabdin müəllim 1986-cı ildə Göyçənin Babacan kənd sakini (dindar), 1919-cu il təvəllüdlü, klub müdiri İlyasov Qurban Süleyman oğlundan qələmə almışdır.*
[6] ***Səyyar** – qaz*

*Dərd bilən ustadlara bir kərə nökərəm-mənəm,*
*Dərd bilməz əvvamlara maliki-əjdərəm, mənəm,*
*İsmimdi Məhəmməd Hüseyn, bir qulam, günahkaram,*
*Quran gəldi Məhəmmədə, oldu əzbər, ibtida.*

## *BAX*[2] *

***Osmanlı divanisi***
*Ey könlüm, qafil olma, Əliyi İmrana bax!*
*Məhəmməd şayinə gələn, hayət əl-Qurana bax!*
*İsmayılı apardılar minada qurban olmağa,*
*Cəbrayıl bir qoç gətirdi, sürməli qurbana bax!*

*İlahi hökm olundu, Kəba*[3] *evi yaktılar,*
*O vaxt ki hökm olundu, Sərəndibi*[4] *atdılar,*
*Adəmlə Həvva bir-birini səmada tapdılar,*
*Həvva doğdu səksən oğlan, gərdişi dövrana bax!*

*Gəl biçarə Məmmədhüsöyn, qul ol, Mövlanı tanı,*
*Habil Qabili öldürdü, eylədi nahaq qanı,*
*Dünyanı su götürəndə qopdu Nuhun tufanı,*
*Kimisinə nicat verən o Şahi-mərdana bax!*

---

[1] ***Şəhpər*** *– qanad.*
[2] *Zeynalabdin müəllim Aşıq Şükürdən 1986-cı ildə qələmə almışdır.*
[3] *Kəbə*
[4] *Sərəndib – çöl*

## *İSTƏRƏM*[1]

***Divani-müxəmməs***
*Bir meydan sərində əhli-cavan bahadır istərəm,*
*Könül açan şəbin-şamı, mahparəni istərəm.*
*Saz döşündə həzin axan çeşmə bulaq istərəm.*
*Sadiq dostdan da bircə kəlami-nikbət istərəm.*

*Əliquludan öyrənib, şeiri-nəzri istərəm.*
*Mən deyirəm bu dünyanın sahibi sərbaz ola.*
*Fəqir ola, sadə ola, hünəri ölməz qala.*
*Əzab-əziyyəti salan şahlara qırğın ola.*
*Vaiz də öz şərini döyər mıxa, gah da nala,*
*Yaltağı, şeytanı edə parçə- parə istərəm.*

*Məmmədhüsöyn, sən bil ki, bu dünya puçdu, fanidi,*
*Ha əlləş ki, ha çalış ki, bu işlər bir yanədir.*
*Nə gəzir insaf, siz alilər zati-avarədir.*
*Məxluqu çəkir dara, zəli kimi heyvərədir*
*Bu dünyanın cəfasını tək xudadan istərəm.*

[1] Zeynalabdin müəllim 1986-cı ildə Göyçə mahalının Babacan kənd sakini Aşıq Şükürdən qələmə almışdır.

## *GƏLMƏDİ*[1]

***Divani***
*İki aləmin günəşi, Şahı-cahan gəlmədi.*
*Dolandı gəcrəftarı, mərdi-meydan gəlmədi;*
*Mən ki sənin aşiqinəm, tərifin dilimdədi;*
*Müşkülləri həll eləyən mərdi-meydan gəlmədi.*

*Dünya oldu simuzərkən, Heydəri-Kərrar hanı?*
*Xeybəri-kufi kaf edən, fəth edən sərvəri hanı?*
*Düldül, Zülfüqar sahibi, Ağayi-Qənbər hanı;*
*Bir adı Qəşəmşəmdi, Şiri-yəzdan gəldi.*

*Gəl biçarə Məmmədhüsöyn, bəs sənin halın nədi;*
*Zəlil qoyma islamı, kafirin əlindədi;*
*Ərşə-gürşə sahib olan ixtiyarkı səndədi;*
*Salsalı məhv eləyəni Şahi-cahan gəlmədi.*

Məmmədhüseynin başqa şeirlərində də bu mahir el sənətkarının müdrik səsi, odlu nəfəsi coşub-çağlayan ilham çeşməsinin həzin pıçıltıları duyulmaqdadır. Dövrünün kamil və qüvvətli təbə malik sənətkarlarından biri olmuşdur. Bunu ***"Olmasa"***[2] divanisində gözəl tərənnüm etmişdir:

*Bəzirganlar yük bağlamaz, gər xiridar olmasa,*
*Naməşhur qalmaz dünyada, zatında zar olmasa.*

---

[1] Zeynalabdin Mahmudoğlu – "Xatirələrim", Bakı, 2003.
[2] *Azərbaycan aşıqları, el şairləri", I hissə, səh.195. Bakı 1983*

*Səng ilə xanə yapasan bir yaban səhrada,*
*Tapasan qəflət yuxusun, əgər şahmar olmasa.*

*İki mələk müqərrərdi baxıb əməlin yaza,*
*Onlar əməlinə baxıb, sənə verərlər caza.*
*O günündə nə eyləyəsən Məhəmmədəl Mustafa,*
*Məşhərə getmək çətindi, əldə tutar olmasa.*

*Məmmədhüseyn, ölməklə bu dünya xalı olmaz,*
*Dərdin demə dərdbilməzə, dərdindən halı olmaz.*
*Bu vergi haqq vergisidir, kimsəyə qalı olmaz,*
*Cəhd eyləmək beca şeydi, baxtın paydar olmasa.*

Şair Məmmədhüseyn bir neçə şeiri, dastanı, onlarca qoşma, gəraylı, təcnis, müxəmməs, divani və s. müəllifi kimi tanınır. İndi isə onun **"Yəni nə"**[1] qoşmasına diqqət yetirək:

*Bir mərd ilə ülfət qılsan mərdana,*
*Namərd ilə ülfət qılmaq yəni nə?*
*Müxənnətlər yaxşı gündə dost olur,*
*Yaman gündə keçər gedər (yönünə) yəni nə?*

*Həqiqət şərti ilə baxgilən sözə,*
*Qiyamət pərdəsin çəkərlər üzə,*
*İgid odu qol (qan) yatırda, iş düzə,*
*Hər qovğaya qarışmağın yəni nə?*

*Ağıl bir qumaşdı kimsəyə çatmaz,*
*Əsli comərd olan zikirsiz yatmaz,*

[1] Azərbaycan aşıqları, el şairləri, səh.194, Bakı 1983

*Gedən getdi, daha geri qayıtmaz,*
*Dalısınca peşman olmaq yəni nə?*

*Məmmədhüsöyn deyər söhbət (dəmində) dilində,*
*Bərabərin yoxdu ruyi-zəmində.*
*Ürfan məclisində, dost üzərində,*
*Hərcay (hərca) deyib danışmağın yəni nə?*

## "AĞRI DAĞI" QOŞMASI[1]

*Bir ərzi-halım var, xaki payına,*
*Eşit ərzi-halım, sən Ağrı dağı.*
*Sənə çıxan görər cümlə-cahanı,*
*Göründü gözümə Van, Ağrı dağı.*

*Aylar, illər təpəsində dumandı,*
*Dünyaynan yaranıb, hələ cavandı.*
*Dağlar yüzbaşıdı, çopur sultandı,*
*Düşübdü araya çən, Ağrı dağı.*

*Bülbül gedər, gül yanından xar uçar,*
*Pərvaz edər yuvasından sar uçar.*
*Yazın günü təpəsindən tar uçar*
*Hərdənbir eyləyər qan, Ağrı dağı.*

---

[1] *Zeynalabdin Mahmudoğlu, "Xatirələrim", Bakı 2003.*

*Məmmədhüsöyn, ölən günü olağı,*
*Cəhd eylə, qalmasın onun çalağı.*
*Nuhun gəmisini, Peyğəmbər bulağı,*
*Saxla qiyamətdə, sən, Ağrı dağı.*

**Qeyd:**

**Şair Məmmədhüsöyn**

Göyçə mahalının kameral təsviri, 1831-ci il, səh. 37-38

Qızılcıq və ya Abul kəndi

Göyçə gölünün cənub sahilində Dərəçiçək mahalından sonra gələn VI kənd.

Atası: Həsən Əli oğlu (50 yaş)

Dörd oğlu var: Əli (20 yaş), Məmmədhüseyn (15 yaş), Novruz (10 yaş), Qurban (7 yaş).

Daşkənd sonralar yaradılmışdır. 1908-ci ildə və qismən sonrakı xəritələr əsasında tərtib olunmuş "Göyçə-Qaraqoyunlu" xəritəsində Daşkəndin adı yoxdur. Yəni Daşkənd 1908-ci ildən sonralar yaradılmışdır. Buradakı 15 yaşlı Məmmədhüseyn şair Məmmədhüseyn kimi tanıdılmış şəxsdir. İndiyə qədər yazıldığı kimi, 1801-ci ildə Daşkənd kəndində deyil, 1816-cı ildə Qızılcıq və ya Abul kəndində doğulmuşdur. Bu kəndin sakinləri siyahıya almadan sonra yeni yaranan Hacımuxan kəndinə, Məmmədhüseynin ailəsi isə Daşkənd kəndinə köçmüşdür.

Bu, kameral təsvirin fikridir. Bunun düz və yaxud səhv yazılmasına biz cavabdeh deyilik.

Şair Məmmədhüseynin yaşadığı kənd:

Qızılcıq (Abul) – Daşkənd – Hayrik (1989)

## AŞIQ ALI
***(1801-1911)***

***Ustad Aşıq Alının şəyirdləri***

***Göyçə mahalının kəndləri üzrə***

1. Alçalı Məhərrəm;
2. Qızılvəngli Qulu;
3. Qızılvəngli Məsim;
4. Canəhmədli Meydan;
5. Subatanlı İsa;
6. Ağkilsəli Ələsgər (1821-1926);
7. Qaraqoyunlu Musa (1830-1912);
8. Şişqayalı Aydın (1825-1915)
9. Mehdi;
10. Məhəmməd;
11. Hümmət;
12. Alışan;
13. Qəhrəman;
14. Usub.
15. Qanlılı – Mehdi (qiyabi)

Saz-söz ustadlarından, mahir sənətkarlardan söz düşəndə istər-istəməz Qızılvəngli Aşıq Alı yada düşür. Gözəl şeirlərin, misilsiz saz havalarının yaradıcısı olan istedadlı aşığın əzəmətli poetik dühası insanı öz gözəlliyi, ahəngdarlığı ilə məftun edir, qəlbdə yüksək emosional duyğular oyadır:

*Dərs alanlar gəlib məndən dərs alsın,*
*Sinəmin dəftərin açıram bu gün.*
*Bir quş idim, dayanmışdım yuvamda,*
*Dövr edib havada uçuram bu gün.*

Aşıq Alı, demək olar ki, Göyçə aşıqlar ədəbi məktəbini yaratmışdır. XIX əsrin bir çox görkəmli aşıqları bu məktəbin yetirməsi və davamçısı olmuşdur. Özü də 20-dən çox, 30-a yaxın aşıq yetişdirib, saz-söz sənətini onlara öyrətmişdir.

Erkən yaşlarında tütək çalan Alı, sonralar meylini saza-sözə saldı. Oğlunu din xadimi görmək istəyən atası Mirzə dəfələrlə Alını sənət yolundan daşındırmaq istədi. Dövrünün savadlı, istedadlı bir sənətkarı olan Ağ Aşıq Alının qabiliyyətindən xəbərdar olur. Xeyli çətinlikdən sonra atasının razılığını alıb, Alını şəyirdliyə götürür. Ağ Aşığın qüdrətinə, sənətinə qibtə edən Alı böyük məmnuniyyətlə bu təklifi qəbul edir. Alı Ağ Aşığa 11 il şəyirdlik edib və həm də deyilənlərə görə, şair Məmmədhüseyndən də dərs alıb. Ustadlarının ərəb, fars dillərini mükəmməl bilməsi və bir çox elmlərdən xəbərdar olması ona təkcə aşıq sənətini deyil, bir çox elmləri də yerli-yataqlı öyrənməkdə kömək edib. Alı şeirindəki geniş dünyagörüş, yetkin savad da məhz bu səbəbdəndir. Aşıq Alının məşhur şagirdləri Aşıq Ələsgər və Aşıq Musa imiş. Aşıq Ələsgərgil Alıdan əvvəl də Al Məmmədlilər İmirzə kişigilnən yaxın olublar. Həmişə get-gəlləri olub. İmirzələr Göyçədə tanınmış nəsillərdən biri olub.

Aşıq Alı adı Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Dilqəm, Hüseyn Şəmkirli, Ələsgər və s. ölməz saz - ustadları ilə yanaşı dayanan sənətkarlardandır. O, Göyçə

mahalının Qızılvəng kəndində 100 ildən artıq ömür sürmüşdür. O, həmişə Göyçə mahalını, doğma kəndini - Qızılvəngi, qoyun-quzulu dağ döşlərini, ağzı köpüklü dağ çaylarını xatırlamışdır:

*Nə qədər gəzsəm də Turan elini,*
*Öz doğma ovlağım yadıma düşdü.*

Onun köklü yurduna möhkəm bağlı olduğunu özünün dediyi kimi:

*Sən məni eylədin yollarında ləng,*
*Çaylarda balığam, dəryada nəhəng,*
*Mahalım Göyçədi, kəndim Qızılvəng,*
*Aşıq Alı mahallarda bir gərək.*

*... Göyçə mahalımdı, Alıdır adım,*
*Ümidim, pənahım, mənim imdadım.*

Aşıq Alının şeirlərini, o cümlədən ***"Bənzərsən"***[1] qoşmasını oxuduqca elimizin-günümüzün səfalı yaylaqları, gözəllər yığnağı olan dağlar, qayalardan süzülən buz bulaqlar, qoynunda ağ sürülər mələşən əsrarəngiz güneylər bütün gözəlliyi ilə gözlərimiz qarşısında canlanır:

*Süsənli, sünbüllü, tər bənövşəli,*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*
*İçən ölməz sənin kövsər suyundan,*
*Bulaq, bizim bulaqlara bənzərsən.*
*(Yaylaq, bizim yaylaqlara bənzərsən.)*

*Əyricə, Verst (Vers) dağı, Xankirt baharı,*
*Ağ sürülər Sarıyaldan yuxarı...*

---

[1] *Kitabda olduğu kimi yazılıb.*

*Gözəllər seyr elər o yaylaqları,*
*Oylaq, bizim çaylaqlara bənzərsən.*

*Aşıq Alı deyər: üç gözəl dərə,*
*Çiçəkli, şaqaylı, xoş gözəl dərə.*
*Əyricə, Verst dağı, Baş gözəl dərə,*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*
*(Üç dağ, bizim üç dağlara bənzərsən.)*

Belə uzun müddət ömür edən aşıq bir sıra sanballı, dərin məzmunlu gəraylılar, qoşmalar, müxəmməslər, divanilər, təcnislər yaratmışdır. Bununla yanaşı o, həm də bəstəkar bir aşıq kimi məşhurdur. Bir sıra klassik saz havalarını təkmilləşdirməklə yanaşı yeni-yeni havalar da bəstələmişdir. O havaların əksəriyyəti bu gün el aşıqları tərəfindən oxunmaqdadır: **"Şərili"**, **"Göyçə gülü", "Göyçə gözəlləməsi**", **"Qəhrəmani"** və s. belə havalardandır.

Aşıq Alı ***"Olmuşam"*** ustadnaməsində kamil ustadından, ata-anasından, Qurandan özünün nə varı çox, nə də yoxsul olmasından söhbət açır:

*Dərsimi almışam kamil ustaddan,*
*Mərdlərin şahına mən qul olmuşam.*
*Səxam var, savabım, sövm, səlatım,*
*Sidq ilə ümməti-rəsul olmuşam.*

*Atamı, anamı san qibləgahım,*
*Bir bəd əməlim yox, heçdi günahım,*
*Əhli-Quran oldum, rəvandı rahım,*
*Nəğməkar içində üsul olmuşam.*

*Alı çox məğrurlar eylədi şikar,*
*Bu fəna dünyada durmadı bekar.*
*Ruzisin xudadan istədi aşkar,*
*Nə varı çox, nə də yoxsul olmuşam.*

Alının əsl adı Almədət olub. Sonra isə istedadına görə özünə təxəllüs götürüb – olub Aşıq Alı.

Aşıq Alı tarixdə üç adla məşhur olmuşdur: Şeyx Alı, Təcnis Alı, Təbib Alı. Xalq "Şeyx Alı" adını ona dərin zəkasına və elminə görə vermişdi. Alı öz dövrünün dərin təhsil görmüş adamlarından biri olmuşdur. Görkəmli təcnis ustadı olduğuna əsasən də "Təcnis Alı" çağırılıb. "Təcnis" aşıq şeirində mürəkkəb formalardan biridir. Bu formada yaratmaq sənətkardan bilik və istedad tələb edir.

*Aşıq Alı təqdir ilə qoşmasan,*[1]
*Təkrardansa yaxşı olar qoşmasan.*
*Zamanında itiribdi qoşma san,*
*Təcnisimlə viran olar bəhr evi.*[2]

Aşıq Alı həm də təbib olmuş, aşıqlıqla yanaşı otlardan, çiçəklərdən dərman düzəldər, xəstələri müalicə edib sağaldarmış. "Aşıq Alı, həzər dərdə davadır". Buna görə də o, "Təbib" adı ilə xalq arasında məşhurlaşmışdır.

1981-ci ildə Respublika Aşıqlar Birliyinin sədri xalq şairi Hüseyn Arif də "Aşıq Alı" poemasında görkəmli ustadı – Aşıq Alını "Şeyx Alı", "Təcnis Alı", "Təbib Alı" kimi tərənnüm etmişdir:

---

[1] Masa - cüt mənasındadır
[2] bəhr evi – şeir evi.

*Sənə elə qondu meylim,*
*Heç, bilmədim səndən ötrü*
*mən neyləyim?*
*Hara yazım, kimə deyim.*
*Aman Allah,*
*Nə kökdədir,*
*nə gündədir*
*Aşıq Alı?!*
*Xəbər tuta yaxın- uzaq,*
*Bakı, Şəki, Şəmkir, Qazax.*
*Bu niyyətlə*
*Yolu,izi alıb ələ*
*Qızılvəngə etdim səfər.*
*Qədim Goycə --doğma yerlər*
*Salamlaşdıq,*
*O şairdən*
*Bu aşıqdan*
*Söhbət açdıq .*
*Neçə qoca, neçə cavan,*
*Neçə-neçə sinədəftər.*
*Məclis şirin, söz mənalı.*
*Yenə, yenə*
*Dodaqdakı,*
*Qulaqdakı,*
*Saz ustadı,*
*söz ustadı*
*Qızılvəngli aşıq Alı.*

*... Qara gözlü, çatma qaşlı,*
*Ömrü- günü*

*Qoyun- quzu arxasında*
*Gəlib keçən,*
*doxsan yaşlı*
*Çoban dostum -*
*Qızılvəngli Məmmədəli*
*Mən soruşur,*
*O axtarır.*
*Zorla, güclə tapdıq axır.*
*Harda batıb,*
*harda yatıb Aşıq Alı.*
*Xeyli vaxtdır*
*Alaq basıb,*
*ot gizləyib*
*Olsa- olsa burda onu*
*Çöl quşları*
*nəğməsiylə əzizləyib,*
*Olsa – olsa səba yeli*
*Ətrafına qonan tozu*
*təmizləyib*

*... Haray çəkib soraqladım*
*Aşıq Alı hanı deyə*
*Xatirələr dünyasını*
*Nəfəsimlə varaqladım*
*Nələr – nələr çıxdı üzə...*
*Xatirələr dühasının*
*ümmamından*
*Gəraylılar,müxəmməslər,*
*Divanilər çıxdı üzə.*
*Alqış böyük xalqımıza,*

*Qədirbilən nəslimizə.*
*Azərbaycan torpağında,*
*Aşıq Alı sorağında*
*Birnəfəsə qızdı hücüm,  qızdı yarış*
*Hər axtarış,*
*Bir aləmdir, bir möcüzə!..*
*Bu yarışın*
*Bu günü var, sabahı var*
*Bir misra da qənimətdir*
*Tarix üçün, zaman üçün*
*"Qoşma"dedim qoşul ona*
*Aç sehrli "bağlama"nı*
*"Təcnis"i  də təçnis kimi*
*Yaxşı düşün*
*"Təçnis Alı "*
*Qalxdı elə zirvəyə ki*
*El yığıldı şadlığına,*
*şənliyinə*
*Alı- kitab,*
*Alı- məktəb,*
*Alı- küçə.*
*Sənətkara sərhəd nədir,*
*məkan nədir.*
*Nəğmələrin qanadında*
*Ölkələri neçə-neçə*
*Əfqanıstan torpağında,*
*Türkiyə,Yəməndədir.*
*Heyrət dolu ,alqış dolu*
*Salonlar göz önündədir*

*Dünən başqa,*
*bu gün başqa bir gündədir,*
*Aşıq Alı*
*Simli tarın pərdəsində*
*Telli sazın telindədir.*
*Bəstəkarın havasında*
*Müğənninin dilindədir*
*"keçən keçdi , olan oldu ".*
*Nə söz mülkü getdi bada ,*
*Nə can mülkü talan oldu.*
*Ağ Aşığa əsil oğul,*

*Ələsgərə əsil ata.*
*Əhsən belə bir insana*
*Varlığı bir həqiqət tək,*
*Yoxluğu bir yalan oldu.*

*Həyatda daş üstə daş qoyan kəsin*
*Toxunmaz yelkəni daşa dünyada.*
*El üçün can qoyub, baş qoyan kəsin*
*Çəkilər şöhrəti başa dünyada.*

*...Itirmə əslini bircə an da sən,*
*Sellərdə, sularda boğulsan da sən.*
*Adi insan kimi doğulsan da sən,*
*Aşıq Alı kimi yaşa dünyada*[1]*.*

[1] ***H.Arif. (Dilqəm)***
***Bakı, Yazıçı-1984***

Aşıq Alının ilk tədqiqatçısı Kərəm babanın bacısıoğlu Elbrus Mahmudoğlu olmuşdur. O, Aşıq Alıya aid çoxlu şeir və nəsrlər yazıb. Aşıq Alının nəslindəndir. Elbrus Mahmudoğlu Aşıq Alının folklorunun toplanmasında xidməti böyükdür. Hal-hazırda İstanbulda Aşıq Alının çoxlu şeirlərini və rəvayətini toplayır.

Gələcəkdə Aşıq Alının kitabının çap olunması nəzərdə tutulur. Bu kitabın çap olunması Aşıq Alının ustadlar ustadı kimi tanınmasında öz bəhrəsini verəcəkdir. Bu da Aşıq Alının irsinin öyrənilməsində gələcək nəsillərə köməklik edəcəkdir.

Göyçəli kibernetika elmlər doktoru, professor, şair Elbrus Mahmudoğlu ***"Şıx Alı"***[1] şeirində ustad Alını çox gözəl tərənnüm etmişdir:

*Çörək üstdə kərə yağnan verildi,*
*Haqdan vergi nəsib Alı, Şıx Alı.*
*Ağ Aşığa fərzənd oldu, öyrəndi*
*Havacatı şəkib*[2] *Alı, Şıx Alı.*

*Sirli havaları məlhəmdi dərdə,*
*Ərşə pərvaz avazı pərdə-pərdə,*
*"Göyçə gülü", "Koroğlu", hər əsərdə,*
*Qaldı adı, sahib Alı, Şıx Alı*

*Təcnis dedi, qoşma dedi, söz andı,*
*Gəşt eylədi, bu dünyanı dolandı,*

[1] *Elbrus Mahmudoğlu "Xəbər çata Ağrı dağa". Bakı, Gənclik, 1995*
[2] şəkib – səbirli, dözümlü

*Alosmanda Aşıq Yığval bağlandı,*
*Bəsdi yara qərib Alı, Şıx Alı.*

*İllər keçdi, ömür yüzü haqladı,*
*Təbib oldu, yaraları bağladı,*
*Elmi, fəhmi xəbər verdi, çağladı,*
*Aydan, gündən talib*[1] *Alı, Şıx Alı.*

*Köhnə paltar təzə yamaq götürməz,*
*Təzə meyi köhnə tuluq yetirməz,*[2]
*Daşlı torpaq qızıl buğda bitirməz,*
*Çiçəklərə həbib Alı, Şıx Alı.*

*Ulu Göyçədədi kökü, soyadı,*
*İncildən, Qurandan gəlir savadı,*
*Aşıq Ələsgərin sənət ustadı,*
*Söz sərrafı, qalib Alı, Şıx Alı.*

*Hüseynin dilində dolaşır Alı,*
*İrfanla Ağrıdan yol aşır Alı,*
*Qarsa, Qağızmana yaraşır Alı,*
*Təcnis Alı, Təbib Alı, Şıx Alı.*

Şair Oqtay Rza ***"Aşıq Alı"*** şeirində ustada belə qiymət vermişdir:

*Aşıq Alı!*
*El məclisə axışdı,*

---

[1] talib – bilici.
[2] Təzə meyi köhnə tuluq yetirməz – İsa Peyğəmbərin hədislərindən birinə işarədir. "İncil".

*Kəlamların sanki leysan yağışdı;*
*Bir sehrli hava çaldın – eşidib,*
*Bütün aləm Qızılvəngə yığışdı,*
*Aşıq Alı!*
*Min mahalı dolan, gəz!*
*Ələsgərin müəllimi olan kəs!*
*Əbədilik ustadısan bu yerin,*
*Qismətimiz - səndən miras qalan səs!*

Alının novatorluğu ondadır ki, o, təcnis formasında böyük elmi və ictimai-siyasi xarakterli şeirlər yaratmışdır. Hələ 200 il əvvəl öz şeirlərində mənfi Şərq adəti olan qohumla evlənmək məsələsini tənqid etmişdir:

*Qohum-qonşu dalaşdınız barışın,*
*Görüşümüz nəhs gəlibdir nəhs ilə.*
*Yaradan buyurub yadnan qarışın,*
*Xəstəlik gətirər nəsil-nəsilə.*

Bu gün dünya təbabət elmində bir məsələ irəli sürülür ki, qohumla evlənmək sağlamlıq cəhətdən ziyanlı nəticələrə gətirib çıxarır. Əlbəttə təsadüfi deyildir ki, aşıq öz yaradıcılığında bu adəti kəskin surətdə tənqid etmişdir. Demək olar ki, belə məsələlərdə Aşıq Alı təbib kimi çıxış edir.

Aşıq Alı klassik aşıqların müsbət ənənələrindən bəhrələnməklə Nizami, Nəsimi, Füzuli, Vaqif, Vidadi kimi sənətkarların yaradıcılığına da yaxından bələd olmuş, Füzulini xüsusilə qiymətləndirmiş,

*"Füzuli qələmi gözəldir, gözəl"* – demişdir.

İnsan qəlbinin dərinliyinə nüfuz etməyi bacaran, onun hissiyyatının, lirik duyğularının canlı poetik tablo-

sunu yaratmağa qadir olan Aşıq Alı səmimi insan hisslərini böyük məharətlə qələmə alır. Bəşəri duyğuların təbii, real mənzərəsini yaradır:

*Bir nişan istədim, gülüzlü yardan,*
*Dirsəyin göstərdi alısan, - dedi.*
*... Dedim: Ay qız, mənim adım tanısan?*
*Əzəldən bilirəm Alısan, - dedi.*

Təsvir etdiyi hər hansı bir hadisəni öz poetik nəfəsinin odu ilə isindirən, onu sənətin heyrətamiz dili ilə əks etdirən Aşıq Alı insan qəlbini ən ülvi duyğular qucağında əsrarəngiz gözəlliklər aləminə aparır. Onu yüksək estetik ideallar, nəcib hisslərlə zənginləşdirir. Ustad aşıq yaxşı demişdir:

*Gəlib gedir yaxşılar da, yaman da,*
*Qu tükündə, saman üstdə yatan da.*
*Aşıq Alı, nə qazandın cahanda?...*
*Səndən qalan qatar-qatar söz oldu.*

Aşıq Alı öz xalqının həyatı ilə bağlı olan bir ömür yaşamışdır. Vətənpərvər aşığın yeganə istək və arzusu camaatı zülmdən, istismardan azad görmək idi:

*Alı köçər, adı itməz,*
*Kənar eldə gülü bitməz,*
*Boğazından loxma ötməz,*
*Keçinərsə ac mahalım.*

Budur, əsl el sənətkarının məramı, məqsədi.

Ustadı Ağ Aşıq, şəyirdi Ələsgər olan Aşıq Alı XIX əsr Azərbaycan aşıq sənətinin qüdrətli simalarındandır. El arasında həm söz ustadı, həm də mahir ifaçı, həm də müəllim-ustad kimi tanınmış bu görkəmli aşığın zəngin irsinin təəssüf ki, az qismi bizə məlumdur.

Aşıq Alının irsini toplamaq haqqında dövlət qayğısı əsl el qayğısına çevrilmişdir. 1981-ci ildə Aşıq Alının anadan olmasının 180 illiyi – yubileyi ərəfəsində 500-ə yaxın yeni şeiri və üç dastanı – "Aşıq Alının türk elinə səfəri"; "Aşıq Alının İran səfəri"; "Dəstinamə" dastanları əldə edilmişdir. Aşıq Alının üzə çıxarılmasında və kitablarının çap olunmasında şair Hüseyn Arifin böyük xidməti olmuşdur.

Deyilənlərə görə, "Aşıq Alı və Əsmər" dastanı da olub.

Aşıq Alının babası Qazaxdan Göyçə mahalına köçmüşdür.

***Böyük ustadın 190 illiyi qarşısında***
***"Xalq qəzeti". 14.11.1991.***
***Hüseyn Arif.***

Bunu şair Elbrus Mahmudoğlu "Çəkdilər" qoşmasında çox gözəl tərənnüm etmişdir:

*Şöhrətin artdıqca, ay ustad sənin,*
*Qızılvəngdən Dəlidağa çəkdilər.*
*Qoymadılar bir məkanda durmağa,*
*Sağdan-sola, soldan-sağa çəkdilər.*

*Söndü gözlərində alışan çıraq,*
*Düşdü Miskin Abdal Göyçədən iraq.*
*Neçə sənətkarı, alimi-nahaq,*
*Gah yaxına, gah uzağa çəkdilər.*

*Nə büdrədi, nə də çaşdı sənətdə,*
*Düzlər keçdi, dağlar aşdı sənətdə.*
*Görəndə ki, Alı başdı sənətdə,*
*Şişqayadan düz Qazaxa çəkdilər.*

*... On il köhlən sürdün sən Kərkibaşda[1],*
*Qaldı naxışların qayada, daşda,*
*Adın qəlbimizdə başdadı, başda,*
*Baxma səni bir qırağa çəkdilər.*

Aşıq Alı deyəndə məhəbbət alovunda alovlanmış Kərəm, Pərisini gözləməkdən gözü yollara dikili qalan Qurbani, sevgilisi əlindən alınmış Tufarqanlı Abbas, məhəbbətini vətəndə qoyub, ona qovuşmaq üçün qərib ellərdə dolaşan Qərib, Tellisini itirən Dilqəm yada düşür.

Aşıq Alı deyəndə telli saz yada düşür. Telli saz deyəndə Dilqəmi, Göyçə gülü, Qəhrəmani, Cəngi Koroğlu, Gözəlləmələr, Yanıq Kərəm yada düşür.

Aşıq Alı deyəndə söz yada düşür. Qurbaninin boynu bükük "bənövşəsi", Abbasın gəraylıları, Xəstə Qasımın, Valehin indi də açılmamış bağlamaları, Alının, Şəmkirli Hüseynin, Ələsgərin nəsihətləri, ustadnamələri gəlir yada.

Aşıq Alı deyəndə el bayramları, şənliklər, toy-düyün, köçən qız, gələn gəlin yada düşür. Elin güzəranı, insanların azadlıq meyilləri, hiss və duyğuları, istismarçılara və müftəxorlara nifrət yada düşür.

Aşıq Alı deyəndə Qıratın belində, sinəsində telli saz, əlində Misri qılınc, arxasında elin dəliqanlı igidləri, yağılara meydan oxuyan Koroğlu yada düşür.

Aşıq Alı deyəndə 72 havacat, qoşma, dodaqdəyməz, müxəmməs, gəraylı, qıfılbənd, divani, deyişmə, cığalı təcnis, təcnis yada düşür. Ancaq bununla belə, Alıdan danış-

[1] *Kərkibaş Göyçədə kənddir. Ağ Aşığın qəbri bu kənddədir.*

maq dövrün müdrik, ağıllı, çox yerlər gəzib, çox ariflərlə durub oturmuş adamlardan danışmaq deməkdir.

Bu baxımdan şairlər məskəni Göyçə də müqəddəs torpaqdır. Onun əzəmətli dağları, loğman yaylaqları kimi saz-söz sənətkarları da vüqarlıdır. Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgər də Göyçədə dünyaya göz açıblar. Onun əsrarəngiz təbiətindən ilham alıblar. Sazı-sözü ilə Göyçəni göyçəkləşdirən Aşıq Alı bu cəhətdən diqqəti xüsusilə cəlb edir. Sözsüz Aşıq Alının zəngin ədəbi irsi gələcəkdə mükəmməl, akademik nəşr üçün el-obalarımızdan bir daha toplanacaqdır. Biz ümidvarıq ki, gələcəkdə Dədə Ələsgərin ustadı və ustadlar ustadı Aşıq Alının da kitabları dövlətimiz tərəfindən Aşıq Ələsgərin 2022-ci ildə çap olunan kitabı kimi nəşr edilsin.

Aşıq Alının öz dəsti xətti ilə yazdığı üç kitab əlyazması şeirləri və ustadı Ağ Aşıqdan yazdığı bir kitab əlyazması 1938-ci ilə kimi Kəlbəcərdə "Dilsuz və Xəzəngül" dastanının müəllifi Aşıq Nəbinin şəxsi arxivində saxlanmışdır. Anlaşılmazlıq üzündən həmin nadir nüsxələr bir çox əlyazmaları kimi 1938-ci ildə yandırılmışdır.

Alı Kərkibaşa Sədət xalasının yanına gəlib-gedəndə atam Zeynalabdinin dayısı Kərəmi də orada görüb, tanış olurlar. Alı ustad Aşıq olandan sonra Kərəmi özünə qəlyan qorçusu götürür. Aşıq Alı qorçu Kərəmi də toylara və aşıq məclislərinə özü ilə bərabər aparardı.

Kərəm baba Aşıq Alının qəlyan qorçusu olub. Bir sözlə desək, Aşıq Alının qiyabi şəyirdi olub. O, Aşıq Alı və Aşıq Ələsgərlə o qədər məclislərdə olub ki, sayı-hesabı yox idi. 100 yaşdan çox ömür sürmüş Kərəm baba Miskin Abdalın, Aşıq Əliqulunun, Ağ Aşığın, Aşıq Alının, Dədə

Ələsgərin şeirlərini və dastanlarını sinədəftər və yorulmadan deyərdi. Hətta sazda zümzümə edib, çalıb-oxuyardı. Elə bilərdin ki, əsl aşıqdır. Kərəm babaya Aşıq Kərəm desək, yanılmazdık. O, həm də özündən bədahətən şeirlər deyərdi. Onun sazı hal-hazırda durur. Onun oğlu Cahan, nəvəsi Rüstəm Zal sazını saxlayırlar. Oğlu Cahan onun sazını bəzən kökləyib. Bir neçə hava çalıb-oxuyur. Kərəm baba elə bil ki, bu ulu sənətkarların açılmamış boğçasıdır. Təəssüf ki, vaxtında bu ulu sənətkarların irsini-şeirlərini Kərəm babadan lazımınca toplaya bilmədik.

Kərəm babanın deməsinə görə, Aşıq Alı Qazaxda çoxlu toylar keçirib. Kök qohumlarından olan Qiyas bəyin oğlunun toyunu eləyərkən 14 gün Qazaxda qalıb. Qazaxın ən hörmətli adamları onu qonaq dəvət ediblər.

Həmin səfər zamanı ağbulaqlı Hacı Hüseyn kişi Alıya gözəl bir at bağışlayıb. Aşıq dostuna "Hacı" rədifli bir qoşma yazıb. İndi isə bu qoşmanı verməyi məqsədəuyğun bildik:

*Bu dari-dünyada, Göyçə elində*
*Hörmətdə, izzətdə birsən, ay Hajı.*
*Sənə qismət verif xaliqi-sübhan,*
*Həqiqət yolunda şirsən, ay Hajı.*

*Başı yığıncaxlı, cövrü-cəfalı,*
*Qohuma-qonşuya, dosta vəfalı.*
*Qonaxlı-qaralı, Hatəm səxalı,*
*Süfrələr açmaxda birsən, ay Hajı.*

*Tanıyır el-ova düz insan səni,*
*Tutammaz şöhrətdə nə boy, xan səni,*

*Azmı eyləmişəm imtahan səni?*
*Ərrər meydanında ərsən, ay Hajı.*

*Süfrəsi, dövləti, halal əməyi,*
*Yüzdüklər xərşdiyər əsmər ürəyi.*
*Yetimlər köynəyi, yoxsul çörəyi,*
*Əvvəldən bir açıx dərsən, ay Hajı.*

*Yanında xəcalət bu Aşıx Alı,*
*Bağışda sən allah bu qeylü-qalı.*
*Seyiddən, molladan elə daldalı,*
*Vallah ziyarətsən, pirsən, ay Hajı.*

Bunu Kərkibaşlı şair Elbrus Mahmudoğlu Kərəm dayısını özünün yazmış olduğu ***"Baş"*** divanisində və ***"Söylə, yadındamı"*** şeirində çox gözəl tərənnüm etmişdir:

*...Aşıqlar kərəm-kanı, Kərəm dayı kara gələ,*
*Alıdan eşitdiyi yada düşə, bəyan ola;*

*...Kərəm dayı, Şıx Alının qorçusu,*
*Qaraş kişi... Kərkibaşın ulusu...*
*Neçə pirlər haqq yolunun yolçusu,*
*Belə, yadındamı, Göyçədə ellər!*

Folklor nümunələrinin toplanmasında 100 yaşlı Kərəm dayımın mənə böyük rolu oldu. Kərəm dayım Aşıq Alının, Çaxırlıda Böyük Ağanın aşıqlarının qəlyan qorçusu olmuşdur. Vaxtilə Ağ Aşığın nəvəsi Allahverdi ilə yaxın olmuş, dostluq etmişdir. O, ustad aşıqların - Ağ Aşığın, Aşıq Alının şeirlərini yaxşı bilirdi. Təsadüfi deyildi ki, bu şeirlərin çoxunu Kərəm dayımdan yazıya almışam. Dayım 20 nağıl dastanı sinədən bilirdi. Həm də özündən

bədahətən şeirlər deyərdi. Əsl el şairi idi. Yaxşı yadımdadır, kəndimizə gələn aşıqlar əvvəlcə Kərəm dayımla söhbət edər, sonra məclis qurardılar. Çox təəssüflər olsun ki, dayımın bildiyi dastanları, nağılları və yazdığı şeirlərini yazıya ala bilmədim.

Dayım deyərdi, bacıoğlu yaz. Mən bir dəryayam, sonralar olmayacam. Aşıq Alı vəfat edəndən sonra elə bil ikinci Aşıq Alı Kərəm dayı idi. O, Alının nə qədər şeirini və dastanlarını bilərdi. Atam tez-tez Kərəm dayısına baş çəkərdi, dayısı qocalmışdı, 100 yaşı olardı. Yadıma gəlir ki, mən 1-ci sinifdə oxuyardım – 1966. 1970-ci ildən Kərəm babadan Ağ Aşığın və Aşıq Alının şeirlərini mən yazardım. Atam məni də Kərəm dayısıgilə apardı. Onun sazı da var idi. Sazı tez-tez dınqıldadıb çalardı və zümzümə ilə Alının şeirlərindən oxuyardı. Ona qulaq asanda dinləməkdən adam doymazdı. Kərəm dayı Aşıq Alıdan çox razı idi. Kərəm dayı Alının dastanlarını və şeirlərini deyəndə deyərdi ki, Alının ruhu da şad olur.

Zeynalabdin müəllim öz dayısı, Aşıq Alının qorçusu Kərəm babadan 1958-1972-ci illərdə Aşıq Alı və onun ustadı Ağ Aşığı qələmə alıb, çoxlu şeirlərini toplamışdır. Kərəm baba 1972-ci ildə vəfat edib. 1965-ci ildə Ağ Aşıq və Alıya yazdığı şeirləri, bir kitab əlyazmasını İrəvanda nəşriyyata verib ki, çap etsinlər. Təəssüf ki, həmin əlyazmalar daşnaqsütunun törəmələri tərəfindən yandırılıb məhv edilmişdir.

Aşıq Alı ömrünün sonlarında, yəni gözü tutulandan sonra 1895-ci ildə Qızılvəngdən Kəlbəcərə qohumlarıgilə köçüb, 1911-ci ilə qədər (yəni ölümündən təxminən iki-üç gün əvvələ qədər) Milli kəndində yaşamış, ölümqabağı

atasının qəbrini ziyarət etmək məqsədilə Qızılvəngə getmiş və orada vəfat etmişdir. Aşıq Alının qəbri Qızılvəngdədir. Ustadın qəbri 1981-ci ildə nəsir şəklində yenidən götürülmüşdür.

İndi isə Aşıq Alının nəsli haqqında:

Aşıq Alının babasının adı Ovçudur.

**1. Atası:** Mirzə;

Mirzənin oğlanları: Almədət – Aşıq Alı, Abbas

**2. Anası:** Fatma;

Onların övladı: Alı

**3. Alının həyat yoldaşı:** Bəsdi;

**4. Alının qaynatası:** Niftalı bəy;

**5. Alının övladları: 5**

- ***Oğlanları:*** Abdulla, Məhəmməd, Hüseyn;
- ***Qızları:*** Sənəm, Mələk.

**6. Alının nəvələri:** Cahan və Əfruz.

### Kərkibaş kəndinin ağsaqqalı Səfər babanın söylədikləri

1915-ci ildən olan qocaman müəllim Səfər babam 1980-ci ildə söyləyir ki, "A bala, nə tez yadından çıxıb. Alının qəlyan qorçusu Kərəm dayın (Alı onu toylara apardı.) demirdi ki, ulu Hacı Hasan babamızın oğlu Cəfər babanın arvadı Sədəf nənənlə (ərəbxan olub) Alının anası Çamırlıdılar. Özləri də qohumdular. Bax, evimizə bitişik olan o evdə(indi ona Sənəm qarının (Allahverdinin gəlini) evi deyirik) Alı ustadından dərs alırdı və tez-tez xalasının və babalarının yanına gəlirdi. [1]

[1] Zeynalabdin müəllim 1986-cı ildə qələmə almışdır.

Göyçə mahalının Mollalı (Cəfərli) kəndi Atlıxan tayfası Məhərrəmin babası Seyid Salman ən hörmətli insanlardan biri imiş. O bizim ulu babamız Hacı Hasanla dostluq edərmiş. Seyid Salmanın Sədət (Səadət) adlı bir qızı var imiş. Sədət həm də mədrəsə təhsili almışdı. Hacı Hasan oğlu Cəfəri dostu Seyid Salmanın qızı Sədətlə evləndirir.

Deyilənlərə görə, Aşıq Alının anası Fatma Seyid Salmanın qızı Sədətlə əmiqızı və yaxud qohum olublar. Alının qaynatası Çamırlı Niftalı bəydir. Çamırlı Xanəli bəy isə Niftalının əmisi oğludur. Xanəlinin bir oğlu Mürsəl olub. Fatma Alının anası olub. Sədət isə Cəfərin həyat yoldaşı olub. Yəni Sədət Alının xalası (Alı Sədətə xala deyərdi) olub. Alı hələ kiçik yaşlarında anası Fatma ilə Kərkibaşa, xalası Sədətin yanına gəlib-gedərdilər. Kərkibaşda Hacı Hasanın oğlu Cəfər babanın evinə bitişik olan o evdə Ağ Aşıq və onun oğlu Allahverdi və həyat yoldaşı Sənəmin yaşadığı ev deyərdilər. Alı Sədət xalasının yanına gəlib-gedəndə onu orada görüb və istedadlı uşaq olduğunu hiss edir, sonra onu şəyirdliyə götürür. Alı ustad aşıq olanda da tez-tez Kərkibaşa, xalası Sədətin, Cəfər babasının (Cəfərə - baba deyərdi) və ustadı Ağ Aşığın yanına gələrdi, onlara baş çəkərdi. Yəni Alı ilə bizim Cəfər babamızın bu cür qohumluğu olub.

Verilən bir məlumata görə, Çamırlıda Niftalı bəy (Alının qaynatası) və Xanəli bəy olublar. Deyilənlərə görə, onlar qardaş və ya əmioğlu olublar. Xanəlinin isə Mürsəl adlı bir oğlu olub. Niftalı bəy qızı Bəsdini Alıya vermək istəmir. Onda Xanəli bəyin təsiri böyük olur. Bacısıoğlu Alıya Bəsdini alsın. Çamırlı Xanəli bəylə Seyid

Salman kişi qardaş və ya əmioğlu olublar. Salman kişinin Sədət adlı qızı olub. Fatma ilə Sədət əmiqızı olublar.

Qızılvəngli Mirzə Fatma ilə ailə həyatı qurub. Mirzənin oğlu Alı olub. Kərkibaşlı babamız Cəfər Sədətlə ailə həyatı qurub. 5 oğlu – Süleyman, Cəlil, Molla Həmid, Mahmud, Cabbar olublar. Bunların içərisində Zeynalabdin müəllimin atası Mahmud Aşıq Alıya çox oxşayarmış. Ona görə ki, ana kökləri eyni nəsildən idilər.

Məşhədi Cəfər (1850-1875-ci ildə) Qızılvəngli Seyid Cəbbar (1809) ağaoğlu Seyid Salmanın (1843) qızı Saadət (Sədət) ailə həyatı qurur. Seyid Salman Alının bacısı Pərinin qızı Püstə ilə evlənmişdir. Alının atası İmirzə kişi, Seyid Cəbbar ağanın bacısı Fatma ilə ailə həyatı qurmuşdur. Belə nəticəyə gəlirik ki, Fatma Sədətin bibisidir.

Kameral təsvirdə qeyd edilib ki, Aşıq Allahverdinin 2 qızı və 2 oğlu olub. Bir də bacısı Ümmilbanu.

Bizim ulu babamız Hacı Mustafanın oğlanları – Hacı Əhməd (1781), kəndxuda Məhəmməd (1791), Hacı Alı (1801) olub. Hacı Əhmədin oğlu Hacı Hasan, Hacı Alının oğlu Hacı Hüseyn Alı

Deyilənlərə görə, Mahmud babam qoca vaxtları Aşıq Alıya daha çox oxşayarmış. Başqa kəndlərə gedəndə Mahmud babama Alı deyərlərmiş. Mahmud babam deyərmiş ki, mən Alı deyiləm, onun qohumuyam. Qohum da qohuma oxşayar. Aşıq Alıya bizim qohumluğumuz bu cür olubdur.

Deyilən bir rəvayətə görə, Xanəli bəyin 40 cöngəsi olub. 39-u yaz qabağı ölüb, 1 cöngə qalıb. Bir gün Sədət nənə Çamırlıya qonaq gəlir. Mürsəl (Sədətin qardaşıoğlu)

dəliqanlı olduğuna görə, ona dəli Mürsəl deyərdilər. Dəli Mürsəl o biri cöngəni maması Sədətin ayağının altında kəsir. Deyirlər ki, ay bala, bu bir cöngəni niyə kəsibsən? Deyir ki, gör kim gəlib – hörmətli qonaq Sədət mamam.

### *Aşıq Alının Bəsti ilə evlənməsi əhvalatı*

Alı öz ustadı ilə məclislərə gələndə əsl el bayramı olurdu. Bu cavan aşığın həsrətini çəkən qızlar çox idi. Bir gün Alı ustadı ilə bərabər Çamırlı kəndinə toy məclisinə çağırılmışdı. Qız-gəlin, cavan-qoca sazın seyrindən sehrlənmişdi. Niftalı kişinin qızı Bəsti gözlərini aşıqdan çəkə bilmirdi. Qız özündə-sözündə deyildi. Alının da şahin baxışları zər-zibaya bürünmüş, dağ çiçəyinə bənzəyən Bəstiyə yönəlirdi.

Həmin gecə Alı yatmadı:

Səhər məclisin şirin çağında Bəstidən xəbər gətirdilər ki, ölənədək Alının yolunu gözləyəcək. Alı unudulmaz ilk məhəbbətini ***"Gözlərəm səni"*** gəraylısında belə tərənnüm etmişdir:

*Kimsən gedən, boyu bəstə,*
*Bilincə gözlərəm səni.*
*Dayanaram yolun üstə,*
*Gəlincə gözlərəm səni.*

*Şəbnəm üstdə ayaq izin,*
*Mehman mənəm, diyar sizin,*
*Sürünərəm dizin-dizin,*
*Yolunca gözlərəm səni.*

*Gözün şəhla, kirpik oxdu.*
*Köçən köçür, dönən yoxdu,*
*Darıxmıram, səbrim çoxdu,*
*Ölüncə gözlərəm səni.*

*Həsrətdən ağdı birçəyim,*
*Qönçə gülüm, tər ləçəyim.*
*Qəbrin üstə hər çiçəyim,*
*Soluncа gözlərəm səni.*

*Alıyam, həsrət çəkərəm,*
*Qəm biçərəm, dərd əkərəm,*
*Dəryaca qan-yaş tökərəm,*
*Dolunca gözlərəm səni.*

Bu saf məhəbbətin sədası Göyçəyə yayıldı. Mirzə kişi mahalın sözü keçən, adlı-sanlı adamlarından Seyid Əlini, Hacı Möhsünü və başqa bir neçə hörmətli kişini götürüb Çamırlıya yola düşür. Qızılvənglə Çamırlının arası 4-5 km olardı. Niftalı elçiləri el adəti ilə qarşıladı. Seyid Əli bir salavat çevirib məclisdəkilərə baxdı və özünü Niftalıya tutub dedi:

*- Niftalı, biz bura bir mətləbə gəlmişik.*

*- Allah mətləbinizə çatdırsın, xoş gəlib, səfa gətirmisiniz.*

*- Sizin Bəstini Mirzə kişinin oğlu Alıya istəyirik.*

*- Seyid Əli, bu nə sözdür? Sən gələn, Hacı Möhsün gələn yerdə mən nə deyə bilərəm. Bir qızdı, sizə qurbandı.*

*Xeyir-dua verildi. Bundan sonra danışıq başladı. Niftalı dedi:*

*- Hacı Möhsün, siz bilirsiniz ki, mənim bu mahalda adım-sanım var. Sürülərim, naxırım, qulluqçularım, nökərlə-*

*rim sizə qurbandı. Mən gərək adıma görə xeyir iş tutam, toy edəm. Sabah eşidəndə ki, qızımın məclisidir, bütün millət töküllüb gələcək. Mirzə kişi dörd öküz, 40 onluq qızıl verməlidir. Mənim qızıma zər-zibadan paltar tikilməlidir. Qalan xərcləri də özünüz bilirsiniz. Yüzə yaxın qohum var, onlara da xələt gətirin, qızı aparın.*

*Mirzə kişini qapı ağzında qarşılayan arvadı Fatma soruşdu:*

*- Vermədilər?!*

*- Verdilər... Amma elə şərt qoydular ki, nə əl çatar, nə ün yetər.*

*-Alı atası ilə anasının söhbətini eşidirdi. Dünya başına dolandı, zəmanəyə qarşı fəryad etdi.*

*- Anası oğluna dedi:*

*- Ay bala, sənə demədim ki, o bizim tayımız deyil. Kəndimizdə gözəl qızlar çoxdur. Birini seç, gedib alaq. Niftalı şərt qoyub ki, altı aya qədər dediklərimi gətirməsəniz, qızı başqasına verəcəyəm.*

*Alının gözləri doldu. - Eybi yoxdur, ana, - dedi.*

-Alı çox fikirləşdi. Hara getsin, kimdən imdad istəsin? O eşitmişdi ki, Şəril mahalında Bağır xan adlı sazın-sözün qədrini bilən, insaflı bir kişi var. Ağ Aşıq onun mərdliyi barədə çox danışırdı.

Şərilə yola düşərkən küçədə dostu Həsənə rast gəldi. Həsən ona bir kağız verdi. Bu, yardan gələn bir naməydi. Bəsti çox yollara əl atmışdı, onun ah-fəğanına qulaq asan olmamışdı. O, xəlvətcə Bibinisənin ayaqlarına düşüb ikicə kəlmə Alıya söz yazmağı xahiş etmişdi: *"Ölsəm yerin payıyam, qalsam sənin"*. Alı Şərilə yola düşməzdən əvvəl **"Gedirəm"** qoşmasını deyir:

*Çox-çox salam-dua qohum-qardaşa,*
*Biləsiniz Al-Osmana gedirəm.*
*Bir dilək dilədim şahlar şahından,*
*Sığınmışam o sübhana gedirəm.*

*Alışır sinəmdə qəmli atəşim,*
*Düşəndə yadıma dostum, sirdaşım,*
*Gözləsin yolumu yarım, yoldaşım,*
*Sizə verib bir nişana gedirəm.*

Alı Şərilə səhər çağı yollandı. Dönüb Bəstigilin kəndinə gedən yola baxdı...

O, Bağır xanın həyətinə girəndə gördü ki, çoxlu adam yığılıb. Bayatı, nalə və ağlaşma səsi dünyaya yayılıb. Öyrəndi ki, Bağır xan üç gün əvvəl Allah rəhmətinə gedibdir. Alının əli yerdən-göydən üzüldü. Ordakılar üz-gözündən ağıl yağan Alıya məsləhət gördülər ki, "İrəvana get, Aşıq Duraxan sənə kömək edər". Alı qəmli-qəmli çıxdı yola. Üz tutdu İrəvana. Yollarda min bir əziyyət çəkdi. Aşıq Duraxanın qapısını döydü. Qapını açan aşığın özü oldu. Çiynində sazı olan cavanı aşağıdan yuxarıya süzdü.

*- Buyur içəri, bala, - dedi.*

*-Alı başına gələn bütün müsibəti Aşıq Duraxana danışdı. Duraxan onun mərifətini, aşıqlıq qabiliyyətini, saz çalmaq bacarığını yoxladı.*

*- Oğul, - dedi, - ümidini kəsmə. Məni Arazın o tayına toy şənliyinə çağırıblar. Bərabər gedək. Nə qazansaq, hamısını verəcəyəm sənə.*

*Alı Duraxanla yoldaş olub haraya gedəcəkləri haqqında belə deyir:*

*Aşıq Alı gəzir İrani-Turan,*
*Uğruma açıqdı tamam hər bir yan,*
*Mənə qardaş oldu Aşıq Duraxan,*
*Yoldaş olub Gövhərkana gedirəm.*

Alı sevindi, ürəyində "Allah, şükür sənə", - dedi. Onlar yola düşdülər. Aşıq Duraxanın mahalda böyük hörməti var imiş. Gündə bir kənddə məclis qurdular. Yaxşı da nəmər yığdılar. Alının saz çalmaq, söz demək məharəti məclisdəkilərə də, ustada da yaxşı təsir bağışlayırdı. Məclislərin birində pul yığılan zaman bir nəfər geyimli-geçimli kişi ortaya çıxıb pulu dəsmallı-zadlı götürdü və qapını çırpıb getdi. Duraxan da, Alı da, məclisdəkilər də onun arxasınca baxdılar. Heç kəs bir kəlmə də kəsmədi. Məclisdəkilərdən biri dedi:

*- Qardaş, bu mahalın baş aşığı Yığvaldı. Onun icazəsi olmadan mahalda məclis keçirdiyinizi eşidib, bu həngaməni çıxartdı. Bircə yolumuz var. Gərək onunla deyişəsiniz. Əgər onu bağladınız, pulunuzu da verəcək. Hələ üstəlik hərənizə bir at da bağışlayacaq. Bağlamasanız, sazınızı əlinizdən alacaq, pulunuzu da qaytarmayacaq. Yığval söz dəryasıdır. Həm də dərdinizi bir Əlixana da deyin.*

Duraxanla Alı Əlixanın yanına gəldilər. Xan da Yığvalı çağırtdırdı. Yığval dedi:

*- Xan sağ olsun, bunlar məni saymayıblar. Heç olmasa adıma gərək hörmət eyləyəydilər. Ya mənimlə deyişəcəklər, ya da sazlarını buraya qoyub gedəcəklər.*

*-Xan Duraxanın və Alının üzünə baxıb dedi:*

*- Şərtə razısınızmı?*

*Cavan Aşıq Alı öz ustadından razılıq aldıqdan sonra Xana baş əyib dedi:*

*- Xan sağ olsun, ustam bir az yorulub. Hələlik Yığval mənimlə deyişməyə razılıq verməlidir. Sonrasına baxarıq.*

Aşıq Yığval Alıya istehza ilə baxdı. İki axund çağırdılar. Münsiflər müəyyən edildi. Məclis quruldu. Bütün mahalın adlı-sanlı adamları bu məclisdə toplaşdılar. Aşıq Yığval qıfılbənd dedi. Alı alıcı quş kimi meydana şığıyıb onun cavabını verdi. Məclis çox çəkdi. Axırda Alı "Gahdan pünhan olub, gah olur aşkar" qıfılbəndini dedi. Aşıq Yığval onu aça bilmədi. Yerdən Alıya "Əhsən" dedilər. Aşıq Yığval pul boğçasını qaytardı, bir qızıl onluq da Alının alnına yapışdırdı.

Alı və ustadı İrəvana qayıtdılar. Aşıq Duraxan onu bağrına basıb Göyçəyə yola saldı. Toyuna gələcəyini bildirdi.

İkinci bir varianta görə, Aşıq Alı İstanbulda 18 aşığı bağlayıb zindana salan Aşıq Əsmərlə deyişib. Əsmərin "əsir" etdiyi aşıqların sazını alıb özlərinə verdi. Aşıq Əsmər Alıya bir ürəkdən min ürəyə vuruldu. O dedi:

*- Aşıq Alı, mənim əhdim var, kim məni bağlasa, ona ərə gedəcəm.*

Alı dedi:

*- Bəstinin gözləri yoldadır.*

Əsmər Alı ilə bacı-qardaş oldu. Toy üçün xeyli qiymətli hədiyyə qoyub Alını hörmətlə yola saldı və toya gələcəyini bildirdi.

Altı ayın tamamına üç gün qalmış Alı özünü Qızılvəngə yetirdi. Saralıb-solmuş Bəstiyə muştuluqçu xəlvəti xəbər apardı. Niftalının tələb etdiyi başlıq verildi. O, əlacsız qalıb qızı Bəstini Aşıq Alıya verdi. Onun toyunun səsi Göyçəyə yayıldı. 7 gün, 7 gecə toy etdilər. Hamı Hacı

Niftalı bəylə Kalvayı Mirzəyə gözaydınlığı verdi. Ustadı Ağ Aşıq, şair Məmmədhüseyn, Aşıq Duraxan, Aşıq Əsmər və bir çox başqa aşıqlar sinələrinə sazı basıb bu toyu təriflədilər. Məclisin 7-ci günü Ağ Aşıqla Əsmər xanım qarşı-qarşıya Aşıq Alıdan "güllü qafiyə" üzərində Alı ilə Bəsti xanımın Aşıq Alının "Dedi" qoşmasını – duvaqqapmasını oxudular:

*Bir nişan istədim gülüzlü yardan,*
*Dirsəyin göstərdi: "Alısan" dedi.*
*Dedim: "Ay qız, köşdüm, səndən əl çəkdim".*
*"Həlbət bir yadına salısan", - dedi.*

*Dedim: "Ay bəxtəvər, bu nə büsatdı?"*
*Dedi: "Nəzər eylə, gör nə sufatdı".*
*Dedim: "Çeşmim yaşı yeri islatdı",*
*"Verrəm dəsmalımı, silisən", - dedi.*

*Dedim: "Ay qız, qəmnən dəftər bağlaram",*
*Dedi: "Baxma, nişanını saxlaram",*
*Dedim: "Həsrətinnən ilnən ağlaram",*
*"Qorxma, yaxın vaxtda gülüsən", - dedi.*

*Dedim: "Ay qız, nə gözəldi şamama",*
*Dedi: "Dərmə, ömrün yetər tamama".*
*Dedim: "Ay qız, əl uzadım butama",*
*"Özünü nüfuzdan salısan", - dedi.*

*Dedim: "Xəstələrin can dərmanısan",*
*Dedi: "Aşıqların kərəm kanısan",*
*Dedim: "Ay qız, mənim adım tanısan?"*
*"Əzəldən bilirəm, Alısan", - dedi.*

Bundan sonra Aşıq Alının sorağı bütün aləmə yayıldı. Aşıq Alı İrəvanda Aşıq Duraxanı, İranda Aşıq Zəkini, Rumda Aşıq Yığvalı, İstanbulda Aşıq Əsməri bağlamışdı. Aşıq Alının Aşıq Yığvalla qıfılbənd və deyişmələri, eyni zamanda Alının Əsmərlə deyişmələri var. Bu deyişmələri yeri gəldikcə qısa şəkildə verməyi məqsədəuyğun biləcəyik.

### Aşıq Alının Kərkibaşda Ulu Hacı Hasan babamızın oğlu Hacının toyunu keçirməsi[1]

Göyçə mahalının ağbirçəyi 100 yaşlı Qizbəst[2] nənənin deməsinə görə, bu əhvalatı atası Hacı ona söyləmişdir. Ulu Hacı Hasan babamızın oğlu Hacı böyüyüb bığıburma bir cavan oğlan oldu. Vaxtı çatanda ulu babamız Hacını Cildən Bəsti adlı bir qızla evləndirmək qərarına gəlir. Bu, təxminən 1893-cü ilin payız aylarına təsadüf edir.

Ulu Hacı Hasan baba Göyçə aşıqlarının sərkərdəsi Aşıq Alını toya dəvət edir. Aşıq Alı altı şəyirdi – Musa, Qəhrəman, Alışan, Qulu, Usub, Ələsgər ilə Kərkibaşa Hacı və Bəstinin toyunu etməyə gəlir.

---

[1] 1960-cı ildə əmiqızı Qizbəstdən əmisi oğlu Zeynalabdin müəllim qələmə almışdır.
[2] Qizbəst nənə Hacının qızı, Hacı Hasanın nəvəsidir. Beş dəfə erməni qaçqınının şahidi olmuşdu. Qaçaqaç düşəndə qaçıblar. Yenidən Göyçəyə qayıdıblar.

Ulu Hacı Hasan babamız 7 cöngə, 50 qoç kəsdirir. Toyu Hacı Hasan özü açır və çıxış edir. Sözü Aşıq Alıya verir. Aşıq Alı şəyirdləri ilə toyda tüğyan eyləyirlər. Toya Göyçə mahalının hər yerindən və Azərbaycandan babalarımızın dostları, Kərkibaş əhli, Əşrəf, Hacı Hasanın(Hacı Həsən 75 y.) qardaşı – Kalvayi (Kərbəlayi) İsmayıl (75 y.), Hacı Hasanın oğlanları və qızları – Safo, Cəfər, Hacı, Qafar, Xanpəri, Sənəm və nəvələri – Məmmədalı, Dünyamalı, Süleyman, Cəlil iştirak edirlər.

Toy 7 gün, 7 gecə davam edir. Hacının toy sorağı bütün Göyçə mahalına və Azərbaycana yayılır. Axırda ustadın şəyirdləri Musa və Ələsgər Aşıq Alının "Dedi" qoşmasını "Güllü qafiyə" üzərində Hacı və Bəstinin duvaqqapmasını oxuyurlar.

Hacı Hasan babamız Aşıq Alıya və şəyirdlərinə bir kiçik torba bağlama qızıl verir. Hətta ustada – Alıya bir cüt öküz pay verir ki, şəyirdlər cütə qoşub Aşığın qoca vaxtında yerini şumlasınlar.

**QEYD:** Qızbəst nənə 100 yaşında 1991-ci ildə Bakıda vəfat edib. Həyatında altı dəfə qaçqınlıq yaşayıb:

***1. 1893 } Gədəbəyə;***
***2. 1905 } Rus imperiyası***
***3. 1918 } Gədəbəyə; Daşnak***
***4. 1920 } Çaxırlının üstündə Qızıldağın ətəyinə***
***5. 1948-1952 - Ucar, Qazyan kəndi; Stalin- Mikoyan***
***6. 1988 - Bakıya; Qorbaçov***

## AŞIQ ALININ QƏBRİ HAQQINDA XATİRƏLƏRİM

XIX əsrin I yarısının sonundan II yarısının axırına kimi Göyçənin fəxri, ustadlar ustadı, aşıqların sərkərdəsi, 20-dən çox şəyirdi olan Aşıq Alı olmuşdur. AKP MK-nın qərarı ilə böyük saz və söz ustadı Aşıq Alının 180 illiyi 1981-ci ildə bayram edildi.

Hüseyn Arifin Aşıq Alı haqqında yazdığı **"Qızılvəng qəbiristanında düşüncələr"**[1] şeirini nəzərdən keçirək:

*Ayaqlar, təpiklər, yellər, yağışlar,*
*Verdikcə hökmünü burda ilbəil.*
*SÇürüyüb ağaclar, yeyilib daşlar,*
*İlk qəbir, son qəbir seçilən deyil.*

*Qəbiristan ...*
*Çiynində bir elin yası,*
*ahdanmı, oddanmı yanıb qovrulub,*
*bilinmir hansıdı gənci, qocası,*
*Yazılar mamırdan oxunmaz olub.*

*Ustadlar ustadı yatır bu yerdə,*
*Yatıb Aşıq Alı – tapa bilmirəm.*
*Sahibsiz qalanda batır qəbir də,*
*Batıb Aşıq Alı – tapa bilmirəm.*

*Yox bir nişanəsi dünya üzündə,*
*Çalan cəngəlini elə çalmayıb.*

---

[1] ***Hüseyn Arif*** *– "Ayrı düşəli". Bakı, "Gənclik" nəşriyyatı, 1983.*

*İki-üç qarının tutqun gözündə,*
*Çəkilib, bəlkə qalıb, bəlkə qalmayıb.*

*...Durmuşam üz-üzə qəmlə, təlaşla,*
*Cığırlar pozulub, nə hala düşüb.*
*Bəlkə də ikiyə bölünən daşla,*
*"A" sağa atılıb, "L" sola düşüb.*

*... Həyat müvəqqəti, insan ömürsüz,*
*Bu gediş-gəlişin hesabı yoxdur.*
*Yatıb Aşıq Alı səssiz-səmirsiz,*
*Səslərəm, səsimin cavabı yoxdur.*

*Dostlarla göməşib fikrə dalmışıq –*
*Həsrətin üzü boz, qanı soyuqmuş.*
*İllərlə saz tutub, söz deyən aşıq,*
*Deyirsən: - Elə bil, həyatda yoxmuş.*

*Əriyib qarışdı əbədiyyətə,*
*Yanında çoxları kamala yetdi,*
*Sazda Koroğlusu keçdi Əsədə,*
*Sözdə Ələsgəri oyatdı getdi.*

Hüseyn Arif başqa bir şeirində deyir:

*Bir də nə gördüm, nə deyim sənə,*
*Gizli üşütmələr ruhumu sardı.*
*Tənha başdaşının qonub üstünə,*
*Vəhşi çöl qartalı haray qopardı.*

## Hüseyn Arif: **"Deyirlər Göyçədə bir gözəl olub"**[1]

*Qızdan təravətli, gəlindən qəşəng,*
*Gözəllər içində bir gözəl olub.*
*Kişidən qeyrətli, oğlandan zirək,*
*Deyirlər Göyçədə bir gözəl olub.*

*Gümüşü xəncəri bağlayıb belə,*
*Çölləri, düzləri gəzib keçərdi.*
*Bulaqlar başında hörükləri ilə*
*Səhəngi yerindən üzüb keçərdi.*

*... O dağlar maralı, düzlər ceyranı,*
*Şirin qoşmalarda, nəğmələrdədir.*
*Söhbəti götürüb Azərbaycanı,*
*Qəbri Aşıq Alı yatan yerdədir.*

*Nə bir soruşan var, nə də axtaran,*
*Nə bir könül ahı, nə bir gözyaşı.*
*Qəbir də nə qəbir ... üstü nə vaxtdan,*
*Mamırla örtülü adi çöl daşı.*

*Batıb qərq oluram, qəmə, qəhərə,*
*Boğazım quruyub, nitqim tutulub.*
*Hayıf Qızılvəngə, hayıf Həcərə,*
*Deyirlər Göyçədə bir gözəl olub.*

[1] Hüseyn Arif – "Ayrı düşəli". Bakı, "Gənclik" nəşriyyatı, 1983.

İndi isə H.Arifin **"Bəlkə buna görə"**[1] şeirinə də nəzər salaq:

*... Xəyal boylananda ana torpağa,*
*Özümdən xəbərsiz qonur Qazağa.*
*Bilmirəm nədənsə, ay Yunis qağa,*[2]
*Xeyli var, könlümə Göyçə düşübdür.*

*... Demişəm, gülmüşəm deyib-gülənlə,*
*Hörmətə tələsib Hüseyn Arif.*
*Orda neçə-neçə qədir bilənlə,*
*Halal çörək kəsib Hüseyn Arif.*

*Orda kişilər var, müdrik kişilər.*
*Namusu, qeyrəti, haqqı itirməz.*
*Orda Mikayıl*[3] *var, canlara dəyər,*
*Ocağı müqəddəs, odu müqəddəs.*

*... Çiçək təravəti, gül təmizliyi,*
*Sazımda, sözümdə çağlayıb mənim.*
*Bəlkə dağ saflığı, göl təmizliyi,*
*Meylimi Göyçəyə bağlayıb mənim.*

---

[1] ***Hüseyn Arif*** *– "Ayrı düşəli". Bakı, "Gənclik" nəşriyyatı, 1983.*

[2] ***Yunus Rzayev*** *uzun müddət Basarkeçər rayonunda I katib işləmişdir. O, Göyçə mahalının fəxri, ağsaqqalı, sərkərdəsi, başçısı idi, atam Zeynalabdin müəllimlə bir yerdə əsgərlikdə olmuşdu, möhkəm dost idilər. Hüseyn Arif həmişə deyərdi ki, Yunus Rzayev mənim qohumumdur.*

[3] ***Mikayıl Bayramov*** *Şişqaya kəndində kolxoz sədri idi. Azərbaycandan gələn qonaqları o qarşılayardı. Göyçənin qeyrətli və qonaqpərvər insanlarından idi. Həm də Hüseyn Arifin dostu idi. Hüseyn Arifin deməsinə görə, Mikayıl müəllimlə mən qohum düşürəm. Hüseyn Arif Göyçəyə gələndə birinci Mikayılgilə gedərdi. 1980-ci ildə olanları yazmışam.*

*Bir də salam verək əcəl ovlağa,*
*Qalan öz yerində, köçən köçübdür.*
*Bəlkə buna görə, ay Yunus qağa,*
*Xeyli var, könlümə Göyçə düşübdür.*

## BABAM ZEYNALABDİN VƏ ATAM ƏMİRASLANIN DEDİKLƏRİ

Hələ kiçik yaşlarımda Aşıq Alı məni çox düşündürüb və xəyallara aparırdı. Hələ atam Zeynalabdin Qızılvənglə qonşu olan Dağzağalı kəndində müəllim işləyirdi. Atam söhbət edərdi ki, Dağzağalıda işləyəndə həmişə ustad Aşıq Alının qəbrini ziyarət edib və dualar oxuyardım. Aşıq Alı mənim beynimə bir iz salmışdı.

Gün o gün oldu, o gün gəldi ki, bu qəbri ziyarət etmək mənə də qismət oldu. Yay olanda el dağa köçür deyərdilər. Bizim də yaylaq Verst və Şişpilləkən dağları arasında – Qızılvəngdən bir az yuxarı – təxminən 5 km o biri tərəfdə yerləşirdi. Kənddən dağa təxminən 20-25 km olardı. Kərkibaş camaatı da hər il yayı yaylağa köçərdi. Mal-qaranı da aparardılar. Bu yaylağa gedəndə yol Qızılvəngdən keçərdi. Aşıq Alının qəbrini görüb və ziyarət edirdilər.

1974-cü ildə 8-ci sinfi bitirmişdim. Xıdır əmim şofer işləyirdi. Öz köçünü ailəsi ilə maşında yaylağa aparardı. Mədinə mamam bizim mal-qoyunu da yaylağa apardığından mən də gedəsi oldum. Köç yükləndi. Yaylağa – dağa yola düşdüm. Xıdır əmim maşını Alının vətəni – Qızılvəngə çatanda düz onun qəbrinin yanına sürdü və dayandı. Dedi ki, bu, aşıqların sərkərdəsi Aşıq Alının

qəbridir. Hamımız maşından düşdük. Xıdır əmim və Mədinə mamamın övladları: Elxan, Xaqani, Ağca, Şirastan, Mərdan və mən, uşaqlar – hamımız tez dərə və təpələrdən gül-çiçək yığıb gətirdik. Alının qəbrinin üstünə qoyub ziyarət etdik. Xıdır əmim və Mədinə mamam dualar oxudular. Sonra isə Xıdır əmim maşınını Aşıq Alının yaşadığı evin yanına sürdü. Evini də ziyarət etdik.

Yeri gəlmişkən, qeyd edək ki, şair-aşığın qəbri – evi bərbad halda idi. Necə deyərlər, yağı görsə yazığı gələrdi. Kənddən əsər-əlamət yox idi. Daşnaksütun partiyasının və Stalin repressiyasının siyasəti nəticəsində 1948-1952-ci ildə Azərbaycanlılar köçürülmüş, yerlərinə ermənilər yerləşdirilmişdi. O cümlədən, bizim Hacıhasan tayfası – Zeynalabdin müəllim başda olmaqla Göyçə mahalından Ucar rayonunun Qazyan kəndinə sürgün ediliblər. 1974-cü ildə Qızılvəngdə azərbaycanlı yox idi. Ermənilər yaşayırdı. Elə bil, Alının qəbri orada qəribsəyirdi. Elə bil, deyirdi ki, azərbaycanlılar, siz haradasız? Məni qoyub hara gedirsiniz?

1980-ci ildə ADPU-nun hazırlıq kursunda oxuyurdum. Mən Aşıqlar Birliyinə getdim. Onda birliyin sədri Hüseyn Arif idi. Gördüm ki, H.Arifin stolunun üstündə Aşıq Alı haqqında yazılar var idi. H.Arif də bunları diktə edirdi. Mən Aşıq Alının qəbrinin bərbad olduğunu ona söylədim və qəbrinin şəklini ona göstərdim. H.Arif başını buladı. Dedi ki, "ustad Aşıq Alının qəbri nə gündədir? Bir şey fikirləşərik". Aradan 5-6 ay keçmədi, o, məni aşıqlar birliyinə çağırdı. Mənə dedi ki, Göyçə mahalına gedirik. Bu, təxminən 1980-ci ilin may-iyun ayı olardı. Biz Göyçəyə ezamiyyət olunduq. Göyçənin Kərkibaş kəndinə

gəldik. El ağsaqqalları və atam Zeynalabdin müəllim H.Arifi qarşıladılar. H.Arifin ayağının altında quzu kəsdilər. H.Arif el ağsaqqalları ilə xeyli söhbət etdi. Ağsaqqallara dedi ki, Aşıq Alının qəbrinin başdaşını düzəltmək və ziyarət etmək üçün gəlmişəm.

Səhər tezdən H.Arif Zeynalabdin müəllim, atamın əmisi oğlu Mikayıl müəllim və mən Qızılvəngə yollandıq. Qəbri çox çətinliklə, Qızılvəngli 90 yaşlı Çoban Məmmədəli və atam harda olduğunu tapdı. Alının qəbri sanki ağlayırdı. Hər yerini mamır basmışdı. Sonra Hüseyn Arif atama dedi ki, burada igid cəngavər bir qadının, ermənilərə qan udduran Həcər xanımın da qəbri olmalıdır. Atam da uzun müddət burada müəllim işlədiyindən qəbirlərin çoxunun yerini bilirdi. Həm də ağsaqqallardan öyrənirdi. Atam Həcərin də qəbrini çox çətinliklə tapdı. Qəbrin üstünü mamır basmışdı. Üstü də çöl daşından idi. Biz Qızılvəng qəbiristanında çoxlu qəbiri ziyarət etdik, Aşıq Alını, Alının atası Mirzə, anası Fatma və Həcər xanımın qəbrini ziyarət etdik və dualar oxuduq.

Hüseyn Arif Şişqayaya – Mikayıl Bayramova qonaq getdi. Və onunla Aşıq Alının qəbrinin götürülməsi haqqında söhbət etdi. Səhəri gün Qızılvəngə yola düşdü. Aşıq Alının qəbrinin qırağına beton tökülməsində Mikayıl müəllimin, Zeynalabdin müəllimin və mənim də köməyim oldu. Qəbrin qırağının betonunu töküb qurtardıq. Mikayıl Bayramov öz vəsaiti hesabına Aşıq Alının qəbrinin üst və sinə daşlarını qranit daşdan hazırlanması üçün sifariş verdi. Bir həftədən sonra Aşıq Alının qəbrinin üst və sinə daşlarının qranitləri hazır oldu. Başdaşının üstünə Aşıq Alının şəkli, anadan olma və vəfat etmə tarixləri

yazıldı. Hamı yaylağa – dağa gedəndə gül-çiçək dəstələrini Aşıq Alının qəbri üstünə qoyar və dua edərdi. Mən isə öz xeyirxah arzuma çatdım.

Təəssüf ki, babalarımızın, ustad aşıqların – Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin qəbirləri yadelli işğalçıların təsiri altında qaldı. Gün o gün olacaq, o gün gələcək ki, yenə də Göyçə mahalına gedib, babalarımızın – ustad aşıqların qəbrini ziyarət edəcəyik.

***Qeyd:*** **Aşıq Alının sonuncu qiyabi şagirdi**

Kərkibaşlı [1] Qizbəst nənənin deməsinə görə, Kərkibaşla qonşu olan Qanlı kəndində bir Aşıq Mehdi olub. Onu atası Aşıq Alının yanına 1892-1893-cü illərdə şəyirdliyə aparıb. Alı onu imtahana çəkib, görüb ki, istedadlı şəyirddir. Atasına deyir ki, mənim 100-ə yaxın yaşım var. Qocalmışam. Gözlərim zəif görür. Daha aşıq şəyirdliyə götürmürəm. Lakin Aşıq Mehdi Alıyla bir neçə ay görüşüb, ondan dərs alır. Aşıqlığın sirlərini öyrənir. Necə deyərlər Alının qiyabi şəyirdi olub. Sonra Aşıq Mehdi məşhur aşıqlardan biri olur. Aşıq Mehdinin də bir neçə şəyirdi olur. Bu şəyirdlərdən biri də Pəmbəkli Aşıq İsmeyil (İsmayıl) olub. Aşıq Mehdi həm də el şairi olub, çoxlu şeirlər yazıb. 100 yaşdan çox ömür sürüb. Göyçədə vəfat edib.

**Qeyd:**

Göyçə mahalının kameral təsvirində yazılmışdır ki, Aşıq Alının atası Mirzə Ovçu oğlu 1801-ci ildə Göyçə mahalının Şişqaya kəndində anadan olmuşdur.

---

[1] *Qizbəst nənənin nəvəsi Mais qələmə almışdır.*

(H.Arifin deməsinə görə, Aşıq Alının ulu babası Qazaxdan Şişqayaya köçüb gəlmişdir).

Aşıq Alı 1801-ci ildə Göyçə mahalının Qızılvənk kəndində deyil, 1835-ci ildə həmin mahalın Şişqaya kəndində doğulmuşdur. Halbuki, indiyə qədər atası Mirzənin doğum tarixini Aşıq Alıya aid edirlər.

Qızılvəng kəndi sonralar – 1842-ci ildə yaradılıb. Bu ailə 1848-1850-ci illərdə həmin mahalın Qızılvəng kəndinə köçmüşdür. Onun Nəbi əmisinin 1850-ci ildə Qızılvəng kəndində doğulan oğlunun adını Qərib qoymuşdur. 1842-ci ilin kameral siyahısında Alının əsl adı Almədət olub.

**Atası Mirzə Ovçu oğlu (41 yaş)**
**Oğlu Almədət (7 yaş)**
Şişqaya kəndində siyahıya alınmışdır.
1831-ci il
**Şişqaya kəndi**
**Mirzə Ovçu oğlu (30 yaş)**
1842-ci il
Şişqaya kəndi
**Mirzə Ovçu oğlu (41 yaş);**
**Oğlu Almədət – Alı (7 yaş).**
**1873-cü il**
**Qızılvəng**
**Mirzə Ovçu oğlu (64 yaş);**
**Oğlanları:** Almədət – Alı (39 yaş); Abbas (29 yaş);
**Alının oğlanları:** Abdulla (13 yaş); Məhəmməd (6 yaş); Hüseyn (3 yaş)
Ailədə 6 kişi və 5 qadın

**Aşıq Alının kəndi:** Şişqaya, Qızılvəng (1842) – Çiçəkli, Makenis (1978)

Bu kameral təsvirdə yazılıb. Bu fikrin doğru və ya yalan olduğu haqqında biz heç nə deyə bilmərik. Bu, bizim fikrimiz deyil. Kameral təsvirin fikridir.

# AŞIQ ƏLƏSGƏR
*(1821-1926)*

**Dədə Ələsgərin şəyirdləri:**[1]
Göyçə mahalının kəndləri üzrə
1. Daşkəndli Nəcəf;
2. Qızılvəngli – Mustafa;
3. Qızılvəngli Yusif;
4. Çaxırlı Hüseynalı;
5. Zodlu Qasım;
6. Zodlu Ağayar;
7. Nərimanlı(Hüseynquluağalı) İsa;
8. Nərimanlı Mikayıl;
9. Kəsəmənli Nağı;
10. Böyük Qaraqoyunlu Əsəd;
11. Sarıyaqublu Məhəmmədəli;
12. Sarıyaqublu Paşa;
13. Böyük Məzrəli Qiyas;
14. Zərzibilli Nağı;
15. Zərzibilli Sayad;
16. Ağkilsəli Qurban;
17. Ağkilsəli İman;
18. Ağkilsəli Talıb;
19. Ağkilsəli Nəcəf.

Aşıq Ələsgər Azərbaycan şifahi xalq aşıq şeirinin görkəmli nümayəndələrindəndir. O, XVII-XVIII əsrlərdə

[1] *Aşıq Ələsgərin ən məşhur şagirdləri Daşkəndli Aşıq Nəcəf və Aşıq Əsəd olmuşdur.*

yaşayıb-yaradan Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq və başqa aşıq poeziyası klassiklərinin ənənələrini böyük bir ehtiras və ilhamla davam etdirmiş, özünün yeni aşıq şeiri növləri – dodaqdəyməz, dildönməz, dərin mənalı gəraylı, qoşma, təcnis və s. şeirləri ilə aşıq poeziyamızı daha da zənginləşdirmişdir.

XV-XVI əsrdə yaşayıb-yaradan, Göyçə aşıqlarının şahı Miskin Abdal olmuşdur. Aşıq Talıb xatırlayır ki, Aşıq Ələsgər tez-tez Sarıyaquba gedib Abdal ocağını ziyarət edər, orada ürəklə çalıb-çağırarmış. Aşıq Ələsgər də Miskin Abdal yaradıcılığından bəhrələnib ki, bu barədə irəlidə misal çəkmişik.

XIX əsr Azərbaycan şifahi aşıq şeirində onun müstəsna mövqeyi vardır. Böyük aşığın müasirlərindən Aşıq Hüseyn Bozalqanlı onu Xəstə Qasıma, Mirzə Bəyləri isə Yaxın Şərqin böyük klassiki Hafizə bərabər tutmuşdur. Onun qədər zəngin sənətkarlıqla yaradılmış bədii iz qoyub gedən ikinci bir xalq aşığına rast gəlmirik.

Aşıq Ələsgər kamil bir söz ustadı kimi nəinki təkcə Azərbaycanda, eləcə də Qafqazda və Şərqin bir çox ellərində məşhurdur.

Göyçə mahalı... Zirvəsindən əl uzatsan göylərə dəyən uca dağların üzük qaşıtək dövrəyə aldığı bərli-bəzəkli bir diyar, xilqətin əlilə çəkilmiş ecazkar bir lövhə! Dərələrə çökmüş ağ duman dənizdə quşqonmaz qayalar batmaqda olan adalar kimi gah büsbütün ləpələr altda qalxır, gah da dalğalar qoynundan silkinib qalxaraq ərşi-fələyə baş çəkir. Qartallar qıy vuraraq elədən-beləyə şığıyır, daşdan-daşa qonur, yenə qərar tutmayıb sıldırımlar üzərində dövr etməyə başlayır. Qorxuya düşmüş xınalı

kəkliklər döşdən-döşə, kahadan-kahaya səkərək qayaların qoltuğuna qısılır, yazıq-yazıq ətrafına boylanır, bir-birinə səs verib şirin-şirin qaqqıldaşırlar:

*Əzizinəm, yar qana,*
*Yar oxuya, yar qana.*
*Qartal qovmuş kəkliyəm,*
*Qısılmışam yarğana (yorğana).*

Burada hər şey uzun yollar boyunca dalğalanan gül-çiçək dəryası, yaşıl yurd yerlərindən nəhəng göbələk kimi görünən ağ çadırlardakı şənliklər, gah o taydan, gah bu taydan, gah yaxından, gah uzaqdan, pərdə-pərdə havalanan çoban tütəyinin həzin səsi ürəkləri yerindən oynadır, insanı vəcdə gətirir.

Göyçə gədiyinin aşırımına çıxan yerdə elə bil bütün dünya ayaqlarının altında qalır. Durduğun yerdən hər tərəfə sonsuz lentvari cığırlar uzanır. Bu cığırlardan hansını tutsan, səni tayı-bərabəri olmayan gözəl bir guşəyə aparıb çıxarır. Əl-ələ tutuşub, çiyin-çiyinə vermiş Zod dağları, Qızılqaya, Qazuçan, İnək dağı gəl-gəl deyib, səni öz qoynuna səsləyir. Lakin biz tamamilə başqa bir səmtə, ilk görüşdən xəyalımızı çəkib aparmış Çalmalı dağına doğru addımlayırıq. Göyçənin dağları nə qədər qəşəng olsa da, yenə də heç birinin görkəmi Çalmalının hüsnünə çatmaz. Çalmalı dağı elə qənirsiz gözəlliyə malikdir ki, bu yerin əvəzini versə-versə, yenə Çalmalının özü verə bilər.

Heyran-heyran dolanıb, nəhayət, Qumlu bulağın üstünə gəlirik. Tələsik işi olan yolçular belə "**Bəşir düşən yurd**"un sinəsindən çağlayıb çıxan bu şəfa qaynağının keybir suyundan içir, mamırlı qayalara söykənib saatlar-

la Çalmalının əfsanəvi tamaşasına baxmaqdan doymaq bilmirlər. Qarşımızda bərəkətli zəmiləri ilə gülümsəyən Göyçə düzənliyi, onun qurtaracağında isə Çalmalının camalına ayna tutmuş Göyçə gölü görünür.

Çalmalının Göyçə gölünə baxan tərəfindən ətəyinə baş qoyub söykəklənən 5-10 evlik bir şenlik var. Burada 200 il ömrü olan cırlaşmış armud ağaclarından başqa təbii şəraitin yetirməzliyi üzündən nə bağ-bağat, nə də Nuh əyyamından qalma sınıq-salxaq bir kilsədən özgə, sən deyən elə möhtəşəm bina gözünə dəyər. İlk baxışda sənə elə gəlir ki, bu kəndi, nəinki kənar yerlərdə, hətta Göyçənin özündə elə az adam taparsan ki, eşidib-bilmiş olsun. Lakin dahi bir sənətkarın adı bu kiçik məkana əbədi şöhrət gətirmiş, onu təkcə Azərbaycanda deyil, bütün Qafqazda və Şərqin bir çox ölkələrində məşhur etmişdir. Bura xalqımızın klassik aşığı, adı dillər əzbəri, sözü məclislər yaraşığı olan Aşıq Ələsgərin doğma yurdu Ağkilsə kəndidir.

Ələsgərin sözləri nə qədər qanadlı olsa, onun könlü yurduna möhkəm bağlıdır:

*Adım Ələsgərdi, əslim Göyçəli,*
*Ələs aləmində demişəm, bəli!*
*Həm aşığam, həm dərvişəm, həm dəli,*
*Canım gözəllərin yol qurbanıdır.*

*... Siyah zülfün dal gərdəndə hörəsən,*
*Əl uzadıb qönçə gülün dərəsən,*
*İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı mahalım mənim!*

- sözlərini boş yerə deməmişdir. Yazılı ədəbiyyatımız kimi aşıq şeirimiz də vətənimizin hüdudlarını keçərək geniş şöhrət qazanmışdır. Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım kimi görkəmli el sənətkarlarının əsərləri Azərbaycan dili anlaşılan bir çox ölkələrdə bu gün də sevilə-sevilə oxunmaqdadır. Göyçəli Aşıq Ələsgər də belə məşhur şair-aşıqlarımızdan biridir.

Məlumdur ki, Ələsgər dərin məlumatlı, bilikli, savadlı bir şəxs olmuşdur. Lakin o, məktəb təhsili görməyən, adını da yazmağı bacarmayan dahi el sənətkarı olmuşdur. Şəyirdlərinin söylədiyinə görə, İrəvan yaxınlığındakı Kankan kəndində keçirilən bir aşıq məclisində Xəstə Qasımdan söhbət düşür. Onun bağlamalarının hələ heç kəs tərəfindən açılmadığını söyləyirlər. Həmin kənddə yaşayan Abutalıb deyir ki, nə cür çətin bağlama olsa, Aşıq Ələsgər aça bilər. Mərc gəlirlər. Xəstə Qasımın "Bir çarşıda dörd dərvişə uğradım" misrası ilə başlanan müstəzad qıfılbəndini yazıb, bir üzünü Aşıq Ələsgərə, bir üzünü də Miskin Bürcüyə göndərirlər. Lakin Miskin Bürcü bu qıfılbəndi aça bilmir. Amma şeiri Xəstə Qasımın əsəri kimi yox, tanınmaz Xəstə Həsən adlı birinin yaradıcılığı kimi qeyd edirlər. Aşıq Ələsgər "Dörd kitab hər yana yol göstərir" müstəzad qoşması ilə həmin qıfılbəndi açır, həm də "Qasım", "Qaf"ınandı, Həsən "Hey"inəndi misrası ilə işarə edir ki, şeir Xəstə Qasımındır. Xəstə Qasımın qıfılbəndi belədir:

*Bir çarşıda dörd dərvişə uğradım,*
*Dördü bir-biriynən eylər ixtilat.*
*Dördünün də dili ayrı, dini bir,*
*İki də biz onlarınnan şəş cahat.*

*Əsli kainat.*
*(Əsl kainat)*
*Bir şəhərdə gördüm padişahını,*
*(Bir şəhərin gördüm padişahını),*
*Qulun, yasovulun hər dəzgahını,*
*Üç yüz altmış altı xoş süpahını,*
*Onlar bir kişidən istədi sürsat,*
*Xoş çəkər səffat.*

*Altı, səkkiz, doqquz idi binası,*
*Otuz cəlalı var, bəyaz sinəsi,*
*Altı min altı yüz məddü mənası,*
*Ərəb idi, əcəm idi, türkü, tat,*
*Bir ismə fəryad.*

*Altıdan qırxadək sərgərdan idi,*
*İki yüz otuzda özün tanıdı.*
*Altı min altı yüz pasiban idi,*
*Kimi yahu çəkir, kimi əssəlat (əssalat),*
*Kim istər nicat.*
*(Kim edər fəryad).*

*İki dərya xoş görünmür gözünə,*
*İki qırx dörd çıxmaz ərin dizinə,*
*(İki qırx, dörd gəlməz, ərin dizinə),*
*Bu Xəstə Qasımın şərən sözünə,*
*Qazı, molla, müctəhidlər qaldı mat,*
*Tapmadı kəlmat.*

**Aşıq Ələsgərin bu qıfılbəndə cavabı:**

*Dörd kitab hər yana yolu göstərir,*
*Nəfs ilə mərifət olur şeş cahad.*
*Belə əmr eyləyir qüdrəti-qadir,*
*Bu əmrə qol qoyan tez tapar nicat.*
*Eylə etiqad.*

*Şəhr ayıdı, bayram onun gülüdü,*
*İki ay bir-birinin müttəsilidi,*
*Üç yüz altmış altı gün – bir ilidi,*
*Səkkiz min yeddi yüz səksən dörd saat,*
*Gəl verim isnad.*

*Altıda qarışdı Nuhun tufanı,*
*Qırx ildə sərgərdan gəzdi hər yanı.*
*Altı min altı yüz insan, heyvanı,*
*Hərə öz diliynən eylədi fəryad,*
*İstədi imdad.*

*Neçə müddət qərq oldular tufana,*
*Əmr etdi, kəbutər gəzdi hər yana,*
*İki yüz otuzda tapdı bir dənə,*
*Nuh üçün fəmində gətirdi sovqat,*
*Qıldı ibadat (ibadət).*

*Altmış altı ayə niyə danmısan?*
*Belə məlum bizi avam sanmısan.*
*Dünya cifəsinə sən aldanmısan,*
*Unutma üqbanı, bu dünyanı at,*

*Afərin, ustad!*
*Qasım "qaf"ınandı, Həsən "hey"inən,*
*Xeyir çəkməz ustadınnan deyinən,*
*İşim yoxdu seyyidinən, bəyinnən,*
*İxtiyarımdadı qalan məxluqat,*
*Daimül-övqat.*

*Aşıq Ələsgərdi, soruşsan adım,*
*Huşum başdan gedib, yoxdu savadım.*
*Sözlə mətləb yazmaq deyil muradım,*
*Arifə eyhamla yazıram hürfat,*
*Sədrin olsun sat!*

Aşıq Ələsgər həm də mahir qıfılbənd ustası imiş, yaxşı qıfılbənd söyləyər, açmasını da deyərmiş. Hansı aşığın qıfılbəndi olur-olsun, onu Aşıq Ələsgər açarmış. Elə bir qıfılbənd olmayıb ki, Aşıq Ələsgər açmasını bilməsin. Həm də Aşıq Ələsgərin qıfılbəndlərini indiyə kimi elə aşıq tapılmayıb ki, açmasını açsın. Necə deyərlər, Aşıq Ələsgər qıfılbənd ustadlarının ustadı, şahı imiş.

Aşıq Ələsgərin ***"Yeddidi"*** qıfılbəndini o dövrdə açan olmayıb. Sonralar Nərimanlı Aşıq Bəhman açmışdır:

*Məğrurluq eyləyib, ustadam deyən,*
*O hansı ağacdı, tağı yeddidi?*
*O ağacda bir quş yuva salıbdı,*
*Çarpaz sinəsinin dağı yeddidi.*

*Bir hikmət görmüşəm xəyalım çaşıb,*
*Huşum başdan gedib, dilim dolaşıb,*
*Şahın qulluğunda bir qul əyləşib,*
*Bədən birdi, əl-ayağı yeddidi.*

*Bir ali məclisdə var yeddi sağı,*
*Dolanır, dövr edir, yox əl-ayağı,*
*Nə piltəsi vardı, nə də ki yağı,*
*Şölə çəkən şux çırağı yeddidi.*

*Onun gərdişində bir azca ləng var,*
*Aləmə əyandı, görünür aşkar,*
*Bir kasa içində on beş irəng var,*
*Qarası yeddidi, ağı yeddidi?*

*Ələsgər, sözlərin de, müttəsildi,*
*Nə oldu, dəhnədən suyu kəsildi?*
*İl uzunu ona bahar fəsildi,*
*O hansı bağbandı, bağı yeddidi?*

**Qıfılbəndin Aşıq Bəhman tərəfindən açması:**

*Ustadım, deyənlər məğrur olmasın,*
*Cəsəd damarının səri yeddidi.*
*Sinə yuvasında məskən salıbdı,*
*Ürək bir quş olsa, pəri yeddidi.*

*Xudam qəhr eyləsə, xəyalım çaşar,*
*Gəlməsə ol şəfi, dilim dolaşar,*
*Ruz-şəb içində mömin çalışar,*
*Səcdə əzasının yeri yeddidi.*

*Bir il də dolanır yeddi gün üstə,*
*Həftələr düzülür dalbadal dəstə,*
*Qüdrətdən xalq olub, odu növrəstə,*
*Şəmsi-ruzların şəri yeddidi.*

*Məclisdə var sözün isbatı, Bəhmən!*
*Əfsanə keçirdin həyatı, Bəhmən!*
*Dilində əzbər qıl ayatı, Bəhmən!*
*Müqəddəmat, sövm ləngər yeddidi,*

İndi isə Aşıq Ələsgərin qardaşıoğlu Növrəs[1] İmandan söhbət açaq. Aşıq Ələsgərdən sonra 2-ci qıfılbənd şairi Növrəs İman olub. Coşqun təbə malik olan aşıq imiş. O, haqq vergisi və qıfılbənd şairi olub. Bu vaxta kimi heç bir aşıq tərəfindən (Aşıq Ələsgərə aid deyil) açılmayan çox çətin qıfılbəndləri Növrəs İman açmışdır. İndi isə Növrəs İmanın **"On yeddi"** yazmış olduğu qıfılbəndi nəzərdən keçirək:

*Bir ağacda üç budaq var, beş gilə,*
*Cəm elədim oldu, tağı on yeddi.*
*On yeddi bəndi var, on yeddi camı.*
*Hərdəm nuş eyləyir, sağı on yeddi.*

*On yeddisi, elər qumru avazı.*
*On yeddisi əldə tutubdu sazı,*
*On yeddisi əlan naqş eylər yazı,*
*Yazanın işarəti, çağı on yeddi.*

*On yeddisi durub dəsbədəs bütün,*
*On yeddisin allam istəsən satın.*
*On yeddisi ləngər, otuz dörd sütun,*
*Otuz dörd sütunun tağı on yeddi.*

---

[1] *Növrəs İman 1903-cü ildə anadan olmuşdur. 1932-ci ildə itkin düşüb.*

*Növrəs İman, on yeddiyə qul olmuş,*
*On yeddisi mənlə dilbədil olmuş,*
*On yeddi dərvişə bir mənzil olmuş,*
*On yeddi şölə çırağı on yeddi.*

Aşıq Ələsgər klassik aşıq şeirimizi mükəmməl bilən, yazılı ədəbiyyatımıza yaxından bələd olan, aşıq şeirinin incəliklərini gözəl mənimsəmiş, dərin müşahidəli, xalq dilini bütün zənginliyi ilə əsərlərində məharətlə ifadə etməyi bacaran nadir bir istedad olmuşdur.

Aşığın şeirlərindən aydındır ki, Şərq şairlərini dərindən bilən sənətkar yeri gəldikcə onların yaradıcılığından da istifadə etmişdir. Məsələn, Ağ Aşıqda ***"A Yəməndədi"*** "Ayə məndədi" olduğu kimi, Ələsgərin də ***"A Yəməndədi"*** və ya ***"Ayə məndədi"*** təcnisini nəzərdən keçirək:

*Ahəngər deyiləm, naşı bəzirgan,*
*Gözüm dürdanədə, a Yəməndədi.*
*Sinəmdədi eşqin şirin çeşməsi,*
*Ləzzəti meylidi, ay əməndədi.*

*Bir sazım var yox pərdəsi, nə simi,*
*(Var sazımın nə pərdəsi, nə simi),*
*Onu çalıb kim tərpədər nə simi?*[1]
*Firdösi, Füzuli, Hafiz, Nəsimi –*
*Onlar da yazdığı ayə, məndədi.*

[1] Hansı simi

*Kişi gərək zəhmət çəksin dər salsın,*[1]
*Süfrə açsın, ad qazansın, dər*[2] *salsın.*
*Dərsi azlar Ələsgərdən dərs alsın,*
*Altı min altı yüz ayə məndədi.*

Türk aşıq şeiri mütəxəssislərindən Nijat Birdoğan görkəmli türk aşığı Şenliyə həsr etdiyi məqaləsində yazır: "Bugünkü Van, Qars və Ərzurum ətrafında hər saz çalan aşığın dilində üç keçmiş ad əzbərdir: Göyçəli Aşıq Ələsgər, Tikmədaşlı Aşıq Qasım və Çıldırlı Aşıq Şenlik. Bütün ruhu və ifadələri ilə xalqla bağlı olan bu üç aşıq bu gün də bu ətrafda yaşayanlara görə bütün keçmiş sənətkarlardan qabaqdadır.

Onları hətta Sümmani və Aşıq Abbasdan da üstün tuturlar. Zaman etibarilə bir-birilə yaxın olan bu üç sənətkar bir-birini tanımamışlar, əsərləri isə tamamilə Azərbaycan dilindədir. Buna baxmayaraq bu gün o yerlərdə gəzənlər, Müdami, Hicrani, İslam, Lütfi, Cövlani və Dəryami kimi sənətkarlarla danışanlar bu üç aşığın adı çəkiləndə onların sayğı-salamına durduqlarını aydın görərlər".[3]

Aşıq Ələsgər başqa aşıqlardan fərqli olaraq təcnis və qəzəldən istifadə etmişdir. Belə bir aşığa biz rast gəlməmişik. Aşıq Ələsgər təcnis şairi imiş.

[1] *Tər salsın, tər töksün*
[2] Qapı
[3] *"Türk folklor araşdırmaları". 1962, № 157.*

***Təcnisin növləri:***

1.cığalı;
2.dodaqdəyməz;
3.dodaqdəyməz-cığalı;
4.ayaqlı-müstəzad; ➡ TƏCNİS
5.diltərpənməz;
6.nəfəsçəkməz.
7.mülənmə-çoxdilli

Aşıq Ələsgər xalq istedadıdır. O, sadəcə aşıq deyildi, onda aşıqlıq, şairlik keyfiyyəti birləşmişdir. O, həqiqətən şair-aşıq idi.

Aşıq Ələsgəri başqa aşıqlardan fərqləndirən cəhət o idi ki, o, dini elmləri və Quranı mükəmməl bilirdi. Quranı Ələsgər kimi bilən ikinci bir haqq aşığına rast gəlmirik. O, **"Əlif-lam"** gəraylısında Allahı çox gözəl tərənnüm edir:

*İbtidakı "əlif" – Allah,*
*"Bey" – birliyə dəlalətdi.*
*"Tey" – təkdi, vahidi-yekta,*
*Arif bu elmə bələddi.*

*"Sey" – sabiqdi (sabitdi) doğru yola,*
*"Cim" – ucadı, bax cəlala,*
*"Hey" – mehribandı halala,*
*Münkir ondan xəcalətdi.*

*"Xey" – birdi xaliqi-əkbər,*
*"Dal" – doğru doqquz fələklər.*
*"Zal" – zikr eylə dildə əzbər,*
*"Rey" – rəsuli Əhməddi.*

*"Zey" – zəbanı aç xudaya,*
*"Sin" – salam et, getməz zaya,*
*"Şin" – şövq eylə o mövlaya,*
*Qeyri-söhbət məsiyyətdi.*

*"Sat" – səbri-Şahi-Heydərə,*
*"Zat" – zərbin vurdu Əntərə,*
*"Tey" – tərif çıxdı göylərə,*
*Ağam kani-şücaətdi.*

*"Zay" – zülm edəcək düşmənə,*
*"Ayın" – həyati çeşminə,*
*"Ğayın" – ğül-güli dövranə,*
*"Fey" – fəna, "qaf" – qiyamətdi.*

*"Kaf" – kon ilə tutub qərar,*
*"Lam" – lal, necə hesab verər?!*
*"Mim" – mömünə yol göstərər,*
*"İsmi" – paki Məhəmməddi.*

*"Nun" – nida eylər hər zaman,*
*"Vov" ("Vav") – vay deyər, yatma, oyan.*
*"Hey" – hamıya yetər fərman,*
*Sanma səhni-zərafətdi.*

*Yey – yekdi adil padişah,*
*"Lam-Əlif la" – birdi Allah.*
*Ələsgər, tutduğun günah*
*Bağışlansa, çox hörmətdi.*

İndi isə Aıq Ələsgərin ***"İbtida ustaddan dərsim*** **almışam"** şeirini nəzərdən keçirək:

*İbtida ustaddan dərs almışam,*
*Ələs aləmində demişəm "bəli".*
*Həqiqətdən iki gözəl sevmişəm.*
*Birisi Məhəmməd, birisi Əli.*

*Əlidən dərs aldım, eylədim əzbər,*
*Ərşin sütunudu, yerlərələngər.*
*Fatmeyi-zəhra, şəfeyi-məhşər.*
*Onu seçdim gözəllərin gözəli.*

*... Günahım dəryadı, özüm qanmışam,*
*Tutduğum işlərə çox utanmışam.*
*Püşt [1] pənahına daldalanmışam,*
*Adım Ələsgərdi, əslim Göyçəli..*

Aşıq Ələsgərin ***"Bizdən salam olsun arif olana"*** bağlamasında bunu çox gözəl tərənnüm edir:

*... Bu, təzə kəlamdı, olsun yəqini,*
*Kəbə – qiblə, dinim – Məhəmməd dini,*
*Atam Alməmməddi, Göyçə sakini,*
*Adım Ələsgərdi, yaxşı bil, tanı!*

[1] *arxa*

Xalqımızın dil və musiqi mədəniyyəti tarixində Aşıq Ələsgərin xidməti çoxcəhətli olmuşdur. O, həm bədii söz ustası – gözəl şair idi, həm də mahir müğənni, o həm həssas ifaçı idi, həm də müəyyən mənada bəstəkar. Azərbaycan xalq şeiri ilə xalq musiqisini birləşdirməkdə – xalqımızın bu ədəbi-bədii və mənəvi sərvətinin bir-birilə sıx əlaqədə inkişafı işində Ələsgər böyük əməli fəaliyyət göstərərək, aşıq sənətində əlçatmaz bir zirvəni fəth etmişdir.

Aşıq Ələsgərin oğlu 100 yaşlı Aşıq Talıbın 1978-ci ildə deməsinə görə, dədəmin savadı yox idisə, saz çalmağına söz ola bilməzdi. O ki qaldı şeir qoşmasına bu, əsl möcüzə idi.

Məktəb təhsili görməyən, adını da yazmağı bacarmayan dahi el sənətkarı özünün kəskin hafizəsi, qeyri-adi istedadı sayəsində xalq yaddaşında qorunan zəngin milli-mədəni irsə də dərindən yiyələnmişdir. O, həm də Şərq dünyası üçün səciyyəvi fəlsəfi-etik görüşlərə yaxından bələd olmuşdur. Aşığın qohumlarının, şəyirdlərinin məclislərində iştirak etmiş digər qocaların xatirələrinə görə, o, sözün yeri gələn kimi sazı sinəsinə basmış, bədahətən qoşma, təcnis, bayatı söyləmiş, musiqi təranələri altında qoşduğu şeirlərini uzun müddət yadından çıxarmamışdır. Yəqin belə fitri qabiliyyətinə görə də bir çox mütəxəssislər Aşıq Ələsgərin xüsusi təhsil görməməsinə inanmamış, bu məsələ ilə bağlı ciddi mübahisələr açmış:

*İsmin üç hərfdi, ay çeşmi-xumar,*
*Biri "mim"di, biri "nun"du, biri – "sin"*

*...Ələsgərin xəddi çıxdı çal indi,*
*"Hey"i, "yey"ə, "dal"ı "rey"ə çal indi...*

– kimi misralar, eləcə də ərəb əlifbasının üstündə qurulmuş "Əlif-lam" şeiri üzərində dayanaraq, el şairinin savadlı olduğunu sübuta yetirməyə çalışmışdır. Amma Aşığın oğlu Talıb, qızları Ağkilsə kəndinin digər yaşlı adamlarının xatirələrinə görə "böyük ustad, həqiqətən də, yazı-pozu bilməmişdir". Şeirlərində bunu belə tərənnüm etmişdir:

*Aşıq Ələsgərəm – soruşsan adım,*
*Huşum başdan gedib, yoxdu savadım.*

*... Yazıq Ələsgərəm azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım.*
*Dərs aldım, öyrəndim, oldu öz malım,*
*Bizdən də ustada bir "irəhmət"di.*

O dövrdə Göyçə mahalında göz və qulaq savadı əsas idi. O, əsl el sənətkarı kimi folklor ədəbiyyat ənənələri üzərində təlim-tərbiyə almış, müdrik xalq ağsaqqalı, ozan zirvəsinə ucalmışdır.

Hələ Ələsgərin sağlığında məqalə ilə "Dan ulduzu" (Tiflis) jurnalında çıxış edən Şəmsülcədid[1], az sonra isə H.Əlizadə onun yazı-pozu baxımından savadsızlığını göstərmiş, bədii irsinə yüksək qiymət vermişdir. Ümumiyyətlə, Ələsgərin əsl elm-bilik mənbəyi canlı Azərbaycan dili, xalq həyatı, məişəti olmuş, o, çox gəzmiş, çox görüb-götürmüşdür.

Aşıq Talıb nəql edirdi ki, 1908-ci ildə Göyçədə Dəli Alının bacısı oğlu Zeynalabdinin toyunda dədəm 15 gün çalıb-oxuyub, hər dəfə təzə sözlər söyləyib. Sonralar mən

[1] *"Dan ulduzu" jurnalı, 1926 №4, səh. 29*

özüm də bunun şahidi olmuşam. Hərdən oturardı ocağın qırağında, bir az çay içib, başlardı tərləməyə. Nə qədər saz çalmağa. Sonra da bədahətən şeirlər deyərdi.

Aşıq Ələsgərin həyatı haqqında ilk dəfə M.Şəmsülcədid, sonra da aşığın şeirlərini toplayıb çap edən H.Əlizadə[1] qısa məlumat vermişlər. M.Şəmsülcədid "Dan ulduzu" jurnalında Aşıq Ələsgərdən bəhs edərək yazırdı: "Xalq arasından çıxan şairlərimizin ustadı və mürşidi, qocaman Aşıq Ələsgərimizi də unutmamalıyıq. Aşıq Ələsgər bu dəmdə Ermənistanın Göyçə mahalında yaşayır. Onun şeirləri, şirin-şirin sözləri və qoşmaları bütün Ermənistan, Gürcüstan və Azərbaycan qəzalarında ... çox sürətlə yayılıb, xalq arasında böyük hörmət qazanmışdır".

Aşıq Ələsgər bədii sözün mahir ustasıdır. Onun adı haqlı olaraq Nəsimi, Füzuli, Vaqif kimi böyük söz ustalarımızla yanaşı çəkilir. Bu haqqı öz istedadı ilə, qüdrəti ilə, bədii sözü-söhbəti ilə qazanmışdır.

Aşıq Ələsgərin zəngin yaradıcılıq irsini böyük şair Vaqifin əsərləri ilə müqayisə edən tədqiqatçılara tamamilə haqq vermək lazımdır. Doğrudan da, "Vaqif" XVIII əsrdə klassik ədəbiyyatımızı xalqa yaxınlaşdırıb xalq dili normalarını və realizmi yaradıcılığın əsl qoynuna çevirdiyi kimi, Ələsgər də aşıq poeziyasının gözəl, mütərəqqi ənənələrini inkişaf etdirməklə bərabər, klassik ədəbiyyatın fikri dərinlik, tipikləşdirmə və bədii ümumiləşdirmə qanunlarını aşıq poeziyasının canına hopdurmuşdur.

***(Yazıçı Mirzə İbrahimov)***

[1] *"Azərbaycan aşıqları", Bakı, 1929, səh. 11-12*

Aşıq Ələsgər öz dövrünün bütün ustad aşıqlarının ağsaqqalı, müdrik müəllimi idi.

Aşıq Ələsgər xalq içərisində ən çox tanınan Azərbaycan sənətkarlarından biridir. Doğru deyirlər ki, "Qılıncların, nizələrin yaraladığı, lakin qapısını aça bilmədiyi ürəkləri böyük aşıq sazın-sözün... ecazkar qüdrəti ilə fəth etmişdir."

***(O.Sarıvəlli)***

Səməd Vurğun haqlı olaraq demişdir ki, biz Ələsgər şeirinə qayıtmadan onun sənətkarlığından öyrənməliyik.[1]

Şair Mirzə Bəylərin atası Kazım dövrünün savadlı, mədəniyyətpərvər adamlarından biri olmuş, oğlu Bəyləri də yaxşı savadlandırmışdır. Bəylər azərbaycan, ərəb, fars, rus, hətta fransız dillərində təhsil almışdır. Təhsildən qayıtdıqdan sonra İrəvan quberniyasının qəza dəftərxanalarında katib və tərcüməçi vəzifəsində çalışmışdır. Bunun üçün də ona Mirzə deyərlərmiş. Mirzə Bəylər maarifpərvər bir ziyalı imiş. Ağıllı məsləhətləri, insanpərvərliyi və qədirbilənliyi ilə xalq arasında şöhrət qazanmış Göyçə mahalının Zod kənd sakini Mirzə Bəylər dövrünün savadlı adamlarından idi.

Aşıq Ələsgər həmin dostunun təhsilini:

*Firəng, farsı, rusi, türkü, ərəbi –*
*Beş dili ilə var savadı Bəylərin!*

misraları ilə öyünürdü.

Zodlu Mirzə Bəylərin oğlu Mirzə Əlinin deməsinə görə, Ələsgər ***"Bəylərin"*** qoşmasını Mirzə Bəylərin evin-

[1] *S.Vurğun, Əsərləri, V cild, Bakı, 1972.*

də olan qonaqlıqdan qayıdandan sonra demişdir. Mirzə Bəylər də onun bu qoşmasına ***"Ələsgər"*** rədifli şeirlə cavab vermişdir. İndi isə bu qoşmaları nəzərdən keçirək. Aşıq Ələsgər dostu Mirzə Bəyləri "Bəylərin" rədifli qoşmasında belə tərənnüm etmişdir:

***Bəylərin***

*Arif məclisində vəsfin eylərəm,*
*Var yanımda amanatı Bəylərin.*
*Atadan, babadan çörək sahibi,*
*Mərdanadı əsli, zatı Bəylərin.*

*Elə ki, yetişdim mən otağına,*
*Elə sandım, düşdüm cənnət bağına;*
*Mişk, ənbər düzülüb hər bucağına,*
*İrəflərdə cavahratı Bəylərin.*

*Markiz, mavzer, süzən, aynalı, berdon...*
*Səhv düşdüm sayında, doqquzdu, ya on.*
*Meşoğunnan patron, qutuynan piston,*
*Yox kimsədən ehtiyatı Bəylərin.*

*Neçə padişahlar orda olub cəm,*
*İki dərviş yahu deyir dəmadəm.*
*Səddə İsgəndərdi, səxada Hatəm,*
*Var evində xan büsatı Bəylərin.*

*Canım qurban olsun belə bir dosta;*
*Mərtəbəsi hündür, nəfsi şikəstə.*
*Müşküldə qalanlar gəlirlər bəstə,*
*Qan bağlayır məslahatı Bəylərin.*

*İbrahimtək hörmət qoyur mehmana,*
*Heydər kimi nərə çəkir düşmana,*
*Qələm Zülfüqartək kəsir hər yana,*
*Evlər tikir "zarafatı" Bəylərin.*

*Coş edən dəryatək moc verir təbi,*
*Məddahi-mövladı(məvladı), budu səbəbi.*
*Firəng, rusi, farsi, türki, ərəbi –*
*Beş dilinnən var savadı Bəylərin.*

*Ələsgər ərz etsin, sən mətləbi qan,*
*Olmaz bu təmkində nə sultan, nə xan.*
*Fağra mərhəmətli (məhəbbətli), dosta mehriban,*
*Yaxşı keçər qiyamatı Bəylərin.*

Zodlu Mirzə Bəylər dostu Aşıq Ələsgəri ***"Ələsgər"*** qoşmasında belə tərənnüm etmişdir:

***Ələsgər***

*Guşeyi-səhrada, tənha nişində,*
*Sən ki yazdın bu ünvanı, Ələsgər!*
*Çillənin günündə, qış mövsümündə,*
*Bahar etdin zimistanı, Ələsgər!*

*Naməniz qəlbimi xeyli oyatdı,*
*Mətləbi mövzundu, xub kəlamatdı,*
*Yusifin köynəyi Yəquba çatdı,*
*Abad etdi bu Kənanı, Ələsgər!*

*Aşiqəm mən sənin ixtilatına,*
*Nəzminə, fərdinə(fərzinə), xoş əbyatına,*
*Afərin, afərin, əsli zatına,*
*Sən isən Hafizi-sani, Ələsgər!*

*Gərçi müləbbissən ev libasında,*
*Şahidəm, şaribsən haqqın tasında,*
*Bu Azərbaycanda, türk arasında,*
*Sənin kimi şair hanı, Ələsgər?!*

*Hazıram durmağa mən qulluğunda,*
*Gəzməmişəm namərd sağı-solunda,*
*İmtahandan çıxan dostun yolunda,*
*Əsirgəməm, billah canı, Ələsgər!*

*Bir az məhəbbətə sədaqətim var,*
*Şövqilə həvəsə iradətim var.*
*Sana bir xəlvətcə şikayətim var,*
*Yaxşı saxla o pünhanı, Ələsgər!*

*Nəsihət saxla sən, gəl, bu sözləri,*
*Hər bir ad tez olmaz əsl cövhəri,*
*Çox ucuz satırsan ləli, gövhəri,*
*Vəsf edirsən hər sözmanı, Ələsgər!*

*Yetənə rəfiqü yoldaş deyirsən,*
*Keçənə sirr verir, sirdaş deyirsən,*
*Üzünə gülənə qardaş deyirsən,*
*Yaxşını, yamanı tanı, Ələsgər!*

*Əcəb nəzm xoş ətrafdı yazıbsan,*
*Vəsfə layiq müəmmanı yazıbsan,*
*Ləqəbi buraxıb adı yazıbsan,*
*Unutmaram bu zəbanı, Ələsgər!*

*Səhv etdim, ləqəbim sətrə sığışmaz,*
*Ləfzi-səqil salar bəhrə sığışmaz,*
*İnşallah qəzəbə, qəhrə sığışmaz,*
*Əfv eylə sən bu nöqsanı, Ələsgər!*

*Təvəqqe edirəm salma qeylü-qal,*
*Bu gələn kəlmədən olma keçxəyal (kecxəyal),*
*Əgər oxumasan şüğlüzümmə qal,*
*Hər məclisdə bu dastanı, Ələsgər!*

*Oxusan kəlamı, barı əhsən de!*
*Əgər bəyənməsən, bir dəxi sən de!*
*Beş özündən desən, bir də məndən de!*
*Tək almayınan bu meydanı, Ələsgər!*

*Mən belə sənətdə mahir deyiləm,*
*Baxma, öz-özümə faxır deyiləm,*
*Hərçənd ki, yazıram, şair deyiləm,*
*Bağışlarsan bu Mirzanı, Ələsgər!*

Aşıq Ələsgər özü də 20-ci əsrin əvvəllərində dediyi bir şeirində:

*Adım Ələsgərdi, mərdi-mərdana,*
*On iki şəyirdim işlər hər yana, -*

deyə çoxlu aşıq yetişdirdiyini iftixar hissi ilə qeyd etmiş, 12 şagirdinin hər tərəfdə tanındığını söyləmişdir.

Lakin belə bir fikrin tərəfdarları daha çox haqlıdırlar ki, Ələsgərin şagirdləri yalnız bilavasitə onun yanında dərs alanlar deyil, bir də aşığın irsi əsasında tərbiyə tapıb yetişən, o ustadın yaratdığı ədəbi məktəbi, indiki istilahla desək, qiyabi sürətdə bitirən el aşıqlarıdır ki, Aşıq Musa, şair Vəli, Molla Cümə, Aşıq Şəmşir, Aşıq Abdulla, Aşıq Mirzə, Aşıq Hüseyn Cavan bunların görkəmliləri kimi məşhurdurlar. Aşıq Ələsgərin yaxın qonşusu və istəkli dostlarından biri də məşhur ***"Nə günahı telli sazın"*** misrası ilə bitirən gəraylının müəllifi, Aşıq Alının şəyirdi Aşıq Musa imiş. Aşıq Musanın atası Səfər Qazax qəzasının Tatlı kəndindən əvvəl Qaraqoyunluya köçüb yaşayır, ordan isə birdəfəlik Ağkilsəyə köçüb ömürlük yaşayır. Ona görə də Alının şəyirdi Aşıq Musa gah Qaraqoyunlu, gah da Ağkilsəli kimi təqdim edilir. Həm də Dədə Ələsgərlə Aşıq Musanın divani-qıfılbənd deyişməsi var. İndi isə bu deyişmənin bir bəndini nəzərdən keçirək:

**Aşıq Ələsgər:**
Ələsdüdən bəli dedim, əcəb xoş haldı yüküm;
Beş gözəlin aşiqiyəm, vəsfi camaldı yüküm;
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Zəhmətdə zəhri-həlahil[1], ləzzətdə baldı yüküm.

**Aşıq Musa:**
Ustadımdan dərs almışam,"mim","əlif","dal"dı yüküm;
Dürrü qumaş cəm etmişəm, yaşıldı, aldı yüküm;
Mətahım yey mətahdı, neylim yoxdu bazarı;
Əgər söz isbata keçsə, yeyin iqbaldı yüküm.

[1] *Ən təsirli zəhər.*

Kəlbəcərin Ağdaban kəndindən şair Qurban (Aşıq Şəmşirin atası), Göyçə mahalının Çaxırlı kəndindən Dəli Şirin, Kərkibaşdan Hacı Həsən (ulu babamız), Kərəm baba, Məşhədi Safo, Çamırlıdan Mustafa, Qanlıdan Hacı Nağı (Həmidin babası), Qaraimandan Kalvayı Sadıq, Şişqayadan Kalvayı Bayram, Daşkənddən Axund Şəfi (Hacı Rəhimin atası) və başqaları Dədə Ələsgərin sədaqətli dostlarından olmuşlar.

Göyçə mahalının Basarkeçər kəndindən Səfər oğlu Hovannes, Ağabəy, Yanıq Tatos, Aspadur, Ohancan (akademik viktor Hambartumyanın babası), Qara Tatos, Nalbənd Xaçoy və başqaları Aşıq Ələsgərin erməni dostları idilər.

Basarkeçərdə ermənilər içərisində Səfəroğlu Ovannes (Hovannes) ən hörmətli insanlardan biri sayılırdı. Azərbaycanlılarla dostluq edirdi. Hətta Nikolay hökuməti və Daşnaqsütun partiyasının rəhbəri Sulikov (Selikov) və onun sağ əli Andranik Səfəroğlu Hovannes ilə hesablaşırdılar. Səfəroğlu bir dəfə Daşkəndli Hacı Rəhimi Nikolay hökumətinə və Andranikə müraciət etməklə bir bəladan qurtarıb. Hacı Rəhim öz vətəni – Daşkəndə qayıdıb. Bu haqda sonra məlumat verəcəyik.

Böyük şeir-sənət ocağının güclü, qüdrətli aşıq məktəbinin ustadı, ağsaqqalı Aşıq Ələsgərin 105 yaşında ölümü hamını, xüsusən şeir-sənət adamlarını, saz-söz əhlini olduqca kədərləndirmişdir. Zodlu təcnis şairi Usta Abdulla böyük müəlliminin bu yaşında da vaxtsız vəfat etməsini Göyçə aşıq akademiyası və Azərbaycan xalq şeiri üçün əvəzolunmaz dərəcədə ağır itki hesab edərək, yanıb-yaxılmışdır:

*Dağlar qan ağlayır düşüb borana,*
*Göyçə qana batsın, qaldı virana,*
*Daha bundan sonra çətin yarana,*
*Bir də Ələsgərtək ad olan varmı?!*

Aşıq Alının şəyirdi Aşıq Məhərrəm də XX əsrin lap əvvəllərində dediyi bir divanisində Ələsgər sənətini yüksək qiymətləndirmişdir:

*Düşdü eşqin atəşinə,*
*Yandı səməndər kimi...*
*...Söz sinədə cuşa gəldi,*
*Cəm oldu dəftər kimi;*
*Heç mahalda ustad yoxdu*
*Aşıq Ələsgər kimi...*
*Yüz yerdən qətrə oyandı,*
*Belə ümman gəlmədi...*

Aşıq Hüseyn Cavan özünün yazmış olduğu **"Aşıqların atasıdır Ələsgər"** qoşmasında Ələsgəri belə qiymətləndirmişdir:

*Nə qədər dünya var, bəşəriyyət var,*
*Günəş kimi qalasıdır Ələsgər!*
*Aşıq var, sevgi var, saf məhəbbət var,*
*Məhəbbətin badəsidir Ələsgər.*

Doğurdan da, Göyçə şairlər yurdu, aşıqlar diyarıdır. Alməmməd ocağı isə bu diyarın döyünən ürəyi, düşünən beyni, çırpınan qəlbidir. Bu ocağı yerin köksündən daşıb gələn qaynar çeşməyə bənzətmək olar. Çünki onların hər ikisi coşub-daşıb daima çağlayır; hər ikisi insan qəlbinə sərinlik gətirir; ona lazımdır, onsuz insan həyatı mənasız olardı. Hər ikisi əbədi, ölməz bir həyat gücünə malikdir.

Göyçədə bir göz var, gömgöy. Elə təmizdir, elə şəffafdır ki... Elə böyükdür ki, bütün gözlərin şahıdır. Göyçə gölü.

Göyçə gölünün sahilində bir ocaq var. Yandıqca alovu sönməyən, hərarəti azalmayan bir ocaq: Ələsgər ocağı. Ələsgər ocağının ən böyük gözü elə Ulu Ələsgərin özüdür. Aşıq Ələsgər heç vaxt özünü öyməyən, əsərini, xidmətlərini şişirtməyən sadə və təvazökar bir insan olmuşdur. **"Dünyada"** rədifli qoşmasının son bəndində:

*Onda vay halına, yazıq Ələsgər,*
*Özün getdin, sözün qaldı dünyada.*

Bu ocağın qoynunda Ələsgərdən başqa, şair Məhəmməd (Ələsgərin qardaşı), oğlanları – Əbdüləzim, Bəşir, Talıb, qardaşı oğlu Növrəs İman, Ələsgərin nəvəsi şair İsmixan kimi istedadlar yetişmiş, Alməmməd ocağının müqəddəs ənənəsini şərəflə davam etdirmişlər. Ələsgərin atası Alməmmədin nəsli haqqında məlumat verək. Alməmmədin 4 oğlu və 2 qızı olub.

**Oğlanları:**
1.Ələsgər, 2.Saleh, 3.Xəlil, 4.Məhəmməd
**Qızları:** 1.Fatma, 2.Qızxanım
Ələsgərin ***11 övladı*** – 5-i oğlan, 6-sı qız olub.
**Oğlanları:** 1.Həsən, 2.Bəşir, 3.Həşim, 4.Əbdüləzim, 5.Talıb
**Qızları:** 1.Nigar, 2.Xeyrənsə, 3.Gülnisə, 4.Bəsti, 5.Əsli, 6.Zümrüd
**Qeyd:** Həsən və Həşim uşaq ikən vəfat etmişlər.
Aşıq Ələsgərin oğlu Talıb, Talıbın oğlu İslam
Talıb Tale Ələsgər oğlu – İslamın nəvəsi,
Aşıq Talıbın nəticəsi, Aşıq Ələsgərin kötücəsi.

Atalar demişdir: “Ot kökü üstə bitər”. Torpağı şeiriyyətdən, sazdan, sözdən yoğurulmuş Göyçə mahalı öz aşıqları ilə, el sənətkarları ilə fəxr etməyə necə də haqlıdır. Bu gün aşıq poeziyasının, el sənətimizin zirvəsində əzəmətlə dayanan Ələsgərin nəvə-nəticə və kötücələri onun ədəbi məktəbini özünəməxsus ustalıqla davam etdirirlər. Bu gün arxasını dağlara söykəyən, sahilini ləpələr yalayan Göyçə mahalından çıxan aşıqlar öz babaları Ələsgərin irsini el arasında müvəffəqiyyətlə yayırlar. Onların bəziləri saz və söz yaradıcılığı ilə aşıq poeziyamızda xüsusi cığır açmışdır.

Göyçədə Ələsgər ənənəsini onun nəsli, şəyirdləri davam etdirdiyi kimi, bu gün də Ələsgərin nəvə-nəticə, kötücələri, şəyirdlərinin şəyirdləri həm keçmiş irsi qoruyub yaşadır, həm də onu yeni yaradıcılıqla inkişaf etdirirlər. Bu məktəbdə İsmixan (Ələsgərin nəvəsi) kimi el şairi, Alqayıt kimi istedadlı saz ustaları aşıq şeirinin bütün şəkil və növlərində müasir ruhlu, incə mətləb ifadə edən əsərlər yazırlar. Aşıq Hacı (Nərimanlı) isə klassik aşıq yaradıcılığının nadir nümunələrini məharətlə ifadə edir və şəyirdlərinə öyrədir. Aşıq Ələsgərin kötücəsi, Talıbın nəticəsi Talıb Tale.

Talıb Tale – ifaçı, söz yazarı, bəstəkar, rejissor, estrada müğənnisidir hal-hazırda.

Özünəməxsus təbii gözəlliklərə malik olan Göyçə əsrlərdən bəri sazın və onun köməyi ilə yaradılan, müşayiəti ilə ifa edilib yaşadılan sözün ən isti, ən mehriban ana qucaqlarından biri olmuş, indi də belədir, şübhəsiz ki, gələcəkdə də uzun müddət belə olacaqdır. Mübaliğəsiz demək olar ki, bu mahalda saz çalmağı, söz deməyi

bacarmayan adama ancaq nadir hallarda təsadüf olunur. Osman Sarıvəlli demişkən, Göyçəli olub saz çalmamaq günahdır.

Bir sözlə, Göyçə çox qədim zamanlardan aşıq sənətinin beşiyi olmuş, bu sənətin inkişafında çox böyük rol oynamış, bir sıra görkəmli ustadlar yetirmiş, XIX-XX əsrlərdə isə öz Aşıq Ələsgəri, onun ustadı, ustadının ustadları, eləcə də şəcərəsi, nəsli və şagirdləri ilə aşıqlıq sənətinin ən yüksək zirvələrinə qalxmışdır.

Həyatda elə oğullar olmuş ki, ataları ilə tanınmışlar, elə atalar da olmuş ki, oğulları ilə məşhurlaşmışlar. Ələsgər elə bir şəxsiyyətdir ki, onun babası, atası, qardaşları, bacıları da, oğulları, qızları, nəvələri, nəticələri də, ustadları, şagirdləri də onun adı ilə fəxr etmiş, hətta ancaq bu ada görə tanınanlar, şöhrətlənənlər də olmuş, indi də vardır.

Aşıq Ələsgərin anadan olmasının 150 illiyi ilə əlaqədar 1971-ci ildə onun qəbri üzərində daş büstü qoyulmuşdur. Aşıq Ələsgərin irsinin toplanıb nəşr edilməsində oğlu Talıbın və nəvəsi İslam Ələsgərovun böyük xidməti olmuşdur. İslam Ələsgərov babası Aşıq Ələsgərdən dissertasiya yazıb, müdafiə edib, filologiya elmlər namizədi dərəcəsi almışdır. O dövrdə uzun müddət Basarkeçərin Ağkilsə kənd orta məktəbində direktor işləmişdir.

## Aşıq Ələsgərin 150 illik yubileyi haqqında xatirələrim

1972-ci ilin may ayında Azərbaycan Kommunist Partiyası MK-nın I katibi – Ulu öndərimiz Heydər Əliyevin göstərişi əsasında Aşıq Ələsgərin 150 illik yubileyinin

keçirilməsinə start verilmişdir. Yubiley komissiyasının sədri Xalq şairi Süleyman Rüstəm olmuşdur.

Göyçə mahalının Basarkeçər rayonunda bu yubileyin fəal iştirakçısı, rayonun maarif şöbəsinin müdiri Tapdıq Əmiraslanov idi. O, savadlı və dünyagörüşlü bir insan idi, bütün elmləri bilirdi. Erməni dilini də Azərbaycan dili kimi bilirdi. Erməni dilində məruzə edəndə bilinmirdi ki, bu azərbaycanlıdı və yaxud ermənidir. Həm də təsifkeş bir insan idi. T.Əmiraslanov bütün məktəblərə göstəriş verdi ki, hər məktəbdən (Azərbaycan və erməni məktəblərindən) 5 müəllim və 12 şagird bu yubileylərdə iştirak edəcək.

Biz Kərkibaş kənd 8 illik məktəbinin şagirdləri də bu yubileyə hazırlaşdıq. Məktəbdə yubileyin təşkilatçısı dil-ədəbiyyat müəllimi Zeynalabdin müəllim idi. Zeynalabdin müəllim həm də Aşıq Ələsgərin 150 illik yubileyinə də dəvət olunmuşdu. Onu olduğu kimi yazırıq:

*"Hörmətli yoldaş Z.Cəfərov*

Siz böyük Azərbaycan şairi Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi təntənəsinə dəvət olunursunuz. Yubiley təntənəsi 1972-ci il iyun ayının 20-sində gündüz saat 12-də Ermənistan SSR Vardenis rayonu Azad (Ağkilsə) kəndində keçiriləcəkdir.

Ermənistan KP Vardenis Rayon Komitəsi,
Vardenis Rayon Zəhmətkeş Deputatları
Sovetinin İcraiyyə Komitəsi".

Zeynalabdin müəllim bizə Aşıq Ələsgərin "Yaylaq", "Gülxanım", "Əlif-lam" gəraylısını, "Dağlar" (2), "Yaxşı

hörmətinnən, təmiz adınnan", "Yetmədi, kəsildi", "Görmədim", "Güləndam", "Müşkünaz", "Güllü", "Sarıköynək" qoşmaları, "Çıxıbdı", "Danışma" hərbə-zorbaları, "Ay nədən oldu", "Olur" bağlamaları, "A yəməndədi", "Narın üz" təcnisləri və s. əzbərlədib öyrətdi. Yubileyə gedənlər, məktəbin direktoru Bəhlul müəllim və müəllimlər – Zeynalabdin, Səfər, Əsgər, Həmid, Məhəmmədəli.

Yubileyə gedən şagirdlərdən: 5-ci sinif: Qeyrət, Ağasəf, Yaşar, İlham, Mahir; 6-cı sinif: Əmiraslan, Elxan, Balabəy, Nazim, Maksim, Qətibə, Rövşən, Şərif.

Gün o gün oldu, o gün gəldi ki, yubileyə gedəsi olduq. Bu, 20 iyun 1972-ci il idi. Kərkibaş kəndində Albabanın maşınına Ələsgərin portretini maşının qabaq hissəsinə vurduq. (Daşkəndli rus dili müəllimi İbrahim Bayramov və Kəsəmənli riyaziyyat müəllimi Murğuz Novruzov Aşıq Ələsgərin şəkillərini çəkmişlər. Bu şəkillər Aşıq Ələsgərə daha çox oxşayırdı.) Müəllim və şagirdlər isə maşının üstünə mindi. Ələsgərin vətəni Ağkilsəyə getdik. Ağkilsəyə çatdıq. Ələsgərin büstü ucaldılmışdı. Onun qəbrini ziyarət etdik. Gül-çiçək dəstələri qoyduq. Zeynalabdin müəllim isə dualar oxudu. Sonra isə yubiley başladı. Yubileyin yeri Ağkilsədən bəri dağın ətəyində mənzərəli bir yerdə təşkil olunmuşdu. Yubileyə Ermənistandan, Ermənistan KP MK-dan, Göyçə mahalından, Basarkeçər Rayon Partiya Komitəsindən və Azərbaycandan xeyli ziyalı qonaq və nümayəndə gəlmişdi. Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Nəriman Həsənzadə, Hüseyn Arif fəxri qonaqlar başında idi. Ümumiyyətlə, yubileydə on mindən çox insan iştirak edirdi.

Yubileyi Basarkeçər Rayon İcraiyyə Komitəsinin sədri Zərbalı Qurbanov açdı. Sonra giriş sözü ilə Aşıq Ələsgərin oğlu Aşıq Talıb çıxış etdi. Mirzə İbrahimov, İsmayıl Şıxlı, Nəriman Həsənzadə, Hüseyn Arif aşıqların sərkərdəsi, Azərbaycan şairi Aşıq Ələsgər haqqında nitq və şeirlər söylədilər. Tapdıq Əmiraslanov ölməz sənətkar haqqında erməni və Azərbaycan dillərində çıxış etdi. Sonra isə Zeynalabdin müəllim çıxış etdi. Biz də şeirlər dedik və sevindik. Göyçə və Azərbaycan aşıqları meydanda cövlan edirdilər. Yubiley əsl bayrama çevrilmişdi. İslam Ələsgərov babasının keşməkeşli fəaliyyəti haqqında danışdı. Axırda A.Ələsgərin oğlu Talıb qonaqlara minnətdarlıq bildirdi.

Yubileydən xoş təəssüratla ayrıldıq. İndi isə yubileydən təxminən 50 il keçsə də, ölməz sənətkar Dədə Ələsgərin 150 illik yubileyi bizim yaddaşımızdan çıxmayacaq.

Prezidentimiz İlham Əliyev 2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, söz ustadı-şairi Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Bu sərəncamda Aşıq Ələsgərin 200 illiyinin Azərbaycanda və bütün rayonlarda təmtəraqla keçirilməsi nəzərdə tutulur. Bütün yerlərdə Aşıq Ələsgərin yubileyi keçirilir. Aşıq Ələsgərin 200 illiyi ilə əlaqədar olaraq 2022-ci ildə böyük həcmdə "Lirika" kitabı çap edilmişdir.

**Qeyd: Göyçə mahalının kameral təsviri, 1831**

*Aşıq Ələsgər*

Aşıq Ələsgərin adı bu kitaba daxil edilən kameral siyahılarda yoxdur. Birincisi, 1831-ci ildə Ağkilsə kəndi hələ

boş idi və orada heç kim yaşamırdı. İkincisi isə onlar indiyə qədər yazıldığı tarixdən xeyli sonra dünyaya gəlib.

***Ağkilsə kəndi, 1873***

1.Alməmməd Haqverdi oğlu (49 yaş) – Atası 1824-cü ildə anadan olub

4 oğlu var: Ələsgər (21 yaş); Salah (Saleh) (18 yaş); Xəlil (6 yaş); Məhəmməd (2 yaş).

21 yaşlı Ələsgər Aşıq Ələsgərdir. O, 1821-ci ildə deyil, 1852-ci ildə doğulub. Aşıq Ələsgərin vətəni: Ağkilsə – Azad (1935).

Bu fikirlər Göyçə mahalının kameral təsvirində yazılmışdır. Bu fikrin həqiqi və ya doğru olmaması üçün biz cavabdeh deyilik. Sadəcə olaraq bu kitabın fikrini xalqa çatdırırıq.

## AŞIQ MUSA
***(1830-1912)***
***Aşıq Alının şəyirdi***

Göyçədə iki Aşıq Musa olub. Biri Aşıq Alının məşhur şəyirdi, "Nə günahı telli sazın" gəraylısının müəllifi Qaraqoyunlu-Ağkilsəli Aşıq Musa (1830-1912), o biri Aşıq Musa (1909-1948) – Ağkilsəli Növrəs İmanın qardaşı və Aşıq Ələsgərin qardaşı oğludur.

Aşıq Musanın atası Səfər Qazax qəzasının Tatlı kəndindən əvvəl Qaraqoyunluya köçüb. Ordan isə birdəfəlik Ağkilsə kəndinə köçüb yaşayır. Ona görə də Aşıq Alının şəyirdi Aşıq Musa gah Qaraqoyunlu, gah da Ağkilsəli kimi təqdim edilir.

Miskin Abdalın ocağından sonralar tanınmış el sənətkarları yetişmişdir: Aşıq Qurban Ağdabanlı və onun oğlu Aşıq Şəmşir, nəhayət, Aşıq Musa (Aşıq Alının şəyirdi və s.).

Ələsgərin şagirdləri yalnız bilavasitə onun yanında dərs alanlar deyil, bir də aşığın irsi əsasında tərbiyə tapıb yetişən, o ustadın yaratdığı ədəbi məktəbi, indiki izahatla desək, qiyabi surətdə bitirən el aşıqlarıdır ki, Aşıq Musa, şair Vəli, Aşıq Şəmşir bunların ən görkəmliləri kimi məşhurdurlar.

Aşıq Ələsgərin yaxın qonşusu və istəkli dostlarından biri də məşhur "Nə günahı telli sazın" gəraylısının müəllifi Aşıq Musa imiş. Aşıq Musa qoşma, gəraylı, müxəmməs, divani, qıfılbənd, divani, təcnis, dodaqdəyməz, cığalı təcnis və s. formalarda şeirlər yaratmışdır. Aşıq

Musanın irsi də vaxtında toplanmadığı üçün itib-batmışdır. Aşıq Musanın məlum olan tam yaradıcılığı Hüseyn İsmayılovun kitabında[1] çap olunub.

Aşıq Musanın 2013-cü ildə ayrıca olaraq "Elm və təhsil" nəşriyyatında Folklor İnstitutu tərəfindən 148 səhifədən ibarət "Əsərləri" adlı kitabı (tərtib edəni İslam Ələsgərov) çap olunmuş, yaradıcılığı haqqında geniş məlumat verilmişdir.

Aşıq yaradıcılığının dərin bilicisi, Göyçə mahalının Kəsəmən kənd sakini Sona nənə idi. Mən 1986-1987-ci illərdə Göyçə mahalının Dərəkənd 8 illik məktəbində müəllim işləyirdim. 4 gün orda qalırdım və 5-ci gün evə – Kərkibaş kəndinə gələndə Kəsəmənə – Sona nənəgilə gedərdim. O, aşıq yaradıcılığını sinədəftər deyərdi. Qulaq asıb, mürgüləyərdik.

Günlərin bir günü Qaraqoyunlu Aşıq Musa haqqında söhbət düşdü. Sona nənə Aşıq Musanın yaradıcılığını və şeirlərini dərin bilirdi. Bu şeirlərdən **"Nə günahı telli sazın"**, **"A kəklik" gəraylısını, "Gülə-gülə"**, **"Dilim"** və s. qoşmalarını sinədəftər dedi. "Gülə-gülə" qoşmasının bir bəndini Sona nənə, bir bəndini mən dedim. Şeir yarışması keçirtdik. Sona xala qalib oldu. Dedi ki, "ay bala, gün o gün olsun, o gün gəlsin ki, nişanlın sənə çay gətirəndə sən də ***"Gülə-gülə"*** qoşmasını deyəsən.

Sona nənə onu da əlavə edib dedi ki, ***"Gülə-gülə"*** qoşması bir başqası da var. Bu "Gülə-gülə" qoşmasının müəllifi təcnis şairi Zodlu Usta Abdulladır. Həm də "Gülə-gülə" gəraylısını xalq şairi Səməd Vurğun yazmışdır.

[1] "Göyçə aşıqları və el şairləri", I cild, Səda-2006

Sonra övladları – Kəmalə, Əli və mən gülüşdük. Mən Sona nənəyə mat-məəttəl qaldım. Qürur duydum. İndi Sona nənə aramızda yoxdur. Allah rəhmət eləsin. Bu şeirləri mən elə o dövrdə Sona nənədən qələmə almışam. Mətbuatda da nəşr olunub. İndi isə bu şeirləri verməyi məqsədəuyğun bildik.

Aşıq Musa aşıq sənətinə xor baxanları ***"Nə günahı telli sazın"*** rədifli gəraylısı ilə tənqid etmişdir. Şeirlərindən aydın olur ki, həmişə təqib olunmuşdur. İndi isə Aşıq Musanın bir neçə şeirini və qıfılbənd divani deyişməsini nəzərdən keçirək:

## NƏ GÜNAHI TELLİ SAZIN
***(gəraylı)***

*Məclisləri abad eylər,*
*Nə günahı telli sazın?*
*Məlul könüllər şad eylər,*
*Nə günahı telli sazın?*

*Yeki şəcər, yeki dəmir,*
*Ara vurmur, yalan demir,*
*And içməyir, rüşvət yemir,*
*Nə günahı telli sazın?*

*Fikrini vermir qələmə,*
*Zülm eləmir aləmə,*
*Pulunu vermir sələmə,*
*Nə günahı telli sazın?*

*Yoldan çıxıb, yolun azmır,*
*İblis kimi ara pozmur,*
*Molla kimi cadu yazmır,*
*Nə günahı telli sazın?*

*Musa vəsfin söylər saza,*
*Ruh verir gəlinə, qıza,*
*Oxşamayır mollabaza,*
*Nə günahı telli sazın?*

## A KƏKLİK
**(gəraylı)**

*Baharın gülşən çağında*
*Nə oxursan, sən a kəklik?!*
*Oxudun, gəldin xoşuma,*
*Yaşayasan min, a kəklik?*

*Kəklik məskən salıb daşa,*
*Sürmə çəkib gözə, qaşa.*
*Bu dövranın getməz başa,*
*Ovçu gəldi, sin, a kəklik!*

*Musa söz deyər bəsinən,*
*Kəklik oxuyur həvəsnən,*
*Elə oxudun səsinən,*
*Cuşa gəldi sinə, kəklik!*

## DİLİM
## (*qoşma*)

*Dilim, bu öyüdü sənə deyirəm,*
*Çox dünya malına sarışma, dilim!*
*Çalış, sən həmişə öz əməyin ye,*
*Haram mal yeməyə alışma, dilim!*

*Bir məclisə vardın, nitqin olsun lal,*
*Əyləşənlər səndən dərk etsin kamal,*
*Dindirsələr dillən, dinməsən, lal qal,*
*Hərcayı danışıb, gülüşmə, dilim!*

*Mənim sözlərimi saxla amanat,*
*Sidqinən dost olan tez tapar murad.*
*İstəsən ki, başın ola salamat,*
*Ağzına gələni danışma, dilim!*

*Musa oda alışmayıb, nə lazım?*
*Beyvəfaynan[1] barışmayıb, nə lazım?*
*Haqqın özü sirr açmayıb, nə lazım?*
*Sən gördüyün sirri, gəl açma, dilim!*

[1] *Bivəfa*

## GÜLƏ-GÜLƏ
**(*qoşma*)**

*Xudam səni nə xoş gündə yaradıb,*
*Salıbdı cahana, ay gülə-gülə.*
*Gözəllikdə Yusif sənə tay olmaz,*
*Alıbsan qüdrətdən pay, gülə-gülə.*

*İnanmıram müşkül işlər düzələ,*
*Təbib sənsən, gəl yaramı təzələ.*
*Mən nə deyim sənin kimi gözələ,*
*Elədin ömrümü zay, gülə-gülə.*

*Uca boylu, tuti (tutu) dilli baxtavar,*
*Sənə qurban evim, malım, hər nə var?*
*Aşıq Musa deyər: - gül yanaqlı yar,*
*Sən gətir, mən içim çay, gülə-gülə.*

## *Zodlu Usta Abdulla (1865-1943)*
## *"GÜLƏ-GÜLƏ" (qoşma)*

*Uca boylu, şirin dilli bəxtəvər,*
*Qalırsan qaydıma qal, gülə-gülə.*
*Gecə-gündüz mən çəkirəm ahı-zar,*
*Alırsan canımı al, gülə-gülə.*

*İnciyən gözəlin bey ilqarından,*
*Hazar müxənnətin etibarından*

*Hicran sənətindən, qəm anbarından,*
*Yükləyibsən mənə bol gülə-gülə.*

*Əyləşəydim, yar yolunda qalaydım,*
*Yalvaraydım, bir könlünü alaydım,*
*Abdullayam, biraz cavan olaydım,*
*Salaydım boynuna qol, gülə-gülə.*

**Səməd Vurğun**
**"GÜLƏ-GÜLƏ" (gəraylı)**

*Maral çıxdı dağ döşünə,*
*Səhər vaxtı gülə-gülə,*
*Sol əliylə sağ döşünə*
*Bir gül taxdı gülə-gülə.*

*Bilərziyi ağ altundan,*
*Yerə düşdü göy atından...*
*Ala gözlər qaş altından*
*Süzüb axdı gülə-gülə...*

*Dedim: "Ay qız, nədir adın?"*
*Dedi: "Mənəm, gözün aydın!"*
*Dedim: "Bizə dost olaydın!"*
*Dönüb baxdı gülə-gülə.*

*Dedim: "Aydır, gündür üzün?!"*
*Dedi: "Məni dindir özün!"*
*Gəldi cavan ömrümüzün*
*Tərlan baxtı gülə-gülə.*

*Ay dolandı, il dolandı,*
*Unuduldu eşqin andı.*
*O, verdiyi sözü dandı,*
*Daşa çaxdı gülə-gülə.*

## Dədə Ələsgərlə Aşıq Musanın qıfılbənd divani deyişməsi[1]

***Aşıq Ələsgər:***

*Ələsdüdən bəli dedim, əcəb xoş haldı yüküm;*
*Beş gözəlin aşiqiyəm, vəsfi camaldı yüküm;*
*Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,*
*Zəhmətdə zəhri-həlahil[2], ləzzətdə baldı yüküm.*

***Aşıq Musa:***

*Ustadımdan dərs almışam,"mim","əlif","dal"dı yüküm;*
*Dürrü qumaş cəm etmişəm, yaşıldı, aldı yüküm;*
*Mətahım yey mətahdı, neylim yoxdu bazarı;*
*Əgər söz isbata keçsə, yeyin iqbaldı yüküm.*

***Aşıq Ələsgər***

*Nütfəsində əyri olan tez göstərər isbatın;*
*Hər ağac kökündən bitər, hər meyvə gözlər zatın;*
*Hərcayı, hədyana sayar, naşı bilməz qiymatın;*
*Əhli-ruhan məclisində gövhər misaldı yüküm.*

[1] "Aşıq Ələsgər", Bakı, "Yazıçı", 1988, İslam Ələsgərov.
[2] Ən təsirli zəhər.

***Aşıq Musa***

*Yığılsın mərdanələr, məclisi xoş eyləsin;*
*Mərd gərək mərdin yolunda canın peşkaş eyləsin;*
*Bu gün saği məclisidi, istəyən nuş eyləsin;*
*Eyni-kövsərdən götürdüm, abi-zülaldı yüküm.*

***Aşıq Ələsgər:***

*Biçarə Aşıq Ələsgər, sığın Şahi-Heydara;*
*Onun damənindən tutan, məhşərdə yanmaz nara;*
*Pirim mana nüsrət verib, bir gün çıxdım bazara;*
*Sən sərrafsan, aç, xırd elə, bax gör nə maldı yüküm?*

***Aşıq Musa:***

*Oxumuşam həqiqəti, mərifətdən halıyam;*
*Şəriətdən dərs almışam, təriqəti tanıyam.*
*İsmimdi Aşıq Musa, Şahi-mərdan quluyam;*
*Əhli-ariflər yanında min bir cəlaldı yüküm.*

**Göyçə mahalının kameral təsviri, 1831**

Aşıq Musanın adı isə bu kitaba daxil edilən kameral siyahılarda yoxdur. Birincisi, 1831-ci ildə Ağkilsə kəndi hələ boş idi və orada heç kim yaşamırdı. İkincisi isə o, yazıldığı tarixdən xeyli sonra dünyaya gəlmişdir.

Ağkilsə kəndi, 1873

1.Səfər Mustafa oğlu (70 yaş);

(Qazax qəzasının Tatlı kəndindən buraya köçüb)

2 oğlu var: Kərim (30 yaş); Musa (20 yaş).

20 yaşlı Musa Aşıq Musadır.

1853-cü ildə doğulan Musanın ailəsi Ağkilsəyə Qazax qəzasının Tatlı kəndindən gəlib. Deyilənlərə görə, o, əvvəl Qaraqoyunluda yaşayıb, sonra Ağkilsəyə köçüb.

Bu, kameral təsvirə biz cavabdeh deyilik.

# DAŞKƏNDLİ AŞIQ NƏCƏF
## (1876-1919)
### *Aşıq Ələsgərin şəyirdi*

Nəcəf[1] olduqca yaraşıqlı, boylu-buxunlu, qəddi-qamətli adamıymış. Mükəmməl bilik, dərin hafizə, möcüzəli səs sahibi olan Aşıq Nəcəf səliqə-sahmanı, ədəb-ərkanı ilə həmişə diqqəti çəkər; aşıqdan çox bəyə, bəyzadələrə oxşayarmış. Daşkəndli şair Məmmədhüsöynün kəndçisi, Aşıq Ələsgərin şəyirdi Aşıq Nəcəf olmuşdur. Nəcəf Aşıq Ələsgərə on il şəyirdlik edib. Ən məşhur aşıqlardan biri olmuşdur. Təəssüf ki, onun irsi də vaxtında toplanmamış, itib-batmışdır. Bu cür məşhur aşığın bir dənə də şeiri bizə gəlib çatmamışdır. Şeir-folklor toplanarkən onun şeirləri başqa aşıqların adına çap olunmuşdur.

Aşıq Ələsgər 12 kamil sənətkar yetişdirmişdir:

*Adım Ələsgərdi, mərdi-mərdana,*
*On iki şəyirdim işlər hər yana, -*

misraları ilə çoxlu aşıq yetişdirdiyini özü də iftixar hissi ilə qeyd etmişdir. Şəyirdləri sazın-sözün sirrinə yalnız tamam-kamal yiyələndikdən sonra onların adının əvvəlində şərəfli "Aşıq" kəlməsini işlətmişdir. 12 şəyird arasında Aşıq Nəcəf Daşkəndli və Aşıq Əsəd (Böyük Qaraqoyunlu - 1874-1951) daha məşhur olmuşdur. Məclislərin çoxuna Aşıq Ələsgər bu iki aşığı sərbəst buraxarmış. Çünki bunlara inanırmış.

[1] "Sazlı-sözlü Göyçə", II hissə. Bakı-2018, "Elm və təhsil" – İslam Ələsgərov.

Tovuzda Aşıq Nəcəflə Aşıq Əsəd bir toy məclisi keçirirlərmiş. Aşıq Hüsöyn Bozalqanlı da təsadüfən bu məclisə gəlib çıxır. Ələsgərin bu şəyirdlərinə heyran olur. Aşıq Hüsöyn şəyirdlərdən soruşur ki:

- A bala, nə yaxşı ustadınız Ələsgər sizi tək buraxıb?

Nəcəflə Əsəd bir yerdə cavab verirlər ki:

- Dədə Ələsgər, ümidi gəlməsə, buraxmazdı.

Aşıq Nəcəf Dədə Ələsgərin ən çox sevdiyi şəyirdlərindən olmuşdur. Onun səsi Aşıq Əsədin səsi ilə uyğun gəldiyindən hər ikisinə məsləhət görərmiş ki, siz daim bir yerdə olun, bir yerdə çalıb-oxuyun. Yüksək səs tembrinə görə Aşıq Nəcəflə Aşıq Əsəd otuzluq lampanı dəfələrlə toy məclislərində söndürmüşlər.

Aşıq Nəcəflə Aşıq Əsəd 1910-cu ildə İran səfərində olarkən Təbriz aşıqlarının ustadı onlara hörmət və ehtiram əlaməti olaraq hər birinə on telli saz bağışlamışdır. Bu saza "Xətai sazı" da deyilir, qolunun içi boşdur.

Aşıq Nəcəfin bir çox qüdrətli aşıqlar və şairlərlə yaxın dostluq münasibətləri olmuşdur. Hətta Bozalqanlı Aşıq Hüseyn Aşıq Nəcəfin oğlanları Şəmistan və Şəmiddinin kirvəsi olmuşdur.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Göyçə mahalında Dədə Ələsgərin saz-söz süfrəsindən ilham alanlardan biri də Daşkəndli Aşıq Nəcəf Bayramov olub. 10 il Dədə ustada şəyirdlik edən Nəcəf aşıq sənətinin sirlərinə dərindən yiyələnib. El məclislərinin başında dayanıb.

Araşdırmalardan məlum olur ki, Aşıq Nəcəf Bayramov erkən vaxtlardan şeirə, musiqiyə böyük maraq göstərib. Qoyun sürüsü arxasınca yaylaqlara qalxanda güllü-çiçəkli yamaclarda çomağa söykənib "Çoban bayatı"

oxuyub. Şirin avazı, zil səsi çoban yoldaşlarını heyran edir. Çox keçmir, Nəcəf saz çalmağı da öyrənir. Bir gün Dədə Ələsgər onların Daşkəndinə el şənliyinə dəvət olunur. Toyun ikinci günü ustad kəndin ağsaqqalları ilə çay süfrəsi arxasında oturubmuş. Nəcəfin atası Nağı bəydən xahiş edir ki, aşıqdan rüsxət alsın, Nəcəf də bir ağız oxusun. Nağı bəy Aşıq Ələsgərdən icazə alır, Nəcəf ilk dəfə camaatın qarşısına çıxır və sazı sinəsinə basıb məlahətli bir səslə oxuyur:

*Nəfis tox olarsa, ürək dar olmaz,*
*Zəhmət çəkilməsə, süfrə var olmaz.*
*Sənət meydanında şəyird xar olmaz,*
*Nəcəfəm, ustadı pir ustad olsa.*

Bir gün Dəli Alının bacısı oğlu Zeynalabdinin toyu imiş. Uzaq-yaxın kənddən toya gələnlər olur. Həmin vaxt kənd yolunda bir karvan görünür. Baxırlar ki, sarbanı dəvənin üstündə yuxu aparıb. Karvandan da bir dəvə ayrılıb arxada qalıb. Həmin dəvəyə bir canavar yaxınlaşır. Camaat nə qədər hay-həşir salırsa, sarban yuxudan ayılmır. Qurd az qalır ki, dəvəni haqlasın. Bu vaxt Nəcəf bir zil şikəstə oxuyur:

*Xabi qəflətdə yatıbsan,*
*Oyan sarban, dayan sarban!*
*Karvanı qurda atıbsan,*
*Oyan sarban, dayan sarban!*

Aşığın zil səsi sarbanı diksindirib yuxudan ayıldır. Əvvəlcə səs gələn tərəfə, sonra da karvana baxır. Qurd artıq dəvənin üstünə atılıbmış. Bu zaman güllə səsi eşidilir. Qandal Nağı uzaqdan nişan alıb qurdu vurur.

Beləcə, Nəcəfin səsi ilə qaçağın gülləsi dəvəni xilas edir. Nəcəf ustad aşıq olmaqla bərabər, həm də ətrafında baş verən ictimai-siyasi proseslərdən kənarda qalmayıb. Ötən əsrin əvvəllərində mənfur ermənilərin torpaqlarımıza göz dikib, xalqımıza qarşı soyqırımları törədəndə o, oğlanları Şəmiddin və Şəmistanla birlikdə mübarizəyə qatılır, qanlı döyüşlərin birində qolundan yaralanır.

Deyilənə görə, Aşıq Nəcəfdə öncəgörmə qabiliyyəti də olub. Aşıq Ələsgərin evində şəyird olduğu günlərdə gecəyarı qəflətən yuxudan ayılır. Bir ah çəkib ağlayır. Soruşurlar ki, ay Nəcəf, nə olub, niyə ağlayırsan? Nəcəf yuxusunu belə söyləyir:

*Aman Allah, nə yuxudu görürəm,*
*Açılacaq nə bəlalar başıma.*
*Görən, kimsəm köç eylədi dünyadan,*
*Töhmət qoydu el-obalar başıma.*

Aşıq Nəcəf 1918-1919-cu illərdə daşnaklara qarşı özü və iki oğlu vuruşmuşdur. Həm də Aşıq Nəcəf telli sazı ilə haqqı xalqına çatdırırdı. Aşıq Nəcəfin Şəmistan və Şəmiddindən savayı Mikayıl, Astan və İsmayıl adında da oğlu olmuşdur. 1919-cu ildə ermənilərin Göyçə mahalına silahlı basqını zamanı Nəcəf əsir düşmüş, Basarkeçərdə – "Küllü təpə" deyilən ərazidə belinə odlu samovar bağlanaraq beş oğlu ilə birlikdə vəhşicəsinə öldürülmüşdür.

Başıbəlalı Aşıq Nəcəfin faciəli surətdə özünün və beş oğlunun öldürülməsi haqqında dastanlar və kitablar yazmışlar. Aşıq Nəcəfi dərindən öyrənmək üçün bu kitabları nəzərdən keçirək:

*1.Daşkəndli Sərraf Şiruyə*
***"Ağlama, bülbülüm, ağlama"** – 1994*

*"Aşıq Nəcəf və Gülüstan dastanı", səh. 348-372.*
***"İgid ölər, adı qalar"****, - 2002*
*"Göyçəli Hacı Rəhim dastanı"*
*Aşıq Nəcəf haqqında, səh. 258-296.*
*2. Tərlan Göyçəli*
***"Göyçə aşıq məktəbi"****, - 1998, səh. 92-109*
*3. Eldar İsmayıl*
***"Allah amanat" kitabı****, 1994*
*Aşıq Nəcəf poeması, səh. 85-109.*
*4. Araz Yaqublu*
***"Daşkənd aşıqları və şairləri",*** *2008.*

Onu da nəzərinizə çatdırım ki, erməni vandalizmi, daşnaksütyun töküntüləri – faşistlər Aşıq Nəcəfin belinə qaynar samovarı bağlayıblar. Sazı əlində, qaynar samovarı belində olan, taleyiqara, bəxtikəm, başıbəlalı Aşıq Nəcəf, görəsən, neçə saat ərzində nələr söyləmiş və nələr demişdir. Bunu bir Allah bilir. Ermənilər Aşıq Nəcəfi işgəncə ilə öldürmüşlər. Nərimanlı şair Xəstə Bayraməli **"Göyçəm"** divanisində bunu belə təsvir etmişdir:

*Namərd qaynar samovarı kürəyinə bağlayanda,*
*Yanan aşıq öz dərdini telli sazla ağlayanda.*
*Bu naləni eşidəndə sən ağladın, mənim Göyçəm!*
*İgidləri obalardan soraqladın, mənim Göyçəm!*

Hacı Rəhimin atası Axund Şəfi idi. O, Qazax mahalının Dəmirçilər kəndində yaşayır və onu Azərbaycan, Göyçə mahalı və Kürdüstanda (İraqda yerləşir) yaxşı tanıyırdılar. Axund Şəfinin bütün tayfası oxucuydu, Axund Molla şair idi. Axund Şəfi Qazax mahalından Göyçənin Daşkənd kəndinə köçür. Burada yurd salıb yaşayırlar. Bunu Aşıq Nəcəf öz şeirində belə tərənnüm edir:

*Qazax mahalından Göyçə elinə,*
*Kalvayı xoş gəlib, Axund xoş gəlib.*
*Qəm, kədər, içində olsa da Göyçə,*
*Sevincindən dost gözünə yaş gəlib.*

*Hər yer dədə yurdu, hər yer vətəndi,*
*Qarı düşmənimiz fürsət güdəndi.*
*Göyçə üzü yenə dumandı, çəndi,*
*Əzəlindən qəzalara tuş gəlib.*

*İgidin bəzəyi yalnız hünərmiş,*
*Dar gündə yaxşı dost dada gələrmiş,*
*Eşitdim vəsfini ər oğlu, ər imiş,*
*Rəhim də Nəcəfə bir sirdaş gəlib.*

Axund Şəfi Daşkənddə ayrıca məktəb açıb uşaqlara Qurani-Kərimi oxumağı öyrədirdi, camaatı maarifləndirirdi. Beləliklə, Axund Şəfi, qardaşı Molla Şaban Göyçə mahalının adlı-sanlı axundu, mollası oldular. Oğlu Rəhimi də Həccə göndərir, o da Hacı Rəhim kimi çağırılır və kəndin igid, qəhrəman oğluna çevrilir. Bunu Aşıq Nəcəf öz şeirində belə tərənnüm etmişdir:

*Gözü aydın olsun Axund Şəfinin,*
*Həccə gedib oğlu Hacı olubdu.*
*Görüşünə, alqışına gələnlər,*
*Dost, müsahib, qardaş-bacı olubdu.*

*Tutmasın onları bir qada-bəla,*
*Yetirsin yaxşını Tanrı bu hala.*
*Elə əzəlindən bu ata, bala,*
*Mahalın başının tacı olubdu.*

*Ellər bilir kamalları dərindi,*
*Meydan varsa, Rəhim kimi ərindi.*
*Nəcəf deyər, dostun ağzı şirindi,*
*Düşmənlərin ağzı acı olubdu.*

Göyçədə bir erməni generalı – Selikov (Sulikov) peyda olmuşdu. Selikov 1905-ci il erməni-müsəlman davasında Azərbaycanın Şəki qəzasının Qayabaşı kəndindən Gəncəyə, sonra da Göyçənin Qaranlıq (indiki Martuni) rayonuna – Basarkeçərə yaxın bir yerə gəlib çıxır. Selikov Nikolayın sağ əli idi. Bütün Göyçə mahalındakı erməni qoşunlarına o, sərkərdəlik eləyirdi. Göyçə müsəlmanlarına qan uddururdu. Ermənilər ingilisdən toplar alıb gətirmişdilər. Erməni qoşunu, Nikolayın fitvası, Selikovun göstərişi ilə müsəlman kəndlərini talayır, evlərini dağıdır, mal-qoyununu, ərzağını, bütün evlərdə nə qədər arpa vardısa, qoşunun atları üçün aparırlar. Daşnak sərkərdəsi Selikovun qoşunu Göyçənin böyük kəndlərindən olan Şişqayanı odlara qaladı. İclas adı altında camaatı bir neçə böyük evlərə doldurub od vurdu. 700-ə yaxın adam yanıb kül oldu.

Hacı Rəhim Selikovun 125 baş mal-qarasını Göyçədən Kəlbəcərə apartdırır. Sulikov bundan xəbər tutur. Nikolaya məktub yazıb göndərir ki, Hacı Rəhim haqqında tədbir görülsün və öldürülsün. Hacı Rəhim bunu eşidir, Kürdüstana qaçır, bir neçə ay orada qalır. Lakin qəribsizliyə dözə bilmir. Oradan Daşkəndə qayıdır. Daşkənd ağsaqqalları bunu görüb çox təəccüblənir. Deyirlər ki, Sulikov səni öldürtdürəcək.

Basarkeçərdə erməni Səfəroğlu Avanes hörmətli insanlardan biri idi. Sulikov və Andranik onunla hesabla-

şırdılar. Səfəroğlu Avanes Nikolayın çox yaxın adamlarından biri idi. Bunu bütün İrəvan çuxuru bilirdi. Səfəroğlu həm də Hacı Rəhimin atası Axund Şəfi ilə yaxın dost idi.

Hacı Rəhim Daşkənd ağsaqqallarına dedi ki, mən Basarkeçərdə Səfəroğlu Avaneslə görüşüb, bu əhvalatı ona deyəcəm. Daşkənd ağsaqqalları – Hacı Nağı, Mədət kişi, Hacı Allahverdi çox nigaran idilər. Hacı Rəhim heç nədən çəkinmədən yatmaq vaxtı özünü Basarkeçərə – Səfəroğlu Avanesin qapısına çatdırdı. Xoşbəxtlikdən qapıya qədər heç kimlə rastlaşmadı. Atı qapıya yaxın sürüb qamçının sapı ilə qapını döydü. Avanes qapıya çıxanda bərk çaşdı. Hacı Rəhimi görəndə az qaldı ürəyi ağzından çıxsın. Avanesin arxasınca bayıra çıxan Knarik arvad üzəngidə Hacının ayaqlarını qucaqladı. Hacı dedi:

- Mən buraya həmişəki kimi, yəni bir dost kimi gəlmişəm, qorxmayın. Ancaq istəyirsinizsə, mən bu evə sakit gəlim-gedim, Sulikovu başa salın ki, mənim adımı çəkməsin, məni soraqlamasın. Bilirəm, Sulikov sizin sözünüzdən çıxan deyil, onun malını da qaçaqlar aparıb. İşin nəticəsini Daşkənddə Nağı bəyə çatdırarsan. Bir ay sənə vaxt verirəm.

Avanes ilə Knarik – hər ikisi dizüstə qatlanıb eyni vaxtda dedilər, yəni, bəli. Avanes, Knarik bildirdilər ki, Hacı Rəhimin bir sözü iki ola bilməz. Əgər olsa, deməli, bu ev başımıza uçmalıdır. Odur ki, Sulikovu bu fikirdən yayındırmalı idilər.

Avanes Sulikovun dilindən kağız alıb Nikolaya göndərir ki, bu maldan Hacı Rəhimin xəbəri yoxdur. Qaçaq-

lar oğurlayıb. Qaçaqlar haqqında tədbir görülsün. Hacı Rəhimlə Nikolayın və Sulikovun işi yoxdur.

Ondan sonra Hacı Rəhimin gəlişi Daşkənddə böyük toy-bayrama çevrildi. Aşıq Nəcəf saza təzyanə vurdu:

*Şükür, ilahinin mərhəmətinə,*
*Elin arxa, köməkdarı gəlibdi.*
*Açılıbdı bağlı qalan qapılar,*
*Fəqirlərin havadarı gəlibdi.*

*Qüdrətdə, qüvvətdə Rüstəm Zaldı,*
*Əli xidmətində Dal oğlu Daldı.*
*Cümləsi dürdanə, kəlməsi baldı,*
*Xəstələrin şəfadarı gəlibdi.*

*Qibləsidi Hacıların, Pirlərin,*
*Düz taqəti, hünəridi nərlərin.*
*Nəcəf deyər, yenilməyən ərlərin,*
*Sərkərdəsi, həmsərdarı gəlibdi.*

Hacı Rəhim Sulikova-ermənilərə qan uddururdu. Sulikov və Andranik Hacı Rəhimdən çox qorxurdular. Göyçədə Zodlu Səməd ağanın gördüyü tədbirlər nəticəsində, Göyçə mahalı üzrə sərkərdə Şişqayalı Kor Tanrıverdi, dövlət nümayəndəsi Qaraimanlı Məşədi İsa, Daşkənddə Qocaman oğlu Mədət, Göyçənin igid qəhrəman oğlu, Koroğlusu Hacı Rəhim, Aşıq Nəcəf, Zodlu Məcid və Göyçənin ağsaqqalları Sulikovun Zodda öldürülməsi planını hazırladılar.

Məsləhət belə qoyulmuşdu ki, bir neçə gün Məşədi İsa ilə Selikov kəndbəkənd qonaqlıqda olacaqlar. Bu qonaqlıq çox səmimi və təhlükəsiz keçəcək. Zod kəndində

qonaqlıq veriləcək ev xüsusi seçilmişdir. Nəzərdə tutulmuşdur ki, Zodda qonaqlıq üçün seçilmiş həmin evə Məşədi İsa Sulikovun qoluna girib gələrkən sağ tərəfində üstü açıq, uçuq damın yanından keçəndə qəfildən Selikovun qolunu buraxıb özünü o uçuq dama atsın. Bu anda pusquda duran igidlər Selikovu (Sulikovu) və onunla gələn erməniləri atəşə tutsunlar. Belə də oldu. Artıq bir neçə gündür ki, Məşədi İsa Sulikovla, onunla gələn iki erməni komandiri ilə kəndbəkənd barışıq məclislərində olurlar. Hansı kəndə getsələr, o kəndin ağsaqqalları, bəyləri onlarla oturur, Selikova çox böyük ehtiram göstərirlər. Selikov tamamilə arxayın düşür. Hər kəsdən, hər məclisdən çox xoşhal gedir. Növbəti qonaqlıq Zod kəndində olacaq. Seçilmiş igidlər hər kənddən arabir Zoda yığışır. Tək-tək, duyulmadan pusqu yerinə gəlirlər. Hacı Rəhim və qocaman oğlu Mədət də Daşkənddən gəlib vaxtı çatır deyə, bərə yerinə keçib pusquda dayanırlar. Məşədi İsa ilə Selikov çox şirin söhbət edə-edə gəlirlər. Onların arxasınca da iki erməni komandiri gəlirdi. Bütün igidlər hazır dayanıb. Artıq Məşədi İsa həmin aralıqdan, üstüaçıq damın yanından keçmək üçün Selikova yol göstərir. Bu anda güllələr açılıb arxadakı erməniləri yıxır. Selikov geri dönüb baxmaq istəyəndə Məşədi İsa onun qolunu buraxıb damın içinə tullanır. Güllələr təkrar açılır. Selikov yaralansa da, özünü sol tərəfdən hasarın dibinə verib, naqanını çıxarmaq istəyəndə naqanı əlindən düşür. Zodlu Məcid onun naqanını götürmək istəyir. Ancaq Selikov çox çevikliklə uzanıqlı yerdə fırlanıb, naqanı götürüb, Məcidə atır və yaralansa da, özünə çox münasib yer seçir. Atılan güllələr daş hasarı tutur. Kimsə arxaya keç-

məlidir. Buna cəsarət gərəkdir. Yoxsa Məcid kimi o da gülləyə tuş gələr. Hacı Rəhim bir anlığa Mədət kişi ilə pıçıldaşır. Bir neçə addım pusqu yerindən sürünüb çıxır. Mədət kişi güllələri Selikova doğru yağdırıb başını qatır. Hacı Rəhim pələng kimi arxadan tullanıb əvvəlcə Selikovun naqan tutan əlini biləkdən xəncərlə vurub salır. Sonra isə dizlərini onun qoltuqlarının arasına verərək arxasından uzun saçlarından tutub, xəncərlə başını kəsir. Baş kəsildikcə "Nikolay, Nikolay", gah da "arpa, arpa" deyirdi. Sulikov bu deməklə son anda Nikolayı köməyə çağırır, "arpa, arpa" deməklə müsəlman kəndlərindən erməni atlarına arpa istəyirdi. Yarım pudluq baş Hacı Rəhimin əlində tellərindən asılı qalmışdı. Hacı Rəhim bir başa, bir də Selikovun cəmdəyinə baxıb, görək igidlərə nə dedi:

*Damlası torpaqda qalsa göyərər,*
*Qazıyıb itlərə atın bu qanı.*
*Qulağı kəsilmiş Andranikin,*
*Qəbir torpağına qatın bu qanı.*

*Çox uzun çəkəcək hələ bu oyun,*
*Köməyə çağır havarın, hoyun.*
*Üstünə bir eşşək dırnağı qoyun,*
*Kəvər keşişinə çatdırın bu qanı.*

*Min fitnə var, min fəsad var bu qanda,*
*Əməlləri tor qurubdu hər yanda.*
*Hacı Rəhiməm, qoyun yaxşı sapanda,*
*İngilis tərəfə atın bu qanı.*

**Andranikin qulağının kəsilməsi olayı isə bu cür baş vermişdir:**

1894-cü ildə jandarm qüvvələrinin aprelin 24-də Sasun bölgəsində qanlı döyüşlər olur. Türk jandarm qüvvələrinin komandanı, komissar Hüsnü bəyin çavuşu ilə üzbəüz qalan Andranik aradan çıxmaq istəyərkən çavuş təkbətək döyüşdə qılınc ilə onu şikəst edir. Andranikin patronu qurtardığından Hüsnü bəyin çavuşu türk mərdliyi ilə odlu silahı buraxıb Andraniki qılınc döyüşünə dəvət edir, məharətlə onun qulağını kəsərək yerə atır, Andranik isə dağlıq ərazidən yaralı halda bir göz qırpımında qaçıb çıxır. Sonra isə Andranik bu qulağının hayıfını türkləri vəhşicəsinə öldürərək həzz alırmış.

Sulikovun ölümündən sonra ermənilər hər tərəfdən Göyçəyə qoşun yeritdilər. İngilislərdən gətirdikləri topları işə saldılar. Müsəlmanların geri çəkilməkdən başqa əlacı yox idi. Odur ki, Göyçə mahalının Zod, Şişqaya səmtindəki kəndlərindən başqa bütün kəndləri Kürdüstana qaçqın düşmüşdü. Zodlu Səməd ağanın və Şişqayalı Kor Tanrıverdinin ermənilərlə dostluğuna və mahaldakı nüfuzuna görə bu səmtdəki kəndlər nəinki köçmüş, hətta geri kəndlərdən də nə qədər köçkün bu kəndlərə gəlmişdi. Daşkənddən Aşıq Nəcəf də Tanrıverdi ilə dostluğuna görə öz elindən aralanıb Şişqayaya pənah gətirmişdi. Bu vaxt Hacı Rəhim və elin seçilmiş igidləri Daşkənddə Basarkeçərin aralığında bir neçə yerdə səngər düzəldib ermənilərlə atışırdılar. Dünəndən eşitdiyi bir xəbər Hacı Rəhimi bərk göynədirdi – Aşıq Nəcəfin eldən aralanıb köçünü Şişqayaya aparması. Hacı Rəhim çox qabaqgörən adam idi. Bildirdi ki, ermənilər nə Səməd ağaya, nə də

Tanrıverdiyə görə güzəştə gedəcəklər. Aşıq Nəcəfin xətrini Hacı Rəhim çox istəyirdi. Həm də şanına sığışdıra bilmirdi ki, Hacı Rəhimin kəndlisi, dostu gedib Şişqayalı Tanrıverdinin kölgəsinə sığınsın. Odur ki, oğlu Məcidi çağırtdırıb, bir kağız verdi ki, qara kəhəri minib, Qoşabulaq yolu ilə get, Şişqayada soraqla, Nəcəfi tap, kağızı ona ver. İndi görək Hacı Rəhim Nəcəfə nə yazır:

*Nəcəf, kəsilibdi o bənd, o bərə,*
*Amandı, əlini elindən üzmə.*
*Aşır Kürdüstana ordan köçünü*
*Allahın adını dilindən üzmə.*

*Nahaq güvənmisən Tanrıverdiyə,*
*Yıxacaq evini dost deyə-deyə,*
*Etibar qalmayıb bir erməniyə,*
*Silahı, qatarı belindən üzmə.*

*Hacı Rəhim danışmayır behsana,*
*Başı dost yolunda gedər qurbana.*
*Köçü ya bura sür, ya Kürdüstana,*
*Mənim əllərimi əlindən üzmə.*

Məcid günorta vaxtı Şişqayaya çatdı, soraqladı, Hacı Kərimin evində Aşıq Nəcəfi tapdı. Hacı Rəhimin məktubunu Nəcəfə verdi. Nəcəf məktubu oxuyub, görək Hacı Rəhimə nə cavab yazır:

*Hacı, günahlarım bağışlanılmaz,*
*Eldən ayrı saldı fitnə-fel məni.*
*Qəzanın dəryası göz önündədi*
*Aparacaq yaman daşqın, sel məni.*

*İki gündür Tanrıverdi tutulub,*
*Səmədağa qalalara atılıb.*
*Bizdən ötrü dar ağacı çatılıb,*
*Kimsəsiztək qoy ağlasın el məni.*

*Nəcəf daha gözünüzdən uzaqdı,*
*Nurlu-nurlu üzünüzdən uzaqdı.*
*Şirin-şirin sözünüzdən uzaqdı,*
*Bir də dostlar çətin görər, bil məni.*

Aşıq Nəcəfin dili, cavabı da dedi ki, bizim aqibətimiz çətindir. İndi nə geri, nə də irəli köç aparmaq mümkündür. Hər yan tutulub. Səməd Ağanı tutub Kəvərin qalasına salıblar. Tanrıverdi də tutulub, ümidimiz hər yandan kəsilib. Bu gecə Zoddan köçüb, Kürdüstana aşırmaq istəyirəm. Görüm, mümkün olurmu. Hacıya denən, məni bağışlasın. Özün də dağlarla get, yoxsa yolda tutularsan. Məcid Şişqayadan Daşkəndə geri qayıdarkən erməni daşnakları onu vururlar. At Məcidin son nəfəsini Daşkəndə çatdırır. Kənd ağsaqqalları və Qocaman oğlu Mədət və Hacı Rəhim Məcidi Daşkənddə torpağa tapşırırlar. Özləri də Kürdüstana qaçırlar. Məşədi İsa Gədəbəyə qaçır. Göyçə camaatı bir il yurd-yuvasından didərgin düşdü. Aşıq Nəcəfin faciəli ölümünü, Səməd Ağanın Kəvər türməsində dığanın bir şilləsinə görə ürəyinin partlayıb ölməsini də, Tanrıverdinin Basarkeçər qalasında öldürülməsini də Göyçəlilər didərginlik vaxtlarında eşitdilər. Bir tək oğlu Məcidin, bir də Aşıq Nəcəfin belinə qaynar samovar bağlayıb əlinə saz verib, Basarkeçərin Küllü təpəsində ölüm xəbəri Hacını iki qat əymişdi. Kürdüstanda bir günü bir ilə dönmüşdü.

Sovet hökuməti qurulandan sonra azərbaycanlılar yenidən öz yurd-yuvalarına köçüb gəlirlər. Qaraimanlı Məşədi İsa və Daşkəndli Hacı Rəhim də vətənlərinə gəlirlər, orada yaşayırlar. Öz işlərində işləyirlər. Lakin kommunist cildinə girmiş daşnak ermənilər xəyanət toru quraraq Qaraimanda Məşədi İsanı otağında güllə ilə vurub öldürtdürürlər. Hacı Rəhim isə Daşkəndin aşağısında (Çınqılın altında) öz əkin yerini sulamaq üçün səhər tezdən getmişdi. Milis paltarında iki atlı erməni gəlib kənddən Hacı Rəhimi soruşurlar. Kəndin hündür yerindən Hacı Rəhimi göstərirlər. Yalandan milis paltarı geyinmiş iki erməni Hacı Rəhimin yanına gəlib onu Basarkeçərə aparmaq istəyirlər. Lakin Hacı Rəhim onların başını söhbətə qatır, "Binnətin zağası" yerinə gətirir. Sonra isə ermənilər Hacı Rəhimə imkan vermir. Hacı Rəhim də yerdən yekə daşları götürüb, dığanın birini vurub öldürür, o birini isə daşla yerə sərir. Hacı Rəhim ölənin silahını götürür, o biri dığanı vurmaq istərkən dığa qalxıb, silahla Hacı Rəhimin ürəyindən vurur. Daşnaklar Hacı Rəhimi də belə öldürürlər.

Göyçə ağsaqqalları, müdrikləri və Daşkəndli Aşıq Nəcəf Göyçə qiyamının, daşnak Andranikin qurbanları oldular. Aşıq Nəcəfin faciəli ölümünə göstərişi qulağıkəsik Andranik vermişdi. Özü də bu ölümdə iştirak etmişdi. Aşıq Nəcəfin ölümündən həzz almışdı. Deyilənlərə görə, Andranik Aşıq Nəcəfin bu cür işgəncəli ölümünü bir polkovnikə tapşırıq vermişdi. Aşıq Nəcəf də çox gözəl, enli kürəkli, yaraşıqlı bir insan idi. 43 yaşı var idi. Polkovnik Aşıq Nəcəfi qaynar samovar belində, sazı əlində – işgəncə verə-verə öldürürdü. Bu polkovnikin arvadı

deyir ki, bu cür yaraşıqlı gözəl oğlanı, türkü niyə bu cür işgəncə ilə öldürürsünüz? Onun günahı nədir? Aşıq Nəcəfin bu cür ölümünə erməni qadını müqavimət göstərir. Andranik polkovnikə əmr edir ki, onu öldürsün. Polkovnik arvadını güllə ilə vurub öldürür. Aşıq Nəcəf ***"Bir xəbər gətir"*** qoşmasında bunu belə tərənnüm edir:

*Mən bilmədim polkovnikin adını,*
*Naqan ilə vurdu öz arvadını,*
*Kimə deyim fəryadımı, dadımı,*
*Qardaşdan, sirdaşdan bir xəbər gətir.*

Qaynar samovarı belində, sazı əlində, ardı kəsilməyən bədahətdən gələn şeirləri dilində olan haqq aşığı Aşıq Nəcəf başına nə gələcəyini əvvəlcədən bilirdi. Bunları yuxusunda da ustadı Aşıq Ələsgərə şəyird olarkən sübh tezdən yuxusunda, Ağkilsədə görmüşdü. Sonra Aşıq Nəcəfi Basarkeçərin Küllü təpə deyilən yerində işgəncə verə-verə bir neçə saata öldürürlər. Və yaxud deyilənlərə görə, Basarkeçərin Qırxbulaq kəndində Küllü təpədə öldürürlər.

1919-cu ildə daşnakların sərkərdəsi Sulikovun Göyçə mahalının Zod kəndində Göyçənin igid oğlu – Koroğlusu Daşkəndli Hacı Rəhim tərəfindən başı kəsiləndən sonra ermənilər tamam yasa batdılar. Ondan sonra Andranik qızışdı. 100 yaşlı Kərkibaşlı[1] Qizbəst nənənin 1988-ci ildə dediyinə görə, o dövrdə Kərkibaşdan Basarkeçərə gedən yolda və Basarkeçərin girəcəyində yolun sağ hissəsinə Güllütəpə və ya Küllütəpə adlanan yer deyərdilər.

---

[1] *Zeynalabdin müəllim Qizbəst nənədən bu əhvalatı 1988-ci ildə qələmə almışdır.*

1965-ci ildə Yunis Rzayev Basarkeçər RPK-nın I katibi işləyərkən rayonun girəcəyində maldarlığa aid qoydurduğu kələ heykəlinin yanına da Güllütəpə və ya Küllütəpə deyərdilər.

Deyilənlərə görə, bu Güllütəpə olan yerdə o qədər güllər, çiçəklər, lalələr və cürbəcür güllər açarmış ki, adamlar gedəndə məst olarmışlar. Ona görə də bu təpəyə Güllütəpə deyərmişlər. Sən demə, bu Güllütəpənin də bir möcüzəsi olacaq imiş.

Bütün hayıfını çıxmaq üçün Aşıq Nəcəfi Güllütəpə olan yerə gətirdi. Belində qaynar samovar yandırdı, əlinə sazını verdi. Aşıq Nəcəfin birinci gözünə qərənfillər-güllər dəydi. Qanıma boyanan qərənfillər dedi. Aşıq Nəcəf də bir neçə saat ərzində nə qədər şeir və nələr deyib, bir o Allah bilir. Aşıq Nəcəfin belində samovarı nə qədər yandırdılarsa, Aşıq Nəcəf yanıb külə döndü. Bu küllər Güllütəpəyə səpələndi. 1919-cu ildən sonra bu təpədə heç nə bitmir, yanıb külə dönür. 1919-cu ildən sonra bu yerə Güllütəpə yox – Küllütəpə deyərlərmiş. Aşıq Nəcəfin yanıb külə döndüyü yer deyərlərmiş. Sovet hökuməti qurulduqdan sonra Məşədi İsa, Hacı Rəhim və bütün azərbaycanlılar bu yeri ziyarət edərlərmiş. Deyərlərmiş ki, Aşıq Nəcəf yanıb külə dönən – Küllütəpə.

**Aşıq Nəcəfin nəsli haqqında qeydlər:**

1.Aşıq Nəcəf

Həyat yoldaşı – Gülüstan,

Övladları. 5 oğlu – Şəmistan, Şəmiddin (Şəmsəddin), Mikayıl, Astan, İsmayıl (körpə vaxtı vəfat edib)

## Aşıq Nəcəfin əldə etdiyimiz şeirləri[1]

### *QOŞMALAR*

### KƏLMƏSİN

Oyandım yuxudan azan səsinə,
Təkrarladım "Allah, Əkbər" kəlməsin.
Allahın məsəli, – Əla Məhəmməd,
Rəsulu ol Əkrəm Muxtar kəlməsin.

Qulhuvəllahu Əhəd öyrəndim, dedim,
Həm Allah-us Səməd öyrəndim, dedim,
İləm, vələm, yuləd öyrəndim, dedim,
Söylədim: yet dada, Qəhhar, kəlməsin.

Aşıq Nəcəf haqdan umur mərhəmət,
O, kərəm sahibi verəndi nüsrət.
Salmaram dilimdən: Allah, Məhəmməd,
Həsən, Hüseyn, Fatma, Heydər kəlməsin.

### ƏRZİM VAR

Gedən getmə, mən də gəlim yetirim,
Sən getdiyin Kərbəlaya ərzim var.
Düldülün sahibi, Qəmbər ağası,
Şiri Yəzdan Mürtəzaya ərzim var.

[1] İslam Ələsgərov, "Sazlı-sözlü Göyçə", II hissə, Bakı-2018, "Elm və təhsil"

Sənətkartək gəzdim neçə elləri,
Tapdamadım çiçəkləri, gülləri.
Fərat kənarında düşən qolları,
Həzrət Abbas binəvaya ərzim var.

Nəcəf deyər, özüm qaldım hədəfdə,
Ha çalışdım açılmadı kələf də.
Arzum idi gedəm qalam Nəcəfdə,
Səcdəgahım, bir Xudaya ərzim var.

## AĞLASIN

Hacı Rəhim, Aşıq Əsədə deginən,
Bir mənim qeydimə qalsın, ağlasın.
Arif məclisində, alim yanında,
Hərdən bir yadına salsın, ağlasın.

Fələk qış eylədi güllü yazımı,
Eşidən ağlayar xoş avazımı.
Sinəsi sədəfli telli sazımı,
Ələsə deginən çalsın, ağlasın.

Kəpəz, Murov, Murğuz, Çalmalı dağı,
O yerlərdən keçir elin yığnağı.
Meçidlinin, Taxta yurdun yaylağı,
İllər boyu viran qalsın, ağlasın.

Özüm yaxındayam, könlüm uzaqda,
Fələk məni nakam qoydu bu vaxtda.

Gəncədə, Şəmkirdə, Tovuz, Qazaxda,
Yaralı "Dilqəmi" çalsın, ağlasın.

Köhlən at belində gəzdiyim dağlar,
Dumana, çiskinə dözdüyüm dağlar,
Nəcəfəm, əlimi üzdüyüm dağlar,
Laləzar çiçəyin solsun, ağlasın.

## VARIYDI

Yatmışdım qəflətdə gördüm Heydəri,
Cəmi xublar məclisində varıydı.
Özü Şiri-Yəzdan aləm sərvəri,
Mübarək dəstində Zülfüqarıydı.

Bir insan Heydərdi – Qəşəmşəm adı,
Darda qalanların odur fəryadı.
Şahi Mərdan ilə on bir övladı,
Qəmbər qabağında qulamkarıydı.

Biçarə Nəcəfin haqdır gümanı,
O pənc əl-əbadır dini, imanı.
İçlərində bir Kərbəla sultanı,
Əbil Fəzli Abbas əlamdarıydı.

## BİR XƏBƏR GƏTİR[1]

Könül quşu, uç get Vətən elinə,
Mənə o ellərdən bir xəbər gətir.
Yetir əhvalımı nər igidlərə,
Qasımı, Ziyadı bir təhər gətir.

Görsən nələr çəkir çarəsiz ana,
Deginən: ömürü getdi bəd-fəna.
Düşmənin gülləsi dəyməsin mana,
Daşkənddən içməyə bir zəhər gətir.

Samovarı bağladılar belimə,
Məşədi Qasım pərişkardır elimə,
Barı ilahi, əlini yetir əlimə,
Qohumdan-qardaşdan bir xəbər gətir.

Mən bilmədim polkovnikin adını,
Naqan ilə vurdu öz arvadını,
Kimə deyim fəryadımı, dadımı,
Qardaşdan, sirdaşdan bir xəbər gətir.

Nəcəf bilmir, harda qaldı Gülüstan,
Şəmsəddin, Şəmistan, Mikayıl, Astan.
İsmayıl körpəydi, çıxmadı yasdan,
İlahi, üzümə xoş xəbər gətir.

[1] Bu şeiri Zeynalabdin müəllim 1986-cı ildə Daşkəndli Şahbaz Bayraməli oğlundan qələmə almışdır.

## YETİR

Kainatı, yeri, göyü yaradan,
Dərdlərə dərman ver, bir ayə yetir.
Ağbirçək analar fəğan eyləyir,
Bax aha, amana, haraya yetir.

Dolanır tərsinə dünya gərdişi,
Pozulmaz olubdu millətin işi.
Mehracda, Hatifdə danışan kişi,
Özün kərəm eylə, buraya yetir.

Qurtar bu milləti əzabdan, dardan,
Nəcəf ayrı düşüb qohumdan, yardan.
Sidq ilə çağırram, – ya Şahi-Mərdan!
Bağışla, yüz on dörd surəyə yetir.

## GƏLİB[1]

Qazax mahalından Göyçə elinə,
Kalvayı xoş gəlib, Axund xoş gəlib.
Qəm, kədər, içində olsa da Göyçə,
Sevincindən dost gözünə yaş gəlib.

Hər yer dədə yurdu, hər yer vətəndi,
Qarı düşmənimiz fürsət güdəndi.
Göyçə üzü yenə dumandı, çəndi,
Əzəlindən qəzalara tuş gəlib.

İgidin bəzəyi yalnız hünərmiş,
Dar gündə yaxşı dost dada gələrmiş,
Eşitdim vəsfini – ər oğlu, ərmiş,
Rəhim də Nəcəfə bir sirdaş gəlib.

**OLUBDU[2]**

Gözü aydın olsun Axund Şəfinin,
Həccə gedib oğlu Hacı olubdu.
Görüşünə, alqışına gələnlər,
Dost, müsahib, qardaş-bacı olubdu.

Tutmasın onları bir qada-bəla,
Yetirsin yaxşını Tanrı bu hala.
Elə əzəlindən bu ata-bala,
Mahalın başının tacı olubdu.

Ellər bilir kamalları dərindi,
Meydan varsa, Rəhim kimi ərindi.
Nəcəf deyər, dostun ağzı şirindi,
Düşmənlərin ağzı acı olubdu.

**GƏLİBDİ[3]**

Şükür, ilahinin mərhəmətinə,
Elin arxa, köməkdarı gəlibdi.
Açılıbdı bağlı qalan qapılar,
Fəqirlərin havadarı gəlibdi.

Qüdrətdə, qüvvətdə Rüstəm Zaldı,
Əli xidmətində Dal oğlu Daldı.
Cümləsi dürdana, kəlməsi baldı,
Xəstələrin şəfadarı gəlibdi.

Qibləsidi Hacıların, Pirlərin,
Düz taqəti, hünəridi nərlərin.
Nəcəf deyər, yenilməyən ərlərin,
Sərkərdəsi, həmsərdarı gəlibdi.

## AĞLASIN EL MƏNİ[1]

Hacı, günahlarım bağışlanılmaz,
Eldən ayrı saldı fitnə-fel məni.
Qəzanın dəryası göz önündədi
Aparacaq yaman daşqın, sel məni.[2]

İki gündür Tanrıverdi tutulub,
Səmədağa qalalara atılıb.
Bizdən ötrü dar ağacı çatılıb,
Kimsəsiztək qoy ağlasın el məni.

Nəcəf daha gözünüzdən uzaqdı,
Nurlu-nurlu üzünüzdən uzaqdı.
Şirin-şirin sözünüzdən uzaqdı,
Bir də dostlar çətin görər, bil məni.

---

[1] *1 ,2, 3-cü və bu şeiri Daşkəndli Sərraf Şiruyə "İgid ölər, adı qalar" (2002) kitabı, "Göyçəli Hacı Rəhim" dastanından yazıya alıb.*

[2] *Aşıq Nəcəfin ölümü ilə Səmədağanın ölümü arasında heç bir əlaqə yoxdur. Səmədağa Aşıq Nəcəfdən çox qabaq öldürülüb. Bu haqda verilən qeyri məlumatlar tamam yalnışdır.*

## BAX[1]
## Divani

Ay insafsız, qatil olma, göz aç, girdikara bax!
Yeri, göyü yaradana, bir pərvərdigara bax!
Zülm edirsən, qan tökürsən yerə, göyə sığışmaz.
Aldanıb dünya malına, olma üzü qara bax!

Yaranmış hamı öləcək, hərənin bir vaxtı var;
Sorğu-sual, polu-sirat, qabaqdadı, haqdı, var.
Haqqın özü divan edər, ədalət bir təxti var.
Seçərlər günahkarları, yandırarlar, nara bax!

Axtarır həsrət gözlərim, qohum-qardaş hardadı.
Ala gözlü nazlı yarım, indi ahu-zardadı;
Yet dadıma, Şahi-Mərdan, yazıq Nəcəf dardadı!
Kərəm eylə, tut dəstindən, sən çıxar kənara bax!

[1] *İslam Ələsgərov "Sazlı-sözlü Göyçə", II hissə. Bakı 2018. "Elm və təhsil".*

## MİSKİN ABDALIN ŞEİRLƏRİ

*El şairlərinin açılmamış dəftərləri*

### DAĞLAR[1]

*Qoşma*

Məğribdən məşriğə səf çəkib durub,
Qüdrətdən çatıbdı baş-başa dağlar.
İtaət boynuna salıb həmayil,
Misli nəsənd, xotkar, xan, paşa dağlar.

Gur (Ah) çeşmən sərindən car eylər seli,
Yaşıl türmə qurşar ədağə beli.
Zabitə kölgəsi, Dağıstan yeli
(Dağıstan kölgəsi, zabitə yeli)
Sədrin səfasıdır, həmişə, dağlar.
(Sərin səfalıdır, həmişə, dağlar.)

Nəs illərdən satın aldın pis günü,
Çağırdın dumanı, tökdün çiskini,
Gözüyaşlı qoydun Cida Miskini,
Eylə gülə-gülə tamaşa, dağlar.

---

[1] "Ədəbiyyat və incəsənət" qəzeti 1973, 18 avqust.
1973-cü ildə Vaqif müəllimdən Zeynalabdin müəllim qələmə almışdır.

## AĞLARAM[1]
*Qoşma*

Dostu-mehribanım, yetiş imdada,
Səndən qeyri yox imdadım, ağlaram.
Ah çəkib dağlara salaram səda,
Qohum gəlməz gülər yadım, ağlaram.

Dəstində Zülfüqar, Düldülə süvar,[2]
Məhsəril (Məhzərül)-əcaib, bir adı kərrar.
Müşkülə düşmüşəm, könlüm intizar,
Sən gəlməsən, ey ustadım, ağlaram.

Salma nəzərindən, salma, ilahim,
Dar gündəköməyim, püştü **(poştü)** pənahim.
Ərşə bülənd olub fəryadı-ahım, (fəryadü-ahim)
Abdaldı, Miskindi adım, ağlaram.

---

[1] "Ədəbiyyat və incəsənət" qəzeti, 30 noyabr 1974. Qələmə alıb: folklorşünas Sədnik Paşayev, Məmməd Aslan.
"Bakı 1501", Bakı, Yazıçı – 1981, səh.249. Əzizə Cəfərzadə

[2] Xətainin ulu babası hesab edilən, şiələrin I imamı Əli İbn Əbutalib nəzərdə tutulur.

## TƏCNİS[1]

Əhədən, səmədən, həyyi-layəmut,
Tut dəstimdən yetir dürr üstə məni.
Görsən nadürüstəm, vermə dürüstə
Dürüstəmsə, yetir dürüstə məni.

Səsimizə yetişməyir haqq-səda,
Bir gün olar bükürərlər ağ səda,
Künbəz əl xizrədə, Məscid-Əqsada,
Onlar da tanıyır dürr usta məni.

Əbcəd hesabilə dərs aldım ağdan,
Baxmadım qarayə, dərs aldım ağdan,
Heyvatək soyuldum, dər saldım, ağdan,
Yetirdim dərsimi-dürüst a məni.

Mən Miskinə haqdan gəldi "sin" ayə,
Xətm olundu İrəsula sinayə.
Gör necə çulğaşıb sinə-sinayə,
Tiflintək görmədim dürüst əməni.

[1] "Ədəbiyyat və incəsənət" qəzeti, 30 noyabr 1974. Qələmə alıb: folklorşünas Sədnik Paşayev.

### *BAŞIN*
### Gəraylı[1]

Namərd ilə yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş qalalar çökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana!
Arxalanma bəyə, xana
Qoy sağolsun nökər başın.

Haqdan istə bəxti-iqbal,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər başın.

Zeynalabdin müəllimin aşıq şeirlərini toplamaqda çox marağı var idi. O, 1970-1980-ci illərdə eşitmişdi ki, Miskin Abdalın Gədəbəyin Çamburan kəndində yaşayan Vaqif müəllimdə külliyyatı-şeirləri var. Atam çox götür-qoy edirdi ki, bu şeirləri mən necə qələmə ala bilərəm. Atamın Gədəbəyin Dəyə Qarabulaq kəndində yaşayan qohumları Seyid Rzanın nəvəsi Adil Abbas oğlu var idi. O, Adilə məktub yazdı. Məktubda yazırdı ki, "Adil Vaqif

[1] "Ədəbiyyat və incəsənət qəzeti" – 30 noyabr 1974, qələmə alıb: folklorşünas Sədnik Paşayev, Məmməd Aslan.

müəllimgilə gedərsən, onda Miskin Abdalın şeirləri var. Onu yazıb mənə göndərərsən". Məktubu yola saldı. Aradan xeyli keçdi, məktuba cavab gəldi. Məktubda Adil yazırdı ki, "Vaqif müəllimdə Miskin Abdalın şeirləri çoxdur. Vermir yazam. Müəllim bir az əsəbidir, yaxşı demir. Nə də əvvəllər yazdığı dəftəri mənə vermir ki, köçürəm. Çox dindirmək olmur. 2-3 dənə şeir yazmışam. Bunların qafiyələri də birdən pozulur. Əgər lazım olsa, Zeynalabdin müəllim, gəl Gədəbəyə, Vaqif müəllimgilə gedək, yazaq".

Aradan xeyli keçdi, atam birinci 1980-ci ildə, ikinci dəfə 1986-cı ildə Gədəbəyə gedir. Adil isə aradabir məktub vasitəsilə M.Abdalın şeirlərini göndərirdi. Atamın 1980-ci ildə Gədəbəyə getməyi mənim yadımdadır. Mən onda institutda oxuyurdum. O, Gədəbəyə qohumu Adillə birlikdə Vaqif müəllimgilə gedir. Vaqif müəllimi dilə gətirirlər. Ondan M.Abdalın bir neçə şeirini qələmə alırlar. İndi isə o şeirləri verməyi məqsədəuyğun bildik.

## GƏRAYLILAR

### QALDI

*Gəraylı*[1]

Eşit deyim, dünya, səndə
Ayım, ilim, yazım qaldı.
Qövr eyləyir söz sinədə,
Dil-dil ötən sazım qaldı.

[1] Zeynalabdin Mahmudoğlu – "Xatirələrim", Bakı 2003

Yar sevmişdim, yarım getdi,
Var yığmışdım, varım getdi.
Eşqim, etibarım getdi,
Ahım, ünüm, sızım qaldı.

Qayaları sökdürərdim,
Zərdən saray tikdirərdim.
Yağıları çəkdirərdim,
Mənnən təpər dözüm qaldı.

Ərşə-gürşə bəlli əslim,
Yaradana ollam təslim,
Adnan, sannan olan nəslim,
Bir oğlum, bir qızım qaldı.

Hər nə varsa hədər imiş,
Hər şey gəldi-gedər imiş.
Ölüm yaman betər imiş,
Yol-ərkanım, izim qaldı.

Şadman könlüm tarimardı,
Şanda balım zəhrimardı.
Gündüz-gecəm ahu-zardı,
Şirin-şirin sözüm qaldı.

Yaşayan kim, ölən kimdi,
Ağlayan kim, gülən kimdi.
Gedən gedir, gələn kimdi,
Nə mizrabım, nə sim qaldı.

Yoxdu daha şahənşahım,
Ərşə bülənd oldu ahım.
Adım, sanım, qibləgahım,
Haqq çağıran səsim qaldı.

Telli saza mizrab vurdum,
Sözdən neçə xana qurdum,
Yorulmaram ruhlar yordum,
Sözüm düzüm-düzüm qaldı.

Bir səcərəm, bir kəşküləm,
Gur ocağım, odum qaldı.
Yığın-yığın varım-mülküm,
Al qumaşım, bezim qaldı.

Dünya puçdu, puçdu dünya,
Dünya heçdi, heçdi dünya.
Abdal, yaman keçdi dünya,
Yaşamaqda gözüm qaldı.

## VAR
### *Mədhiyyə*[1]

Şükür haqqın dərgahına,
Əhvalımı (Mətləbimi) soranım var.
Sirli qüdrət Heydər kimi,
Köməyimdə duranım var.

[1] "Xatirələrim", Bakı-2003, Zeynalabdin Mahmudoğlu

Əbdüldavid pəhləvanı,
Yerə vurdu çıxdı canı.
Gəşt eyliyən asimanı,
Div qolunu buranım var.

Mətləbini haqdan ala,
Abdal olmaz darda qala.
Müsəlmana qanun ola
Bir müqəddəs Quranım var.

## QOCALIRAM[1]
***Gəraylı***

Ay dolaşıb, il ötüşür,
Yavaş-yavaş qocalıram.
Ötən çağlar yada düşür,
Əriyir yaş, qocalıram.

Nə qədər həmdəmim vardı,
İndi mənlə qalan yardı.
Şəvə kimi telim vardı,
Çallaşıb baş, qocalıram.

Hayıf, ömür getdi bada,
Qoy car olsun dosta, yada;
Sözüm keçmir arvada da,
Bişməyir aş, qocalıram.

---

[1] *"Xatirələrim", Bakı-2003, Zeynalabdin Mahmudoğlu*

Zimistandır hər gələn yaz,
Dünya uzun, ömür nə az...
Dilimdə söz, əlimdə saz,
Gözümdə yaş, qocalıram.

Miskin Abdal bəlli adım,
Pərvazlanmır qol-qanadım...
Qayaları oynadardım –
Tərpənmir daş, qocalıram.

## İMAM İRZA

***Mərsiyə***[1]

Ahulara zamın olan,
Qara bulud kimi dolan,
Xorasanda şahid olan,
Qərib olan məzlum İrza,
Şəhid olan İmam İrza.

Zəhərlə gültəki solan,
Bacı deyib darda qalan.
Vay ciyərləri doğranan,
Qərib olan məzlum İrza,
Şəhid olan İmam İrza.

---

[1] *"Xatirələrim", Bakı-2003, Zeynalabdin Mahmudoğlu Miskin Abdalın İmam Hüseynin şəhid olmasına aid dediyi şeir.*

Ölsəm, məni kim ağlayar?
Bacı, gözüm kim bağlayar?
Mənə əzam kim saxlayar?
Qərib olan məzlum İrza!
Şəhid olan İmam İrza!

Məlun mənə verdi zəhər,
Bir kimsəm yox, Qərib şəhər (ey Şəhriyar?)
Vay, bacıma eylə xəbər.
Qərib olan məzlum İrza!
Şəhid olan İmam İrza!

Ey sələf, bacım gəlmədi,
Başım diz üstdə olmadı,
Öldü, didarı görmədi.
Qərib olan məzlum İrza!
Şəhid olan İmam İrza!

Babandı kövsəri saqi,
Ey qərib Hüseynin (Abdal) baqi,
Çünki gəlməz başa taqi,
Qərib olan məzlum İrza!
Şəhid olan İmam İrza!

Qərib Miskin sənə qurban!
Niyə belə gəldi dövran?
Çoxdur mənim qəmim, nalam.
Qərib olan məzlum İrza!
Şəhid olan İmam İrza!

### DİVANİ[1]

Xoş bəyanlıq virdim oldu, böhtana yol vermədim,
Şirin süxən əndəlibəm, hədyana yol vermədim.
Nifrin edib, lənət dedim xainə, iblislərə,
Qəlbimi ayna saxladım, şeytana yol vermədim.

Bir bəşəri incitmədim, kəndimi şah saymadım,
Dost sirrini söyləyib, dildən-dilə yaymadım.
Ömür qısa, dünya əsəl, az yaşadım, doymadım,
Dürr mətaha meydan açdım,tək cana yol vermədim.

Aşiq olub dər salanlar, söz desin sözüm kimi,
Miskin Abdal, məğrur istə hamını özün kimi.
Arifi, mətləb qananı bilirəm (bişirəm) gözüm kimi,
Sinəm üstən mərd yeridir, nadana yol vermədim.

## QOŞMALAR

### AYAQ ÜSTDƏDİ[2]

Səhərdən bir bağın gəştinə (keştinə) vardım,
O bağın bağbanı ayaq üstdədi.
Könlüm pərvaz edir yarı görməyə,
Yatmayıb seyrəqub, ayaq üstdədi.

[1] *Zeynalabdin müəllim Vaqif müəllimdən qələmə almışdır.*
[2] Zeynalabdin Mahmudoğlu. “Xatirələrim”, 2003

Haqqa salam verdim, aldı salamı,
Ya Rəbb, bu gözəllik sənə qalarmı?
Alnına yazılıb haqqın kəlamı,
O qələm tutanlar ayaq üstdədi.

Məni belə gördü xilaf eylədi,
Ya Rəbb, Musa Tur dağında neylədi?
Qırxlar məclisində qulluq eylədi,
Ağam Şahi-Mərdan ayaq üstdədi.

Seyrəqublar yar köksünü atdılar,
Ağ (al) üzünə yaşıl birxa (bürqə) tutdular (gətdilər).
Peyğəmbər Şahına nişan gətdilər,
Cəbrayıl tutubdu, ayaq üstdədi.

Miskin Abdal deyər, ismim ərətdi (ərəsdi),
Eşqin piyaləsi dolu şərabdı,
Şahım, nə yatıbsan, dünya xarabdı,
Haqq özü yatmayıb, ayaq üstdədi.

## YETİŞ DADIMA[1]
### *Qoşma*

Əshabi-Kəhfdəki ya İmamzada,
Sən yetiş dadıma, yetiş dadıma.
Yolumla, izimlə dövri-qəzada,
Sən yetiş dadıma, yetiş dadıma.

[1] "Xatirələrim", Bakı-2003, Zeynalabdin Mahmudoğlu

Kəsir yollarımı boran, qar mənim,
Qırır taqətimi, ahu-zar mənim.
Ümidim, inamım haqqa var mənim,
Sən yetiş dadıma, yetiş dadıma.

Dolubdur ürəyim, kədərlə, qəmlə,
Gəlmişəm baş-başa dərdi-sitəmlə.
Kəpkəp(kəbkəb) itim ilə, dolu heybəmlə,
Sən yetiş dadıma, yetiş dadıma.

Abdal pak bəndədir, yoxdur günahı,
Doğma Göyçəsində çəkməsin ahı.
Çağırır sidq ilə qadir Allahı:
- Sən yetiş dadıma, yetiş dadıma.

## YA ƏLİ[1]

Ələstü-rəbbi kəm xitab olanda,
Xub qailəm o adına, Ya Əli!
Qabzuya bəm deyib İmam gətirdim,
Bərqəraram o adına, Ya Əli!

O, zey-fey adına, ol nuru safa,
Yetişdi şainə hər qulu kafa,
Yerin dəhanında dini Mustafa,
Sərxeyi karbanın cida Ya Əli!

[1] Zeynalabdin müəllim Vaqif müəllimdən qələmə almışdır.

Fəthi Şəhri, zəri qatili sal-sal
Mürşüdi-cəbrayıl, Şahi beyzəvval.
Qəşəm şəm, Qəzənfər şirü Zülcəlal,
Müsəlmansan, bil min ada, Ya Əli!

Əzrayıl cəngəli cana çalanda,
Ruhum pərvaz olub cəsəd qalanda.
Üz xana döşənib zəlil olanda
Özün yetiş, o fəryada, Ya Əli!

Məhşər günü özün tutarsan camı,
Tutsun ətəyindən niga bədxamı (bathamı).
Seçmə muxsullardan[1] Miskin Qulamı,
Kərəmi tusərdən badə, Ya Əli!

## MƏNİ[2]

Gecə yuxum yoxdu, gündüz qərarım,
Rüzgarın qoyubdu adada məni.
Tərəqqi dağından uçubdu tayım,
Fələk niyə saldı bu dara məni.

Doğru söz deməyə çox utanıram,
Çünki zamanını bir az qanıram.
Elə alovlanıb, elə yanıram,
Söndürə bilməzlər suda da məni.

[1] Muxsul – yoxsul.
[2] Zeynalabdin müəllim Vaqif müəllimdən qələmə almışdır.

Mən Miskin Abdalam, - düstağı-dərdəm,
Görmədim baharı ömrümdə bir dəm.
Ədalət yolunda elə bir mərdəm,
Qorxmaram əjdaha uda da məni.

## DOLANAR[1]

Şişpilləkən dağların şiş dağıdı,
Maralları neçə başı dolanar.
Quldur ancaq bu yerlərə yağıdır,
Fürsət güdər dağı, daşı, dolanar.

Ətəyində durnagözlü gölü var,
Zirvəsində dərilməmiş gülü var,
Yağılara basılmayan eli var,
Yazda yazı, qışda qaşı dolanar.

Torpaqları zər yükünə yüklənib,
Könül sazı Şahsevənə köklənib;
Karvanları uzaq səmtə diklənib, -
Nagah-nagah burda naşı dolanar.

Basılmazdı hər igidi, ərəni,
Biri saxlar neçə bəndi, bərəni.
Baxıb görsə dağda çiçək dərəni,
Ürəyində can ataşı dolanar.

[1] *Zeynalabdin müəllim Kərəm dayısından 1972-ci ildə qələmə almışdır.*

Doğmaları bu torpağa yad olmaz,
Qəriblərin dəhanında dad olmaz.
Qürbət eldə Miskin Abdal şad olmaz,
Gözlərində kədər yaşı dolanar.

## ƏLİF - LAM[1]

Təmiz əkilmişəm, pak doğulmuşam,
Atadan-anadan, lütfi-halalam.
Dərsimi haqq verib, haqdan (ağdan) almışam,
Dilimdə əzbərdi doxsan min kəlam.

Qafdan qərar tutdu külli kainat,
Qafdan qərar tapmış, kafdan kainat,
İsmi feyli hərfi olmuş əsli zat.
Qeydəm (beydəm) bəna tutub, kaf-nundan nicat,
Yerdən bişərikdi, bişərikdi lam.

Əlifdən əladı, alidən ali,
Cimnən(cimdən) dücəhandı, böyük cəlalı,
Mənnən (mindən) mehribandı, məddi-məlalı,
Nun - hər vaxt zəlili (zəmini) yox edib tamam.

Min şükür sanalar vov (vav) simə,
Hey həlim, pey rəhmi acı hel – (yel) əsmə.
Zey zəlil bəndədən, sin nəzər kəsmə,
Sat sahib ixtiyar, min həqir qulam.

[1] *Lam - ad.*

Ocaqzadə bir təb əhli nökərəm,
Kuyində qələndər, sinədəftərəm.
Mimnən Məhəmmədəm, cimnən Cəfərəm,
Ləqəbi çox olan Miskin Abdalam.[1]

## *YA BİR ALLAH, YA MƏHƏMMƏD, YA ƏLİ*[2]
### *Qoşma*

Bir kəlam var yaradandan pay alıb,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!
Bu üç kəlmə yerdən göyə yol salıb,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!

Yerin, göyün uzaqlığı yeddi qat,
Halallıqdan yaranıbdır bu həyat.
Yaxşıların imdadına yetiş çat,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!

Bu dünyanın dərdi çoxdur - dözülməz,
Bu dünyanın dərdi çoxdur - düzəlməz.
Nə yaxşı ki haqq incilər - üzülməz,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!

Adəm oğlu acgöz deyil, toxdu-tox,
Bu dünyanın şeytanları çoxdu-çox,

---

[1] *"Ədəbiyyat və incəsənət" qəzeti, 30 noyabr 1974, Sədnik Paşayev, Məmməd Aslan. Bu şeiri Zeynalabdin müəllim Vaqif müəllimdən qələmə almışdır.*
[2] Zeynalabdin müəllim Kərəm babadan 1970-ci ildə qələmə almışdır.

Sizdən başqa köməyimiz yoxdu-yox,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!

Haqq üstündə bərqərardı asiman,
Haqq yolunun yolçusudur müsəlman,
Miskin Abdal çağırıbdır hər zaman,
Ya bir Allah, ya Məhəmməd, ya Əli!

## MİSKİN ABDAL HAQQINDA RƏVAYƏTLƏR

**1)** 15 dekabr 1985-ci ildə Basarkeçər (Vardenis) rayonunun Sarıyaqub kəndində Miskin Abdalın ocağında olduq. Atam Zeynalabdin müəllimlə bu ocağı ziyarət etdik. Sonra ocağın üstündə duran hal-hazırda yaşayan Məsimova Əsmətel nənəni dindirdik. Əsmətel nənə Miskin Abdal ocağında belə bir rəvayət söylədi.[1]

Miskin Abdal Halavar Pəmbəyindən Sarıyaqub kəndinə gələndə bu yerlər olduqca sıx meşəlik idi. Çay kəndin içindən burula-burula daşırdı, həm də kəndi yarı bölürdü. Həmin dövrdə bu kənd 20 evdən ibarət idi. Miskin Abdal kəndin yuxarı hissəsində dağın ətəyindəki qalın meşəlikdə elə məlahətlə çalar-oxuyarmış ki, gəl görəsən, marallar, ceyranlar və quşlar aşığı dövrəyə alarlarmış, hətta marallar məlul-məlul yerə uzanıb qabaq ayaqlarını irəli uzadıb, başlarını ayaqları üzərinə qoyub sanki aşığı dinlərmişlər. Əsmətel nənənin dediyinə görə, Abdal

[1] Bu əhvalatı Zeynalabdin müəllim oğlu Əmiraslanla bir yerdə qələmə alıb.

kənddən kənarda yaşayarmış, yəni pis sözləri mən eşitməyim və pis adamların üzünü görməyim. Miskin Abdal ilin bütün fəsillərində soyuq suda çimərmiş, hər vaxt bulağın gözündən soyuq suyu mis parçına doldurub içərmiş.

Deyilənlərə görə, Şah İsmayıl Xətai ona ozanlar ozanı – aşıqlar aşığı adını vermişdir. Onun ağzından nur tökülərmiş, onun şadlıq məclislərində olanlar deyirmiş ki, kaş ki, bir də olaq. Əsmətel nənə qeyd edirdi ki, ay bala Miskin Abdal həqiqətən, fitri istedada malik idi. Miskin Abdal 150 ilə yaxın ömür sürmüş, axırda bir abid kimi qaib olmuşdur.

**2)**Hal-hazırda Sarıyaqub qəbiristanında Batmanqılıncın qəbri var. Qəbrin baş daşında yazılmışdır ki, Batmanqılınc Miskin Abdalın nəslindəndir. Miskin Abdalın ocağına mənsubdur.

**3)**Əsmətel nənənin dediyinə rəvayətə görə, Şah Abbasın qoşunu Göyçəyə gəlir, oradan da Sarıyaqub kəndinə gedir. Şah Abbasın qoşunu ac imiş. Şah Abbas Miskin Abdaldan yemək tələb edir ki, bu gün qoşuna yemək verməlisən. Miskin Abdal qoşuna bir bayda qatıq və bir kömbə verir. Əvvəl Şah Abbasın acığı tutur, istəyir ki, Miskin Abdalın boynunu vurdursun. Miskin Abdal ədəb-ərkanla deyir ki, şahım sağ olsun! Sənin qoşunun bismillah etsin yesin, əgər yesələr, sən deyən olsun. Əgər yeməsələr, mən deyən olsun. Qərəz ki, qoşun yeməyə başlayır. Nə qədər yeyirlərsə, qurtarmır ki qurtarmır. Qoşun yeyib doyur, layiməst olur. Şah Abbas deyir ki, həqiqətən Miskin Abdalın ocağında möcüzələr var. Şah Abbas onu gözəgörünməz möcüzəli aşıq adlandırır.

**4)** Miskin Abdal Calaloğlu (Stepanavan) rayonunun Halavar Pəmbəyində olanda onun ocağına marallar gəlib sığınarmış. Bir gün Miskin Abdalın arvadı maralları sağanda marallardan biri onun ayağını ayaqlayır. Miskin Abdalın arvadı marala acığı tutub deyir ki, səni ovçunun bir acı gülləsinə rast gələsən. Miskin Abdal arvadına acığı tutub əlindəki abtafanı ona tullamazdı atır. Sonra sərdənin orta ocağından bir yanıq kösöv götürüb atır. Abtafa düşən yerdə abtafa formasında bir bulaq əmələ gəlmişdi. İndi bütün camaat hamı deyir ki, bu bulaq Abdal bulağıdır. Hamı bu bulağın soyuq suyundan içir, "min rəhmət" diləyir. Yanıq kösöv düşən yerdə bir alma ağacı bitibdir. Bu yanıq, yəni litsənin bir üzü yanıq, bir üzü qırmızıdır. Camaat bu alma ağacını ziyarət edir. Qurban kəsirlər və niyyətləri hasil olur.

**5)** Əsmətel nənənin dediyinə görə, 1918-ci ildə bala, Nikolay hökumətinin qoç bəyləri erməni və Azərbaycan xalqları arasında millət davası salmışdır. Əvvəllər müsəlmanlar erməniləri qovaladılar. Sonra, bala, Daşnak hökuməti ermənilərə kömək etdi. Müsəlmanlar baş götürüb qaçırdılar. Ümumən, erməni və müsəlmanlar arasında milli qırğın başladı. Həmin vədələr indiki bizim kəndimizin camaatı da qaçdı, evlər dolu qaldı, mal-qaranı kimi apara bildi, kimi isə apara bilmədi. Malların, qoyunların mələşməsi, itlərin ulaşması sanki insanı və öz varlığı ilə bütün həyat yaradan təbiəti ağladırdı. Bizim evimizdə Miskin Abdalın ocağı dolu qaldı. Oğul, o zaman dağlıq bir ətəkdə yerləşmiş olan Qırxbulaq kəndi var idi. Bu kənddə ancaq ermənilər yaşayırdı. Onlar tez bir müddət-

də bizim kəndə dolub evləri qarət edir, əmlakımızın bəzi hissəsini yandırır, kəndin müdrik ağsaqqal və qocalarını ocağa atırdılar. İki erməni Abdal ocağının var-yoxunu talan etmək və bu evləri sökmək üçün burada qalır. Bunlar gecə burada yatırlar. Ermənilərdən biri gecə görür ki, ocaqda qəfildən bir şey yanıb-sönür və bu zaman ocağın içindən gözləri qara, göyçək bir qız çıxdı. Qız deyir ki, ay erməni, özümüzü viran etdiniz, doğma ocağıma, yuvama dəymə. Arakel yuxunun içində o yan-bu yana çapalayır, qorxusundan dil-dodağı təpiyir. Dodağı cırıq-cırıq olur. Erməni qıza deyir ki, and olsun o Allaha, sənin yuvana dəyməyəcəm. Bu sözü eşidən mələykə qız erməniyə deyir ki, neçə ki nəslin yer üzündə yaşayacaq, varlı-hallı, hörmətli və rütbəli olacaq. Qərəz ki, səhər açılır, erməni Arakel gecə yuxusunda gördüklərinin hamısını dostuna nəql edir və ətraflı danışır. Erməni yoldaşı bu yuxuya inanmır, o, qəflə-qatırını sürüb Abdal ocağına gəlir və burada nə varsa hamısını arabalara yükləyir. Erməni öz qəflə-qatırı ilə yola düşür. Həmin ermənininin gözünün ağı-qarası olan bircə oğlu var imiş. Ermənininin Qırxbulaq kəndindəki damı uçur və oğlu altında qalır, qalan ailəsi çığıra-çığıra ölür. Elə bu vaxt camaat gəlir, damın uçdu, oğlun torpağın altında qaldı, qalan ailən çığıra-çığıra öldü. Qərəz ki, arabalar yüklü qalır. Erməni çaparla gedir, ailəsini torpaqdan çıxartdırır, illər boyu yadda qalır.

Payız getdi, qar yağdı, qış gəldi. Bu zaman arabalar qarın altında qaldı. Yaz başı dilbilən ermənilər Abdal ocağının əşyalarını qapısına töküb kor-peşman getdilər. Abdal ocağını dağıdan ermənininin nəsli kəsilir. Ancaq Arakel Abdal ocağına dəymir. Səhər çıxıb gedir. O, Qırx-

bulaq kəndində hörmətli və varlı adamlardan biri olmuşdur. Arakel 1949-cu ilə qədər yaşamış və həmişə ocağı ziyarət etmiş, ona nəzir vermişdir, hətta Abdal ocağının nəsli ilə dost və qardaş olmuşdur.

**6)**Miskin Abdalın[1] yadigarlarını qız nəsillərindən olan kimsə qoruyur, dünyadan gethagetdə nəsildən ağlı kəsən bir qız uşağına tapşırır, o da baba evinə gəlib, ömür boyu ziyarətlik şeylərin qayğısına qalır. Miskin Abdalın qamçısının dəstəyi qalıb. Dolaq simi necə kəsibmişsə, yeri buruq-buruqdu. Əlinin əsası da beləcədir. Əsmətel nənə deyir ki, ömründə bircə yol Abdal babam hirslənib. Onda da çəliyi əlində burulub, bax, bu cür olub... Qələmdanı, 1515-ci ildə Səfəvi dövləti tərəfindən ona verilmiş şəhadətnamənin əsli (bu şəhadətnamənin həqiqətən Miskin Abdala verildiyini 1820-ci ildə Çaxırlı kəndxudası – Göyçə mahalında yenidən təsdiq etmişdir), haçadil atının bədnəzər duası, çuxasının ətəyi, ocaqdan xörək qabı, bel üzü, kaşı möhürü, farmaşı... Əsmətel nənə bunların hərəsi haqqında şirin bir əfsanə söyləyir. Bunlardan birisi çəliyi və məşhur "Dağlar" rədifli qoşması ilə əlaqədar olduğundan maraqlıdır. Əfsanəni Əsmətel nənə necə buyurubsa, eləcə də yazıya almışam:

- Abdal babam, bir zamanlar Maymaq dağının ətəyində Halavar Pəmbəyində (Ermənistanın Qara Kilsə (Kirovakan) rayonundadır) yaşayırmış. Ocağına maral sürüsü gələrmiş. Arvadı bunları sağıb qatıq çalarmış. Güzəranları bundan aşarmış. Bir axşam şər qovuşur, marallar ocağına gəlmir. Handan-hana sürü qapıya yaxınlaşır.

[1] Bu yazıyı da Zeynalabdin müəllim oğlu Əmiraslanla qələmə almışdır.

Arvadı südü sağıb ocağın üstünə qoyur. Böyürdən qalxan alov qazanın içini işıqlandıranda arvad baynövsə ilə ərini çağırır: – Evin yıxılmasın, ay Abdal, marallardan qan sağılıb, südü qan kəsdi.

Abdal babam deyir ki, yəqin Şadman haradasa nahaq qan tökdü. Şadman babamın oğlu imiş. Gecənin bir aləmində Şadman gəlib çıxır. Öyünür ki: "Ata, arxayın yat, qəlbinə bir adam dəymişdisə, əvəzində 10 adamın qanını axıtmışam".

Babam qəzəblənir, çəliyi əlində beləcə burum-burum burulur. Arvad oğlunun tərəfini saxlayır. Abdal babam hirsindən ocaqdan bir armud kösöyünü onun arxasınca atır. Kösöy yerə sancılır. Höyüş olduğundan kök atıb-bitmir. Qannıçılığa görə babamın barxanası yüklənir, Gədəbəyin Şınıx xanlığına yol başlayır. Bu sözü də dağlara aid onda deyir:

*... Nəs illərdən satın aldın pis günü,*
*Çağırdın dumanı, tökdün çiskini,*
*Gözüyaşlı qoydun Cida Miskini,*
*Eylə gülə-gülə tamaşa, dağlar.*

Miskin Abdalın oğlanlarından Batman Qılıncın və Əli Qılıncın, nəvələrindən Məsimin və Məmmədxocanın məzarları Göyçənin Sarıyaqub kəndindədir. Ustad aşığın bugünkü törəmələri Əli Qılıncdan olanlardır. Batman Qılıncın övladı olmamışdır.

İndi isə Hüseyn İsmayılovun yazmış olduğu **"Miskin Abdal haralıdır?"** məqaləsindəki bəzi rəvayətləri verməyi məqsədəuyğun bildik.[1]

---

[1] Hüseyn İsmayılov. Sovet Ermənistanı qəzeti. 20 may 1986.

Ellilәri vә bizim dә bildiyimizә görә, Miskin Abdal Göyçәnin Sarıyaqub kәndindә doğulub, boya-başa çatmışdır. Tәәssüf ki, Sәdnik müәllim, siz heç bir dәlilә-sübuta әsaslanmadan, heç bir şübhә vә tәrәddüd etmәdәn Miskin Abdalın Qazax mahalının Dağkәsәmәn kәndindә, mәşhur "Hun arxı"nın sahilindә dünyaya göz açıb Qazax mahalından olduğunu yazırsınız.

Sәdnik müәllim, belә bir sual meydana çıxır:

Görәsәn, başqa-başqa yerlәrdә doğulmuş aşıqları Göyçәyә gәtirib çıxaran nә olmuşdur?

Sizin fikrinizcә, Miskin Abdal Xәtai mәslәkinә yaxın olduğundan şiәliyi geniş tәbliğ edirdi. Belә isә, necә ola bilәr ki, şiәlik vә sünnilik arasında kәskin münaqişә getdiyi bir dövrdә Miskin Abdal әhalisi sünnilәrdәn ibarәt olan Dağkәsәmәnli olsun. Yazdığınıza görә, Şah İsmayıl Xәtainin göstәrişi ilә Miskin Abdalın ailәsi Dağkәsәmәndәn indiki Gәdәbәy rayonunun әrazisinә köçürülür. Çaldıran müharibәsi әrәfәsindә isә Miskin Abdalın qohumları yenidәn Xәtainin әmri ilә Maymaq dağının әtәyinә göndәrilir.

Görәsәn, bu köçürmәnin mәqsәdi nә imiş? Sәfәvi qoşunu üçün qoyun sürüsü, at ilxısı saxlamaqmı?

Әgәr belәdirsә, bәs şahın qoşunu üçün elә Dağkәsәmәndә, Qarabulaqda, Qalakәnddә vә Çalburunda da naxır, yaxud ilxı saxlamaq mümkün deyildimi? Başqa bir tәrәfdәn, Şah İsmayıl kimi qüdrәtli bir hökmdarın malqarasını saxlamağa adam tapılmadımı? Bu işlә elә Miskin Abdal vә onun qohumlarımı mәşğul olmalı idilәr?

Sәdnik müәllim, mәqalәdә nәdәnsә Göyçәnin adının üstündәn sükutla keçirsiniz. Yalnız bir yerdә yazırsı-

nız: "Miskin Abdalın oğlanlarından Batman Qılıncın və Əli Qılıncın, nəvələrindən Məsimin və Məmmədxocanın məzarları Göyçənin Sarıyaqub qəbiristanındadır". Sormaq istərdik, sizin fikrinizcə, Göyçəylə heç bir əlaqəsi olmayan Miskin Abdalın oğlanları nəyə görə Sarıyaqub qəbiristanında dəfn olunmuşlar?

Miskin Abdalın **"Dağlar"**ı Aşıq Ələsgərin silsilə **"Dağlar"** şeirləri üçün bir örnək olmuşdur. Bizə elə gəlir ki, hər iki sənətkarın "Dağlar" şeirlərindəki oxşarlığı, doğmalığı Göyçə aşıq poeziyasının ənənə və varislik əlaqələrində axtarmağınız daha doğru, daha qanunauyğun olardı.

Miskin Abdalın Sarıyaqubda yaşamasını heç bir vəchlə inkar etmək olmaz. Bununla belə deyə bilərsiniz ki, o, Göyçəyə köçüb gəlmişdir. Onda sual oluna bilər: Görəsən, Miskin Abdalı Göyçəyə çəkib gətirən nə olmuşdur? Bəlkə o, aşıqlıq öyrənməyə gəlmişdir? Bəlkə də bu mahalda aşıqlıq sənətini yayan elə Miskin Abdal olmuşdur?

Tarixi həqiqətlərə, inkar olunmaz dəlillərə əsaslanaraq bu suallara belə cavab vermək istərdik: Bəli, Miskin Abdalın körpə yuxusuna ilk saz sədası ana laylaları ilə birlikdə Sarıyaqubda axmışdır.

Miskin Abdalın atası Məmmədcəfər Şeyx Heydərin (Şah İsmayıl Xətainin atası) yaxın dostlarından və onun yeritdiyi siyasətin güclü təbliğatçılarından biri olmuşdur. Şeyx Heydərin hökmranlığı dövründə etibarlı adamlar ölkənin ayrı-ayrı əyalətlərinə göndərilir, əhali arasında Qızılbaşların ideyalarını təbliğ edirlərmiş. Bu vaxt Məmmədcəfər bir dəstə adamla Dərələyəzə, Vedibasara və Göyçəyə göndərilir. Məmmədcəfər əvvəlcə Dəliqardaşda, sonra isə Sarıyaqubda məskən salmalı olur.

Şeyx Heydərin ölümündən sonra onun yaxın adamlarına divan tuturlar. Bu zaman Məmmədcəfərin Miskinli adlanan tayfası İranı tərk edir, onun yanına – Sarıyaquba gəlir. Təxminən burada il yarım, iki il qaldıqdan sonra Miskinli tayfasının bir hissəsi indiki Gədəbəy rayonunun ərazisinə köçür, oranı özlərinə məskən seçirlər.

Məmmədcəfər Sarıyaquba gəldiyi ilk illərdə onun bir oğlu olur. Uşağı Hüseyn adlandırırlar. O, hələ gənc yaşlarından öz ağlı, kamalı ilə hamını heyran qoyur. Deyilənlərə görə, o müstəsna qabiliyyətə malik imiş. Hüseyn mükəmməl təhsil almaqla yanaşı, aşıq sənətinin sirlərini də dərindən yiyələnə bilmişdir. Az vaxtda bacarığı və qabiliyyəti ilə xalq arasında böyük şöhrət qazanmışdır. Onun şeirləri tezliklə dildən-dilə düşmüş, məclislərin bəzəyinə çevrilmişdir. Hüseyn bir el şairi kimi məşhurlaşdıqdan sonra tayfasının adını – Miskin Abdal təxəllüsünü qəbul etmişdir. 1499-cu ildə Şah İsmayıl Göyçədə olarkən atasının yaxın adamlarından biri olan Məmmədcəfərin el-oba içərisində böyük şöhrət qazanmış oğlu Miskin Abdalla görüşür. Şah İsmayıl istedadlı şairin onun ordusunda xidmət təklifinə etiraz edərək, ona öz doğma yurdunda qalmağı məsləhət görür.

Miskin Abdal bir dəfə xüsusi tapşırıqla Dağıstana göndərilir. Orada Dağıstan xanı ilə tanış olur. Xan onun ləyaqətli, ağıllı və müdrik bir adam olduğunu görür, onu öz yanında saxlamağı qərara alır. Dağıstan xanının təklifini qəbul edən Miskin Abdal iki ildən artıq orada işləyir, böyük hörmət qazanır. Dağıstanda olduqda gözəl bir qadınla evlənir. Qadın Miskin Abdaldan yaşca böyük olsa da, onları ülvi bir məhəbbət birləşdirmişdi. Həmin qadı-

nın Şadman adlı igid bir oğlu var imiş. Bir dəfə Şadmangilin atları qonşular tərəfindən oğurlanır. Şadmanla qonşular arasında dava düşür. Şadman onlardan üç nəfərini öldürür. Bundan sonra araya qan davası düşdüyündən Miskin Abdal Dağıstandan vətənə qayıdır. O, köçünü yığıb doğma kəndinə – Sarıyaquba qayıdır və bir daha dövlət işlərində işləməyəcəyini bildirir. O, el-el, oba-oba gəzib şiəliyi təbliğ edir. Bu dövrdə Türkiyədə şiələrə ciddi divan tuturdular. Qızılbaşlar Sultan Səlimin hökmü ilə edam olunurdular. Həmin ərəfədə Türkiyədə olan Miskin Abdalı Sultanın cəza dəstəsinin nümayəndələri görürlər. Onlar Miskin Abdaldan sünni, yoxsa şiə olduğunu soruşurlar. O, isə çəkinmədən özünün şiə olduğunu söyləyir. Dərhal Miskin Abdalı çəkirlər dar ağacının altına və ipi keçirirlər onun boğazına. Cəllad aman verir ki, ölümündən qabaq nə sözü varsa, desin. Miskin Abdal xahiş edir ki, sazımı versin, sazla deyəcəm. Bu təklif meydana toplaşanların ürəyindən olur. O, sazı sinəsinə basıb **"Ağlaram"** qoşmasını oxuyur:

*Dostu-mehribanım, yetiş imdada,*
*Səndən qeyri yox imdadım, ağlaram.*
*Ah çəkib dağlara salaram səda,*
*Qohum gəlməz, gülər yadım, ağlaram.*

*Dəstində Zülfüqar, Düldülə süvar,*
*Məhsəril-əcaib, bir adı kərrar.*
*Müşkülə düşmüşəm, könlüm intizar,*
*Sən gəlməsən, ey ustadım, ağlaram.*

*Salma nəzərindən, salma, ilahim,*
*Dar gündə köməyim, püştü pənahim.*
*Ərşə bülənd olub fəryadı – ahım,*
*Abdaldı, Miskindi adım, ağlaram.*

Onun məlahətli səsi, xoş avazı camaatı heyran qoyduğundan Sultandan xahiş edirlər ki, aşığı bağışlasın. Camaatın xahişini nəzərə alan Sultan Miskin Abdalı azad eyləyir.

İrana gedən Miskin Abdal Şah İsmayılla görüşməyi qərara alır. Onu səmimiyyətlə qəbul edən Şah İsmayıl aşığın başına gələnlərin hamısı ilə tanış olur. Şah Miskin Abdala doğma vətənə qayıtmağı tapşırır. O, yenidən Göyçə mahalına qayıdır və Şah İsmayılın ideyalarını hərarətlə təbliğ etməyə başlayır. Bir qədər keçdikdən sonra Şah İsmayıl Göyçəyə qoşun çəkir və Qaraqoyunlu dərəsində güclü müqavimətə rast gəlir. Qaraqoyunlunu aldıqdan sonra Miskin Abdalla 1515-ci ildə görüşür. Xüsusi fərmanla Sarıyaqub kəndini ona bağışlayır. Şah öz fərmanında Miskin Abdala bəslədiyi böyük rəğbəti ifadə edərək yazırdı: **"Ey mömin insanlar, Miskin Abdal mötəbər şəxsdir, ona inanın; nə mətləbiniz varsa, diləyin".** Şah İsmayıl Göyçənin "dəniz güneyi" nə gedib "Fındıqlı" dərəsinə enərkən Çəmbərəyin yaxınlığındakı "meydanın düzü" deyilən düzəngahda iki gün dincəlir. İndi isə bu meydanı **"Şah meydanı"** adlandırırlar.

Heç bir rəvayətdə və yaxud şeirdə M.Abdalın Çaldıran müharibəsində iştirak etməsinə təsadüf edilmir. Miskin Abdal qoca yaşlarında da elin-obanın xeyrinə, şərinə

yarayır, hətta çox mühüm məsələlərin həllində xanlıqların işlərinə cəlb olunarmış.

Təxminən XVI əsrin ortalarında İrəvan və Dağıstan xanlıqları arasında narazılıq baş verir. İrəvan xanı Miskin Abdalı öz yanına dəvət edərək münaqişəni sülh yolu ilə həll etmək üçün ondan Dağıstana getməsini xahiş edir. Miskin Abdal ona tapşırılmış məsələni müvəffəqiyyətlə həll edib qayıdarkən yolda vəfat edir. Oğlanları Əli Qılınc və Batman Qılınc gedib atalarının xurcununu, canamazını, paltarlarını, ona məxsus sənədləri və digər əşyaları gətirirlər. Əlbəttə, Əli Qılınc və Batman Qılınc atalarının harada dəfn edildiyini bilirlərmiş. Görünür, Miskin Abdalın harada dəfn olunması haqqında məlumat günümüzədək gəlib çatmamışdır. Deməli, aşığın qəbrini başqa yerdə deyil, Dağıstanda axtarmaq lazımdır.

Qüdrətli el sənətkarlarının dünyaya göz açdığı vaxtdan 500 ildən çox keçsə də, onun doğulduğu evi Sarıyaqublular qoruyub saxlayırlar. Onun törəmələri isə ulu babalarının ocağından qalxan tüstünü kəsmirlər. Bu tüstü Sarıyaqubun üstündə dövrə vurur, aramla Göyçə dağlarının zirvələri boyu yayılır. Miskin Abdalın dəqiq ünvanı bizə nişan verir.

Təəssüf ki, Miskin Abdalın oğlanları, bütün şəcərəsinin qəbirləri Göyçədə Sarıyaqub kəndində kimsəsiz qalıb. Bu doğma torpağımız yağı işğalçıların əsarəti altında qalıb. Gün o gün olacaq, o gün gələcək biz də Miskin Abdal ocağını ziyarət edəcəyik.

Hal-hazırda Miskin Abdal haqqında çox mübahisə gedir. Şair Müzəffər Şükürün 1978-ci ildə çap etdirdiyi **"Sazım-sözümdə"** məqaləsində Miskin Abdalın XVI əsr-

də Gədəbəy rayonunun Böyük Qaramurad kəndində anadan olduğu qeyd olunur.

Sədnik Paşayevin qeydiyyatında Qazax rayonunun Dağkəsəmən kəndində anadan olduğu qeyd olunur. Hüseyn İsmayılovun, Abbas Mazanovun (Çənmərək (Krasnoselo) rayonu), Şamil Əsgərovun (Kəlbəcər) verdiyi məlumatlara görə, Miskin Abdal Sarıyaqub kəndində anadan olmuşdur. Bəzilərinin dediyinə görə, Miskin Abdalın əsl adı İbrahim imiş.

Lakin Miskin Abdalın uzaq qohumları şair Miskinli Vəlinin (90 yaş), Cəlal Əliyevinsə (Gədəbəydə məktəb direktoru) yadicəsi Vaqif Məmmədovun verdikləri məlumata görə, Miskin Abdalın əsl adı Hüseyn imiş. Hüseynin atası (yəni Miskin Abdalın atası) Məmmədcəfər Şah İsmayıl Xətainin atası Şeyx Heydərlə dostluq edərmiş. Məmmədcəfər oğlu Hüseyni – Şah İsmayıl Xətainin yanına göndərir. Şah İsmayıl Hüseynin yazdığı şeirləri bəyənir və saz çalmaq bacarığına heyran olur. Onu sarayında saxlayır. Bundan sonra ona Şah Miskin Abdal ləqəbi verir. Şah İsmayıl dövlət işləri üçün Miskin Abdalı Əfqanıstana, İrana, Türkiyəyə göndərir.

Şah Miskin Abdalı Dağıstan xanlığına işə göndərir. Bir gün ov vaxtı Miskin Abdalın atı xanın atını keçir. Xan bundan inciyir. Səhərisi Abdalın atını əlindən alır. Miskin Abdal xandan küsür. Arvadını və üç oğlunu götürüb, öz vətəninə üz tutur, dağda borana düşürlər. Miskin Abdalın iki oğlu ölür. Arvadı, bir oğlu isə Dağıstana qayıdır. Həmişəlik orada qalır. Miskin Abdal Gədəbəyə – Qocadağın ətəyinə gəlir. Atasının Qazaxda ikən evləndiyi arvadını tapır. Onun burada üç oğlu olur. Batman Qılınc, Əli qılınc və Rza. Bir

müddət Miskin Abdal Çalburunda yaşayır. Çalburunda tikdirdiyi dəyirmanın xarabası indi də durur.

Miskin Abdal qoca yaşlarında Sarıyaquba köçür. Yenə də Şah İsmayılın yanına qayıdır. Şahın ilxısına, naxırlarına və sürülərinə nəzarət edir.

Müəyyən işlərlə əlaqədar olaraq şah Miskin Abdalı Türkiyəyə göndərir. O vaxtlar Türkiyədə şiələrə divan tuturdular. Qızılbaşlar (Sultan Səlimin vaxtında) Miskin Abdalın şiə, yoxsa sünni olduğunu soruşurlar. Miskin Abdal şiə olduğunu deyir. Miskini dar ağacına çəkirlər. Miskin Abdal xahiş edir ki, sazımı verin axır sözümü sazla deyim, sonra öldürün. Miskin Abdal "Ağlaram" qoşmasını orada deyir. Sultan onu azad edir.

1520-ci ildə Miskin Abdal vəfat edir. Türkiyədə Dənizli adlanan yerdə dəfn olunmuşdur.

İndi də Əzizə Cəfərzadənin yazmış olduğu **"Bakı-1501"** kitabından Miskin Abdal haqqında bəzi rəvayətləri verməyi məqsədəuyğun bildik.[1]

"...İsmayıl yarım addım ədəb məqamında onu müşayiət edən məliküşşüəra və nədimi-xəlvətlə salona daxil olanda hamı bir nəfəs çəkimində yerindən qalxdı. Ağ əllərini ürəklərinin üstünə qoyub baş əydilər.

Şah keçib əyləşdi. Onun işarəsi ilə məliküşşüəra, nədim və məclis əhli çökdülər. Bir anlıq sükut oldu... Hər birisi oturduğu döşəkcə, dirsəkləndiyi mütəkkə üstündə yerini rahatladı. Şah üzünü sağ əlində oturmuş məliküşşüəraya tutdu:

- Ustad, nədən başlayırıq?

[1] *Əzizə Cəfərzadə. "Bakı-min beş yüz bir"*. Bakı-Yazıçı, 1981.

Şeir məclisini rəsmi eşikağası deyil, məliküşşüəra idarə edirdi.

- Hökmdarım, bu gün əsas məqsədimizdən əlavə, maraqlı bir qonağımız var. Buradan xeyli uzaq olan Çuxursəddən[1] gəlib. Vətənimizin şimalı elə bil ki, sənətkarlar arasında bölgü aparıb...

Mənim doğulduğum Şirvan torpağı şair yetirir, Bakı torpağı gözəl rəssam-zərgərlər, Çuxursəddə Göyçə mahalı aşıqlar yetirir – heç birisinə də çatan olmaz...

... Şah üzünü yenə də məliküşşüəraya tutdu:

- Eşidirik səni, ustad!

- İzninizlə, sizə bu gün həmin mahir el sənətkarlarından birini, Miskin Abdalı təqdim edirik, əşrafa-əla.[2]

- Buyursun...

Çalğıçılar arasında əlində üçtelli saz olan uca boylu, arığac, surətindən işıq yığan bir adam qalxdı. Əynində bəhilqol çuxa, sərməboğaz köynək, hanasında toxunmuş mixəyi bir şalvar var idi. Qara nazik qaşları gicgahlarınacan uzanırdı. Aralı gözləri qonur idi. Bu gözlərin içində qızılı-sarı şüa saçan bir cüt nöqtə insanı əsrarlı heyrətə salırdı. O, sağ əlini sol döşünə basıb hər üç tərəfə baş əydi.

İsmayıl şah gözü ilə Miskin Abdalın qəddi-qamətinə, sarı günəş ziyasından bir cüt qığılcım alıb nur saçan gözlərinə baxdı. Qeyri-ixtiyari yanında əylənmiş Məliküşşüəraya asta səslə dedi:

- Göyçənin Miskini, Abdalı budusa, məğruru, ehtişamlısı nə təhərdi?

---

[1] İrəvanın Şərq mənbələrində adı.

[2] Şah İsmayıla verilən adlardandır.

Məliküşşəranın dodaqları xəfifcə qımıldandı. Ömründə ilk dəfə şah məclisinə çıxan aşıq qonağı şəkkə-şübhəyə salıb, utandırmaq üçün cəld pıçıltı ilə cavab verdi:

- Yəqin ki, hökmdarıma bənzəri olar.

- Heç bu da geri qalmaz.

Amma hər iki müsahibin simasında sanki görünməz niqab var idi, danışdıqları duyulmurdu.

Miskin Abdal bir daha bilavasitə hökmdara tərəf hörmət salamını yerinə yetirib ədəb məqamında dayandı. Dodaqlarından bircə kəlmə eşidildi.

- İzn.

Məclisdə yaşca ən qoca olan qazı:

- "İzn"dir, - dedi. Aşıq üçtelli sazı bağrına basıb taziyanəni tellərə vurdu və xırda-xırda səkə-səkə məclisin ortasına gəldi:

*Dostu-mehribanım, yetiş imdada,*
*Səndən qeyri yox imdadım, ağlaram.*
*Ah çəkib dağlara salaram səda,*
*Qohum gəlməz, gülər yadım, ağlaram.*

*Dəstində Zülfüqar, Düldülə süvar,*[1]
*Məhsəril-əcaib, bir adı kərrar.*
*Müşkülə düşmüşəm, könlüm intizar,*
*Sən gəlməsən, ey ustadım, ağlaram.*

---

[1] Xətainin ulu babası hesab edilən, şiələrin I imamı Əli İbn Əbutalib nəzərdə tutulur.

*Salma nəzərindən, salma, ilahim,*
*Dar gündə köməyim, püştü pənahim.*
*Ərşə bülənd olub fəryadı – ahım,*
*Abdaldı, Miskindi adım, ağlaram.*

Məclisdən "Afərin, mərhaba" səsləri göyə ucaldı. Aşığın səsi də, nəfəsi də, ifasındakı məlahət də, doğma dildə oxuduğu qoşmanın şeiriyyəsi də, hökmdarın cəddinə işarə edən misralar da, sazı çalmaq məharəti də, oynaması da, əski dədə-ozan ənənəsindən gələn ədəbi də salonda əyləşənlərə xoş gəlmişdi. Ürəklərindən idi. Onlar doğma dildə aşıq şeir və musiqisini birinci dəfə eşitmirdilər. Sənətə qiymət verməyi bacaran adamlar idi. Odur ki, Aşıq Miskin Abdalı böyük bir məhəbbətlə dönə-dönə Qurbanini dinlədikləri məhəbbətlə dinləyirdilər. Miskin Abdal isə sənətin gözəlliyinə, mənasına vurğun əsl aşıq kimi şeiriyyətə dalmışdı. Havadan-havaya keçdikcə şeir də dəyişir, qoşmadan təcnisə, təcnisdən gəraylıya, gəraylıdan divaniyə keçirdi. Nəhayət, o, ədəb dairəsini gözlədi, hər növdən bir-iki bənd oxuyub susdu. Yenə də məclisə böyük hörmətlə sağ əlini sol döşünün üstünə qoyub hər üç səmtə baş əydi. Keçib yerində durdu.

Şeiriyyətə dalmış Xətai şair-hökmdar əl işarəsi ilə bitikçibaşını yanına çağırdı. Nə dedisə, dərhal bitikçibaşı qalxıb qonşu otağa keçdi, tez də qayıtdı. Arxasınca əlində kətil tutmuş xəttatla qayıtdı. Şah ucadan dedi:

- Yaz! Himayəmizi və Sarıyaqub kəndinin bəratını - ona veririk – Miskin Abdala – nəsilbənəsil. Bitikçibaşı elə burdaca fərmanın qaralamasını yazdıqca xəttat cəld onu Səmərqənd kağızına köçürdü. Kətilin üstündə xırda qab-

lar, kiçik piyalələr də mavi, qırmızı, qara, sürməyi rənglər, ayrıca xırda piyaləciklərdə qızıl və gümüş ərintisi qoyulmuşdu. Xəttat adəti hərəkətlə qamış qələmi gah piyalələrin, gah fərmanın üstündə gəzdirirdi. Heç bir urub keçməmiş fərman hazır oldu. Bitikçibaşı dalı-dalı sürüşüb onu hökmdarın qənşərinə tutdu. İsmayıl qamış qələmin bir cizgisilə fərmana qol qoydu. Bitikçibaşı yerinə, xəttat isə otağına qayıtdı. Məliküşşüəranın işarəti ilə Miskin Abdal hökmdarın qarşısına gəldi. İki addım qalmış diz çökdü, yeri öpmək üçün əyiləndə (görünür, saray ədəbini ona irəlicədən təlim etmişdilər) şair-padşah dilləndi.

- Yox, yox, ustad, sən yer öpmə! Yerin çox ucadır. Buyur! Al! Bizə bu gecə verdiyin böyük zövqün müqabilində bu fərman kiçik və acizdir. Sən bizə bir daha sübut etdin ki, doğma anamızın dili yüksək şeiriyyətə malik, musiqili dildir. Bu dildə ən gözəl hisləri, ən idraki, dərin fikirləri musiqi dilinə çevirib tərənnüm etmək olar. Sənə və bunu sənə ilham edən böyük xəlqə əhsən və eşq olsun!

Miskin Abdal şairin sözlərini böyük bir fərəh, həyəcan içində dinləyirdi. Fərmanı aldı, öpdü, gözləri qarışıq alnına qoydu və qalxdı:

- Ömrün uzun olsun, qurbanın olum! – dedi... – Bu fikir, bu əqidə ki səndə var, doğma el-obamız, ulusumuz, oymağımız ömrünə duaçı olacaq həmişə!

O, qalxdı, dal-dalı yeriyərək mövqeyinə qayıtdı.

Vəziri-əzəm əllərini sinəsinə qoyub baş əydi, söz üçün izn istədi:

- Qibleyi-aləm, bəlkə, keçmişdəkilər kimi mürasələni fars dilində yazaq? Axı o yerlərdə kafirlər içində bizim dili oxuyub başa düşən olmaz.

...Onun qulağında hələ də Ərəbistanın göbəyində oturub ana dilində əsərlər yaradan Füzulinin, qolubağlı Xudafərin körpüsündən keçib gələn Qurbaninin, Çuxursəddən aşmış Miskin Abdalın səsi, əşarı səslənirdi. Elə bil qaraçı ribatındakı qoca dərviş ona: "Hər sadə cümləmiz bir misra şeirdir, neçin tanınmamısan dünyada? Onda belə bir qəlblərə, beyinlərə qüvvət verən qüdrət varsa neyçün ölkənin ürəyi, paytaxtı, siyasi əlaqələri bu dildə danışmasın, bu dildə aparılmasın?! Vaxt çatıb, hökmdar! Sən indi bunu etməsən, kim edər?! Qüdrət səndədir, qeyrət səndədir!" deyirdi.

O, vəzirə baxmadı, bir an qələmi saxlayıb gözlərini ona dikərək əmrin dəyişilməsini gözləyən bitikçibaşıya tərəf sərt bir qətiyyətlə dedi:

- Yox! Bundan sonra Səfəvi xanədanının bütün mürassəlatı ana dilimizdə olacaq! Sarayda hamı bu dildə danışacaq və yazacaq! Bircə Peyğəmbər sələvatüllahın qoyduğu müqəddəs ibadətdən başqa, dərabarda ərəb və fars dilində kəlmə kəsilməyəcək!"

Hamı diqqət kəsilmişdi. Hökmdarın səsi biraz yumşaldı. İndi o, Rəhim bəyə danışırdı:

-Rəhim, Hacı ilə bahəm deyib o yerlərə səyahət edəcəksən. Məktubumuzu Macar hökmdarına şəxsən təqdim edəcəksən.

Rəhim bəy baş əydi.

... Bitikçibaşı Azərbaycan dilində ilk diplomatik məktubu böyük bir həvəslə yazmağa başladı..

## AĞ AŞIĞIN ŞEİRLƏRİ

***AŞIQ ŞEİRİNİN JANRLARI VƏ YAXUD NÖVLƏRİ:***

**1.Təsnif**
**2.Bayatı**
**3.Qıfılbənd bayatı ( tapmaca)**
**4.Gəraylı**
- **cığalı gəraylı**

**5.Qoşma**
**6.Təcnis**
**Növləri:**
- **dodaqdəyməz – 4 misra**
- **cığalı – 8 misra**
- **dodaqdəyməz cığalı – 8 misra**
- **müstəzad-ayaqlı – 5 misra**

(bir neçə bənd)
- **diltərpənməz**
- **nəfəsçəkməz**
- **müləmma-çoxdilli**

**7. Qıfılbənd**
**8.Deyişmə**
**9.Ustadnamə**
**10. Divani**
**Növü: qıfılbənd**
**11. Müxəmməs**
**Növləri: qıfılbənd, cığalı**
**12. Divani-müxəmməs**
**13. Qəzəl**
**14. Dastan**

## TƏSNİFLƏR

Qulac saçdı,
Qələm qaşdı,
Ağzın açdı,
Gövhər saçdı
Süsənbərim.

Şəhla gözü,
Gözəl üzü,
Şirin sözü,
İlqar düzü
Süsənbərim.

Yaşıl başlı,
Çatma qaşlı,
Şux baxışlı,
Yaraşıqlı
Süsənbərim.

Şirin avaz,
Kirpik almaz,
Aşıq sınmaz,
Yardan dönməz
Süsənbərim.

Kəklik səkər,
Boynun bükər,
Ovu(ovçu) çökər,
Qanın tökər
Süsənbərim.

Sən əzəlsən,
Dil məzəsən.
Çox gözəlsən,
Bir dənəsən
Süsənbərim.

Bulaq başı,
Gözüm yaşı,
Var təlaşı,
Qəlb sirdaşı
Süsənbərim.

Telli sazım,
Xoş avazım,
Bahar yazım,
Sən murazım
Süsənbərim.

Budur sözüm,
Qurban özüm,
Telli sazım,
Şən avazım
Süsənbərim.

Sən halalsan,
Bir calalsan,
Mənə yarsan,
Bizə varsan
Süsənbərim.

Aşıq Ağdı
Toy təlağdı
Xoş sorağdı
Gözəl çağdı
Süsənbərim.

**BAYATILAR** [2]

Əzizim, Göyçəyə gəl,
Gülə gəl, çiçəyə gəl.
Ağ Aşıq tək vəfalı,
Bir qəlbi göyçəyə gəl.

Eləmi, Göyçəyə mən,
Gözələ, göyçəyə mən.
Qürbətdə həsrət qaldım,
Vətənim Göyçəyə mən.

Əzizim, Göyçəyə mən,
Qurbanam Göyçəyə mən.
Viran qalsın Urumu,
Həsrətəm Göyçəyə mən.

Əziz, kamil ustada,
Qurban kamil ustada.
Ağ Aşıq tək ərkanı,
Gözlə, kamil ustada.

Bu gələn Ağ Aşıqdır,
Süsənbərə yaraşıqdı.
Sözü dərdlərə dərman
Özü toya aşıqdır.

Eləmi, Ruma sarı,
Yol gedir Ruma sarı.
Yadıma Vətən düşdü,
Qalmadı Rum hasarı.

Əzizinəm dağlara,
Oba köçdü dağlara.
Sərdar, öyün dağılsın,
Həsrət qaldım dağlara.

Əzizinəm, ələndi,
Günüm-gündən ələmdi.
Vətən deyib qocaldım,
Ömür-günüm ələndi.

Əzizinəm, daş idi,
Nazbalışım daş idi.
Qərib-qürbət diyarda,
Ah mənə yoldaş idi.

Əzizinəm, dara gəl,
Zülflərini dara, gəl.
Başım Sərdar əlində
Tamaşamçün dara gəl.

Əzizim, oyan yeri,
Arazın oyan yeri.
Yüz min loğman neyləsin,
Qəm-qüssə oyan yeri.

Əzizim, yollara mən,
Yolçuyam yollara mən.
Ömür keçdi, gün keçdi
Baxmaqdan yollara mən.

Əzizinəm, dəryalar,
Çalxalandı dəryalar.
Car oldu gözüm yaşı,
Silələndi dəryalar.

Gün göydə batıb getdi,
Qaşını çatıb getdi.
Kasıblığımı görəndə
Yar məni atıb getdi.

Əzizinəm, qan damar,
İlan vurar, qan damar.
Kasıblıq adın çəkmə,
Ürəyimə qan damar.

Qar tutub Şah dağını,
Don vurub növrağını.
Çəkilib tülək tərlan
Sar alıb ovlağını.

Eləmi, sona gözəl,
Gəlməz oysana gözəl.
Baxdım, ağlım apardın
Vuruldum sana, gözəl.

Mən aşıq, gəldi, keçdi,
Günlərim gəldi, getdi.
Yarın odlu baxışı
Sinəmi dəldi keçdi.

Əzizim, bərəsinə,
Ov gəldi bərəsinə.
Teylənib şux şikarın
Ovçu, sin bərəsinə.

Aşığam, şana qaldı,
Saçında şana qaldı.
Busə aldım üzündən,
O da nişana qaldı.

Mən aşıq sənə sarı,
Üz çevir mənə sarı.
Bu könlüm məlhəm istər
Təbibsən - onu sarı.

Mən aşıq, sinəsinə,
Dağların sinəsinə.
Gül olub taxılaydım
Yarımın sinəsinə.

Buludlar qaraldı gəl,
Dağ başın qar aldı, gəl.
Yolunu gözləməkdən
Gözlərim saraldı, gəl.

Ocağın daşı yandı,
Qazanın aşı yandı.
Sevgilim bir ah çəkdi,
Ürəyim başı yandı.

Aşıq deyər, nə qaldı,
Nə qaydadı, nə qaldı?
Mərd iyiddən şan-şöhrət,
Bəs namərddən nə qaldı?

Zaman yaman gəlibdir,
Zülüm salan gəlibdir.
Qılıncın insanlara
Tərsə çalan gəlibdir.

Eləmi, oda gəldi,
Pərvanəm oda gəldi.
El köçdü, yurddan qaldım,
Başıma o da gəldi.

Mən aşığam, hal anam,
Nütfədən mən halalam.
Qürbət eldə çürüdüm,
Bir kəs yoxdu, hal anam.

Gəl gəzək yenə dağı,
Görməyək sinə dağı.
Dağ içində məşhurdur,
Tur ilə Mina dağı.

Əzizinəm Qazağa,
Yolum düşdü Qazağa.
El-obası şən-şuxdu,
Nur çilənsin Qazağa.[1]

[1] [1] *M.Həkimov, Ustad aşıqlar. "Gənclik", Bakı-1983*
*Ağ Aşığın təsnifləri və bayatıları, 1981-82-ci illərdə Kərkibaş (Şəfəq) kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi Zeynalabdin Cəfərov və Babacanlı 71 yaşlı Aşıq Qədir Zal oğlundan yazıya alınmışdır.*
***Qeyd:*** *Əslində bunları Zeynalabdin müəllim Aşıq Alının qorçusu Kərəm dayısından 1965-ci ildə yazıya almışdır. 1981-1982-ci illərdə M.Həkimov Zeynalabdin müəllimdən qələmə almışdır.*

## AĞ AŞIĞIN YENİ TAPILMIŞ VƏ ÇAP OLUNMAMIŞ BAYATILARI[1]

Qaranquşam, qalxaram,
Qanadlarım çalxaram,
Eşitsəm qardaş gəlib,
Xəstə olsam, qalxaram.

Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Könlüm səni istəyir,
Təzə bir yemiş kimi.

Eləmi ana yeri,
Qurulub xana yeri,
Yüz min mələk yığılsa,
Verməz o ana yeri.

Dağlar mənə qar göndər,
Əsirgəmə, var, göndər,
Yuyulmamış dəsmaldı,
Dərilməmiş nar göndər.

Eləmi öz günümə,
Kabab düz köz günümə,
Fələk əlimə düşsə,
Salaram öz günümə.

Əzizim, simsar sarı,
Saza sim gərək sarı,
Ağ Aşıq qərib öldü,
Yoxdur onun simsarı.

Əzizim, sarayınnan,
Yol gedər sarayınnan,
Gündə bir kərpic düşür,
Ağ Aşığın ömrünnən.

---

[2] *Zeynalabdin müəllim 1970-ci ildə Kərəm dayısından qələmə almışdır.*

## AĞ AŞIĞIN HƏYAT YOLDAŞI SÜSƏNBƏRİN BAYATISI[1]

Göyçə qocalarının dediyinə görə, Süsənbər Gədəbəyin kəndlərindən birinə qonaq gedir. Bu kənddə azğın bəylər, cavan-cahillər Süsənbərə söz atırlar. Bu vaxt Süsənbər həmin adamlara belə kəsərli cavab verir:

*Dəyirman Dərə kəndi,*
*Gümüşdür sinəbəndi,*
*İki oğlum, bir ərim,*
*Gələr, yıxar bu kəndi.*

[1] Bu bayatıları 1970-ci ildə Kərəm babadan Zeynalabdin müəllim qələmə almışdır. Çap olunmayıb.
Ağ Aşığın oğlu İsmayıl 30=40 yaşında vəfat etmişdir.

## AĞ AŞIQ VƏ SÜSƏNBƏR OĞLU İSMAYIL DÜNYADAN KÖÇƏRKƏN DEDİKLƏRİ BAYATILAR[1]

***AĞ AŞIQ***
Əzizinəm qaraldı,
Dağlar başın qar aldı.
Oğul öldü, dağ çəkdi,
Od-ocağım qaraldı.

Eləmi, sazım ağlar,
Huy çəkib sazım ağlar.
Oğlu ölmüş aşığam,
Kərəmtək sazım ağlar.

***SÜSƏNBƏR***
Eləmi ulu dağlar,
Uluslu ulu dağlar.
Oğul səndə can verdi,
Gözyaşım sulu, dağlar.

Məni vurdu boz ilan,
Gözüm doldu tozunan,
Gör mən kimisi varmı?
Bostanı göy pozulan.

[1] Bayatıları Zeynalabdin müəllimin əl yazmalarından yazmışıq. O da bu bayatıları vaxtilə Kərəm dayısından qələmə almışdır.

### *ÇAP OLUNMAYAN BAYATILAR*

Eləmi, üzüm qara,
Bu bağda üzüm qara.
İstədim dosta varam,
Əlim boş, üzüm qara.

Ay dolandı necə keçdi?
Neçə bəzirganlar keçdi.
Ey Allah, sənə neylədim?
Günüm, halım qara keçdi.

Eləmi əzan yeri,
Mollanın əzan yeri.
Neyləyim quru şəkli?
Dur, burda gəzən yeri.

Döşəyim ardıc kolu,
Nazbalışım daş idi.
Qərib-qürbət diyarda
Eşq mənə yoldaş idi.

## QIFILBƏND BAYATILAR (TAPMACALAR)

### Ağ Aşığın yeni və çap olunmamış qıfılbənd bayatıları

***(Tapmacalar)***[2]

Baba babıyı götürər,
Baba oğul götürər.
Oğul yarpaq götürər,
Yarpaq torpaq götürər.

***(dam)***

Ay o gedən naşı,
A bas sarın başı,
Get maa bir at al,
Nə erkək, nə də dişi.

***(Düldül - at)***

[2] Zeynalabdin müəllim 1966-cı ildə Kərəm dayısından qələmə almışdır.

Böyük o adınadı,
İşlər on qadınadır,
Sümüksüz, sümük yeyər,
Tap görüm adı nədir?

***(qurd)***

Eləmi qan əyağa,
Daş daşa, qan əyağa,
Aşıq əlamət gördü,
Üç başı, on ayağı.

***(sağıcı, inək, buzov)***

Dəyirmana dən oldu,
Gəlif-gedən bənd oldu.
Yeddi min yeddi yüz də
Elə bil ki, bənd oldu.

***(Quran)***

Əzizim, qara nədir?
Qaş üstə qara nədir?
Gönü göy, əti qırmızı
Sümüyü qara nədir?

***(Qarpız)***

Qonağım gəlif qəyifdən,
Qoyunum olub qürbətdən,
Qoyunumun sümüyü vardı,
Qonağımın dişi vardı.

***(Uşaq və məmə)***

Əziziyəm əmər hey!
Şah belində kəmər hey!
Göydə bir maydan gördüm,
Qulu yerdən əmər hey.
**(*Fatma nənənin qurşağı*)**

Mən aşığam bir ata,
Bir oğuldu, bir ata
Altı öküz, yüz dəvə
Hamısı minib bir ata.*[1]

Eləmi qardaşıdım,
Atama qardaşıdım,
Həm atamın oğluyam,
Həm də o qardaşıyam.*

Dağ gəlir dadıq suyu,
Mən ondan dadmamışam.
Nəzik əy, gülfa toxu,
Mən ondan geyməmişəm.[2]

Əzizim, vəznəsiyəm,
Vəznəsi xəznəsiyəm,
Atam mənim oğlumdur,
Atamın yeznəsiyəm.*

[1] *Bu tapmacaların cavabı yoxdur.
[2] Bu tapmacaların cavabı yoxdur

**Qeyd:** Mən Cəfərov Əmiraslan ADPU-nun riyaziyyat fakültəsinin 4-cü kurs tələbəsi 10-17 fevral, 16-24 mart, 14-17 iyun 1984-1985-ci il tarixlərində Göyçə mahalının Şəfəq kəndində oldum. Orada olarkən Göyçə qocaları, ağbirçəkləri ilə – 105 yaşlı Hüseyn İsmayılovla, 78 yaşlı Qələ Qənbərovla, 75 yaşlı Tamam İlyasovla, 59 yaşlı Zeynalabdin Cəfərovla söhbət etdim. Mən onlardan Ağ Aşığın indiyə qədər çap olunmamış bayatı, tapmaca, şeirlərini qələmə aldım. İndi bunları yeri gəldikcə sizə təqdim edirik.

Ağ Aşıq Tiflisə gedərkən Göyçə mahalının Tüklü təpəsindəki Sadanaxaç kəndinin yanında, Göyçə gölünün kənarında bir çobana rast gəlir. Söhbət edirlər. Bir-birinə hərbə-zorba gəlirlər. Çoban mat-məəttəl qalır. Tapmacanın cavabını aça bilmir. Aşıqdan üzr istəyir. Lakin hələlik bunları əldə edə bilməmişik.

## GƏRAYLILAR

### *Aşıq Alı*[1]

Mahalımın şah tavarı,
Alqış sənə, Aşıq Alı.
Saldın kəməndə Yığvalı,
Alqış sənə, Aşıq Alı.

Ustadıyın üzü ağdı,
Zəkiyə çəkdiyin dağdı.
Oğul müjdəm xub soraqdı,
Alqış sənə, Aşıq Alı.

---

[1] Zeynalabdin müəllim Kərəm dayısından 1966-cı ildə qələmə almışdır.

Duraxan da gəldi dada,
Əsməri də saldın oda.
Ağ Aşığın bu dünyada,
Şöhrətisən, Aşıq Alı,
Alqış sənə, Aşıq Alı.

## VƏTƏNİMDƏN CİDA DÜŞDÜM[1]

Vətənimdən cida düşdüm,
Bəy əlindən, xan əlindən,
Heç birində insaf yoxdur,
Onların aman əlindən.

Rəiyyət qərq olub qəmə,
Dərdimizi deyək kimə?
Zəhrimardı, alıb yemə,
Kəndxudanın nan əlindən.

Allahverdi dostu yoxlar,
Öz dərdini canda saxlar.
Sinəmə tuşlandı oxlar,
Dilbilməz nadan əlindən.

[1] Kərəm babanın deməsinə görə, Ağ Aşıq "Vətənimdən cida düşdüm" gəraylısını Hüseyn Sərdarın əlindən Kosacan kəndindən qaçanda demişdir. Həm də bu gəraylını Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

## SƏNİN

Alçaqlı, ucalı dağlar,
Xub əsir, yellərin sənin.
Bəlli deyil yazın, qışın,
Qar qucar bellərin sənin.

Yay olanda gülün qaynar,
Ağır ellər səndə yaylar.
Bir cüt yaşılbaşlı oynar,
Bulanar göllərin sənin.

Güllərin solğun olmasın,
Süsən-sünbülün solmasın.
Yad yerdən ovçu gəlməsin,
Bağlansın yolların sənin.

Allahverdi, budur yurdum,
Nə bir yerdə məskən qurdum,
Xub gözləyib, dürüst vurdum,
Qurusun qolların sənin.

## GETDİ[1]

Adəm ata, Həvva gəldi,
Dünya səndə qaldı, getdi.
Ömür eylədi neçə illər,
Dərdə-qəmə daldı, getdi.

[1] Zeynalabdin Mahmudoğlu, "Xatirələrim", Bakı, "Mütərcim"-2003.

Səndə gəldi neçə xanlar,
Gələr bəlkə qəhrəmanlar.
Neçə-neçə Süleymanlar,
Gözü yaşla doldu, getdi.

Pəri xanım, Abbas hanı?
Haqq aşığı, o Qurbani,
Tərk elədi bu dünyanı,
Murazını aldı, getdi.

Ağ Aşıq, çağır Allahı,
Yetər dada şahlar ilahı,
Çox zülümkar padşahları,
Fələk taxtdan saldı, getdi.

## YALVARA-YALVARA[1]

Yarım çıxıb yaylaqlara,
Qaldım, yalvara-yalvara,
Bərə qurdum oylaqlara,
Durdum, yalvara-yalvara.

Qurban dedim yar adına,
Səs vermədi fəryadıma,
Şahi-mərdan, yet dadıma
Öldüm, yalvara-yalvara.

---

[1] Atamın əlyazmasından.

Qamət çəkib naz eylədi,
Bir dərdini yüz eylədi,
Bağrın başın köz eylədi,
Yandım, yalvara-yalvara.

Gülərüzlü, boyu bəstə,
Dağ çəkibdi sinəm üstə.
Ağ Aşıqı etdi xəstə,
Qaldım, yalvara-yalvara.

## SÜSƏNBƏRƏ[1]

Sərdar, səni iflic vursun,
Ünüm yetməz Süsənbərə.
Qərib-qürbət diyardayam,
Ünüm yetməz Süsənbərə.

Ay dolandı, ilə gəldi,
Şeyda bülbül gülə gəldi.
Telli sazım dilə gəldi,
Ünüm yetməz Süsənbərə.

Ağır illər ötürmüşəm,
Ömrü başa yetirmişəm.
İsmayılı itirmişəm,[2]
Ünüm yetməz Süsənbərə.

---

[1] Atamın əlyazmasından.
[2] İsmayıl Ağ Aşığın oğludur. 30-40 yaşında dünyadan köçüb.

Qürbət eldə çıxdı canım,
Ağlar qaldı Ümmilbanum.
Bağlandı ömür dastanım,
Ünüm yetməz Süsənbərə.

Ağ Aşığa dərd yoldaşdır,
Qüssə-qəmim başdan aşdı.
Sinəm dağlı, gözüm yaşdı,
Ünüm yetməz Süsənbərə.

## AY QIZ, BİL SƏNİN, BİL SƏNİN[1]

Yanaqların çox gözəldi,
Ay qız, bil sənin, bil sənin.
Hüsnün hüridən əzəldi,
Ay qız, bil sənin, bil sənin.

Geşd eylədim eldən-elə,
Yıxdın evim bilə-bilə.
Müştağınam salma dilə,
Ay qız, bil sənin, bil sənin.

Gərdən mina, sürah boyun,
Al-Osmanda yoxdur tayın.
Tutacağam özüm toyun,
Ay qız, bil sənin, bil sənin.

[1] ***Atamın əlyazmasından***

Camalında şəmsi-qəmər,
Bahar səndən şəbnəm əmər.
Peşkəşindi qızıl kəmər,
Ay qız, bil sənin, bil sənin.

Ağ Aşığın günü qara,
Ciyar oldu hazar para.
Bir busəndi mənə çara,
Ay qız, bil sənin, bil sənin.

## GÖZLƏRİN-GÖZLƏRİN[1]

Nədir dərdin, söylə mənə,
Ağlar gözlərin-gözlərin.
Qurban sənə şirin canım,
Ağlar gözlərin-gözlərin.

Sən mənim dini-imanım,
Qurban sənə xanimanım.
Boynuburuq Ümmilbanum –
Ağlar gözlərin-gözlərin.

Şıx oğlunun xanı vardı,
Elçilər ata suvardı,
İstədiyin sənə yardı,
Qurban gözlərin-gözlərin.

---

[1] *"Ustad aşıqlar" – M.Həkimov. Bakı, Gənclik-1983*

## GƏLƏ[1]

Bahar gəldi bu dağlara,
Gülüm gələ, gülüm gələ.
Yay olanda yaylaqlara,
Elim gələ, elim gələ.

Gözəlləri söhbət-sözüm,
Şövqə gələ telli sazım.
Cövlan edə xoş avazım,
Gül hüsnünə dilim gələ.

Ağ Aşığın xoş çağıdı,
Gül yanaqlar oylağıdı.
Göyçə bir gülşən bağıdı,
Tərifinə dilim gələ.

## DOLANA-DOLANA[2]

Dağlar səndən duman qalxar,
Çərxə dolana-dolana.
Göy guruldar, şimşək çaxar,
Çərxə dolana-dolana.

Tər çiçəklər ilməyindi,
Nərgiz çəmən köynəyindi.

---

[1] "Ustad aşıqlar" – M.Həkimov. Bakı, Gənclik-1983
[2] "Ustad aşıqlar" – M.Həkimov. Bakı, Gənclik-1983

Duman, çalman diləyindi,
Çərxə dolana-dolana.

Ağ Aşıq tək havalısan,
El-obanın calalısan.
Bahar fəsli davalısan,
Çərxə dolana-dolana.

## GÖZLƏRİNİN GİLƏSİNƏ[1]

İgid olsa elə arxa,
Ağ Aşığın odu sönməz,
Can sadağa beləsinə,
El-obadan üzü dönməz,
Gözlərinin giləsinə.

İgidlərin başı enməz,
Çörək verib ala səxa,
Can sadağa beləsinə,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Dağlar başı qarlı gərək,
Bağça-bağlar barlı gərək,
İlqar özü varlı gərək,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

[1] "Ustad aşıqlar" – M.Həkimov. Bakı, Gənclik-1983

Göyçə gözəllik oylağı,
Güldür-çiçəkdir yaylağı,
Murğuz, Murov, Kəpəz dağı,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Güzgüsüdü Göyçə gölü,
Tamaşadı bütün eli,
Şəhdi-şəkər şirin dilli,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

## DAĞLARA-DAĞLARA[1]

Məcnun deyə Leyli ünü,
Düşdü dağlara-dağlara.
Kərəmi də keşiş dini,
Saldı dağlara-dağlara.

Dağlar başı tamam qardı,
O ki elə bir vüqardı.
Niyə günahkar dağlardı –
Dedilər: dağlara-dağlara.

Murğuz, Murov, Kəpəz xandı,
Albız, Ağrı bir sultandı.
Ağ Aşıq hələ cavandı,
Alqış dağlara-dağlara.

[1] "Ustad aşıqlar" – M.Həkimov. Bakı, Gənclik-1983

## SÜSƏNBƏRİM*[1]

Budur gəldi fəsli-bahar,
Mahcamallı Süsənbərim,
Mənim gül ənbərim!
Sənə qurban şirin canım,
Mahcamallı Süsənbərim,
Mənim gül ənbərim!

Qurban olum boy-büsata,
Seyrə çıxaq asta-asta,
Baxçayın barından dosta,
Nübar yolla, Süsənbərim,
Mənim gül ənbərim!

Mahcamala qara tellər,
Vurğundu şeyda bülbüllər,
Ağ Aşığı da lal eylər,
Qoşaxallı Süsənbərim,
Mənim gül ənbərim!

## SÜSƏNBƏRİM*

Sərdar Söyün fərman verdi,
Ağla məni, Süsənbərim,
Gözüyaşlı sitəmkarım!

---

[1] * *Bu şeirləri Zeynalabdin müəllim 1970-ci ildə Kərəm dayısından qələmə almışdır.*

Yolum oldu gedər-gəlməz,
Ağla məni, Süsənbərim,
Gözüyaşlı sitəmkarım!

Fərman gəldi yaman oldu,
Könlüm şəhri talan oldu,
Demə, dərdim pünhan oldu,
Ağla məni, Süsənbərim,
Gözüyaşlı sitəmkarım!

Əlif qəddi döndü yaya,
Ömür-günüm getdi zaya,
Dərdim gəlməz haqqa-saya,
Ağla məni, Süsənbərim,
Gözüyaşlı sitəmkarım!

## DURNA*

Qərib-qərib ötən durna,
Durna, yara salam söylə.
Bir-birinə yetən durna,
Durna, yara salam söylə.

Göydən enər qatar-qatar,
Dırnaqları quma batar,
Gecə gedər, gündüz yatar,
Durna, yara salam söylə.

Səf çəkərsiz düzüm-düzüm,
Şahpəri boynundan uzun,
Sizsiz mənim iki gözüm,
Durna, yara salam söylə.

Sağ gedin səfər başına,
Yol gözləyir dost-aşina,
Mənnən yara bir nişana,
Durna, yara salam söylə.

Vədə verdim, vədəm bitdi,
Ayım-günüm ilə yetdi,
Telli sazım qəmgin ötdü,
Durna, yara salam söylə.

Gülü əkdim, güldən oldum,
Yar deməkdən dildən oldum,
Cida düşdüm, eldən oldum,
Durna, yara salam söylə.

Ağ Aşığın məlul çağı,
Zindandadı gülşən bağı,
Qəsdimdədi cəllad-yağı,
Durna, yara salam söylə.

## KƏKLİK*

Baharın gülşən çağında,
Uçar daşdan-daşa kəklik.
Ovçu görsə səkər asta,

Sinər daşdan-daşa kəklik.
Məskən salar qayalarda,
Özü göyçək boyalarda,
Gözdən iraq sayalarda,
Səkər daşdan-daşa kəklik.

Süsənbərim göylər mahı,
Ağ Aşığın qibləgahı,
Əyir belim yarın ahı,
Bükər başdan-başa kəklik.

## BOYNUBURUQ BƏNÖVŞƏLƏR*

Sən baharın qonağısan,
Boynuburuq bənövşələr.
Eşq əhlilər qınağısan,
Boynuburuq bənövşələr.

Məcnun - Leyli xəyalında,
Kərəm - Əsli sorağında,
Qurbaninin qəm bağında,
Boynuburuq bənövşələr.

Ağ Aşığın bəxti kəmdi,
Fələkdən bu bir sitəmdi,
Dərdim bil səndən betəmdi,
Boynuburuq bənövşələr.

## HƏSRƏTƏM AY İLƏ-İLƏ[1]

Leyli-nahar hüsnünə mən,
Həsrətəm ay ilə-ilə.
Şəhdi-şəkər ləbinə mən,
Həsrətəm ay ilə-ilə.

Bu yerlərdə bahar yazdı,
Yaylaqları söhbət-sazdı,
Demə ki, bu nə avazdı,
Həsrətəm ay ilə-ilə.

Qürbət oldu mənə yağı,
Ürəyimə çəkdi dağı,
Ağ Aşığın cavan çağı,
Həsrətəm ay ilə-ilə.

## QOŞMALAR

### Süsənbər[2]

Mahcamalın şölə saçır ay kimi,
Gözüm, könlüm ay Süsənbər səndədir.
Qaşların sinəmi oxlar yay kimi,
Bir ahusan, müşkü - ənbər səndədir.

---

[1] Bu şeirləri Zeynalabdin müəllim Kərəm dayısından 1971-ci ildə qələmə almışdır.

[2] *Bu qoşmanı 1970-ci ildə Zeynalabdin müəllim Kərəm babasından qələmə almışdır.*
*Ağ Aşıq bu qoşmanı sevgilisi Süsənbərə həsr etmişdir.*

Yandı qürbət eldə dilim-dodağım,
Çatıb, Al-Osmana sözüm-sorağım.
Bir busə ver, dada gəlsin damağım,
Yandı ciyər, abı – kövsər səndədir.

Üzündə xallara salmışam nəzər,
Daldalan görməsin səni bəd-nəzər.
Hər nadan bilməz ki, nədir simu-zər,
Allahverdi, dürrü – gövhər səndədir!

## QAYITDI[1]

Bir maral baxışlı, tərlan cilvəli,
Gəlib məni gördü, güldü (baxdı), qayıtdı.
Pünhanı göstərdi gül camalını,
Buxağına şəbnəm doldu, qayıtdı.

Mən görmüşəm gözəllərin çoxunu,
Belə olmaz ancaq boyu-buxunu.
Müjganından çəkib xədəng oxunu,
Yaralı sinəmə çaxdı, qayıtdı.

Gözləyərkən gözlərimə sataşdı,
Xəstə canım eşq oduna alışdı.
Şəhriyardan (şəhrayıdan) qıya baxıb ötüşdü,
Ağ Aşığa nəzər saldı, qayıtdı.

[1] *“Xatirələrim” – Zeynalabdin Mahmudoğlu, Bakı, “Mütərcim”, 2003.*

## YANDIRIR[1]

Gözəllərə bağlayıram dastanı,
Bir mələyin eşqi canı yandırır.
Sərraf olan lələ qoyar qiyməti,
Göz görəndə din-imanı yandırır.

Gözəllər bəzənib qarşımda durur,
Gözə qoruq yoxdur, gələnlər görür.
Bürümür üzünü, mərdanə durur,
Bir baxışı yüz min canı yandırır.

Gözəllər açıbdır Yusif bazarı,
Bəsləyib sinədə Hindistan narı.
Gözüm görür, artır canım azarı,
Ağ Aşıq tək binəvanı yandırır.

## ÇATMADIM[2]

Sevda məni çətin yola çağırdı,
Bələnləri aşdım, yara çatmadım.
Pir yaşımda intizardan zar oldum,
Tuş oldum çovğuna, qara çatmadım.

Gözəllərdə min dil gördüm, min də fel,
Kəmənd oldu boğazıma qara tel.

---

[1] Əlyazmada olduğu kimi yazılıb.
[2] "Ustad aşıqlar" – Bakı, Gənclik – 1983. M.Həkimov.

Görüş vaxtı tufan qopdu, əsdi yel,
Atdı məni, uzaqlara çatmadım.

Baxdım bəmə çəkdi, qalxanda zilə,
Gözü, könlü ac gedirəm mənzilə.
Ağ Aşıq həsrətdi bir şirin dilə,
Keçdi günüm, düz ilqara çatmadım.

## DÜŞDÜ[1]

Yenə yada düşdü nakam eşqimiz,
O gözün oduna bir daha yandım.
Məhəbbət ötəri hal ha deyilmiş,
Hu çəkdim Kərəm təkin, aha yandım.

Yaram hələ sağalmayıb qaytardı,
O səs məni ötən günə qaytardı.
Varlığı haray sardı, hay sardı,
Od tutdu şirin can, daha oysandım.

Vəfalı dilbərim üzümə güldü,
Şux baxdı, gözümə qəlbimi bildi.
Ağ Aşıq, Süsənbər bir əhli-dildi,
Görüncə üzünü, ilahə sandım.

[1] "Ustad aşıqlar" – Bakı, Gənclik – 1983. M.Həkimov.

## GİLLİ[1]

Dərya kimi çalxalanır, daşırsan,
Salırsan Göyçəyə qalmağal gilli.
Xan, bəy kimi çox həddini aşırsan,
Yolçuya vermirsən sən macal, Gilli.

Novbahar gələndə tüğyan edirsən,
Bir ildə ən azı yüz qan edirsən.
Gedəni-gələni peşman edirsən,
Dad eylər əlindən bu mahal, Gilli.

Müddətdir vətəndən düşmüşəm uzaq,
Əl çəkmir yaxamdan pristav, kazak.
Axıtdın atımı, özüm qaldım sağ,
Canımda qalmayıb daha hal, Gilli.

Allahverdi kimə desin bu dərdi,
Bəzirganam, yüküm qəmdi, kədərdi.
Xalqın dərdi mənimkindən betərdi,
Salan yoxdur, dil üstündən sal, Gilli.

## QIRDIM QOL[2]

Leyli-nahar yeddi ağac getdim yol,
Xırman boyda yer şumladım, qırdım qol.
Darı, arpasını əkdim bolabol,
Biçdim əvəzində dəvə qanqalı.

---

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.
[2] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır.

Sürünməkdən dizlərimdə yox taqət,
Əllərimin içi oldu qabar-qat.
Dərviş babam da istər xumsi-zəkat,
Yetdi harayıma şəyirdim Alı.

Əlqərəz, rüzumuz oldu üç batman,
Çatınca növbətim sındı dəyirman.
Yerdə qalanımı apardı siçan,
Güldü Ağ Aşığa Göyçə mahalı.

## MƏNİ[1]

Cəsədim möhnətdə narə qalandı,
Yandırıb döndərir küllərə məni.
Dərdim dərya kimi coşub bulanır,
Qərq edər ümmana, sellərə məni.

Əyibdi işimi qəzavü-qədər,
Dolandım dünyanı, tamam sərasər.
Gedər bu dərdi-qəm mənlə bərabər,
Axıdar çaylara, göllərə məni.

Ağ Aşıq həsrətdi biçarə yara,
Görəsən olarmı dərdimə çara?
Müddətdir düşmüşəm qürbət diyara,
Fələk saldı qərib ellərə məni.

[1] [1] *"Ustad aşıqlar", Bakı, Gənclik – 1983. M.Həkimov*

## BİLMİRƏM[1]

Ay ağalar, belə dərdə neyləyim?
Fələk çox veribdi, çəkə bilmirəm.
Qoşdum qəm kotanı, daşa ilişdi,
Qalmışam naəlac, əkə bilmirəm.

Qocalıq üz verdi, yatdı iqbalım,
Zəhrimara döndü ağzımda balım,
İmran dilli sazı hicrana çalım,
Tale üz döndərib bəlkə, bilmirəm.

Ağ Aşığam, gözdə qaldı muradım,[2]
Bəy-nişan toylarda çəkilmir adım.
Qırılıbdı qolum, sınıb qanadım,
Qalmayıb taqətim çəkə bilmirəm.

## SƏNİ[3]

Aşıq Alı, sən nə sevdaya düşmüsən,
Bir gözəl salıbdı azara səni.
Xoş gəlib əzizim, səfa gəlmisən,
Aparram, bir yaxşı bazara səni.

---

[1] *"Ustad aşıqlar", Bakı, Gənclik – 1983. M.Həkimov*
[2] Ağ Aşığın oğlu İsmayıl 30-40 yaşında vəfat edib.
[3] Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

Qəza-qədər heç birimizi tutmasın,
Fələk kəməndini bizə atmasın,
Toy-nişanda adın-sanın batmasın,
Yetirrəm dövlətə, o vara səni.

Ağ Aşığam, ustadlara mən tayam,
Aşıqlıq elmində dolu bir payam,
Araz kimi daşan, coşan bir çayam,
Qoymaram kamalda avara səni.

**OLMAZ**

Dedim: könül bacar yaxşılıq elə,[1]
Həmişə əlində ixtiyar olmaz.
Çox da bel bağlama dünya malına,
Mala, mülkə, ömrə etibar olmaz.

Ey nazənin, sən geydiyin nə aldır?
Yenə baxışındakı hansı xəyaldır?
Birisi büdrəsə qolundan qaldır,
Hər zaman dost-dosta səbəbkar olmaz.

Aşıq oldun hər ağrıya dözəsən,
Sinən üstə odlu közlər düzəsən.
Gündoğanla, günbatanı gəzəsən,
Allahverdi kimi xiridar olmaz.

[1] Əlyazmadan olduğu kimi yazmışam.

## HAÇANA KİMİ

Dərdin karvanıyam, qəmin suvarı,[1]
Üzüm gülməyəcək haçana kimi?
Gecəli-gündüzlü işığa həsrət,
Yanıb sönəcəyəm, haçana kimi?

Fərrac hüzurunda qolu bağlıyam,
Müxənnəs kəndxuda-sinədağlıyam.
Haqq-ədalət hanı, dərdim ağlıyam?
Dərdin bağbanıyam haçana kimi?

Sərdar Hüseyn tək sitəmkar olmaz,
Bu dünya fanidir, kimsəyə qalmaz.
Ağ Aşıq, dərdini təbib də bilməz,
Loğman axtaracam haçana kimi?

## BAXTIM[2]

Çevirib yönünü haqq dərgahına,
Çağırıram bəlkə gələydi baxtım.
Keçə günahımdan kərəm sahibi,
Mənim də üzümə güləydi baxtım.

Ürəyim istəyir halalı, pakı –
Şeytanı qəlbimdən qovaydım ha ki,

---

[1] Əlyazmada belədir.
[2] 2 "Ustad aşıqlar", Bakı, Gənclik – 1983. M.Həkimov

Rəbbimə duadı dodağımdakı,
Qanlı gözyaşımı siləydi baxtım.

Könlünə nə dəyib, inciyib belə,
Bəlkə uyubdu o, fitnəyə, felə?
Ağ Aşığın göz yaşı dönübdü selə,
Nola, əhvalımı biləydi baxtım.

## TALEYİM[1]

Taleyim belədir yaranan gündən,
Nahaqdan odlara qalanmalıyam.
Nə qədər əlləşəm var-dövlət yığsam,
Bir yandan çapılıb, talanmalıyam.

Ürəyimdən od düşübdür üstümə,
Heyran-heyran baxanlar var tüstümə.
Təndir bilib sığınırlar üstümə,
Belə dolanmışam, dolanmalıyam.

Qəlbimi qanadan yar yarasıdır,
Baxtımın yuxusu məni sarsıdır.
Ağ Aşıq haqq deyə hey yanasıdır,
Od oğluyam, oda qalanmalıyam.

[1] "Ustad aşıqlar", Bakı, Gənclik – 1983. M.Həkimov

## ÇƏKİRLƏR[1]

Yuxardan pristav, aşağıdan Koxa,
Biçarə rəiyyəti dara çəkirlər.
Qazı, darğa xalqı soyur soğantək,
Diri kənd üstündən qara çəkirlər.

Sığındım Göyçəyə, bu mahala mən,
Dərdim Sarı Nərdən nərgiz, lala mən.
İtirmişəm İsmayıltək bala mən,
Sinəmə çal-çarpaz yara çəkirlər.

Allahverdi, dərd əlindən dəlidir,
Kənddə Koxa qan soruyan zəlidir.
Gözüm yaşı Qıjoy[2] çayın selidir,
Sinəmə dağ-düyün, yara çəkirlər.

## GÖTÜRÜN MƏNİ[3]

Ağ Aşığa xətm-kəlam oldu bu gün,
Cənnətül-məvaya[4] götürün məni.
Eldə sirr-sözümü etmədin bəyan,
Cəlali-üqbaya[5] yetirin məni.

---

[1] Zeynalabdin müəllim 1966-cı ildə Kərəm dayısından qələmə alıb.
[2] Qıjoy – Göyçədə çay adıdır.
[3] Ağ Aşığın nəticəsi Salatın nənənin dilindən 1969-cu ildə yazılıb. Ağ Aşıq bu qoşmanı son nəfəsində demişdir.
[4] cənnət mənzili
[5] şöhrətli - ali qəbir

Əlacım eyləsin on iki imam,
Bu fani dünyadan gedirəm nakam,
Gözləyir yolumu biçarə anam,
Qəbir əzabından ötürün məni.

Cəlilüşşəi mələk[1] həmdəmim ola,
Xəlili-xəlit[2] namazımı qıla.
Tez verin duamı, salın da yola,
Siz Baği-ginana[3] götürün məni.

## GÖTÜRÜN MƏNİ[4]

Ömür oldu tamam, gün oldu tamam,
Götürün, çevirin qibləyə məni.
Dursun namazıma on iki imam,
Yetirin cənnəti-əlayə məni.

Xəzan əsdi, vaxtsız soldu güllərim,
Yetsin imdadıma Xudayi-Kərim.
El içində yadda qalan sözlərim,
Yüksəldəcək ərşi-əlayə məni.

Ellər gəlir Ağ Aşığın yasına,
Süsənbər qərq olar qəm dəryasına.
Ya Rəbb, qıyma onun cüt balasına,
Aparın fənadan üqbaya[1] məni.

[1] baş mələk
[2] yar-yoldaş
[3] behişt bağı
[4] Bu qoşmanı 1975-ci ildə Mustafa baba söyləmişdir. Haqq Aşığı bu qoşmanı ömrünün son günlərində demişdir.

## DƏRDİMİ[2]

Başına döndüyüm gül üzlü yarım,
Qoymaram həddini aşa dərdimi.
Rumun loğmanından çarə bulmadım,
Varın, deyin Qızılbaşa dərdimi.

Bülbül güldən ötrü yalvarır xara,
Xun-ciyərim oldu səd həzarpara,
Səni loğman bildim, olmadı çara,
Varın, deyin yar-yoldaşa dərdimi.

Ağ Aşığam, vəsfə gəlməyir sözüm,
Heyf, gen dünyanı görməyir gözüm,
Bircə Allah bilir, bir də mən özüm,
Nə sərdar bilir, nə paşa dərdimi.

## DEYƏ-DEYƏ[3]

Yığmadım dövləti, yığmadım malı,
Ümidlə gəzmişəm var deyə-deyə.
Sevməyən şöhrəti, sevməyən Alı,
Tapmadım, qalmışam, nar deyə-deyə.

---

[1] Üqba - axirət
[2] Əlyazmadan yazmışam.
[3] Zeynalabdin müəllim Kərəm babadan 1967-ci ildə qələmə almışdır.

Göydə Günəş şöləsini saçıbdır,
Çəmənzarlar son ömrünə çatıbdır.
Qoca şahin dağ başında yatıbdır,
Od tutub alışam, qar deyə-deyə.

Kim keçdi candan, ərən kim oldu?
Becərən kim oldu, dərən kim oldu?
Ömrünü badlara verən kim oldu?
Kərəmtək alışam, yar deyə-deyə?

Qürbət diyarda ömür çatdı başa,
Əlim çatmır istəkli yar-yoldaşa,
Cəhənnəm əzabıdı bu tamaşa,
Ağ Aşıq, qalmışam, zar deyə-deyə.

## DƏRDİM[1]

Zəhmət ilə bağça saldım becərdim,
Müştaq oldu qəmxarına ha dərdim,
Bülbültək gül üçün candan keçərdim,
Müştaq oldu qəmxarına ha dərdim.

Qızılgül becərdim ərşə boy atdı,
Ah-fəqanım el-obanı oyatdı,
Fələk məni bəxti qara yaratdı,
Müştaq oldu qəmxarına ha dərdim.

[1] Əlyazmadan olduğu kimi yazmışam.

Ağ Aşıq tutuldu gündə min dərdə,
Huş getdi, qalmadı ağıl da, sər də.
Ayrılıq üz verdi bu bəd səfərdə,
Müştaq oldu qəmxarına ha dərdim.

## AĞ AŞIĞIN YENİ TAPILMIŞ QOŞMALARI

*Mən bir daha 5-10 oktyabr 1984 və 1-10 dekabr 1985-ci ildə Göyçə mahalında oldum. Göyçə ağsaqqalları ilə söhbət etdim. Ağ Aşığın bir neçə şeirini onlardan, xüsusilə, Şəfəq kənd orta məktəbinin müəllimi Zeynalabdin Cəfərovdan qələmə aldım. İndi isə bu şeirləri sizə təqdim edirəm:*

### NƏ DƏRDİ[1]

Zəhmət ilə bağça saldı, becərdi,
Vədəbaşı nə gül gördü, nə dərdi,
Qönçəsi üçün bir canından keçərdi,
Qoxlasa da unudardı hər dərdi.

Kol böyüdü, pardaxlandı, boy atdı,
Fələk o bağbanı torpağa qatdı.
Gül fəslində ürəkləri qanatdı,
Xəzan vaxtı bağa girmək hədərdi.

Mən o gündən mübtəlayam bir dərdə,
Taleyimə bəlkə çıxa betər də.

[1] Bu qoşmanı Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından qələmə almışdır. Bu qoşma "Dərdim" qoşmasının başqa variantıdır.

Lövbərim yorulub bu bəd səfərdə,
Ağ Aşığam, qismətim qəm-kədərdi.

## DURNA

Durnam, gedər olsan bizim ellərə,
Qatıq söylə, qaymaq söylə, yağ söylə.
Yar ki xəbər alsa kefi-halımı,
Boynu armud safaq, canı sağ söylə.

...Allahverdi, axır ömrün puç oldu,
Bu fani dünyada köçə-köç oldu,
Sürdüyün səfalar de necoldu,
Əhvalımı yara yetir, durnalar.[1]

## YAXŞIDIR[2]

...Allahverdi, müdam yana çırağın,
Təmiz ola həm evin, həm ocağın.
Əgər ki olmasa nə düyün, yağın,
O, qaş-qabağın ondan yaxşıdır.

[1] Qeyd: O biri bəndləri hələlik yoxdur.
[2] Qeyd: Qoşmanın 1-ci və 2-ci bəndləri yoxdur.

## EYLƏMƏ MƏNİ[1]

Rüzgar təsrikdi, mən getdim badə,
Qohum, qardaş oldu onda azadə.
Yalqız Kəbədəki, ya imamzadə,
Heç kəsə sən yovunc eyləmə məni.

Ay Məhərrəm, axır xub düşdün dara,
Çağır o Allahı tez gəlsin dada.
Yalqız kəbədəki, ya imamzadə,
Heç kəsə sən möhtac eyləmə məni.

## ÇEVİRDİ

Mən neylədim bu bivəfa gözələ,
Üzünü döndərdi, yana çevirdi.
Müjgan kirpikləri keçdi sinəmdən,
Oxladı sinəmdən qana çevirdi.

Sirr-sözünü sən dedinmi Sənəmə,
Atəş qoydun, bu cismimə, sinəmə.
Ləblərin şəhdindən gözəl Sənəmə,
Nə yoxsul eylədi, cana çevirdi.

[1] Qeyd: Qoşmanın 3-cü bəndi yoxdur.

Allahverdi, de sözlərin gözələ,
Yaralıyam, gəl, yaramı közələ,
Kaş ki, səni görməyəydim əzələ,
Yolumda sadağa cana çevirdi.

## MƏNİ[1]

Xəstə düşüb qürbət eldə yatanda,
Bir kimsəm olmadı, oyada məni.
Əbrüşün telləri, şirin dilləri,
Qaymaq dodaqları oyada məni.

Gözüm gördü, könlüm eylədi qubar,
Oxladı köksümdən məni zülfüqar,
Ey mürvətin, məndən qeyri yarı var.
O səbəbdən salmır o yada məni.

## BİR BAX[2]

Ey göylər mələyi, dillər əzbəri,
Göz aç bu qəflətdən hər yana bir bax.
Hüsnün şöləsindən tapdım əsəri,
Batmışam qəmzəndə o qana bir bax.

Talehin yar olsun, olmasın qəni,
Görəydim kim tutar güşküqurəni.

---

[1] Qeyd: 3-cü bəndi hələlik yoxdur.
[2] Bu şeiri Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

Sail olur, hər kəs görəndə səni,
Gahdan sizə gələn mehmana bir bax.

Ancaq bir amanat nəsihətim var.
Sözümdən incimə, olma didəfkar,
Sənin kimi gözəl, sahib ixtiyar,
Yetirən əsrə, dövrana bir bax.

Otuz yeddi kənddən məxluq cəm oldu,
Mey içməmiş kim gördüsə dəm oldu.
Xəbər çatdı mənə, çox sitəm oldu.
Əlacsız yazılan dastana bir bax.

Ağ Aşığam, tapdım xoş süpanımı,
Könül sarayımın sənsən xanımı.
Kəsmə nəfəsimi, alma canımı,
Aparan nəhriqlər, umana bir bax.

## MƏN[1]

Baxdıqca bir daha doymayır gözüm,
Gəlsənə yar, edim söhbətim-sözüm.
Şahdağ güneyinə tutmuşam üzüm,
Deyir ki, qocaman təbiətəm mən.

[1] Qeyd: Qoşmanın 2-ci bəndi yoxdur.

... Ağ Aşıq qalxanda çalar kərəmi,
Sarıyal yaylağı[1] ölər sərini.
Görüncə obamın incilərini,
Məcnunam, onlardan ayrılmışam mən.

## ODLAR[2]

Göyçə həsrətini canda çəkirəm,
Çatanda xakinə ürəyim dolar,
Sadiq diyar səndə sirrim əkirəm,
Nişanəm Azəri, vətənim Odlar.

Nə qədər dolandım İran-Turanı,
Karvanlar ötüşdüm, səhra məkanı.
Ziyarət eylədim Həcci-Kəbəni,
Ey ocaq, həsrətin qəlbimi odlar.

Ağ Aşıq, dünyaya a-fəğan gəldin,
Ağadan-paşadan ov-naçar gəldin.
Köksüm ötürüncə qasid göndərdin,
Süsənbər, könlümü hicranın odlar.

---

[1] Sarıyal Göyçədə yaylaqdır.
[2] Qoşmanı Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

## OLDUMU?

Gəzdim ölkələri, sardım dünyanı,
Gördüm rəzaləti, gördüm zindanı.
Nə qədər dolanıb, vurnuxub, hanı –
Heç dönən qədrini bilən oldumu?

Atdı ağalar daşım, dedi yadsan,
İstəmirik səni, sən nə sərrafsan.
Bimürvət, biinsaf - sanki durubsan,
Gör xeyir-şərini bilən oldumu?

Ağ Aşıq bilir ki, mərdi-zamandı,
Dediyim sözlərdən ərsə boyandı.
Yalqızam, tənhayam, kimə həyandı,
Eşqimin alovun bilən oldumu?

## QAYIDACAQMI?

Çətini ucaltdın ərşə çıxınca,
Sazımda çağladın cismim vurunca.
Dağların seyrinə yollar qalxınca,
Ya Rəbbim, o günlər qayıdacaqmı?

Aşıq idim hamı çəkərdi başa,
Bədirlənib, durardılar tamaşa.
Loğman idim bükürdülər qumaşa,
Keçdiyim əyyamlar qayıdacaqmı?

Ağ Aşıq, qocaldın sədəfin düşdü,
Deyəsən, gözlərin zülmətə çökdü.
Qiblənin küləyi geriyə döndü.
Çəkdiyim nalələr qayıdacaqmı?

## RUHANİ[1]

Üzümü qibləyə tutub deyirəm,
Kimdir ol Məhəmməd əleyhissəlam.
Şəkki vücudlara təlğin edirəm,
O tək Allahınnan kəsibdi kəlam.

Sığının aləmdə on iki ada,
Ya Əli, ya Hüseyn, yetişin dada.
Həzrəti Abbası salanda yada,
Çağırın düşsəniz dara hər zaman.

Aləmə bəyandı həzrət alilər,
İmami qüdrətdən ötən halilər.
Pəhləvan müqəddəs, o mərd valilər,
Onların nurundan dönərmi inan.

Sizə qələm çəkən gərək ola sir,
Yaddan çıxarmasın əsir-bə-əsir.
Xudaya, onlara yazıram nəzir,
Ağ Aşıq üqbaya rahibdi imam.

---

[1] Qoşmanı Zeynalabdin müəllim Salatın nənədən qələmə almışdır.

## VARMI[1]

Ay cavanlar, gəlin deyim, müqəddəm,
Ürəkdən dost deyən bir kişi varmı?
Arasaq, axtarsaq hər şeydən əqdəm,
Mənimlə can deyən nər kişi varmı?

Dosta da inandım bir zaman belə,
Yolunda hazırdım borana, yelə,
Bir gün məni satdı daşqına, selə,
Əhddən, peymandan heç xəbərin varmı?

Yalandı bu dünya, necə ki özü,
Xülyadı dostunun söhbəti, sözü,
Rədd et bədəsili, axtarnan düzü,
Qardaşdan-qardaşa sayədar varmı!

Bu aləmə qədəm qoyan hər bir kəs,
Oxşar olmaz bir-birinə hər nəfəs,
Tutsa da üzərdə yalandı əbəs,
Beşbarmaqda oxşar əlamət varmı?

Ağ Aşıq, niyə döndü ürəyin dostdan,
Sanki o sadiqə yazardın dastan.
Deyərdi dilində asta-astadan,
Görəsən dünyada belə dost varmı?

[1] Qoşmanı Zeynalabdin müəllim 1966-cı ildə Kərəm dayısından qələmə almışdır.

## GƏLİBDİ[1]

Məğribdən-məşriqə çatıb sorağın,
Hər yerdə kəlamın xoşa gəlibdi.
Mövlan verib haqdan yanıb çırağın,
Bülbüllər bağıma qoşa gəlibdi.

Oynar Beşbarmaqda kəkliknən fərə.
Ovçu yatmış olsa, qan ağlar bərə.
Sevdim, könül verdim bir kəbutərə,[2]
Soydam yaman baha başa gəlibdi.

Allahverdi neylər dünya amalını,
Məst eylər Göyçəni, öz mahalını.
Yaxın dostlar Ağ Aşığın halını,
Sormaq üçün Kərkibaşa gəlibdi.[3]

---

[1] Bu qoşma çap olunmamışdır. Zeynalabdin müəllim Kərəm dayısından 1969-cu ildə qələmə almışdır.

[2] Kəbutər – göyərçin.

[3] Göyçənin fəxri – aşıqların sərkərdəsi Ağ Aşıq özünün Kərkibaşlı olmasını bu qoşmada tərənnüm etmişdir.

# TƏCNİSLƏR

## AYƏ MƏNDƏDİ[1]

Bu gün seyraqubdan bir söz eşitdim,
Bu (O) söz dostdan deyil, ayə məndəndi.
Dedim: - Nədir sədrin üstdə bəslənmiş (bəslənən)?
Dedi: - Tifil kimi ay əməndədi.
(Dedi: - Tifil ikən, ayə məndədi.)

Geyinibsən yar qəddinə bu xara,
Necə bülbül baxar bağda bu xara?
Gəzdim İstanbulu, Bağdad, Buxara,
İndi də gəlişmiz (gəlşimiz) A Yəməndəndi.

Allahverdi, pirdən işdi nə cami?
Nə axunddu, nə molladı, nə cami?
Nə Firdovsi, nə Füzuli, nə Cami,
(Nə Hafizdi, nə Sadidi, nə Cami.)
Təcnis sinədəftər, ayə, məndədi.

[1] Təcnisi Aşıq Alının qorçusu Kərəm dayıdan 1966-cı ildə atam Zeynalabdin müəllim qələmə almışdır.

## GÖZLƏR[1]

Durmusan qarşımda gözləri şəhla,
Baxışın cismində son anı gözlər,
Fənərtək şöləsi ala gözlərin,
Çalxanan göllərdə sonanı gözlər.

Libas əndam, qəsd eyləyər əyağa,
Şəhri eylər, piltə səkər əyağa,
Ağa olan qulun salmaz əyağa,
Bu, şəhla gözlərim sonanı gözlər.

Allahverdi, sirr-sözünü yara de,
Qövr eylədi, sinəm üstə yara, de,
Mətləbini sən qəlbində yara de,
Ovçu oylağında son anı gözlər.

## GÖRMƏDİM[2]

Bu dünyanı çox divanə dolandım,
Həsrət oldu xoş zəmanə görmədim.
El yolunda hər əzaba qalandım,
Bəy, paşa, ağanı dürüst görmədim.

[1] Bu təcnisi Zeynalabdin müəllim Aşıq Qədir Zal oğlundan 1980-ci ildə qələmə almışdır. Çap olunmayıb.
[2] Bu təcnisi Zeynalabdin müəllim Aşıq Alının qorçusu Kərəm babadan 1965-ci ildə qələmə almışdır. Çap olunmayıb.

Ağaların güzəranın gəz, ara,
Üzdülər, nakəslər sığınmaz ara.
Əsirdən, sürgündən boş qalıb ara,
Vallah bu ərətdə iman görmədim.

Ağ Aşığam, təcnisimin sayı min,
Sitəmkarın çöldə gəzir tayı min.
Keçirtsin sözlərin, qoy olsun əmin,
İnsaf deyiləndən zərrə görmədim.

## USTADNAMƏLƏR

### NƏ BİLƏR[1]

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gövhəri seç, nə bilər?
Bir damlanı sel anlayan qanmaza,
Bütün ümman, dəryanı keç, nə bilər?

Axtarsan da yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını.
Namərdə bağışla köhlən atını,
Ya yolunda sən zəhər iç, nə bilər?

Özünü böyüdüb dağ edənlərə,
Şorunu ərinmiş yağ edənlərə,
Ağ Aşığın sözün ağ edənlərə,
Xəzinədar ol, xəzinəni aç, nə bilər?

[1] Bax: "Xatirələrim" – Zeynalabdin Mahmudoğlu, Bakı "Mütərcim", 2003.

## ÇƏTİNDİ[1]

Libasnan, duruşnan, boyun-buxunnan,
İnsanı tanıyıb bilmək çətindi.
Qanannan-qanmaznan dolanmaq olar,
Yarımçığı başa salmaq çətindi.

Mətləbini söylə, mətləb qanana,
İşarə lazımdı arif olana,
Tərəqqidən-tənəzzülə enənə,
Bəh-bəh deyib, qəh-qəh gülmək çətindi.

Allahverdi, işin yox fitnə-felnən,
İnsanı qarşıla şirin dilinnən,
Ayrılma yoldaşınnan, bir ol elnən,
El olmasa, tək ucalmaq çətindi.

## YAXŞIDIR[2]

Qəm çəkmə ey könül, fani dünyada,
Özü bilən o Allaha yaxşıdır.
İbadət et, axşam-səhər sal yada,
Şükür etsən bir Allaha yaxşıdır.

[1] Əlyazmadan olduğu kimi yazmışam. Çap olunmayıb.
[2] Bu ustadnaməni Zeynalabdin müəllim Babacanlı Aşıq Qədir Vəliyevdən 1980-ci ildə qələmə almışdır.

Heç kəsə qalmayıb mal ilə dövlət,
Kim tapıb onunla dünyada şöhrət? –
Namussuz, qeyrətsiz olsa bir övlad,
Olduğundan olmadığı yaxşıdır.

Düşün ədaləti, unutma daha,
Qiymətli kəlməni satgınan baha,
Nəsihətli sözlər deyim bir daha,
Haram yüzdən halal şahı yaxşıdır.

Allahverdi deyər bəxtimdi yatan,
Yoxdur, onu yuxusundan oyadan,
Atalar ölərkən yurdunda qalan,
Qeyrətli övladı daha yaxşıdır.

## DİVANİLƏR

### HARAY

Bülbül idim, gül şövqündə axıbdı qanım, haray!
Pərvanətək eşq oduna yanan qanadım, haray!
Leyli kimi vədə verdi, Məcnun kimi gəlmədi,
Dost yolunu gözləməkdən üzüldü canım, haray!

Nə əcaib işlər oldu, başa gəldi bəlalar,
Açılıb dost bağında qızılgüllər, lalələr.
Öldü, getdi şeyda bülbül, daha etməz nalələr,
Getdi bahar, gəldi payız, soldu gülşənim, haray!

Büstunda dağ-daş çaparam, Fərhadam Şirin deyin,
Ağ Aşığam, qan ağlaram, hanı bəs yarım, deyin!
Qalmışam qəm möhnətində, artıb azarım, deyin.
Atı Düldül, ulu Qəmbər Şahı-mərdanım, haray!

## MƏDƏT-OSMANLI[1]

Beş gün bu fani dünyada keçdi dövranım, Mədət!
Sənnən qeyri bir pənahım yoxdur, pənahım, Mədət!
Şər işdən xeyir qurulmaz, xeyir-ehsanım, Mədət!
Haqq işlər irad etdim, çoxdur günahım, Mədət!

Neçələri salam verdi, salamını almadım,
Durmadım haqqın yolunda, namazımı qılmadım,
Xalqın yolunda candan keçdim, qədir bilən olmadım,
İndi ki peşman olmuşam, ayıb imkanım, Mədət!

Gəl biçarə, Allahverdi, görərlər hesabını,
Dil dolaşar, ağıl çaşar, verməzsən cavabını,
Qohum, qardaş yığılarlar, soyallar libasını,
Gətirərlər ağ xələtini, biçərlər donun, Mədət!

[1] Divaninin mənası belədir: İkinci şəxs birinci şəxsə deyir ki, bir divani oxu. O, səni divanə çəkir. Allahverdi bu şeiri nurani olan vaxtlarda demişdir. Bu divaniləri Zeynalabdin müəllim Babacanlı qocaman Aşıq Şükürdən 1987-ci ildə qələmə almışdır.

## AĞ AŞIĞIN LİRİKASI

Hər bir xalqın ədəbiyyatında olduğu kimi, xalqımızın da klassik və eləcə də şifahi xalq ədəbiyyatında məhəbbət mövzusu başlıca yer tutur. Yalnız Nizami, Füzuli, Vaqif kimi klassik sənətkarların poeziyasında deyil, həmçinin aşıq şeirinin gözəl nümunələrini yaratmış Qurbani, A.Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgərin poeziyasında da məhəbbət insani duyğuların tərənnümü üçün başlıca məhvər olmuşdur.

Məhəbbətin dili ilə böyük həqiqətlərin şərh edilməsi nadir və təəccüblü bir hadisə deyildir. Biz bu ifadəyə bütün xalqlarda rast gəlirik. Fəqət nədənsə, yüksək məfkurələrin aşıq dili ilə şərhi, ümumiyyətlə, Şərq və xüsusən Azərbaycan üçün çox səciyyəvi bir hal olmuşdur. Buna görədir ki, bir mütəfəkkirin aşıq dili ilə danışmasının nə demək olduğunu bilməyən bir şəxs Azərbaycan klassik poeziyasının məzmunundan çox çətinliklə baş çıxara bilər.[1]

Bunun nəticəsidir ki, ömrü fırtınalarda keçmiş Ağ Aşığın yaradıcılığında da məhəbbət mövzusu klassik irsimizdə olduğu kimi geniş yer tutur.

Ağ Aşığın lirikasını iki hissəyə bölmək olar. Bunların bir hissəsi məhəbbətin tərənnümünə, ikincisi dövrün ictimai eyiblərinin tənqidinə həsr edilmişdir.

---

[1] *Bakı. Uşaq-gənc nəşr, 1948. Səh. 28*

V.Q.Belinski lirik əsərlərdən danışarkən yazıb[1]: *"Lirika dilsiz duyğulara söz və surət verir, onları dar köks qəfəsi içindən bədii həyatın təmiz havasına çıxarır, onlara xüsusi bir həyat verir... lirik əsərin məzmunu artıq obyektiv bir hadisənin inkişafı deyil, subyekt özü və onun vasitəsilə əmələ gələn şeylərdir".*

Ağ Aşıq yaradıcılığının əsas qolunu məhəbbət lirikası təşkil edir. Bu lirikada düşkün maddi ehtiraslardan uzaq, həqiqi və səmimi məhəbbətin, təmiz və nəcib insani duyğuların tərənnümü verilmişdir.

Ağ Aşığın ən səmimi lirik şeirləri Süsənbərə həsr olunan qoşmalarıdır. Bu qoşmalarda unudulmaz ilk məhəbbətin və eşqin tərənnümü verilmişdir. Ağ Aşıq öz sevgilisi Süsənbərin adına saz havası bağlamış, onu dünya gözəllərindən üstün tutarmış. Ağ Aşıq Telli Cəfər ağanın oğlunun toyunu edərkən onun qızı Süsənbərə bir könüldən min könülə vurulur.

Deyilənlərə görə, Ağ Aşıq Araz çayının o tayında Telli Cəfər ağanın qızı Süsənbəri görür, ona ürəkdən vurulur və ***"Süsənbər"*** qoşmasını orada deyir. Süsənbərin üzündə bir neçə xal da varmış**.** Bu ***"Süsənbər"*** qoşmasını Ağ Aşıq sevgilisi Süsənbərə həsr etmişdir.

*Mahcamalın şölə saçır ay kimi,*
*Gözüm, könlüm, ay Süsənbər, səndədir.*
*Qaşların sinəmi oxlar yay kimi,*
*Bir ahusan, müşkü-ənbər səndədir.*

[1] ***V.Q.Belinski – seçilmiş məqalələr, Bakı Uşaqgəncnəşr, 1948, səh. 58-89.***

*Yandı qürbət eldə dilim-dodağım,*
*Çatıb Al-Osmana sözüm-sorağım.*
*Bir busə ver, dada gəlsin damağım,*
*Yandı ciyər, abı-kövsər səndədir.*

*Üzündə xallara salmışam nəzər,*
*Daldalan görməsin səni bəd-nəzər.*
*Hər nadan bilməz ki, nədir simu-zər,*
*Allahverdi, dürrü-gövhər səndədir!*

Ağ Aşığın bu məlahətli səsinə aşiq olan Araz çayının o tayından Telli Cəfər ağanın qızı Süsənbər idi. Rəvayətə görə, Süsənbər əvvəllər ana dilini bilmirmiş, ona Ağ Aşıq Azərbaycan dilini öyrətmişdir. Aşıq Alının qorçusu 100 yaşlı Kərəm babanın və Aşıq Qədirin deməsinə görə, Ağ Aşıq aşıq şeirinə yeni bir saz havası gətirmişdir: "Süsənbəri".

150 yaşlı Əşrəf babanın deməsinə görə, Süsənbər ucaboy, alyanaq, uzunsaç bir qadın idi. Necə deyərlər, həqiqi Azərbaycan gözəli idi. Ağ Aşıq sevgilisinin adını həmişə toy və məclislərdə çəkərmiş. Məsələn, "Süsənbər", "Yandırır"; "Düşdü"; "Qayıtdı"; "Çatmadım" və s. qoşmalarında və "Yalvara-yalvara" gəraylısında öz sevgilisindən bəhs etməkdən çox, ümumiyyətlə, gözəli, eşqi, ondan doğan sitəmi tərənnüm edir. Aşığın şeirlərində məhəbbət ədəbi bir motiv kimi götürülür. Aşığın dilincə, eşq ötəri bir həvəs deyil, bütün ömrü boyu insan köksündə alışan günəşdir. Ağ Aşığın ilk lirik şeirləri haqqında

aydın təsəvvür yaratmaq üçün yuxarıda adları çəkilən bir neçə şeirini nəzərdən keçirək:[1]

## YALVARA-YALVARA

***Gəraylı***

*Yarım çıxıb yaylaqlara,*
*Qaldım yalvara-yalvara,*
*Bərə qurdum oylaqlara,*
*Durdum yalvara-yalvara.*

*Qurban dedim yar adına,*
*Səs vermədi fəryadıma,*
*Şahi-mərdan, yet dadıma*
*Öldüm yalvara-yalvara.*

*Qamət çəkib naz eylədi,*
*Bir dərdimi yüz eylədi,*
*Bağrım başın köz eylədi,*
*Yandım yalvara-yalvara.*

*Gülər üzlü, boyu bəstə,*
*Dağ çəkibdi sinəm üstə.*
*Ağ Aşığı etdi xəstə,*
*Qaldım yalvara-yalvara.*

[1] Zeynalabdin Cəfərovun əlyazmasından bunları yazmışıq.

## QAYITDI
### *Qoşma*

*Bir maral baxışlı, tərlan cilvəli,*
*Gəlib məni gördü, güldü, qayıtdı.*
*Pünhanı göstərdi gül camalını,*
*Buxağına şəbnəm doldu, qayıtdı.*

*Mən görmüşəm gözəllərin çoxunu,*
*Belə olmaz ancaq boyu-buxunu.*
*Müjganından çəkib xədəng oxunu,*
*Yaralı sinəmə çaldı, qayıtdı.*

*Gözləyərkən gözlərimə sataşdı,*
*Xəstə canım eşq oduna alışdı.*
*Şəhriyardan (şəhrayıdan) qıya baxıb ötüşdü,*
*Ağ Aşığa nəzər saldı, qayıtdı.*

## "YANDIRIR
### *Qoşma*

*Gözəllərə bağlayıram dastanı,*
*Bir mələyin eşqi canı yandırır.*
*Sərraf olan lələ qoyar qiyməti,*
*Göz görəndə din-imanı yandırır.*

*Gözəllər bəzənib qarşımda durur,*
*Gözə qoruq yoxdur, gələnlər görür.*

*Bürümür üzünü, mərdanə durur,*
*Bir baxışı yüz min canı yandırır.*

*Gözəllər açıbdır Yusif bazarı,*
*Bəsləyib sinədə Hindistan narı.*
*Gözüm görür, artır canım azarı,*
*Ağ Aşıqtək binəvanı yandırır.*

Yuxarıda göstərdiyimiz şeirlərdə aşığın daxili aləminin, onun sevgi yolunda çəkdiyi əzab və iztirablarının təsviri bu lirik parçaların əsas ruhunu təşkil edir. Eşq gücündən Kərəm kimi cismi od tutub yanır. İntizar, həsrət, gözyaşı, ah-nalə, talesizlikdən şikayət bu qoşmaların əsas mövzusudur. Ağ Aşığın lirikasındakı məhəbbətin tərənnümü onun şeirlərindən bir daha duyulmaqdadır.

Ağ Aşığın lirikasında II hissə dövrün ictimai eyiblərinin tənqidinə həsr edilmiş şeirlərdir ki, bunların əksəriyyəti satirik tənqidi mahiyyət daşıyan, zamanın ictimai eyib və nöqsanlarını açan, zülm və istismar əleyhinə mübarizə aparan, dinləyicilərinə əxlaqi nəsihətlər verən ictimai motivli əsərlərdir.

Ağ Aşıq ***"Vətənimdən cida düşdüm"*** gəraylısında camaatın gözünü açmağa çalışmış, xalqı dinə, cəhalətə, zülm və haqsızlıq dünyasına qarşı mübarizəyə ruhlandırmışdır:

*Vətənimdən cida düşdüm,*
*Bəy əlindən, xan əlindən,*
*Heç birində insaf yoxdur,*
*Onların aman əlindən.*

*Rəiyyət qərq olub qəmə,*
*Dərdimizi deyək kimə?*
*Zəhrimardı, alıb yemə,*
*Kəndxudanın nan əlindən.*

*Allahverdi dostu yoxlar,*
*Öz dərdini canda saxlar.*
*Sinəmə tuşlandı oxlar,*
*Dilbilməz nadan əlindən.*

Ağ Aşıq ***"Çəkirlər"*** qoşmasında Pristav, Koyxa, Qazı və Darğanın eyiblərini açır. Onun təsvirində koyxa və s. xalqın malına daraşan, zəli kimi onun qanını soran tüfeylilərdir. beləliklə, Bəy, Xan, Pristav, Koyxa, Qazı və Darğalar Ağ Aşığın dövrünün ictimai eyiblərinin tənqidinə aid şeirlərində əsas tənqidi hədəflərdir. Şair bu qoşmasında onların tənqidini vermişdir:

*Yuxardan pristav, aşağıdan Koxa,*
*Biçarə rəiyyəti dara çəkirlər.*
*Qazı, darğa xalqı soyur soğantək,*
*Diriykən üstündən qara çəkirlər.*

*Sığındım Göyçəyə, bu mahala mən,*
*Dərdim Sarı Nərdən nərgiz, lala mən.*
*İtirmişəm İsmayıl tək bala mən,*
*Sinəmə çal-çarpaz yara çəkirlər.*

*Allahverdi, dərd əlindən dəlidir,*
*Kənddə Koxa qanı sovuran zəlidir.*
*Gözüm yaşı Qıjoy çayın selidir,*
*Sinəmə dağ-düyün, yara çəkirlər.*

Şair Allahverdi "Gilli" qoşmasında dövrün pis qayda-qanununa fikirli olaraq toxunur, pristavın, kazakın adını çəkir, onların pis əməllərini göstərir. Nəticəsi Kərkibaşlı Salatın nənənin deməsinə görə, pristav və kazak onu bir neçə dəfə çağırtdırır ki, əgər sən bir də belənçi şeirlər yazsan, sənin yerin gedər-gəlməzdir.

Allahverdi onların hədə-qorxusundan qorxmur, gələcəyə ümid bağlayır. Gilli çayının üstündə məhəccərli körpü salınmasını arzulayır. Gilli çayını **"Gilli**" qoşmasında xalqa belə tanıtdırır:

*Müddətdir vətəndən düşmüşəm uzaq,*
*Əl çəkmir yaxamdan pristav, kazak.*
*Öldürdün atımı, özüm qaldım sağ,*
*Canımda qalmayıb daha hal, Gilli.*

*...Allahverdi kimə desin bu dərdi,*
*Bəzirganam yüküm qəmdi, kədərdi.*
*Xalqın dərdi mənimkindən betərdi,*
*Salan yoxdu, bil (bir) üstündən sal, Gilli.*

Ağ Aşığın dərin xəlqilik mahiyyəti daşıyan "Nə bilər"; "Çətindir" ustadnamələrində xalq müdrikliyinə, hikmətli atalar sözlərinə, zərb-məsəllərə, böyük həyat təcrübəsi qazanmış aşığın ağıllı nəsihətlərinə tez-tez rast

gəlirik. Onun dolğun məzmunlu, nəsihətamiz şeirlərində insanları doğru yola səsləyən müdrik el sənətkarlarının səmimi hissləri duyulmaqdadır.

## ÇƏTİNDİR

Libasnan, duruşnan, boyun-buxunnan,
İnsanı tanıyıb bilmək çətindi.
Qanannan-qanmaznan dolanmaq olar,
Yarımçığı başa salmaq çətindi.

Mətləbini söylə mətləb qanana,
İşarə lazımdı arif olana,
Tərəqqidən-tənəzzülə enənə,
Bəh-bəh deyib, qəh-qəh gülmək çətindi.

Allahverdi, işin yox fitnə-felnən,
İnsanı qarşıla şirin dilinnən,
Ayrılma yoldaşınnan, bir ol elnən,
El olmasa, tək ucalmaq çətindi.

## AĞ AŞIQ HAQQINDA RƏVAYƏTLƏR

### *Hüsöynalı xanın Ağ Aşığı İrəvana gətirtməsi*

Mərhum Qızılvəng sakini Nəcəf babanın deməsinə görə, bu əhvalatı mənə Aşıq Alı belə söyləyib. Deyilənlərə görə, İrəvanda Hüsöynalı xan xəstə olur. Həkim çağırtdırır ki, dərdinə müalicə etsin. Həkim Hüsöynalı xanı müalicədən keçirib deyir ki, sənə bir ağ adamın qanı lazımdır. Əgər o qan sənə vurulsa, sən də sağalarsan. Hüsöynalı xan öyrənir ki, Kərkibaşda bir nəfər Ağ Aşıq var. Xan öz nazorunu çağırıb deyir ki, səhər tezdən atını minib Kərkibaşa gedərsən. Kərkibaşlı Ağ Aşığı mənim hüzuruma gətirərsən. Xan nazora demir ki, onun qanı lazımdır. Nazor yoluna rəvan edir.

Haqq aşığı şair Allahverdi deyilənlərə görə, başına gələn əhvalatları əvvəlcədən bilər, hətta insanlara baxanda onların ürəklərindən keçən arzuları deyərmiş. Necə deyərlər, elə bil ki, aşığa haqq vergisi verilibmiş. Haqq aşığı gecə yatarkən yuxusunda ona deyirlər ki, Hüsöynalı xan xəstədir. Nazorunu göndərib səni aparmağa. Sənin qanın xana lazımdır.

Ağ Aşıq səhər tezdən durub atını minib İrəvana yola düşür. İrəvandan Kərkibaşa isə nazor yola düşüb imiş. Göyçə ilə Bayezed (Kəvər) arasında Ağ Aşıqla nazor bir-birinə rast gəlirlər. Nişanı olduğu üçün Ağ Aşıq nazoru tanıyır. Nazor da aşığı tanıyır. Bir-birinə salam verirlər.

Nazor deyir ki:

- Aşıq qardaş, haraya gedirsən?

Ağ Aşıq deyir ki, Hüsöynalı xan məni çağırtdırıb, oraya gedirəm.

Nazor deyir ki:

- Xan səni nə işə çağırtdırıb?

Ağ Aşıq deyir ki:

- Xan xəstədir. Ona ağ adamın qanı lazımdır. Gedirəm ona qan verməyə.

Nazor bu işə təəccüb qalır.

Axır ki, nazorla Ağ Aşıq söhbət edə-edə İrəvana gəlirlər. Nazor nökərlərə deyir ki, atları tövləyə çəkin. Nazor özü girir xanın yanına.

Xan deyir ki:

- Bəs sən hələ getməyibsən?

Nazor deyir ki:

- Xan sağ olsun! Bax getdim, belə-belə oldu. Yolda Ağ Aşıq özü mənə rast gəldi. Özü də deyir ki, mənim qanım xana lazımdır.

Xan Ağ Aşığı içəri dəvət edir. Ağ Aşıq xana salam verir. Salam-səfadan sonra xan deyir ki:

- Aşıq, sən necə oldu ki, gəldin?

Ağ Aşıq deyir ki:

- Yuxumda mənə dedilər ki, xan xəstədir. Sənin dalınca nazorunu göndərtdirib. Mən isə səhər tezdən durub gəlmişəm. İndi mənim qanım sənə qurbandır.

Xan deyir ki:

- Sənin kimi haqq aşığının qanını mən almaram.

Ağ Aşıq deyir ki:

- Mən tapılaram, ancaq sənin kimi ədalətli xan tapılmaz.

Xan deyir ki:

- Mən ölməyimə razıyam, ancaq sənin qanını almağa yox.

Xülasə, xan qan almır. Ağ Aşığı bir neçə gün qonaq saxlayır. Ağ Aşıq təbabət elmlərini yaxşı bilirdi. Xanı müalicə edir. Xan yataqda uzanıqlı halda imiş. Haqq aşığı bir neçə saz havası çalır. Bədahətdən bir saz "Xandurğuzan" və ya "Şahsevəri" havasını çalır. Xan bu havadan məst olur. Birdən xan başını qaldırır. Vəzirə işarə edir ki, ayaqlarını yerə qoysun. Sonra xan ayağa qalxır. Haqq aşığı xanı sağaldır. Haqq aşığı xan ilə görüşüb və halallaşır. Vəzir aşığa bir dəst paltar, bir at və xərclik verib Kərkibaşa yola salır.

### *Osmanlı Hüseyn Sərdarın Ağ Aşığı Ruma gətirtməsi*[1]

Əşrəf və Kərəm babaların 1960-cı ildə dediklərinə görə, Osmanlı Hüseyn Sərdar xəstə olur. Hüseyn Sərdar cürbəcür həkimlər və loğmanlar çağırtdırır. Nəticədə həkimlərin biri məsləhət görür ki, sizə ağ adamın qanı dərmandır. Bundan sonra Hüseyn Sərdar hər yerə car çəkdirir ki, kimin bədəni ağ olsa, onu mənim yanıma gətirin. Ona çoxlu ənam verəcəm. Axtarışdan sonra Hüseyn Sərdar Kosacan kəndinə Ağ Aşığın yanına qasid göndərir. Aşıq həmin adamı qəbul edir və onlarla mehriban söhbət edir. Çay-çörəkdən sonra qasid deyir ki, Aşıq Allahverdi Hüseyn Sərdar xəstədir. Rum həkimi məsləhət görüb ki, sizin qanınız ona dərmandır. İndi Sərdar sizi gözləyir.

---

[1] Bu yazını Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

Aşıq dövrün iyrənc qayda-qanunlarından qorxub, razı olur və gedək deyir.

Qanlı kəndində yaşayan mərhum nəticəsi Yasəmənin deməsinə görə, bacısı Ümmilbanu ağlayır və qasidə deyir ki, a qardaş, məni apar. Allahverdidə işin olmasın!

- Bacı, Sərdara ağ kişi qanı dərmandır. Sizin qanınız yaramaz.

Axırda Allahverdi gələn adamla getməli olur. Aşıq Allahverdinin bacısı Ümmilbanu qəmə qərq olur. Bacı-qardaş bir-birini çox istəyirdilər. Ümmilbanu ağlaya-ağlaya deyir ki, ay qardaş, gəl, baş götürək bu diyardan ayaq tutduqca qaçaq. Sən Hüseyn Sərdarın hüzuruna getmə. O, çox qaniçən və zalımdır! Sən ora çatan kimi boynunu vurduracaqdır. Qanını qızıl teştə tutacaqdır. Rəvayətə görə, Ümmilbanu çox gözəl və istedadlı bir qız imiş. O, qardaşına deyir ki, zərər yoxdur. Buradan baş götürək, başqa bir vilayətə gedək. Qürbət olsa da zərər yoxdur. Birtəhər dözərəm. Elə sənin sərin sağ olsun. Çox götür-qoydan sonra Allahverdi deyir ki, ay bacı, igid bir qaşıq qandan qorxmaz. Allahı çağırıb, Sərdarın hüzuruna gedəcəm.

Onlar bir-birilə öpüşüb-görüşüb, yola rəvan etmək istəyirdi ki, Ağ Aşıq baxdı ki, oğlanları Məhərrəm və İsmayıl anaları Süsənbərin boynuna yaz sarmaşığıtək elə sarılıblar ki, illər-aylar həsrəti kimi. Göz istəyir ki, on yerindən yumub tökə. Bir tərəfdən də, biçarə bacısı Ümmilbanu əl eyləyib gözünə. Bahar buludu kimi yumub tökür. Ürəyi qövr elədi.

Haqq aşığı Allahverdi sazının bəmini bəm, zilini zil edib, "Zarıncı" havası ilə bacısı Ümmilbanu şahmar zül-

fünü sinəsinə basıb ağlaya-ağlaya "Yanıq Kərəm" havası ilə görək nə deyir. Biz deyək, siz eşidin:

**Ümmilbanu**
*Can-ciyərim, getmə, aman günüdür,*
*Çalış düşmə güzarına sərdarın.*
*Baş götürək, gedək qürbət diyara,*
*Yox etibar ilqarına sərdarın.*
**Ağ Aşıq**
*Gəl görüşək, halallaşaq, ay bacım,*
*Gedər oldum hüzuruna sərdarın,*
*Yazıq qardaşını qara qul kimi,*
*Aparırlar bazarına sərdarın.*
**Ümmilbanu**
*Sənsiz necə dözüm qəm möhnətinə,*
*Özümü öldürrəm düşsən qürbətə,*
*Şeytan da vurmaz əl, haram dövlətə,*
*Od ələnsin yollarına sərdarın.*
**Ağ Aşıq**
*Sultanların taxtı olaydı taraş,*
*Xan zülmkar, ağa cəllad, bəy fərraş,*
*Cumdum dərin ümmanlara, vurdum baş,*
*Dolaşmışam mən toruna sərdarın.*
**Ümmilbanu**
*Yaralıyam yüz sonanın içində,*
*Necə üzüm göldə, qanın içində,*
*Ümmilbanu dil-dahanın içində,*
*Lənət edir məzarına sərdarın.*

**Ağ Aşıq**
*Ağ Aşıq taleyi qara, baxtı kəm,*
*İqbalıma mənim fələk baxdı kəm,*
*Doğrananda qıyma-qıyma baxdı kəm,*
*Ollam məlhəm azarına sərdarın.*

Ağ Aşıq görək Süsənbərə nə dedi:
*Sərdar sözün fərman verdi,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*
*Yolum oldu gedər-gəlməz,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*

Qasidlərdən biri dedi:

- Ayə, kafur oğlu! Biz nə hayda, sən də nə hayda. Pəzəvəng yaşmaq haqdır hüzuruna Sərdarın. Yoxsa boynunu vurduraram.

Aşıq Allahverdi qasidlə yola rəvan edir. Hüseyn Sərdarın hüzuruna. Rəvayətə görə, Əşrəf və Kərəm babaların deməsinə görə, Aşıq Allahverdi ***"Dərdimi"*** rədifli qoşmasını burada deyir. Nəticəsi Yasəmənin deməsinə görə, Hüseyn Sərdarın qabağında deyir. Allahverdi ***"Zarıncı"*** havası ilə demişdir:

*Başına döndüyüm gülüzlü yarım,*
*Qoymaram həddini aşa dərdimi,*
*Rumun loğmanından çarə bulmadım,*
*Varın, deyin, Qızılbaşa dərdimi.*

*Bülbül güldən ötrü yalvarır xara,*
*Xun-ciyərim oldu sədhəzarpara,*
*Səni loğman bildim, olmadı çara,*
*Varın, deyin, yar-yoldaşa dərdimi.*

*Ağ Aşığam, vəsfə gəlməyib sözüm,*
*Heyf, gen dünyanı görməyir gözüm,*
*Bircə Allah bilir, bir də mən özüm,*
*Nə Sərdar bilir, nə paşa dərdimi.*

Aşıq Allahverdi gələn adamla Hüseyn Sərdarın yanına gəlir. Ona baş əyib salam verir, onun dərdini və xəstəliyini soruşur. Bu zaman Hüseyn Sərdar diksinərək elə bil yuxudan ayıldı.

Xan deyir:

- *Gəldin!*

- *Sənə qurban, gəldim.*

Bu sözlərdən sonra insan qanı içən Hüseyn Sərdar o saat cəllad çağırtdırır ki, aşığın boynunu vurdursun. Qanını qızıl teştə tutdursun.

Zülm və işgəncələr qarşısında dayanan haqq aşığı dəqiqə və saniyələrlə öz ölümünü canlandırır və bacısı Ümmilbanunun ahu-nalələrini yadına salır. Birdən-birə qorxmaz aşıq deyir ki, Sərdar sağ olsun, mənə cəllad amanı var, ya yox!

Sərdar isə ona narazı halda cəllad amanı verir. Bu zaman aşığın gözünə küləfirəngidən bir durna görünür. O, ***"Dərdini sağ söylə"***; ***"Durna"*** rədifli qoşmalarında "Narıncı" havası ilə belə demişdir:

*Durnam gedər olsan bizim ellərə,*[*1]
*Qatıq söylə, qaymaq söylə, yağ söylə,*
*Yar ki xəbər alsa, kefi-halımı,*
*Boynu armud sapaq, canı sağ söylə.*

*... Allahverdi, axır ömrün puç oldu,**
*Bu fani dünyada köçəköç oldu.*
*Sürdüyün səfalar de necoldu,*
*Əhvalımı yetir, yara, durnalar.*

Göyçə qocalarının deməsinə görə, **"Durna"** rədifli gəraylısını da elə burada demişdir:

*Qərib-qərib ötən durna,*
*Durna, yara salam söylə.*
*Bir-birinə yetən durna,*
*Durna, yara salam söylə.*

*Göydən enər qatar-qatar,*
*Dırnaqları quma batar,*
*Gecə gedər, gündüz yatar,*
*Durna, yara salam söylə.*

*Səf çəkərsiz düzüm-düzüm,*
*Şahpəri boynundan uzun,*
*Sizsiz mənim iki gözüm,*
*Durna, yara salam söylə.*

[1] *O biri bəndləri hələlik yoxdur.

*Sağ gedin səfər başına,*
*Yol gözləyir dost-aşina,*
*Məndən yara bir nişana,*
*Durna, yara salam söylə.*

Aşıq Allahverdinin məlahətli səsi həm də yaxşı havalar çaldığı üçün Sərdar onun boynunu vurdurmur.

Eyni zamanda aşıq təbabət elmini dərindən bildiyi üçün Sərdarı sağaldır. Sərdar aşığa təklif edir ki, burada qal. Aşıq isə qalmır və onu rədd edir.

Hüseyn Sərdar aşığa zər-ziba, at, qızıl istəkan, nəlbəki, qızıl toqqa və s. zinət əşyaları bəxş edir. Sərdarın yaxın adamları da aşığa ənam olaraq pul və başqa əşyalar vermişdilər.

Aşıq Allahverdi bu ənamları əvvəl götürmür və deyir ki, Sərdar sağ olsun, mən dilənçi deyiləm ki, bu qədər şey aparam. Mənə can sağlığı lazımdır. Aşığın bu sözündən aydın olur ki, o, dünya malına və başqalarının əməyinə göz dikməmişdir. Sərdar qəzəblənir ki, sən bu ənamları götürməsən, sənin boynunu vurduracam. Aşıq Allahverdi Hüseyn Sərdarın qanunundan qorxub ənamı götürüb Kosacana gətirir.[1]

Bacısı Ümmilbanu sevindiyindən qəşş edir.

- Mən elə bilirdim, ay qardaş, səni Sərdar çoxdan qanına qəltan etdiribdir!

Ağ Aşığın sağ-salamat qayıtması el-obada toy bayrama çevrilir.

---

[1] İstəkan və ənamlar 1956-1959-cu illərdə Kərkibaşda nəvəsi Allahverdinin həyat yoldaşı Sənəm qarının yanında dururdu.

Hüseyn Sərdar ikinci dəfə qasid göndərir ki, Ağ Aşığı apartdırıb boynunu vurdursun, qanını məlhəm və dərman etsin. Aşıq üzdə razı olur. Ancaq gecə ailəliklə (oğlanları Məhərrəm, İsmayıl, həyat yoldaşı Süsənbər və bacısı Ümmilbanu) Sərdarın qorxusundan qaçırlar. Onlar Göyçə mahalının Basarkeçər rayonunun Kərkibaş (indiki Şəfəq) kəndinə gəlirlər. Ulu Hacı Əhməd babam onu kənddə yerləşdirir. Göyçə ağsaqqallarının deməsinə görə, bu vaxt aşığın 40-41 yaşı olarmış.

Ağ Aşıq Göyçəyə gələndə elə bil ki, Göyçə gözəllik diyarı idi. Gül bülbülü, bülbül gülü çağırırdı. Sıra dağlar ağ buludlardan başına tac qoyub, Göyçə gölündə güzgülənirdi. Ürəyi cuşa gəlir, Göyçə mahalını belə tərif edir:

*Göyçə gözəllik oylağı,*
*Güldü-çiçəkdi yaylağı,*
*Murğuz-Murov, Kəpəz dağı,*
*Can sadağa belə sinə,*
*Gözlərinin giləsinə.*

*Güzgüsüdü Göyçə gölü,*
*Tamaşadı bütün eli,*
*Şəhdi-şəkər şirin dili,*
*Can sadağa belə sinə,*
*Gözlərinin giləsinə.*

İkinci bir variantda isə Hüseyn Sərdar Ağ Aşığı Göyçədən ikinci dəfə Ruma apartdırmışdır. Ağ Aşıq hələ Rumda olarkən Göyçənin həsrətilə yanıb yaxılmışdır:

*Əzizim, Göyçəyə mən,*
*Qurbanam Göyçəyə mən.*
*Viran qalsın Urumu,*
*Həsrətəm Göyçəyə mən.*

*Eləmi, Göyçəyə mən,*
*Gözələ, göyçəyə mən.*
*Qürbətdə həsrət qaldım*
*Vətənim Göyçəyə mən.*

*Əzizim, Göyçəyə gəl,*
*Gülə gəl, çiçəyə gəl.*
*Ağ Aşıqtək vəfalı*
*Bir qəlbi göyçəyə gəl.*

## *AĞ AŞIĞIN TİFLİS SƏFƏRİ*

Deyilənlərə görə, şair Allahverdi uzaq səfərə getmişdi. O, Gürcüstanın, Azərbaycanın, Qazax mahallarının el-obalarını bir-bir dolanıb ağır məclislərdə çalar, oxuyar, camaatın hörmətini qazanarmış. Onun bu səfəri çox uğurlu olmuşdur. O, gülər üzlə öz ailəsinə qovuşmaq niyyətində idi. Ancaq o, Göyçənin Balaməzrə kəndinə gəlir və nəvəsigildə qalır. Axşam çalır, oxuyur, səhər tezdən durub atını minir ki, Gilli çayı daşmamış keçib getsin.

Gilli çayına Göyçənin əksər kəndlərindən axan kiçik bulaqların, çayların suyu tökülürdü. Çay yaz vaxtları dəvə boynu kimi qürurla axırdı. Çox nahaq qanlar edir, ananı baladan, balanı anadan ayırırdı. Gilli çayı Göyçə

mahalını Göyçə gölündə birləşdirirdi. Çayın ətrafı o vaxtlar meşəlik olmuşdur. Çayın kənarında cürbəcür quşlar yuva qurur, qaz, ördək və başqa quşlar çayın Göyçə gölünə tökülən yerində qatar-qatar çimirlərmiş. Qaz və ördəklərin çığırtısı, çayın şırhaşır axması, tülkülərin pusquda durub quşlara hücum etməsi, balıqların suda şütəməsi gəlib-gedən yolçuları və başqa adamları valeh edərdi. Gilli çayının ətrafında müxtəlif güllər və çiçəklər bitirdi. Güllərin, çiçəklərin xoş ətri yolçuların üzünə ətir saçırdı.

Ancaq Ağ Aşıq gecə nəvəsinin evində yatanda pis yuxular görmüşdü. Səhər tezdən Ağ Aşıq səfərdən qayıdanda Kərkibaşın iki ağaclığından axıb Göyçə gölünə tökülən Gilli çayını kükrəyib daşan görür. Gilli çayına yaxınlaşır ki, çayı keçsin. Çayda heç bir keçid və körpüdən əsər-əlamət yox idi. Axşamdan yağış yağmışdı. Çay çox güclü gəlirdi. Gələn yolçuların heç biri çaydan keçməyə cürət edə bilmirdi. Haqq aşığı atını minir, yolçuların qabağına düşür və gözəgörünməzi – Allahı çağırıb çayı keçmək istəyir. Çayın ortasına çatanda su elə güclü gəlir ki, atı büdrəyir, ağzı Göyçə gölünə düşür. Hər ikisini sel alır ağzına.

Rəvayətə və deyilənlərə görə, Haqq aşığı atdan düşür, sazı ilə üzə-üzə kənara çıxır. Amma atı sel axıdıb öldürür. Qalan yolçuların bəzisi ölür, bəziləri geri qayıdır, bəziləri isə çaydan keçir.

Haqq aşığı şair Allahverdi sazı sinəsinə basıb, Gilli çayının qırağında "Cəngi" havası ilə "Gilli" qoşmasını deyir. Deyilənlərə görə, quşlar və yolçular onun başına toplaşırlar. Quşların biri enib, o biri qalxarmış. Yolçular

doğrudan da inanırlar ki, aşıq Haqq aşığıdır. O, ölmədi, sazı ilə üzüb çıxdı.

Şair Allahverdi Tiflis səfərində pristava, kazaka, kəndxudaya, çar hökumətinə öz nifrətini bildirmiş, "Gilli" qoşmasında üstüörtülü və ya simvolik şəkildə onları tənqid etmişdir. Nəticəsi Salatın nənənin deməsinə görə, pristav və kazak onu bir neçə dəfə çağırtdırır ki, əgər sən bir də belənçi şeirlər yazsan, sənin yerin gedər-gəlməzdir.

Şair Allahverdi onların belə hədə-qorxularından qorxmur, gələcəyə ümid bağlayır. Gilli çayının üstündə məhəccərli körpü salınmasını arzulayır. Bu qəzadan tərk olan aşıq Gilli çayını **"Gilli**" qoşmasında xalqa belə tanıtdırır[5]

*Dərya kimi çalxalanır, daşırsan,*
*Salırsan Göyçəyə qalmağal Gilli.*
*Xan, bəy kimi çox həddini aşırsan[6],*
*Yolçuya vermirsən sən macal Gilli.*

*Novbahar gələndə tüğyan edirsən,*
*Bir ildə ən azı yüz qan edirsən,*

---

[5] ***Bu səfəri Zeynalabdin müəllim Kərəm dayısından 1965-ci ildə qələmə almışdır.***
[6] ***Xan, bəy kimi öz həddini aşırsan.***

*Gedəni-gələni peşman edirsən,*
*Dağ eylər əlindən bu mahal Gilli.*
*Müddətdir vətəndən düşmüşəm uzaq,*
*Əl çəkmir yaxamdan pristav, kazaq.*
*Öldürdün atımı, özüm qaldım sağ*[1]*,*
*Canımda qalmayıb daha hal Gilli.*

*Allahverdi kimə desin bu dərdi,*
*Bəzirganam yüküm qəmdi, kəmərdi.*
*Xalqın dərdi mənimkindən betərdi,*
*Salan yoxdu, bir üstündən sal Gilli*[2]*.*

Şair Allahverdi Tiflis səfərində pristava, kazaxa, kəndxudaya, çar hökümətinə öz nifrətini bildirmiş, "Gilli" qoşmasında üstüörtülü və ya simvolik şəkildə onları tənqid etmişdir.

Şair hələ kapitalizm şəraitində rus, gürcü, erməni və azərbaycan xalqları arasında zəhmətkeşlərin həqiqi vətənpərvər və beynəlmiləlçiliyini tərənnüm etmiş, gələcəyə ümid bəsləyərək Gilli çayı üzərində məhəccərli körpü salınmasını və xalqların şən-firavan yaşamasını arzu etmişdir.

---

[1] ***Axıtdın atımı, özüm qaldım sağ.***

[2] ***Salan yoxdur, bir üstündən yol Gilli.***

## AŞIQ ALININ ŞEİRLƏRİ

Aşıq Alının "Bu gün" ustadnaməsi, "Seçəcək" (İçəcək) ustadnaməsi və "Verər" divanisi və "Bənzərsən" qoşması şair Hüseyn Arif tərəfindən "Şeirlər" kitabında çap olunmuşdur. "Bu gün" ustadnaməsi bir az fərqlidir. Lakin hər iki "Seçəcək" (İçəcək) ustadnaməsi və "Verər" (Osmanlı) divanisi, "Bənzərsən" qoşması da yarımçıq qalmışdır. - Axtarışlar aparıb Göyçə qocalarından, xüsusilə Aşıq Alının qorçusu Kərəm babadan Zeynalabdin müəllim 1965-ci ildə qələmə almışdır. Bu şeirlərin digər bəndlərini əldə edə bilmişik. Ustad Aşıq Alı deyilənlərə görə, İranda Aşıq Zəkini "Tək-tək" təcnisi ilə bağlayır, bu təcnis də indiyə kimi çap olunmayıb. Bunu da Babacanlı Aşıq Şükürdən qələmə almışıq. İndi kitabda çap olunanları və əldə etdiyimiz o biri bəndlərini verməyi məqsədəuyğun bildik.

### Aşıq Alının təsnif və bayatıları (qıfılbənd)[1]

**Təsnif**

***BƏSDİ (BƏSTİ)***

Nə olar yada,
Salasan, Bəsti.
Təncidə könlüm
Alasan, Bəsti.

***QƏLBİMDƏ ODLAR***

Qəlbimdə odlar,
Qalandı, qalan.
Aşiq məşuqsuz
Nalandı, nalan.

1

Ey huri nisbət,
Mələkə ismət.
Sən mənə qismət
Olasan, Bəsti.

Eşqin canımda
Xanimanımda.
Mənim yanımda
Qalasan, Bəsti.

Sevdim cananı,
Olmaz yananı.
Bu can xananı
Talasan, Bəsti.

Ey mələkzadə,
Demərəm yada.
Alını oda
Qalasan, Bəsti.

Qürbətdə qalmaq,
Xəyala dalmaq.
Qeyrisin almaq
Yalandı, yalan.

Bu necə sözdü,
Ay şəhlagözdü
Alını üzdü,
Talandı, talan.

## *GÖZƏLDİR GÖZƏL*

Zatında halal,
Salmaz qeylü-qal.
Halal cah-cəlal.
Gözəldir, gözəl.

Düz yola düşmək,
Sənətdə bişmək.
Deyib-gülüşmək
Gözəldir, gözəl.

İnəyin yağı,
Diyarın dağı
Ana torpağı
Gözəldir, gözəl.

Sahibin sevə
Dövlətdə dəvə
Övladda nəvə
Gözəldir, gözəl

Zəkalı bir baş
Qovğada qardaş.
Axirət sirdaş
Gözəldir, gözəl.

Nemətdə mənsil
Loğmandı əsil.
Saf-sağlam nəsil
Gözəldir, gözəl.

Olsa həvəsi,
Bolca nəfəsi
Alının səsi
Gözəldir, gözəl

## *BAYATILAR*

Mən aşiqəm, elə sən,
Mən beləyəm, elə sən.
Ey xuda, al canımı,
Qəhr eyləmə, elə sən.

Mən aşiqəm, yarasa,
Fəhmən uçar yarasa.
El unutmaz bir kəsi,
El dərdinə yarasa.

Aşıq, yarı başınnan,
Tapar huşyar başı nan.
Yar seçilər rüxsarla,
Ana olar başınnan.

Aşıq, yarı qaşınnan,
Çal zəmini qaşı nan.
Gözəllərin sərdarı,
Xoş gələr qaşınnan.

Aşiqəm, gərdən çəkə,
Qarışqa gər dən çəkə.
Mən seyr edəm yarımı
Yarımsa, gərdən çəkə.

Aşıq mənəm, dil qəmə
Nadanlara dil qəmə.
Sevgim Məcnuna bənzər
Eşqim Kərəm, dilqəmə.

Mən aşiqəm, kamalım,
Fələk qoymaz kam alım.
Görəndə yar rüxsarın,
Puçdu əqlim-kamalım.

Aşiq mənəm, ay ata.
Səcdə elə, ay ata,
Evdə xaliqin odu,
Darda çağır, Ay ata

Aşıq, yarın gözü nə,
Mayıl oldum gözünə.
Çox da qıyğacı baxma,
Bais olar göz ünə.

Aşıq, yarın kirpiyi,
Qoyma tuta kir piyi.
Gözlərin qana qaçır,
Könül dəlir kirpiyi.

Aşıq mənəm dilimdən,
Yar qəlbinə dilim dən.
Vəfalıya can qurban,
Bəd söz çıxmaz dilimdən.

Aşıq mənəm, dişimdən,
Xırıb eylər dişim dən.
Ver ləblərin ləbindən,
Zədə görməz dişimdən.

Aşıq yarda sinəbənd.
Axır cismim sinə[1] bənd.
Nar görünsə bağ şəndi,
Gəl, eyləmə sinəbənd.

Aşıq deyər, anam hey.
Verməz əsla, nam hey.
Hey yolunda can üzər,
Hamı deyər: - Anam hey!

Aşiq deyər, atanı,
Naxələfi at anı.
Tifil atsa fərzəndi,
Ata bilməz atanı.

Aşıq, el yaraşığı,
Tərlan tək yara şığı.
Oğul elin pənahı,
Qızlar el yaraşığı.

Aşıq, öyün qızınan.
Ol oduna, qızınan.
Namus-qeyrət zay etsə,
Tutsun belə qızı nan.

Aşıq, mənəm, qar daşı,
Bir doğma bil qardaşı.
Alar qisasın qoymaz
Bahəm daş çəkər, qar daşı.

---

[1] Qəbir

Aşıq, yarın ayağı,
Sinə humay, ay ağı.
Alı alar canını,
Dəysən yara, a yağı.

Aşıq, bacı yaxşıdı,
Alan bacı, yaxşıdı.
Xoş gündə zənənin,
Darda bacı yaxşıdı.

Mən aşiq, nər divanə,
Ayaq qoy nərdivanə.
Pünhan ol gözlərindən,
Olubdur, nər divanə.

Mən aşığam, yaranan,
Qismət oldu, yara nan.
Ya Rəbb, varmı mənimtək,
Dərdli-qəmli yaranan?

Mən aşıq, qəmə sarı,
Dəstək ağ, qəmə sarı.
Mən ki dəm aşiqiyəm,
Gəl çəkmə, qəmə sarı.

Mən aşiq, qəm diyarı,
Sızlaram qəm diyarı.
Aşıq necə əmr etsin.
Dərd evi, qəm diyarı.

Mən aşıq, qəm daşıyan,
Od vurdum, qəm daşıyam.
Kimsə olmaz mənimtək,
Dərd çəkib, qəm daşıyan.

Mən aşiqəm, gözüm alma,
Görəndə gözüm alma.
Alırsan al canımı,
Yazığam, gözüm alma.

Mən aşiqəm, Qazağa,
Yolum düşdü Qazağa.
Yarım harda yatıbsa,
Orda məzar qaz, ağa.

Mən aşiq, qarğıyana,
Düşübdü qarğı yana.
Yüz min təbib neyləsin,
Bir fələk qarğıyana.

***Qıfılbənd bayatı***[1]
Mən aşiq, iki saya,
Cüt dedim, iki saya.
Şah dörd zənən bəzəyib
İki ağ, iki saya.
***(4 fəsil)***

Aşiqəm, yaradandı,
De dursun yaradandı.
Anamı ölü gördüm,
Neməti yaradandı.
***(Torpaq)***

Mən aşiqəm, üç ata,
Üç oğuldur, üç ata.
Aşıq bir sərbaz gördü,
Süvar olub, üç ata.
**(Qoca, iki qılça, bir çəlik)**

[1] Aşıq Alının təsnif və bayatıları (qıfılbənd) atam Zeynalabdin müəllim tərəfindən 1971-ci ildə Kərəm dayısından qələmə almışdır. Mən bu şeirləri 1981-ci ildə Aşıqlar Birliyinin sədri H.Arifə təqdim etdim. O, bu şeirləri folklorşünas M.Həkimova verdi. Təəssüf ki, M.Həkimov bu təsnif və bayatıları (qıfılbənd) "Xalqımızın deyimləri və duyumları" – 1986 kitabında çap etdirərkən atamın adını qeyd etməyib. Bunu gələcək göstərəcək.

*Aşıq Alının yeni tapılmış şeirləri*

## GÖZLƏRƏM SƏNİ[1]

*Gəraylı*

Kimsən gedən boyu bəstə,
Bilincə gözlərəm səni.
Dayanaram yolun üstə,
Gəlincə gözlərəm səni.

Şəbnəm üstdə ayaq izin,
Mehman mənəm, diyar sizin,
Sürünərəm dizin-dizin,
Yolunca gözlərəm səni.

Gözün şəhla, kirpik oxdu.
Köçən köçür, dönən yoxdu,
Darıxmıram, səbrim çoxdu,
Ölüncə gözlərəm səni.

Həsrətdən ağdı birçəyim,
Qönçə gülüm, tər ləçəyim.
Qəbrin üstə hər çiçəyim,
Solunca gözlərəm səni.

[1] Zeynalabdin müəllim 1970-ci ildə Aşıq Alının qorçusu Kərəm dayıdan "Gözlərəm səni" gəraylısını qələmə almışdır. Mən gəraylını 1984-cü ildə Hüseyn Arifə təqdim etdim. O da "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdi. Aşıq Alı gəraylını sevgilisi Bəstiyə həsr etmişdir.

Alıyam, həsrət çəkərəm,
Qəm biçərəm, dərd əkərəm,
Dəryaca qan-yaş tökərəm,
Dolunca gözlərəm səni.

## "BƏNZƏRSƏN[1]
### *Qoşma*

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən ölməz abi-kövsər suyundan,
Bulaq, bizim bulaqlara bənzərsən.

Əyricə, Vers dağı, Daşkənd baharı,
Ağ sürülər Sarıyaldan yuxarı...
Var bizim suların gözəl axarı,
Çaylaq, bizim çaylaqlara bənzərsən.

Yaxşı olur bizim yerin bu çağı[1],
Ağ lavaşı, kərə yağı, qaymağı.
Gözəllər gəşt elər, gəzər oylağı,
Oylaq, bizim oylaqlara bənzərsən.

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından Aşıq Alının dediyi sözlərlə qələmə almışdır.
I və III bəndləri çap olunmayıb.

Aşıq Alı deyər: üç gözəl dərə,
Şəqaik, çiçəkli, xoş, gözəl dərə.
Şahdağdan görünür Başgözəl dərə,
(Əyricə, Verst dağı, Başgözəl dərə),
Üçdağ, bizim Üçdağlara bənzərsən.

## BU GÜN[1]
### *Ustadnamə*

Dərs alanlar gəlsin məndən dərs alsın,
Sinəmin dəftərin açıram bu gün.
Bir quş idim, dövr elədim havada,
Havadan yuvaya uçuram bu gün.

Yanımda yoxdur nə atam, nə anam,
Yüklənibdir qəflə-qatır bərxanam.
Pozulub pərgarım, dağılıb qalam,
Bu yurddan o yurda köçürəm bu gün.

Aşıq Alı minib səcərdən (şəcərdən) atı,
Üzünə oxunur əcəl bayatı (baratı).
Qıldan çox nazikdir, qılıncdan iti,
Ərəst (sirat) körpüsündən keçirəm bu gün.

[1] ***Zeynalabdin müəllim 1980-ci ildə Babacanlı Aşıq Şükürdən qələmə almışdır.***

## "SEÇƏCƏK[1]
### *(İçəcək)*
### *Ustadnamə*

Qoca dünya çoxların yola salıfdı (salıbdı),
Köçən köçdü, köçməyənlər köçəcək.
Qafil, içmə bu gün əcəl şərabın
(Qalif olma, bir gün əcəl şərbətin)
İçən içdi, içməyənlər içəcək.

Hanı mülk üstündə qanlar tökənlər?
Şirin canı al-qumaşla bükənlər.
Unutmasın şər-böhtanı əkənlər,
Biçən biçdi, biçməyənlər biçəcək.

Hayıf, hal malımı harama qatdım,
Könül atın minib mənzilə çatdım,
Dünya mülkündən hərəyə bir addım,
Düşən düşdü, düşməyənlər düşəcək.

Zülmlə yığılan bir gün talandı,
Deməyənlər, qəhri-qəza yalandı,
Kimi ata mindirir, atdan salandı,
Düşən düşdü, düşməyənlər düşəcək.

---

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından Aşıq Alının dediyi sözlərlə qələmə almışdır.
III və IV bəndlər çap olunmayıb.

Beçarə Alı, tez düşdün həvəsdən,
Sərraf seçəcəkdir qızılı misdən,
Sərraf olan kəsdər (kəslər), yaxşını pisdən,
Seçən seçdi, seçməyənlər seçəcək.[1]

## AŞIQ ALININ İRANDA AŞIQ ZƏKİNİ BAĞLADIĞI TƏK-TƏK[2] *təcnisi*

Ruzi bəxş olundu neçə xilqətdən?
İzhar eylə, dürüst sədala tək-tək.
Əhyi Asəfikən nə məkanlıdır?
Ay, il, ünvanların sədala tək-tək.

Kəhkəşanda nə faydadı səyyarə?
Həddi şəmsiyyə neylər bu Səyyarə?
Fəhmanda kim oldu hansı səyyarə?
Dərsi ilbəilə səda "la" tək-tək!

Nə məqamda zühr olundu ayinə?
Kafiliyi rukət neçə ayinə.
Hansı gündə üç səadət, ayinə?
Alı, itaətdə sədala tək-tək.

İndi isə Aşıq Alı ilə Aşıq Ələsgərin ***"Başa-baş"*** cığalı təcnisini nəzərdən keçirək. Ustadla şəyirdin bu təcnisdə bir-biri ilə bəhrələndiyi görünür:

---

[1]***Bu təcnisi 1986-cı ildə Zeynalabdin müəllim Babacanlı Aşıq Şükürdən qələmə almışdır.***

## CIĞALI TƏCNISLƏR

*Aşıq Alı*

**BAŞA-BAŞ**

Dost odur ki, öz dostunnan dost ola,
Düşməninnən düşmən ola başa-baş
  Əzizinəm, başa-baş.
  Oxu dərsin başa-baş.
  Bədəsildən qaç qurtar.
  Ayaq götür başabaş.
-Can! -deyənə - Can! –deyinən mərdana,
Baş qoyanın qoy yolunda başa-baş.

Aşıq gərək bu meydanda bir qala,
Oxugunan bu dərsini bir qala.
  Mən aşıq qala-qala.
  Dikilib qala-qala.
  Cavan ömrüm çürüdü,
  Qürbətdə qala-qala.
Ağlayana can verməram nə qala,
Baş verənə mən verərəm başa-baş.

Aşıq dərdin kim yetirər sənə, yar.
Oxudunmu bu dərdimi sən, a yar?
  Aşıq deyər sənə, yar,[1]
  Qurban olum sənə, yar.

---

[1] Bu bayatının 2 bəndi yoxdur.

Tarix keçsə ömür elə sən, a yar,
Əl çəkmərəm olsam camdan, başa-baş.

Aşıq Alı, hazar dərdə davadı,
Bir dərdim var həzar dərdə dəvadı
  Yox, aşıq, dava gəzər.
  Xəstələr dava gəzər.
  Əsl çay-çörək verər.
  Bədəsil dava gəzər.
Davaçısan, bu meydanda davadı,
İstəyirsən kəllə vuraq başa-baş.

*Aşıq Ələsgər*
**BAŞA-BAŞ**

A bimürvət, həsrətini çəkməkdən
İllər ilə xəstə düşdüm başa, baş.
  Mən aşığam, başa-baş,
  Oxu dərsin başa-baş,
  Eşqindən səməndərəm
  Oda yandım, başa-baş.
"Can" deyənə "can" deginən mərdana,
Baş qoyanın qoy yolunda başa-baş!

Səndən ayrı haçan geysəm al, inci,
Geyinibsən yar, qəddinə al, inci.
  Mən aşığam, al inci,
  Göy qəddinə al, inci.
  Dosta xəyanət olmaz,
  Qurma mənə al, İnci!

Bir canım var, alacaqsan al, İnci!
Bir busə ver, sevda vuraq başa-baş.

Ələsgərəm, dərdin budu, ay ağa!
Eynim yaşı neysan kimi, a yağa.
  Mən aşığam, ay ağa!
  Piltə yanar a yağa.
  Mərd sözün üzə söylər,
  Heç yapışmaz ayağa.
Gah baş olan, gah da düşər ayağa,
Kimsə vurmaz fələk ilə, başa-baş.

## AY AĞA SİNDƏ

Məğrur olub ustadından deyinmə,
Bu halə çəkəcək ayağa səni.
  Aşiq ay ağa səni,
  Salar ay ağa səni.
  Dağdan çəkər arana,
  Leysan a yağa səni.
Mərdlərin şahısan, fəqir ağası,
Çağırram imdada ay ağa səni.

Pərvanə dolanar oda, ya şama,
Ömrə zər yaz, nə gərəkdir, yaşa ma[1]
  Aşıq deyər yaşama,
  Yaşamırsan yaşama.

[1] su

Ayrılırsan gəl ayrıl,
Tökmə gözdən yaş ama[1]
Mərdanə ömür eylə, ya da yaşama,
Dövran həsrət qoyar, aya ağa səni.

Alı çox görübdü dar ayağını,
İnşallah tez salar dara yağını.
Aşıq dar ayağını,
Yemə dara yağını.
Ər oğlu ər istərəm,
Çəkə dara yağını.
Gətirmə gəl elə dara[2] yağını,
Həsrət qoyar nana, ay ağa səni.

## YAR ASA SƏNİ

Yaxşı aşiq, çalış yaxşı yara yet,
Sağaldar cəsədin yarasa səni.
Aşiq yar asa səni,
Saysa, yar "a" [3]sa səni,
Kaş nazənin, xanəndə,
Sana yarasa[4] səni.
Lisanı şirinsə, gərdişi şirin,
Yaxşıdı şəhdindən[5] yar asa səni.

[1] amma
[2] Hökmdar, Ağa
[3] Əbcəd hesabı ilə "a" – vahid – 1 deməkdir.
[4] Gecə gəzən
[5] Saçlarından

Ərşdən gərdəninə qəddara[1] salsa,
Qəhrə qərq eyləsə, qəd dara salsa.
  Aşiqsən dara salsa,
  Yar səni dara salsa,
  Dərdə salsa, yar salsın.
  Nəhs gələr dara[2] salsa,
Haqq işin alyanaq qəddara salsa,
Qailsənsə[3] yanə yarasa səni.

Yar desə, sən aya, aya sən yarı,
Cananlar içində aya[4] san yarı,
  Aşiqsənsə san yarı,
  Əsl aqil san yarı,
  Sinnim çatdı əlliyə,
  Gərdişindi san yarı.
Alı, al dəstinə, ay asan yarı,
Şad eylər dərdinə yarasa səni.

## "VERİR"[5]

***Qıfılbənd divani***
Bugün bir hikmət görmüşəm, aləmə iman verir,
Yediyi bir də yeyilir, hamısını tamam verir.
Özü aləmi doyurur, nalə çəkir acam mən,
Onun nə ki yeməyi var, cəmini insan verir.

---

[1] İkiağızlı qılınc
[2] Ağa, sahib, padşah
[3] baş
[4] Nişan
[5] Zeynalabdin müəllim 1972-ci ildə Kərəm dayısından qələmə almışdır.

Bir başı var, bir ayağı, qəfəsi göydə durur.
Çəkilibdi kamanıya dabanı ayda durur
Nə vaxtı var, nə vədəsi, hesabı sayda durur,
Hər gələndən xərrac alır, hesabnan can verir.

Gəl, biçarə Aşıq Alı, qoyma ola sözün kək,
Onun bir adəti vardır, gah tox olur, gah da ac,
Özü elə hökm eləyir, hər gələndən alır bac,
Doğruluqnan hesab alır, düzlüynən nan verir.

## "HEY DƏRƏ BİR"

***Divani***
Yar olana yar olaram, salsan məni dara maram,
Nankora bağ nə lazım, meyvəsini hey dərə bir.
Əhdə sadiq olmayanın, siyah zülfün daramaram,
Xof etmərəm daşqın seldən, axıb gedə hey dərə bir.

Dost yolunda baş qoymasan, əsla səni aramaram,
Hər bir kəsin öz təhrində ara loğman, ara maram.
Gəl yad eylə rəsulunu, həccə eylə aram-aram,
Ol Kəbeyi-behtullahda, səcdə qıl hey, dərə bir.

Alı, zalım bir nakəsə, yar olsa da yara maram,
Nadan elə teyləmişdi, indi oldu yaram aram.
Qüdrətim yox, vəsf eyləyəm, mən ki buna yaramaram,
Əldə seyfi qətl zalım, yaraşıbdı hey dərə bir.

## "VERƏR[1]

***Divani***
*Mərdin qonağı gələndə,*
*Gülə-gülə nan verər.*
*Namərd bir qonaq görəndə,*
*Görərsən ki, yan verər.*
*Hanı Hatəm kimi, Hatəm - süfrə sala, ad ala,*
*Hanı loğman kimi loğman - xəstələrə can verə,*

*Bir kişiyə Allah versə, onun bəxti ucadır.*
*Bir kişiyə Allah verməsə, gündüz ona gecədir.*
*Bir kəsə Allah verməsə, çalışdığı becadır,*
*Bir kəsə Allah verəndə, ona hər yanan verər.*

*Aşıq Alı, haqqı çağır, bəlkə yetə dadına,*
*Gecə-gündüz zikr eylə, beş vaxtı sal yadına.*
*Sıxdı dillə - dilək, dilə tez yetər imdadına.*
*Atı Düldül, qulu Qəmbər, o, Şahi-mərdan verər.*[2]

[1] Zeynalabdin müəllim 1965-ci ildə Kərəm dayısından Aşıq Alının dediyi sözlərlə qələmə almışdır.
***(III bəndi kitabda çap olunmayıb).***

[2] III bəndi tapılmamışdır.
**Qeyd:** Atam Zeynalabdin müəllim 1965-1972-ci illərdə Kərəm babadan Aşıq Alının 10-dan çox təcnis, cığalı təcnis və divanisini qələmə almışdır. Mən bu şeirləri 1981-ci ildə Aşıqlar Birliyinin sədri H.Arifə təqdim etdim. O, bu şeirləri folklorşünas M.Həkimova verdi. M.Həkimov "Aşıq Alı", Bakı, "Yazıçı"- 1982 kitabında bu şeirləri çap etdirib. Lakin atam Zeynalabdinin adını qeyd etməyib. Bu kitabda şeirlər kimdən qələmə alınıbsa, heç birinin adı qeyd edilməyib. Bunu gələcək göstərəcək.

İndi isə ***"Verər"*** divanisinin kitabda olan iki bəndini yazırıq:

Bir mərdə qonaq gələndə gülə-gülə nan verər,
Namərd bir mehman görəndə görərsən ki, yan verər.
Hanı Hatəm kimi Hatəm, süfrə salıb ad ala,
Hanı loğman kimi loğman, xəstələrə can verə.

Bir adamdan Allah alsa, gündüz ona gecədir,
Bir adama qarğış keçsə, çalışdığı becədir.
Bir adama alqış keçsə, onun haqqı ucadır.
Bir adama Allah versə, görərsən hər yan verər.

## AŞIQ ALI HAQQINDA RƏVAYƏTLƏR HAJI HÜSEYNİN AŞIQ ALIYA AT BAĞIŞLAMASI[1]

Ağbulaxlı Hajı Hüseyn Aşıx Alının yaxın dosdannnan biri oluf. Deyilənnərə görə, Hajı Hüseyn Göyçənin addı-sannı, tanınmış, yoxsul dərdi çəkən səxavətdi adamlarınnan biriymiş. Aşıx Alı həmişə qonşu kənddərə, Qaraqoyunnu dərəsinə, eləcə də Qazağa, Tovuza, Borçalıya gedəndə Hajı Hüseynin evinə düşər, dostuna qonax olardı. Eşidif bilən kimi qonum-qonşu aşığın başına toflaşar, Hajının öyü toy öyünə dönərmiş. Günnərin bir günü Aşıx Alı dostu Qiyas ağadan bir məktuf alır. Oxuyanda görür kü, dostu onu Qazağa oğlunun toyunu keçirməyə çağırır. Daha durmağın yeri döyüldü. Aşıx Alı hazırraşıf şəyirdi Mehtiynən birrikdə yola düşür. Basarkeçərdə Mehtiyə deyir ki, bala, atının ayağı nalsızdı, gətir nalla-

---

[1] **Hüseyn İsmayılov.** *Aşıq Alı "Əsərləri". Bakı, 2006*

dax, sonra gedək. Atı nalvəndə çəkif nallatdılar. Nalladannan sonra atdarın ağzını çevirillər Qazağa tərəf. Məzrə kəndini keçəndə görüllər ki, at axsayır. Şişqayada daha at çox çətinniknən ayağının birini yerə basır.

- Ayə, ay Mehti, bu çərrəmiş yoxsa bizi yolda qoyar, atın mayasına mıx dəyif, - deyə Alı dillənir.

Uzun sözün qısası onnan bir təhər gün varkən Ağbulağa çatıllar. Hajı Hüseynnən Aşıx Alı çox mehribannıxnan görüşüllər. Hajı qonaxları otağa dəvət etdikdən sonra eşiyə çıxıf uşaxlara deyir ki, Alıgilin atdarını tövlüyə çəkin. Uşaxlar atı içəri çəkəndə görüllər ki, aşığın atı axsıyır.

Axşam yaxşı qonaxlıx düzəldillər. Kəndin ağsaqqalları, saz-söz həvəskarrarı Alının başına toflaşır. O da gejəyə əməlli-başlı bir körpü atır. Düz gejə yarıya kimi çalıf-oxuyur, şirin söhbətdər eliyir. Savah açılanda Aşıx Alı Qazağa yola düşməli olur. Bu vaxt onun qavağına özgə at çəkillər. Alı bir qədər tərəddüd eliyir.

- Alı, min sür, sənin atının mayasına mıx dəyif, nalını sökdürmək lazımdı, - deyif Hajı Hüseyn irəli yeriyif atın cilovunnan tutur. Aşıxlar yola düşüllər. İki gün sonra Hajı Hüseyn Aşıx Alının atını Qızılvəngə qaytarır. Deyilənnərə görə, Aşıx Alı Qazaxda çox ləngərri bir toy keçirir. Aşığı on dörd gün Qazaxdan buraxmıllar. Yarım aydan sonra Alı yenə Ağbulağa qayıdır. Dostunun evinə düşür. Dincini alannan sonra Qızılvəngə gedəcəyini bildirir.

Hajı Hüseyn deyir ki, Alı, sənin atını ilxıya buraxmışam, at atdı nə fərqi var, elə bu atı min get. Alı dostunun bir sözünü iki eləməzdi. Bilirdi ki, Hajı belə şeylər-

dən inciyən adamdı. Odu ki, Aşıx Alı görüşüf yola düşməli olur.

Aşıx gəlif Qızılvəngə çatanda görür ki, öz atı həyətdə hörüklənif. Aşıx Alı elə belə adam döyüldü. Hər şeyi o saat başa düşür. Bilir ki, Hajı Hüseyn atı ona bağışdıyıf.

Axşam qonum-qonşu toflaşıf aşığın Qazaxda görüf-bildiyinnən danışmağı xahiş eliyillər. Alı Qiyas bəyin dostduğunnan, Qazax camahatınnan, keçirdiyi toyun böyüklüyünnən ürəkdolusu danışır. Sonra da qayıdır ki, Ağbulaxlı Hajı Hüseyn bir görün başıma nə oyun açıf...

– Onu da bilmişik, - deye kimsə yerdən dillənir, - canın sağ olsun, bir gün olar sən də onun yaxşılığınnan çıxarsan.

Aşıx Alı qayıdır ki, siz mənim dostumu hələ yaxşı tanımırsınız. O, heş nədən yaxşılıx güdən adam döyül. Bir dəfə Hajı evində xəstə yatırmış. Arvad-uşax xəvər gətirir ki, koxa camaatı kəndin ortasındakı meydana tofluyuf, vergi üstündə incidir. Hajı uşağa deyir ki, tez Hajı Kazımı tapıf yanıma gətir. Hajı Kazım onun böyük oğluydu. Hajı Kazımı çağırıllar. Hajı tərs-tərs onun üzünə baxır.

- Ay dədə, nə oluf? - deyə, Hajı Kazım soruşur.

- Nə olajax, a bala, sən eşidmiyifsən ki, koxa camaatının başına nə oyun açır?! Bu saat gedif o koxaya deyərsən ki, mənim camaatımı pula görə çox nahax incidir. Gəlsin pulunu verim.

Hajı Kazım tez evdən çıxıf özünü verir koxanın yanına. Çatan kimi görür ki, koxa qızmış nərə dönüf camaata daha nə qalır deməmiş. Koxuyu çağırır bir kənara, Hajı Hüseynin dediyini ona çatdırır. Koxa bilir ki, Hajı onu hörmətdən salajax. Başdıyır dil-ağız eləməyə ki, val-

lah elə ajığım tutmuşdu. Vergiyi yaman yuvadıflar. Hajı Kazım Hajı Hüseynin verdiyi pulla camaatın vergisini bağlıyır. Hajı belə səxavətdəri çox eliyif. Bir at Hajı üçün o qədər də böyük şey döyül.

Sazımı gətirin görüm mən də Hajıya öz ürək sözümü necə çatdıra bilirəm...

Bu dari-dünyada, Göyçə elində
Hörmətdə, izzətdə birsən, ay Hajı.
Sənə qismət verif xaliqi-sübhan,
Həqiqət yolunda şirsən, ay Hajı.

Başı yığıncaxlı, cövrü-cəfalı,
Qohuma-qonşuya, dosta vəfalı.
Qonaxlı-qaralı, Hatəm səxalı,
Süfrələr açmaxda birsən, ay Hajı.

Tanıyır el-ova düz insan səni,
Tutammaz şöhrətdə nə boy, xan səni,
Azmı eyləmişəm imtahan səni?
Ərrər meydanında ərsən, ay Hajı.

Süfrəsi, dövləti, halal əməyi,
Yüzdüklər xərşdiyər əsmər ürəyi.
Yetimlər köynəyi, yoxsul çörəyi,
Əvvəldən bir açıx dərsən, ay Hajı.

Yanında xəcalət bu Aşıx Alı,
Bağışda sən allah bu qeylü-qalı.
Seyiddən, molladan elə daldalı,
Vallah ziyarətsən, pirsən, ay Hajı.

## GÖYÇƏ MAHALI KƏRKİBAŞ KƏNDİNİN AĞBİRÇƏYİ MƏDİNƏ NƏNƏNİN AŞIQ ALI HAQQINDA SÖYLƏDİKLƏRİ

Alı haqqında bu rəvayəti[1] 1974-cü ildə Mədinə nənə bizə söhbət etmişdir. Deyilənlərə görə, Göyçə mahalının Çamırlı kəndində Niftalı bəyin ilxısı, qoyun sürüsü, inəkləri və danaları var imiş. Buna isə Alının atası Mirzə kişi başçılıq edirmiş. Həm də Mirzə kişinin təsərrüfatdan yaxşı başı çıxırmış. Qızılvənglə Çamırlının arası 3-5 km olardı. Alı da Çamırlıya gəlib atasına kömək edərmiş. Qoyun-quzuları, danaları Sarıyalın belində və Lilparlı yaylağında otararmış. Elə Niftalı bəyin qızı Bəsdini də burada görüb aşiq olub, bir könüldən min könülə vurulub.

Bizim yaylaq da Qızılvəngə yaxın idi. Yayda biz də yaylağa köçüb gələrdik. Sarıyalın ətəyi ilə ocağın sağ tərəfindən təxminən 1-2 km o tərəfdə Lilparlı bulağı və yaylağı yerləşərdi. Mədinə mamam, Elxan, Xaqani, Şirastan, Mais, Ağca və mən 1974-cü ildə Lilparlı bulağının yanında əvəlik yığırdıq. Günorta su içmək üçün Lilparlı bulağına endik. Onun abı-kövsər suyundan içdik. Bulağın yanında Mədinə mamam bu Lilparlı bulağının möcüzəsindən söhbət etdi. Dedi ki, Alı Lilparlı yaylağında qoyun-quzu otarırmış. Günorta olur, Alı bərk acır və susayır. Oradan Lilparlı bulağına gəlib çıxır. Görür ki, ilahidən bulağın üstündə, çörəyin üstündə kərə yağı. Təəccüblənir. Deyir ki, ilahi, bu nə möcüzədir? Bu çörəyi yeyir, di-

[1] *Atam Əmiraslan Mədinə mamasından 1974-cü ildə qələmə almışdır.*

zini yerə qoyub bu bulaqdan su içir. Bundan sonra özündə olmur. Ağzından köpük gəlir. Ölüm ayağında olur. Üç gündən sonra ayılır. Alıya haqq vergisi verilir. Alı özündən bədahətən şeirlər deyir. Bu şeirlərin çoxu Bəstiyə (Bəsdi) aid olur. Məsələn, onun yazdığı "Gözlərəm səni" gəraylısı, "Bəsti" təsnifi, "Ola bilməz", "Dolandım", "Bəsdi yar", "Çalım", "Yetişmişdim" qoşmalardır. Bu şeirlərdən bir-iki-üç bəndi qısa nəzərdən keçirək:[1]

*... Ey huri nisbət,*
*Məlakə isмət.*
*Sən mənə qismət,*
*Olasan Bəsti.*

*Ey mələkzadə,*
*Deмərəm yada.*
*Alını oda,*
*Qalasan, Bəsti.*

*Kimsən gedən boyu bəstə,*
*Bilincə gözlərəm səni.*
*Dayanaram yolun üstə,*
*Gəlincə gözlərəm səni.*

*...Alıyam, həsrət çəkərəm,*
*Qəm biçərəm, dərd əkərəm,*
*Dəryaca qan-yaş tökərəm,*
*Dolunca gözlərəm səni.*

*... Sən şəmsi, mən kənarında sitarə,*
*Rüsxət ver sərinə dolanım, Bəsti.*
*Can fəda eylərəm, ey mahiparə,*
*Budur sərmayədən olanım, Bəsti.*

*Kərəməm, Əslisiz giryan neylərəm?*
*Məcnunam, dəştidə üryan neylərəm?*
*Nainsaf, halıma bir yan, neylərəm?*
*Sənsən canı verib alanım, Bəsti.*

[1] Zeynalabdin müəllim Babacanlı Aşıq Şükürdən qələmə almışdır. 07.12.1986

*... Dəhri cifə çoxlarını tovladı,*
*Uydu baban rəsulları qovladı,*
*Alı sənlə bir diyarın övladı,*
*Qoyma yad ellərə calanım, Bəsti.*

*...Cismidə canımsan, ilqarda dursan,*
*Sən can alanımsan, verrəm buyursan.*
*Təlx lisanımsan, eyham vuransan,*
*Bilsin cümlə, qoy mahalım, Bəsti yar.*

*...Qəddi-dal, eyni zay olsam da, gülüm,*
*Yenə də pürkamal həvəsdi, çalım.*
*Qəm çökdü sinəmə, eyləyə zülm,*
*Bil gətir sazımı, a Bəsti, çalım.*

*...Bəstidi Alının həyat növrağı,*
*Bəyaz sinəsidi cənnətin bağı,*
*Açıldı üzümə vüsal otağı,*
*Sanki təxti Süleymana yetişdim.*

*...Alı bülbül oldu, dünya qəfəsi,*
*Çərxi cəfadardan kəsilməz səsi.*
*Zənguldə yerin verməz özgəsi,*
*Daşqın çaylar kimi çağlama, Bəsdi.*

Bu şeirləri deyəndə Alının 15 yaşı olarmış. Sonralar Alı haqq aşığı olur. Niftalı bəy əvvəl Alıya qızı Bəstini vermək istəmir. Alı haqq aşığı olduğuna görə Niftalı bəy bu möcüzədən qorxur və qızı Bəstini Alıya verir.

## *KƏRKİBAŞ KƏNDİNİN AĞSAQQALI MUSTAFA BABANIN DEDİKLƏRİ*[1]

Kərkibaş kəndinin ağsaqqalı 115 yaşlı Mustafa babanın 1965-ci ildə dediyinə görə, Göyçənin Çaxırlı kəndində Böyükağa böyük toy şənliyi keçirmək və həm də ustadların şəyirdlərini imtahana çəkib deyişməsi gününü keçirirmiş. Bu toy şənliyinə Göyçənin ustadları sayılan Aşıq Alı şəyirdləri – Musa, Məhərrəm, Qəhrəman, Alışan və Aşıq Ələsgər şəyirdləri – Daşkəndli Nəcəf və Əsəd toya dəvət olunurlar. 7 gün-7 gecə toy olur. Toyun sorağı hər yerə yayılır. Axırda Çaxırlılar Ələsgəri coşdurur və ustadı Alı ilə deyişməsini təklif edirlər. Deyilənlərə görə, ustad-şəyird 3 gün-3 gecə deyişirlər. Bu, təxminən 1894-cü ilin yay-payız aylarına təsadüf edir. Axırıncı gün sübh tezdən açılmış ulduzların göydə görünən vaxtı olur. Ələsgər təsadüfən çölə çıxır. Çöldə göydə sayrışan dan ulduzlarını görür. Bədahətən bu ulduza aid bir qıfılbənd deyir. Onda Alının 93, Ələsgərin 73 yaşı var idi. Deyilənlərə görə, "Ay yağa-yağa" dodaqdəyməz təcnisini və yaxud  və ya "Bismillah – irrəhmanirrəhim!" deyib "Ayaqlı" təcnisini və ya "Şər-xata" təcnisini bədahətən deyir. Alı özü qəsdən məğlub olur. Sonra Aşıq Alı və Ələsgər şagirdlərini bir-bir imtahana çəkir. Təkcə Ələsgər öz sinədəftərliyi ilə ustadını heyran qoyur. Aşıq Alı sevinclə deyir: "Daha rahat ölə bilərəm. Mənim Ələsgər kimi davamçım var".

---

[1] Zeynalabdin müəllim 1965-ci ildə Mustafa babadan qələmə almışdır.

Mustafa babanın deməsinə görə, onda 10-15 yaşı olardı. Yay aylarının axırına, payızın əvvəlinə təsadüf edilirdi. Səhər sübh tezdən qəlyan qorçusu Kərəmlə Kərkibaşın "Arxayrıcı" deyilən yerində mal otarırdım. Çaxırlıdan Qızılvəngə gedən yol buradan keçirdi. Bir də gördüm ki, Aşıq Alı səhər sübh tezdən piyada "Arxayrıcı"nda qəflətən qabağıma çıxdı.[1] Mən diksindim. Tez özümü ələ aldım. Gördüm ki, bu, Aşıq Alıdır. Məni səsimdən Alı əmi tanıdı. Dedim:

*- Sabahın xeyir, Alı əmi.*

*Dedi:*

*- Hər vaxtın xeyir, cavan oğlan – Mustafa.*

*Dedim:*

*- Alı əmi, bu vaxt haradan gəlirsən?*

*Dedi:*

*- Çaxırlıdan, Böyükağanın toy məclisini və şagirdlərmizin imtahana çəkmək gününü keçirirdik.*

*Dedim:*

*- Alı əmi, Aşıq Ələsgər də toy məclisində idi?*

*Dedi:*

*- İkimiz də toy şənliyini və imtahanı bir yerdə aparırdıq.*

*Dedim:*

*- Alı əmi, axırda Aşıq Ələsgərlə deyişmə oldumu?*

*Dedi:*

*-Deyişdik.*

Alı əmi dedi ki, "Mənim davamçım-şəyirdim ustadlar ustadı bugündən Aşıq Ələsgər olacaq".

---

[1] Aşıq Alı Kərkibaşda toy şənliklərində olarkən Kərəmlə mən qoşa oturub ona qulaq asardıq. Kərəm isə Aşıq Alının qorçusu idi.

Aşıq Alı qocalmışdı, gözləri də yaxşı görmürdü. Alı əmi mənə dedi ki, gözlərim dumanlı görür və yolu seçmir. Mənə dedi ki, hansı yol Qızılvəngə gedir. Mən də dedim ki, Alı əmi, bu yol sizi düz Qızılvəngə çıxardacaq. Sağollaşdıq, Alı əmi yoluna davam edib getdi.

Bundan sonra çox çəkmədi, eşitdik ki, Aşıq Alının gözləri tutulub, kor olub. Bu, 1894-cü ilin sonu – 1895-ci ilin əvvəli olardı. Ona ***Kor Aşıq Alı*** deyərlərmiş. Deyilənlərə görə, Aşıq Alı 1895-ci ildən 1911-ci ilə qədər Kəlbəcərin Milli kəndində qohumlarıgildə qalıb. Şəyirdi Aşıq Ələsgər və qəlyan qorçusu Kərəm baba həmişə ona baş çəkərdilər, onun qulluğunda durardılar.

Aşıq Alı doğma Göyçə mahalı, kənd – Qızılvəngdən aralı düşür. Vətən həsrəti onun qəlbini kövrəldir və incidir. Vətəni üçün həmişə darıxır. Onun həsrəti ilə yaşayır. Ölümünə bir-iki gün qalmış Haqq Aşığı Qızılvəngə gəlir. Qızılvəngdə ata-anasını və bütün qəbirstanlığı ziyarət edir və deyir ki, "Mən vətənimdə rahat ölə bilərəm". Aşıq Alı 1911-ci ildə Qızılvəngdə vəfat edib.

İndi isə Aşıq Alının Kəlbəcərin Milli kəndində qaldığı müddətdə yazdığı 3 şeiri nəzərdən keçirək.

Vətən həsrətindən darıxdığını bildirən ***"Vətənimdə"*** qoşmasını nəzərdən keçirək:

*Könül tələb edir, ürək atlanır,*
*Geşt eylə, dünyanı gəz vətənimdə.*
*Zəhmət çəkən bu dərdlərə qatlanır,*
*Coşur ürəyimdə söz vətənimdə.*

*Qürbət diyardayam, görünməz yurdum.*
*Həkimlər, loğmanlar bilmədi dərdim.*

*Alagöz yaylağı, vəfalı yurdum,*
*Alardım əlimə saz vətənimdə.*

*Alıyam, söz deyib, yaza bilmərəm.*
*Şad olub, qürbətdə gəzə bilmərəm.*
*Hərcayı sözlərə dözə bilmərəm,*
*Alışsam, yanmaram öz vətənimdə.*

Aşıq Alı ***"Kor Aşıq Alı"*** qoşmasında gözünün kor olmasından şikayətlənir:

*Çəkmə xəcaləti, unutma arı,*
*Saxla bu sinədə ar, Aşıq Alı.*
*Bir zaman aqildim başda əyləşən,*
*İndi də ayaqda kor Aşıq Alı.*

*Bədəsil şəyirdlər çəkibdir dağı,*
*Yetirdim peyvəsti, bəslədim bağı.*
*Ömrümün, günümün soldu növrağı,*
*Nə saz oldu, nə də tar, Aşıq Alı.*

*Bəlkə də beləymiş yazım əzəldən,*
*Qəm yedim aşinadan, yardan, gözəldən.*
*Tülək tərlan kimi uçmuşam əldən,*
*Qismətim ah-aman, zar, Aşıq Alı.*

Aşıq Alı ***"Qocalıq"*** divanisində nədən şikayət edir?

*Axtarıb tapdı məni, bilmirəm hardan qocalıq?...*
*Ağlımı aldı əlimdən, huşumu sərdən qocalıq*
*İşimi əskik eylədi, lap yerbəyerdən qocalıq.*
*Müxtəsər qoydu məni xeyirdən, şərdən qocalıq.*

*Dən düşdü saqqalıma, əzəl xəbərdar eylədi.*
*Hər iki yan qırovladı, ölkələrə car eylədi*
*Arvad görüncə tüpürüb, hamısını murdar eylədi.*
*Axırda ayrı saldı yarı yavərdən qocalıq.*

*İstədim duram gedəm, qaranlıq çökür gözümə.*
*Keçən günlər yada düşür, əlimi vurram dizimə.*
*Oğul-uşaq qulp eləmir, daha baxan yox sözümə*
*Üzümü soyuq eylədi borandan, qardan qocalıq.*

*Söyləyir Aşıq Alı, mən neyləyim qocalığa?...*
*Deyillər ki, sərgi gözlə, quşu qoyma yarmalığa.*
*Hər kəs gördü götürmədi, düşdüm köhnə yamalığa,*
*Müxtəsər qoydu məni xeyirdən, şərdən qocalıq.*

## AŞIQ ALININ AŞIQ YIĞVAL VƏ AŞIQ ƏSMƏRLƏ QIFILBƏND VƏ DEYİŞMƏLƏRİ

### *AŞIQ ALININ AŞIQ YIĞVALLA QIFILBƏND DEYİŞMƏLƏRİ*
### *"Meydana gəl" divani-qıfılbənd deyişməsi[1].*

**Aşıq Yığval**
Kəndinə aşığam deyən, aşıqsan meydana gəl.
Namərd girməz meydanıma, mərdi ol, mərdanə gəl.
İgid olan kəndisini, öyməyi layiq deyil,
Al əlinə çunqurunu, bu cəngi-dövrana gəl.

[1] Azərbaycan aşıqları və el şairləri, II cild. "Elm" nəşriyyatı. Bakı 1983. səh.296-298

**Aşıq Alı**
Mən dəryayam, sən adasan, axır sən ümmana gəl.
Mən danışım, sən qulaq ver, mərifət qanana gəl.
Sən satansan, mən alanam, açginən dükanını
Malını nadana satma, matahın alana gəl.
**Aşıq Yığval**
Ey arif, paşam yanında, sənə söylərəm mədhi.
Mərifəti, təriqəti, anla, qan həqiqəti.
İsəvisən, İncili sev, Musavisən Tovratı.
Məhəmmədin Hümmətisən, boyun qoy, Qurana gəl.
**Aşıq Alı**
İsəviyəm, Musaviyəm, hər nəyəm öz yolumda.
Həqiqətdən xəbər verrəm, mərifət kamalında.
İndi paşa qulluğunda, sədrəzəm yanında,
Haqqınan divan kəssinlər, ədalət divana gəl.
**Aşıq Yığval**
Mən Yığvala bir salam ver, soruşum halın görüm.
Həqiqət-haqq aşığısan, söylə, kamalın görüm.
İncil, Zəbur, Tovrat, Quran, göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən, bu nari pirana gəl.
**Aşıq Alı**
Adımdı Aşıq Alı, fərzü-sünnət qılıram,
Əlif Allahın adıdır, "Bey" Peyğəmbər bilirəm.
"Tey" Təbarək, qəni Allah, ona səcdə qılıram.
Xilqətim Adəm atadır, sən xaki-yeksana gəl.

## AŞIQ YIĞVALLA AŞIQ ALININ "ULUDU" QIFILBƏND DEYİŞMƏSİ.
### *SUAL-CAVAB*

**Aşıq Yığval**
O nədi ki, otuzunda cavandı?
On beşində çox böyükdü, uludu?
O nədi ki, dili iki, sirri bir?
Hansı dərya hər dəryadan doludu?
**Aşıq Alı**
O, aydı ki, otuzunda cavandı,
On beşində ulılardan uludu,
O, qələmdi, dili iki, sirri bir,
Elm dəryası hər dəryadan doludu.
**Aşıq Yığval**
O nədi ki, üç ay dağlar bürünür?
O nədi ki, əl dəyməmiş, hörünür?
O nədi ki, əmanətənən verilir?
O nədi ki, o da onun gülüdü?
**Aşıq Alı**
O qardı ki, üç ay dağlar bürünür.
O könüldü, əl dəyməmiş hörünür.
O uruhdu, əmanətən verilir.
İlqar-iman diriliyin gülüdü.
**Aşıq Yığval**
O nədi ki, haqq yanında nahaqdı?
O nədi ki, yerə-göyə dayaqdı?
O kimdi ki, yatmayıbdı, oyaqdı?
Aşıq Yığval hər elmdən halıdı.

**Aşıq Alı**
O, böhtandı, haqq yanında nahaqdı,
Haqq nəzəri yerə-göyə dayaqdı,
Haqq özüdü, yatmayıbdı, oyaqdı,
Bu sözləri açan Aşıq Alıdı.

## *AŞIQ ƏSMƏRİN AŞIQ ALI İLƏ DEYİŞMƏSİ*[1]

### *Qıfılbənd - SUAL-CAVAB*

**Aşıq Əsmər**
Səndən xəbər alım, ay Aşıq Alı,
O nədir ki, onda dürri-hal olur?
O nədir ki, hey dolanır nam üstə,
Nə sayaq düzülür, dalbadal olur?
**Aşıq Alı**
Al cavabın deyim, ay Əsmər xanım,
O, dünyadır, onda dürri-xal olur.
Günlərdir, dolanır əsl nan üstə,
Həftəsi, ayları dalbadal olur.
**Aşıq Əsmər**
... O nədir ki, göydən endi qarasız?
O nədir ki, bu dünyada çarasız?
Əsmər deyər, nə şəhərdi darğasız?
Onu tapan aşıq pürkamal olur?

[1] "Xalqımızın deyimləri və duyumları". "Maarif" nəşriyyatı, 1986, səh.355-360. M.Həkimov.

**Aşıq Alı**
O, Qurandır, göydən endi qarasız,
O, ölümdür, bu dünyada çarasız.
Məzarxana bir şəhərdi darğasız,
Alı hara gedir qalmaqal olur.
**Aşıq Əsmər**
Ver cavabımı sən, ay Aşıq Alı,
O kim idi, dörd şey yetişdi barat?
Hansı qəza gəldi düşdü araya?
Neçəsi şad oldu, neçəsi qarat?
**Aşıq Alı**
Fatmeyi-zülfüqar, düldüli-qəmbər,
Ol şahi-mərdana verildi barat.
Kərbala söhbəti keçdi aradan,
Üçü şad, xaneyi-Fatimə qarat.
**Aşıq Əsmər**
O kim idi, hannan – hana atdılar?
Saxla deyə, kimə əmr etdilər?
O kim idi, cismin oda tutdular?
O kim idi, ona etdi iltifat?
**Aşıq Alı**
Adəmi, Həvvayla yerə atdılar,
Saxla deyə, yerə əmr etdilər.
İbrahimdi, cismin oda tutdular,
Sara idi, ona etdi iltifat.
**Aşıq Əsmər**
Mən Əsmərəm, budu sözümün düzü,
Haqq nədən yaratdı qızıl öküzü?
Neçə əl-ayağı, neçədir gözü?
Neçə min tükü var gətir bir isbata?

**Aşıq Alı**
Aşıq Alı deyər: Xaliqin özü,
Oddan xəlq eylədi qızıl öküzü.
Dörd əl-ayağı var, ikidi gözü,
Ulduzun sanında tüküdür isbat.

## DEYİŞMƏ

**Aşıq Əsmər**
Bir qərib aşıqsan, düşüb güzarın,
Ver dilinə sən qadağa, gəlmisən.
On səkkiz aşığı bəndə salmışam,
Cümləsinə sən sadağa, gəlmisən.
**Aşıq Alı**
Al cavabın deyim: Ay Əsmər xanım,
Qollarını bağlamağa gəlmişəm.
Sazını, sözünü, bir də özünü,
Dustaq edib saxlamağa gəlmişəm.
**Aşıq Əsmər**
... Əsmərəm, qəddini döndərrəm yaya,
Kimsənən yoxdur ki, yetişə haya.
Alaram sazını, düşərsən vaya,
Söylə görüm, nə sorağa gəlmisən?
**Aşıq Alı**
... Çağırram Əlini, həm Mustafanı,
Qurararam şəninə haqqı-divanı.
Alını sənətdə bir sərraf tanı,
Sən Əsməri bağlamağa gəlmişəm.

**Aşıq Əsmər**
Sağın meydanında ay cavan oğlan,
Səni qara qəpik pul eylərəm mən.
Düşərsən əlimdə sönməz atəşə,
Yandırım cəsədin gül eylərəm mən.
**Aşıq Alı**
Gəl sənə söyləyim, ay Əsmər xanım,
Çox sənin kimisin qul eylərəm mən.
Divani, təcnisə çəkərəm səni,
Ağlını zay, dilini lal eylərəm mən.
**Aşıq Əsmər**
Al məndən nəsihət, sirr vermə yada,
Çəkdiyin zəhmətin tez gedər bada.
On iki şəyirdim vardır, bəyzada,
Səni də onlara qul eylərəm mən.
**Aşıq Alı**
Qəza tutdun düşdün sərraf əlinə,
Yahu etsən, kəlmə gəlməz dilinə.
Mərdlər uya bilməz namərd selinə,
Qalalar dağıdıb yol eylərəm mən.
**Aşıq Əsmər**
... Əsmərəm, haqqımı haqdan umaram,
Sədaqətdə Sənan üçün Xumaram.
Bir qəvvasam, dəryalara cumaram
Nabələdə bəhri-ümman, üz gərək.
**Aşıq Alı**
Camalın şoqundan Alıdı diltəng,
Eşqin sövdasını eyləmisən cəng.
Sən ümman pərisi, mən də bir nəhəng,
Hikmət anlamağa aqil sər gərək.

## "AĞ AŞIQ VƏ SÜSƏNBƏR" DASTANI[1]

Ustadnamə ustadlarından ad alar, o da əhli-məclisə dad olar. Götürdü görək, ustad nə dedi, biz deyək bir olsun, əhli-dinləyicilər pir olsun:

*Həqiqət bəhrinə qəvvasam deyən,*
*Qəvvas isən, gir dəryaya üzhaüz.*
*Aşıq deyər üzhaüz,*
*Sonam göldə üzhaüz.*
*Qarı düşmən dost olmaz,*
*Yalvararsan üzhaüz.*
*Bir mərd ilə ilqarını vur başa,*
*Namərd ilə kəs ülfəti üzhaüz.*

*Parçalandı gəmim, qaldı dərində,*
*Mən qərq oldum dəryalarda, dərində.*
*Aşıq deyər dərində,*
*Dayazında, dərində.*
*Sidqi-haqqa düz olan,*
*Hərgiz qalmaz dərində.*
*Qismət olsa o mövlanın dərində,*
*Üz döşəyək, səcdə qıl, üzhaüz.*

*Xəstə Qasım deyər: Canan can deyə,*
*Can eşidə, can danışa, can deyə.*
*Aşıq deyər can deyə,*
*Vəfalıya can deyə.*
*Görmədim hərcayilər,*
*Cananına can deyə.*

*Yox vəfalım, can deyənə can deyə,*
*Bivəfadan çək əlini, üzhaüz.*

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, dostlar başı dik olsun:

*Qulluğunda üççə kəlmə sözüm var:*
*Birin eşit, birin öyrən, birin qan,*
*İyidin başına üç dövlət qonar:*
*Biri ağıl, biri gənci, biri şan.*

*Heç kəsin eyliyi heç kəsdə qalmaz,*
*Arayıb-axtaran itiyin bulmaz.*
*Yəqin bil, dünyada üç şey zay olmaz,*
*Biri eylik, biri elm, biri nan.*

*Dərdli Kərəm, diləyini dilə sən,*
*Ağlayasan, sızlayasan, güləsən.*
*Ey yaradan, mənə üç dərd verəsən:*
*Biri alış, biri tutuş, biri yan.*

Ustadlar ustadı ustadnaməni iki deməzlər, üç deyərlər, biz deyək, üç olsun, düşmən ömrü puç olsun:

*Yüz yalvar,*
*Yüz bələn var, yüz yalan var.*
*Namərddə səxa olmaz,*
*Yüz ətəklə, yüz yalvar.*

*Dərdə mərdim,*
*Düşməsin dərdə mərdim.*
*Mənə dərman neyləsin,*

*Tifilkən dərd əmərdim.*
*Dərd arxalı,*
*Sərilmiş dər-dərxalı,*
*Ya Rəbb, varmı mənim tək,*
*Qəm övlü, dərd arxalı.*

Bəli, sizə haradan və kimdən danışım. Sizə Şərur mahalında Kosacan kəndində Qara Osman oğlundan danışım. Qara Osman oğlu sazı-sözü ilə Arazdöyənin hər iki tayında toy məclisləri aparar, güzəran keçirərdi. Dünya malında nəfsi olmayan, gözü-könlü tox adam idi. Özü Şıx oğlu olsa da, əlsiz-ayaqsızlara əl tutar, nəzir-niyaz verərdi. Qara Osman oğlu el-obanın xeyir-şərində hər şeyə yarayan adam idi. Hamı onunla məsləhətləşər, məclislərinin başında əyləşdirərdi. Şıx oğlunun qoca dünyadan heç bir təmənnası yox idi. Yeganə dərdi ziyarət dərdi idi.

Çilənin son günləri idi. Şıx oğlu bir gün vayğada[1] gördü ki, atası cənnət məkan ağ əbada qənşərinə gəldi, dedi:

- Oğul! Bil və agah ol. Arazın xəndəyinin qaşında cavan bir dağdağan ağacı var. Sən onun yerini dəyişməsən, baharın ilk selləri-suları onu yuyub aparacaq. Onun ilk nübarı ilə sənin də ilk barın olacaq. Onu sənə, səni də bir olan Allaha tapşırıram.

Qara Osman oğlu yuxudan hövlnak durdu. Səhərin gözü açılmamış özünü yetirdi atasının yuxuda vəsiyyət etdiyi yerə. Baxdı ki, ey dili-qafil, dağdağan son əmici telindən asılı qalıb. Əl atıb ağacı çəkdi. Götürüb evə qayıt-

[1] Vaqiə, yuxu.

dı. El-oba sabahı salamlamamış Şıx oğlu ağacı qapısının doqqazında əkdi. Dibinə bir sərinc su tökdü.

Əl-qərəz, aylar-illər dolandı. Amma Şıx oğlu yuxusunu heç kimə danışmadı. Qara Osman oğlunun hesabında bu il dağdağan bar verməli idi. Axşam əl-ayaq yığışdırılanda Şıx oğlu baxdı ki, baş yoldaşı nə isə ondan həyalanır. Nağılçılar dili mübarək olar, demişlər. Günlər keçdi, həftələr dolandı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə tamam oldu. Şıx oğlunun həyat yoldaşı yükünü yerə qoydu. Elə o ili də dağdağan ağacı ilk nübar verdi. Qara Osman oğlunun həyətində qurbanlar kəsildi, yeddi qapıya nəzir-niyaz paylandı. Kosacanın qarı-quruları gözaydınlığına yığışdılar. Hərə uşağa bir ad qoydu. Biri Yarməmməd, biri Əlinəzir, biri Xıdır, biri Məhəmmədəli deyə ad qoydu. Axırda mamaça irəli gəlib dedi:

- Uşağın adı Allahverdidir. Adını mən verdim, ruziqasını Allah-Taala versin.

Hamı mübarək deyib, şirin-şərbətdən nuş eylədi. Uşaq iməkləyib oturanda baxdılar ki, hey ayağını dartır. Hərə bir cür yozdu. Bunu görən anası Yasəmən nənə dedi:

- Oğul! Uşaq ki oturanda ayaqlarını ağzına tərəf çəkdi, bil ki, özünə tay axtarır. Sənin qızın olacaq. Ölüm-itim dünyasıdır. Ömrüm vəfa eləməsə, qızın adını Ümmülbanu qoyarsan.

Günlər keçdi, ay dolandı, Qara Osman oğlunun bir qızı oldu. Adını Ümmilbanu qoydular. Bəli, günlər günlərə qarışdı, uşaqlar boya-başa çatdılar. Şıx oğlu Allahverdini mollaxanaya qoydu. Allahverdinin mollaxanada yoldaşları rənginin ağlığına və məlahətli səsinə görə "Ağ

Aşıq" deyə çağırırdılar. Allahverdi gündüzlər mollaxanada oxudu, gecələr isə atasından saz-söz öyrəndi. Allahverdi mollaxananı başa vurdu. Təhsilini mədrəsədə davam etdirdi. Mədrəsəni başa vurduqdan sonra Qurandan yox, bir başı çömçə, bir başı nimçədən yapışdı. El-obalarda Ağ Aşıq adı ilə şöhrət tapdı. Aşığın səsi gah Bağdaddan, gah Təbrizdən, gah İstanbuldan, gah Bəsrədən, gah da Rumdan gəldi.

Bir gün Telli Cəfər Ağ Aşığı oğul toyuna dəvət etdi. Ağ Aşıq 40 gün, 40 gecə Telli Cəfərin oğul toyunu necə keçirdiyini özü də bilmədi. Telli qızı Süsənbər Ağ Aşığın səbri-qərarını kəsdi.

Bəli, Süsənbər də bir Süsənbər idi. Ay onun gözəlliyindən üz bürüyür, gün xəcalət təri tökürdü. Ağ Aşıq baxdı ki, ey dili-qafil, toyun son günüdür, belə getsə, Süsənbərin dərdi onun ürəyində qövr eyləyəcək. Saralıb sapa, incəlib ipə dönəcəkdir. Ürək sözünü ona deyə bilməyəcəkdir. Odur ki, sazının bəmini-bəm, zilini-zil eyləyib basdı sineyi-sandığa. Götürdü görək nə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Gözəllərə bağlayıram dastanı,*
*Bir mələyin eşqi canı yandırır.*
*Sərraf olan lələ qoyar qiyməti,*
*Göz görəndə din-imanı yandırır.*

*Gözəllər bəzənib qarşımda durur,*
*Gözə qoruq yoxdur, gələnlər görür.*
*Bürümür üzünü, mərdanə durur,*
*Bir baxışı yüz min canı yandırır.*

*Gözəllər açıbdır Yusif bazarı,*
*Bəsləyib sinədə Hindistan narı.*
*Gözüm görür, artır canım azarı,*
*Ağ Aşıq tək binəvanı yandırır.*

Ağ Aşıq baxdı ki, söz qızları yaman tərpətdi. Odur ki, sazın Beçə pərdəsində bir bayatını zilə çəkdi:

*Eləmi, sona gözəl,*
*Gəlməz oysana gözəl.*
*Baxdın, ağlım apardın,*
*Vuruldum sana, gözəl.*

Məclisdə əyləşən kəmərqurşaq bəy-nişan qızlar bir-birini himlədilər ki, görəsən, aşıq daşı kimin bağına atdı. Ağ Aşıq usta idi. Sözün yeri düşdüyünü görüb dedi:

*Mən aşıq, gəldi, keçdi,*
*Günlərim gəldi, keçdi.*
*Yarın odlu baxışı,*
*Sinəmi dəldi keçdi.*

Qızlar gözlərini zillədilər ki, görsünlər, aşıq oxuyanda kimi gözaltılayıb. Aşıq götürdü görək, öz ovunun səmtini necə istinad verdi. Biz deyək, siz şad olun:

*Çevirib yönünü haqq dərgahına,*
*Çağırıram bəlkə gələydi baxtım.*
*Keçə günahımdan kərəm sahibi,*
*Mənim də üzümə güləydi baxtım.*

*Ürəyim istəyir halalı, pakı –*
*Şeytanı qəlbimdən qovaydım ha ki,*
*Rəbbimə duadı dodağımdakı,*
*Qanlı gözyaşımı siləydi baxtım.*

*Könlünə nə dəyib, inciyib belə,*
*Bəlkə uyubdu o, fitnəyə, felə?*
*Ağ Aşığın göz yaşı dönübdü selə,*
*Nola, əhvalımı biləydi baxtım.*

Ağ Aşıq gördü ki, qızlar bir-birini yamanca himləyir. Ovu ov bərəsində görmək istəyirlər. Fürsəti əldən verməyib sazı tərsə-ovand təzənə çəkdi:

*Əzizim, bərəsinə,*
*Ov gəldi bərəsinə.*
*Heylənib şux nigarım,*
*Ovçu, sim bərəsinə.*

Söz tamama yetdi. Qızlar baxdılar ki, Süsənbərin halı özündə deyil. Rəngi əhməri alma kimi alaq-alaq yanır. Kirpikləri ox kimi nişan alıb aşığın bağrının başını. Ağ Aşıq sazın kökünü dəyişdi. Bəmini bəm, zilini-zil elədi. Götürdü görək nə dedi, tərəfindən qulluğunuza ərz eyləyək, siz şad olun:

*Bir maral baxışlı, tərlan cilvəli,*
*Gəlib məni gördü, güldü, qayıtdı.*
*Pünhanı göstərdi gül camalını,*
*Buxağına şəbnəm doldu, qayıtdı.*

*Mən görmüşəm gözəllərin çoxunu,*
*Belə olmaz ancaq boyu-buxunu.*
*Müjganımdan çəkib xədəng oxunu,*
*Yaralı sinəmə çaldı (çaxdı), qayıtdı.*

*Gözləyərkən gözlərimə sataşdı,*
*Xəstə canım eşq oduna alışdı.*
*Şəhrayıdan (Şəhriyardan) qıya baxıb ötüşdü,*
*Ağ Aşığa nəzər saldı, qayıtdı.*

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Baxdı ki, Süsənbər mətləbi aldı. Fürsəti fövtə vermədi, sazın kökünü dəyişdi:

*Yanaqların çox gözəldi,*
*Ay qız, bil sənin, bil sənin.*
*Hüsnün hüridən əzəldi,*
*Ay qız, bil sənin, bil sənin.*

*Keşd eylədim eldən-elə,*
*Yıxdın evim bilə-bilə.*
*Müştağınam, salma dilə,*
*Ay qız, bil sənin, bil sənin.*

*Gərdan mina, sürah boyun,*
*Al-Osmanda yoxdur tayın.*
*Tutacağam özüm toyun,*
*Ay qız, bil sənin, bil sənin.*

*Camalında şəmsi-qəmər,*
*Bahar səndən şəbnəm əmər.*
*Peşkəşindi qızıl kəmər,*
*Ay qız, bil sənin, bil sənin.*

*Ağ Aşığın günü qara,*
*Ciyar oldu hazar para.*
*Bir busəndi mənə çara,*
*Ay qız, bil sənin, bil sənin.*

Söz tamama yetişdi, Ağ Aşıq Telli Cəfərin oğlunun toyunun mübarək duvaqqapmasını oxudu. Döndü Kosacan kəndinə. Evə çatan kimi bayaqdı düşdü üzüstə. Bu ilmi ölübsən, bildirmi. O yatan yeddi gün, yeddi gecə heç kim ondan bir kəlmə söz eşitmədi. Qara Osman şıx övladı idi. Bildi ki, oğluna hər nə olubsa, Telli Cəfərin oğul toyunda olub. Özü də deyəsən, eşq sövdasıdır. Yerlər qulaqlı olar demişlər. Söz-söhbətin uc-qulağından Şıx oğluna çatdı ki, bə bilməzsənmi, oğlun Telli Cəfərin qızına vurulub. Qara Osman oğlu dilli-dilavər sazı divardan endirib dilə gətirdi. Təzənəni simlərə tərsə-ovand çəkdi. Aldı görək, nə dedi:

*Nədir dərdin, söylə mənə,*
*Ağlar gözlərin-gözlərin.*
*Qurban sənə şirin canım,*
*Ağlar gözlərim-gözlərim.*

*Sən mənim dini-imanım,*
*Qurban sənə xanimanım.*
*Boynuburuq Ümmilbanum –*
*Ağlar gözlərim-gözlərim.*

*Şıx oğlunun şanı vardı,*
*Elçilər ata suvardı,*
*İstədiyin sənə yardı,*
*Qurban gözlərim-gözlərim.*

Söz tamama yetişdi. Şıx oğlu sazla dediyini sözlə dedi:

- Oğul! Mən ölməmişəm ki, sən xiffət çəkəsən. Telli Cəfər mənim dostumdur. Biz özümüz ağırda onunla duz-çörək, duz-çörək kəsmişik. İnşallah, bu gün-sabah Telli Cəfərin şah qapısına elçi göndərrəm. Bir qızdan ötrü ürəyini niyə sıxırsan?

Atasının ürək-dirəyindən Ağ Aşığın söz sinəsində tüğyan etdi. Sazı atasından alıb, mindirdi sineyi-sandığa. Götürdü, görək, öz halını sazla dədəsinə necə dedi. Biz deyək, əhli-məclis şad olsun:

*Yarım çıxıb yaylaqlara,*
*Qaldım, yalvara-yalvara,*
*Bərə qurdum oylaqlara,*
*Durdum, yalvara-yalvara.*

*Qurban dedim yar adına,*
*Səs vermədi fəryadıma,*
*Şahi-mərdan, yet dadıma*
*Öldüm, yalvara-yalvara.*

*Qamət çəkib naz eylədi,*
*Bir dərdini yüz eylədi,*
*Bağrım başın köz eylədi,*
*Yandım, yalvara-yalvara.*

*Gülərüzlü, boyu bəstə,*
*Dağ çəkibdi sinəm üstə.*
*Ağ Aşığı etdi xəstə,*
*Qaldım, yalvara-yalvara.*

Söz Qara Osman oğlunun bağrının başını köz kimi yandırdı. Dedi:

- Oğul! O nə qızdı ki, səni xəstə edə. Bəyəm Şıx oğlu ölmüşdür ki, gözümün ağı-qarası xiffət çəksin. Sən qızın adını de, dalısı ilə işin yoxdur.

Bəli, götürdü görək, Ağ Aşıq sevgilisi Süsənbəri atasına təsnif üstə necə nişan verdi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Qulac saçdı,*
*Qələm qaşdı,*
*Ağzın açdı,*
*Gövhər saçdı*
*Süsənbərim.*

*Sən əzəlsən,*
*Dil məzəsən.*
*Çox gözəlsən,*
*Bir dənəsən*
*Süsənbərim.*

*Şəhla gözü,*
*Gözəl üzü,*
*Şirin sözü,*
*İlqar düzü*
*Süsənbərim.*

*Bulaq başı,*
*Gözüm yaşı,*
*Var təlaşı,*
*Qəlb sirdaşı*
*Süsənbərim.*

*Yaşıl başlı,*
*Çatma qaşlı,*
*Şux baxışlı,*
*Yaraşıqlı*
*Süsənbərim.*

*Telli sazım,*
*Xoş avazım,*
*Bahar yazım,*
*Sən murazım*
*Süsənbərim.*

*Şirin avaz,*
*Kirpik almaz,*
*Aşıq sınmaz,*
*Yardan dönməz*
*Süsənbərim.*

*Budur sözüm,*
*Qurban özüm,*
*Telli sazım,*
*Şən avazım*
*Süsənbərim.*

*Kəklik səkər,*
*Boynun bükər,*
*Ovu (ovçun) çökər,*
*Qanın tökər*
*Süsənbərim.*

*Sən halalsan,*
*Bir calalsan,*
*Mənə yarsan,*
*Bizə varsan*
*Süsənbərim.*

*Aşıq Ağdı,*
*Toy təlağdı,*
*Xoş sorağdı,*
*Gözəl çağdı*
*Süsənbərim.*

Söz tamam oldu. Şıx oğlu anladı ki, qızın adı Süsənbərdir. Qohum-əqrəba məşvərətə yığıldı. Qərara gəldilər ki, elçiliyə getsinlər.

El dili mübarək olur, demişlər. Kosacanın müdrik qocaları üz qoydular Telli Cəfərin bargahına. Günə bir mənzil, tey mənzil, qırdılar yolun damarını. Ertəsi gün atdan endilər Telli Cəfərin bargahında. Telli Cəfər Şıx oğlunun elçilərinə xoş gəldin deyib, onları ağzı qıfıllı bir qapının ağzına apardı. Şıx oğlu arif adam idi. Mətləbini qandı. Cibindən bir açar çıxarıb qıfılı açdı. Dedi:

- Telli Cəfər! Bil və agah ol, qıfıl sizdə, açarı bizdədir.

Telli Cəfər elçilər oturanda ortalığa süfrə əvəzi bir baş şalı sərdi. Şıx oğlu tez şalın üstünə bir papaq, bir kəmər, bir xəncər qoydu. Dedi:

- Telli Cəfər! Bir kişi üçün qapına elçi gəlmişik. Şal sahibinin namusunu qorumağa qeyrətimiz çatar.

Telli Cəfər dizinin üstünə bir parça çörək qoydu. Şıx oğlu çörəyi Telli Cəfərin dizi üstdən götürüb öpdü. Sonra üstünə duz qoydu. Dedi:

- Telli Cəfər! Bil və agah ol. Şıx oğlunun əsl-nəcabəti var. Bizim çörəyimiz heç vaxt dizimizin üstdə olmayıb. Qohumluğumuz duz-çörək, duz-çörək üstdə qurulur.

Telli Cəfər ortalığa bir qab bibər qoydu. Şıx oğlu bibəri götürüb bayıra atdı. Süfrəyə qənd-noğul səpdi. Dedi:

- Telli Cəfər, şirinlik olan yerdə acılıqdan söhbət açmaq yersizdir.

Telli Cəfər süfrəyə iynə, sap, üskük, qayçı qoydu. Şıx oğlu bir boğça açdı. Əvəzində süfrəyə üzük, sırğa, boyunbağı, gümüş kəmər, başlıq qoydu. Sonra hamısını boğçaya yığıb ağzını bağladı, verdi Telli Cəfərə. Telli Cəfər ayağa qalxdı. Boğçanı öpüb – mübarəkdir! – dedi. Süfrəyə şirin çay gəldi.

Bəli, əzizlərim! Allah-Taala sizin də bəy nişanlarınızı mübarək etsin. Ağ Aşıqla Süsənbərin tale ulduzlarının sövda məşvərəti qurtardı. Hər iki ailədə toya hazırlıq başladı. Nağılçılar dili mübarək, köhlən at yüyrək olar, demişlər. Şıx oğlu Ağ Aşığa bir toy etdi ki, səs-sorağı Alosmana yayıldı.

Aylar, illər dolandı, Qara Osman oğlu nəvə buyurub çağırdı. Gün o gün oldu ki, qocalar ömür-günlərini cavanlara bağışladılar.

Arazdöyən tərəflərdə şah qoşunlarının talanı başladı. Camaat el-obasından pərən-pərən oldu. Əl-ayağı tutan vəzndə ağır, çəkidə yüngül hər nəyi vardı, farmaşa qabğardı. At-ulağa yükləyib Dərələyəzə, Göyçəyə tərəf pənah apardılar. Ağ Aşıq da külfəti ilə günə bir mənzil, tey mənzil üz qoydu Göyçəyə. Güllü dərənin gədiyindən aşanda ürəyi qubar eylədi. Dilli-dilavər sazı köynəyindən çıxarıb bəmini-bəm, zilini-zil köklədi. Aldı, görək, nə dedi. Biz deyək, siz də şad olun:

*Bahar gəldi bu dağlara,*
*Gülüm gələ, gülüm gələ.*
*Yay olanda yaylaqlara,*
*Elim gələ, elim gələ.*

*Gözəlləri söhbət-sözüm,*
*Şövqə gələ telli sazım.*
*Cövlan edə xoş avazım,*
*Gül hüsnünə dilim gələ.*

*Ağ Aşığın xoş çağıdı,*
*Gül yanaqlar oylağıdı.*
*Göyçə bir gülşən bağıdı,*
*Tərifinə dilim gələ.*

Söz tamama yetdi, Ağ Aşıq baxdı ki, Süsənbər bulud kimi qara çüyüddü. Bir himə bənddi yumub tökə. Götürdü dübarə:

*Dağlar, səndən duman qalxar,*
*Çərxə dolana-dolana.*
*Göy guruldar, şimşək çaxar,*
*Çərxə dolana-dolana.*

*Tər çiçəklər ilməyindi,*
*Nərgiz çəmən köynəyindi.*
*Duman, çalman diləyindi,*
*Çərxə dolana-dolana.*

*Ağ Aşıq tək havalısan,*
*El-obanın calalısan.*
*Bahar fəsli davalısan,*
*Çərxə dolana-dolana.*

Söz tamam oldu, üz qoydular karvansaraya. Ağ Aşıq karvansaraya çatanda gördü ki, ey dili-qafil, Göyçə elə bil, cənnətmisil behiştdi. Gül bülbülü, bülbül gülü çağırır. Sıra dağlar ağ buludlardan başına tac qoyub. Göyçə gölündə güzgülənir. Ürəyi cuşa gəldi. Götürdü görək Göyçənin vəsfinə nə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*İgid olsa elə arxa,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə,*
*Çörək verib ala səxa,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə.*

*Dağlar başı qarlı gərək,*
*Bağça-bağlar barlı gərək,*
*İlqar özü varlı gərək,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə.*

*Göyçə gözəllik oylağı,*
*Güldür-çiçəkdir yaylağı,*
*Murğuz, Murov, Kəpəz dağı,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə.*

*Güzgüsüdü Göyçə gölü,*
*Tamaşadı bütün eli,*
*Şəhdi-şəkər şirin dilli,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə.*

*Ağ Aşığın odu sönməz,*
*El-obadan üzü dönməz,*
*İgidlərin başı enməz,*
*Can sadağa beləsinə,*
*Gözlərinin giləsinə.*

Ağ Aşıq külfətilə gecəni karvansarada gecələdi. Karvansara əhli aşığın başına toplaşdı. Xahiş etdilər ki, biz də yolçu, sən də yolçu. Arazdöyəndən bir neçə yarpaq söz oxu. Səhərin açılmasına körpü sal. Ağ Aşıq baxdı ki, heç insafdan deyil ki, karvansara əhlinin xətri sına. Odur ki, imran dilli sazını köynəkdən çıxartdı, zil-bəm eyləyib, dilə gətirdi. Aldı görək, nə dedi. Biz deyək, siz də şad olun:

*Vətənimdən cida düşdüm,*
*Bəy əlindən, xan əlindən,*
*Heç birində insaf yoxdur,*
*Onların aman əlindən.*

*Rəiyyət qərq olub qəmə,*
*Dərdimizi deyək kimə?*
*Zəhrimardı, alıb yemə,*
*Kəndxudanın nan əlindən.*

*Allahverdi dostu yoxlar,*
*Öz dərdini canda saxlar.*
*Sinəmə tuşlandı oxlar,*
*Dilbilməz nadan əlindən.*

Məclis əhli bir ağızdan dedi:

- Sağ ol, aşıq! Sən yaxşı deyərsən, ustadına bərəkallah!

Məclis əhli bir ağsaqqal dedi:

- Aşıq! İndi gəda-güda dünyasıdır. Hanı sən gördüyün səxa-saya.

Ağ Aşıq arif adam idi. Bildi ki, dünya görmüş bu piranə hansı simə ilmə çalır. Götürdü dübarə:

*Qəm çəkmə, ey könül, fani dünyada,*
*Özü bilən o Allaha yaxşıdır.*
*İbadət et, axşam-səhər sal yada,*
*Şükür etsən bir Allaha yaxşıdır.*

*Heç kəsə qalmayıb mal ilə dövlət,*
*Kim tapıb onunla dünyada şöhrət? –*
*Namussuz, qeyrətsiz olsa bir övlad,*
*Olduğundan olmadığı yaxşıdır.*

*Düşün ədaləti, unutma daha,*
*Qiymətli kəlməni satgınan baha,*
*Nəsihətli sözlər deyim bir daha,*
*Haram yüzdən halal şahı (şaha) yaxşıdır.*

*Allahverdi deyər bəxtimdi yatan,*
*Yoxdur, onu yuxusundan oyadan,*
*Atalar ölərkən yurdunda qalan,*
*Qeyrətli övladı daha yaxşıdır.*

Söz tamama yetişdi. Məclis əhlindən əhsən sözü ucaldı.

Səhər açıldı. Üzünüzə mübarək səhərlər açılsın. Ağ Aşıq da üz qoydu Göyçənin Kərkibaş kəndinə. Şər qarışar-qarışmaz Kərkibaş kəndinə varid oldu. Aşığı tanıyanlar, bilənlər evinə dəvət etdilər. Ona elə gecə ikən bir kümə düzəltdilər. Allah hamınızı evli-eşikli eləsin. Səhəri Ağ Aşıq külfəti yığıldı küməsinə. Baxdı ki, Süsənbərin halı heç özündə deyil. Bıçaq vursan qanı çıxmaz. Ağ günü elə bil, göy əskiyə düyülüb. Ağ Aşıq sazı divardan endirdi, zil-bəm elədi, dedi:

- Mehribanım! Sənin bu baxışın könlümü qan elədi. Sinəmə bir neçə xana söz gəlib. Dedim, qulaq as:

*Mahcamalın şölə saçır ay kimi,*
*Gözüm, könlüm ay Süsənbər, səndədir.*
*Qaşların sinəmi oxlar yay kimi,*
*Bir ahusan, müşkü-ənbər səndədir.*

*Yandı qürbət eldə dilim-dodağım,*
*Çatıb Al-Osmana sözüm-sorağım.*
*Bir busə ver, dada gəlsin damağım,*
*Yandı ciyər, abı-kövsər səndədir.*

*Üzündə xallara salmışam nəzər,*
*Daldalan görməsin səni bəd-nəzər.*
*Hər nadan bilməz ki, nədir simu-zər,*
*Allahverdi, dürrü-gövhər səndədir!*

Söz tamama yetişəndə aşıq baxdı ki, Süsənbər üzünü dağlara çevirib için-için inləyir. Dərdi təzələndi. Saz sinədə yön çevirdi dağlara. Aldı görək, Ağ Aşıq nə dedi. Qulluğunuzda biz ərz eyləyək, siz şad olun:

*Məcnun deyə Leyli ünü,*
*Düşdü dağlara-dağlara.*
*Kərəmi də keşiş dini,*
*Saldı dağlara-dağlara.*

*Dağlar başı tamam qardı,*
*O ki elə bir vüqardı.*
*Niyə günahkar dağlardı –*
*Dedilər: dağlara-dağlara.*

*Murğuz, Murov, Kəpəz xandı,*
*Albız, Ağrı bir sultandı.*
*Ağ Aşıq hələ cavandı,*
*Alqış dağlara-dağlara.*

Söz tamam olanda Ağ Aşıq baxdı ki, Süsənbər mileymiləndi. Sözün yerinə düşdüyünü görüb öz-özünə dedi: "Zənan xeylağıdır. Bir az qubarlanıb. Gəl könlümü bir də al. Bir-iki yarpaq könül açan söz oxu". Odur ki, Ağ Aşıq sazı Beçə pərdə zilə çəkdi:

*Aşığam, şana qaldı,*
*Saçında şana qaldı.*
*Busə aldım üzündən,*
*O da nişana qaldı.*

*Mən aşıq sənə sarı,*
*Üz çevir mənə sarı.*
*Bu könlüm məlhəm istər*
*Təbibsən - onu sarı.*

*Mən aşıq sinəsinə,*
*Dağların sinəsinə.*
*Gül olub taxılaydım*
*Yarımın sinəsinə.*

Söz tamam oldu. Aşıq sazla dediyini sözlə də dedi. Baxdı ki, ey dili-qafil, Süsənbər yüz nazü-qəmzə ilə özünə sığal verir. Götürdü dübarə:

*Budur gəldi fəsli-bahar,*
*Mahcamallı Süsənbərim,*
*Mənim gül ənbərim!*
*Sənə qurban şirin canım,*
*Mahcamallı Süsənbərim,*
*Mənim gül ənbərim!*

*Qurban olum boy-büsata,*
*Seyrə çıxaq asta-asta,*
*Baxçanın barından dosta,*
*Nübar yolla, Süsənbərim,*
*Mənim gül ənbərim!*

*Mahcamala qara tellər,*
*Vurğundu şeyda bülbüllər,*
*Ağ Aşığı da lal eylər,*
*Qoşa xallı Süsənbərim,*
*Mənim gül ənbərim!*

Bəli, söz tamam oldu. Süsənbərin kefi duruldu.

Bu minval ilə aylar-illər keçdi. Gün o gün oldu ki, Ağ Aşığın ağ günü qara əskiyə düyüldü. Urum elindən Sərdar Hüseynin fərraşları Kərkibaşda aşığın doqqazında atlarının başını çəkdilər. Fərmanı verdilər aşığa, buyurdular ki, "Sərdar Hüseynin mərəzi qalxıb, yuxusu ərşə çəkilib. İranın, Turanın loğmanları onun mərəzinə ağ adamın qanını dərman buyurub. Hazırlaş, yarın bizimlə Uruma varmalısan", – deyə atlarının başını çevirdilər kəndxudanın evinə. Ağ Aşığın ürəyində yara yenidən qövr eylədi. Ürəyi qubarlandı. Sazı divardan endirdi. Köynəkdən çıxarıb əl gəzdirdi kökünə. Mindirdi sineyi-sandığa:

*Bir yandan pristav, bir yandan koxa,*
*Qazı, darğa xalqı soyur soğan tək,*
*Biçarə rəiyyəti dara çəkirlər.*
*Dirikən üstündən qara çəkirlər.*

*Dağ çəkildi Naxçıvana, Sulduza,*
*Duz nədir ki, həsrət qala el duza?*
*Axund, molla, seyid dönüb quduza,*
*Elin sərvətini hara çəkirlər?*

*Sığındım Göyçəyə, bu mahala mən,*
*Fitnə-fəsaddan düşdüm zavala mən,*

*Necə dönüm üzüqara dala mən?*
*Ürəyimi atəşə, nara çəkirlər.*

*Allahverdi, dərd əlindən dəlidir,*
*Kənddə Koxa qan soruyan zəlidir.*
*Gözüm yaşı Qıjoy çayın selidir,*
*Sinəmə dağ-düyün, yara çəkirlər.*

Söz tamama yetər-yetməz Ağ Aşıq baxdı ki, oğlanları Məhərrəm və İsmayıl anaları Süsənbərin boynuna yaz sarmaşığıtək elə sarılıblar ki, illər-aylar həsrətlisi kimi. Göz istəyir ki, on yerindən yumub tökə... Bir tərəfdən də biçarə bacısı Ümmilbanu əl eyləyib gözünə. Bahar buludu kimi yumub tökür. Ürəyi qövr eylədi, götürdü görək, Ağ Aşıq vəziyyətinə bahəm nə dedi. Qulluğunuza biz ərz eyləyək, cəmi dinləyənlər şad olsun:

*Dərdin karvanıyam, qəmin suvarı,*
*Üzüm gülməyəcək haçana kimi?*
*Gecəli-gündüzlü işığa həsrət,*
*Yanıb sönəcəyəm, haçana kimi?*

*Fərraş hüzurunda qolu bağlıyam,*
*Müxənnət kəndxuda - sinə dağlıyam.*
*Haqq-ədalət hanı, dərdim ağlıyam?*
*Dərdin bağbanıyam haçana kimi?*

*Sərdar Hüseyn tək sitəmkar olmaz,*
*Bu dünya fanidir, kimsəyə qalmaz.*
*Ağ Aşıq, dərdini təbib də bilməz,*
*Loğman axtaracam haçana kimi?*

Söz tamam oldu. Süsənbər baxdı ki, ay dili-qafil, kişi heç özündə deyil. Qəhər onu boğub, istədi ki, ürək-dirək versin. Ağ Aşıq götürdü dübarə:

*Taleyim belədir yaranan gündən,*
*Nahaqdan odlara qalanmalıyam.*
*Nə qədər əlləşəm var-dövlət yığsam,*
*Bir yandan çapılıb, talanmalıyam.*

*Ürəyimdən od düşübdür üstümə,*
*Heyran-heyran baxanlar var tüstümə.*
*Təndir bilib sığınırlar üstümə,*
*Belə dolanmışam, dolanmalıyam.*

*Qəlbimi qanadan yar yarasıdır,*
*Baxtımın taleyi məni sarsıdır.*
*Ağ Aşıq haqq deyə hey yanasıdır,*
*Od oğluyam, oda qalanmalıyam.*

Söz tamama yetişdi. Ümmilbanu ürəyi qəmli, gözləri nəmli, bayaqtı ipək saçlarından üç tel ayırdı. Basdı sineyi-sandığa. Aldı görək, ürəyi yaralı, dili naləli nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:[1]

***Ümmilbanu***

*Can-ciyərim, getmə aman günüdür,*
*Çalış düşmə güzarına Sərdarın.*
*Baş götürək, gedək qürbət diyara,*
*Yox etibar ilqarına Sərdarın.*

[1] Bu deyişməni Zeynalabdin müəllim 1965-ci ildə Aşıq Alının qorçusu 100 yaşlı Kərəm dayıdan qələmə almışdır.

***Ağ Aşıq***
*Gəl görüşək, halallaşaq, ay bacım,*
*Gedər oldum hüzuruna Sərdarın,*
*Yazıq qardaşını qara qul kimi,*
*Aparırlar bazarına Sərdarın.*
***Ümmilbanu***
*Sənsiz necə dözüm qəm möhnətinə?*
*Özümü öldürrəm düşsən qürbətə,*
*Şeytan da vurmaz əl, haram dövlətə,*
*Od ələnsin yollarına Sərdarın.*
***Ağ Aşıq***
*Sultanların taxtı olaydı taraş,*
*Xan zülmkar, ağa cəllad, bəy fərraş,*
*Cumdum dərin ümmanlara, vurdum baş,*
*Dolaşmışam mən toruna Sərdarın.*
***Ümmilbanu***
*Yaralıyam yüz sonanın içində,*
*Necə üzüm göldə, qanın içində,*
*Ümmilbanu dil-dahanın içində,*
*Lənət edir məzarına Sərdarın.*[1]
***Ağ Aşıq***
*Ağ Aşıq taleyi qara, baxtı kəm,*
*İqbalıma mənim fələk baxdı kəm,*
*Doğrananda qıyma-qıyma baxdı kəm,*
*Ollam məlhəm azarına Sərdarın.*

[1] **Və yaxud bunu belə oxumaq olar:**
Yaralıyam tay-tuşumun içində,
Qəhr cövlan edir gözyaşım içində,
Ümmilbanu el-obanın içində,
Lənət edir məzarına Sərdarın.

Söz tamam oldu. Aşıq baxdı ki, Süsənbər heç özündə deyil. Bir himə bənddi. Ağ Aşıq bir oğlanlarına, bir bacısına, bir də ömür-gün yoldaşına baxdı. Ürəyi od tutub yandı. Sazı basdı sinəsinə. Götürdü görək, ***"Kərəm üstə"*** vəziyyətini necə ərz eylədi, tərəfindən biz deyək, siz şad olun:

*Zəhmət ilə bağça saldım, becərdim,*
*Müştaq oldu qəmxarına ha dərdim,*
*Bülbültək gül üçün candan keçərdim,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

*Qızılgül becərdim, ərşə boy atdı,*
*Ah-fəqanım el-obanı oyatdı,*
*Fələk məni bəxti qara yaratdı,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

*Ağ Aşıq tutuldu gündə min dərdə,*
*Huş getdi, qalmadı ağıl da, sər də.*
*Ayrılıq üz verdi bu bəd səfərdə,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

Söz tamam oldu. Fərraş içəri daxil oldu. Ağ Aşıq əhli-əyalı ilə halallaşanda baxdı ki, ey dili-qafil, Süsənbərin bayaqdan bəri qurumuş gözlərindən leysan kimi yaş şoralanır.

Ağ Aşıq dedi:

*- Fərraş! İnsaf eylə. Sinəmə bir neçə xanə söz gəlib. Onu da deyim. Sonra ixtiyar sahibisiniz.*

Fərraşlardan biri dedi:

*- Ayə, gavur oğlu! Biz nə hayda, sən nə hayda. Pəzəvəng yanşaq, haydı hüzuruna Sərdarın!*

O biri fərraş dedi:

- *Əfəndim! Bir qaç söz üçün şimdi darılma.*

Ağ Aşıq sazı zilə çəkdi. Aldı görək, Süsənbərə nə dedi. Qulluğunuza ərz eyləyək, siz şad olun:

*Sərdar Söyün fərman verdi,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*
*Yolum oldu gedər-gəlməz,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*

*Fərman gəldi yaman oldu,*
*Könlüm şəhri talan oldu,*
*Demə, dərdim pünhan oldu,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*

*Əlif qəddi döndü yaya,*
*Ömür-günüm getdi zaya,*
*Dərdim gəlməz haqqa-saya,*
*Ağla məni, Süsənbərim,*
*Gözüyaşlı sitəmkarım!*

Bəli, söz tamam oldu. Ağ Aşıq Sərdarın fərraşları ilə üz qoydular Uruma. Günə bir mənzil, tey mənzil qırdılar yolun damarını, çatdılar Uruma. Bu, o vaxt idi ki, Sərdarın fərraşlara verdiyi vaxt artıq tamam olhaol idi. Aşığı Sərdar Hüseynin hüzuruna apardılar. Ağ Aşıq baxdı ki, ayə, burada nə inni-cinni desən var. İlan vuran, iman vuran, ipəyi, köynəyi qarılardan tutmuş tas quran cindara kimi hamı buradadır. Cəllad da əlində ovxarlı balta qətl

üçün əmrə müntəzirdir. Saz əlində aşığı görəndə hərə bir tərəfə çəkildi. Sərdar Hüseyn baxdı ki, ayə, bu bir oğlandır ki, Allah xoş saatında, xoş dəqiqəsində qələmini çəkib onun xətti-xalına. Yemə-içmə, bax boy-büsatına. Vallahi bir baxan deyir, qoy bir də baxım. Ürəyində dedi:

*- Bəxti qara! Allah da səni mənim dərdimə dərman yazıb. Nə etmək olar. Yazıya pozu yoxdur deyiblər. Görünür, sənin də vədən bura kimi imiş.*

Ağ Aşıq ədəb-ərkanla Sərdar Hüseyn və məclis əhlinə salam verib baş əydi.

Sərdar dedi:

*- Aşıq, halalik amandasan. Sazını köynəkdən çıxar. Bir kefimizi oyla.*

"Bəçeşm" – deyib, Ağ Aşıq sazı köynəkdən çıxartdı. Bəmini bəm, zilini zil elədi. Götürdü görək, ölümqabağı nə dedi. Tərəfindən biz deyək, siz şad olun:

*Ağ Aşığa xətm-kəlam oldu bu gün,*[1]
*Cənnətül məvaya*[2] *götürün məni.*
*Eldə sirr-sözümü etmədin bəyan,*
*Cəlali-üqbaya*[3] *yetirin məni.*

*Əlacım eyləsin on iki imam,*
*Bu fani dünyadan gedirəm nakam,*
*Gözləyir yolumu biçarə anam,*
*Qəbir əzabından ötürün məni.*

---

[1] Bu qoşmanı Ağ Aşığın nəticəsi Salatın nənə 1969-cu ildə demişdir. Ağ Aşıq bu qoşmanı son nəfəsində demişdir.
[2] cənnət mənzili
[3] şöhrətli - axirət evi

*Cəlilüşşən[1] mələk həmdəmim ola,*
*Xəlili-xəlit[2] namazımı qıla.*
*Tez verin duamı, salın da yola,*
*Siz Baği-ginana[3] götürün məni.*

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Aşığın yanıqlı oxuması Sərdar Hüseynin canına məlhəm kimi yayıldı. Xahiş etdi ki, aşıq bir mahnı da oxusun. Ağ Aşıq götürdü dübarə. Aldı görək, nə dedi:[4]

*Ömür oldu tamam, gün oldu tamam,*
*Götürün, çevirin qibləyə məni.*
*Dursun namazıma on iki imam,*
*Yetirin cənnəti-əlayə məni.*

*Xəzan əsdi, vaxtsız soldu güllərim,*
*Yetsin imdadıma Xudayi-Kərim.*
*El içində yadda qalan sözlərim,*
*Yüksəldəcək ərşi-əlayə məni.*

*Ellər gəlir Ağ Aşığın yasına,*
*Süsənbər qərq olar qəm dəryasına.*
*Ya Rəbb, qıyma onun cüt balasına,*
*Aparın fənadan üqbaya[5] məni.*

Söz tamama yetişdi. Saray əyanları, əşrəfləri baxdılar ki, Sərdar Hüseyn keçinib. Loğman da əvvəl-əvvəl elə

---

1 baş mələk
2 yar-yoldaş
3 behişt bağı
4 Bu qoşmanı 1975-ci ildə Mustafa baba söyləmişdir. Haqq Aşığı bu qoşmada ölümünü bilirmiş. Ömrünün son günlərində demişdir.
5 Üqba - ali qəbir

bildi ki, Sərdar o söz... hamı bir-birinə dəydi. Loğman Sərdarın nəbzini yoxladı. Gördü ki, o, şirin yuxudadır. Dedi:

- Həzarat, Sərdarı rahat buraxın. Özü ayılmayınca onu narahat etməyin.

Hamı çəkilib getdi. Ağ Aşığı da Sərdar Hüseynin Gülşən bağında qonaq otağına apardılar. Sərdar o yatan 40 gün, 40 gecə yuxudan ayılmadı. O 40 gün Ağ Aşıq üçün 40 ilə bərabər oldu. Canına vəsvəsə düşdü. Dağı Arana, Aranı dağa daşıdı. Baxdı ki, burada bir dəstə durna qatarı sədd çəkib vətənə sarı. Ürəyi qubar eylədi, sazı köynəyindən çıxardı. Zilini zil, bəmini bəm eylədi. Götürdü görək, Urumdakı halını əhli-əyalına necə ismarladı. Tərəfindən biz ərz edək, siz şad olun:[1]

*Qərib-qərib ötən durna,*
*Durna, yara salam söylə.*
*Bir-birinə yetən durna,*
*Durna, yara salam söylə.*

*Göydən enər qatar-qatar,*
*Dırnaqları quma batar,*
*Gecə gedər, gündüz yatar,*
*Durna, yara salam söylə.*

*Səf çəkərsiz düzüm-düzüm,*
*Şahpəri boynundan uzun,*
*Sizsiz mənim iki gözüm,*
*Durna, yara salam söylə.*

[1] Bu şeiri Zeynalabdin müəllim Kərəm dayısından qələmə almışdır.

*Sağ gedin səfər başına,*
*Yol gözləyir dost-aşina,*
*Mənnən yara bir nişana,*
*Durna, yara salam söylə.*

*Vədə verdim, vədəm bitdi,*
*Ayım-günüm ilə yetdi,*
*Telli sazım qəmgin ötdü,*
*Durna, yara salam söylə.*

*Gülü əkdim, güldən oldum,*
*Yar deməkdən dildən oldum,*
*Cida düşdüm, eldən oldum,*
*Durna, yara salam söylə.*

*Ağ Aşığın məlul çağı,*
*Zindanımdı Gülşən bağı,*
*Qəsdimdədi cəllad-yağı,*
*Durna, yara salam söylə.*

Söz tamam oldu. Aşıq baxdı ki, Sərdarın fərraşı ona tərəf gəlir. Fərraş dedi:

*- Yanşaq! Haydı Sərdarın hüzuruna.*

Ağ Aşıq Sərdarın hüzuruna gəlib, ədəb-ərkanla salam verdi. Sərdarın əmrinə müntəzir dayandı. Sərdar Hüseyn dedi:

*- Yanşaq! Loğmanlar mənim mərəzimin sağalması üçün dava-dərman tapmadılar. Elə mənim dava-dərmanım sənin sazın-sözündür. Mən harda, sən də orada olmalısan.*

Nağılçılar dili yüyrək olur, bu minvalla Ağ Aşıq sərasər üç il Sərdar Hüseynin qulluğunda çalıb-oxudu. Amma Sərdar Hüseyn insafa gəlmədi ki, gəlmədi.

Bir bahar günü Sərdar dost-aşinası ilə Gülşən bağına seyrəngaha çıxmışdı. Qulağına səs gəldi. Baxdı ki, aşıq yanıqlı-yanıqlı oxuyur.

*Başına döndüyüm gülüzlü yarım,*
*Qoymaram həddini aşa dərdimi.*
*Rumun loğmanından çarə bulmadım,*
*Varın, deyin Qızılbaşa dərdimi.*

*Bülbül güldən ötrü yalvarır xara,*
*Xun-ciyərim oldu səd həzarpara,*
*Səni loğman bildim, olmadı çara,*
*Varın, deyin yar-yoldaşa dərdimi.*

*Ağ Aşığam, vəsfə gəlməyir sözüm,*
*Heyf, gen dünyanı görməyir gözüm,*
*Bircə Allah bilir, bir də mən özüm,*
*Nə sərdar bilir, nə paşa dərdimi.*

Söz tamama yetişəndə Sərdar Hüseynin ürəyi kövrəldi. Öz-özünə dedi: *"Ey dili-qafil, heç insafdan deyil ki, belə bir aşığı dustaq edəsən"*. Sərdar başının adamları ilə içəri daxil oldu. Dedi: - *Yanşaq! Məndən istək-arzunu dilə. Nə istəsən yerinə yetirərəm.*

Ağ Aşıq baxdı ki, ölümün ağuşunda süyüşüb. Odur ki, sazını ustad kəlamına köklədi. Aldı görək, nə dedi. Biz deyək, siz şad olun:

*Dedim: könül, bacar yaxşılıq elə[1],*
*Həmişə əlində ixtiyar olmaz.*
*Çox da bel bağlama dünya malına,*
*Mala, mülkə, ömrə etibar olmaz.*

*Ey nazənin, sən geydiyin nə aldır?*
*Yenə baxışındakı hansı xəyaldır?*
*Birisi büdrəsə qolundan qaldır,*
*Hər zaman dost-dosta səbəbkar olmaz?*

*Yaxşı olar mərd igidin təməli,*
*Namərd tutmaz heç kəsə dad əli.*
*Hər qul qəmbər olmaz, hər ağa Əli*
*Bir qılınc kəsməklə zülfüqar olmaz.*

*Aşıq oldun hər ağrıya dözəsən,*
*Sinən üstə odlu közlər düzəsən.*
*Gündoğanla günbatanı gəzəsən,*
*Allahverdi kimi xiridar olmaz.*

Söz tamam oldu. Ağ Aşıq sazla dediyini sözlə də dedi. Hər yerdən alqış sədası ucaldı. Sərdar Hüseyn xəzinədarı çağırıb aşığa çoxlu ənam verməyi əmr etdi. Sərdarın əyan, əşrəfləri də Ağ Aşığa çoxlu xələt verdilər. Ertəsi gün Sərdar Hüseynin fərraşları Ağ Aşığın kəhər-köhləninin gümüşü üzəngisini basdılar, aşığa Urum elindən uğur dilədilər.

Bəli, əzizlərim! Sizin də görüm üzünüzə gün doğsun, heç dar-damanda qalmayasınız. Ağ Aşıq da dar-damandan qurtardı. Urum elindən kəhər-köhlənin Göyçə deyə cilovunu boşaltdı. Günə bir mənzil, teyi-mənzil qır-

dı yolun damarını, Ağrı dağının ətəyində atdan endi. Baxdı ki, boz qayada xınalı kəklik səzikir. Ürəyinə bir neçə xanə söz gəldi. Götürdü görək, aşıq xınalı kəkliyə nə dedi. Biz deyək, siz də şad olun:

*Baharın gülşən çağında,*
*Uçar daşdan-daşa kəklik.*
*Ovçu görsə səkər asta,*
*Sinər daşdan-daşa kəklik.*

*Məskən salar qayalarda,*
*Özü göyçək boyalarda,*
*Gözdən iraq sayalarda,*
*Səkər daşdan-daşa kəklik.*

*Süsənbərim göylər mahı,*
*Ağ Aşığın qibləgahı,*
*Əyir belim yarın ahı,*
*Bükər başdan-başa kəklik.*

Söz tamama yetişdi. Yolçu yolunda gərək, deyiblər. Ağ Aşıq da üz qoydu yolun tənginə.

Nağılçı dili mübarək, köhlən-kəhər yüyrək olar. Qırdı yolun damarını. Qoşabulağa çatanda atdan endi. Əl-üzünü yuyub sərinlədi. Baxdı ki, ey dili-qafil, bənövşələrin ətri adamı bihuş edir. Sazı köynəkdən çıxartdı. Aldı görək, aşıq nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Sən baharın qonağısan,*
*Boynuburuq bənövşələr.*
*Eşq əhlilər qınağısan,*
*Boynuburuq bənövşələr.*

*Məcnun - Leyli xəyalında,*
*Kərəm - Əsli sorağında,*
*Qurbaninin qəm bağında,*
*Boynuburuq bənövşələr.*

*Ağ Aşığın bəxti kəmdi,*
*Fələkdən bu bir sitəmdi,*
*Dərdim bil səndən betəmdi,*
*Boynuburuq bənövşələr.*

Söz tamama yetişdi. Aşıq köhlənin belinə qalxdı. Ağanı Allah saxlasın deyib, şər qarışanda özünü yetirdi Kərkibaşa. Ağ Aşığın sağ-salamat qayıtması el-obada toy-bayrama çevrildi. Aşıq Urumda gördüklərindən dəm verdi çənə söhbətinə. Bir də baxdı ki, Süsənbər özünə bir zinət verib ki, gəl məni gör, dərdimdən öl. Söz sinəsində qoşa bulaq kimi çağladı. Götürdü görək, Süsənbərə nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Leyli-nahar hüsnünə mən,*
*Həsrətəm ay ilə-ilə.*
*Şəhdi-şəkər ləbinə mən,*
*Həsrətəm ay ilə-ilə.*

*Bu yerlərdə bahar yazdı,*
*Yaylaqları söhbət-sazdı,*
*Demə ki, bu nə avazdı,*
*Həsrətəm ay ilə-ilə.*

*Qürbət oldu mənə yağı,*
*Ürəyimə çəkdi dağı,*
*Ağ Aşığın cavan çağı,*
*Həsrətəm ay ilə-ilə.*

Ağ Aşıq sazla dediyini sözlə də dedi. Kərkibaş camaatı – Hacı Əhməd babamız Ağ Aşığın külfətinə gözaydınlığı verdi. Hacı Əhməd Kərkibaşda məclis qurub Kərkibaş əhlini oraya yığdı. Məclis üç gün davam edir. Ağ Aşıq da bir aşıq kimi sazını götürüb zilini-zil, bəminibəm köklədi. Basdı sineyi-sandığa. Kərkibaşda tamamlanan bu məclisə belə bir duvaqqapma oxundu. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Soruşsan ərzi-halım,*
*Deyim haradan gəlirəm.*
*Satmışam əql-kamalı,*
*Dərin simadan gəlirəm.*
*Fikir gəzir asimanı,*
*Ərşi-əladan gəlirəm.*
*Tilsimlərin açarıyam,*
*Sirri-binadan gəlirəm.*
*Neyləyirsən xəbər alıb,*
*Sehri-səfadan gəlirəm,*

*Getmiş idim bir aləmə,*
*Tunc əridən havası var,*
*Hazırlaşıb leşkərləri,*
*Kimin ilə davası var.*
*Məqamını tam dolandım,*
*Yeddi böyük qalası var.*
*Hər qalanın qapısında,*

*On min dənə halqası var.*
*Tutmuşam mən yüklərimi,*
*Muzdu-babaldan gəlirəm.*

*Yetmiş mindən yetmiş minə,*
*Zərb eylədim bir hesabı.*
*Doxsan minlik sərlövhədə,*
*Yazılıbdı var kitabı.*
*Çahar altı, yan-yana yaz,*
*Hesab eylə, ver cavabı.*
*Neyniyirsən xəbər alıb,*
*Ləldi Valehin mətahı.*
*Gəl ziyarət eylə məni,*
*Turi-Sinadan gəlirəm.*

### "Ağ Aşıq və Süsənbər" dastanını söyləyənlər:[1]

1) Kərkibaşlı Aşıq Alının qorçusu 110 yaşlı Kərəm baba;
2) El şairi Zeynalabdin Mahmudoğlu;
3) Kərkibaş kəndinin ağsaqqalı, Aşıq Alının qohumu, 90 yaşlı Səfər baba
4) Babacanlı Aşıq Qədir Zal oğlu;
5) Ağ Aşığın kötücəsi Əziz müəllim;
6) Babacanlı Aşıq Şükür Süleyman oğlu;
7) Ağ Aşığın nəticəsi Salatın nənə;
8) Ağ Aşığın nəticəsi Telişin həyat yoldaşı, el şairi Məhərrəm.

[1] *"Ustad aşıqlar", "Gənclik", Bakı-1983, M.Həkimov.*
(Əslində "Ağ Aşıq və Süsənbər" dastanını Zeynalabdin müəllim Kərəm dayısından 1965-1970-ci illərdə qələmə almışdır. M.Həkimov 1981-1982-ci illərdə Zeynalabdin müəllimdən bu dastanı qələmə almışdır.).

# *EL ŞAİRLƏRİNİN AÇILMAMIŞ DƏFTƏRİ* [1]

## *DURNALAR*

*Qoşma – Növrəs İman*

Elim, günüm geri yanda qalıbdır,
Qayğı, qəmlər şirin canım alıbdır.
Fələk məni gör nə hala salıbdır,
Alışır cəsədim nara, durnalar!

... Məcnunam, çıxmışam leyli seyrinə,
Köçüb gedib bilməm onun təhri nə?
Növrəs İmandan veran şəhrinə,
Bir xəbər aparın, yara, durnalar!

[1] Bu şeirləri Kərəm babadan 1972-ci ildə qələmə almışam.

## *QƏRİB*

*Qoşma – şair Hacı*

Qürbət eldə ömür getdi fənaya.
Ömür qərib, ölkə qərib, el qərib.
Könül, ol mütəhəmmil cəfayə,
Könül qərib, cəfa qərib, dil qərib.

Hanı gəlməz atam, anam, qardaşım,
Cigər güşələrim, mahi-məhfəşim.
Axar seltək ruxsarə gözyaşım.
Gözüm qərib, üzüm qərib, sel qərib.

Həbs olduq "gilid" də çar-naçar,
Heç varmı bir kilid olmaya açar?
Hər saətim bir gün, günüm il keçər,
Saət qərib, günüm qərib, il qərib.

Neyçün bilməm cana bizdən yazındı,
Qış dolandı, bahar oldu, yaz indi.
Al dəstinə, Hacı, qələm yaz indi,
Qələm qərib, kağız qərib, əl qərib.

## *YARAŞIR*

*Qoşma – şair Niftalı (Aqil)*

Ay nazənin, sən sallanıb gələndə,
Qədəminə zərif yollar yaraşır.
Qönçə dəhanına, ləli-ləbinə,
Danışdıqca şirin dillər yaraşır.

Nəzakətlə göz önündə gəzəndə,
Qaş oynadıb gözlərini süzəndə.
Şanə çəkib tellərini düzəndə.
Ay qabağa siyah tellər yaraşır.

Yüz il ömrüm olsa, mən yazsam dəftər,
Mədhim tamam olmaz, ay mələk-mənzər,
Söz tamama yetir, budur müxtəsər,
Aqil kimi sənə qullar yaraşır.

# *Şəkilaltı yazı – tərcümeyi-hal Şeir və ithaflar*

***Məşədi Zeynalabdin Mahmudoğlu***
***(1925-2003)***

Şifahi xalq ədəbiyyatının mahir bilicisi, ulu sənətkar, ustad Ağ Aşığı kəşf edib ortaya çıxaran ilk tədqiqatçısı, əməkdar müəllim, jurnalist, el şairi, folklorşünas, IV aşıqlar qurultayının nümayəndəsi, Böyük Vətən müharibəsinin iştirakçısı, Göyçə mahalının ağsaqqalı, "Xatirələrim" kitabının müəllifi, cəfakeş insan, mərhum Məşədi Zeynalabdin Mahmudoğludur. 200-dən çox məqalənin müəllifidir.

Zeynalabdin babam 1925-ci ildə Basarkeçər rayonunun Kərkibaş kəndində anadan olmuş, 1938-ci ildə Kərkibaş kənd 7 illik məktəbini bitirmişdir. 1938-ci ildə Yerevanda Azərbaycan Pedaqoji Texnikomuna daxil olub, 1941-ci ildə başa çatdırmışdır. 1952-ci ildə Ağdam Dövlət Müəllimlər İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olub. 1953-cü ildə Qazax, Ağdam, Quba və Nuxa İnstitutları birləşdirilib Həsən Bəy Zərdabi adına Kirovabad Pedaqoji İnstitunun Nuxa filialına çevrildi. 1954-cü ildə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Nuxa filialının Dil-ədəbiyyat ixtisasını bitirmişdir. "Nuxa fəhləsi" qəzetində müxbir işləmişdir.

1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinin dil-ədəbiyyat fakültəsinə qəbul

olub. 1963-cü ildə həmin fakültəni bitirmişdir. Babamın 50 ildən çox pedaqoji fəaliyyəti olub. O, Göyçə mahalında müəllim, dərs hissə müdiri, məktəb direktoru işləmişdir.

O dövrdə Zeynalabdin müəllimin Ağ Aşıq haqqında "Ədəbiyyat və incəsənət" və "Sovet Ermənistanı" qəzetlərində çoxlu məqalələri çap olunub. O cümlədən, "Bulaq dədə" – radioverilişində mərhum Səməndər müəllim tərəfindən "Ağ Aşıq haqqında Zeynalabdin müəllimin yazdığı sovqat" dinləyicilər tərəfindən maraqla dinlənilmişdir.

Zeynalabdin müəllim "Sovet Ermənistanı" və "Basarkeçər" qəzetlərinin müxbiri olmuşdur.

Babam 50 ilə yaxın Ağ Aşığın yaradıcılığı ilə məşğul olub. Ağ Aşığın ilk tədqiqatçısıdır. Aşıq Alının nəslindəndir. Babam 2003-cü ildə Bakı şəhərinin Xırdalan qəsəbəsində vəfat edib.

Z.Mahmudoğlunun 2003-cü ildə yazdığı "Xatirələrim" kitabından bir neçə şeirini nəzərdən keçirək:

*Bu kitabı bağlamışam ad olsun,*
*Qohum-qonşu, el oxusun şad olsun.*
*Ölən-itən, qərib düşən yad olsun,*
*Dağı-daşı düşsün səsə Göyçənin,*
*Bəlkə dadı bəri əsə Göyçənin.*

*İt-pişik yox, dağda-daşda qurd qalıb,*
*Ocaq sönüb, kənd dağılıb, dərd qalıb.*
*Yazı gəlmir, ellər köçür, yurd qalıb.*
*Sürü, naxır necolubdu, görəsən,*
*Yurd-yuvasız necə ömür sürəsən?*

*Canımdadı o dağların yağışı,*
*Buzovların, quzuların baxışı.*
*Çöl-çəməndə çiçəklərin naxışı...*
*Baxtımızı boran aldı, qar aldı,*
*Gördüyümdən, gəzdiyimdən nə qaldı?*

*Ha yazsam da söz-söhbətim yenə var,*
*Çalın-çarpaz dağlar alan sinə var.*
*Yurdu sevən, təsib çəkən, gəl apar;*
*Yurdu itən yurd iyini alsın bir,*
*Xoş gününü hərdən yada salsın bir.*

## A DAĞLAR

*Şeirlərdən bir yarpaq qoşmalar*

Şişpilləkən, Vers dağı çox ucadır
Çətin dərə qocalardan qocadır.
Qərib düşən oda yanar, qaydadı,
Sənsiz necə oda yandım, a dağlar.

Sinəm başı çalım-çarpaz yaradı,
Heç bilmirəm yerim-yurdum haradı.
Tanrı səni xoş vaxtında yaradıb,
Sənsən mənim əhdim-andım, a dağlar.

Qarnıyarıq, gözəllərin yeridi
Zinəlikdə gözəllikdə bir idi.
Dərd əlindən Zeynalabdin əridi,
Qürbət nəymiş, indi qandım, a dağlar.

## A DAĞLAR

O ötən günlərim döndü xəyala,
Əvvəlki büsatım hanı, a dağlar.
Necolub bu yerin eli, elatı,
Bəyi, bəyzadəsi, xanı , a dağlar.

Dağ-daş yetim qalıb, məclis qurulmur,
Bulanıq suların hələ durulmur.
Könlüm səndən ayrı dağa vurulmur,
Səndədi ruhu, canı, a dağlar.

Didərgin olsam da, əhli-halam mən,
Ağam sənsən mənim, sənə qulam mən.
Zeynalabdin deyər, dərdi bolam mən,
Yoxdu dərdi-sərimin sanı, a dağlar.

## GETDİ[1]

Bir uca dağ idi, vüqarlı, mətin,
Fələyin əliylə uçdu da getdi.
Əcəl şərbətini götürdü ələ,
Mən "içmə" desəm də, içdi də getdi.

Gözyaşım sel kimi axdı, nə axdı,
Qəhər tutdu betər, dərd məni sıxdı.
İndi od almışam, çəkdiyim ahdı,
Əziz dost canımdan keçdi də getdi.

Şirin ləhcəliydi, açıqqabaqdı,
El-oba yanında bir üzü ağdı.
Nə oldu, bilmirəm, qəm bizə yağdı,
Qəşəm bu dünyadan köçdü də getdi.

---

[1] **Eloğlu - Qəşəm Aslanov (1935-1984)**
Azərbaycan xalqının, eləcə də Göyçə mahalının görkəmli oğlu, Göyçə torpağının yetirməsi və Göyçəlilərin iftixarı Qəşəm Aslanov böyük dövlət xadimi olmaqla yanaşı, həm də istedadlı jurnalist, tanınmış publisist, "eloğlu" imzası ilə şeirlər yazan gözəl şair olmuşdur.
Qəşəm Aslanov Zeynalabdin müəllimin yaxın dostu olmuşdur. Onlar bir yerdə Qaraiman 7 illik məktəbində müəllim işləmişlər. 1954-1955-ci illərdə Zeynalabdin müəllim məktəb direktoru və Qəşəm Aslanov dərs hissə müdiri işləmişlər.

## BAYATI[1]

*Boran oldumu*
*Dağda boran oldumu.*
*İtirmişəm Göyçəni,*
*Onu görən oldumu?*

*Göyçə, Göyçə deməkdən*
*İçimdə yanmışam mən.*
*Qəbul elə doğma Vətən,*
*Gəldim burda ölməyə.*

*Sənsiz dözə bilmirəm,*
*Sevinmirəm, gülmürəm.*
*Əhvalını bilmirəm,*
*Gəldim burda ölməyə.*

*Ata-babam burdadı,*
*Almışam qaçqın adı,*
*Niyə çəkdim fəryadı,*
*Gəldim burda ölməyə.*

*Torpağına qarışım,*
*Qurbandı sənə başım.*
*Ay mənim torpaq-daşım,*
*Gəldim burda ölməyə.*

***

*Vətən, gəldim görüşək,*
*Sonu ölüm-itimdi.*
*Dərdi-qəmi bölüşək,*
*Könlüm sənsiz yetimdi.*

*Qonaq kimi gəlmişəm,*
*Titrəyə, qorxa-qorxa.*
*Yağı dolu hər yanım*
*Burda tapılmaz arxa.*

*Allah da göydən baxır,*
*Söyləmirəm mən yalan*
*Qəlbimi dərdlər sıxır*
*Kəndlər olubdur talan.*

[1] Zeynalabdin babam Vətəni – Göyçəni 3-5 dekabr 1988-ci ildə tərk etmişdir. Vətənindən didərgin düşmüşdür. Qaçqın adı almışdı. Göyçə həsrəti ilə yaşayırdı. O bu həsrətə dözə bilməyib 1989-cu il mayın sonunda Göyçəyə gedir. Orada ölüm-dirim müharibəsi ilə üzləşir. Canınnan əlləşir. 2 gün evin yanındakı qayanın altındakı mağarda qalır.  Bu bayatıları həmin vaxtda demişdir. 1 həftə müddətində Göyçədən çox çətin vəziyyətdə gəlib Azərbaycana çıxmışdır.

## ANAM KÖÇDÜ DÜNYADAN[1]

Sanki dünya boşaldı,
Dərd sinəmə baş aldı.
Adı nişanə qaldı,
Anam köçdü dünyadan.

Ağladım, "getmə" dedim,
Bu yoldan ötmə dedim.
Qəm daşıdım, qəm yedim,
Anam köçdü dünyadan.

Qəbri üstə əyildim,
Öyüm-öyüm öyüldüm.
Öz odumda qoyruldum;
Anam köçdü dünyadan!

Əziz tutdum adını,
Cana saldım odunu,
Atamın mərd qadını,
Anam köçdü dünyadan.

Canımdan canmı qopdu,
Fələk xoş günü qapdı.
Gözyaşım yerə hopdu,
Anam köçdü dünyadan.

Necə dözüm bu dərdə,
Yandım durduğum yerdə.
Mənə fələk qəm verdi,
Anam köçdü dünyadan.

Zeynalabdin, qəm elə,
Ötən gün gəlməz ələ.
Dərd üstə gəldin dilə,
Anam köçdü dünyadan.

---

[1] **Zeynalabdin babamın**
***Anası:*** Səkinə (1910-1960)
***Atası:*** Mahmud (1880-1953)

***Zeynalabdin babamın həyat yoldaşı Saniyə nənəmin yazdığı şeir***

**"YETİMLƏR ANASI"**

Demək şair olub qoca yaşında
Ürəkdən gələni dedim biləsiz.
Yetimlər anası qoyuldu adım,
Bəlkə köməyimə durub gələsiz.

Ömür yollarında nələr var, nələr,
Üzümə il ildən yaman pis gələr
"Ana" deyib axtaranda körpələr,
Məni gözüyaşlı görüb siləsiz.

Sonasız göllərin sonası oldum,
Neçə yetimlərin anası oldum.
Yüz dəfə ah çəkib yanası oldum,
Saçlarım ağarıb, baxın telə siz.

Saniyə dağ imiş dözür bu dərdə,
Gizli-gizli yanır axşam, səhər də.
Tanrım, dərman eylə belə bir dərdə,
Övladlar, düşməyin heç vaxt dilə siz...

*Saniyə nənəyə həsr edilmiş ithaf*

## XEYİRXAH ANA
## RƏNA QARABAĞLI

Yetimlər anası demə özünə,
Olmusan dünyada xeyirxah ana.
Barış taleyinlə, qismətinlə sən,
Nə olar, heç zaman çəkmə ah, ana, ah.
Üzə xoş gələcək hər sabah, ana!

Qış keçər yenə də güllü yaz olar,
Bağdagül, İlahə nazlı qız olar.
Dildə nəğmə olar, əldə saz olar,
Saxlasın qoy səni, o Allah, ana!

Nə arzun, istəyin var, hasil olsun,
Bağçan dolu çiçək olsun, gül olsun.
Gəlinimizin ayağı yüngül olsun,
O da olsun hər vaxt xeyirxah, ana,
Saxlasın qoy səni, o Allah, ana!

## *Zeynalabdin Mahmudoğluna həsr edilmiş ithaflar*

### AY QAĞA

*Ömrünü-gününü gənc nəsillərin təlim-tərbiyəsinə həsr etmiş fədakar müəllim və folklorşünas Zeynalabdin Cəfərovun unudulmaz xatirəsinə*

Eşitdim ki, sən Məşhədə getmisən,
Ziyarətin qəbul olsun, ay qağa.
O həsrətin torpağını öpmüsən,
İbadətin qəbul olunsun, ay qağa.

Ömrü boyu xidmət etdin vətənə,
İlləri aşırıb gəldin təkcənə.
Arzum budur, yaşayasan yüz sənə,
Sədaqətin qəbul olunsun, ay qağa.

Çox aşığı gün üzünə çıxartdın,
Göyçə gölə zirvələrdən baxardın.
Ziya olub könüllərə axardın,
Dəyanətin qəbul olunsun, ay qağa.

Qürbət eldə əcəl səni haqladı,
Qohumların xatırlayıb ağladı.
Sevənlərin könüllərdə saxladı,
Məhəbbətin qəbul olunsun, ay qağa.

***Can qardaşın E.Mahmudoğlu***
***5 noyabr 2003-cü il***

## QALDI
## RƏNA QARABAĞLI

Elin ağsaqqalı, qayğıkeş kişi,
Dağıldı ellərin nə kimə-kimə qaldı.
Cavanlıq çağların zövqlü-səfalı
Qocaldıqca ümid həkimə qaldı.

Bir yandan qocalıq, bir yandan həsrət,
Göyçə idi sənə həm şan, həm şöhrət.
Qəlbini yandırdı nakam məhəbbət,
Ətirli o gülün de kimə qaldı.

Vers dağı döşündə Köşkü bulağı,
Verir bizə Şah İsmayıl sorağı.
Miskin Abdal gəlib olmuş qonağı,
Qıjoy çayı, gölün de kimə qaldı.

Lilparlı bulağın ziyarətgahın
Hacı Hasan çəkmiş gizlincə ahı.
Kim nə bilər üzə gələn sabahı,
Xoşbəxt ayın, ilin de kimə qaldı.

Şişpilləkən dağında yüz çiçək var,
Yetmiş beşin gəldi, yenə də axtar.
Solunda nəvələr, sağında da yar,
Şirin sözlü dilin de kimə qaldı.

Mən də öz elimin şair qızıyam,
Gündüzlər gülşənəm, gecələr ayam.
Adım Rəna, özüm Qarabağlıyam,
Dedim, dünya, gülün de kimə qaldı.

## SƏNİ
## AŞIQ FAXFUR AĞBABALI

Qeyrətli kişisən, əsli-zatım var,
*Yaxşı yetiribdi o dağlar səni.*
*Başına toplanıb qohum-qardaş, yar,*
*Ağsaqqalsan, hamı qucaqlar səni.*

*Qohuma, qonşuya canın çox yanır,*
*Haqqa tapınanlar sənə inanır.*
*Sözünün qiymətin qananlar qanır,*
*Kövrəldir ötənlər-o çağlar səni.*

*Faxfuram, sözünə vuruldum mən də,*
*Yaxşı kişilərdən durmaram gendə.*
*Sənin bayramında, bu əziz gündə,*
*İncitməz sinəndə o dağlar səni;*
*Səsləyər Göyçədən o dağlar səni.*

## ELİMİN-OBAMIN QEYRƏTLİ OĞLU MƏCİD

Elimin-obamın qeyrətli oğlu,
Günlər görübsən ki, qaralı, ağlı.
Qurtarmır hər gecə həsrətin nağlı,
Sənin danışığın şirindi-şirin.

Çətin yollar keçib, yaşa dolmusan,
İndi el içində piran olmusan.
Əzəldən saz-sözə meyl salmısan,
Fikrin, həm düşüncən dərindi, dərin.

Yurdundan qəm ilə çıxmısan yola,
Mərd olan neyləsin bu qeylü-qala.
Göyçə deyən kimi gəlirsən hala,
Sənin tək kişiyə min-min afərin.

O uca dağları gətirib yada,
Günbəgün qəlbini tutursan oda.
Çarxı tərs dolanan belə dünyada,
Yenə də başladı məqamın, yerin.

Məcidin sözünü düz qəbul eylə,
Sinən söz mədəni, bir danış, söylə.
Kədərin, ələmin qabağın əylə,
Aqillər içində sənin var yerin,
Güllü dağlar kimi sevincə bürün.

## ALLAH, ÖZÜN BİLİRSƏN[1]

*Zeynalabdin babamın və cavan nakam anam Maralın ölümü mənə çox ağır təsir etdi. Anamı bir də xatırladım, sonra bu şeiri yazdım.*

İnsanınkı kədərdir,
Dərdlilər nə qədərdir!
Allah, özün bilirsən,
Nədən gileyliyəm mən.
Getdi cavan maralım,
Dəyişdi necə halım.
Qoca çinarım babam,
Uca vüqarım babam,
Köçünü çəkdi, getdi.
Gözyaşım tökdü,getdi.

Anam, bu nə iş idi,
Baba, nə gediş idi...
Üst-üstə iki dərdi,
Görən bizə kim verdi?!
Allah, özün bilirsən,
Nədən gileyliyəm mən.

İki körpə quzunu,
İki kiçik qızını,
Qoyub gedənim hanı?
Mənim baba dediyim,
Dil-dil ötənim hanı?
Anam, babam hardadı?
Bəlkə onlar dardadı?!
Allah, sən ki böyüksən,
Sınıq könlümü tiksən!
Sığınmışam kölgənə,
Gümanım gəlir sənə.

***Bağdagül***
***Zeynalabdin babamın nəvəsi***

---

[1] Anam - Maral 7 dekabr 2001-ci il və
Babam - Zeynalabdin 5 noyabr 2003-cü ildə
Xırdalanda vəfat etmişlər.

## ELBRUS MAHMUDOĞLU

1946-cı il dekabrın 15-də Göyçə mahalının Kərkibaş (Şəfəq) kəndində anadan olub. Çaxırlı kənd orta məktəbini qızıl medalla, Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Oxuduğu illərdə o dövr üçün ən yüksək hesab olunan Lenin təqaüdçüsü olmuşdur.

1969-cu ildən 1984-cü ilə kimi SSRİ Cihazqayırma Sənayesi Nazirliyinin neft-kimya avto-maşınqayırma institutunda baş texnikdən laboratoriya müdiri vəzifəsinədək yüksəlmişdir.

Elbrus Cəfərov Azərbaycanda "Dəyişən quruluşlu avtomatik sistemlər" laboratoriyasının yaradıcısıdır. 1972-ci ildə "Kəsilmiş prosessorların çoxquruluşlu sistemlərinin idarə edilməsi" mövzusunda namizədlik, 1980-ci ildə isə Moskva şəhərində doktorluq dissertasiyası müdafiə etmişdir.

1984-1996-cı illərdə Azərbaycan Texniki Universitetində Avtomatika və robot-texnika kafedrasına rəhbərlik etmişdir. Robottexniki sistemlər ixtisasını - Azərbaycanda ilk dəfə Elbrus müəllim açmışdır. O, 1987-ci ildə SSRİ AK tərəfindən professor adını almış və bir il sonra Leninqrad Beynəlxalq Texnologiya Kibernetika Akademiyasının üzvü seçilmişdir.

Elbrus Cəfərov bir çox ölkələrin elmi konfranslarında 200-dən çox elmi məqalələri ilə çıxış etmişdir. SSRİ-də 27 ixtiranın şəhadətnaməsini almışdır. Elə ona görə

də, 1981-ci ildə ona SSRİ Cihazqayırma Sənayesi Nazirliyinin "Ən yaxşı ixtiraçı" adı verilmişdir.

1993-cü ildən Çinin Beyhanq Universitetində bir il dərs aparmış, universitetin fəxri professoru seçilmişdir.

Elbrus Cəfərov İstanbul Texniki Universitetinin professorudur. Beynəlxalq səviyyəli universitetdə Aerokosmik fakültənin professoru kimi ingilis dilində fakültənin bakalavr, magistratura və doktorantura pillələrində fundamental ixtisas fənlərindən dərs aparır. Onun rəhbərliyi altında 10 nəfərdən çox professor, 100-dən artıq bakalavr, magistr hazırlanmışdır.

Onun ingilis dilində nəşr olunan "Variable Structure Control and Time-Delay Systems" (türk. *"Deyişken yapılı kontrol ve zaman gecikmeli sistemler"*) kitabını dünya alimləri yüksək dəyərləndirmişlər. Kitab Aerokosmik fakültələr, kibernetika və tətbiqi riyaziyyat, avtomatika, robasot və robot-kontrol, magistr və doktorantura tələbələri, müəllim və araşdırıcılar üçün nəzərdə tutulmuşdur. Vəsaiti WSEAS Akademiyasının Amerika, Avropa, Avstraliya və Türkiyədəki ofislərindən şəxsi kitabxanaları üçün sifariş edirlər.

Elbrus Mahmudoğlu şifahi xalq ədəbiyyatının dərin bilicisi, aşıq sənətinə xüsusi maraq göstərən el şairi-folklorşünas, bir neçə şeir kitabının müəllifidir.

Elbrus Mahmudoğlu "Xəbər çata Ağrı dağa" kitabında yazır: "Göynəyən Göyçə yaddaşı, Göyçə həsrətidir". Bu kitabda xeyli bayatı, gəraylı, qoşma, cığalı təcnis, divani və rübailər yazmışdır. İndi isə el şairinin "Sina nə" cığalı təcnisini və baş divanisini nəzərdən keçirək:

## "SİNA NƏ"
*Cığalı təcnis*

Eşqin dəryasında qəvvasam deyən,
Gərək yüz alışa, yüz də sınana.
Xumar aşıq Sənana,
Tərsa qızı, sona nə!
Şeyxi – dərbədər çoban,
Eşqə sadiq son ana.
Yar yarına yetişməkçin dünyada,
Bəxti gərək fələklərdə sanana.

Sonalar məskəni, Göyçə gölüydü!
Alının nəvası Göyçə gülüydü!
Mən aşiqəm Göyçəyə,
Dağlar qızı göyçəyə.
Namərdin fitnəsindən,
Od ələndi Göyçəyə...
Qaldı ərasata, göycə gülüydü!
Qisası qoyulmaz ocaq sönənə!

İnsan oğlu, iman gətir Qurana!
Yeri-göyü, ərşi-gürşü qurana.
Səcdə qılaq Qurana,
Tövrat, İncil, Qurana!
Könüllərin şəhrini,
Təzdən hörüb qurana.
Otuz cüz vəhy yendi ol Xudadan Qurana!
Merac evi, Beytül-haram, Sina nə!

## BAŞ DİVANİ

Beş əsrdi baş divani kəc yozuldu, düşdü dilə,
Hər sözü bir müəmma, güman oldu, qaldı belə...
Aşıqlar kərəm-kanı, Kərəm dayı kara gələ,
Alıdan eşitdiyi yada düşə, bəyan ola..

"Fələk, sənnən əyləşməyə bir belə meydan ola",
Açıla haqqın dərgahı, ədalət-divan ola.
Mən getmiş idim, mürşidim dərdimə dərman qıla,
Nə biləydim, mən gəlincə xak ilə yeksan ola.

Zülflərinin kölgəsində bir zaman yatmaq gərək,
Tabutu sərv ağacından, kəfəni yarpaq gərək,
Tez yuyun, tez də götürün, mənzilə çatmaq gərək,
Bar-ilahim, necə qıydın, bir belə cavan ölə..

Bir gülü ki dərəmmirsən, dərib xəndan eyləmə,
Bir könül ki hörəmmirsən, söküb viran eyləmə,
Haqq –təladan səda gəldi, Qurbani[1], qəm eyləmə,
Yazı, yazan belə yazıb, çoxuna nişan ola."

[1] Qurbani – (1477-1548) Azərbaycan aşığı, şair

## ƏMİRASLAN ZEYNALABDİNOĞLU

Atam 1959-cu ildə Basarkeçər rayonunun Kərkibaş kəndində müəllim ailəsində anadan olub. Kərkibaş (Şəfəq) kənd orta məktəbini 1976-cı ildə əla qiymətlərlə bitirib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat fakültəsini (1981-1985-ci il) və İnformatika ixtisasartırma kursunu (2000-2001-ci il) bitirib. Tələbəlik dövründə ADPU-da çıxan "Gənc müəllim" qəzetində xüsusi müxbir, Aşıqlar Birliyində ştatdankənar metodist işləmişdir. Həm də Aşıqlar Birliyinin üzvü idi.

Basarkeçər rayonunun İnəkdağı və Dərə kəndlərində (1986-1988) müəllim işləmiş, "Basarkeçər" qəzetinin müxbiri olmuşdur. Qaçqınlıqdan sonra Xəzər rayonunun 183 saylı orta və 13(8) saylı internat məktəblərində müəllim işləmişdir. 30 ildən çox pedaqoji stajı var.

Aşıq şeirinə böyük maraq göstərmişdir. Bu maraq onu folklor materiallarının toplanmasına, təbliğinə səslədiyindən Miskin Abdalın, Aşıq Əliqulunun, Ağ Aşığın, şair Məmmədhüsöynün, Alının, Daşkəndli Nəcəfin şeirlərinin toplanmasında yaxından iştirak edir. Folklorun öyrənilməsində ilk müəllimi atası Zeynalabdin, ikinci müəllimi Xalq şairi Hüseyn Arif olmuşdur. O, şair və aşıqların çoxlu şeirlərini sinədəftər bilir. Əmiraslan müəllim folklorumuzu 45 ilə yaxındır ki, araşdırır. Aşıq Alının qorçusu Kərəm babanın yazanı olub. Ağ Aşığın tədqiqatçısı kimi tanınır. Ağ Aşığın şəcərəsidir.

## NÜMUNƏVİ TƏHSİL UĞRUNDA

*Sov. İKP MK-nın (noyabr, 1982-ci il)* Plenumunun qərarlarından ruhlanan riyaziyyat fakültəsinin II kurs 8-ci qrup tələbələri səylə oxumağı, yay imtahan sessiyasını əla və yaxşı qiymətlərlə başa vurmağı qarşılarına məqsəd qoymuşlar.

Qrupumuzda 25 nəfər tələbə təhsil alır. Onlardan 8 nəfəri əlaçı kimi şərəfli bir ad daşıyır. Əlbəttə, bu nailiyyət 25 nəfər tələbəsi olan qrup üçün qənaətləndirici deyildir. Elmi-texniki tərəqqi əsrinin böyük sürəti ilə ayaqlaşmaq, seçdiyimiz ixtisasın kamil bilicisi olmaq, ən başlıcası sabahın layiqli mütəxəssisləri kimi yetişmək üçün indi hər dəqiqənin qədrini bilir və vaxt itkisinə yol vermirik. Məşhur pedaqoq Y.A.Komenski deyib ki, o günü, o saatı bədbəxt say ki, yeni bir şey öyrənməmisən və öz təhsilinə heç nə əlavə etməmisən. Bu sözlərə əməl edərək gecəli-gündüzlü oxuyur, vaxt itkisinə yol vermirik.

Məlumdur ki, hər bir tələbə nümunəvi olmalı, üzrsüz səbəbə görə dərs buraxmamalı, mühazirə və seminarlara yüksək səviyyədə hazırlaşmalı, dostluq köməyindən düzgün istifadə etməyi bacarmalıdır. Tələbə həmkarlarım məhz belə də edirlər. Çalışqan tələbələr – Faidə Məmmədova, Mətanət Sərdarova, Talıb Babacanova, Firandux Rəşidova, Alimə Hacıyeva və Elşad Niftaliyev və

başqaları qarşıdakı sessiyanın çətin sınaqlarına hazırlaşmaqda həmkarlarına dostluq köməyi göstərirlər.

Cəbr, həndəsə, rus dili, pedaqogika və fəlsəfə fənlərindən çətin sınaqlar ərəfəsində qüvvələrimizi bir daha səfərbər edir, müvəffəq və nöqsan cəhətlərimizi müəyyənləşdiririk.

Şübhə yox ki, yay imtahan sessiyasından sonra qrupumuzda əlaçıların, əla və yaxşı oxuyanların sayı çoxalacaqdır.

***Əmiraslan Cəfərov***
***riyaziyyat fakültəsinin***
***II kurs 8-ci qrupun nümayəndəsi***
***"Gənc müəllim" qəzetinin***
***ştatdankənar müxbiri***
***28.04.1983***

## HƏQİQƏTƏ ÇEVRİLƏN ARZU

İnsan arzusuna çatanda onun fərəhi qəlbinə sığmır. Yeni-yeni arzularla qanadlanıb gələcəyin daha xoşbəxt günlərinə doğru uçur. Bu onun ömrünü daha da rövnəqləndirir. Elə bil, günəş də daha parlaq işıq saçır.

Ətrafda hər şey gülümsəyir, xoş və gözəl duyğularla qəlbi rahat döyünür. Müəllim olmaq mənim çoxdanki arzum idi. Lakin bu arzuya çatmaq üçün yollar heç də asan olmamışdır. İstehsalatda çalışmışam. Bərkə-boşa düşmüşəm. Lakin bu müqəddəs sənətə olan marağım heç

vaxt azalmayıb. Əksinə, həmişə mütaliə etmişəm. Oxuyub-öyrənməyə səy göstərmişəm. İndi III kurs tələbəsiyəm. Tələbəlik illərində də çətin günlərim, axtarışlı anlarım az olmayıb. Təcrübəli və qabaqcıl müəllimlər mənə kömək əlini əsirgəməyiblər. Qazandığım təcrübə, gərgin zəhmətim məni ümidsiz qoymayıb. İldən-ilə nailiyyətlərim çoxalıb.

Müəllimlik müqəddəs bir sənətdir. Müəllim! O, hər bir yeniyetmənin arzu və istəklərini qanadlandırır. Həyat idealına çevrilir. Müəllim peşəsi haqqında xalq şairimiz Süleyman Rüstəm gözəl demişdir:

*Müəllimlik müqəddəs bir sənətdir həyatda,*
*Müəllimin hər sözü həqiqətdir həyatda.*
*Üz-gözü, pal-paltarı mürəkkəbli körpələr,*

*Çırpınan ürəkləri xoş mətləbli körpələr.*
*İlkin Vətən sözünü müəllimdən öyrənir,*
*Mənliyini, özünü müəllimdən öyrənir.*

***Əmiraslan Cəfərov***
***Riyaziyyat fakültəsinin***
***III kurs 8-ci qrup nümayəndəsi***
***"Gənc müəllim" qəzetinin müxbiri***
***02.10.1983***

## SEVDİRƏN DƏ SƏN

Sən məni hamıdan çox sevən oldun,
Qəlbimə saf sulu bulaqtək doldun.
Bəxtimə işıqlı bir nurlu yoldun.
Məni sevən də sən, sevdirən də sən.

Fikrimi aparıb ala gözlərin,
Bir sevgi sehrinə saldı gözlərin.
Həmişə arxamca qaldı gözlərin,
Sevgimi aləmə bildirən də sən.

Ay lalə yanaqlı, çatmaqaş gözlüm,
İncitmə sən məni, ağrıyır könlüm.
Dili şəkər sözlüm, dili bal sözlüm,
Qəlbimi ağladıb güldürən də sən.

Könlümün gözünü yolda qoyma gəl,
Eşqim yorulma, eşqidən doyma gəl.
Hər nadan sözünə gülüm uyma gəl.
Qəlbimdə qəlbimə yer verən də sən.

Əmiraslan düşdü sevgi oduna,
O ötən günləri saldı yadına,
Bir sevgi xatirə yazdım adına,
Hüsnümə vurulan, sevdirən də sən!

***1982***

SANİYƏ ƏMİRASLANQIZI

## M.F.AXUNDZADƏNİN "HACI QARA" PYESİNDƏ KOMİK OBRAZLAR[1]

***Cəfərova Saniyə***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***

***Ключевые слова:*** *основоположник, литература, критика, принципы, реализм*
***Key words:*** *founder, literary, criticism, principles, realism*

Mirzə Fətəli Axundzadənin komediyaları Azərbaycanın XIX rin ortalarındakı həyatını, ümumi ictimai-siyasi vəziyyətini əks etdirir. M.F.Axundzadənin komediyaları realist sənət prinsipləri əsasında yaradılmışdır. Təsadüfi deyil ki, xalqımızın ümumilli lideri H.Əliyev də M.F.Axundzadə haqqında yüksək fikirdə olmuş, onun"M.F.Axundovun yaradıcılıq yolunu səciyyələndirən tarix səhifələrini vərəqləyərkən biz böyük iftixar hissi keçiririk ki, xalqı haqqında: xalqımız ağir zamanlarda, gerilik, dini fanatizm şəraitində belə görkəmli səhifələrini öz dövrünü qabaqlayaraq gözəl əsərlər yaradan bir insan yetişdirmişdır..."- deyə söyləmişdir. Doğrudan da məhz onun komediyaları ilə ədəbiyyatımızda realist sənətin, sözün həqiqi mənasında realizm yaradıcılıq metodunun mükəmməl binası ucaldılmışdır. Onların əsas ideya məzmununu və problemlərini isə maarifçilik təşkil etmişdir. Bütün komediyalarında Axundzadə xalqın həyatına yaxşı bələd olan nadir psixoloq və sənətkardır kimi özünü təsdiq etmişdir. Onun yaradıcılıq istedadı, həyat təcrübə-

si və hərtərəfli biliklə zəngin zəkası bütün əsərlərində özünü göstərir. Onun bütün komediyaları real hadisələrdən alınmış, yazıçı əsərləri vasitəsilə dövrün ab-havasını parlaq boyalarla təsvir etmişdir.

M.F.Axundzadə komediyalarında xalq həyatı və məişətinə geniş, dərin, rəngarəng əksini vermişdir. O, pyeslərinin bədii materialını, mövzusunu dərindən müşahidə etdiyi real həyat hadisələrindən almış və bu həyatı, olduqca düzgün, təbii, inandırıcı surətdə təsvir etmişdir. Onun dram əsərlərində təsvir olunmuş həyat hər cür mücərrəd, dini-mifik təsəvvürlərdən azaddır. O, təsvir etdiyi həyatın, hadisə və faktların daxili mahiyyətinə, ruhuna nüfuz etmiş, onun ən mühüm cəhətlərini, tipik xüsusiyyətlərini qələmə almışdır.

M.F.Axundzadənin «Hacı Qara» komediyasında xəsislik təsvir və tənqid olunur. Dahi dramaturqun bu əsərində özünə belə pul qıymayan xəsis Hacı Qaranın mənəvi aləmindəki nifrət oyadan cəhətlərin açılması üçün dərin fəlsəfi-psixoloji məqamlardan sənət karlıqla istifadə etməsini görürük: bu qoca xəsis üçün dünyada puldan başqa heç bir müqəddəs şey yoxdur; Hacı Qara, öz dostu Heydər bəyin qoçaqlığını tərifləyən Əsgər bəyə etinasızlıqla deyir ki, bizim zəmanəmizdə qoçaq olmaqdansa, cibin pulla dolu olsa min dəfə yaxşıdır. Əsər iki xətt üzrə inkişaf edir. Yəni əsərin bir hissəsi Hacı Qara ilə, digər hissəsi Heydər bəylə əlaqədardır. Biri xəsisliyi ucbatından itirdiyi 100 manat zərərinin əvəzini çıxmaq şərtilə, digəri isə evlənmək üçün qaçaq mal alverinə gedir. Tacir Hacı Qara komediyanın gülünc qəhrəmanıdır. Xəsislik, tamahkarlıq, ikiüzlülük, qorxaqlıq onun əsas xüsu-

siyyətləridir. Xəsisliyinin ucbatından ailəsinə nəinki pul vermir və hatta özü belə xarcləmir. O, tamahkarlığı, acgözlüyü üzündən qaçaqmalçılığa girişir. Hacı Qaranın həyat yoldaşı Tükəz xanım isə xəsisliyə qarşıdır.

Bununla yanaşı o, həyat yoldaşına qayğı göstərir. Tükəz xanım ərinin qaçaqmalçılığa getməsini pisləyir. Əsərda Heydər bəyin simasında insan xarakterinin ziddiyətli olduğunu göstərilir. Yəni, o cəsur, mərd bir gəncdir və bəy nəslindəndir. Amma Heydər bəy cəsur mərd bir gənc olsa da əsərdə onun mənfi xüsusiyyətləri də təsvir olunur. Yəni Heydər bəy əməklə, zəhmətlə yaşamağa qarşıdır. Əsərda onun iflasa uğradığı təsvir olunur və bildiyiniz kimi, bununla onun var dövləti yox olur, hətta Heydər bəyi evlənmək üçün belə imkanı olmur. Buna görə də o da qaçaqmalçılıq edir. Mirzə Fətəli əsərində Heydər bəyin dili ilə "guya ki, mən Banazor ermənisiyəm ki, gərək gündüz axşamadək kotan sürəm, ya ləmbəranlıyam ki, qurd bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm!.. Heç vaxt Cavanşirdən kotançı və kümçü görükməyib! Mənim atam Qurban bəy onu etməyib, mən ki onun oğlu Heydər bəyəm, mən də etməyəcəm" deməklə məsələnin kökünə, mahiyyətinə nüfuz edir və göstərirdi ki, tüfeylilik, zəhmətə xor münasibət bu və ya digər bir bəyə xas olan sifət yox, ümumiyyətlə bəyliyin tipik xüsusiyyətidir.

Əsərdə Heydər bəyin nişanlısı olan, onu ürəkdən sevan Sona xanım surəti də var. O da Heydər bəy pis amaldan çəkindirməyə çalışaraq, qaçaqçılıq kimi pis işlə məşğul olmasını istəmir.Hacı Qaranın ona pis mal satmış Şuşa tacirinə yağdırdığı söyüşlər, özü mal satanda qura-

na and içib parçasını tərifləkən dediyi sözlər, yaxud Zalxa arvadın ağıllı muhakimələri uzun müddət adamın qulağında səslənir. Zalxa arvad Divanbəyiyə deyir ki, Tarverdi biçarənin heç bir təqsiri yoxdur, o nə eləsin ki, bu viran olmuş ölkənin qızları quldurluq, oğurluq bacarmayanı sevmirlər. Divanbəyiyə deyən gərək ki, bacarırsan ölkəmizin qızlarına qadağan elə ki, quldur olmayan oğlanlardan zəhlələri getməsin. Axundov şərq dillərinin bilicisi hesab olunurdu; o, öz komediyalarını Azərbaycan türklərinin ləhcəsində, canlı, oynaq və cilalanmış bir dildə yazmışdır. Bu canlılıq va sadəlik sayəsində onun doğrudan da, bir zamanlar həmin komediyalar böyük bir maraqla komediyaları bütün savadlı camaatın malı olmuşdur;doğrudan da,bir zamanlar həmin kiomediyalar böyük bir maraqla oxunurdu. Təsadüfi deyildir ki, bədii cəhətdən yüksək sənət nümunəsi sayılan «Hacı Qara» komediyası Mirzə Fətəli kimi kamil və sənətkarın qələmindən ərsəyə gələ bilərdi. Bu baxımdan, Mirzə Fətəlini fransızların Molyeri və rusların Qoqolu ilə müqayisə edən ədəbiyyatşünaslar onun sərhəd tanımayan zəka diapazonuna istinad edirdilər. Bu ideya istər folklorda, istərsə də yazılı ədəbiyyatda öz əksini tapmışdır. Belinski Puşkinin xəsislik mövzusunda yazdığı "Xəsis cəngavər" əsəri haqqında qeyd edir: "Xəsis ideyası yeni ideya deyil, lakin dahi köhnəni yeni etməyə müqtədirdir". Axundov da ənənəvi mövzuya, klassik xəsis obrazına müasir gözlə baxır. Onun Haci Qarası konkret tarixi dövrlə - XIX əsr Azərbaycan həyatı ilə bağlıdır. Əsərdə Hacı Qaranın xəsisliyi tacir zümrəsinin əsas xüsusiyyəti kimi göstərilmişdir.

Burada təkcə xəsisliyin ifşasından söhbət getmir. Pyesdə xalqımızın istək və arzularını, həyat tərzini, milli adət-ənənələrini əks etdirmək müəlliflərin əsas qayəsi olmuşdur. Komediyada yadelli, nankor ermənilərin zaman-zaman Azərbaycanın münbit torpaqlarına köçürülməsinə, yüksək çinli rus məmurlarının xalqımıza qarşı yeritdiyi müstəmləkə siyasətinə etiraz işarələri vardır. Bu ştrixlər personajların dialoqlarında və xarakterlərində daha qabarıq verilmişdir.

Misal üçün, atasının ruhuna bir abbasılıq hörməti olmayan Hacı Qara qazanc əldə etmək üçün üç yüz qızıldan keçir. Qızıllarını mal alana qədər özündə saxlaması, nökəri Kərəməli ilə oğlu Bədəli və bir də artıq yük gətirmək üçün əlavə bir atı da özüylə aparması, finalda naçalnikdən murovun yasavullarının ondan götürdükləri yarım abbasının qaytarmasını istəməsi onun acgözlüyünü bir daha sübut edir. Nökəri Kərəməli naçalnikin hüzuruna gətiriləndə Hacı "vay" deyib özündən gedir. Çünki o, malları Kərəməliyə vermişdi, əgər nökər tutulmuşdusa, deməli, mallar da əldən çıxmışdı.

"Sərgüzəşti - mərdi - xəsis" əsərində dramaturqun xəsislik mövzusu ilə yanaşı, həmçinin dövrün tipik ruhanilərinə, bəylərinə, çar sisteminə, ermənilərə münasibəti də əks olunub. Axundovun ermənilərə münasibəti obyektivdir. O, ermənilərin pisini də göstərir, yaxşısını da. Əsərdəki Ohan yüzbaşı, Karapet, Sərkis kimi ermənilərə ironya olsa da, əkinçilər - Arakel və Mkrtiça qarşı ironya yox, gülüş var. Rus obrazlarını yaradarkən isə Axundov, şübhəsiz ki, əsərinin maşaya qoyulması üçün, senzuradan keçmək üçün müəyyən güzəştlərə getmişdir. Pyesin siyasi

qatı bugünümüz üçün də aktualdır. Əsərdə azərbaycanlılar və ermənilər arasında rusların hakimlik rolu göstərilir. İndiki dövrümüzdə də ruslar Qarabağ münaqişəsində iki dövlət arasında "barışdırıcı" mövqedən çıxış edir. Axundovun dram yaradıcılığında ilk çar məmuru obrazına (Divanbəyi) "Hekayəti-xırs quldurbasan" pyesində rast gəlirik. Bu əsərin sonunda da çar məmurunun işə qarışması ilə bütün problemlər həll olunur. Bununla yanaşı Axundov hər iki əsərdə gizli şəkildə çar sisteminin ədalətsizliyini, süründürməçiliyini, qanunsuzluğunu göstərir. "Hacı Qara"da rus çarizminin "get-gəl" prinsipini, bürokratizmini Hacı Qaranın dili ilə tənqid edir: "Onların qılıncı-tüfəngi məni o qədər qorxutmur ki, silisti (məhkəmə), apar-gətiri canıma vəlvələ salır". Vэ yaxud başqa bir epizodda ermənlərdən biri deyir: "Kim bilsin indi silistdən havaxt qurtaracağıq! Urusun silisti beş il qurtarmaz". Finalda Hacı Qaranı tutanda yasavulun onun cibindən pulunu götürməsini yazmaqla Axundov məmurların rüşvətxorluğuna, soyğunçuluğuna eyham vururdu. 1873-cü ildə Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun rəhbərliyi ilə bir qrup tələbələr ilk öncə martın 10-da Axundovun "Sərgüzəşti-vəziri-xani-Sərab", daha sonra 17 apreldə "Hacı Qara" əsərini səhnələşdirirlər. Milli dramaturgiyamızın və milli teatrımızın yaranmasında bu əsərlərin əvəzsiz rolu vardır.

Dövrünün ilk maarifçisi, realist dramaturqu olan M.F.Axundzadə komediyalarında xalqın avamlıqdan doğan mənfi cəhətləri, fanatizmin, despotizmin əsas səbəblərini açıq göstərirdi. Mirzə Fətəli Axundovun yaradıcılığı bütövlükdə XIX əsr Azərbaycan ədəbiyyatında böyük

hadisə olaraq ölkədə yeni ədəbi mühitin formalaşmasına müsbət təsir göstərdi.

## ƏDƏBİYYAT

1. Axundzadə M. F. Əsərləri. 3 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2005, 296s.
2. Ibrahimov M. Niyəsiz, necəsiz, bir yazısan sən kitabında. Bakı: Yazıçı, 1985, 195 s.
3. Qasımov M. M.F.Axundov və XIX əsrin inqilabi-demokratik estetikası.Bakı: 1954, 150 s.
4. Qasımzadə F. M.F.Axundovun hayat və yaradıcılıği. Bakı: 1962, 150 s.
5. Sadiqov M. Axundov Mirza Fətəli. Bakı: 1987, 200 s.
1-"İnsan və zaman" mövzusunda Respublika Elmi Konfransının materialları, 26-27 noyabr 2015.Bakı-ADPU

***Saniyə CƏFƏROVA***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*magistr*

## DÜNYA KİTABXANALARINDA SAXLANILAN AZƏRBAYCAN ƏLYAZMALARI HAQQINDA

İlk əlyazmaların daş üzərində yazıldığı güman olunur. Çünki daş başqa materiallara nisbətən daha davamli və uzunömürlü olması ilə seçilir. Zaman keçdikcə insanların yazıya tələbatı artmağa başladı va babalarımız daha süratli yazı texnikası üçün başqa materiallardan - gil lövhaciklarindan, aşılanmış dəridan, papirusdan isti-

fadə etdilər. Nəhayət, yazı texnikasının son uğuru olan kağızı seçdilər. Kitab mədəniyyətinin zəngin və maraqlı tarixi vardır. Tarix həm kitabxanaları yerlə-yeksan edən, həm də onlara yüksək qiymət verib, kitab xəzinələrini qoruyub saxlayan, kitabları yaradan ziyalılara, elm və mədəniyyət xadimlərinə hörmətlə yanaşan bir çox dövlət xadimlərinin adlarını özündə yaşatmaqdadır. "Bir sıra tarixi mənbələrdə bütün Şərqdə istilaçı kimi tanınan, onminlərlə insanları, yüzlərlə şəhərləri, qalaları məhv edən Teymurləng vəsiyyət etmişdi ki, onu öz mənəvi ustadi-müəllimi Mirseyid Bərəkənin ayaqları altında dəfn etsinlər. Onun vəsiyyətinə əməl olunmuşdu". Ancaq çarların və şahların heç da hamısı həmişə alimlərə və mədəniyyət xadimlərinə, onların yaratdıqları kitab incilərinə qarşı bu cür münasibət bəsləməmişlər. Tarix İsgəndəriyyə kitabxanasının vəhşicəsinə yandırılmasını, nəhəng Ağqoyunlu-Səfəvi kitabxanasının Peterburqa daşınmasını və onlarla, yüzlərlə bu cür hadisələri unutmamışdır.

Şərq əlyazma kitablarının toplanıb-daşınması işinə məhz avropalılardan ölkələrindən İtalya maraq göstərməya başlamışdır. "L.Doyel qeyd edir ki, XIV əsrdə avropalılar əlyazma kitablarının toplanması naminə nəinki öz var-dövlətlərindən keçir, həm də baş çəkdikləri ölkələrin qanunlarını pozmaqdan belə çəkinmirdilər" (1, s.58). Intibah dövrü kitabsevər humanistlərinin şüarı belə idi: "əgər qanunu pozmaq lazımdırsa, onda qoy qanun kitabların xilas edilməsi naminə pozulsun". "Siciliyalı əlyazma axtaran Covanni Aurispa Konstantinopolda özünün bütün paltarlarını yunanlara verib, əvəzində bir neçə əlyazma almışdı. Florensiyalı Nikkolo de Nikkoli özünün ma-

likanələrini satıb, əlyazma kolleksiyasını zənginləşdirmək üçün vəsait toplamışdi. Poko Broççalini Alp dağlarındakı monastırın xarabalıqlarında qalmış köhnə kitabxananı ələ keçirmək üçün təbii qüvvələrə qarşı çıxaraq,qarlı aşırımları keçib dağlara dırmaşmışdı.
Orta əsrlərdə nəfis əlyazmalar istehsal etmək üçün kitabxanalara, xüsusilə saray kitabxanalarına istedadlı xəttatlar,miniatürçü rəssamlar cəlb olunurdu.Həmin dövrdə kitabxanaya hər cür əlyazma, şairlarin avtoqrafları toplanırdı.Şəxsi kitabxanaların əksəriyyəti şah və şahzadələr üçün yazıldığından əlyazmaların çoxu saf qızıl suyu ilə müəyyənləşdirilirdi.

Azərbaycanda kağız istehsalının inkişafı VII-VIII əsrlərdə əlyazma nəşrlərinin geniş yayılmasına səbəb oldu. "Kitabi-Dadə Qorqud"un əlyazmaları artıq həmin vaxtlardan yazılı şəkildə tanınmağa başladı, onun bir sonrakı əlyazmaları (XV əsr) bu günə qədər də Drezden və Vatikan kitabxanalarında saxlanılır.

Azərbaycanda həm orta əsrlərdən başlayaraq zəngin şəxsi kitabxanalar, kolleksiyalar olmuş və bunların təqdiqi ədəbiyyat və mədəniyyət tariximiz üçün əhəmiyyətlidir. Xaqani, Nizami və başqa Azərbaycan müəlliflərinin əsərlərində öz dövrünün kitabları və kitabxanaları haqqında müəyyən məlumat verilmişdir. Xaqani Şirvaninin "Fəxriyyəsi"ndən aydınlaşır ki, şairin əmisi Kafiyəddin Ömər ibn Osmanın tarix, nücum, təbiat, din, fəlsəfə, riyaziyyat və b. elmlərə aid kitablarla zəngin xəzinəsi olmuşdur. O, əmisi "Kafiyyəddin Ömər ibn Osmanın tərifi" adlı mədhiyyəsində alimin zəngin kitabxanası və onunla tanışlığını belə ifadə edir:

Gördü ki, bələdəm hər nişanəyə,
Apardı bir böyük kitabxanəyə.
Gördükdə olmuşam doğrudan heyran,
Oxutdu əvvəlcə "Xələqəl-insan".
Bunlarla bərabər qoydu bir sabah
Qarşıma gözəl bir kitabi-islah.
Əmr etdi oxuyum mən onu təkrar,
Ta gözüm önündə açılsın əsrar.

Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində isə İsgəndərin Daranın qızı Rövşənəyi Ruma göndərməsi hissəsində kitablar haqqında maraqlı misralara təsadüf olunur. Həmin hissədə şair deyir:

İsgəndər ağlıyla tökdü bir tədbir,
Əmr etdi: tez gəlsin, atlansın vəzir!
Orda kitabxana varsa nə qədər,
İşarə elədi, tez gətirsinlər.
Har çeşid elmdən dəyərli sözlər,
Hər incə hikmətdən açdı bir dəftər.
Yunana göndərdi tərcüman ilə,
Çevirsin bir dildən başqa bir dilə.

Azərbaycanın "Darül-hikmə" adlanan Ərdəbil kitabxanası dünyanın əlyazmaları xəzinələ dərəcədə zəngin olmuşdur. Həmin əlyazmaların çoxu ərəbcə, az hissəsi isə fars və türk dillər kitabxanasında Nizaminin "Xamsa"sinin 45 miniatürlü nüsxasi, 1481-ci ildə Darviş Məhəmməd Tağı torofindon köçürülmuşdür. Herat istehsalı olan bu əlyazma badii tartibat baxımından çox zəngindir. Miniattırlərdən ikisi "Məxzanüll-əsrar", on dördü "Xosrov və Şirin"də, doqquzu "Leyli və Məcnun"da, on ikisi "Haft-peykər"da, yeddisi isə "İsgöndərnamə"də verilmiş-

dir" ( 3, s.6). Nizaminin ərdəbil əlyazmaları kolleksiyasından gətirilmiş əlyamalardan biri də 1507-ci ildə köçürülmüş, nafis, qovluqlu va ornamentli meşin cildə tutulmuş "Xamsa" nüsxasidir. Bu asar Dərdün hazırladığı kataloqda yalnız "Xosrov ve Şirin" əsəri kimi göstərilmişdir. Diqqətlə araşdırıldıqda məlum olur ki, əlyazmaya "Xəmsə" poemalarının beşi də daxildir.

Səfəvilər dövründə saray kitabdarlarının savadlı şəxs-şair, alim və həm də xəttat, rəssam olmaları kitabxananın məzmun və forma cəhətdən tərtibinə müsbət təsir etmişdir. Səfəvilər sarayının kitabdarı Sadıq bəy Sadiqi Əfşar şair, təzkirə müləllifi, həm də xəttat olduğu məlumdur. Sadiqinin bir şair kimi formalaşmasında kitabdarlıq etdiyi mərkəz əhəmiyyətli rol oynadığı kimi, Sadiqinin də öz növbəsində kitabxana tərkibinin zenginləşməsində xidmətləri çox olmuşdur. Səfəvilərdən təzkirə müəllifi və şair Sam Mirzənin ixtiyarında da nətis əlyazmalar kolleksiyası olduğu aydındır. Onun bir lirik şeirlər divanı olmuşdur.

Azərbaycana aid olan əlyazmalar dünyanın bir sıra məşhur kitabxanalarında saxlanılır. X.Təbrizinin, Həbibullah Gəncəvinin, Marağayinin, Naxçivaninin, Xaqaninin, Beyləqaninin, M.Gancavi, Nizaminin va digərlərinin müəlliflik hüququnun qorunması ilə müşayiət edilən əlyazmaları bizim günlərə qədər gəlib çatmışdır. Dünyanın ən zəngin kitabxanalarında, o cümlədən Parisin Milli kitabxanasında "Təbərinin "Qurani-Kərimin şərhi" (1220-1225 illər), Londonda Nizaminin "Sirlər Xəzinəsi"nin (1239 il) elyazmaları bu günə qədər qorunub saxlanmışdır. Ümumiyyətlə, Füzuli əsərlərinin 800 əlyazma nüsxə-

si, Nizami "Xəmsə"sinin isə 792 əlyazma nüsxəsi dünyanın ən məşhur muzey və kitabxanalarında yaraşığı ilə qiymətləndirilir.

Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı qiymətli mənbələr mühafizə olunur. aparılan araşdırmalar zamanı Vatikan Məxfi Arxivlərində 700-dən çox sənəd araşdırılmış, nəticədə, Azərbaycan tarixinə aid 85 sənəd aşkar olunmuşdur. Onların arasında Qafqaz Albaniyasına aid 4 sənəd də vardır. "Bu sənədlər italyan, yunan, fransız, ərab, fars, türk, monqol, erməni və s. dillərdədir. Tədqiqatlar nəticəsində aşkar olunmuş əsərlər X-XX əsrlərə, yəni Azərbaycan tarixinin minillik dövrünü əhatə edir. Aşkar olunmuş sənədlərin arasında hökmdarlarının Roma papaları ilə məxfi yazışmaları Vatikan arxivlarində Azarbaycan tarixi ila bağlı qiymətl zamanı Vatikan Maxfi Arxivlarinda 700-dan çox sanad araşdırılmış, nəticədə, Azərbaycan tar aşkar olunmuşdur. Onların arasında Qafqaz Albaniyasına aid 4 sənəd da vardır. "Bu sanədlər italyan, yunan, fransız, ash, fars, türk, monqol, erməni və s. dillərdədir. Tədqiqatlar naticəsində aşkar olunmuş əsərlər X-XX asrlərə, yəni Azerbaycan tarixinin minillik dövrünü ahata edir. Aşkar olunmuş sənədlarin arasında orta asr Azərbaycan hökmdarlarının Roma papaları ilə məxfi yazışmalarını əks etdirən məktublar vardır.

Başqa sanədlar Vatikan kilsəsinin Azərbaycanda apardığı dini fəaliyyat və tabliğatla bağlıdır" (2, s.4). Vankan Apostol Kitabxanasında da Azərbaycana aid əlyazmaların tapılması sahəsində araşdırmalar aparılmışdır. Orada 400-dən çox qədim əlyazma əsari tədqiqata cəlb olunmuşdur. Bunun nəticəsində, həmin kitabxanada orta

əsr Azarbaycan müəlliflərinə məxsus 80 qədim əlyazma əsəri aşkar edilmişdir. Bunlar Azərbaycan (türk), fars, arab dillərində yazılmış orta asr olyazma kitablarıdir. Onların arasında həm məşhur Azərbaycan müəllifləri - Nizami, Füzuli, Nəsimi, Şəbüstəri, Sührəvərdi və b. əsərləri, həm də indiyə qədər bizə məlum olmayan orta əsr Azərbaycan müəlliflarinin 9 asari vardır.

Orta asr şairlərindən olan Məhəmməd Füzulinin 10 əlyazması Vatikanın Apostol kitabxanasından aşkar olunmuşdur. Onların arasında həm tam olyazmalar, həm də fraqmentlər vardır. O cümladan, Füzulinin "Hədiqətils sŭada" asarinin beş nüsxasi, "Səhhət və Mərəz" əsəri, poetik "Divan" və çoxsaylı rübai və qəzəlləri saxlanır. Nizami Gancəvinin bədii irsi də Vatikanda geniş təmsil olunub. Nizami Gəncəvinin "Xosrov va Şirin" asarinin 3 nüsxəsi, "Leyli və Məcnun" əsərinin isə bir nüsxəsi, "Məxzonül- əsrar"əsərinin miniatürlü fraqmenti aşkar olunmuşdur. Qiymətli nüsxələrdən biri Nizami Gəncəvinin tam "Xəamsə"sidir. Imadəddin Nəsimiyə məxsus müxtəlif şeirlər 10 əlyazma əsərində, o cümlədən, şeir məcmuələrində aşkar olunmuşdur. Şah Ismayıl Xətainin asarlari da Apostol Kitabxanasında mühafizə olunmaqdadır. Maraqlıdır ki, Xətai orada məhz Azərbaycan şairi kimi tanıdılır. Kitabxanada Xətainin kiçik 33 şeir toplusu və tərkibində 166 qəzəl olan şeir məcmuəsi saxlanılır. Həmin kitabxanada Şah İsmayılın oğlu Sam Mirzənin (1517-1567) "Töhfeyi-Sami" osori də mühafizə olunur. Farsca yazılmış bu əsar "Tazkireyi-Sami" kimi də məşhurdur. Bu I Şah Ismayılın oğlu Sam Mirzonin Səfəvi dövrünün ilk çağlarında yaşayıb-yaratmış şairlər haqqında bir təzkirə, yəni bioq-

rafik məlumat kitabıdır. Əlyazma hicrətin 997-ci ilində köçürülmüşdür.

Vatikanda Nasirəddin Tusinin "Oxlagi-Nasiri" adlı etika haqqında əsəri, hesab və astronomiam Mirzanin (1517-1567) "Töhfeyi-Sami" əsəri də mühafizə olunur. Farsca yazılmış bu əsər "Təzkireyi-Sami" kimi də məşhurdur. Bu I Şah Ismayılın oğlu Sam Mirzənin Səfəvi dövrünün ilk sağlarında yaşayıb-yaratmış şairlər haqqında bir təzkirə, yəni bioqrafik məlumat kitabıdır. Əlyazma hicrətin 997-ci ilində köçürülmüşdür.

Vatikanda Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" adlı etika haqqında əsəri, hesab və astronomiyaya həsr olunmuş "Müxtəsər" risaləsi, günəş təqvimi haqqında "Təqvim" kitabı və məşhur "Zici-Elxani" əsəri saxlanır. Övhədi Marağayinin "Dəhnamə" və "Məntiqül-üşşaq" adlı məsnəvisi və hikmət və ədəb haqqında "Töhfətül-müluk" əsəri mühafizə olunmaqdadır. Kitabxanada sufi filosofu və şair Mahmud Şəbüstərinin (1287-1320) meşhur "Gülşani-raz" poemasının türk dilinə tərcüməsi saxlanılır.

Apostol kitabxanasında görkəmli Azərbaycan filosofu Şihabəddin Sührəvərdinin (1154-1191) kəlamlarından ibarət "Kitabül-hat əlləti sinifha aş-Şeyx əl-imam Sihabəddin əs-Sührəvərdi" əsəri saxlanılır. Əlyazma 101 vərəqdən ibarətdir və XVIII əsrdə köçürülmüşdür. Ondan başqa orada Sührəvərdinin "Zikr həvvasül-işarə ilə həvvasül-ism əl Əzam" və "Şərhül-ərbəin ism" əsərləri də qorunur. Başqa məşhur filosof Əbu Həfs Ömər Sührəvərdinin 34 (1144 1234) "Əvariful-Məarif və onun əmisi, sührəvərdiyyə sufi təriqətinin banisi Əbu Nəcib Sührəvərdinin (1097-1168) "Ən nəhcül-məsluk fi siyasətül-müluk"

asərinin türk dilinə tərcüməsi də Apostol kitabxanasında qorunmaqdadır. Tadqiqatlar zamanı Apostol kitabxanasında çoxsaylı şirvan müəlliflərinin əsörləri aşkar olunmuşdur. Onların sırasında Əhməd bin Məhəmməd bin Əli Şirvaninin Nəthatül-Yəmən fi ma yazül bi-zikrihi as-Səcən əsərinin adını çəkmək olar. Başqa məşhur Şirvanlı müəllifin, XV əsrdə sultan Muradın sarayında həkimbaşı vəzifəsində çalışmış Məhəmməd ibn Mahmud Şirvaninin (1375-1450) əczacılıq üzrə "Rovzatül-itr li-an yortadül-əttar" əsərinin surəti də Vatikandan Bakıya gətirilmişdir. Kitab artıq Əlyazmalar Institutunda ərəb dilindən Azərbaycan dilinə tarcimə olunub. Nisbətən müasir şirvan müəlliflərindən XIX asrin sonu - XX əsrin əvvəllərində yaşamış Əbdüll Macid sirvaninin adını çəkmək olar. Vatikanda ona maxsus "Kitabi-Sehri" asarinin əlyazması saxlanılır. Muğamın atası sayılan XII əsr Azərbaycan musiqişünası Səfiaddin Əbdülmömin bin Faxir al-Ormavinin arab dilində yazılmış "Əl-musiqi" əsəri həmin kitabxanada qorunmaqdadır. 2010-2012 illərdəki tədqiqatların davamı olaraq, 2013-2014 illarda Vatikan Apostol Kitabxanasında araşdırmalar davam etdirilmişdir. Bu arafada anadilli (türkdilli) asarlarin tadqiqinə xüsusi fikir verilmişdir. İlk dəfə olaraq 100-dan çox bu vaxta qədər qeydə alımmamış və tasvir olunmamış türkdilli, o cümlədən azərbaycandilli orta əsr əlyazması aşkar olunmuşdur, onların ilkin tadqiqatı va tasviri yerine yetirilmişdir. Aşkar olunmuş əlyazmaların arasında şeir va nəsr əsərləri, Azərbaycan tarixini işıqlandıran, Eldenizlar, Ağqoyunlu, Qaraqoyunlu, Safəvi va sair Azərbaycan dövlətlərinin tarixindan xaber veran əlyazmalar vardır. Süruri Əcəemi-

nin "Divan"ı da alda olunan mənbələrin arasındadır. Sururi XV asrin sonu va XVI asrin əvvəllərində yaşamış və ana dilimizdə yazıb-yaratmış Azərbaycan şairidir. Onun bu "Divan") indiyə qadar tadqiq va naşr olunmamışdır. Süruri Nəsimi ədəbi məktəbini davam etdiren istedadlı senetkardu. Onun hürufl gürüşlari mabing edən şeirləri çox məşhur olmuşdur. Sürurinin "Divan"inin surəti AMEA Əlyazmalar Institutuna tahvil verilmişdir. Bundan əlavə, Vatikandan bir sıra başqa maraqlıi əlyazmaların sürətləri də Bakıya gətirilmişdir. O cümladan, XV asr böyük Azərbaycan filosofu Seyid Yəhya Bakuvinin oğlu Şeyx Əli Səmərqəndinin hayatına basr olunmuş "Manaqibi-Şeyx Əli Səmərqəndi" asari diqqətəlayiqdir. Vatikandan gətirilmiş bu və başqa əlyazma nüsxalarinin surətləri hal-hazırda AMEA əlyazmalar İnstitutuna təhvil verilmişdir. Bundan əlava, Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitaj muzeyində dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sinin 1430-cü illərdə üzü köçürülmüş nadir nüsxəsi mühafizə olunur.

Ankara Milli Kitabxanasında da Azərbaycana aid əlyazma tapılmışdır. Ağqoyunlular və Safəvilər dövründə yaşamış (XV-XVIəsr) Azərbaycan şairi Ohməd Şövqi Təbrizinin lirik şeirləri toplusu divanı saxlanılır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar Institutunun araşdırmaları nəticəsində Azarbaycan şairi Əhməd Şövqi surətləri də Bakıya gətirilmişdir. O etimladan, XV asr böyük Azarbaycan filosofu Seyid Yahya Bakuvinin oğlu Şeyx Əli Samarqandinin hayatına hasr oluus "Manaqibi-Şeyx Əli Səmərqəndi" əsəri diqqətəlayiqdir. Vatikandan gətirilmiş bu və başqa əlyazma nüsxələrinin suratlari hal-

hazırda AMEA Olyazmalar Institutuna tahvil verilmişdir. Bundan əlavə, Rusiyanın Sankt-Peterburq şaharindəki Ermitaj muzeyində dahi Azərbaycan şairi Nizami Gancevinin "Xəmsə"sinin 1430-cü illərdə üzü köçürülmüş nadir nüsxəsi mühafizə olunur. Ankara Milli Kitabxanasında da Azərbaycana aid olyazma tapilmışdır. Ağqoyunlular və Səfəvilər dövründə yaşamış (XV-XVI asr) Azərbaycan şairi Əhməd şövqi Təbrizinin lirik şeirlari toplusu divanı saxlanılır. AMEA Mahammad Füzuli adına Əlyazmalar Institutunun araşdırmaları nəticəsində Azarbaycan şairi Əhməd Şövqi Tabrizinin divaninin nüsxəsinin surətini əldə etmişdir. 2013-cü ildə Paris Mili Kitabxanasında saxlanan Azarbaycan tarixinə dair 200-dən artıq materialların suratlari, elektron variantları əldə edilmişdir. Bunların içərisində XV asrdə Təbrizdə köçürülmüş "Kəlilə və Dimna" ciğatay dilində yazılmış, oğuz türklərinin tarixindən bahs edən "Oğuznamə", Əlişir Novainin əsərləri vardır. İstanbulun Marmərə Universiteti Fann-ədəbiyyat fakültəsi kitabxanasından oldə edilən XV asr Azarbaycan şairi Əhmadi Tabrizinin "Yusif və Züleyxa" poeması XV asrdə Ağqoyunlular sarayında anadilli ədəbiyyatın inkişafına verilən diqqatin sübutudur. XVI asr şairi Qəribinin Tehranın Meclis Kitabxanasından əldə edilmiş türkcə əsarlari macmuasinin surəti adəbiyyat və dil tariximizin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. XVII asr şairimiz Mürtəzaqulu xan Zəfərin Kembric Universiteti kitabxanasından əldə edilmiş əlyazma divanımın surəti də böyük maraq doğurur. Astane-Qüdse-Razavi kitabxanasından əldə edilmiş XVII asr şairi, Saib Tabrizi adabi maktabinin davamçısı, şikəstə-nəstəliq xət-

tinin yaradıcısı Mürtəzaqulu Sultan Şamlunun divanı da dəyərli asarlardandir. XIX əsr şairimiz Sabit Ərdəbilinin Tabriz Mərkəzi kitabxanasından surəti əldə edilmiş divanı Azərbaycan ikiyə bölündükdən sonra Canubda ədəbiyyatda gedən lokal proseslari öyrenmak baxımından maraqlıdır..

Ümumiyyətlə, Azərbaycanda AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun bu sahədəki uğurlanı danılmazdır. M.Fuzuli adına Əlyazmalar Institutunun səyləri nəticəsində bu sahədə bir sıra kitablar, monoqrafiyalar çıxarılmışdır. Bunların arasında taqdiqatçı T.Nuraliyevanın "Olyazma kolleksiyaları kataloqu", F.Ələkbərlinin "Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar" və digər kitabların adını çəkmak olar. Dünyanın bir sıra kitabxanaları ilə aparılan danışıqlar sayəsində Azərbaycana aid olan bir sıra əlyazmaların üzü köçürülərək ölkəmizə gətirilmişdir və bu sahədə uğurlu işlər görülmüşdür.

## ƏDƏBİYYAT

1. Alıyev Məmməd. Azərbaycan paleoqrafiyası. Bakı, "Elm", 2010, 224 s. 2. Ələkbərli Fərid. Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar. Bakı: "Elm və tahsil", 2014, 75 s. 3. Nurəliyeva Tahirə. Əlyazma kolleksiyaları kataloqu. Bakı, "Nurlan", 2006, 376 s.

1-"Azərbaycan əlyazmaları dönya kitabxanalarında" I Beynəlxalq elmi-nəzəri konfransın materialları.Bakı -2016

**Saniyə CƏFƏROVA**
Magistr, ADPU (ixtisas Azərbaycan ədəbiyyatı)
csaniye@mail.ru

## MULTİKULTURALİZM AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİDİR[1]

**Açar sözlər:** siyasət, mədəniyyət, inteqrasiya, adət-ənənə, multimədəniyyət
**Keywords:** multikulturalizm, politics, culture, integration, tradition

Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Bu gün dünya üçün multikultural dəyərlər nə qədər yeni olsa da, Azərbaycan bu dəyərlər sisteminə - yəni, eyni bir ölkədə yaşayan müxtəlif xalqların hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə min illərdir bəşəriyyətə nümunə göstərir. Azərbaycanın dünya ölkələrinə təqdim etdiyi multikultural model xalqların dostluq və mehriban şəraitdə birgə yaşamasını təmin edən modeldir.

Multikulturalizm milli, dini, irqi mədəni çeşidliyin və fərqliliyin qarşılıqlı hörmət və zəminində qəbul edilməsi, bir cəmiyyətin bütün üzvlərinin konstitusion mədəni hüquqlarının qorunması və adı çəkilən müxtəlifliyin xalqın ümumi rifahına sabit inkişafına xidmət etməsinə nail olan təbii və düşünülmüş həyat nəticəsi kimi başa düşülür. Məhz Prezident İlham Əliyevin Azərbaycanın timsalında multikulturalizmi xalqımızın hayat tərzi kimi

ifadə etməsi məsələnin dəqiq tərifini vermiş olur, həmçinin bu yaçam tərzinin və milli xasiyyətimizin bir parçası olmasını təsdiqləyir. Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək, bu siyasəti ardıcıl olaraq davam etdirəcəyini təkcə ölkə daxilində deyil, bir sıra mötəbər tribunalarda da əminliklə vurğulayıb. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumda dediyi kimi: "Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları,öz ənənələri ənənələri vardır" ( 5, s.14].

Müstəqil Azərbaycanda multikultural dəyərlərin formalaşmasında azərbaycançılıq ideologiyası əvəzsiz rol oynayır. 1993-cü ildə Azərbaycan dövlətini parçalanmadan qurtarmış ümummilli liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideyası dayanırdı.Həmin dövrdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası aynı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi.Belə zamanda xalq dinindən, etiqadından və etnik bölgüsündən asılı olmayaraq Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında birləşdi və ölkəni parçalamaqistəyən qüvvələr zərərsizləşdirildi. Ümummilli lider Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, indiki qloballaşma dövründə dinlərarası. Mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir.

Azərbaycan Respublikası polietnik dövlətdir. Xalqı, dövləti təşkil edən etnosdan -azərbaycanlılardan və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Təkcə Bakıda rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların İyirmidən yuxarı cəmiyyətləri və mədəniyyət mərkəzləri vardır. Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur.

Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni - Qırmızı Sloboda, Molokan kəndi Ivanovka, Udin kəndi Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və  başqa milli azlıqların yaşadığı onlarla belə məskənlər mövcuddur. Etnik azlıqlar da yerli əhali bərabər bütün hüquqlara malikdirlər. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir.

Müxtəlif mədəniyyətlərdə və multikultural cəmiyyətlərdə, müxtəlif dövrlərdə, müxtəlif dinlərə etiqad edən asan və mürəkkəb xarakterli müxtəlif insanlar yaşayırlar. Etiqad və sitayişlər də müxtəlifliyi ilə fərqlənir : əgər müsəlmanlar məscidlərdə namaz qılırsa, xristianlar xaç çəkərək dua edirlər, yəhudilər də sinaqoqda öz qədim dillərində şükürlər edirlər.Bu dünyada yaşayan, Allaha inam və iman aparanların sitayiş məbədi tək Yaradan Allahdırsa, digər müxtəliflikləri müqəddəs hesab etdikləri xüsusi günlərdir. Belə ki, müsəlman-cümə, xristian-bazar, yəhudilər şənbə gününü müqəddəs sayırlar. Bütün bu kimi tərzlər isə sosial mədəni müxtəlifliyi olan mühitin xüsusiyyətlərindən asılıdır.

İslam dünyagörüşü sistemi,etiqad və davranış tərzi, iman və inamkimi anlayışlar da mürəkkəb vasitələrin meydana çıxdığı, Şərq dünyasında hakimi hökmrana çevrilməsinin ixtirası tarixidir. Islam dünyagörüşü sistemi Şərqin vahid bir dini mənəviyyat tarixidir.Gözəgörünməz qüvvə-İlahi Yaradan (Allah) insanlığın Ən zəkalı Müqəddəs Simasına (Məhəmməd peyğəmbər ə.s.) vəhy halında Müsəlmanlığın Mənəviyyat Konstitusiyası-Müqəddəs Qurani Kərimin çatdırılması dünya mənəviyyat tarixində fenomen ixtiradır.

Azərbaycanda belə bir gerçəklik dərk edilir ki, düşünülmüş multikulturalizm siyasəti olmadan ölkə sabit inkişaf yoluna qədəm qoya bilməz. Azərbaycanın birgəyaşayış modelini formalaşdırması və dünyaya təqdim etməsi bunun əyani təzahürlərindəndir. "İslamın əsasını təşkil edən baxışlar və görüşlər sistemi, etiqad və inam iradəsi, eləcə də islamın tərəqqi, cəmiyyətdə kişi-qadın

münasibətləri və ya gender fərqi kimi sosial fəlsəfi anlayışlarını öyrənmədən, Dinin hər hansı bir şəxsə münasibətini düzgün qiymətləndirmək mümkün deyildir. Müxtəlif Məkan və Zaman ölçülərində də müxtəlif asan və mürəkkəb fikir, təmayül, məzhəb və cərəyanlar eləcə də, multikulturallıq mövqeyindən izah edilməlidir" [2, s.11].

Multikulturalizm, Din va Gender, mənəviyyat və mədəniyyət, bu məzmunda Şərq-Qərb mədəni müxtəlifləri yanaşması obyektində işlədilən anlayışlar siyasətin, fəlsəfənin, tarixin, mədəniyyətşünaslığın, dinşünaslığın, ümumiyyətlə sosial siyasi elmlərin işlək terminləridir. "Qloballaşma "aynasında" Şərq-Qərb mədəni müxtəlifliyinə "asan" və "mürəkkəblik" prizmasından yanaşanda Multikulturalizm Din və Gender dəyərlərinin açılması və onun ictimai-siyasi fikirdə aydınlaşması XXI əsr humanitar elmi üçün olduqca əhəmiyyətlidir" [2, s.14].

Ölkəda birgəyaşayışın təmin olunmasında siyasi hakimiyyətlə yanaşı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanin fəaliyyəti diqqətlə öyrənilmişdir. Çünki etnik qrupların milli mənsubiyyətlərinin qoruyub saxlanmasında, onlar üçün yeni məktəblərin istifadəyə verilməsində, mədəni, dini abidələrin bərpasında və qorunub saxlanmasında Heydər Əliyev Fondunun, xüsusilə, Mehriban xanım Əliyevanın xidmətləri vardır. Burada fikrimizi ölkənin Birinci Xanımı Mehriban Əliyevanın sözləri ilə əsaslandıraq: "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın".

Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və təbliğ olunmasında kitabxanaların da özünəməxsus rolu vardır. "Kitabxanalar həmişə milliyyətinə, dininə, dilinə fərq qoymadan çoxsaylı oxucu ordusuna xidmət göstərir, müxtəlif xalqların etiqadını, mədəniyyətini, düşüncə tərzini, məişət və əxlaqını dünya ədəbiyyatının ən gözəl nümunələri vasitəsilə təbliğ edirlər"[4, s.12].

Multikulturalizmin xarakterik xüsusiyyətlərindən biri də tolerantlıqdır. Elə bu səbəbdən də 1995-ci ildə UNESCO-nun qərarı ilə 16 noyabr dünyada Tolerantlıq Günü elan edilmişdir. Hər il bu gün müxtəlif mədəniyyət və dinlərin planetimizdə birgə yaşamasının mümkünlüyü günü kimi qeyd olunur.Tolerantlığın önəmi,tolerant ideyaların aktuallığı və ölkəmizdə multikulturalizmin ənənələri müxtəlif üsul və vasitələrlə oxuculara çatdırılmalı, humanizm və dostluq, sülhsevərlik hissləri aşılanmalıdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

"Azərbaycan sivilizasiyalararası yaxınlaşmasına kömək edən bütün beynəlxalq təşəbbüsləri dəstəkləyir. Ölkəmiz bu istiqamətdə BMT, Sivilizasiyalar Alyansı, YUNESCO, ISESCO, ATƏT,Avropa Şurasi, MDB, digər xüsusi beynəlxalq struktur forumlar çərçivəsində beynəlxalq dialoga öz layiqli töhfəsini verib və verməkdədir" [1, s.299]. Azərbaycan Respublikası dinlərarası və sivilizasiyalararası dialoqun genişləndirilməsinin fəal dəstəkləyicisi olaraq, Sivilizasiyalararası Alyansa qoşulanilk dövlət-

lərdəndir.Bu isə dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Bir ölkədə yaşanan müsbət dəyərlərin dünyaya yayılması istiqamətində həmin dövlətdə təşkil olunan idman yarışlarının da böyük əhamiyyəti var.İdman yarışları əslində, elə tolerantlığı,sülhü təbliğ edir. Azərbaycan ilk Avropa oyunların təşkil etmaklə həm də özünün tolerantlıq, dözümlülük dəyərlərini dünyaya bəyan etdi.Bu baxımdan "Formula-1" avtoyarışları üzrə Avropa Qran-prisi, Şahmat Olimpiadası və 2017-ci ildə keçiriləcək IV İslam Həmrəylik Oyunları böyük əhəmiyyət kəsb edir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, forumlar, konfranslar, "Eurovision" mahnı yarışması, idman tədbirləri bir daha sübut edir ki, dünyanın aparıcı beyin, düşüncə mərkəzləri ölkəmizdəki bu maraqlı modeli qəbul edərək, dünyayanümunə olaraq göstərirlər.

BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun da artırılmasında,Azərbaycan xalqının tarixi mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyəti böyükdür. Beləliklə, Azərbaycan növbəti dəfə nüfuzlu beynəlxalq tədbiri yüksək səviyyədə keçirmək iqtidarında olduğunu nümayiş etdirmiş oldu. Bakıda 147 ölkədən gəlmiş təmsilçilər aydın gördülər ki, Azərbaycan sülh, barış,əməkdaşlıq üçün ciddi addımlar atan gözəl ölkədədirlər. Onlar artıq ermənilərin əsassız təbligatlarına deyil, gözləri ilə gördüklərinə inanmalıdırlar. Bilməlidirlər ki, real olaraq regionda sülhün, demokratiyanın və sivil birgəyaşayışın məkanı ilk növbədə Azərbaycandır. Ölkəmizin başçısı İlham Əliyev və Birinci

xanım Mehriban Əliyeva da öz çıxışlarında bunu təsdiq etdilər.Tədbir iştirakçıları Azərbaycanı qədimdən müxtəlif dinlərin və mədəniyyətlərin bircə mövcud olduğu məkan kimi əyani tanıdılar. Prezident İlham Əliyev Forumda söylədiyi dərin məzmunlu nitqində vurğulamışdır: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir arada gəldiyi məkan olmuşdur. Biz Şərq və Qərb rasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azarbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar.

Azərbaycanda "Multikulturalizm ili"nin elan olunması və bu çərçivədə həyata keçirilən tədbirlər dünyaya bir mesaj, Azərbaycanın bu regionda rolunu müəyyən edan bir faktordur.Yəni biz körpü kimi Şərqi də, Qərbi də özümüzdə özümüzdə birləşdirmək iqtidarındayıq.

## ƏDƏBİYYAT

1.Əhədova S.A. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: "Elm", 2014, 348 s.

2. Mirzəzadə R. "Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda". Bakı, "Təknur" 2013, 168 s.

3. Mirzəzadə R. Multikulturalizm siyasəti vəşərq-qərb müxtəlifliyi: Gender, din və mənəviyyat /Bakı-"Təknur"-4. 2013, 160 s.

4. Multikulturalzim Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası-Bakı, 2016-59 s.

5. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.

[1]-"Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri".Beynəlxalq konfransın material toplusu.Bakı, 8-9 sentyabr 2016-cı il

# ƏDƏBİYYAT SİYAHISI:


"El şairləri", I-II hissə, 1927-1935.
"Aşıqlar" – Hümmət Əlizadə, II cild. Bakı 1937
"Aşıqlar", ərəb əlifbası, 1930
"Albaniya və Atripaten", 1956 - Cahangir Mamedov
"El şairlərinin açılmamış dəftərləri - Abdal Miskin", "Ədəbiyyat və incəsənət" qəzeti, 18 avqust 1973
"Ustad aşıqlar", Bakı "Gənclik", 1983
"Keşişoğlu" dastanı
"Azərbaycan aşıqları və el şairləri", I-II hissə, Bakı "Elm", 1984
"Aşıq Alı", Bakı "Gənclik", 1982 – Hüseyn Arif
"Ağrı dağı qədər ağrılarım var" - Eldar İsmayıl, Bakı "Ağrı dağ", 1999
"Xəbər çata Ağrı dağa", Bakı "Gənclik", 1995 – Elbrus Mahmudoğlu
"Xatirələrim", Bakı "Mütərcim", 2003, Məşhədi Zeynalabdin Mahmudoğlu
"Ədəbiyyat və incəsənət" qəzeti, Ağ Aşıq (şair Allahverdi), 19 sentyabr 1980 – Zeynalabdin Cəfərov
"Ədəbiyyat və incəsənət" qəzeti, Ağ Aşıq – 7 may 1982, Zeynalabdin Cəfərov
"Göylərdə keçən ömür", Bakı - Maarif, 2008, Safalan Cəfərov
"Azərbaycan gəncləri" q. 22.12.1981; 16.07.1983
"Kommunist" q., 20.03.1984
"Sovet Ermənistanı" q., 9.04.1977; 17.11.1981
"Azərbaycan" jurnalı № 11, 1981
"Aşıq Alı şeirləri", Bakı "Qızılşərq", 1974
"Aşıq Ələsgər şeirləri", Bakı "Yazıçı", 1988
"Bayatılar", Bakı "Yazıçı, 1985
"Göyçə mahalının kameral təsviri", Bakı "Elm və təhsil", 2017
"Azərbaycan məhəbbət dastanları", Bakı "Elm və təhsil", 1979
"Mənim Göyçəm", Bakı "Yazıçı", 1986 – Xəstə Bayraməli
"Allahsız dünya", Bakı "Gənclik, 1992 – Bəhman Vətənoğlu
"Aşıq Şəmşir şeirləri", Bakı 1959

"Ədəbiyyat və incəsənət"q. – Ağ Aşıq. Hüseyn Hüseynzadə. 28.06.1969.
"Ədəbiyyat və incəsənət" qəzeti, "Elimizin söz sərvəti"- "Miskin"lərin ən məğruru, 30 noyabr 1974, səh. 16 – Məmməd Aslan, Sədnik Paşayev*
"Elm və həyat" jurnalı, 1968, № 8, səh. 18-20 – H. Hüseynzadə
"Ədəbiyyat və incəsənət" qəzeti, "Bir ömür, dörd dövr", - M.H.Təhmasib, 9 iyun 1972, səh. 4
"Sovet Ermənistanı" qəzeti, "Sazın və sözün qüdrətli sərrafı" – Hüseyn İsmayılov, 17 noyabr 1981
"Azərbaycan" jurnalı, səh. 16-19, "Həmişəyaşar sənətkar" – Həmid Araslı
"Azərbaycan xalq dastanları", M.H.Təhmasib, Bakı 1972,
"Azərbaycan gəncləri" qəzeti, 16 iyul 1983
"Ustad aşıq", "Böyük vətəndaş", Bakı 1976, Vəkil Nəbiyev
"Kommunizm yolu" qəzeti, "Aşığın oylaqları" – Göyçə təəssüratı, 24 may 1963; Ənvər Hacıyev, Şamil Əsgərov, Aslan Məmmədov
"Ədəbiyyat və incəsənət" qəzeti, 14 yanvar 1978, "Könlüm dağlarda qaldı" – Möhbədim Səməd
"Ədəbiyyat və incəsənət" qəzeti, 7 may 1982, "Axtaran tapar" – Hüseyn Arif
"Azərbaycan gəncləri" qəzeti, 16 iyul 1983, "Ağ Aşığın sorağı ilə" – Hüseyn Arif
"Sovet Ermənistanı", 14 noyabr 1981, "Alı və Bəsti" – Qurban Əzizov ("Sovet Ermənistanı"nın xüsusi müxbiri)
"Kommunist", 5 sentyabr 1981
"Qatar-qatar söz" – Hüseyn Arif
"Sovet Ermənistanı" qəzeti, 9 aprel 1977, "Şeiriyyat dolu tarixi keçmişdən bir səhifə" – Knyaz Mirzəyev
"Həmişə cavan, nikbin sənət", Azərbaycan aşıqlarının IV qurultayı, "Kommunist" qəzeti, 20 mart 1984
"Ədəbiyyat və incəsənət" qəzeti, 16 mart 1984, "Aşıqlarımız" – Hüseyn Arif
"El sənətimizin təntənəsi" – Hüseyn Arif; Bakı, 19 mart 1984
"Ədəbiyyat və incəsənət" qəzeti, 4 sentyabr 1976, "Sazlı-sözlü dünyam" – Hüseyn Hüseynzadə

"Aşıq Alının anadan olmasının 180 illiyi qarşısında", "Yenilik" qəzeti, 10 oktyabr 1981
"Kommunist" qəzeti, 29 fevral 1983, "El sərvəti" – Hüseyn Arif
"Azərbaycan" jurnalı, № 10, 1985, "Xalqın və torpağın yaddaşı" – Bəxtiyar Vahabzadə
"Azərbaycan" jurnalı, № 10, 1985, "Göyçə gölünün qönçələri" – Səyavuş Sərxanlı
"XIX əsr erməni nəsrində Azərbaycan folkloru motivləri", Bakı "Elm", 1985 – Yusif Ramazanov
"Folklordan çöl materialları toplusu üzrə (bayatılar, metodik iş)", Bakı 1982 – M.Həkimov
"Azərbaycan klassik aşıq yaradıcılığı", Bakı APİ, 1982 – M.Həkimov
"Aşıqlar", II çap, Bakı 1960, S.Axundov
"Azərbaycan məhəbbət dastanları", Bakı "Elm", 1979 – M.Təhmasib
"Azərbaycan şifahi xalq ədəbiyyatı", Bakı "Maarif", 1981 – P.Əfəndiyev
"Azərbaycan aşıq sənəti", Bakı "Yazıçı", 1984 – Qara Namazov
"Tənqid və ədəbi proses", Bakı 1976 – Bəkir Nəbiyev
"Azərbaycan xalq dastanları", Bakı "Yazıçı", 1983 – Ə.Axundov
"Cinaslar", Bakı "Yazıçı", 1985 – Məmməd Aslan
"Nəriman Nərimanov - Məqalələr, nitqlər", Bakı 1971 – C.Quliyev
"Məqalə, məruzə, nitq, təbrik və oçerklər", Bakı "Elm", 1972 – Səməd Vurğunun əsərləri, 6
"Azəri-erməni ədəbi əlaqələri", Hayastan, Yerevan, 1968 – Əkbər Yerevanlı
"IX sinif ədəbiyyat", Bakı "Maarif", 1974 – F.Qasımzadə
"Nizami Gəncəvi – İsgəndərnamə", Bakı "Yazıçı", 1982
Hüseyn Arif "Dilqəm", Bakı "Yazıçı", 1984
Vaqif Vəliyev, Azərbaycan folkloru, Bakı "Maarif", 1985, səh.212, 217, 218
"Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", Ruhulla Axundov adına mətbəə, Bakı 1969
Hüseyn Arif "Ayrı düşəli", Bakı "Gənclik" 1983
"Aşıq Ələsgər, 1-2-ci kitab", Bakı "Elm", 1972
"Aşıq Ələsgər", Bakı "Yazıçı", 1988
"Erməni aşıqlarının azərbaycanca şeirləri", Hayastan, Yerevan 1975 – S.Paşayev

"Aşıq Alı", Bakı "Yazıçı", 1982
"Aşıq Alı", Bakı "Yazıçı, 1984
"Aşıq Alı – şeirlər", Bakı "Yazıçı", 1984
"Azərbaycan məhəbbət dastanları", Bakı 1980 – Ə.Axundov
"Azəri aşıqları və el şairləri" II cild, Bakı 1983 – Ə.Axundov
"Aşıq yaradıcılığı", Bakı 1960 – Həmid Araslı
Bülbül M. "Seçilmiş məqalə və məruzələr", Bakı 1968
S.Vurğunun əsərləri - II və III cildlər, Bakı 1972
M.Qorki "Şura ədəbiyyatının vəzifələri", Bakı 1935
M.Qorki "Ədəbiyyat haqqında", Bakı 1950
Əzizə Cəfərzadə, "Bakı 1501" , Bakı "Yazıçı" 1981
Eldarova E. "İskustvo aşıqov Azerbaydjana", Bakı "İşıq", 1984
Paşa Əfəndiyev "Azərbaycan şifahi xalq ədəbiyyatı", Bakı 1982
Əkbər Yerevanlı "Erməni və Azərbaycan şifahi xalq ədəbiyyatı məqalələri", Yerevan 1958
H.Zərdabi "Seçilmiş əsərləri", Bakı 1960
"Sarı Aşıq", Bakı 1966 – Ə.Axundov
Sarıvəlli O. "Qüdrətli şair, ustad sənətkar", Bakı 1971
Mumtaz S. "El şairləri", I-II cild, Bakı 1935
Namazov Q. "Aşığın sazı və sözü", Bakı 1980
M.H.Təhmasib "Azərbaycan xalq dastanları", Bakı 1972
M.Həkimov "Telli saz ustaları", Bakı 1964
"Azərbaycan aşıq ədəbiyyatı", Bakı 1983
Doktor N.Nərimanov "Əsli və Kərəm", Yeni iqbal, 1916, 21 aprel
"Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", Bakı 1968
"Moskvada Azərbaycan ədəbiyyatı, dekadası", Bakı "Azərnəşr" 1940
"Ədəbiyyat və incəsənət qəzeti", 28 aprel 1961
M.Həkimov "Xalqımızın deyimləri və duyumları", Bakı "Maarif" 1986
S.Vurğun "İnqilab və mədəniyyət" jurnalı, Bakı 1934, № 11-12
"Kommunist" qəzeti, 12-16 mart, 1938
"Sovet Ermənistanı", 7 fevral 1985, "şair Aydın" – H.İsmayıl
"Ədəbiyyat və incəsənət" qəzeti, 12 aprel 1985, "Ağ Aşıq" – Zərifə Rzayeva
"Ədəbiyyat və incəsənət" qəzeti, 12 aprel 1985
"Sovet Ermənistanı", 20 may 1986 – S.Paşayev "Miskin Abdal haralıdır"

“Ədəbiyyat və incəsənət” qəzeti, 9 iyun 1972 – “Bir ömür, dörd dövr”, M.H.Təhmasib
“Sazın və sözün qüdrətli sərrafı”, “Sovet Ermənistanı” qəzeti, 17 noyabr 1981 – Hüseyn İsmayılov
“Həmişəyaşar sənətkar”, Azərbaycan jurnalı № 5, səh. 16-19 və səh. 20-26 – Həmid Araslı
“Bir şeir və onunla bağlı rəvayət”, “Elm və həyat” jurnalı, № 8 1968, səh. 18-20 – Hüseyn Hüseynzadə
“Ədəbiyyat və incəsənət” qəzeti, 28 iyun 1969, səh.14 “Ağ Aşıq” – Hüseyn Hüseynzadə
S.Vurğunun əsərləri V cilddə, Bakı 1972
Qafqaz qəzeti, 1851, №1-2 – Əli Bəyzadə
“Kommunizm yolu”, 24 may 1963
“Aşığın oylaqları” (Göyçə təəssüratı) – Ənvər Hacıyev, Şamil Əsgərov, Məmməd Aslan
“Azərbaycan dilinin orfoqrafiya lüğəti”, Bakı “Elm” 1975,
“Göyçə mahalının kameral təsviri”, Bakı “Elm və təhsil”, 2017 – Nazir Əhmədli
Daşkəndli Sərraf Şiruyə, “Ağlama, bülbülüm, ağlama” – 1994
“Aşıq Nəcəf və Gülüstan dastanı”, səh. 348-372.
”İgid ölər, adı qalar”, - 2002
“Göyçəli Hacı Rəhim dastanı”
Aşıq Nəcəf haqqında, səh. 258-296.
Tərlan Göyçəli, “Göyçə aşıq məktəbi”, - 1998, səh. 92-109
Eldar İsmayıl “Allah amanat” kitabı, 1994
Aşıq Nəcəf poeması, səh. 85-109.
Araz Yaqublu, “Daşkənd aşıqları və şairləri”, 2008.
“Göyçə aşıqları və el şairləri” – Hüseyn İsmayılov, Səda-2006.
“Sazlı-sözlü Göyçə”, - İslam Ələsgərov, Bakı Azərnəşr, 1999
“Vardenis” qəzeti, 29 may 1982, “Maraqlı görüş” – Məhərrəm Xəlilov
“Göyçə məşəli” qəzeti, 2009-IV səh. 10-16.
Daşkəndli Aşıq Nəcəf haqqında
Səlimov Şahbaz (Daşkəndli)
Hüseyn İsmayılov. Aşıq Alı “Əsərləri”. Bakı-2006

## KİTABIN İÇİNDƏKİLƏR:

Ön söz ............................................................................3
Nəticə ...........................................................................11
Klassik aşıqlar haqqında nəzəri məlumatlar
Aşıqlar qurultayı I-II-III haqqında...................................23
Müasir aşıq sənəti haqqında söz
IV aşıqlar qurultayı ..........................................................40
Göyçə sənətkarlar yurdudur
Göyçənin yaranma tarixi..................................................47
Ustad-şəyird ənənələri ....................................................88
Ustad şəyirdlərin deyişməsi ...........................................146
Ağ Aşığın bacısı Ümmilbanu ilə şair
Allahverdinin deyişməsi.................................................150
Ağ Aşığın erməni aşıqları ilə əlaqəsi.............................151
Bədr Allahverdinin erməni aşıqları –
Keşişoğlu ilə deyişmələri ...............................................160
İstanbul Texniki Universitetinin professoru
Elbrus Mahmudoğlunun Göyçə el sənətkarları –
Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı və
Aşıq Ələsgər haqqında nəzəri məlumatları ..................164
Miskin Abdal (1430-1535) – (XV-XVI)............................182
Aşıq Əliqulu (XVII-XVIII) ..............................................188
Ağ Aşıq - şair Allahverdi
(Bədr Allahverdi) – (1755-1860) – (XVIII-XIX) .............191
Şair Məmmədhüseyn (1800-1880) – XIX........................231
Aşıq Alı (1801-1911) – (XIX-XX) ....................................240

Aşıq Ələsgər (1821-1926) – (XIX-XX)..............................281
Aşıq Musa (1830-1912) – XIX-XX əsr..............................314
Daşkəndli Aşıq Nəcəf (1876-1919) –
(XIX-XX) - (Aşıq Ələsgərin şəyirdi)..............................323
Miskin Abdalın şeirləri..............................348
Miskin Abdal haqqında rəvayətlər..............................365
Ağ Aşığın (şair Allahverdinin) şeirləri..............................384
Ağ Aşığın (şair Allahverdinin) lirikası..............................440
Ağ Aşıq haqqında rəvayətlər..............................449
Aşıq Alının şeirləri..............................463
Aşıq Alı haqqında rəvayətlər..............................481
Aşıq Alının Aşıq Yığvalla və Aşıq Əsmərlə
qıfılbənd və deyişmələri..............................492
Ağ Aşıq və Süsənbər dastanı..............................499
El şairlərinin açılmamış dəftərləri..............................535
**Şəkilaltı yazı və tərcümeyi-hallar**
Şeir və ithaflar..............................538
Ədəbiyyat siyahısı..............................588

"Elm və təhsil" nəşriyyatının direktoru:
**N.MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Səma Qasımova
Çapa imzalanmış 28.04.2022
Şərti çap vərəqi 37,5. Sifariş № 23
Kağız formatı 60x84. 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4